AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 89, №1, 2022

ISSN 2409-8817

# ELMİ əsərlər

# НАУЧНЫЕ ТРУДЫ

# RESEARCH PAPERS

İSSN 2409-8817

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# *ELMİ ƏSƏRLƏR*

**cild 89, № 1, 2022**

# *НАУЧНЫЕ ТРУДЫ*

**том 89, № 1, 2022**

# *RESEARCH PAPERS*

**volume 89, № 1, 2022**

**Bakı – 2022**

*Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının qərarı ilə nəşr edilir*

***Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu***
***"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin***
***11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır***

"Elmi əsərlər" 1934-cü ildən çıxır. İldə 6 nömrə nəşr olunur

***Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir***

**Baş redaktor:**
**Akif Abbasov** – *pedaqogika üzrə elmlər doktoru, professor*

**Baş redaktorun müavini:**
**Hümeyir Əhmədov** – *pedaqogika üzrə elmlər doktoru, professor*

**Məsul katib:**
**İlham Cavadov** – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Redaksiya heyəti:**
**Emin Əmrullayev**, kim.ü.fəls.dok. **Rüfət Əzizov**, ped.ü.fəls.d., dos., **Ənvər Abbasov**, kimya ü.f.d. **Rəfiq Qəndilov**, ped.ü.e.d., prof. **Vidadi Xəlilov**, ped.ü.e.d., prof. **Fərahim Sadıqov**, ped.ü.e.d., prof. **Fərrux Rüstəmov**, ped.ü.e.d., prof. **Hikmət Əlizadə**, psixol.ü.e.d., prof. **Ramiz Əliyev**, ped.ü.e.d. **İntiqam Cəbrayılov**, ped.ü.e.d. **Piralı Əliyev**, ped.ü.e.d., prof. **Şahin Tağıyev**, ped.ü.e.d., prof. **Mübariz Əmirov**, ped.ü.e.d., prof. **Novruz Musayev**, siyasi e.ü.f.d. **Anar Nağıyev**, kimya ü.f.d. **İqrar Nəzərov**

**Redaksiya şurası:**
**B.H. Əliyev** (Bakı Dövlət Universitetinin kafedra müdiri, AMEA-nın müxbir üzvü, prof., Azərbaycan)
**A.N. Rəhimov** (Bakı Qızlar Universitetinin təsisçisi, ped.ü.e.d., prof., Azərbaycan)
**N.D. Nikandrov** (Rusiya Təhsil Akademiyasının akademiki, ped.ü.e.d., prof., Moskva)
**A.K.Kusainov** (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.ü.e.d., prof., Alma- Ata)
**O.M. Topuzov** (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.ü.e.d., prof., Kiyev)
**İ.X. Karimova** (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.ü.e.d., prof., Düşənbə)
**V. Briller** (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
**A.A. Şahin** (Hacettepe Universitetinin professoru, Türkiyə)
**A.S. Sidenko** (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.ü.e.d., prof., Moskva)
**N.V. Naumova** (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol.ü.f.d., dosent, Samara)
**Tran Mai Uoc** (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

**Redaksiya:**
İradə Əmirəliyeva, Dinarə Əsədova, Şəfəq Məmmədova, Günel Quluzadə, Şükür Aslanov

**© ARTİ, 2022**

*Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики*

*Учредитель: Институт Образования Азербайджанской Республики*
*Сборник «Научные труды» зарегистрировано приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики*

«Научные труды» издается с 1934 года. Периодичность издания: 6 номеров в год.

*«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики*

**Главный редактор:**
**Акиф Аббасов** – *доктор наук по педагогике, профессор*

**Заместитель главного редактора:**
**Гумеир Ахмедов –** *доктор наук по педагогике, профессор*

**Ответственный секретарь:**
**Ильхам Джавадов –** *доктор философии по педагогике, доцент*

**Редакционная коллегия:**
**Эмин Амруллаев**, д.ф. по хим. **Руфат Азизов**, д.ф. по пед., доц., **Энвер Аббасов**, д.ф. по химии, **Рафиг Гандилов**, д.н. по пед., проф., **Видади Халилов,** док.н. по пед., проф. **Фарахим Садыгов**, д.н. по пед., проф. **Фаррух Рустамов,** д.н. по пед., проф. **Хикмет Ализаде**, д.н. по психол., проф. **Рамиз Алиев,** д.н. по пед. **Интигам Джабраилов**, д.н. по пед. **Пирали Алиев,** д.н. по пед., проф. **Шахин Тагиев,** д.н. по пед., проф. **Мубариз Амиров,** д.н. по пед., проф**. Новруз Мусаев,** д.ф. по полит. н. **Анар Нагиев,** д.ф. по химии **Игьрар Назаров**

**Редакционный совет:**
**Б.Г. Алиев** (зав.кафед. Бакинского Государственного Университета, чл.-корр. НАНА, проф., Азербайджан)
**А.Н. Рагимов** (учредитель Бакинского Университета для Девушек, д.н. по пед., проф., Азербайджан)
**Н.Д. Никандров** (акад. РАО, д.н. по пед., проф., Москва)
**А. К. Кусаинов** (президент Казахстанской АПН, д.н. по пед., проф., Алма-Ата)
**О.М. Топузов** (вице-президент НАПН Украины, директор Института Педагогики, д.н. по пед., проф., г. Киев)
**И.Х. Каримова** (вице-президент АО Таджикистана, д.н. по пед., проф., Душанбе)
**В. Бриллер** (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
**С. П. Ломов** (зав.кафед. Московского ПГУ, акад. РАО, д.н. по пед., проф., Москва)
**А.А. Шахин** (профессор Университета Хаджеттепе, Турция)
**А.С. Сиденко** (вед. науч. сотруд. Академии Социального Управления, д.н. по пед., проф., Москва)
**Н.В. Наумова** (зав. кафед. Самарской Гуманитарной Академии, д.ф.. по психол., Самара)
**Tran Mai Uoc** (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)

**Редакция:**
Ирада Амиралиева, Динара Асадова, Шафаг Мамедова, Гюнель Гулузаде, Шукюр Асланов

**© ИОАР, 2022**

*Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan*

*Founder: Institute of Education of the Republic of Azerbaijan*
*The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan*

"Research Papers " has been published since 1934. Frequency of publication: 6 issues per year.

*"Research Papers " are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan*

**Editor in Chief** :
**Akif Abbasov** – doctor of sciences in pedagogy, professor

**Deputy Editor in Chief:**
**Humeyir Ahmadov** – doctor of science in pedagogy, professor

**Executive Secretary**:
**Ilham Javadov** – doctor of philosophy in pedagogy, associate professor

**Editorial board:**
**Emin Amrullaev,** Ph.D. in chemistry **Rufat Azizov,** Ph.D. in ped**.,** assoc.- prof. **Anvar Abbasov, Ph.D. in chemistry Rafig Gandilov,** dok.of sciences in ped., prof. **Vidadi Khalilov,** dok.of sciences in ped., prof. **Farahim Sadigov,** dok.of sciences in ped., prof. **Farrukh Rustamov,** dok.of sciences in ped., prof. **Hikmet Alizade,** dok.of sciences in psychology, prof. **Ramiz Aliyev,** dok.of sciences in ped. **Intigam Jabrailov,** dok.of sciences in ped. **Pirali Aliyev,** dok.of sciences in ped., **prof. Shahin Tagiyev,** dok.of sciences in ped., prof. **Mubariz Amirov,** dok.of sciences in ped., prof. **Novruz Musaev,** Ph.D. in political sciences **Anar Nagiyev,** Ph.D. in chemistry **Igrar Nazarov**

**Editorial Council:**
**B.H. Aliyev**, Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doctor of sciences in psychology, prof., Azerbaijan)
**A.N. Rahimov** (founder of Baku University for Girls, doctor of sciences in pedagogy, prof., Azerbaijan)
**N. D. Nikandrov** (Academician of the Russian Academy of Education, doctor of pedagogical sciences, prof., Moscow)
**A.K. Kusainov** (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of pedagogical sciences, prof., Alma-Ata)
**O.M. Topuzov** (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of pedagogical sciences, prof., Kiev)
**İ.Kh.. Karimova** (Vice-President of Academy of Education of Tajikistan, doctor of pedagogical sciences, prof., Dushanbe)
**B. Briller** (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
**S.P. Lomov** (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of pedagogical sciences, prof., Moscow)
**A.A. Ahin** (professor at Hacettepe University, Turkey)
**A.S. Sidenko** (Leading researcher of the Academy of Social Management, doctor of pedagogical sciences, prof., Moscow)
**N.V. Naumova** (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
**Tran Mai Uoc** (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

**Editorial staff:**
Irada Amiraliyeva, Dinara Asadova, Shafag Mammadova, Gunel Guluzade, Shukur Aslanov

**© IERA, 2022**

## *BAŞ REDAKTORDAN*

**UOT 37.**

***Akif Nurağa oğlu Abbasov***
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
*https://orcid.org/ 0000-0002-9210-7141*
*https://doi.org/10.5281/zenodo.6444842*

# AZƏRBAYCANDA PEDAQOGİKA TARİXİNİN İLK TƏDQİQATÇISI: ƏHMƏD YUSİF OĞLU SEYİDOV

***Акиф Нурага оглу Аббасов***
*доктор наук по педагогике, профессор, заслуженный учитель,*
*ученый секретарь Института Образования Азербайджанской Республики*

# ПЕРВЫЙ ИССЛЕДОВАТЕЛЬ ИСТОРИИ ПЕДАГОГИКИ В АЗЕРБАЙДЖАНЕ: АХМЕД ЮСИФ ОГЛУ СЕИДОВ

***Akif Nuragha Abbasov***
*doctor of sciences in pedagogy, professor, honored teacher*
*scientific secretary at the Institute of Education of the Republic of Azerbaijan*

# THE FIRST RESEARCHER OF THE HISTORY OF PEDAGOGY IN AZERBAIJAN: AHMAD YUSIF SEYIDOV

**Xülasə**. Professor Əhməd Seyidov məktəb tarixinin və pedaqoji fikir tarixinin görkəmli nümayəndəsi idi. O, həm xaricdə, həm keçmiş ittifaqda, eyni zamanda Azərbaycanda məktəblərin yaranması və inkişafı məsələlərini tədqiq etmişdir. Bundan başqa, pedaqoji fikir nümayəndələrinin məktəb, təlim, tərbiyə, təhsil və məktəbin idarə olunması məsələlərini öz əsərlərində diqqətə çatdırmışdır.
***Açar sözlər**: pedaqogika tarixi, məktəb tarixi, pedaqoji fikrin inkişafı, pedaqoji fikir məktəbin idarə olunması*

**Резюме**. Профессор Ахмед Сеидов был видным представителем истории школы и педагогической мысли. Он исследовал вопросы создания и развития школ как за рубежом, так и в бывшем Советском Союзе, а также в Азербайджане. Помимо этого, в своих произведениях он освещал задачи представителей педагогической мысли относительно школы, обучения, воспитания, образования и управления школой.
***Ключевые слова**: история педагогики, история школы, развитие педагогической мысли, педагогическая мысль, управление школой*

**Summary**. Professor Ahmed Seyidov was a prominent representative of the thought of school history and the history of pedagogical thought. He studied the creation and development of schools both abroad and in the former Soviet Union, as well as in Azerbaijan. In addition, in his works he covered the issues of school, teaching, education, upbringing and school management.
***Key words**: history of pedagogy, school history, development of pedagogical thought, pedagogical thought, school management*

Əhməd Yusif oğlu Seyidov Zaqafqaziyada ilk elmlər doktorlarındandır. Qoru Müəllimlər Seminariyasının (1917) və Azərbaycan Dövlət Darülfününun (1930) məzunu, pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi idi. Pedaqogika tarixinin tədqiqi ilə məşğul olmuşdur.

İlk əvvəllər Qazax qəzasının Əli Bayramlı kəndində, Lənkəran və Qazaxda müəllim, inspektor, Lənkəran qəza xalq maarif şöbəsinin müdiri, respublika Xalq Maarif Komissarlığında müfəttiş işləmiş, 1941-1949-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun rektoru, sonralar 40 il həmin institutda (hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti) Pedaqogika kafedrasının müdiri olmuşdur. Hacı Kərim Sanılı ilə ilk "Əlifba" dərsliyini yazmışdır.

Hələ ötən əsrin əvvəllərində yaşadığı kənddə – Aslanbəylidə öz evlərinin ikinci mərtəbəsində məktəb təşkil etmiş, oğlanları və qızları təhsilə cəlb etmişdi. Məktəbi açmaqla anasının arzusu, istəyi də yerinə yetmişdi. Anası deyirdi: "Bala, evimizin bir otağını sinif elə. Qoy kənd qızlarımız gəlib burda dərs alsınlar" (1, s. 4).

Namizədlik dissertasiyası Abbasqulu ağa Bakıxanovun pedaqoji irsinin araşdırılmasına aid idi: "A.Bakıxanovun pedaqoji fikirləri" (1930), 1947-ci ildə isə "Azərbaycan pedaqoji fikrinin əsas nümayəndələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Ə.Y. Seyidov istər müəllim kadrlarının, istərsə də pedaqoji elmlər üzrə elmi kadrların hazırlanması sahəsində səmərəli fəaliyyət göstərmişdir. Ali məktəb auditoriyasında tələbələrə pedaqogikadan və pedaqogikanın tarixindən uzun illər mühazirələr oxumuşdur. Ötən əsrin qırxıncı illərindən 1977-ci ilədək onun elmi rəhbərliyi altında onlarla, daha doğrusu, yüzdən çox elmlər doktoru və elmlər namizədi yetismişdir.

Əhməd Seyidov Azərbaycanın görkəmli pedaqoqları, professorlar Nurəddin Kazımovun, Hüseyn Əhmədovun, Əjdər Ağayevin, Əliheydər Həşimovun, Sabir Şəfiyevin, Sərdar Quliyevin, Abbas İsmayılovun, İramin İsayevin və b. elmi rəhbəri olmuşdur.

Bundan başqa, o, rəsmi opponent kimi də elmi kadrların yetişməsinə öz töhfəsini vermişdir. Sonralar respublikamızda 23 il Maarif naziri olmuş Mehdi Mehdizadənin, professorlar Ağaməmməd Abdullayevin, Ziyəddin Göyüşovun, Şövqü Ağayevin, Bəşir Əhmədovun dissertasiyalarının müdafiəsində rəsmi opponent kimi öz rəyini yazaraq çıxış etmişdir.

Onu nəinki Azərbaycanda, həmçinin keçmiş SSRİ məkanında da yaxşı tanıyırdılar. İttifaqın pedaqoji ictimaiyyəti, pedaqoq-alimlər onun sayəsində milli irsimizə bələd olmuşdular. Moskvada akademiklərdən Y.M. Medınski, N.K. Qonçarov, D.İ. Konstantinov, P.İ. Piskunov, P.N. Şimbiryev, A.O. Makovelski və bir çox başqaları Əhməd Seyidovun pedaqoji yaradıcılığını yüksək dəyərləndirirdilər.

"Azərbaycan pedaqoji fikrin əsas nümayəndələri" mövzusunda doktorluq dissertasiyası yazan və müvəffəqiyyətlə müdafiə edən Ə.Y. Seyidov "Pedaqogika tarixi" dərsliyini ali məktəb tələbələrinin, müəlliflərin istifadəsinə vermişdir. Bu dərslik 60 ilə yaxındır ki, pedaqoq alimlərin, müəllimlərin stolüstü kitabıdır. Həmin dərslikdən faydalanaraq maariflənir, öyrənir, tələbə auditoriyasında mühazirə oxuyurlar.

Haqqında danışılan dərslikdə, ilk növbədə, xarici ölkələrin pedaqogika tarixinə nəzər salınır. İbtidai cəmiyyətdə tərbiyə məsələləri, quldarlıq və feodalizm cəmiyyətlərində tərbiyə və məktəb məsələləri diqqət mərkəzinə gətirilir. Y.A. Komenskinin, C. Lokkun, J.J. Russonun, XVIII əsr fransız materialistlərinin pedaqoji görüşləri; XVIII əsr Fransa burjua inqilabı dövründə maarif məsələləri; İ.H. Pestalotsi və İ.F. Herbartın pedaqoji nəzəriyyələri, A. Disterveq və R. Ouenin pedaqoji fəaliyyəti və pedaqoji görüşləri, K. Marks və F. Engelsin tərbiyə haqqında nəzəriyyələri üzərində dayanılır. Eyni zamanda, XIX əsrin sonu və XX əsrin əvvəllərində Qərbi Avropada Və ABŞ-da pedaqoji fikir; Asiya, Afrika v. Latın Amerikasında azad olunmuş xalqların maarifi diqqət mərkəzinə gətirilir.

Dərsliyin II bölməsi "Rus və rus olmayan xalqların pedaqogika tarixi" adlanır.

Bu bölmədə XVIII əsrə qədər Rusiyada tərbiyə və pedaqoji fikir; N. Gəncəvinin və M. Füzulinin təlim-tərbiyə haqqında fikirləri; XVIII əsrdə Rusiyada maarif, məktəb və pedaqoji fikir; XIX əsrin birinci yarısında Rusiyada məktəb və maarif məsələləri; XIX əsrin birinci yarısında Zaqafqaziyada pedaqoji fikir (A.A. Bakıxanov və b.); V.Q. Belinski və A.İ. Gertsenin pedaqoji nəzəriyyələri; XIX əsrin 60-cı illərində Rusiyada ictimai pedaqoji hərəkat; N.Q. Çernışevskinin və N.A. Dobrolyubovun pedaqoji nəzəriyyələri; K.D. Uşinskinin pedaqoji görüşləri; L.N. Tolstoyun pedaqoji fəaliyyəti və pedaqoji görüşləri; XIX əsrin 60-cı illərində məktəblərin islahatı; XIX əsrin 70-80-ci illərində pedaqoji fikir və məktəb; İ.N. Ulyanov, N.F. Bunakov və P.F. Lesqafın pedaqoji görüşləri; XIX əsrin

ikinci yarısında Zaqafqaziyada pedaqoji fikir (M.F. Axundov və Y.S. Qoqebaşvili); XIX əsrin axırlarında və XX əsrin əvvəllərində bolşeviklərin maarif və məktəb uğrunda mübarizəsi; XIX əsrin axırı və XX əsrin əvvəllərində Rusiyada məktəb (1890-1906).

III bölmə "Sovet məktəbinin və pedaqogikasının əsasları" adlanır. Bu bölmədə V.İ. Leninin kommunist tərbiyəsi, maarif və məktəb haqqında fikirləri, N.K. Krupskayanın, A.S. Makarenkonun pedaqoji görüşləri; 1921-1929-cu, 1930-1941-ci, 1941-1945-ci, 1946-1966-cı illərdə məktəb və pedaqogika məsələlər haqqında danışılır.

**Əsərlərindən seçmələr**:

***1. Seyid Əzim Şirvani təlim-tərbiyə haqqında*** *(1835-1888).*

"Seyid Əzim təlimin düzgün təşkilinə yüksək qiymət vermişdir. O, köhnə məktəbin mexaniki əzbərləmə ilə məşğul olduğuna, gənc nəslə geniş bilik vermədiyinə və yüksək əxlaq tərbiyə etmədiyinə görə ciddi tənqid edirdi. o, aydın başa düşmüşdü ki, dövrünün məktəblərinin miqdarı olduqca azdır, onun sistemi, təşkilat forması, işinin məzmun və üsulları əməkçi xalqın mənafeyinə nəinki uyğun gəlmir, hətta tamamilə onun ziddinədir. Məhz buna görə də o, yeni məktəb, üsuli-cədid məktəbinin tərəfdarı idi.

Seyid Əzim xalq məktəbinə, ibtidai məktəbə xüsusi fikir vermişdi. Azərbaycan xalqının əksəriyyətinin savadsız olduğunu nəzərə alan Seyid Əzim birinci növbədə xalq məktəbləri şəbəkəsinin genişləndirilməsini tələb etmişdir.

Seyid Əzim təlimin Azərbaycan dilində aparılmasını tələb edirdi. Bu həm siyasi, həm də pedaqoji cəhətdən çox vacib idi. Bu fikir XIX əsrin 70-ci illərində çarizmin qeyri-rus millətlərini ruslaşdırma siyasətinin əleyhinə idi.

Seyid Əzim dünyəvi təhsil tərəfdarı olmuş, məktəbi dinin və ruhanilərin təsirindən xilas etməyə çalışmışdır" (2, s. 277).

***2. Zərdabinin pedaqoji fəaliyyəti*** *(1837-1907).*

"Zərdabi məktəbə aydın və müəyyən bir məqsədlə, bütün çətinliklərə dözərək, son nəfəsinə qədər xalqa xidmət etmək və onu maarifləndirmək üçün gəlmişdi. Dini fanatizmin, xurafatın hökm sürməsi şəraitində bu ağır vəzifəni yerinə yetirmək yalnız uşaqları oxutmaq deyil, həm də xalqı maarifləndirmək Zərdabidən yüksək ideyalılıq və özünün haqq işinə inam, hərtərəfli bilik, öz işinə dərin məhəbbət, xalqa sədaqət, təşkilatçılıq qabiliyyəti və s. tələb edirdi.

Zərdabi, sözün geniş mənasında, bir pedaqoq kimi bu keyfiyyətlərə malik idi. Zərdabi tədris işlərini elmi işlə, bacarıqla bağlamağı və təbiət elmini geniş xalq kütləsi arasında təbliğ edən yaradıcı alim-pedaqoq idi. Zərdabiyə görə, təhsil, təlim, elm və maarif köhnə həyatı dəyişdirməyə xidmət etməlidir. Zərdabi özünün şifahi və yazılı təbliğatında gənc nəslin əxlaq, vətənpərvərlik, vətəninə və xalqına dərin məhəbbət tərbiyəsinə böyük əhəmiyyət (2, s. 279) verirdi.

Zərdabi əxlaq tərbiyəsində əməyin böyük rolunu göstərmişdir. ...Zərdabi fiziki tərbiyəyə də böyük əhəmiyyət vermişdir. Zərdabinin fikrincə, fiziki tərbiyə pedaqoji problem olmaqla bərabər, həm də ictimai problemdir. o, fiziki tərbiyəni harmonik inkişaf etmiş şəxsiyyətin yetismәsində mühüm ünsür hesab edir.

Zərdabi qadın təhsilinə böyük əhəmiyyət vermişdir. O, Azərbaycan qadınlarının maariflənməsini həm onun cəmiyyətdə öz hüququ uğrunda mübarizəsi üçün, həm də gənc nəslin təlim və tərbiyəsinin yaxşılaşdırılmasına ciddi təsir göstərən mühüm və qüdrətli amil hesab etmişdir. Zərdabi Bakıda açılmış qız məktəbi üçün əsasnamə düzəltmişdi. ...Zərdabinin təşəbbüsü və fəal iştirakı ilə Bakı qızlar məktəbi yanında qızlardan müəllim hazırlayan illik pedaqoji kurs təşkil edilmişdi" (2, s. 280-181).

***3. Nəriman Nərmanovun pedaqoji mülahizələri*** *(1870-1925).*

"Nərimanov Gürcüstan və Azərbaycan məktəblərində zəhmətkeş balalarına nana dilində dərs vermiş, onların elm öyrənmələrinə çalışmışdır. ...Nərimanovun bədii əsərləri və publisistik məqalələri xaliqi oyatmış, cəhalətə, nadanlığa qarşı mübarizəyə ruhlandırmış (2, s. 308), gənc nəslin elm öyrənməsinə, təhsil almasına böyük kömək etmiş və istiqamət vermişdir.

Nərimanovun xidmətlərindən biri budur ki, onun yazdığı dərsliklər dövrünün ən yaxşı dərsliklərindən olmuş, məktəblərimiz uzun müddət bu dərsliklərdən istifadə etmişdir.

Nərimanov qadın azadlığı, qadın təhsili uğrunda mübarizə aparmış, ... Azərbaycanda qız məktəblərinin açılması və qızların təhsilə cəlb edilməsində böyük işlər görmüşdür.

Azərbaycanda pedaqoji fikrin və xalq maarifinin inkişafı tarixinin bütöv bir dövrü Nəri-

manovun adı ilə bağlıdır. Nərimanov o dövrün ən mühüm məsələlərinə toxunur və özünəməxsus ustalıqla mütərəqqi fikirləri yayırdı.

Nərimanovun uşaq şəxsiyyətinin inkişafında tərbiyənin roluna verdiyi yüksək qiymət dövrünün qabaqcıl pedaqoqlarının fikirləri ilə səsləşir və bir sıra məsələlərdə daha irəli gedirdi.

Ana dili, onun tədrisi və tərəqqisi, həmçinin ana dilinin tərbiyəvi rolu məsələsi Nərimanovun pedaqoji fəaliyyətində mərkəzi yerlərdən birini tutur.

Nərimanov gənc nəslin təlim və tərbiyəsi işində müəllimin roluna yüksək əhəmiyyət vermiş və bu sahədə qiymətli fikirlər söyləmişdir" (2, s. 309).

**Əsərləri:** 1. Kütləvi məktəblərdə ekskursiya. 2. A. Bakıxanovun fəlsəfəsi onun pedaqoji sisteminin əsasıdır. 3. A. Bakıxanovda əxlaq tərbiyəsi və təhsil. 4. S.Ə. Şirvani müəllimin rolu haqqında. 5. XIX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikrin inkişafı. 6. Pedaqogika tarixi (dərslik). 7. K.D. Uşinskinin həyatı, pedaqoji fəaliyyəti. 8. K.D. Uşinskinin didaktik görüşləri. 9. XVIII-XIX əsrlərdə Azərbaycanda xalq maarifinin təşkilinin oçerkləri. 10. Təlimin sinfi mahiyyəti. 11. A. Bakıxanovun fəlsəfəsi onun pedaqoji sisteminin əsasıdır. 12. S.Ə. Şirvani müəllimin rolu haqqında. 13. A. Bakıxanovda əxlaq tərbiyəsi və təhsil. 14. XIX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikrin inkişafı. 15. Əxlaq tərbiyəsi məsələləri. 16. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən.

**Problemin aktuallığı**. Pedaqogika tarixindən araşdırmalar aparmaq aktuallığı ilə seçilir, pedaqoji fikir nümayəndələrinin elmi ideyaları ilə tanış olmağa şərait yaradır.

**Problemin yeniliyi**. Azərbaycanda pedaqogika tarixinin ilk tədqiqatçısı Əhməd Yusif oğlu Seyidovun pedaqoji və elmi fəaliyyəti diqqətə çatdırılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə pedaqogika tarixindən tədqiqat aparan doktorantlar, dissertantlar və magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Eminov, A.İ. Görkəmli pedaqoq, yorulmaz müəllim / bax: "Ə.Y. Seyidov. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən" kitabında. -Bakı: Maarif, -1987, -301 s.
2. Seyidov, Ə.Y. Pedaqogika tarixi: Ali məktəblər üçün dərslik. -Bakı: Maarif, -1968, -418 s.


**E-mail:** prof.akif@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.ü.elm.dok., prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub:** 24.01.2022.

## *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*

**UOT 371**

***Aydın Əhəd oğlu Əhmədov***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*
*https://orcid.org/0000-0003-2550-2296*
*https://doi.org/10.5281/zenodo.6444953*

# ÜMUMİ TƏHSİL MƏSƏLƏLƏRİNƏ BİR NƏZƏR

***Айдын Ахад оглу Ахмедов***
*заведующий директора Института Образования Азербайджанской Республики*

# ВЗГЛЯД НА ОБЩЕОБРАЗОВАТЕЛЬНЫЕ ВОПРОСЫ

***Aydin Ahad Ahmadov***
*deputy of the director of the Institute of Education of the Republic of Azerbaijan*

# LOOKING AT GENERAL EDUCATIONAL ISSUES

*Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir.*
*Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir*
*və ən müasir tələblərə cavab verməlidir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Xülasə**. İbtidai təhsilə cəlb edilmiş uşaqların sadə tərbiyə elementlərinə nə dərəcədə yiyələnmələri məktəb rəhbərlərini və müəllimləri ilk növbədə düşündürməlidir. Çünki təhsil məhz tərbiyədən başlanır, şəxsiyyəti formalaşdıran cəhətlərin əsası bu mərhələdə qoyulur.
***Açar sözlər***: *təhsil, ümumi təhsil, təhsil məsələləri, təhsil sistemi, təhsilə yanaşma*

**Резюме**. О том, насколько дети, вовлеченные в начальное образование, усвоили основные элементы образования, должны думать в первую очередь руководители школ и учителя. Поскольку образование начинается с воспитания, на этом этапе закладывается фундамент личности.
***Ключевые слова***: *образование, общее образование, вопросы образования, система образования, подход к образованию*

**Summary.** The extent to which children involved in primary education have mastered the basic elements of education should be thought first of all by school leaders and teachers. Since education begins with upbringing, at this stage the foundation of personality is laid.
***Key words***: *education, general education, education issues, education system, approach to education*

Yaxın keçmişə nəzər salsaq, ötən əsrin sonlarından bugünümüzə qədər ölkəmizdə ümumi təhsilin infrastrukturunun, maddi-texniki və tədris bazasının müasir tələblər səviyyəsində inkişafı üzrə ciddi tədbirlər görülmüşdür. Bununla belə, cəmiyyətdə, pedaqoji aləmdə ümumi təhsilin məzmunu ilə bağlı məsələlər aktuallıq cəhətdən daha çox diqqət mərkəzində olmuş, beynəlxalq və yerli səviyyələrdə təhlillər aparılaraq təkliflər hazırlanmışdır. Bu proses hazırda da davam edir.

Təhsilin məzmununa belə həssas münasibət təbii xarakter daşıyır, çünki məzmun bilavasitə təhsilin özü deməkdir, məktəbin fəaliyyətinin ana xəttini, özəyini təşkil edir. Şərt rəqabətin mövcud olduğu qloballaşan indiki dünyada *"yoxsul cəmiyyət"*in yaranmaması, *"mənəvi iflas"*ın baş verməməsi, insanın həyatda *"artıq adam"*a çevrilməməsi üçün təhsilin, təhsilliliyin necə böyük əhəmiyyət daşıdığını sübut etməyə ehtiyac qalmır. Bu gün təhsil məzmun cəhətdən tərbiyə və təlim komponentlərinin qırılmaz bağlılığından ibarət olmaqla, vahid proses kimi, ilk növbədə, fərdin cəmiyyət üçün vətənpərvər, tələbyönlü, mədəni-intellektual səviyyəli vətəndaşa çevrilməsinə istiqamətlənmiş dövlət əhəmiyyətli şərəfli bir missiyanı yerinə yetirən dəyər kimi qəbul olunur.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra dövrün tələblərinə görə təhsil sahəsində keyfiyyət dəyişiklikləri aparılması zərurəti yarandıqda Ulu öndər Heydər Əliyevin proqram xarakterli: *"Biz bu islahatları həyata keçiririk ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın,"* – fikri ümumi təhsilin məzmunu üzrə həyata keçiriləsi islahatların ideya istiqamətini və mahiyyətini müəyyənləşdirdi. *"Hafizə, yaddaş məktəbindən təfəkkür, düşüncə məktəbinə keçid"* ideyası bütövlükdə ümumi təhsilə, ümumi təhsilin idarəolunmasına, onun səviyyələri çərçivəsində tədris edilən fənlərin məqsəd və vəzifələrinə münasibəti əsaslı şəkildə dəyişdi, məzmunun nəticəyönlük, şagirdyönlük, şəxsiyyətyönlük, inteqrativlik kimi didaktik prinsiplərə uyğun hazırlanmış dövlət standartları[1] əsasında qurulmasına real zəmin yaratdı.

Qeyd edilməlidir ki, ümumi təhsildə məzmun islahatlarının başlanmasından indiyədək keçilən yol heç də asan olmamış, bəzi hallarda maneələrlə üzləşmişdir. Bu da təbii idi, çünki bütün dövrlərdə yeniliklər əvvəl-əvvəl etirazlara, ziddiyyətlərə məruz qalmaqla çətinliklə qəbul olunmuşdur.

Bununla belə, yaxşı haldır ki, hazırda təhsil orqanlarında, məktəblərimizdə çalışan pedaqoji heyətin çox hissəsinin peşəkar dünyagörüşü ümumi təhsilin məqsəd və vəzifələrinə, təhsilin məzmununa verilən müasir yanaşmalar əsasında formalaşmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"*nda ümumi təhsil pilləsində şagird və məzunların keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ sayılmaqla yanaşı, şəxsiyyətin hərtərəfli formalaşdırılması prioritet hesab edilmişdir. Eyni zamanda, Dövlət Strategiyasında şagirdlərin qazandığı bilik və bacarıqların effektiv və səmərəli tətbiqi ilə onların fəaliyyətlərinin gözlənilən real nəticəyə çevrilməsinə nail olmaq üçün məhz səriştə əsaslı ümumi təhsil standartları və kurikulumlarının[2] hazırlanması tələbi irəli sürülmüş və Nazirlər Kabinetinin ümumi təhsilin dövlət standartları ilə bağlı təsdiq etdiyi növbəti sənəddə *(29.IX 2020 №361)* təhsilalanlarda formalaşdırılması zəruri sayılan səriştələr ayrıca qeyd olunmuşdur ki, bu da tədris proqramlarının praktik yönümünü gücləndirməklə onların daha təkmil məzmunda hazırlanmasında didaktik zəminə çevrilə bilər.

*"Dövlət Strategiyası"*nda şəxsiyyətin hərtərəfli formalaşmasının prioritet kimi irəli sürülməsi heç də təsadüfi deyil, əslində həyatı tələbdir, mənəviyyat məsələsidir. İnsanın əxlaqı, tərbiyəsi cəmiyyətdə, ailədə, işlədiyi müəssisədə həmişə ən vacib keyfiyyət kimi qiymətləndirilib. Bilikli şəxs, alim, sənətkar, adi peşə yaxud yüksək vəzifə sahibi xalqın gözündə o vaxt dəyərli olur ki, həm də insani-mənəvi keyfiyyətlərə malik olsun.

Bu mənada, xüsusilə ibtidai təhsilə cəlb edilmiş uşaqların sadə tərbiyə elementlərinə nə dərəcədə yiyələnmələri məktəb rəhbərlərini və müəllimləri ilk növbədə düşündürməlidir. Çünki təhsil məhz tərbiyədən başlanır, şəxsiyyəti formalaşdıran cəhətlərin əsası bu mərhələdə qoyulur. Böyük şairimiz M.Ə. Sabir demişkən: *"Hər işin ibtidası tərbiyədir"*.

---

[1] *2006-2020-ci illərdə Azərbaycan Respublikasının Nazirlər Kabineti ümumi təhsilin standartları ilə bağlı biri digərinin təkmilləşdirilmiş variantı olan 3 qərar qəbul etmişdir:*
*-Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum), 30 oktyabr 2006-cı il, №233.*
*-Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumu), 3 iyun 2010-cu il, №103.*
*-Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları, 29 sentyabr 2020-ci il, №361.*

[2] *Kurikulum beynəlxalq pedaqoji termin olmaqla təhsil planı anlayışı ilə eyni məna daşıyır. Kurikulumun "üsul", "metod" adlandırılması yalnış təsəvvürün nəticəsidir.*

Məlumdur ki, məktəbə gələnə qədər uşağın xarakterinə ailədə, yaşadığı ətraf mühitdə, insan münasibətlərində gördüyü nə varsa təsirsiz ötüşmür. Təbii ki, bunlar müsbət də ola bilər, mənfi də. Sağlam ruhlu ailələrdə böyüyən uşaqlar, şübhəsiz, tədris prosesinə tez qoşula və uğur qazana bilirlər. Əks halda, arzuolunmaz həyat tərzi keçirən ailələrin müxtəlif xarakterli uşaqlarının yanlış cəhətlərini islah etmək sadə məsələ olmasa da, əslində məktəb üçün bundan vacib vəzifə yoxdur. Bu işdə məktəb psixoloqu köməyə gələ bilər, lakin peşəkar səviyyəli psixoloq kadrları ilə təminatda ciddi problem yaşanmaqdadır, bir sıra məktəblərdə isə psixoloq tək olduğundan nəzərdə tutulan işləri yerinə yetirməkdən çox uzaqdır. Yeri gəlmişkən, yaxşı olardı ki, pedaqoji ali təhsil müəssisələrinin tələbələrinə psixoloji xidmətlə bağlı xüsusi kurs keçilsin və məzun olarkən onlara ixtisaslarından asılı olmayaraq, həm də diploma əlavə kimi xüsusi formada sertifikat verilsin. Uşaq psixologiyasını bilməsi müəllimə qarşı tələb olaraq irəli sürülürsə, nə üçün bu, rəsmiləşdirilməsin?! İbtidai siniflərə müəyyən edilmiş qaydada *"müəllim köməkçisi"* ayrılması isə, yəqin, hələ uzun müddət arzu olaraq qalacaqdır.

Şəxsiyyətin formalaşdırılmasından danışırıqsa, digər vacib amillərə də diqqət yetirilməlidir. Bunlar, əsasən, Vətən, torpaq, millət təəssübü, nitq mədəniyyəti, estetik və fiziki mədəniyyətin, xüsusilə, məsuliyyət mədəniyyətinin aşılanması ilə əlaqədardır. Əgər hər hansı bir insanı şəxsiyyətə nümunə gətiririksə, adətən, bu ifadələri işlədirik: Vətəni, milləti sevəndir, əxlaqlıdır, mənəviyyatlıdır, ailəcanlıdır, məsuliyyətlidir, məlumatlıdır, humanist və ədalətlidir, kömək əli uzadandır və s. Qeyd etdiyimiz bu keyfiyyətlərin əksəriyyətinin təbliğ və təşviqində tariximizin, ədəbiyyatımızın, xüsusilə də mütaliənin, habelə görkəmli insanların həyat yolunun öyrənilməsinin müstəsna rolu vardır. Fənn proqramları *(kurikulumları)* hazırlanarkən bu amillərə diqqət yetirilməsinə çalışılmışdır. Məsələn, "Ədəbiyyat" fənni sözə və söz sənətinə həssas münasibət aşılanmasına, obrazlı təfəkkürün təşəkkülünə, uşaqlarda mütaliə mədəniyyəti formalaşdırmaqla onların qəlb dünyasına, həyatı dərk etmələrinə, yaxşını pisdən ayırmalarına, eləcə də söz ehtiyatının zənginləşməsinə, şifahi və yazılı nitqlərinin ifadəliliyinə ciddi müsbət təsir göstərir. Bütün fənn kurikulumlarında şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına yardım məqsədilə yeri gəldikcə *"izah edir", "şərh edir", "təqdimatlar edir", "münasibət bildirir"* kimi tələblər irəli sürülür. Artıq hamı aydın şəkildə görür ki, dil dərsləri, hər şeydən əvvəl, doğma dildə yazılı və şifahi nitq bacarıqlarının inkişafına, dilin üslubi zənginliklərinin mənimsənilməsinə, "Riyaziyyat" hadisələrin məntiq yolu ilə dərkinə, qeyri-standart düşüncə tərzinin yaranmasına, intellektual inkişafa, öyrənilənlərin real həyatda tətbiqi və təhlil qabiliyyətinin gücləndirilməsinə, incəsənət fənləri *(musiqi, təsviri incəsənət)* estetik dünyagörüşün, bədii-estetik zövqün formalaşmasına, görkəmli incəsənət xadimləri barədə təsəvvür və məlumatların genişlənməsinə, "Fiziki tərbiyə" sağlam həyat tərzinin normaya çevrilməsinə, birgəfəaliyyət, dözümlülük, iradəlilik keyfiyyətlərinin yaranmasına xidmət edir. Məzmun baxımından Azərbaycan tarixi, Azərbaycan coğrafiyası dərslərinin pedaqoji ictimaiyyət tərəfindən *"vətəndaşlıq dərsləri"* adlandırılması heç də təsadüfi deyildir. Yəni, hər bir fənn məzmun etibarı ilə şagirdlərə lazım olan, ölçülüb-biçilmiş zəruri biliklərlə yanaşı, həm də həyati bacarıqlar vasitəsilə konkret dəyərlər aşılayır ki, bu da məzmunun şəxsiyyətyönlüyünü şərtləndirir.

Yuxarıda qeyd etdiyimiz kimi, *"Dövlət Strategiyası"*na görə, orta məktəb şagirdləri və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması bu gün də qarşıda duran aktual məsələdir. Etiraf edək ki, həmin problem təhsil mütəxəssislərini həmişə düşündürmüş və indi də düşündürməkdədir. Bəs, keyfiyyət göstəricilərini necə, hansı vasitələrlə yüksəltməli?! Zənnimcə, bu sualdan əvvəl digər bir suala cavab axtarmaq daha məqsədəmüvafiq olardı: şagird *(şagirdlər)* *"Təhsil haqqında"* Qanunda icbari hesab edilən ümumi orta təhsilin tədris planlarındakı bütün fənlərdən eyni keyfiyyət göstəricilərinə nail ola bilərmi? Təcrübə göstərir ki, bu mümkün olmayan bir məsələdir. Buraxılış imtahanlarının nəticələrinə nəzər salmaq kifayətdir ki, real mənzərə aydın görünsün, həm də sinif jurnallarına baxarkən şagirdlərin xeyli hissəsinin, əsasən də riyaziyyat, fizika, kimya, biologiya fənlərindən aşağı qiymətlərlə oxuması diqqəti cəlb edir. Burada bir neçə səbəb ola bilər. Birincisi, müəllimlərin savadsızlığı, səriştəsizliyi ucbatından şagirdlərin

keyfiyyətli ibtidai təhsil almaması, ikincisi, ibtidai təhsil prosesində onların potensial imkanlarına, fənn sahələrinə olan meyl-maraqlarına, istedadlarına uyğun diferensasiya edilməməsi. Heç kimə sirr deyil ki, təcrübəli, savadlı, peşəkar ibtidai sinif müəllimi tərəfindən qoyulan təməl, bünövrə təhsilin növbəti səviyyələrində şagirdlərin keyfiyyət göstəricilərinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bəzən belə hallarla rastlaşırıq: valideyn övladının konkret bir müəllimin sinfində oxumasını istəmir, digər müəllimi tələb edir. Səbəbini soruşduqda "o, yaxşı müəllim deyil, uşaqları öyrədə bilmir" sözlərini eşidirsən. Bu zaman fikirləşirsən ki, diplom alsa da, müsbət xarakterizə olunmayan, nüfuz qazanmayanların məktəbdə nə işi ola bilər?! Təəssüf ki, belələri *(onların arasında müxtəlif fənn müəllimləri də var)* illər uzunu məktəblərdə qalır, yüzlərlə uşağın normal təhsil almasında əngələ çevrilirlər.

Bu mənada, xüsusilə, ibtidai sinif müəllimlərinin savadı və peşəkarlıq səviyyəsinin məqsədyönlü və sistemli şəkildə araşdırılıb müvafiq təkliflərin hazırlanması ən ümdə vəzifələrdən sayılmalıdır. Eyni zamanda, ibtidai təhsil səviyyəsini bitirən şagirdlərin idraki inkişaflarına, humanitar, yaxud riyazi təfəkkürlərinə və istedadlarına görə, müvafiq tədris planları tətbiq edilən ayrı-ayrı V siniflərdə komplektləşdirilməsi məsələsini də yenidən gündəmə gətirmək, pedaqoji tədqiqat obyektinə çevirmək olar.

Məsələyə bu məntiqlə yanaşmanın əhəmiyyəti nədən ibarətdir?! Əvvələ, tədris planlarının mahiyyət və məzmunu ümumidən xüsusiyə doğru dəyişməklə variantlılıq yaranar, meyl-maraqlarına görə, şagirdlərin təhsilalma imkanları genişlənər, malik olduqları qabiliyyət və istedadlarının inkişafına etibarlı zəmin əmələ gələr. Əslində, belə siniflərin təşkilini təmayüllü tədrisə keçidin ilk seçim mərhələsi də adlandırmaq mümkündür. Necə ola bilər ki, uşağın zehni qabiliyyəti, məsələn, riyaziyyatı vahid proqram tələbi əsasında mənimsəməyə imkan verməsin, lakin ona tam proqram saatı ilə ümumi orta təhsil səviyyəsini bitirənədək riyaziyyat tədris olunsun?! Təbii ki, riyaziyyat hər bir təmayül istiqamətli siniflərdə tədris olunacaq. Lakin riyaziyyat təmayüllü siniflərdə 6-7, humanitaryönlü siniflərdə isə 2-3 saat keçiləcəkdir. Şübhəsiz, istiqamət *(riyaziyyat, humanitar)* baxımından həmin siniflərin tədris planlarını elə qurmaq olar ki, şagirdlərin təlim maraqları təmin edilməklə, keyfiyyət göstəriciləri də yüksəlsin. Necə deyərlər, *"hər bir uşaq potensial imkanları, istedad və qabiliyyəti, maraq dairəsi ilə öz təhsilinin sifarişçisidir".*

Bütövlükdə ümumi təhsilə, ümumi təhsilin məzmun istiqamətlərinə, ümumi təhsili həyata keçirən orqanlara, məktəbə, müəllimə, məktəb-valideyn əlaqələrinə cəmiyyətdə yeni tələblər irəli sürüldüyü, ümumi təhsildən gözləntilərin miqyasının artdığı bir vaxtda qarşıya qoyulmuş vəzifələrin keyfiyyətlə yerinə yetirilməsi nəticəyönlük prinsipi üzərində qurulan düşünülmüş, məqsədyönlü idarəetmə sisteminin tətbiqindən bilavasitə asılıdır.

Əlbəttə, idarəetmə o vaxt səmərə verir ki, idarə edənlər idarəetmənin məqsəd və vəzifələrinə, incəliklərinə bələd olsunlar, həm də təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərini, təhsil qanunvericiliyinin tələblərini, dövrün tələb və çağırışlarının mahiyyətini dərindən mənimsəsinlər. Eyni zamanda, məsələn, yerli təhsil orqanları tabeliklərindəki məktəblərin real vəziyyətindən, problemlərindən, tədrisin keyfiyyət göstəricilərindən xəbərdar olmalıdırlar. Əks halda, perspektivdə duran məsələləri təsəvvür edə və planlaşdıra bilməzlər.

Eyni tələblər, təbii ki, məktəbin idarəolunmasına da aiddir. Etiraf olunmalıdır ki, övladını böyük ümidlərlə məktəbə gətirən valideyn gözlədiklərinin əksini müşahidə etdikdə bütün narazılıqlarının səbəbini yuxarı təşkilatlardan çox, pedaqoji kollektivin, ayrı-ayrı müəllimlərin fəaliyyətində, məktəbin özündə axtarır. Bu da tam ədalətli mövqedir, belə ki, hər valideynin övladına keyfiyyətli təhsil verilməsini tələb etmək hüququ vardır. Həmin işin ağırlığı, məsuliyyəti isə birmənalı şəkildə müəllimlərin üzərinə düşür. Yeri gəlmişkən, dahi mütəfəkkir Nəsrəddin Tusinin müdrik kəlamıdır ki, *"Müəllimlik mövcudatın ən şərəflisi olan insanı kamillik səviyyəsinə çatdırmaq məqsədi güdən sənətdir".*

Ancaq elə faktlar da mövcuddur ki, məktəb rəhbərlərinin idarəetmə sükanını itirməsi və nəzarətsizliyi nəticəsində müəssisədə yaranan başıpozuqluq, qarşıdurma ən məsuliyyətli və peşəkar səviyyəli müəllimlərin də fəaliyyətini iflic edir, onları ruhdan, həvəsdən salır. Belə əhvali-ruhiyyə şagirdlərə daha tez sirayət edir, onların

hətta təhsildən uzaqlaşmasına gətirib çıxarır, valideynlərlə məktəb arasında ziddiyyətli münasibət yaranır. Məktəblərdə araşdırma apararkən ali idarəetmə orqanı sayılan pedaqoji şurada müzakirəyə çıxarılan məsələlərlə, qəbul edilən qərarlarla tanışlıq kifayətdir ki, rəhbər işçilərin idarəetmə bacarıqlarına, təhsillə bağlı aktual məsələlərə, məktəbin daxili problemlərinə bələdliyi üzə çıxsın. Bu mənada pedaqoji şuranın fəaliyyətini məktəbin idarəolunma güzgüsü də adlandırmaq olar.

Təhsil müəssisəsinin fəaliyyətinin miqyasını aydın təsəvvür etmək üçün ilk növbədə onun idarə olunan sahələrini *(onlar həm də indikator rolunu oynayır)* optimal müəyyənləşdirmək idarəetmədə əhəmiyyətli rola malikdir, çünki bunsuz planlaşdırmanı, nəzarət və tənzimləmə funksiyalarını həyata keçirmək mümkün deyildir. Müdriklər demişkən, *"insan hansı sahilə üzəcəyini bilməsə, onun üçün səmt küləyi heç vaxt əsməyəcək".* Həmin sahələrin isə, əsasən, aşağıdakı kimi *(onları mahiyyət etibarı ilə genişləndirmək də olar)* təsnif olunması mümkündür:

– pedaqoji və şagird kollektivləri ilə iş;
– təhsil prosesinin *(öyrətmə və öyrənmə)* təşkili və təhlili;
– istedadlı şagirdlərlə iş;
– şagirdlərin İKT savadlılığı;
– sinifdənxaric və məktəbdənkənar tədbirlər;
– qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və tətbiqi;
– psixoloji xidmətin təşkili;
– məktəb-valideyn əlaqələri;
– təsərrüfat fəaliyyəti.

Həmin sahələr üzrə alt-tədbirləri planlaşdırarkən bəzi mühüm cəhətlərə diqqət yetirmək vacibdir. Əvvəla, əgər idarəetmənin kollegiallıq, şəffaflıq, demokratikliyindən danışırıqsa, nəzərdə tutulan işlər pedaqoji kollektiv üzvləri ilə müzakirə edilməli, təkliflər öyrənilməli, cavabdeh icraçı şəxslər müəyyənləşdirilməli, onlar arasında vəzifə bölgüsü aparılmalı, fəaliyyətləri əlaqələndirilməlidir. Bir sözlə, hər bir müəllim, digər pedaqoji işçilər özlərini müəssisənin tam bərabərhüquqlu, dəyər verilən, təklif və mülahizələri ilə hesablaşılan üzvü hiss etməlidir. Həm də yaxşı məktəb rəhbəri işçilərin fərdi xüsusiyyətlərinə, psixologiyasına, peşəkarlıq səviyyəsinə, hətta məişət problemlərinə qədər bələd olmalı, onlara müvafiq yanaşma tərzi seçməli, tələbkarlıqla yanaşı, həssas münasibət bəsləməlidir. Belə olduqda məktəbdə sağlam mənəvi-psixoloji iqlim, keyfiyyətli fəaliyyət üçün səmərəli şərait yaranar.

Şagirdlərlə iş sahəsində ən ümdə məsələ onların təhsilə, təhsillənməyə maraqlarının təmin edilməsi, mənəvi tərbiyəsi, milli dəyərlərə sadiq ruhda böyümələridir. Bəzən, məktəb rəhbərləri *(xüsusilə kənd yerlərində)* şagirdlərin təhsildən uzaqlaşmalarının səbəbinin günahını, əsasən, valideynlərdə görürlər, halbuki məktəb həyatı uşaq üçün maraqlı olarsa, məktəbdə əsl təhsil atmosferi hökm sürərsə, bu cür neqativ hallar, təbii ki, baş verməz.

Təhsil prosesinin təşkili və təhlili zamanı hamını düşündürən belə bir suala cavab axtarmaq lazımdır ki, müəllimlər necə öyrədirlər, şagirdlər necə öyrənirlər?! Başqa sözlə, məktəbdə təhsilin keyfiyyəti necə idarə olunur?! Bütün bunlar, məlumdur ki, sahələr üzrə fəaliyyətlərin qiymətləndirilməsi yolu ilə müəyyənləşdirilir. Hər bir məktəb daxili imkanlarına görə, qiymətləndirmə vasitələrini *(monitorinqlər, test yoxlamaları, direktor yoxlamaları, dərsdinləmələr və s.)* sərbəst seçə bilər. Fikrimizcə, məktəbin aşağıdakı sahələrində fəaliyyətlərin qiymətləndirilməsi daha mühüm əhəmiyyət daşıyır:

• inkişaf dinamikasını izləmək üçün ibtidai təhsil səviyyəsinin hər bir sinfində şagirdlərin oxu, yazı, hesablama bacarıqlarının, nitq qabiliyyətinin səviyyəsi, fənlərə olan meyl və maraqlarının müəyyənləşdirilməsi;
• ümumi orta təhsil səviyyəsi üzrə ayrı-ayrı fənlərin tədrisində əvvəlki illərə nisbətən irəliləyişlər və geriləmələr, geriləmələrin səbəbləri;
• fənlər üzrə *(tədris dili, ədəbiyyat, xarici dil, Azərbaycan tarixi, riyaziyyat, coğrafiya, fizika, kimya, biologiya, informatika)* keyfiyyət göstəriciləri;
• tam orta təhsil səviyyəsində təmayül siniflərin təşkili;
• istedadlı uşaqlarla iş;
• şagirdlərin İKT bacarıqlarının səviyyəsi;
• müəllimlərin peşəkarlıq səviyyəsi;
• direktor müavinlərinin təlim-tərbiyə prosesinə nəzarətinin səviyyəsi.

Bu sıraya şagirdlərin fiziki hazırlığı bəndini də əlavə etmək istərdim, çünki hər an düşmən tərəflərin təxribatları ilə üzləşmələr, qarşıdurmalar gələcəyin əsgərlərinin fiziki cəhətdən güclü, çevik

və dəyanətli tərbiyə olunmalarını bu gün ən yüksək, aktual vəzifələrdən biri səviyyəsinə yüksəldir.

Müasir pedaqoji tədqiqatlarda diqqət yetiriləsi belə bir müddəa da irəli sürülür ki, *"məktəblərdəki nailiyyətləri müəyyən edən əsas faktorlardan biri, ən vacibi şagirdlərin böyüdükləri ailələrin xarakteristikasıdır. Əksər ölkələrdə ailənin sosial-iqtisadi statusu təhsilin keyfiyyətini idarə edən əsas indeks kimi nəzərdə tutulur".*

Vaxtilə məşhur pedaqoq Y.A. Komenski yazmışdı ki, *"Bizim didaktikamızın alfa və omeqası elə yollar axtarıb tapmaqdan ibarətdir ki, bunun sayəsində öyrədənlər az öyrətsinlər, öyrənənlər isə çox öyrənsinlər".*

Əlbəttə, bu fikir rəmzi məna daşıyır. Belə ki, müəllimin pedaqoji ustalığının bir tərəfi də ondan ibarətdir ki, şagirdləri tədris proqramlarda nəzərdə tutulanlardan artıq öyrənməyə, məlumatlanmağa həvəsləndirə, istiqamətləndirə bilsin. Məsələn, şagirdlər Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi barədə yalnız dərsliklərdə yazılanlarla kifayətlənirsə, onlarda məhdud təsəvvür yaranması heç də istisna deyildir. Ona görə də müəllimlərin təlqin etdiyi maraq əsasında şagirdlərin milli ədəbiyyat və tariximizin görkəmli şəxsiyyətləri, məşhur ədəbi əsərlər, taleyüklü tarixi hadisələr, eləcə də ölkəmizin şöhrət qazanmış alimləri, xalqımızın maariflənməsi yolunda müstəsna xidmətlər göstərmiş ziyalıları barədə əlavə zəruri bilgilərə malik olması onların dünyagörüşündə dərin mənəvi iz sala bilər.

Məktəbin ayrı-ayrı fəaliyyət sahələrində nəzərdə tutulan işlərin vahid məqsəd ətrafında üzvi əlaqələndirilməsi tələbi, eyni zamanda, idarəetmə tədbirlərinin də təkmilləşdirilməsi zərurətini yaradır. Məsələn, necə etmək lazımdır ki, böyük bir fəaliyyət sahəsinə malik sinifdənxaric və məktəbdənkənar tədbirlərdən təyinatına, məqsədinə görə səmərəli istifadə olunsun, təhsil məqsədlərinin öyrədici, tərbiyəedici, inkişafedici funksiyalarının reallaşmasına və beləliklə də, pedaqoji prosesin tamlığının *(bütövlüyünün)* təmin olunmasına yardım göstərilsin?!

Nümunə üçün deyək ki, məktəb kitabxanasının işi planlaşdırılarkən kitabxanaçı öz tədbirlərinin müəyyən hissəsini ayrı-ayrı fənlərin məzmunundan irəli gələn tələblərlə uyğunlaşdıra bilər. Məsələn, "Ədəbiyyat" fənninin məqsədlərindən biri, yuxarıda deyildiyi kimi, şagirdlərdə sözə, söz sənətinə həssas münasibət, ifadəli oxu, obrazlı təfəkkür, təhlil, mütaliə vərdişləri formalaşdırmaqdırsa, bu, kitabxana üçün bədii əsərlərin oxunuşundan, təhlilindən, onlara aid təqdimatlardan tutmuş poeziya günlərinin, ədəbi qiraət müsabiqələrinin, dram əsərləri əsasında teatrlaşdırılmış səhnəciklərin təşkilinə qədər zəngin iş əhatəsi yaradır.

Qeyd edək ki, sinifdənxaric və məktəbdənkənar işlərin əsasının şagirdlərdə azərbaycançılıq məfkurəsinin *(Vətənə, xalqa məhəbbət və sədaqət, milli adət-ənənələrin, mənəvi dəyərlərin qorunub saxlanması, milli mənsubiyyətin və ana dilinin daim uca tutulması)* təbliği, "Musiqi", "Təsviri incəsənət", "Fiziki tərbiyə" kurikulumlarında təsbit olunmuş məqsədlərin *(bədii-estetik zövqün inkişafı, musiqi və təsviri sənət əsərlərini qavrama mədəniyyətinin formalaşdırılması, görkəmli incəsənət xadimləri, məşhur idmançılar, idman nailiyyətləri, şagirdlərin fiziki hazırlığının təkmilləşdirilməsi, sağlamlıqlarının mühafizəsi)* reallaşdırılması, təlim xarakterli ekskursiyaların təşkili istiqamətində müəyyən edilməsi daha məqsədəmüvafiq olardı.

Məktəblərdə idarəetmənin səmərəliliyinin təmin olunması aralarında vəzifə bölgüsü aparılan məsul şəxslərin üzərilərinə düşən funksiyaların icrası barədə tabeçilik qaydasında *(həmçinin pedaqoji şuraya)* hesabat vermələrindən və həmin prosesin normaya çevrilməsindən çox asılıdır. Bu, pedaqoji kollektivdə məsuliyyət və icra mədəniyyətinin yaranmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Şagirdlərin, valideynlərin məktəbdən, müəllimlərin fəaliyyətindən razılığı, eyni zamanda, idarəetmənin təşkilinə müsbət münasibəti ifadə edir. Vətəndaşlıq və peşəkarlıq mövqeyini uca tutan məktəb rəhbərləri fəaliyyətlərinin nəticələrini obyektiv təhlil edib qiymətləndirməklə, əslində, daha təsirli keyfiyyət dəyişikliklərinə istiqamətlənmiş addımlar atır. Doğru deyiblər ki, *"Təhsil işi incəsənətdir. Onun sonu və tamamlanması mümkün deyil, inkişafı və təkmilləşməsi isə sonsuzdur".*

**Problemin aktuallığı**. Məqalədə ümumi təhsil məsələlərinə yeni yanaşma olduğundan aktuallıq daşıyır.

**Problemin yeniliyi**. Ümumi təhsilin səmərəli təşkilinin yolları göstərilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçıları maraqlandıracaqdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum), 30 oktyabr 2006-cı il, №233.
2. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumu), 3 iyun 2010-cu il, №103.
3. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları, 29 sentyabr 2020-ci il, №361.

**E-mail:** aydinahmadov@mail.ru
**Rəyçilər**: *ped.ü.fəls.dok., dos.* **Ə.M. Abbasov,**
*ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**
**Redaksiyaya daxil olub:** 23.02.2022

**UOT 371**

***Afət Yaqub qızı Süleymanova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi*
*https://orcid.org/ 0000-0002-7078-5400*
*https://doi.org/10.5281/zenodo.6445019*

# "TƏHSİLİN ƏSASLARI" FƏNNİ ÇƏRÇİVƏSİNDƏ GƏLƏCƏK MÜƏLLİMLƏRİN MƏKTƏB TƏCRÜBƏSİNİN YENİ MODELİ

***Афет Ягуб гызы Сулейманова***
*доктор философии по педагогике*
*ведущий консультант Министерства Образования Азербайджанской Республики*

# НОВАЯ МОДЕЛЬ ШКОЛЬНОЙ ПРАКТИКИ ДЛЯ БУДУЩИХ УЧИТЕЛЕЙ ПО ПРЕДМЕТУ «ОСНОВЫ ОБРАЗОВАНИЯ»

***Afet Yaqub Süleymanova***
*leading consultant of the Ministry of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in pedagogy*

# A NEW MODEL OF SCHOOL PRACTICE FOR FUTURE TEACHERS WITHIN THE SUBJECT "FUNDAMENTALS OF EDUCATION"

**Xülasə.** Bu məqalədə dörd semestri (270 saat) əhatə edən eksperimental "Təhsilin əsasları" fənni çərçivəsində tərtib edilmiş pedaqoji təhsilin mərhələli təşkilinin yeni modelinin tətbiqinə dair ilkin nəticələr mübadilə edilmiş, dəyərləndirilmişdir. Fənnin dördüncü (axırıncı) semestrinin məzmununu əhatə edən yeni məktəb təcrübəsinin proqramı və pilot ali məktəblərin müəllimləri ilə keçirilən təlimlər zamanı həyata keçirilən tədbirlər təsvir edilmiş və nəticələr müzakirə edilmişdir. Təlimlərdə iştirak edən ali təhsil müəssisələrinin müəllimlərinin rəhbərliyi ilə Azərbaycanın 11 şəhər və rayonunda 18 məktəbdə tətbiq edilən yeni məktəb təcrübəsi modelinin peşəkar gələcək müəllimlərin formalaşmasında rolu qiymətləndirilmişdir.
***Açar sözlər:*** *məktəb təcrübəsi, yeni model, özünütəkmilləşdirmə, özünürealizə, məktəbin və sinfin idarəedilməsi*

**Резюме.** В данной статье были обменены и оценены предварительные результаты применения новой модели поэтапной организации содержания и технологий педагогического образования, разработанной в рамках экспериментального предмета «Основы образования», охватывающего четыре семестра (270 часов). Были описаны программа новой модели школьной практики, охватывающая содержание четвертого (последнего) семестра предмета, и мероприятия, проведенные во время тренингов с преподавателями пилотных университетов и обсуждены результаты. Оценена роль новой модели школьной практики в формировании будущих профессиональных педагогов, применяемой в 18 школах 11 городов и районов Азербайджана под руководством преподавателей высших учебных заведений, участвующих в тренингах.
***Ключевые слова***: *школьный опыт, новая модель, самосовершенствование, самореализация, управление школой и классом*

**Summary.** The preliminary results of the application of a new model for the staged organization of content and technologies in teacher education, developed within the framework of the experimental subject "Fundamentals of Education," which lasted four semesters (270 hours), were discussed and evaluated in this article. The material of the fourth (final) semester of the subject, as well as the activities carried out during trainings with instructors from pilot institutions, were detailed, and the outcomes were reviewed. The role of

a new school practice model in the creation of future professional teachers, which was implemented in 18 schools in 11 towns and regions across Azerbaijan under the supervision of teachers from higher educational institutions who took part in the trainings, was evaluated.

***Key words:*** *school experience, new model, self-improvement, self-realization, school and class management*

Respublikanın üç ali təhsil (ADPU, AMİ və filialları GDU) müəssisəsində eksperimental fənn kimi 2009-2011-ci illərdə tətbiq edilmiş və 2017-ci ilədək tədrisi davam etmiş “Təhsilin əsasları” fənni çərçivəsində pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli təşkilinin modeli sınaqdan çıxarılmışdır. Tərəfimizdən hazırlanmış təhsil proqramı pedaqoji ictimaiyyətin müzakirəsinə təqdim edilmiş proqram üzrə gələcək müəllimlər 270 saat ərzində auditoriya şəraitində praktik məşğələlərdə müasir müəllim üçün əhəmiyyətli olan məsələləri öyrənmiş və əldə etdikləri bilik və bacarıqları real məktəb şəraitində təcrübə etmişlər. Belə ki, fasiləsiz pedaqoji təhsilin birinci mərhələsi olan “özünütəyin”ə – “Təhsilin fəlsəfəsi” bölməsində, ikinci mərhələsi olan “özünütəşkil”ə – “Cəmiyyətin təhsil ehtiyacları və onların hüquqi təminatı” və “Təhsildə dövlət siyasəti” bölmələrində, üçüncü mərhələsi olan “Elmi-pedaqoji təşəkkül”ə – “Kurikulum və təlimin əsasları” bölməsində nail olunmuşdur. Bu prosesdə gələcək müəllimlər öz pedaqoji təfəkkürlərini formalaşdırmış, hüquqi savadlı təhsil işçisi, vətəndaş-müəllim olmaq üçün isə cəmiyyətin təhsil ehtiyaclarını və onların hüquqi təminatını araşdırmalar yolu ilə öyrənmiş, dövlətin prioritetlərinə əsaslanan təhsil siyasətini tədqiq edib, öz vəzifə və məsuliyyətlərini müəyyənləşdirmiş, fəaliyyətlərini planlaşdırıb onları tətbiq etməyin və nəticələri qiymətləndirməyin yollarını öyrənmiş, kurikulum və təlimin əsaslarını problem həllinə əsaslanan və layihələrə əsaslanana təlim üsulları ilə mənimsəmişlər. Həmçinin, dördüncü “özünütəkmilləşdirmə” və etmişdir ki, bunun da real məktəb şəraitində həyata keçirilməsi planlaşdırılmışdır.

Məqsəd “Təhsilin əsasları” fənninin tədrisinin dördüncü semestrinin proqramı üzrə həyata keçirilmiş məktəb təcrübələrinin təşkilinə dair əldə edilmiş nəticələri pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələləri baxımından dəyərləndirilmək, əldə edilmiş təcrübəni təhlil etmək mübadilə və təhlil etməkdir.

“Təhsilin əsasları” fənni çərçivəsində gələcək müəllimlərin məktəb təcrübəsinin yeni modeli işlənib hazırlanmışdır. Təcrübə edilmiş model pedaqoji təhsilin məzmun və texnologiyalarının beş mərhələsindən son iki – “özünütəkmilləşdirmə” və “özünürealizə” baxımından böyük əhəmiyyət daşıyır.

Bu tədqiqatda “Vəziyyətin öyrənilməsi” (Case study) metodundan istifadə edilmişdir. Schramm (1971) vəziyyət araşdırmalarını qərarlar toplusu kimi təsvir edir: nə üçün qəbul edildi, necə həyata keçirildi və nəticə nədir. Tədqiqatçılar göstərirlər ki, bu yanaşma araşdırmaçılara real həyat hadisələrinin əhəmiyyətli cəhətlərini yerində və tam şəkildə öyrənməyə imkan verir. Bu yanaşma Azərbaycan Respublikasının üç pilot ali təhsil müəssisəsində tətbiq edilmiş “Təhsilin əsasları” fənninin məzmunun təhlilində yararlı hesab edilmişdir.

Üç semestr ərzində auditoriya şəraitində tədris edilmiş məsələlərin real məktəb şəraitində tətbiqi və təcrübəsi dördüncü semestrin plan-proqramının əsasını təşkil etmişdir. Məlumdur ki, müəllim müəllim kimi sinifdə formalaşır. Bu səbəbdən 60 saat auditoriya, 60 saat da təcrübə saatını əhatə edən dördüncü semestrdə gələcək müəllimlərin bütün əvvəlki semestrlər ərzində öyrəndiklərini məktəbdə və sinifdə tətbiq etmələri nəzərdə tutulmuşdur. Bu səbəbdən Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən 24 yanvar-11 fevral 2011-ci il tarixlərində Təhsil Nazirliyinin tabeliyində olan 132-134 nömrəli təhsil kompleksində “Təhsilin əsasları” fənni üzrə üç ali təhsil müəssisəsinin (ADPU, AMİ və onun 12 filialı, GDU) müəllimləri təlim-təcrübə məşğələləri keçmişlər. Gələcək müəllimlərin təcrübə zamanı yerinə yetirəcəkləri bütün fəaliyyətlər əvvəlcədən həmin fənni tədris edən fənn müəllimləri tərəfindən yerinə yetirilmişdir. Təcrübənin nəticələri barədə sabiq Təhsil Nazirliyin rəsmiləri və 132-134 nömrəli təhsil kompleksinin rəhbərliyinin qarşısında təcrübə rəhbəri və müdavimlər tərəfindən hesabat təqdimat edilmişdir. Hazırda kursdan keçirilmiş həmin ali təhsil müəssisəsinin müəllimlərinin rəhbərliyi altında Bakı şəhərinin 7, 23, 190, 177, 18, 82 nömrəli məktəbləri və Heydər Əliyev adına liseydə,

Sumqayıt şəhərinin 5 və 27 nömrəli məktəblərində, Gəncə şəhərinin 1 və 39 nömrəli məktəblərində, Mingəçevir şəhərinin 15 nömrəli məktəbində, Ağcabədi rayonunun 8 nömrəli şəhər məktəbində, Cəlilabad rayonunun 1 nömrəli şəhər məktəbində, Quba rayonunun 4 nömrəli şəhər məktəbində, Şəki rayonunun 10 nömrəli şəhər məktəbində, Zaqatala rayonunun 1 nömrəli şəhər məktəbində, Şamaxı rayon 5 nömrəli şəhər məktəbində, Salyan rayon 1 nömrəli şəhər məktəbində gələcək müəllimlər üç həftəlik təcrübəni başa vurmuşlar. "Məktəbin və sinfin idarəedilməsi, təlim və tədrisin təşkilinin metodologiyası və praktikası" adlanan bu bölmənin materialları üzrə gələcək müəllimlər aşağıdakı fəaliyyətlərə cəlb edilmişlər:

*Cədvəl 1. "Təhsilin əsasları" fənni üzrə "Məktəbin və sinfin idarə edilməsi, təlim və tədrisin təşkilinin metodologiyası və praktikası" bölməsinin tədris planı*

| | Təcrübədə | | | Auditoriyada |
|---|---|---|---|---|
| | **Həftə** | **Gün** | **Saat** | **Saat** |
| **BÖLMƏ VƏ YARIMBÖLMƏLƏR** | **3** | **15** | **60** | **32** |
| **Məktəbin və sinfin idarəedilməsi metodologiyası və praktikası** | **1** | **5** | **20** | **14** |
| **Məktəb sənədlərinin qanunverici sənədlər və dövlətin yürütdüyü təhsil siyasəti baxımından araşdırılması** | | 1 | 4 | 3 |
| **Məktəbdə mövcud vəziyyətin araşdırılması** | | 1 | 4 | 3 |
| **Sinifdə mövcud vəziyyətin araşdırılması** | | 3 | 12 | 8 |
| | | | | |
| **Təlim və tədrisin təşkili metodologiyası və praktikası** | **2** | **10** | **40** | **18** |
| **Sinif müəllimin perspektiv və cari planlaşmalarının təhlili** | | 2 | 8 | 4 |
| **Qarşılıqlı dərs nümayişetdirmə-dərsdinləmə və nəticələrin dəyərləndirilməsi** | | 8 | 32 | 14 |

Məktəbin və sinfin idarəedilməsi metodologiyası və praktikası" yarımbölməsi üzrə nəzərdə tutulmuş fəaliyyətlər aşağıdakı ardıcıllıqda həyata keçirildi. Əvvəlcə, tələbələr məktəb sənədlərini qanunverici sənədlər və dövlətin yürütdüyü təhsil siyasəti baxımından araşdırdılar. Bu sənədlər sırasına məktəbin nizamnaməsi, pedaqoji şuranın, direktorun, direktor müavinlərinin, ibtidai təhsil üzrə metodbirləşmə sədrinin və ibtidai sinif müəllimlərinin fəaliyyət planları daxil edilmişdir. Gələcək müəllimlər məktəbin nizamnaməsini araşdırarkən məktəbin qarşısında duran məqsədlər, vəzifələr, təlimin təşkilinə verilən tələblər, müəllim şagird münasibətlərinin müasir təhsil yanaşmaları (mütərəqqi təhsil fəlsəfələri) və hüquqi-normativ və digər sənədlər (Konstitusiya, Təhsil haqqında Azərbaycan Respublikasının qanunu, Ümumi təhsil məktəbinin nümunəvi Nizamnaməsi, Azərbaycanın qoşulduğu beynəlxalq müqavilələr, İslahat Proqramı) baxımından tədqiq etmişlər.

Pedaqoji şuranın, məktəb direktorunun, direktor müavinlərinin, ibtidai təhsil üzrə metodbirləşmə sədrinin və ibtidai sinif müəllimlərinin fəaliyyət planları Təhsil Nazirliyinin fəaliyyət planı, əmr, sərəncam və təlimatı məktublarının, eləcə də TSİL çərçivəsində müxtəlif komponentlər üzrə icra planlarının nəzərə alınması, müxtəlif səviyyələrdə fəaliyyətlər planlaşdırılarkən əlaqəlilik və varisliyin gözlənilməsi baxımından araşdırılmışdır. Respublikanın digər şəhər və rayonlarının tabeliyində olan məktəblərin fəaliyyət planları tədqiq edilərkən həmin şəhər və ya rayonun da fəaliyyət planındakı tədbirlərin məktəbin fəaliyyət planlarında hansı səviyyədə nəzərə alınması öyrənilmişdir. Tədqiqatlar aparılarkən təcrübə iştirakçıları 4 qrupa bölünmüşlər. Qrupların tərkibləri müəyyən edilərkən onların hazırlıq səviyyəsi, məntiqi təfəkkürü, texnologiyalardan istifadə bacarığı, liderlik bacarıqları və s. baxımından müxtəlif səviyyəli təcrübəçilərin olmasına diqqət yetirilməlidir. Hər qrupda TN və TSİL-in (Təhsil sahəsində islahat Layihəsi) fəaliyyət planlarında aşağıda adı göstərilən problemlər üzrə əlaqəlilik və varisliyin gözlənilməsi baxımından məktəb şurasının, məktəb direktorunun, direktor müavinlərinin, metodbirləşmə sədrinin və sinif müəllimlərinin fəaliyyət planları mərhələdən-mərhələyə araşdırılmışdır:

1. Təhsil Nazirliyinin müvafiq şöbələri üzrə fəaliyyət planı; (bütün qruplara)

2. TSİL-in müxtəlif alt-komponentləri üzrə icra planlar (ayrı-ayrı qruplara):

I qrup: Kurikulum islahatının davam etdirilməsi və kurikulumun tətbiqinə dəstək;

II qrup: Pedaqoji kadrların əlavə təhsil sisteminin müasirləşdirilməsi;

III qrup: Təhsilin keyfiyyətinin yüksəldilməsində təhsilalanların qiymətləndirilməsindən istifadə komponenti;

IV qrup: Yeni tədris materiallarının hazırlanması və məktəb kitabxanalarının müasirləşdirilməsi.

Bu zaman fəaliyyət planları həm də təhsilin müxtəlif istiqamətləri üzrə aparılan islahatın yerlərdə tətbiqi, ictimaiyyətin maarifləndirməsi işinin təşkili və qarşıya çıxması ehtimal edilən problemlərin proqnozlaşdırılması baxımından da izlənmişdir.

Qruplar tədqiqatın əlaqələndirmə, şərhetmə, dəyərləndirmə üsullarından istifadə etməklə araşdırmışlar aparmışlar. Hər qrup öz fəaliyyətini yerinə yetirdikdən sonra təcrübəni təşkil edən müəllimin rəhbərliyi və dəstəyi ilə araşdırmaların nəticələri ümumiləşdirilmişdir. Bu zaman ayrı-ayrı komponentlər üzrə TN və TSİL-in fəaliyyət planı kompüter və proyektor vasitəsi ilə geniş monitorda auditoriyaya təqdim edilir, həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlər maddə-maddə oxunur. Müzakirəyə çıxarılan komponent üzrə araşdırma aparan qrup milli səviyyədə icrası nəzərdə tutulmuş tədbirin rayon, məktəb və sinif səviyyəsində müəyyən etdiyi fəaliyyət barədə təklif verir. Digər qruplar da məsələ ilə bağlı öz rəy və təklifləri ilə çıxış edir ki, bu da işin keyfiyyətinin yüksəldilməsinə xidmət göstərir. Bu yolla qruplar araşdırmalarının nəticələrini təqdim edir, eyni zamanda, qızğın müzakirələrin iştirakçısına çevrilir.

Bu yolla ümumrespublika səviyyəsində nəzərdə tutulmuş vəzifələr müxtəlif səviyyələrdə fəaliyyət göstərən təhsil işçilərinin səlahiyyətləri və məsuliyyətlər çərçivəsində konkretləşir. Beləliklə, milli səviyyədə icrası nəzərdə tutulmuş tədbirlərə əsasən məktəb rəhbərliyinin, metodbirləşmə sədrinin və sinif müəlliminin qarşısında duran vəzifələr müəyyən edilir. Təqdim edilən bu cədvəl islahatın müxtəlif istiqamətləri üzrə icrası nəzərdə tutulmuş tədbirlərin şəhər/rayon, məktəb və sinif səviyyəsində həyata keçirilməsi üçün vəzifə və məsuliyyətlərin bölüşdürülməsi və kollektiv idarəçiliyin təşkili baxımından böyük əhəmiyyət daşıyır. Cədvəli müşahidə edərkən bəzi tədbirlərin müxtəlif səviyyələr üzrə konkretləşdirildiyinin, bəzilərinin isə, konkretləşdirilmədiyinin şahidi olacaqsınız. Bu ondan irəli gəlir ki, istər Təhsil Nazirliyinin, istərsə də TSİL-in fəaliyyət planlarında nəzərdə tutulmuş tədbirlər diqqətlə nəzərdən keçirilir, digər səviyyələrin qarşısına hər hansı vəzifələr qoyan tədbirlər seçilir və onların yerlərdə icrası planlaşdırılır. Bu ya qabaqlayıcı, ya da izləyici tədbirlər ola bilər. Milli səviyyədə elə tədbirlər nəzərdə tutula bilər ki, onların icrası üçün yerlərdə əvvəlcədən hər hansı tədbirin görülməsinə ehtiyac var. Bu zaman yerlərdə qabaqlayıcı tədbirlərin nəzərdə tutulması lazımdır. Elə tədbirlər də var ki, onların icrası üçün milli səviyyədə hər hansı bir tədbirin icrası gözlənilməlidir. Bütün bunlar işin icra vaxtının müəyyən edilməsi ilə tənzimlənir. Təhsilin digər səviyyələri (RTŞ, məktəb, sinif) qarşısına hər hansı vəzifələr qoyan tədbirlər və onların həmin səviyyələr baxımından konkretləşməsinə dair təcrübəçilərin tərtib etdikləri nümunələrdən bir parça təqdim edilir.

*Cədvəl 2. Milli səviyyədə müəyyən edilmiş tədbirlərin icrasının məktəb səviyyəsində spesifikləşdirilməsinə dair təcrübəçilərin tərtib etdikləri nümunələrdən parça*

| **Gözlənilən yekun nəticə** | **Vəzifələr** | **Əsas icra tədbirləri** | **Başa çatdırma tarixi** | **Məktəb səviyyəsində** | **Metodbirləşmə səviyyəsində** | **Sinif səviyyəsində** |
|---|---|---|---|---|---|---|
| **Kurikulumlar 8-ci sinfədək tətbiq olunacaqdır** | **V-XI sinif kurikulumlarının təsdiqi** | 1.2. Kurikulum layihələrinin ictimai müzakirə üçün dövri pedaqoji mətbuatda dərc edilməsi və maraqlı qurumlara göndərilməsi | | *TƏCRÜBƏÇİLƏR TƏRƏFİNDƏN İŞLƏNMİŞDİR* | | |
| | | | | *Fənn kurikulumlaRı layihələrinin müzakirəsinin təşkili, rəy və təkliflərin RTŞ-a təqdim edilməsi* | *Fənn kurikulum layihələrinin müzakirəsi, rəy və təkliflərin hazırlanması, məktəb rəhbərliyinə təqdim edilməsi.* | *Fənn kurikulumlarının araşdırılması və təkliflərin metodbirləşmədə müzakirə edilməsi.* |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | ***İcraçı*** *- metodbirləşmə sədrləri* | ***İcraşı***-*fənn müəllimləri və metodbirləşmə sədri.* | ***İcraçı***-*fənn müəllimləri* |
| | | **1.9**.Kurikulumların tətbiqinin həyata keçirilməsi | | *Fənn kurikulumlarının tətbiqi vəziyyətinin öyrənilməsi və əməli köməyin göstərilməsi üçün monitorinqlərin keçirilmıəsi. Nəticələrin təhlil edilməsi, problemlərin aşkar edilməsi və müvafiq qərarların qəbul edilməsi.* | *Monitorinqlərin nəticələrindən irəli gələn problemlərin aradan qaldırılması üçün əlavə treninqlərin təşkili məqsədi ilə mütəxəssislərin dəvət olunması. İşdənkənar vaxtlarda təlim məşğələlərinin keçirilməsi.* | *Monitorinq nəticəsində aşkar edilmiş problemləri aradan qaldırmaq üçün müvafiq məşğələlərdə iştirak etmək, təlimatlara əsaslanaraq işin keyfiyyətini yüksəltmək.* |
| | **Kurikulumların mənimsənilməsi üzrə maarifləndirmə tədbirləri** | 2.2. Kurikulum islahatları və kurikulumların mənimsənilməsi barədə maarifləndirmə materiallarının hazırlanması, çapı və yerlərə çatdırılması | | *Maarifləndirmə materiallarının məktəblərə paylanması və rayon səviyyəsində maarifləndirmə işinin təşkili (yerli mətbuatda yazı, regional TV-də çıxış və seminar, dəyirmi masa)* | *Maarifləndirmə materiallarının təhlili, onlardan istifadə imkanlarının araşdırılması təhsil iştirakçılarının cəlb edildiyi seminar və dəyirmi masalarda onların müzakirəsi.* | *Valideyn və şagirdlərlə söhbətlərin aparılması. əldə edilmiş nəticələrlə bağlı materialların metodbirləşməyə təqdim edilməsi.* |
| | | **2.3.** Yeni fənn kurikulumlarının mahiyyəti barədə ictimaiyyəti maarifləndirmək məqsədilə yerlərdə seminar və treninqlərin təşkili | | *Kurikulum islahatlarını mahiyyəti barədə təhsil işçilərinə və valideynlərə çatdırılması (məktub, veb səhifə, seminar, konfrans, dəyirmi masaların, treninqlərin keçirilməsi vasitəsilə).* | *Hər bir fənn müəlliminin kurikulum islahatı barədə şagird və valideynlərlə aparılmalı işlə bağlı maarifləndirilməsi məktəbin icması səviyyəsində seminarların, dəyirmi masaların, açıq qapı günlərinin keçirilməsi.* | Təhsil iştirakçılarının maarifləndirilməsi (görüşlər, söhbətlər, treninqlər). *Valideynlərin müvafiq məşğələlərə cəlb edilməsi(dərslikdən istifadə, ev tapşırığının yerinə yetirilməsində övladına kömək göstərməyin yolları və. s.* |
| | | **2.4**.Fənn kurikulumlarının tətbiqinin nəticələri barədə yerlərdə təhsil işçiləri və valideynlər arasında sorğuların və tədqiqatların keçirilməsi | | *Fənn kurikulumlarının tətbiqi vəziyyətinin öyrənilməsi məqsədilə təhsil iştirakçıları arasında (şagird, müəllim, valideyn) sorğuların keçirilməsi, nəticələrin təhlili və məlumatların rəhbərliyə çatdırılması.* | | |
| | | Sorğu və tədqiqatların nəticələrinin təhlilinə görə fənn kurikulumlarının təkmilləşdirilməsi | | *Aşkar edilmiş problemləri əs etdirən məlumatların və müvafiq təkliflərin əlaqədar təşkilatlara təqdim edilməsi* | *Aşkar edilmiş problemlərin aradan qaldırılması üçün müvafiq təklifləri hazırlanması və rəhbərliyə təqdim olunması.* | |

Nəticədə, məktəbdaxili sənədlərin tərtibinin təkmilləşdirilməsinə xidmət göstərən təkliflər hazırlanmışdır.

Təcrübənin ikinci mərhələsində məktəbdə mövcud vəziyyət araşdırılmışdır. Bunun üçün təcrübəçilər məktəbin şəraiti (yeri, əhalisi, sosial vəziyyəti), məktəbdə mühit (mənəvi-psixoloji iqlim), məktəbin maddi-texniki bazası, təhsilin səviyyəsi, eləcə də inkişafın dinamikasını araşdırmışlar. Məktəbin şəraiti tədqiq edilərkən onun yerləşdiyi məkan, şagirdlərin sayı, onların sosial vəziyyəti (valideynlərin təhsil səviyyəsi, iş yerləri və s. məlumatlar) toplanmışdır. Məktəbdə mühit (mənəvi-psixoloji) tədqiq edilərkən məktəb rəhbərliyinin aparılan islahatlarla bağlı məlumatlılıq səviyyəsi və ona münasibəti; məktəb rəhbərliyinin məktəbin idarə edilməsində: (dərs yükünün bölünməsində, dərs cədvəlinin müəyyən edilməsində, valideynlərlə işin təşkilində, məktəbin kollektiv idarə edilməsində, ədalətin və şəffaflığın təmin olunmasında və s.) əldə rəhbər tutduğu prinsiplər; məktəbdə kollektivin üzvlərinin qarşılıqlı münasibətlərinin və əməkdaşlığının səviyyəsi) araşdırılmışdır. Məktəbin maddi-texniki bazası tədqiq edilərkən məktəbin binasının, koridorlarının, sinif otaqlarının, akt və idman zalının təmir və tərtibat baxımından vəziyyəti; məktəb kitabxanasının təmir, tərtibat və təchizat baxımından, eləcə də oxucuların cəlbi baxımından vəziyyəti; məktəbin kompüter laboratoriyalarında texniki avadanlığın sayı, onların işləkliyi, keyfiyyəti, saxlanma şəraiti, vaxtlı-vaxtında müvafiq xidmətlərin göstərilməsi, otaqdan səmərəli istifadənin vəziyyəti öyrənilmişdir. Təhsilin vəziyyəti və inkişafın dinamikası araşdırılarkən buraxılış imtahanlarının nəticələrinə görə əldə edilən nailiyyətin səviyyəsi; həmin nailiyyətlərin oxşar şəraitli digər məktəblərin nailiyyətləri ilə müqayisəsi; müvafiq qərarların qəbul edilməsi, eləcə də beş il ərzində məktəbin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklər; beş il ərzində məktəbin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklərin həmin müddət ərzində oxşar şəraitli digər məktəblərin nailiyyət keyfiyyətindəki dəyişikliklərlə müqayisəsi aparılmışdır. Bütün bu fəaliyyətlər sənədlərin araşdırılması, anket sorğularının keçirilməsi, müşahidə, müqayisə və dəyərləndirmə kimi tədqiqat üsulları vasitəsilə həyata keçirilmişdir.

Növbəti mərhələdə sinifdə mövcud vəziyyət araşdırılmışdır. Bu zaman tədqiqatların aparılması üçün dörd sinif müəyyən edilmişdir. Dörd qrupda birləşmiş təcrübəçilər müəyyən edilmiş siniflərdə mövcud vəziyyəti öyrənmək üçün zəruri tədqiqatlar aparmışlar. Bu mərhələdə şagirdlərin fiziki-fizioloji sağlamlığı, idrak səviyyəsi və dərketmə üsulları, psixi inkişafı və mənəvi-psixoloji vəziyyəti, onların sosial vəziyyəti, habelə hazırlıq səviyyəsi və inkişaf dinamikası araşdırılmışdır.

Şagirdlərin fiziki-fizioloji vəziyyəti tədqiq edilərkən aşağıdakı istiqamətdə işlər aparılmışdır. Şagirdlərin zəif görməsi, pis eşitməsi, nitq qüsuru, dayaq-hərəkət aparatlarındakı problemlər baxımından xüsusi qayğıya ehtiyacının olub-olmaması sənədlərin araşdırılması, müşahidə və müsahibələrin aparılması, test və tapşırıqların keçirilməsi yolu ilə müəyyən edilmişdir. Şagirdlərin oturduqları sıranın və yerin müəyyən edilməsi, parta yoldaşının seçilməsi baxımından, təlim tapşırıqlarının xüsusiyyətləri, eləcə də digər uşaqların həmin uşağa pozitiv münasibətlərinin qurulmasının təşkilində böyük əhəmiyyət daşıyan bu məsələ üzrə məlumatlar toplanmış və şagirdlər haqqında məlumat kartlarına əlavə edilmişdir.

Şagirdlərin idrak səviyyəsi və dərketmə üsullarını müəyyən etmək üçün tədqiqatlar aparılmışdır. İdrak səviyyəsini müəyyən etmək üçün Benjamen Blumun idrak taksonomiyasının hər altı səviyyəsinə müvafiq sinif səviyyəsindən çıxış edərək tərtib edilmiş test yoxlamaları keçirilmişdir. Yerinə yetirilmiş tapşırıqların səviyyəsinə əsasən şagirdin idrak səviyyəsi müəyyən edilmişdir. Eləcə də, psixologiya elmlər namizədi İradə Quliyevanın araşdırmaları əsasında tərəfimizdən tərtib edilmiş müşahidə vərəqləri vasitəsi ilə şagirdlərin əqli inkişafının ləngiməsi halları müəyyən etmək imkanı verən müşahidələr aparılmışdır. Bundan əlavə, şagirdlərin dərketmə üsulları müəyyən edilmişdir. Bunun üçün dünya təcrübəsində geniş yayılmış Hovard Qardnerin nəzəriyyəsinə əsasən müəyyən edilmiş səkkiz dərketmə üsulu baxımından tərtib edilmiş test yoxlamaları keçirilmiş, şagird və valideynlər sorğulara cəlb edilmişlər. Əldə edilən məlumatlar şagirdlər haqqında məlumat kartlarına daxil edilmişdir.

Şagirdlərin psixi inkişafı və mənəvi-psixoloji vəziyyəti tədqiq edilərkən yenə də elmlər

namizədi İ. Quliyevanın araşdırmalarına müraciət edilmiş, onlar əsasında tərtib edilmiş müşahidə vərəqləri əsasında tədqiqatlar davam etdirilmiş, müxtəlif parametrlər üzrə psixi inkişafında ləngimə hallarının olub-olmaması baxımından müşahidələr aparılmışdır. Sinifdə müvafiq mənəvi-psixoloji mühit yaradılarkən və təlim təşkil edilərkən istifadə etmək üçün toplanmış məlumatlar şagird haqqında məlumat kartlarına daxil edilmişdir.

Şagirdlərin sosial vəziyyətlərini öyrənmək də bir sıra məsələlər baxımından əhəmiyyətli hesab edilir. Belə ki, uşaqların tapşırıqları yerinə yetirmə marağının az olması, oxu və yazı bacarıqlarının zəif olması, ətrafdakılara qarşı aqressiv münasibəti, zorakılığa meylliliyi, dərslərdən yayınma kimi halların sinifdəki digər şagirdlərin təlim və tərbiyəsinə mənfi təsir göstərməsinin qarşısının alınması üçün onların sosial vəziyyətinin araşdırılması və həmin şagirdlərlə iş apararkən bu mühüm faktorun nəzərə alınması sinifdə aparılan ümumi işin keyfiyyətinə ciddi təsir göstərir. Şagirdin sosial vəziyyətindən irəli gələn mənəvi-psixoloji problemlərə və intellektual fərqlərə əhəmiyyət vermək, onları inkişaf etdirib, sinfin və məktəbin ümumi səviyyəsinə çatdırmaq üçün işlər aparmaq çox vacibdir. Sosial fərqlərin araşdırılması və diqqət mərkəzində saxlanılması üçün lazım olan məlumatları toplamaq üçün valideynlərin iş yerləri və iş şəraitləri, şagirdlərin qidası və mövsümi geyimi, ailənin tərkibi və ailədə neçənci uşaq olması barədə sənədləri araşdırmaqla, valideyn və şagirdlərlə sorğular keçirməklə və söhbət aparmaqla məlumatlar toplanmış və şagirdlər haqqında məlumat kartına yerləşdirilmişdir.

Şagirdin hazırlıq səviyyəsi və inkişaf dinamikası araşdırılarkən müqayisə və dəyərləndirmə üsullarından istifadə edilmişdir. Summativ qiymətləndirmənin nəticələrinə görə hər bir şagirdin əldə etdiyi nailiyyətin səviyyəsi müəyyən edilmiş, həmin nəticələrin oxşar səviyyəli digər şagirdin nəticələri ilə müqayisəsi aparılmışdır. Ümumilikdə sinfin nəticələri ilə oxşar səviyyəli digər sinfin nəticələri ilə müqayisəsi edilmişdir. Şagirdlərin inkişaf dinamikasını müəyyən etmək üçün isə son aylar ərzində hər bir şagirdin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklər izlənir. Uyğun səviyyəli şagirdlərin nəticələrindəki dəyişikliklər müqayisə edilib, onların inkişafının dinamikası müəyyən edilmişdir. Eləcə də bir sindin təlim nəticələrində baş vermiş dəyişikliklər digər sinfin təlim nəticələrində baş vermiş dəyişikliklərlə müqayisə edilmişdir. Beləliklə, siniflərin inkişafındakı dinamika müəyyən edilmişdir. Nəticələrlə bağlı şagird haqqında və sinif haqqında məlumat kartlarında qeydlər aparılmışdır.

Şagirdin maraqları test yoxlamaları və müşahidələr, eləcə də valideynlə söhbət yolu ilə müəyyən edilmişdir. Təlim təşkil edilərkən şagirdin maraq və zövqünün nəzərə alınması, onların nailiyyət keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir edən amillərdəndir. Təlim prosesində, eləcə də sinifdənxaric və məktəbdənkənar işlər aparılarkən bu mühüm amilin nəzərə alınması məqsədi ilə şagirdlər haqqında əldə edilmiş məlumatlar da kartlara daxil edilmişdir.

Şagirdlərin milli-etnik mənsubiyyəti, irqi və dini haqqında məlumatlar da sənədlərin araşdırılması, valideynlərlə söhbət üsulları vasitəsi ilə müəyyən edilmiş və yenə də şagird haqqında kartlara əlavə edilmişdir.

Beləliklə, sinifdə mövcud vəziyyət araşdırılmış, hər bir şagird haqqında geniş məlumat əldə edilmiş və onların da əsasında hər bir sinif üçün məlumat kartı tərtib edilmişdir. Həmin məlumat kartının forması aşağıda təqdim edilir:

*Cədvəl 3. Təcrübəçilər tərəfindən hər şagird üçün tərtib edilmiş “Şagird haqqında məlumat kartı”na dair nümunə*

**ŞAGİRD HAQQINDA MƏLUMAT KARTI**

“Şagird haqqında məlumat kartı “ şagirdlə bağlı araşdırmaların nəticəsinə əsaslanaraq yerinə yetirilir. Bu kart oktyabr ayının sonuna qədər işlənib tamamlanmalıdır. Yuxarı siniflərdə müxtəlif məsələlər baxımından uşaqda baş vermiş dəyişikliklər araşdırılır.

**Şəhər, rayon, məktəbin adı ______________________________________________**
**Şagirdin adı soyadı atasının adı_____________________________________________**
**Tədris ili _________________________Sinif___________________________________**

| I. FİZİKİ FİZİOLOJİ SAĞLAMLIĞI | | | | | |
|---|---|---|---|---|---|
| | **Həkimin rəyi** | **Müşahidə** | **Valideynlə söhbət** | **Test və ya tapşırıq** | **Nəzərə alınmalı məsələlər** |
| **Nitqin inkişafı** | | | | | |
| **Eşitmə aparatı** | | | | | |
| **Görmə aparatı** | | | | | |
| **Dayaq aparatları** | | | | | |

| II. SOSİAL VƏZİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | **Sənədlərin araşdırılması** | **Müşahidə** | **Valideynlə söhbət** | **Şagirdlə söhbət** | **Nəzərə alınmalı məsələlər** |
| **Valideynlərin iş yeri və şəraiti** | | | | | |
| **Qidası və mövsümi geyimi** | | | | | |
| **Dərs ləvazimtları ilə təminatı** | | | | | |
| **Ailənin tərkibi və ailədə neçənci uşaq olması** | | | | | |

| III. İDRAK SƏVİYYƏSİ VƏ DƏRKETMƏ ÜSULLARI | | | | |
|---|---|---|---|---|
| | **Müşahidə** | **Valideynlə söhbət və sorğu** | **Test və ya tapşırıq** | **Nəzərə alınmalı məsələlər** |
| **Əqli inkişafı** | | | | |
| **İdrak səviyyəsi** | | | | |
| **Dərketmə üsulu** | | | | |

| IV. PSİXİ İNKİŞAFI VƏ MƏNƏVİ PSİXOLOJİ VƏZİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | **Müşahidə** | **Şagirdin özü ilə söhbət** | **Valideynlə söhbət** | **Yoldaşları ilə söhbət** | **Nəzərə alınmalı məsələlər** |
| **Psixi inkişafı** | | | | | |
| **Mənəvi psixoloji stabilliyi** | | | | | |

| V. MARAQLARI | | | | | |
|---|---|---|---|---|---|
| | **Müşahidə** | **Şagirdin özü ilə söhbət** | **Valideynlə sorğu** | **Tapşırıq** | **Nəzərə alınmalı məsələlər** |
| **Marağı** | | | | | |

| VI. ŞAGİRDİN HAZIRLIQ SƏVİYYƏSİ VƏ İNKİŞAF DİNAMİKASI | | | |
|---|---|---|---|
| | **Sənədlərin araşdırılması** | **Məlumatların təhlili** | **Nəzərə alınmalı məsələlər** |
| **Diaqnostik qiymətləndirmə** | | | |
| **Summativ qiymətləndirmə** | | | |
| İnkişafın dinamikası | | | |

| VII. ETNİK, DİNİ, MİLLİ MƏNSUBİYYƏTİ | | | | |
|---|---|---|---|---|
| | **Sənədlərin araşdırılması** | **Valideynlə söhbət** | **Şagirdin özü ilə söhbət** | **Nəzərə alınmalı məsələlər** |
| Milliyəti | | | | |
| İrqi | | | | |
| Dini | | | | |

Bu mərhələ başa çatdıqdan sonra ümumiləşdirmə tədqiqat üsulundan istifadə etməklə "Şagird haqqında məlumat kartları" üzərində iş aparılmış və şagirdlər müxtəlif parametrlər üzrə qruplaşdırılmışlar. Beləliklə, öyrənənlərin fiziki-fizioloji vəziyyəti, idrak səviyyəsi, dərketmə üsulu, mənəvi-psixoloji vəziyyəti, sosial vəziyyəti, hazırlıq səviyyəsi, inkişaf dinamikası, maraqları, milli-etnik mənsubiyyəti nəzərə alınmaqla bəzi hallarda eynitərkibli, bəzi hallarda qarışıqtərkibli, bəzi hallarda da həm eyni, həm də qarışıqtərkibli qruplar müəyyən edilmişdir. Təlim təşkil edilərkən düşünülmüş şəkildə müəyyən edilmiş bu cür qruplardan "qrup işi" dərs formasında təlimin məqsədinə müvafiq olaraq seçilməklə istifadə edilir. Bu da təlimin gedişinə, şagird-şagird münasibətlərinin tənzimlənməsində, eləcə də təlim tapşırıqlarının müəyyən edilməsinə əhəmiyyətli təsir göstərir, təlim keyfiyyətinin yüksəldilməsində böyük rol oynayır. Onlardan bəzi nümunələr nəzərinizə çatdırılır:

*Cədvəl 4. "Şagird haqqında məlumat kartları"na əsaslanaraq şagirdlər müxtəlif parametrlər üzrə qruplaşdırılmasına dair nümunə*

| **III. (a) Şagirdlərin dərketmə üsulu nəzərə alınmaqla qrupların tərkibi (eyni tərkibli)** | | | |
|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** |
| Quliyev Kənan | Kərimli Elvin | Nəzərova Xeyransa | Manahova Günay |
| Rəhimov Arif | Əzizli Əbdüləziz | Şükürova Ceyran | Mustafazadə Esra |
| Əliyeva Adilə | Aşumova Nigar | Babayeva Nigar | Rüstəmzadə Aydan |
| Qurbanov Vüqar | Umudlu Bəhram | Məmmədova Gülay | Tağıyev Tofiq |
| | Əli Şəhla | | |

| **III (b) Şagirdlərin dərketmə üsulu nəzərə alınmaqla qrupların tərkibi (qarışıq tərkibli)** | | | |
|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** |
| Quliyev Kənan | Rəhimov Arif | Əliyeva Adilə | Qurbanov Vüqar |
| Kərimli Elvin | Əzizli Əbdüləziz | Aşumova Nigar | Umudlu Bəhram |
| Nəzərova Xeyransa | Şükürova Ceyran | Babayeva Nigar | Əli Şəhla |
| Manahova Günay | Mustafazadə Esra | Rüstəmzadə Aydan | Məmmədova Gülay |
| | | | Tağıyev Tofiq |

Şagird haqqında məlumat kartlarına əsasən "Sinifdə mövcud vəziyyət haqqında məlumat kartı" da işləndi . Beləliklə, "Şagirdin məlumat kartı" müəllimlərə şagird haqqında tam məlumat əldə etməyə, "Sinif haqqında məlumat kartı" isə məktəb rəhbərliyinə hər bir sinifdə mövcud vəziyyət haqqında tam məlumat əldə etməyə, inkişafı izləməyə imkan verir.

Bundan sonrakı təcrübəçilər müəllimlərin perspektiv planlaşmalarını və fəaliyyət planlarını və sinifdə mövcud vəziyyət baxımından araşdırmış, onların tərtibi zamanı yol verilmiş boşluqlar müəyyən edilmiş və aradan qaldırılması ilə bağlı tövsiyələr və təkliflər hazırlanmışdır. Eləcə də sinif müəllimlərinin apardıqları dərslər təlimin təşkilinə verilən tələblər baxımından müşahidə edilmişdir.

*Cədvəl 5. Təcrübəçilər tərəfindən hər sinif üzrə tərtib edilmiş “Sinifdə mövcud vəziyyət” kartına dair nümunə*

**SİNİFDƏ MÖVCUD VƏZİYYƏT**
**Şəhər, rayon, məktəbin adı Bakı şəhəri Səbail rayonu 132-134 saylı**
**Müəllimin adı, soyadı, atasının adı Məlahət Şirinli**
**Tədris ili 2010/2011 Sinif 2[b]**

| I. FİZİKİ FİZİOLOJİ SAĞLAMLIQ | | | | | N |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Nitqin inkişafı | | 18 | 4 | 2 | |
| Eşitmə aparatı | | 12 | 9 | 3 | |
| Görmə aparatı | | 20 | 3 | 1 | |
| Dayaq aparatları | | 24 | | | |

| II. SOSİAL VƏZİYYƏT | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Valideynlərin iş yerində şəraiti | 6 | 12 | 4 | 2 | |
| Qidası və mövsümi geyimi | | 24 | | | |
| Dərs ləvazimtları ilə təminatı | | 24 | | | |

| III. İDRAK SƏVİYYƏSİ VƏ DƏRKETMƏ ÜSULLARI | | | | | | | | | N |
|---|---|---|---|---|---|---|---|---|---|
| | YÜKSƏK | | YAXŞI | | ORTA | | ZƏİF | | NƏTİCƏ |
| Əqli inkişafı | 15 | | 9 | | | | | | |
| İdrak səviyyəsi | | | 24 | | | | | | |
| Dərketmə üsulu (ən çox inkişaf etməsi baxımından) | Bədən kinestik | Lin-qvistik | Məntiqi - riyazi | Vizual-məkan | Səs-musiqi | Fərd-lərarası | Fərd-daxili | Natura-listik | |
| | 4 | 4 | 5 | 4 | 1 | | | | |

| IV. PSİXİ İNKİŞAFI VƏ MƏNƏVİ PSİXOLOJİ VƏZİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Psixi inkişafı | 3 | 19 | 1 | 1 | |
| Mənəvi psixoloji stabilliyi | | 16 | 5 | 1 | |

| V. MARAQLARI | | | | | |
|---|---|---|---|---|---|
| | TƏBİƏT | İDMAN | TEXNOLOGİYA | CANLILAR | NƏTİCƏ |
| Marağı | 6 | 5 | 7 | 6 | |

| VI. ŞAGİRDİN HAZIRLIQ SƏVİYYƏSİ VƏ İNKİŞAF DİNAMİKASI | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Summativ qiymətləndirmə | 10 | 8 | 6 | | |
| İnkişafın dinamikası | 13 | 4 | 5 | 2 | |

| VII. ETNİK, DİNİ, MİLLİ MƏNSUBİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | AZƏRBAYCANLI | İSLAM | AVROPOİD | DİGƏR | NƏTİCƏ |
| Milliyəti | 21 | | | 3 | |
| İrqi | | | 21 | 3 | |
| Dini | | 24 | | | |
| **VIII. SİNFİN TƏRTİBATI VƏ TƏCHİZATI** | | | | | |
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Təmiri | + | | | | |
| Cədvəllər və şəkillər | | + | | | |
| Şagirdlərin əl işləri | + | | | | |
| Texniki avadanlıqlar | + | | | | |
| Mebel | | + | | | |

Sinifdə mövcud vəziyyət araşdırılandan və məlumatlardan istifadə etməklə təlimin təşkili ilə bağlı müvafiq işlər aparılandan sonra sinif müəllimlərinin perspektiv və cari dərs planları təcrübəçilərin tədqiqat obyektinə çevrildi. Sinif üzrə perspektiv (illik) planlaşma sinifdə mövcud vəziyyət nəzərə alınmaqla tərtib edilib-edilmədiyini müəyyən etmək üçün aparılan araşdırmaların sonunda aşkar edilmiş problemlərlə bağlı təkliflər hazırlamış və müəllimlərə təqdim etmişlər. Tövsiyələr hazırlanarkən bir məsələ xüsusilə vurğulanmışdır ki, müxtəlif müəlliflər qrupu tərəfindən tərtib edilmiş illik planlaşma nümunələrindən istifadə edildiyi təqdirdə, onlara yaradıcı yanaşmaq və sinfin mövcud vəziyyətinə uyğunlaşdırmaq vacibdir. Əks halda konkret sinifdə mövcud vəziyyətə uyğun olmayan bir illik plan-proqram özünü doğrultmayacaq və bütün şagirdlərin nəzərdə tutulmuş standartlara cavab verməsi mümkün olmayacaqdır.

Sinif müəllimlərinin cari planları isə dərslər müşahidə edilməklə araşdırılmışdır. Müəllimlər dərsə başlamazdan əvvəl dərsin planını müşahidəçi təcrübəçilərə təqdim etmiş, sonra isə dərsi aparmışdır. Dərs planı baxımından dərsin gedişini müşahidə edən təcrübəçilər təqdim edilmiş müşahidə vərəqləri baxımından təlimin təşkilini dəyərləndirmiş, dərs və dərs planlarını müəyyən edilmiş tələblər baxımından sinif müəllimlərinin iştirakı ilə müzakirə etmişlər.

Növbəti mərhələdə isə müəllimin perspektiv planı üzrə apardığı təlim-tədrisin davamı olaraq sinifdə mövcud vəziyyət nəzərə alınmaqla gələcək müəllimlər tərəfindən dərs planları tərtib edilmiş, müvafiq təlim materialları hazırlamış, sinif müəllimin və digər təcrübəçilərin iştirakı ilə dərslər nümayiş etdirmişdir. Dörd sinifdə qırx səkkiz saat ərzində təcrübəçilər tərəfindən nümayiş etdirilən dərslər hər iş gününün sonunda kollektiv şəkildə müzakirə edilir, dərsin təşkilində əldə edilmiş uğurlar və yol verilmiş nöqsanlar qeyd edilir və növbəti dərslərdə dərs aparacaq təcrübəçilər üçün istiqamət olurdu. Tələbələrə iki və ya daha artıq dərs aparmağa imkan yaradılırdı ki, əvvəlki dərslərdə yol verilmiş nöqsanların aradan qaldırılması üçün müvafiq işlər aparılsın. Təcrübəli sinif müəllimləri bu dərslərdən çox bəhrələndiklərini dəfələrlə bildirmişlər. Üç həftə ərzində aparılmış təcrübə başa çatanda əldə edilmiş nəticələr üzrə ümumiləşdirmələr aparılmışdır.

Aparılmış təcrübələrin sonunda əldə edilmiş nəticə ondan ibarət olmuşdur ki, təcrübənin proqramı, yuxarıda qeyd edildiyi kimi, tərtibi gələcək müəllimlərin "özünüinkişaf"ı və "özünürealizə"sinə geniş imkanlar yaratmışdır. Təcrübəçilər əvvəlki üç mərhələdə əldə etdikləri bilik, bacarıq və dəyərləri dörd və beşinci mərhələdə təkmilləşdirərək, təcrübədə sərbəst tətbiq edir. Nəzərə alınmalıdır ki, pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələləri yalnız bir fənn çərçivəsində tərtib edilmişdir. Bütün Tədris planı bu mərhələliyin gözlənilməsi məntiqi ilə tərtib edildiyi təqdirdə nəticələrin dəfələrlə yüksək olması gözlənilə bilər.

**Problemin aktuallığı.** "Təhsilin əsasları" fənninin üç semestri ərzində pedaqoji təhsilin məzmun

və texnologiyalarının beş mərhələsindən üçü reallaşdırılmışdır. Dördüncü semestrdə “Məktəbin və sinfin idarəedilməsi və təlim prosesinin təşkili” bölməsi çərçivəsində gələcək müəllimlərə özünütəkmilləşdirmə və özünüreallaşdırma imkanları yaradan məktəb təcrübəsinin yeni modelinin işlənib hazırlanmasına ehtiyac yaranmışdır.

**Problemin yeniliyi**. “Təhsilin əsasları” fənni çərçivəsində gələcək müəllimlərin məktəb təcrübəsinin yeni modeli diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə doktorant və dissertantlar, müəllimlər üçün faydalı olacaqdır.

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **P.B. Əliyev,**
*ped.ü.fəls.dok., dos.* **M.S. Kazımov**
**Redaksiyaya daxil olub:** 02.02.2022

**UOT 371**

***Nuranə Bəhram qızı Cəbrayılova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu*
*https://orcid.org/0000-0002-3490-6201*
*https://doi.org/10.5281/zenodo.6445115*

## KORPORATİV TƏHSİL MÜHİTİNDƏ SOSİAL ŞƏBƏKƏLƏRİN TƏHLİLİ

***Нурана Бахрам гызы Джабраилова***
*диссертант по программе доктора философии*
*Институт информационных технологий НАНА*

## АНАЛИЗ СОЦИАЛЬНЫХ СЕТЕЙ В КОРПОРАТИВНОЙ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЕ

***Nurana Bahram Jabrailova***
*doctorial student in the proqram of doctor of philosophy*
*Institute of Information Technologies of ANAS*

## ANALYSIS OF SOCIAL NETWORKS IN THE CORPORATE EDUCATION ENVIRONMENT

**Xülasə.** Sosial şəbəkə saytlarının artan xidmətləri və populyarlığı hər gün bu saytlardan istifadə edən istifadəçilərin sayının və paylaşılan məlumatların artmasına gətirib çıxarır. Buna görə də sosial şəbəkələrə insanların davranışlarını, istəklərini və ehtiyaclarını, habelə onlar üçün vacib olan hadisələri və mövzuları daha yaxşı dərk etməyə səbəb olan bir çox akademik, korporativ və sənaye araşdırma fəaliyyətlərinin obyekti kimi baxılır. Təhsil sahəsində də fəaliyyət göstərən tərəflərin əksəriyyətinin sosial şəbəkə istifadəçiləri olduğunu nəzərə alsaq, sosial şəbəkələrin təhsil mühitində analizi məsələsinin tədqiqinə ehtiyac duyulur. Buna görə də korporativ təhsil mühitində təhsilin keyfiyyətinin artırılması məqsədilə sosial şəbəkələrin intellektual analizi üçün yeni metod və alqoritmlərin işlənməsi aktual məsələ olaraq qalmaqdadır.
***Açar sözlər:*** *sosial şəbəkə, sosial şəbəkə analizi, sosial şəbəkə xidmətləri, korporativ təhsil mühiti, şəbəkə kapitalı*

**Резюме.** Растущие услуги и популярность сайтов социальных сетей приводят к увеличению числа пользователей, которые используют эти сайты каждый день, и информации, которой они обмениваются. Поэтому социальные сети рассматриваются как объект многих академических, корпоративных и промышленных исследований, которые ведут к лучшему пониманию поведения, желаний и потребностей людей, а также важных для них событий и тем. Учитывая, что большинство субъектов, вовлеченных в образование, являются пользователями социальных сетей, возникает необходимость исследования анализа социальных сетей в образовательной среде. Поэтому разработка новых методов и алгоритмов интеллектуального анализа социальных сетей с целью повышения качества обучения в корпоративной образовательной среде остается актуальной.
***Ключевые слова:*** *социальные сети, анализ социальных сетей, сервисы социальных сетей, корпоративная обучающая среда, сетевой капитал*

**Summary.** The growing services and popularity of social networking sites is leading to an increase in the number of users who use these sites every day and the information shared. Therefore, social networks are seen as the object of many academic, corporate, and industrial research activities that lead to a better understanding of people's behaviors, desires, and needs, as well as events and topics that are important to them. Given that the majority of parties involved in education are social network users, there is a need to

study the analysis of social networks in the educational environment. Therefore, the development of new methods and algorithms for the intellectual analysis of social networks in order to improve the quality of education in the corporate education environment remains relevant.

***Key words:*** *Social networking, social network analysis, social networking services, corporate learning environment, network capital*

Texnologiyanın və internet texnologiyalarının sürətli inkişafı insanların, təşkilatların və dövlətlərin qarşılıqlı əlaqəsi üçün yeni imkanlar yaradır. İnternetin həyatımızın ayrılmaz bir hissəsinə çevrilməsi ilə birlikdə insanlar iş, təhsil, biznes, əyləncə və s. məlumat mübadiləsi üçün internetdən istifadə edir və günün çox hissəsini internetdə keçirirlər. İnternet və onun təqdim etdiyi xidmətlərin sürətlə inkişafı cəmiyyətə təsirin yeni üsul və vasitələrinin meydana çıxmasına səbəb olur [1].

Son illər internet, xüsusilə də Web – texnologiyaları sahəsində yaranan yeniliklərdən biri də sosial şəbəkələrdir. Sosial şəbəkələr dünyanın istənilən nöqtəsində yerləşən oxşar maraqları, kökləri və fəaliyyətləri olan insanlar arasında virtual əlaqə qurmaq üçün web xidmət növüdür. Bu xidmət növü şəxsləri birləşdirməyə, qohumlarla, dostlarla, tanışlarla, həmkarları ilə ünsiyyət saxlamağa, informasiya mübadiləsi etməyə imkan verir.

Sosial şəbəkələr ilk insanlar ortaya çıxandan və ilk ictimai qarşılıqlı təsirlərdən sonra mövcud olan quruluşlardır. "Sosial şəbəkə" termini insanların real münasibətləri, istifadəçilərin veb servislərdə münasibətləri, veb servislərin özləri kimi bir neçə mənada istifadə olunduğuna görə müzakirəsi çətinlik yaradır. Ancaq bu gün bu konsepsiya insanların duyğularını, düşüncələrini və məlumatlarını internet və ya bir şəbəkə vasitəsilə çatdırmaqla bir-biri ilə qarşılıqlı əlaqə qurmasına imkan verən sosial bir ictimaiyyətin formalaşdırılması kimi müəyyən edilə bilər.

İnternet mühitində sosial şəbəkə, məzmunu şəbəkə iştirakçıları tərəfindən doldurulmuş interaktiv çox istifadəçi veb saytıdır. Sayt ümumi maraqla birləşdirilmiş bir qrup istifadəçiyə ünsiyyət imkanı verən avtomatlaşdırılmış sosial mühitdir. Bunlar, son dövrlərdə aktiv şəkildə inkişaf edən tematik forumları, xüsusilə sənaye sahələrini əhatə edir.

Sosial şəbəkə saytları yaranandan sonra istifadəçilərin real münasibətləri, fikirləri, düşüncələri, ünsiyyətləri rəqəmsal verilənlərə çevrilmişdir. Gündəlik həyatımızda istifadə edərək köhnə dostlarla ünsiyyət qurmaq, yeni dostlar tapmaq, qruplar formalaşdırmaq, özümüz və fikirlərimiz haqqında məlumat paylaşmaq və müxtəlif fəaliyyətlərdə olduğumuz sosial şəbəkələrin bu qazandırdıqları ilə yanaşı, davranışlarımızın analiz edilməsinə icazə vermək, düşmənlərimizə imkan vermək, təhdid olunmaq, şəxsi məlumatımızı paylaşaraq təhlükəsizliyimizi təhlükə altına atmaq kimi problemləri də vardır.

Sosial şəbəkələr gündən-günə daha çox populyarlaşır və intensiv olaraq tədqiqat obyektinə çevrilməkdədir. Bundan başqa onların istifadə sahələri sürətlə genişlənir – biznes, tibb, təhsil və s. müxtəlif elmi sahələri əhatə edir.

XXI əsrin təhsil sferası da digər sektorlarda olduğu kimi, daim dəyişən daxili və xarici mühitə uyğunlaşmağa çalışır. Texnoloji, sosial, iqtisadi və müştəri davranışındakı inkişaf dünyadakı təhsil ocaqlarını yeni yanaşmalar, nəzəriyyələr, proseslər və sistemlər inkişaf etdirməyə, mənimsəməyə və uyğunlaşdırmağa məcbur edir. Bu yeni reallığa uğurla yanaşmaq və təhsildə tədqiqat aparmaq, bəlkə də son on ilin ən çətin problemlərindən biridir.

SŞX-nin (sosial şəbəkə xidmətləri) müxtəlif tədqiqat sahələrində müzakirə mövzusuna çevrilməsinə baxmayaraq, təhsil sahəsində bu cür araşdırmaların sayı çox azdır. Tədqiqatların çoxu tələbələrin SŞX-nin real istifadəsinə və onların tələbənin akademik nailiyyətlərinə göstərdikləri təsirlərə diqqət yetirir. Tədqiqatçılar SŞX -nin istifadəçilərə təsirini qiymətləndirmək üçün normadan artıq istifadənin psixoloji, fiziki, şəxsiyyətlərarası və təhsil problemlərinə səbəb olacağını göstərmiş, eyni zamanda, bu xidmətin təhsildə yeni paradiqmaların təsvir olunması üçün necə istifadə oluna biləcəyini araşdırmışlar.

SŞX-nin şagirdlər, tələbələr, müəllimlər və s. kimi təhsildə maraqları olan şəxslər tərəfindən istifadə edilməsi tədqiqatçıların bu sahədə tədqiqat aparması üçün böyük imkan təklif edir. Sosial şəbəkə istifadəçiləri tərəfindən yaradılan məzmunların həcminin artması Big Data problemlərinə gətirib çıxarır.

Gənclərin və yeniyetmələrin həyatında sosial şəbəkələrin rolunun öyrənilməsi bir neçə istiqamətə bölünə bilər:

1) Sosial şəbəkələrdən istifadə etmək üçün motivasiyanın tədqiqi: burada gənclərin və yeniyetmələrin sosial şəbəkələrdən istifadə etməsinin səbəbləri araşdırılır.

2) Sosial şəbəkələrin sosial – psixoloji tədqiqi: bu yanaşmada daha çox fərdin sosial – psixoloji xüsusiyyətləri ilə şəxslərarası ünsiyyət qabiliyyəti, münaqişə və sosial şəbəkələrin istifadəsi arasındakı əlaqələr tədqiq olunur.

3) Sosial şəbəkələrin yeniyetmələrin sosial əlaqələrinin inkişafında rolunun tədqiqi: bu yanaşma iki baxımdan tədqiq edilə bilər: təhlükəsizlik və sosial kapital.

4) Virtual əlaqələrin xüsusiyyətlərinin tədqiqi.

5) Sosial şəbəkələrin gənclərin həyatının müxtəlif aspektlərinə təsirinin tədqiqi: bu yanaşmada aparılan tədqiqatlar daha çox sosial şəbəkələrin təsiri ilə gənclərin davranışlarının və akademik nailiyyətlərinin necə dəyişdiyinin qiymətləndirilməsidir.

6) Sosial şəbəkələrin "olduğu kimi" tədqiqi: bu yanaşma sosial şəbəkələrin "olduğu kimi" öyrənilməsidir. Bu qrupa gənclərin sosial şəbəkələrin istifadəsinə yönəldilmiş tədqiqatları, onların əlaqə çevrəsini, sərf etdikləri vaxtı əhatə edir. Burada davranış xüsusiyyətləri cinsi, yaşı, təhsil, maliyyə vəziyyəti və istifadəçilərin yaşadığı yerdən asılı olaraq təhlil olunur.

Təhsildə sosial şəbəkələrin rolunu araşdırarkən ən əsası aşağıdakı suallar cavablandırılmalıdır:

1. Məktəblilər və ya tələbələr nə üçün sosial şəbəkələrə üz tuturlar?
2. Onlar sosial şəbəkədə nə edirlər?
3. Sosial şəbəkələr onların real sosial həyatına necə təsir edir?

Aparılan tədqiqatlar sosial şəbəkə istifadəçilərinin böyük hissəsini gənclərin təşkil etdiyini ortaya çıxarmışdır. Gənclər sosial şəbəkələrdə çox vaxt sərf edir və bu şəbəkələr vasitəsilə ətraf mühitlə qarşılıqlı əlaqə yaratmağa çalışırlar. Bundan əlavə, sosial şəbəkələr həyatımızın (təhsil, iş, sosial həyat, şəxsi həyat və s.) bir çox müxtəlif nöqtəsində zəruri bir vasitəyə çevrilmişdir. Sosial şəbəkələr sayəsində insanlar zaman və məkandan asılı olmayaraq, hər bir mövzuda öz duyğularını, düşüncələrini və məlumatlarını asanlıqla paylaşa bilər və istədikləri insanlar ilə asanlıqla informasiya mübadiləsi edə bilərlər. Bu baxımdan təhsil müəssisələrində sosial şəbəkələrə baxdığımızda administratorlar, təlimçilər və digər köməkçi qurumlar tələbələrlə sosial şəbəkələr vasitəsilə ünsiyyət qura və problemlərini həll edə bilərlər. Bundan əlavə, pedaqoqlar sosial şəbəkələr vasitəsilə dərs ilə bağlı materialları bölüşə və tələbələrə dərslər haqqında bir-biri ilə qarşılıqlı ünsiyyət imkanı verə bilərlər.

Sosial şəbəkə saytlarının artan xidmətləri və populyarlığı hər gün bu saytlardan istifadə edən istifadəçilərin sayının və paylaşılan məlumatların artmasına gətirib çıxarır. Sürətlə artan məlumatlar sosial şəbəkələrin analizi məsələsini aktuallaşdırır.

Sosial şəbəkələr ictimai bir fenomen kimi uzun müddət əvvəl meydana çıxmışdır. SŞA şəbəkə üzvləri arasındakı qarşılıqlı əlaqələri araşdırmaq, davranışları təxmin etmək, şəbəkədə məlumat axınlarını modelləşdirmək və təsnifat üçün istifadə olunur.

Son on il ərzində sosial şəbəkə analizinin tədqiqində yeni mərhələ başlamışdır. Belə ki, əsas diqqət kiçik şəbəkələrin analizindən minlərlə və ya milyonlarla təpə nöqtəsi olan sosial şəbəkələrin analizinə yönəlmişdir. Bunun iki səbəbi var:

1) sosial media şəbəkələrinin kütləvi istifadəsi və genişlənməsi;

2) bu mediadan əldə olunan böyük verilənlər bazasının mövcudluğu.

SŞA şəbəkə daxilində aktorlar arasındakı münasibət və əlaqələrə əsaslanır. Şəbəkə analizində əsas aksiom aktorların müstəqil deyil, əksinə, bir-birinə təsir edən olmasıdır. SŞA sosial subyektlər arasında əlaqələrin strukturunu öyrənir və bu əlaqələrin nəticələri ilə əlaqədardır. SŞA digər tərəfdən "məlumatın yığılması, statistik analizi və vizuallaşdırılması üçün konkret metodları əhatə edən riyazi metodlar və fərqli metodologiyalar çoxluğundan" istifadə edərək şəbəkədə "sosial əlaqələrin analizi" kimi müəyyən edilir. Buna görə, sosial şəbəkə analizi "aktorlar arasında sosial əlaqələrin qanunauyğunluqlarının aşkarlanması və interpretasiyası" məqsədilə statistika ilə yanaşı güclü metodoloji alətə çevrilmişdir. Sosial şəbəkə analizi "bir-birilə əlaqəli aktorlar çoxluğu"; "bir və ya daha

çox əlaqəli sosialyönümlü aktorlar çoxluğu", "aktorlar arasında bütün müvafiq əlaqələrin təsviri" kimi müəyyən olunur.

Hal-hazırda insanlar sosial şəbəkələr vasitəsilə virtual ünsiyyət qurma imkanına sahibdir. Şübhəsiz, sosial şəbəkələrdəki ünsiyyət prosesində insanların məlumat və davranışlarını analiz etmək real həyatdakından çox daha asan və əlverişlidir. Buna görə də sosial şəbəkələrin analizi müasir tədqiqatçılar arasında böyük marağa sahibdir. SŞA üçün aşağıdakı tədqiqat sualları araşdırılmalıdır:

– Bu sahədəki əsas araşdırma istiqamətləri;

– Sosial şəbəkə xüsusiyyətlərinin tədqiqinin faydaları;

– Şəbəkə analizinin müxtəlif modellərində istifadə olunan metod və alqoritmlər;

– Sosial şəbəkə təhlili üçün proqramlar.

SŞA-nın əsas istiqamətləri:

Hazırda sosial şəbəkələrin analizi üçün dörd əsas tədqiqat sahəsi ayrılır: struktur, resurs, normativ və dinamik.

Struktur yanaşmada bütün şəbəkə istifadəçilərinə digər şəbəkə istifadəçilərinə və tillərin konfiqurasiyasına təsir edən qrafın təpələri kimi baxılır. Şəbəkənin geometrik ölçüsünə və qarşılıqlı əlaqələrin sıxlığına diqqət yetirilir və buna görə də təpə nöqtələrinin qarşılıqlı təşkili, mərkəzilik, qarşılıqlı əlaqələrin tranzitivliyi kimi xüsusiyyətlər araşdırılır. Nəticələri bu istiqamətdə şərh etmək üçün struktur nəzəriyyələri və şəbəkə mübadiləsi nəzəriyyəsindən istifadə olunur.

Resurs yanaşması iştirakçıların müəyyən məqsədlərə nail olmaq üçün fərdi və şəbəkə resurslarını cəlb etmək imkanlarını nəzərdən keçirir və iştirakçıları sosial şəbəkənin eyni struktur mövqelərində öz resursları ilə fərqləndirir. Fərdi resurslar bilik, nüfuz, sərvət, irq, cinsiyyət və s. ola bilər. Şəbəkə resursları dedikdə təsir, vəziyyət, məlumat, sərmayə və s. başa düşülür.

Normativ istiqamət iştirakçılar arasında inam səviyyəsini, sosial şəbəkə iştirakçılarının davranışını və qarşılıqlı əlaqə proseslərinə təsir edən normalar, qaydalar və qanunları öyrənir. Bu halda şəbəkənin bu tili ilə əlaqələndirilən sosial rollar analiz edilir, məsələn, rəhbər və işçi münasibətləri, dostluq və ya qohumluq bağları. İstifadəçinin fərdi və şəbəkə resurslarını bu şəbəkədə fəaliyyət göstərən norma və qaydalarla birləşməsi, "şəbəkə kapitalını" formalaşdırır. Sadələşdirilmiş formada "şəbəkə kapitalı" bir istifadəçinin müəyyən bir hədəfə çatmaq üçün istənilən vaxt əldə edə biləcəyi avantajların bir qismi olaraq görülə bilər.

Dinamik yanaşma zaman keçdikcə şəbəkə strukturundakı dəyişikliklərin olduğu sosial şəbəkələrin araşdırma obyektlərinin öyrənilməsinə istiqamətlənir: hansı səbəbdən şəbəkənin tillərinin görünüb-görünmədiyini, şəbəkənin daxili təsirlər altında strukturunun necə dəyişdiyini, sosial şəbəkənin hər hansı bir stasionar konfiqurasiyası olub-olmadığını və s.

Şəbəkənin ən vacib təpələrini, əlaqələrini, birliklərini və inkişaf etməkdə olan hissələrini müəyyənləşdirmək üçün sosial şəbəkələrdəki davranış əlaqələrinin təhlili və struktur analizi lazımdır. Bu analiz şəbəkənin qlobal təkamül davranışını nəzərdən keçirməyə imkan verir. Struktur analiz və davranış əlaqələrinin analizi üçün statik analiz metodları, icmaların aşkarlanması üsulları və təsnifat alqoritmləri istifadə olunur.

*Sosial şəbəkələrin statik analizi.* Elmi tədqiqatlarda böyük ölçülü şəbəkələrin struktur xüsusiyyətləri ətraflı təhlil edilmişdir. "Tipik" sosial şəbəkələr araşdırılır, əgər sosial şəbəkə böyüdülərsə, necə görünəcəyi sualı, sosial şəbəkələrin tipik temporal xüsusiyyətlərinin davranışı tədqiq edilir. Məsələn, genişlənmə prosesində şəbəkə strukturu və ya qrafın əlaqəli komponentlərinin davranışı və paylanması necə dəyişir. Vaxt keçdikcə şəbəkəyə yeni təşkilatlar əlavə olunur, lakin bununla belə qrafın bəzi xüsusiyyətləri qorunub saxlanıla bilər.

*Sosial şəbəkədə icmaların aşkarlanması:* Bu sual təsnifat məsələsinə olduqca yaxın olmasına baxmayaraq, sosial şəbəkə təhlilində vacibdir. Məqsəd istifadəçilərin aktiv qarşılıqlı təsir göstərdiyi şəbəkə bölgələrinin müəyyən olunmasıdır. Alqoritmik olaraq, bu problem qrafların ayrılması probleminə aid edilə bilər. Şəbəkəni qovşaqlar arasındakı əlaqələrin davranışına əsasən sıx bölgələrə ayırmaq lazımdır. Kompüter sosial şəbəkələri dinamikdir, bu icmaların aşkarlanması baxımından çətinliklərə səbəb olur. Bəzi hallarda şəbəkənin informasiya məzmununu icmaların aşkarlanması prosesinə inteqrasiya etmək mümkündür. Belə olduqda məzmun oxşar marağı olan iştirakçıların qruplarını müəyyənləşdirmək üçün köməkçi vasitəyə çevrilir.

*Sosial şəbəkə məzmunlarının analizi.* Dörd növ şəbəkə məzmunu analizi var:

1) Verilənlərin istənilən növləri ilə ümumi məlumatların analizi;
2) Mətn analizi;
3) Multimedia analizi;
4) Sensor və axın analizi;




*Media verilənlərin analizi.* Faydalı biznes proqramları tapmaq üçün sosial media şəbəkələri analiz edilə bilər. Verilənlərin analizi üsulları tədqiqatçıları və mütəxəssisləri geniş, birləşmiş, dəyişən media məlumatlarını təhlil etmək üçün vasitələrlə təmin edir.

*Sosial şəbəkələrdə mətn məlumatlarının analizi.* Sosial şəbəkələrdə çox sayda mətni informasiyalar mövcuddur. Məsələn, mesajlar, bloqlar və ya xəbərlərə olan sitatlar və s. Bəzən istifadəçilər bir-birinə linklər şəklində olan mətni informasiya vasitəsilə təsir edə bilirlər. Sosial şəbəkə məzmununun istifadəsi, məsələn, təsnifat və klasterləşdirmə məsələlərində sosial şəbəkələri təhlil edərkən nəticələrin keyfiyyətini böyük dərəcədə artıra bilər.

*Şəbəkə multimedia məlumatlarının analizi.* Media mübadiləsi üçün məlumatı paylaşmaq imkanı verən Flickr, Twitter, Facebook, Youtube və s. kimi bir çox media paylaşma saytları var. Belə kütləvi informasiya vasitələrinin ümumi istifadəsi etiketləmə və müxtəlif şəkillərdə şərhlərin yerləşdirilməsi – istifadəçi qarşılıqlı təsirləri ilə tez-tez birləşdirilir. Buna görə də belə şəbəkələr məlumatların təhlili və çıxarılması prosesində geniş şəkildə istifadə üçün mənbə rolunu oynaya bilər.

Şəxslərin sosial şəbəkələrdə çox fəal iştirakı o deməkdir ki, hər gün milyonlarla yeni məlumat parçası yaranır. Buna görə də sosial şəbəkələrə insanların davranışlarını, istəklərini və ehtiyaclarını, habelə onlar üçün vacib olan hadisələri və mövzuları daha yaxşı dərk etməyə səbəb olan bir çox akademik, korporativ və sənaye araşdırma fəaliyyətlərinin obyekti kimi baxılır.

Statistikanı nəzərə aldıqda internet istifadəçilərinin əksəriyyətini sosial şəbəkə istifadəçilərinin təşkil etdiyini görürük. Son dövrlər gənclərin sosial şəbəkələrdə çox vaxt sərf edərək bu şəbəkələr vasitəsilə ətraf mühitlə qarşılıqlı əlaqə yaratmağa çalışması reallıqdır. Sosial şəbəkələr sayəsində fərdlər zamandan və məkandan asılı olmadan istənilən mövzuda, istənilən insanla duyğu, düşüncə və məlumatlarını rahat bir şəkildə paylaşa bilərlər.

Təhsil insan fəaliyyətinin daha çox informasiya resursları toplanan sahəsidir. Təhsil sahəsində maraqlı olan tərəflər (təhsilalanlar, valideynlər, müəllimlər və s.) arasında olan münasibətləri sosial şəbəkə məlumatlarından istifadə edərək analiz etmək olar. Korporativ təhsil mühitində sosial şəbəkə məlumatlarını analiz edərək müəllimlərin qiymətləndirilməsi, valideynlərin övladlarına nəzarət, şagirdlərin münasibətlərinin analizi kimi müxtəlif məsələlərə baxmaq olar.

Tələbələr, şagirdlər, müəllimlər və s. istifadəçilər tərəfindən yaradılmış məzmunları təhlil edərək təhsilin keyfiyyətinin artırılması üçün müəyyən addımlar atmaq olar. Məsələn, tələbə və şagirdlər tərəfindən yaradılan məzmunların təhlili, yanlış davranışın yaratdığı faciələrin öncədən anlaşılmasına və hətta qarşısının alınmasına gətirib çıxara bilər. Tədris üsulları, eləcə də tələbələrin qarşılaşdıqları problem və maneələrlə bağlı müxtəlif məsələlərin monitorinqi və təhlili sistemlərinin inkişafı təhsil üçün daha yaxşı mühitin yaradılması deməkdir. Belə bir mühit təhsil sistemlərinin effektivliyini artırar və daha yüksək təhsilli cəmiyyətlərə töhfə verə bilər.

**Problemin aktuallığı.** Təhsil sahəsində fəaliyyət göstərən tərəflərin əksəriyyətinin sosial şəbəkə istifadəçiləri olması sosial şəbəkələrin təhsil mühitində analizi məsələsini aktuallaşdırır.

**Problemin elmi yeniliyi.** Tədqiqat sosial şəbəkələrin təhsilin keyfiyyətinin artırılmasında hansı imkanlara sahib olduğunu müəyyənləşdirir.

**Problemin praktik əhəmiyyəti.** Korporativ təhsil mühitində sosial şəbəkələrin analizi təhsilin keyfiyyətinin artırılmasına yönəldiləcəkdir.

**Ədəbiyyat:**


1. Əliquliyev, R.M. Sosial şəbəkələr / R.M. Əliquliyev , Y.N. İmamverdiyev , F.C. Abdullayeva . – Bakı: İnformasiya texnologiyaları, -2010. - 288 s.
2. Термин «Социальные сети» [Электронный ресурс] // Социальные сети от А до Я: путеводитель по социальным сетям Интернета. – URL: http://www.social-networking.ru/article/social-networks.
3. Золотухин С.А. Роль социальных сетей в информатизации образования//Дискуссия / Ин-т сов. тех. упр. -2013. № 5–6. С. 152–157
4. Фещенко А.В. Социальные сети в образовании: анализ опыта и перспективы развития – Гуманитарная информатика. Вып.6 – 2011.– С. 124–134.
5. Савзиханова С.Э. Социальные сети как инструмент социокультурной модернизации образования // Креативная экономика. – 2013. – Том 7. – № 9. – С. 97-104.
6. Роль виртуальных социальных сетей в жизни современного школьника. Отчет по итогам НИР. / Аржаных Е.В., Задорин И.В., Колесникова Е.Ю., Гуркина О.А., Новикова Е.М., Мальцева Д.В. – Москва, 2014. – 107 с.
7. Т. В. Батура. Методы анализа компьютерных социальных сетей. Вестник НГУ. Серия: Информационные технологии. -2012, том 10, выпуск 4, – С. 14-28.
8. Чураков А. Н. Анализ социальных сетей // СоцИс. 2001. № 1. С. 109–121.
9. Wasserman S., Faust K. Social Network Analysis: Methods And Applications. N. Y.: Cambridge University Press, 1994. 825 p.
10. Carter T. Butts. Social network analysis: A methodological introduction. Asian Journal of Social Psychology (2008), 11, p 13–41
11. Zeljko M. P., Rada K., Milos P. Possibilities of using certain social networks in education. Journal Plus Education, Vol XVI (2016), No. oct. pp. 234 – 242
12. Havar M., Zəfər C., İqbal B. Ali Təhsildə Big Data Texnologiyası Tətbiqinin Üstünlükləri / “Big data: imkanları, multidissiplinar problemləri və perspektivləri” I respublika elmi-praktiki konfransı / -Bakı, -2016.
13. Bayer J., Bydzovska H., Geryk J., Obsvac T., Popelnsky, L.: Predicting Dropout from Social Behaviour of Students. In: Proceedings of the 5th International Conference on Educational Data Mining. pp. 103{109 (2012)
14. Vedanayaki M. A Study of Data Mining and Social Network Analysis. Indian Journal of Science and Technology, Vol 7(S7), 185–187, November 2014
15. Manjunath B.T. et al, Analyzing Social Media Data in Educational Sectors Using Data Mining Techniques (IJCSIT) International Journal of Computer Science and Information Technologies, Vol. 7 (4) , -2016, -2125-2129


**E-mail**: cebrayilovanurane@mail.ru

**Rəyçilər:** *ped.ü. elm. dok., prof.* **F.N. İbrahimov,**
*tex. ü. fəl. dok., dos.* **F.F. Yusifov**
**Redaksiyaya daxil olub**:12.01.22.

UOT 371

**Elduzə Baloğlan qızı Əliyeva**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi işçisi*
*https://orcid.org/ 0000-0002-4740-4673*
*https://doi.org/ 10.5281/zenodo.6462801*

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN REYTİNQ SİSTEMİNİN YARADILMASI

***Эльдуза Балаоглан гызы Алиева***
*старший научный сотрудник Института*
*Образования Азербайджанской Республики*

# СОЗДАНИЕ РЕЙТИНГОВОЙ СИСТЕМЫ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ

***Eldusa Baloglan Aliyeva***
*senior researcher at the*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# ESTABLISHMENT OF THE RATING SYSTEM OF SECONDARY SCHOOLS

**Xülasə.** Təhsil islahatlarının sistemli şəkildə həyata keçirildiyi bir dövrdə yeni yanaşmalardan biri də məktəblərin reytinq sisteminin dəyişməsidir. Məktəb nailiyyətlərinin izlənilməsi və onun inkişafına səmərəli yollarla nail olmaq üçün reytinqin müəyyənləşdirilməsi əsas vasitəyə çevrilmişdir. Ənənəvi olaraq cəmiyyətimizdə valideynlərin, icmanın "Yaxşı məktəb" anlayışı haqqında düşüncələri daha çox güclü maddi-texniki bazası olan, savadlı müəllimlərin cəlb olunduğu, yaxşı müəllim-şagird münasibətlərinin mövcud olduğu və sonda imtahan nəticələrinə görə ön yeri tutan məktəblərdir. Öz övladı üçün məktəb seçən valideyn ilk öncə məktəbin rahat şəraiti, tədrisin keyfiyyəti, müəllimlərin peşəkarlığı, müasir texnologiyaların tətbiqi ilə daha çox maraqlanır. Bu komponentlərin sistemli şəkildə bir-birini tamamlaması tədrisin keyfiyyətinə birbaşa təsir edir. Keyfiyyətli təhsil əldə etməyin yollarından biri ümumtəhsil məktəblərinin reytinqinin müəyyənləşdirilməsi yolu ilə sağlam rəqabətin yaradılmasıdır.
***Açar sözlər**: məktəb, reytinq, inkişaf, keyfiyyət, təhsil, akkreditasiya, zəif, güclü, beynəlxalq təcrübə*

**Резюме**. В период, когда реформы образования осуществляются планомерно, одним из новых подходов является изменение рейтинговой системы школ. Рейтинг стал основным средством для отслеживания достижений школы и достижения ее эффективного развития. Традиционно в нашем обществе родители, общественное мнение о понятии «хорошая школа» – это школы с более прочной материально-технической базой, привлечением образованных учителей, хорошими отношениями учитель-ученик и, в конечном счете, ведением ЕГЭ. Родителя, выбирающего школу для своего ребенка, в первую очередь интересуют комфортные условия школы, качество преподавания, профессионализм педагогов, применение современных технологий. Систематическая взаимодополняемость этих компонентов оказывает непосредственное влияние на качество обучения. Одним из способов получения качественного образования является создание здоровой конкуренции путем определения рейтинга общеобразовательных школ.
***Ключевые слова:** школа, рейтинговая система, развитие, количество, образование, аккредитация, слабый, сильный, международный опыт*

**Summary.** At a time when education reforms are being carried out systematically, one of the new approaches is to change the rating system of schools. The rating has become the main means for tracking the achievements of the school and achieving its effective development. Traditionally, in our society, parents, public opinion about the concept of a "good school" is schools with a stronger material and technical base,

attracting educated teachers, good teacher-student relationships, and, ultimately, conducting the exam. A parent choosing a school for their child is primarily interested in the comfortable conditions of the school, the quality of teaching, the professionalism of teachers, and the use of modern technologies. The systematic complementarity of these components has a direct impact on the quality of education. One of the ways to get a quality education is to create healthy competition by ranking general education schools.

***Key words****: school, rating system, development, quantity, education, accreditation, weak, strong, international experience*

Təhsil insanın həyat fəaliyyətinin ən vacib sahələrindən olmaqla, cəmiyyətin və əhalinin sosial həyatının əsas inkişaf istiqamətlərindən biridir. Miqyas baxımından insan fəaliyyətinin bu sferası – dünya iqtisadiyyatının ən geniş və şaxələnmiş növlərindən biridir. Müasir cəmiyyətdə bu cür insanları özünə cəlb edən və sürətlə inkişaf edən ikinci bir sfera tapmaq çox çətindir. Müasir təhsil sistemi iqtisadi, mədəni və ideoloji faktorlar əsasında formalaşma prosesində olan kompleks bir sistemdir. Təhsilin sistem xarakteristikaları çox dəyişkəndir, çünki o, bir insanın bütün aktiv həyatı boyunca öyrənməsinə imkan verən, davamlı çoxalan təhsil xidmətlərini təmin edərək daha çox mürəkkəb bir ictimai quruma çevrilir.

Tədrisin keyfiyyəti onun hansı şəraitdə, mühitdə və prosesdə inkişaf etdirilməsindən daha çox asılıdır. Beynəlxalq təcrübə sübut edir ki, qiymətləndirmə nəticələri məktəb fəaliyyətinin səmərəliliyini göstərən vasitələrdən biri olsa da, bu, ümumtəhsil müəssisəsinin tam keyfiyyət göstəricilərini özündə ehtiva etmir. Təhsildə qiymətləndirmə üzrə beynəlxalq tənqidçilər ümumtəhsil müəssisəsinin yalnız imtahanlara və ya vəsaitin istifadəsinə əsaslanmadığını qeyd edirlər. Ümumtəhsil müəssisəsinin fəaliyyətinin dəyərləndirilməsi prosesi üç məqsədə xidmət edir: tədris üzrə məlumatların toplanması və təhlil edilməsi, qarşıya çıxan problemlərin müəyyənləşdirilməsi, məktəb fəaliyyətinin qiymətləndirilməsi, dəyişikliklər istiqamətində yeniliklər üçün müvafiq təkliflərin verilməsi. Bu baxımdan, ümumtəhsil sisteminin dəyərləndirilməsi üç əsas istiqaməti özündə birləşdirir: xarici nəzarət, daxili nəzarət və ya özünüdəyərləndirmə və şagird nailiyyətlərinin qiymətləndirilməsi, nəticələr – imtahanlar. Bütün bunlar məktəbin reytinq sistemində yerini müəyyənləşdirilməsinə təsir göstərən amillərdir.

Beynəlxalq təcrübə göstərir ki, ümumtəhsil müəssisələrində keyfiyyət təminatı sisteminin yaradılması müəssisənin fəaliyyət istiqamətinin və xarakterinin kökündən dəyişilməsi üçün bir çox sahələrin təkmilləşdirilməsini və inkişaf etdirilməsini əsas götürməlidir. Bir sıra ölkələrdə reytinqin müəyyənləşdirilməsi fərqli şəkildə təqdim olunur.

Məktəblər akkreditasiya keyfiyyətini hansı formada təmin edir?

* Fəaliyyət standartları və məktəblərdən tələb olunan keyfiyyəti müəyyənləşdirməklə gözləntiləri artırır.

* Zəif və güclü tərəfləri aydınlaşdırır.

* Məktəb üçün təxirəsalınmaz inkişaf istiqamətləri və sonrakı inkişaf mərhələlərini təklif edir.

* Məktəblərin öz inkişafını təmin edəcək qabiliyyəti artıracaq ciddi özünüqiymətləndirməni təsdiq edir.

* Zəif məktəblərin fəaliyyət və inkişafını nəzarətdə saxlayır və idarəedici heyətə dəstək olur.

ABŞ-da, Avropanın bir çox dövlətlərində təhsil sistemində reytinqin müəyyən edilməsi üçün, eləcə də məktəblərdə məlumatları əldə etmək üçün daim dövlət və milli qurumlarla fəaliyyət göstərir. Bu, ölkə səviyyəsində daha dərin bir şəkil təqdim etməyə kömək edir və məktəb profillərini və reytinqləri inkişaf etdirməyə imkan verir. Beynəlxalq təcrübəni araşdırarkən reytinq sisteminin müxtəlifliyi diqqəti çəkir. Əvvəllər əksər dövlətlərdə ümumi Great Schools Reytinqi test ballarına əsaslanırdı. Bəzi dövlətlərdə Great Schools Reytinqi həm də şagirdlərin tərəqqisinə əsaslanır. Məktəb profillərimizdə test ballarına əlavə olaraq vacib məlumatlar da var – uşaqların məktəbdə necə təcrübə keçirmələrində böyük bir fərq yaradan amillər, məsələn, bir məktəbin şagirdlərin akademik şəkildə inkişafına nə qədər kömək etdiyi, məktəbin fərqli sosial-iqtisadi, irqi və etnik şagirdləri necə dəstəklədiyi kimi, qruplar və bəzi qrup şagirdlərin məktəbin nizam-intizamı və davamiyyət siyasətindən qeyri-bərabər dərəcədə təsirlənməməsi. Bu vacib mövzuların çoxu indi öz reytinqinə malikdir və bu temalı reytinqlər məktə-

bin ümumi Great Schools Xülasə Reytinqinə daxil edilmişdir.

*Xülasə Reytinqi.* Great Schools Xülasə Reytinqi bir məktəb profilinin əsasında göstərilir və bir məktəb bütün şagirdlərini sonrakı müvəffəqiyyətə – istər kollec və ya karyera hazırlığına necə yaxşı hazırladığına əsaslanaraq məktəb keyfiyyətinin ümumi görüntüsünü verir. Xülasə reytinqinin hesablanması məktəbin dörd mövzulu reytinqinə (Test Skoru Reytinqi, Şagird və ya Akademik Tərəqqi Reytinqi, Kollec Hazırlığı Reytinqi və Kapital Reytinqi) və bir məktəbdə nizam-intizam və davamiyyət fərqlərinə görə bayraqlara əsaslanır. Hər bir məktəb üçün göstərdiyimiz reytinqlər məlumatların mövcudluğu və ya məktəb səviyyəsinə uyğunluğuna görə dəyişə bilər (məsələn, orta məktəblərdə Kollec Hazırlığı Reytinqi olacaq, lakin ibtidai məktəblərdə olmayacaq). Birini hesablamaq üçün kifayət qədər məlumatımız yoxdursa, bir məktəb üçün Xülasə Reytinqi hazırlamayacağıq.

*Test Hesab Reytinqi.* Test Skoru Reytinqi, məktəblərin siniflər və fənlər üzrə dövlət qiymətləndirmələri üzrə göstəricilərindən (bacarıq dərəcəsi və ya yuxarı olan şagirdlərin faizi) istifadə edərək, dövlətin digər məktəbləri ilə müqayisədə, hər məktəb üçün 1-10 reytinq hazırlamaq üçün məktəbləri qiymətləndirir. Bu məktəbin ümumi Test Skor Reytinqləri məktəb profillərində Akademiklər bölməsində göstərilir və bərabərlik bölməsində şagird alt qrupu (irqi / etnik mənsubiyyəti və ailə gəlirləri) tərəfindən bölünür. Bu reytinq məktəb keyfiyyətinin başa düşülməsində vacib amildir, çünki bütün şagirdlərin akademik standartlara cavab verib-verməməsini ölçür.

*Şagird Tərəqqi Reytinqi.* Şagird Tərəqqi Reytinqi (“artım” kimi də tanınır) bir məktəbdəki şagirdlərin zamanla akademik tərəqqi edib-etməmələrini ölçür. Şagird Tərəqqi Reytinqi, xüsusilə, fərdi şagirdlərin son bir il və ya daha çox müddətdə oxu və riyaziyyat qiymətləndirmələrində nə qədər tərəqqi etdiyinə, bu performansın Dövlət Təhsil Departamenti tərəfindən qurulmuş şagird böyümə modelinə əsaslanaraq gözlənilən tərəqqi ilə necə uyğunlaşdığına və necə baxdığına baxır. Bu məktəbin böyümə məlumatları əyalətin digər məktəbləri ilə müqayisə olunur. Bu məlumatlar bir çox ştatda birdən çox sinifdə dövlət standart testlərini aparmayan orta məktəblər üçün daha az yayğındır. Onsuz da yüksək performanslı şagirdləri olan məktəblərin yüksək Şagird Tərəqqi Reytinqi alması və ya yüksək test balı olan məktəblərin Şagird Tərəqqi Reytinqinin aşağı olması mümkündür. Böyümənin əsas üstünlüyü ondan ibarətdir ki, bu, sosial-iqtisadi bilik səviyyəsindən daha az əlaqəlidir. Şagird Tərəqqi Reytinqinin məqsədi şagird nailiyyətləri baxımından başlanğıc nöqtəsindən asılı olmayaraq şagird nəticələrini yaxşılaşdıran məktəblərdə şəffaflığı təmin etməkdir.

*Akademik Tərəqqi Reytinqi.* Akademik Tərəqqi Reytinqi açıq şəkildə məlumatlarını təqdim etməyən dövlətlərdə göstərilir, yəni Şagird Tərəqqi Reytinqini təmin edə bilməyəcəyimiz deməkdir. Bu dövlətlərdə, əvəzinə şagird səviyyəsində verilən məlumatlar əvəzinə müqayisə olunmayan məktəb səviyyəsindəki məlumatlardan istifadə edən bir model əsasında reytinq olan Akademik Tərəqqi Reytinqidir. Bu məlumatlar, bir çox ştatda liseydə birdən çox sinifdə dövlət standart testlərini qəbul etməyən liseylər üçün daha az yayılmışdır, bu da test ballarında sinifdən-sinfə yaxşılaşdırılmasına baxmağı çətinləşdirir. Bu ölçü Dövlət Təhsil Şöbələri tərəfindən verilən böyümə məlumatlarından istifadə edən Şagird Tərəqqi Reytinqindən daha az dəqiq olduğuna görə, Xülasə Reytinqində daha az çəki verdik. Şagird böyüməsi məlumatları bu dövlətlərdə açıq olduqda, Akademik Tərəqqi Reytinqini Şagird Tərəqqi Reytinqi ilə əvəz edəcəyik.

*Kollec hazırlığı reytinqi.* Kollec Hazırlığı Reytinqi, əyalətdəki digər məktəblərlə müqayisədə liseylərin şagirdlərini kollec və karyerada müvəffəq olmağa necə hazırladıqlarını ölçür. Reytinq orta məktəbin məzuniyyət dərəcəsi, kolleclərə qəbul imtahanları (SAT / ACT performansı) və ya qabaqcıl kurslara qəbul və imtahan nəticələri barədə məlumatlara əsaslanır. Bu reytinq yalnız orta məktəb qiymətləri olan məktəblərə aiddir. İstifadəçilərin maraqlarını daha yaxşı təmin etmək və ölkə daxilindəki məlumatları tam istifadə etmək üçün metodologiyada yenilik edilərək Xüsusi olaraq Advanced Yerləşdirmə, Beynəlxalq bakalavr və ikili qeydiyyat kursları – indi təhlil edilərək Kollecin Hazırlıq Reytinqinə daxil edilmişdir. Yenilənmiş məlumatlar və metodologiya Beynəlxalq Yerləşdirmə qeydiyyatı və imtahandan keçmə qiymətləri

ilə yanaşı Beynəlxalq bakalavr və ikili qeydiyyat kurslarına da daxil olur.

*Kapital reytinqi.* Bərabərlik Reytinqi, bir məktəbin bütün şagirdlərin akademik inkişafına nə dərəcədə yaxşı xidmət etdiyini ölçür: 1) dövlət imtahanlarında əlverişsiz şagirdlərin bütün şagirdlər üçün dövlət orta səviyyəsinə nisbətən və 2) məktəbdə fəaliyyət arasındakı boşluqlar. Maneəsiz şagirdlər və digər şagirdlər. Əlverişsiz şagirdləri dövlət, məktəblər, alt qruplar, siniflər və fənlər arasındakı davamlı boşluqları göstərən irqi / etnik və iqtisadi alt qrupları yaradan şagirdlər olaraq təyin edirik. Bu, məktəbin bu şagirdlər üçün dövlət orta ilə müqayisədə əlverişsiz şagird qruplarının nə dərəcədə yaxşı təhsil aldığını və həm bu nailiyyət səviyyəsində, həm də müvəffəqiyyət boşluqlarında amilləri nəzərə alaraq bu şagirdlərin bu məktəbdəki əlverişsiz şagirdlərlə müqayisədə necə fəaliyyət göstərdiyini anlamağa imkan verir. Aşağı reytinq (1-3) bəzi şagird qruplarının məktəbdə lazımi dəstəyi almadıqlarını, yüksək reytinq (8-10) isə məktəbin müvəffəqiyyət boşluqlarını effektiv şəkildə bağladığını göstərə bilər.

*Aşağı gəlirli reytinq.* Aşağı gəlirli Reytinq, əyalətdəki bütün şagirdlərlə müqayisədə pulsuz və ya endirimli qiymətli nahar etmək hüququ qazanan şagirdlər üçün dövlət test ballarına baxır. Valideynlər üçün məktəblərin fərqli sosial-iqtisadi bölgələrdən olan şagirdlərə necə yaxşı xidmət etdiyini başa düşmələrini asanlaşdırmaq üçün profillərdə aşağı gəlirli reytinqi göstəririk. *Qeyd*: aşağı gəlirli şagirdlərin performans məlumatları məktəbin kapital reytinqinin bir hissəsidir, buna görə məktəbin Xülasə reytinqi bölməsində müstəqil reytinq kimi göstərilmir.

*İntizam və iştirak bayraqları.* İntizam və davam bayraqları Great Schools məktəbdənkənar dayandırılması və şagird orqanlarında xroniki xaric olması ilə əlaqəli məktəbləri müəyyənləşdirmək üçün istifadə etdiyi göstəricilərdir. Bu bayraqların yaradılması iki ilkin mərhələni əhatə edir: yüksək dayandırma və ya xaric olmaq dərəcələri olan məktəblərin müəyyənləşdirilməsi və irqi / etnik şagird qrupları arasında asma və ya xroniki kənarlıq nisbətlərində əhəmiyyətli fərqlər olan məktəblərin müəyyən edilməsi. Bu şərtlər mövcud olduqda "Yarış / etnik" bölməsinin "İntizam və iştirak" bölməsində keçid görünüşü daxilində bir məktəbin "Bərabərlik" hissəsində bayraq görünür.

*Xülasə Reytinq giriş və ölçülər.* Xülasə reytinqi hesablaması yuxarıda təsvir olunan məktəbin tematik reytinqlərinin / bayraqlarının beşinə əsaslanır. Bir məktəbin reytinqinə daxil olan komponentlər məlumatların mövcudluğuna görə dəyişə bilər. Məsələn, qabaqcıl yerləşdirmə dərsləri və kolleclərə qəbul imtahanları kimi kollec hazırlığı tədbirləri əksər liseylərdə mövcuddur, lakin ibtidai və ya orta məktəblərdə deyil və il boyu davam edən inkişafa baxan şagird və ya akademik tərəqqi məlumatları daha az ola bilər dövlət standart testlərin yalnız bir sinifdə verildiyi bir lisey.

Xülasə Reytinqini hesablamaq üçün mövcud məlumatlara əsasən hər bir qiymətləndirmə/bayraq üçün çəkilərdən istifadə edirik; dövlətin digər məktəblərinə nisbətən məktəb haqqında məlumatların miqdarı; verilənlərdə dəyişkənliyin miqdarı; və hər bir məlumat nöqtəsinin kollecdəki şagird müvəffəqiyyəti və uzunmüddətli həyat nəticələri ilə əlaqəli olduğu sübut olunmuş dərəcədir.

Məktəblərin reytinq cədvəli məlumatların şəffaflığını təmin edir. Valideynlərə məktəblər haqqında məlumat almaqda, uşağın inkişafı üçün məktəbdə hansı imkanların yaradıldığını bilməkdə kömək edir. Buna görə də yaxşı olar ki, ölkəmizdə də məktəblərin reytinq göstəriciləri sosial şəbəkələrdə, internet saytlarında paylaşılsın. Məktəb haqqında məlumatların paylaşması valideyn üçün övladına məktəb seçimi etməkdə köməkçi rolunu oynayır. Bundan əlavə, məktəb məlumatlarının əlçatan, istifadəsi asan olan formatlarda olması vacibdir. Qeyri-hökumət təşkilatları da valideynləri və şagirdləri yerli məktəblərin keyfiyyəti barədə məlumatlandırmaq üçün istifadə etsinlər. Hazırda ölkəmizdə məktəblərin reytinqinin müəyyənləşdirilməsi ilə bağlı çoxsaylı tədqiqatlar aparılır. Bu tədqiqatlarda təhsil müəssisələrinin reytinqinin müəyyənləşdirilməsi ilə bağlı müxtəlif təkliflər və layihələr şəklində təqdim olunur. Məsələn, tədqiqatçı İ. Əsədova "Ümumtəhsil məktəblərinin reytinq sisteminin təkmilləşdirilməsinə təsir edən amillər" adlı məqaləsində "Ümumtəhsil müəssisələrində yeniləşmiş reytinq cədvəli üçün yeni indikatorların müəyyən edilməsi Qaydaları"nı layihə şəklində təqdim edir (İ.M. Əsədova

Ümumtəhsil məktəblərinin reytinq sisteminin təkmilləşdirilməsinə təsir edən amillər //Məktəbəqədər və ibtidai təhsil jurnalı, Bakı, 2020, № 3, s. 23-32). Bu məqalədə ümumtəhsil məktəblərinin reytinq cədvəlinin tərtibi zamanı aşağıdakı indikatorlara əsaslanır:

- məktəbin ümumi göstəriciləri;
- təhsilalanların göstəriciləri;
- təhsilverənlərin göstəriciləri;
- təlimdənkənar işlərin təşkili;
- metodik və elmi -praktik işlər.

Məqalədə ümumtəhsil məktəblərinin reytinqinin müəyyənləşdirilməsi metodikası aşağıdakı düsturlardan istifadə yolu ilə aparılır:

$$\dot{I}_1 = (g_1 + g_2 + g_3 + g_4 + \ldots\ldots. g_n)$$

$$R = (\dot{I}_1 + \dot{I}_2 + \dot{I}_3 + \dot{I}_4 + \dot{I}_5) - HŞ$$

R— məktəbin ümumi reytinqi

$\dot{I}_1$, $\dot{I}_2$, $\dot{I}_3$, $\dot{I}_4$, $\dot{I}_5$ — istiqamətlər

$g_1, g_2, g_3, g_4, \ldots\ldots. g_n$,— göstəricilər

$Q_1$, $Q_2$, $Q_3$, $Q_4$, $Q_5$, — ayrılıqda istiqamətlərin qiymətləndirilməsi

HŞ – haqlı şikayətlər.

Məktəb fəaliyyətinin etibarlı ölçüsü hərtərəfli olmalıdır, məktəb prosesləri, şərait, təcrübə və nəticələr nəzərə alınmalıdır. Onlar hesab edir ki, kəmiyyət və keyfiyyət məlumatları sinifdə, məktəb binasında və rayon səviyyəsində qərarları məlumatlandırmalıdır. Hər hansı bir hesabatlılıq sistemindəki məlumatlar yüksək nəticələr üçün deyil, inkişaf üçün istifadə edilməlidir.

**Problemin aktuallığı.** Təhsil islahatlarının həyata keçirilməsi ümumtəhsil müəssisələrində üçün reytinq sisteminin yaradılması məsələsini aktuallaşdırır.

**Problemin elmi yeniliyi** keyfiyyətli təhsilə nail olmaq, məktəblər arasında sağlam rəqabətin yaradılması üçün ümumtəhsil pilləsində məktəblərin müasir reytinq sisteminin yaradılmasıdır.

**Problemin praktik əhəmiyyəti.** Ümumtəhsil məktəblərinin reytinq sisteminin yaradılması məktəb nailiyyətlərinin izlənilməsi və onun inkişafına səmərəli yollarla nail olmaq baxımından əhəmiyyətlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, -2013, № 5
2. Abdullayev Ü. Azərbaycanda təhsilin keyfiyyətinin idarə olunması problemləri və həlli yolları. -Bakı, -2019.
3. Əsədova İ.M. Ümumtəhsil məktəblərinin reytinq sisteminin təkmilləşdirilməsi // Məktəbəqədər və ibtidai təhsil, -Bakı, -2020, № 3, s. 23-32
4. Məmmədzadə R., Abdullayev A., Kərmova F., və b. Təhsilin idarə edilməsinin bəzi problemləri. -Bakı, -2010
5. Novruzov Q., Abbasov Ə., Ənənəvi təhsildən "düşüncə və təfəkkür məktəbi " nə doğru // Azərbaycan məktəbi, 2014, № 3.
6. Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. -Bakı, -2010.
7. Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri. -Bakı, -2014.


**E-mail:** elduza-aliyeva@mail.ru

**Rəyçilər:** *ped.ü. fəls.dok., dos* .**M.S. Kazımov**,
*ped.ü. fəls.dok.* **E.M. Kərimova**
**Redaksiyaya daxil olub:** 12.01.2022.

**UOT 371**

***Gülarə Məhəmməd qızı Qocayeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*https://orcid.org/ 0000-0002-0780-4082*
*https://doi.org/10.5281/zenodo.6445186*

# FƏALİYYƏT – ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ MÜHÜM AMİLİ KİMİ

***Гюлара Мухаммед гызы Годжаева***
*доктор философии по педагогике, старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ДЕЯТЕЛЬНОСТЬ КАК ВАЖНЫЙ ФАКТОР ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ СТУДЕНТОВ СРЕДНИХ СПЕЦИАЛЬНЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

***Gulara Mahammad Gojayeva***
*doctor of philosophy in Pedagogy, senior lecturer at*
*Azerbaijan State Pedagogical University*

# ACTIVITY AS AN IMPORTANT FACTOR IN THE FORMATION OF STUDENT IDENTITY IN SECONDARY SPECIAL EDUCATION INSTITUTIONS

**Xülasə.** Elmi məqalədə fəaliyyət orta ixtisas təhsili müəssisələrində tələbə şəxsiyyətinin formalaşdırılmasının mühüm amili kimi araşdırılmışdır. İlk öncə burada fəal, fəallıq anlayışlarına aydınlıq gətirilmiş, daha sonra isə fəaliyyət sözünün mahiyyəti açıqlanmışdır. Fəaliyyətə o cümlədən sosial fəallıq forması kimi yanaşılaraq, tələbələrin sosial fəallıq tərbiyəsinin qarşısında dayanan əsas məqsəd və vəzifələri açıqlanmışdır.
***Açar sözlər:*** *fəal, fəaliyyət, sosial, tələbə, şəxsiyyət, təhsil*

**Резюме.** В научной статье деятельность рассматривается как важный фактор формирования личности студентов средних специальных учебных заведений. В первую очередь, разъясняются понятия «активный», «активность», а затем поясняется сущность слова «деятельность». Подходя к деятельности как форме социальной активности, были отмечены основные цели и задачи социального воспитания студентов.
***Ключевые слова:*** *активный, деятельность, социальный, студент, личность, образование*

**Summary:** The scientific article examines the activity as an important factor in the formation of student identity in secondary special education institutions. First of all, the concepts of active, activity are clarified here, and then the essence of the word activity is explained. Approaching the activity as a form of social activity, the main goals and objectives of social education of students were announced.
***Key words:*** *active, activity, social, student, personality, education*

Fəaliyyət kateqoriyası müasir psixologiya anlayışları sistemində mühüm yer tutur. Psixologiyada fəallıq, şəxsiyyətin ehtiyac və maraqlarına əsaslanan bir keyfiyyət və fəaliyyətə daxili hazırlıq kimi nəzərdən keçirilir. Fəaliyyət dedikdə insanın fəallığının özünəməxsus forması nəzərdə tutulur. Fəaliyyət sözü fəallıq sözündən əmələ gəlsə də, ancaq eyni məzmunlu anlayış deyildir. Fəaliyyət əsasən insanın davranışında və hərəkətlərində özünü göstərir. Belə ki, fəaliyyət sosial istiqamətlidir, fəallıq isə təbii tələbatların ödənilməsi ilə bağlıdır. Fəaliyyət daha çox insan davranışında və hərəkətlərində özünü göstərir. Fəaliyyəti fəallıqdan fərqləndirən başlıca

cəhətlərdən biri də insan fəaliyyətinin yaradıcı xarakterdə olmasıdır. Fəallıq anlayışı müxtəlif elm sahələrində müxtəlif mənalarda səciyyələndirilir. Fəallıq dedikdə bunu təlim və tərbiyə vəzifələrinin həyata keçirilməsinə yönələn əqli, mənəvi, iradi və fiziki qüvvələrinin səfərbərliyə alınması kimi başa düşmək lazımdır.

Fəallıq anlayışının bir sıra məna çalarları vardır. Məsələn, "fəal insan", " fəal həyat mövqeyi", "fəal təlim", "fəal həyat tərzi". "Fəal", "fəaliyyət", "fəaliyyətli" sözləri fəallıq anlayışı ilə sıx surətdə bir- biri ilə əlaqədardır. "Fəallıq" anlayışının mahiyyətinin lüğətə müraciət edərək araşdıraq. Fikir verək: 1. "Fəal" – İşlək, çalışqan, işcil, fəaliyyətli, daimi fəaliyyət göstərən, çox iş görən. 2. "fəaliyyət" – hər hansı bir sahədə iş, çalışma, fəallıq göstərmə; aktivlik; iş, işləmə. 3. "fəaliyyətli" – çalışqan, işcil, fəaliyyət göstərən; aktiv deməkdir. İzahlı lüğətdə qeyd olunduğu kimi, fəallıq dedikdə, "işcillik, çalışqanlıq, fəaliyyət, aktivlik" başa düşürük.

Mövcud ədəbiyyatda və məişətdə isə "fəallıq" anlayışı ilə sinonim söz kimi işlədilir. Fizioloji yönümdə fəallıq anlayışı, bir qayda olaraq, canlı varlıqları ümumi şəkildə səciyyələndirmək, onların dinamikasını göstərmək məqsədilə nəzərdən keçirilir.

Didaktikada tədrisin fəallıq prinsipi qeyd olunur. Bu prinsip təlim prosesinin effektivliyinin artırılmasında və optimallaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. 1966-cı ildə N.G. Brenşteyn bu prinsipi psixologiyaya da daxil etdi. Bu prinsipin mahiyyətini orqanizmin həyat fəaliyyəti aktlarında daxili proqramın müəyyənedici rolu kimi nəzərdən keçirirdi. Elm hər bir insanın fəaliyyətində şərtsiz reflekslər olduğunu və onun hərəkətlərin bilavasitə xarici stimulu kimi çıxış etdiyini müəyyən etmiş oldu. Lakin bu, bir növ fəallığın anadangəlmə hadisəsi rolunu oynayır. Rüxsarə Əliyeva belə hesab edir ki, "Şəxsiyyətin fəaliyyətinin özünəməxsus strukturu vardır. Bu zaman motiv və məqsəd fəaliyyətin başlıca strukturunu meydana gətirir. Motiv və məqsəd fəallıqda bilavasitə orqanizmin tələbatının ödənilməsində ifadə olunur və aktuallıq daşıyan tələbat kimi özünü göstərir. Şəxsiyyətin, o cümlədən tələbənin fəaliyyətində məqsəd fəaliyyətin son nəticəsini müəyyən edir." (5, s. 21)

İnsan fəal varlıqdır. Aktiv olaraq ətraf mühitə, təbiətə təsir göstərir və onu dəyişdirərək özü də dəyişir. İnsanla təbiət arasındakı bu cür fəal qarşılıqlı təsir prosesi fəaliyyət adlandırılır. Bu müddətdə insan subyekt kimi çıxış edir, obyektə məqsədəyönəlmiş şəkildə təsir göstərməklə özünün tələbatlarını ödəyir. Odur ki, fəaliyyət həmişə insanın şüurlu məqsədləri əsasında, həmin məqsədlərlə tənzim olunaraq həyata keçir. Bu cəhəti nəzərə alaraq psixoloji ədəbiyyatda fəaliyyətə belə tərif verilir: "Fəaliyyət insanın dərk olunmuş məqsədləri ilə tənzim olunan daxili (psixi) və xarici (fiziki) fəallığıdır."(7, s. 6)

Tərifdən göründüyü kimi, fəaliyyət zamanı insanın həm psixi, həm də fiziki fəallığı baş verə bilər. Hər iki halda da insanın fəallığı onun qarşısına qoyduğu dərk olunmuş məqsədləri ilə tənzim edilir. Fəaliyyət və şüur qarşılıqlı dialektik vəhdət təşkil edir. Fəaliyyət prosesində insan onu əhatə edən ətraf aləmin cisim və hadisələri ilə bələd olur və onda müəyyən münasibətlər sistemi formalaşır. Fəaliyyət prosesində subyektin bilik çərçivəsi genişlənir, psixikası inkişaf edir və beləliklə də şüurluluq səviyyəsi güclənir. Şüurun inkişafı isə öz növbəsində, fəaliyyətin məqsədəuyğunluq səviyyəsini, onun dəqiqlik dərəcəsini inkişaf etdirir. Fəaliyyətə şəxsiyyətin, o cümlədən sosial fəallıq forması kimi də yanaşmaq mümkündür. Fəallıq xarici və daxili fəallıq olmaqla iki yerə ayrılır. Bu və ya digər fəallıq iş və hərəkətlər şəklində özünü göstərir. Daxili proses təkcə xarici iş və hərəkətlərdə deyil, eyni zamanda, onların təsiri ilə dəyişir. Şəxsiyyətin müraciət etdiyi fəaliyyət növlərinə oyun, təlim və əməyi aid edirlər. Fəaliyyətin həmin növlərindən biri bu və ya başqa yaş dövründə aparıcı fəaliyyət, digərləri də köməkçi, yardımçı fəaliyyət kimi nəzərdən keçirilir.

Təlim fəaliyyəti – tələbələrin nəzəri bilikləri və onlarla bağlı bacarıq və vərdişləri mənimsəmələrinə yönəldilmiş fəaliyyət növlərindən biri aparıcı fəaliyyətdir. Təlim fəaliyyəti təkcə tələbələrdə bilik, bacarıq və vərdişlərin formalaşmasını təmin etməklə kifayətlənmir. Bu müddət ərzində onlarda psixi inkişafa, şəxsiyyətin formalaşmasına da böyük təsir göstərir. Sosiologiyada sosial fəallıq anlayışına müraciət edilir. Bu, artıq bizi daha çox maraqlandıran bir məsələdir. Sosial fəallıq anlayışına bir hadisə, bir təzahür, bir vəziyyət və münasibət kimi yanaşılmalıdır. Orta ixtisas məktəbləri tələbələrinin sosial fəallıq tərbiyəsinin qarşısında dayanan

əsas məqsədi belə ifadə etmək olar: yüksək mənəvi keyfiyyətləri, milli və ümumbəşəri dəyərləri, islam əxlaqının mühüm cəhətlərini, yaradıcı fəallığı, müstəqillik və təşəbbüskarlığı və vətəndaşlıq mövqeyini özündə birləşdirən sosial baxımdan fəal şəxsiyyət yetişdirmək.

Həmin məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin həlli lazım bilinir:

1. Tələbələrdə fəal həyat mövqeyinin formalaşmasına kömək göstərmək;

2. Yaşadıqları cəmiyyətin maddi, mədəni və mənəvi dəyərlərini mənimsəməkdə tələbələrə dəstək durmaq;

3. Əqli, fiziki, əmək və mənəvi inkişafın təbii əsas olmaq etibarilə tələbələrdə öz sağlamlıqlarının qayğısına qalmaq tələbatı yaratmaq;

4. İdrak fəallığını, təlimdə fəallığı, yaradıcı fəaliyyəti və onların həyata keçirmə üsullarına dəyərli münasibətin formalaşmasına imkanlar açmaq.

Sosial baxımdan şəxsiyyətin təşəkkül tapıb formalaşması – şəxsiyyətin azad inkişaf etməsi deməkdir.

Bu təhsil müəssisələrində tələbələrdə sosial fəallığın tərbiyə olunması üzrə işdə aşağıdakı müddəalar əsas götürülə bilər:

1. Sosial baxımdan fəal olan şəxsiyyət - etik qaydaları gözləyən, nümunəvi davranışa malik olan, mədəni, yaradıcı, müstəqil fikir yürütməyə qadir tərbiyəli insandır. Bu müddəa tələbələrin fəal həyata malik olmasını, onlarda praktik tələbatların inkişafını nəzərdə tutur. (bu müddəanın əsasında sağlamlığın qorunması dayanır)

2. Sosial baxımdan fəal olan şəxsiyyət - əxlaqi insandır. Bu istiqamətdə iş tələbələrə mənəviyyatın milli və ümumbəşəri normalarını mənimsəməyi tələbata çevirir. Sosial baxımdan fəal şəxs öz ölkəsinin vətənpərvər, yurdsevər, dövlətçiliyimizə sədaqətli olmalıdır.

3. Sosial baxımdan fəal olan şəxsiyyət yaradıcı insandır. Bu müddəanın tələbi belədir ki, burada tələbələrə öz yaradıcı qabiliyyətlərini həyata keçirməkdə kömək göstərilsin, yaradıcı mühit sağlam mənəvi və psixoloji atmosfer yaradılsın.

4. Sosial baxımdan fəal olan şəxsiyyət-humanist insandır. Bu istiqamətdə iş şəxsiyyətin təhlükəsizliyinə doğru yönəlir. Elə bir şəxsiyyətin yetişdirilməsi lazım bilinir ki, o insan nə insanlara, nə özünə, nə başqalarına, nə cəmiyyətə, nə də təbiətə ziyan vurmuş olsun. Bu keyfiyyətlərə malik şəxs köməyə ehtiyacı olan insanlara dəstək durmağı çalışır.

Şəxsiyyətin sosial fəallığı tərbiyəsi üzrə məqsədyönlü iş sistemli və məqsədyönlü aparıldıqda yaxşı nəticə əldə olunur.

Səmərəli fəaliyyət, bir qayda olaraq sosial fəallığın meyarı kimi qəbul olunur. Alimlər, adətən fəaliyyətin üç tərəfini qiymətləndirirlər:

– fəaliyyətin müxtəlif növlərində subyektin iştirakı və məqsədə çatmağa yüksək səviyyədə hazır olmaq;

– fəaliyyətdə şəxsiyyət keyfiyyətlərinin təzahürü;

– fəaliyyət nəticəsində alınmış maddi, yaxud mənəvi məhsulun ictimai əhəmiyyəti.

Təlim prosesində orta ixtisas təhsili müəssisələrində tələbənin sosial fəallığının inkişafının pedaqoji əsasları kimi aşağıdakı müddəalar diqqət mərkəzinə gəlir:

– orta ixtisas təhsili müəssisələrində tələbənin sosial fəallığı sosial -pedaqoji baxımdan təşəkkül tapır və onun həyat mövqeyində meydana gəlir;

– burada tələbənin sosial fəallığı ictimai tərəqqinin perspektivlərini proqnozlaşdırır və stimullaşdırır;

– burada tələbənin sosial fəallığı tərbiyəvi, təşkilati işlərin yüksək səviyyədə yerinə yetirilməsi ilə bağlıdır.

Kollec tələbələrinin şəxsiyyətinin formalaşmasında sinifdənxaric vaxtlarda onların fəaliyyəti əhəmiyyətlidir. Təlimdən sonrakı asudə vaxtlarda peşə bacarıqları, sosial dəyərli keyfiyyətlər, təşkilatçılıq qabiliyyətləri inkişaf edir.

Bu təhsil müəssisələrində tələbələrdə sosial fəal şəxsiyyətin formalaşması səviyyəsini müəyyən edən meyarlar hansılar ola bilər? Bu meyarları biz aşağıdakı kimi təsəvvür edirik: təşkilatçılıq, müstəqillik, mütəşəkkillik, təşəbbüskarlıq kimi şəxsiyyət keyfiyyətlərin, peşə-pedaqoji bacarıqların, sosial dəyərlər haqqında hərtərəfli təsəvvürlərin formalaşması.

**Problemin aktuallığı.** Fəaliyyət orta ixtisas təhsili müəssisələrində tələbə şəxsiyyətinin formalaşdırılmasının mühüm amilidir. O, kollec tələbələrində və bütövlükdə şəxsiyyətin formalaşdırılmasında, onların bacarıq və qabiliyyətlərinin inkişafında çox mühümdür. Bu baxımdan təlim prosesində orta ixtisas təhsili müəssisələrində tələbənin sosial fəallığının inkişafının pedaqoji əsasları kimi əsas müddəalar diqqət mərkəzində dayanmalıdır.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə orta ixtisas məktəbləri tələbələrinin sosial fəallıq tərbiyəsinin qarşısında dayanan əsas məqsəd və vəzifələri açıqlanmış, mövcud ədəbiyyatda və məişətdə rast gəldiyimiz "fəallıq", "fəal", "fəaliyyət", "sosial fəallıq" anlayışlarının mahiyyətinə aydınlıq gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gələcək müəllimlər üçün şəxsiyyətin formalaşdırılmasında elmi-metodik baxımdan köməkdir. Belə ki, müasir dövrdə yetişən gənclərimizin sosial fəallığı ən çox praktikliyi tələb edir. Tələbələrdə, ilk növbədə, təşkilatçılıq, müstəqillik, mütəşəkkillik, təşəbbüskarlıq kimi şəxsiyyət keyfiyyətlərini, peşə-pedaqoji bacarıqları, sosial dəyərləri inkişaf etdirmək bu baxımdan böyük önəm kəsb edir.

**Ədəbiyyat:**

1. Ağayev, Ə., Eminov A., İsayev İ. Pedaqogika. –Bakı: Adiloğlu, -2006,-184 s.
2. Abbasov, Ə., Cavadov İ. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, -2015, -304 s.
3. Bayramov, Ə.S., Əlizadə Ə. Ə. Sosial psixologiya. –Bakı: Qapp-Poliqraf, -2003, -356 s.
4. Əliyeva, R. Kolleclərdə tələbələrin sosial fəallığının formalaşdırılmasının aktual problemləri. // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, -№1, -2015, -s. 21-24
5. Əliyeva, R. Kolleclərdə tələbələrin sosial fəallığının formalaşdırılmasının aktual problemləri. // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, -№1, -2015, s. 21-24
6. Əliyeva, B.H., Cabbarova, R. V. Təhsildə şəxsiyyət problemi. –Bakı: Təhsil, -2008, -125 s.
7. Seyidov, S.İ., Həmzəyev, M. Ə. Psixologiya. –Bakı, -2007, -624 s.
8. Sadıqov, F. Pedaqoji düşüncələr. –Bakı: Ünsiyyət, -1999, -279 s.

**E-mail:** kamala.328@ibox.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **K.R. Quliyeva**
*ped.ü.fəls.dok., dos.* **E.R. Hüseynova**
**Redaksiyaya daxil olub:** 02.11.2021.

**UOT 371**

***Şiruyyə Məhəmmədəli qızı Azadəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0000-0001-5210-3456*
*https://doi.org/10.5281/zenodo.6445250*

# AZƏRBAYCANDA ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN KEYFİYYƏTİNİN DƏYƏRLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Шируйя Махаммадали гызы Азадалиева***
*доктор философии по педагогике*
*Азербайджанский Государственный Педагогический Университет*

# НАПРАВЛЕНИЯ ОЦЕНИВАНИЯ КАЧЕСТВА ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ В АЗЕРБАЙДЖАНЕ

***Shiruyya Mahammadali Azadaliyeva***
*doctor of philosophy in pedagogy*
*Azerbaijan State Pedagogical University*

# DIRECTIONS FOR ASSESSING THE QUALITY OF HIGHER EDUCATION INSTITUTIONS IN AZERBAIJAN

**Xülasə.** Elmi məqalədə keyfiyyət anlayışının mahiyyətinə fəlsəfi kateqoriyalardan biri kimi aydınlıq gətirilmiş, bütövlükdə ali təhsil sistemi səviyyəsində keyfiyyətin təmin edilməsinin özünütənzimləyən mexanizmlər və onların həyata keçirilməsi istiqamətləri müəyyən olunmuşdur. Təhsildə monitorinq və eləcə də diaqnostika, proqnozlaşdırma və korreksiya anlayışları və onların daşıdıqları funksiyalar müəyyən olunmuşdur.
***Açar sözlər:*** *keyfiyyət, korreksiya, proqnozlaşdırma, diaqnostika, monitorinq, qiymətləndirmə*

**Резюме.** В научной статье уточняется сущность понятия качества как одной из философских категорий, выявляются саморегулируемые механизмы обеспечения качества на уровне системы высшего образования в целом и направления их реализации. Определены понятия мониторинга в образовании, а также диагностики, прогнозирования, коррекции и их функции.
***Ключевые слова:*** *качество, коррекция, прогнозирование, диагностика, мониторинг, оценивание*

**Summary.** The scientific article clarifies the essence of the concept of quality as one of the philosophical categories, identifies self-regulatory mechanisms of quality assurance at the level of the higher education system as a whole and the directions of their implementation. The concepts of monitoring in education, as well as diagnostics, forecasting and correction, and their functions are defined.
***Key words:*** *quality, correction, forecasting, diagnostics, monitoring, evaluation*

Müasir dövrdə pedaqoji məhsuldarlığının (səmərəliliyinin) obyektiv meyarı (kriterii, kriterion, meyar – qiymətləndirmə ölçüsü) kimi təhsilin keyfiyyət göstəriciləri kimi götürülür. F. Rüstəmov, T. Dadaşovanın qənaətinə görə: "Təhsildə keyfiyyət dedikdə, təhsilin qarşısında duran məqsəd və vəzifələrin hansı səviyyədə həll olunması başa düşülür."( 3, s. 327)

Keyfiyyət fəlsəfi kateqoriya kimi varlığa bərabər müəyyənlik, obyektin müəyyən xarakteristikasının və əlaqələrinin sabit sistemi kimi ifadə edilir. Xarakteristika, əlaqələr sistemi kimi çoxtərəfli anlayışların köməkliyi ilə izah edilən bu ifadə mürəkkəb bir tərkib formalaşdırır. Digər tərəfdən, keyfiyyəti ali məktəbin bütün fəaliyyət sahələrində minimum standartlara ma-

lik olması kimi də qəbul etmək olar. Hər sahədə minimum standartları ödəyən qurum, əslində, gözə görünən nöqsanların olmamasını təmin etmiş olur. Əslində, keyfiyyət getdikcə şiddətlənən rəqabətdə tək öndə olmaq üçün deyil, həm də ayaq üstə qalmaq, yaşamaq, var olmaq üçündür. Keyfiyyət həm də mövcud formanın əsaslı şəkildə dəyişməsidir, yüksək standartlara doğru yönələn bir hərəkətin, təkmilləşməyə can atmanın daimiliyidir, özünütənqidin və təftişin ali məktəbdə cərəyan edən əsas prosesləri daimi izləməsidir. Prof. A.O. Mehrabovun qənaətincə, "keyfiyyət, ümumiyyətlə, istənilən prosesin (obyektin) müəyyənliyini bildirən fəlsəfi kateqoriya olub, onun xassələrinin məcmusunda təzahür edən obyektiv və ümumi (bütöv) xarakteristikasıdır. Başqa sözlə, keyfiyyət istənilən prosesin (və ya obyektin) elə bir müəyyənləşdiricisidir ki, onun sayəsində proses (obyekt) başqa proses kimi yox, məhz tələb olunan proses kimi çıxış edir və digər proseslərdən (obyektlərdən) fərqlənir. "(4, s. 68)

Keyfiyyətin tərifini verərkən və onu izah edərkən tez-tez standartlar sözü eşidilir. Bu söz əslində ikibaşlıdır, bir tərəfdən, bu söz ilə mükəmməllik, kamillik, əliaçıqlıq nəzərdə tutulur (buna yüksək standartlar da deyilir, dünya standartları, Avropa standartları kimi ifadələr mövcuddur), digər tərəfdən isə adillik (standart qaydalar, yəni minimum standartlar) göz önünə gəlir. Cəmiyyətin və ya konkret qurumun xüsusi gözləntiləri və tələbatları orada hökm sürən dəyərlərlə müəyyən edilir. Keyfiyyət nəzərdə tutulanla gerçək vəziyyət arasında, tələbatla hal-hazırkı zamana kimi əldə olunmuş nəticə arasında olan yaxınlıqdır. Keyfiyyət içəridən baxışla kənardan, yad gözlə baxışın yaxınlığıdır.

Bu gün bütövlükdə ali təhsil sistemi səviyyəsində keyfiyyətin təmin edilməsinin özünütənzimləyən mexanizmi üçün təşkilati əsas ali təhsilin keyfiyyətinə nəzarət edən orqan rolunu 2010-cu ildə yaradılmış və kiçik işçi heyəti olan (10 nəfərdən az) Təhsil Nazirliyi yanında Akkreditasiya Şöbəsi oynayır. Akkreditasiyanın əsas vəzifəsi hər hansı universitetin, proqramların dövlət standartlarına və Təhsil Nazirliyi tərəfindən hazırlanmış bir sıra tələblərə uyğunluğunu yoxlamaqdan ibarətdir. Şöbə özəl universitetlərin fəaliyyəti üçün də lisenziyalar verir. Dövlət Universitetləri üçün lisenziya tələbi yoxdur. Beləliklə, özəl universitetlər üçün lisenziya alınması birinci dərəcəli, akkreditasiya isə ikinci dərəcəlidir. Yalnız akkreditasiya prosesində təhsil proqramları, tələbələr, müəllimlər və sairə üçün müxtəlif uyğunluq standartları yoxlanılır. Azərbaycanda akkreditasiya hələlik pulsuzdur. Bu şöbə öz fəaliyyətində ölkədə ali təhsil üzrə dövlət standartlarının siyahısını özündə əks etdirən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli 75 saylı qərarına əsaslanır.

Ümumiyyətlə, mövcud olan akkreditasiya sistemi ali təhsil müəssisəsində ali təhsilin keyfiyyətinin təminatı üçün minimum zəruri olan tələblərin mövcudluğunun Təhsil Nazirliyi tərəfindən təsdiqini təmin edir. Eyni zamanda, şöbə öz fəaliyyətində Bolonya prosesinin, ali təhsilin keyfiyyətinə aid olan tələblərini də nəzərə alır. Akkreditasiya qaydalarına təhsil prosesinin fasiləsiz təkmilləşdirilməsinə yönəlmiş məxsusi tələblər daxil deyil. Ali təhsilin həyata keçirilməsində və keyfiyyətin təmin edilməsində bir-biri ilə sıx əlaqədə olan dörd amil və ya dörd ünsür (insanlar, qaynaqlar və ideyalar) iştirak edir:

1. Öyrənənlər, müəyyən ali təhsil dərəcəsi (bakalavr, magistr, doktorantura...) almaq istəyənlər, yəni tələbələr.
2. Öyrədənlər, yəni alimlər, müəllimlər, yüksək ixtisaslı mütəxəssislər.
3. Öyrənənlərlə öyrədənlərin fəaliyyət göstərdiyi şərait və mühit, yəni ali məktəbdəki mənəvi mühit, idarəetmə və maddi-texniki qaynaqlar/şərait.
4. Müəllimlərin tələbələrə dərs deyərkən əsaslandığı ideyalar və proqramlar, yəni müasir və dinamik təhsil modeli, proqramlar və tədris planları.

Öyrənənlər və öyrədənlərlə, şərait, idarəetmə və mühitlə yanaşı, nəyin öyrədildiyi (hansı tədris planları, fənn proqramları və hansı dərs kitabları) həlledici əhəmiyyətə malikdir. Şərait və mühit elə olmalıdır ki, tələbə öyrənmək istəsin və ya öyrənməkdə çətinlik çəkən tələbə öz gücsüzlüyünü, bacarıqsızlığını dərk edib düşünsün, tədbir görsün və ya kənara çəkilməli olsun. Eyni zamanda, bəlli şərait və mühit müəllimin öyrətmə gücünə və həvəsinə təsir edə bilir.

Azərbaycan Respublikasının "Təhsil haqqında Qanun"unda da göstərilir ki, "Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xa-

rakter daşımaqla vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir." (1,1) Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir. Maddə 9-da göstərilir: "Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq edilir." (1,s.15) Hər bir ali məktəb öz fəaliyyətinin spesifik xüsusiyyətlərini, peşə-ixtisas hazırlığı istiqamətlərini nəzərə alaraq öz nizamnaməsini hazırlayır və bu zaman belə keyfiyyət məsələlərini nəzərə alır. Ali məktəbin Nizamnaməsi, Təhsil haqqında Qanun və ali təhsil müəssisəsi haqqında əsasnamə bazasında mütəxəssis hazırlığının spesifik xüsusiyyətləri nəzərə alınmaqla hazırlanır. Ali məktəbin özünənəzarət mexanizmindən başqa xaricdən nəzarət mexanizmləri də mövcuddur. Bunlar aşağıdakılardır:

– ali məktəbdə tədris-metodiki istiqamətli işlərin və təhsil-tərbiyə prosesinin keyfiyyətinə nəzarət Təhsil Nazirliyi tərəfindən həyata keçirilir;

– ali təhsil müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti mövcud qanunvericiliyə uyğun olaraq Maliyyə Nazirliyi həyata keçirir;

– ali təhsil müəssisəsi özfəaliyyətinin mühasibat uçotunu reallaşdırır; təsdiq edilmiş formalar üzrə statistik və mühasibat hesabatı aparır; müəyyən olunmuş müddətdə bu hesabatı müvafiq dövlət orqanlarına təqdim edir;

– tələbələrin təhsilinin keyfiyyətinə, doktorantların (dissertantların) hazırlığına, mütəxəssislərin ixtisasının artırılmasına və yenidən hazırlanmasına müəyyən olunmuş qaydada attestasiya yolu ilə həyata keçirilir;

– Nizamnamənin və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının yerinə yetirilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir.

Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir və akkreditasiya xidməti tərəfindən müvafiq qaydada qiymətləndirilir.

Monitorinq isə latınca monitoru xatırladan, izləyən, müşahidə aparan deməkdir. O. Əfəndi yazır: "Təhsildə monitorinq – didaktik proseslərin arzuolunan nəticələrə, yaxud ilkin mülahizələrə uyğun olub-olmamasının aşkarlanması məqsədilə aparılan müntəzəm nəzarətdir) və qiymətləndirmə (dəyərləndirmə)-pedaqoji prosesin və onun bütün komponentlərinin işi barədə məlumatları əldə etmək və səmərəliliyini müəyyənləşdirmək deməkdir (təlim prosesinin durumu, nəticələrinin göstəriciləri və proqnoz). Monitorinq təkcə qiymətləndirmə ilə bağlı deyil. O, üç əsas sütun – diaqnostika, proqnozlaşdırma və korreksiya üzərində dayanır." (2, s.74) Pedaqoji prosesin müxtəlif mərhələlərində monitorinqin pedaqoji, sosioloji, psixoloji, iqtisadi və demoqrafik formalarından istifadə olunur.

Diaqnostika – təhsil alanların bilik və bacarıqlarının ənənəvi yoxlanılması və qiymətləndirilməsi anlayışından daha geniş və daha dəyərlidir. Biliklərin sadəcə yoxlanması və qiymətləndirilməsi təhsil prosesinin gedişini aşkarlamağa imkan vermir. Diaqnozlaşdırma isə özündə nəzarət, yoxlama, qiymətləndirmə, statistik məlumatların toplanılması, onların təhlili dinamikası və istiqamətlərinin müəyyənləşdirilməsi, sonrakı inkişafın proqnozlaşdırılması kimi elementləri özündə birləşdirən mürəkkəb sistemdir. Nəzarət – təhsil alanların bilik, bacarıq və vərdişlərini üzə çıxarmaq, ölçmək və qiymətləndirmək deməkdir. Yoxlama – nəzarətin tərkib komponenti olub, bilikləri üzə çıxarmaq və müəyyənləşdirmək deməkdir. Nəzarətin yekunu təhsil alanın qiymətləndirilməsi (proses kimi) və qiymət verilməsi (nəticə kimi) üçün əsasdır. Diaqnozlaşdırmanın obyektivliyini təmin etmək üçün aşağıdakı prinsiplərə əməl olunmalıdır: obyektivlik – bu prinsip diaqnostik testlərin (sualların və tapşırıqların), diaqnostik əməliyyatların elmi surətdə əsaslandırılmasını, qiymətin dəqiq və adekvat olmasını tələb edir. Sistemlilik – bu

prinsip, bir tərəfdən, diaqnostik nəzarətin – didaktik prosesin biliklərin mənimsənilməsi mərhələsindən başlamış praktik tətbiqinə qədər bütün mərhələlərini əhatə etməsini, digər tərəfdən, öyrənənlərin təhsil müddəti ərzində müntəzəm surətdə diaqnozlaşdırılmasını tələb edir. Sistemlilik prinsipi həmçinin diaqnozlaşdırmaya kompleks yanaşma tərzi tələb edir. Bu, diaqnozlaşdırma zamanı nəzarətin və yoxlamanın forma, metod və vasitələrinin qarşılıqlı əlaqədə və vəhdətdə tətbiq edilərək əsas məqsədə tabe edilməsi deməkdir. Əyanilik – bu prinsip təhsilalanların eyni meyarlarla, həm də açıq sınaqdan keçirilməsini tələb edir. Diaqnozlaşdırma prosesində hər bir təhsilalanın müəyyənləşdirilmiş reytinqi əyani və müqayisəli xarakter daşımalıdır. Bu prinsipə görə, qiymət elan olunmalı və əsaslandırılmalıdır. Bu, həm öyrədənin obyektivliyi haqqında mühakimə yürütməyə, həm də öyrənənlərə verilən tələblər etalonunu dərk etməyə imkan verir. Qiymətləndirmə – öz məqsədindən, prosesdə iştirak edən tərəflərin (təhsil alanların, öyrədənlərin, valideynlərin, yuxarı təhsil qurumlarının və b.) işinin xüsusiyyətlərindən, qiymətləndirilən sahələrdən və onların işinin xarakterindən asılı olaraq mürəkkəb, müxtəlif cəhətli, çoxparametrli prosesdir. Pedaqoji monitorinq və qiymətləndirmənin əsas məqsədi təhsil sistemi fəaliyyətinin mövcud vəziyyətini və onun keyfiyyətcə yüksəlməsinə yönələn əməliyyatlar sistemini müəyyənləşdirməkdir.

Əldə edilmiş pedaqoji faktları obyektiv surətdə təhlil və şərh etmək, ümumiləşdirmək, materialları kəmiyyət baxımından işləmək, müəyyən olunmuş əlamətin (xüsusiyyətin, xassənin) tipik olduğunu sübut etmək məqsədilə statistik (riyazi) metodlardan istifadə olunur. Pedaqoji tədqiqatda istifadəsi faydalı olan riyazi metodlar çoxdur. Lakin pedaqoji problemlərin öyrənilməsində ən çox istifadə edilən kəmiyyət metodları aşağıdakılardır:

– Qeydəalma metodu;
– Ranqlaşdırma metodu;
– Reytinq metodu.(3, s. 346)

**Problemin aktuallığı.** Təhsil sistemində keyfiyyətin özündən daha çox keyfiyyətə nəzarət, keyfiyyətin ölçülməsi, keyfiyyətin təminatı, keyfiyyətin artırılması kimi söz birləşmələri ilə izah olunan, tərif verilən əməliyyat və proseslər, cəhdlər, meyllər, səy və təşəbbüslər öyrənilir, vacib hesab edilir. Keyfiyyət bir prosesdir və bu baxımdan keyfiyyətin artırılması konsepsiyası keyfiyyətin təminatı və ya keyfiyyətə nəzarətdən daha vacibdir.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə bu gün bütövlükdə ali təhsil sistemi səviyyəsində keyfiyyətin təmin edilməsinin özünütənzimləyən mexanizmləri: akkreditasiya, monitorinq və qiymətləndirmə və onların müasir tələblər səviyyəsində həyata keçirilməsi istiqamətləri göstərilmişdir. Pedaqoji problemlərin öyrənilməsində ən çox istifadə edilən kəmiyyət metodları qeydəalma, ranqlaşdırma və reytinq metodu öyrənilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Əldə edilmiş pedaqoji faktları obyektiv surətdə təhlil və şərh etmək, ümumiləşdirmək, materialları kəmiyyət baxımından işləmək, müəyyən olunmuş əlamətin (xüsusiyyətin, xassənin) tipik olduğunu sübut etmək məqsədilə dəyərli mənbədir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. –Bakı: Qanun, -2009, -108 s.
2. Əfəndi, O.Ali məktəb pedaqogikası. –Bakı: İqtisad Universiteti, -2010, -152 s.
3. Rüstəmov, F. Ali məktəb pedaqogikası. / F. Rüstəmov, T. Dadaşova, –Bakı: Nurlan, -2000, -568 s.
4. Mehrabov, A.O Azərbaycan təhsilinin konseptual problemləri. –Bakı, -2010, -443 s.

**E-mail:** shiruye.azadeliyeva@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **F.A. Rüstəmov**,
*ped.ü.fəls.dok., dos.* **E.R. Hüseynova**
**Redaksiyaya daxil olub:** 02.02.2022

**UOT 371**

***Təranə Murad qızı İsayeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0000-0003-4977-6224*
*https://doi.org/10.5281/zenodo.6445303*

# ELMİN İNKİŞAFI VƏ TƏTBİQİNDƏ MÜƏLLİMİN ROLU

***Тарана Мурад гызы Исаева***
*доктор философии по педагогике*
*Азербайджанский Государственный Педагогический Университет*

# РОЛЬ УЧИТЕЛЯ В РАЗВИТИИ И ПРИМЕНЕНИИ НАУКИ

***Tarana Murad Isayeva***
*doctor of philosophy in pedagogy*
*Azerbaijan State Pedagogical University*

# THE ROLE OF THE TEACHER IN THE DEVELOPMENT AND APPLICATION OF SCIENCE

**Xülasə.** Bütün sahələrin əsasında, inkişafında təhsil, onun tətbiqində müəllim dayanır. Müəllim müqəddəsdir! Cəmiyyətə elm, bilik, tərbiyə, kamillik bəxş edən müəllim ən yüksək peşə sahibidir. Respublikamızda belə bir müqəddəs peşəni yetişdirən, elm ocağı olan, Azərbaycan Dövlət Pedaqoji Universiteti hər il yüzlərlə ən ali müəllimlik peşəsinə sahib olan gənclər yetişdirir. Pedaqoji Universitetin fundamental prinsiplərindən biri pillələr üzrə ümumtəhsil məktəbləri, kolleclər, bakalavr, magistratura və doktoranturaya qədər elmi və elmi-pedaqoji kadrların fasiləsiz hazırlanması sisteminin həyata keçirilməsidir.
***Açar sözlər**: cəmiyyət, təhsil, ən yüksək peşə, savadsızlığın aradan qaldırılması, kadrların inkişafı və təlimi*

**Резюме.** В статье подчеркивается, что в жизни каждого человека, важна роль учителя. Она формирует основу и развитие всех сфер обучения. Насколько почетна и важна роль учителя в обществе, настолько подготовка учительских кадров является сложным и ответственным процессом. Именно Азербайджанский Государственный Педагогический Университет является научным центром культивации этой священной профессии в нашей республике. Азербайджанский Государственный Педагогический Университет ежегодно обучает сотни молодых людей высшей педагогической профессии. Одним из основополагающих принципов педагогического университета является внедрение системы непрерывной подготовки научных и научно-педагогических кадров вплоть до общеобразовательных школ, колледжей, бакалавриата, магистратуры и докторантуры
***Ключевые слова**: общество, образование, высшая профессия, ликвидация безграмотности, обучение и развитие кадров*

**Summary.** The work examines the life of every person, the role of the teacher is important, it forms the basis and development of all areas of education. As honorable and important as the role of the teacher in society, the training of teachers is a complex and responsible process. It is the Azerbaijan State Pedagogical University that is the scientific center for the cultivation of this sacred profession in our republic. The Azerbaijan State Pedagogical University annually trains hundreds of young people in the higher pedagogical profession One of the fundamental principles of the pedagogical university is the introduction of a system of continuous training of scientific and scientific-pedagogical personnel up to secondary schools, colleges, bachelor's, master's and doctoral studies.
***Key words**: Society, Education, higher profession, elimination of illiteracy, training and staff development*

Təhsil dövlətin, cəmiyyətin, hər bir insanın həyatında mühüm rol oynayır və onu formalaşdırır. Bütün sahələrin əsasında, öyrənilməsində, inkişafında, təhsili və onun tətbiqində müəllimin rolu əvəzedilməzdir. Müəllim müqəddəsdir! Cəmiyyətə elm, bilik, tərbiyə, kamillik bəxş edən müəllim ən yüksək peşə sahibidir. Hansı peşəni seçsək, yenə müəllimə borcluyuq. Müəllimlik peşəsi dünyada ən çətin, məsuliyyətli, eyni zamanda ən şərəfli və ən gözəl peşə olduğundan insanlar həmişə müəllimə hörmətlə yanaşmışlar. Ulu öndər Heydər Əliyev müəllimlərə müraciətlə demişdir: "Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada şagird, tələbə, müəllim, bütün kollektiv inkişafdadır", "Təhsil millətin gələcəyidir", "Mən yer üzərində müəllimdən yüksək ad tanımıram" deyən ulu öndər Heydər Əliyev daim müəllimlərə və müəllim hazırlayan Azərbaycan Dövlət Pedaqoji Universitetinə yüksək qiymət vermişdir. ADPU-nun 50 illik yubileyində universitetimizə Qırmızı Əmək bayrağı ordenini ümummilli lider şəxsən özü təltif etmişdir.

Respublikamızda artıq 100 ildir (1921-2021) fəaliyyətdə olan, müqəddəs elm ocağı olan, Azərbaycan Dövlət Pedaqoji Universiteti hər il yüzlərlə ən ali müəllimlik peşəsinə sahib olan gənclər yetişdirir. Hələ XX əsrin əvvəllərində Azərbaycanda müəllim kadrlarına çox böyük ehtiyac var idi. Müəllim kadrları hazırlamaq üçün 1921-ci il 26 avqustda hökumətin verdiyi 66 saylı qərara əsasən Azərbaycan Pedaqoji İnstitutu təsis edildi. 1923/24-cü dərs ilində tarix fənni ictimaiyyatla əvəz edildi. "İctimaiyyat" kursunda tarix, iqtisad və hüquq elmlərinin əsaslarına dair müəyyən biliklərin verilməsi nəzərdə tutulurdu. Elə həmin il I və II dərəcəli məktəblər üçün "İctimaiyyat" proqramları nəşr olundu. Bu zaman dərslik və dərs vəsaitlərinin hazırlanması da ciddi problemlərdən biri idi. Sovet Azərbaycanında tarixə dair ilk dərs kitabı 1924-cü ildə nəşr edildi. Bu, həmin illərdə Pedaqoji İnstitutda müəllim işləyən Davud Şərifovun "Əski mədəniyyət tarixi" idi. D. Şərifovun kitabı həm rus, həm də Azərbaycan dilində nəşr olunmuşdur. Dərsliyin elmi səviyyəsi yüksək olmasa da yaxşı illüstrasiya edilmiş və sadə dildə yazılmışdı. Burada qədim insanlar necə yaşayırdılar və s. mövzular tədris olunurdu (1, s. 204)

1923/24-cü dərs ilindən başlayaraq RSFSR və digər respublikalarda dərslər DES-in (Dövlət Elmi Sovetinin) hazırladığı kompleks proqramlarla keçilməyə başladı. Azərbaycanda isə kompleks proqramlar üzrə dərsliklərin hələlik yoxluğu və müəllimlərin həmin proqramlarla işləməyə hazır olmamaları üzündən həmin proqramlara keçmək 1926-cı ilədək ləngidi. Bu proqramlarda təlim materialları üç istiqamətdə qruplaşdırılırdı: təbiət, əmək, cəmiyyət. Proqramın mərkəzində insanların əmək fəaliyyəti dururdu. Hələ 1921-ci ildə məktəblərin iki dərəcəli politexnik məktəblərlə əvəz edilməsi barədə qərar verildi**.** I dərəcə beşillik, II dərəcə dördillik kurs kimi müəyyənləşdirildi (4, s. 16).

İlk illərdə Pedaqoji İnstitutda ali pedaqoji kişi və qadın institutları kimi 8 fakültədən ibarət fəaliyyətə başlamışdır. Azərbaycan SSRİ Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun imzaladığı dekretə əsasən burada cəmi 6 nəfər milli dildə təhsil alırdı. İlk məzunları 1923-24-cü illərdə buraxılmışdır. Abdulla Şaiqin təşəbbüsü ilə yaradılan ilk anadilli məşhur "Nümunə məktəbi" də Pedaqoji İnstitutun nəzdində fəaliyyət göstərmişdir.

Azərbaycan Dövlət Pedaqoji İnstitutu təsis olunduğu gündən kadr hazırlığında və onun yetişməsində çox böyük rolu olmuşdur. Universitetin arxiv sənədləri olduqca zəngindir. Bu sənədlər bir daha sübut edir ki, Pedaqoji Universitetimizdə Azərbaycanın ən görkəmli qabaqcıl elm xadimləri, rəhbər işçilər, şairlər, yazıçılar və s. təhsil almış və fəaliyyət göstərmişlər. Onlardan 1940-cı illərdə İkinci dünya müharibəsinin kəşfiyyat-təxribat qrupunun rəhbəri Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə, Xıdır Mustafayev (motoatıcı), Azərbaycanın Milli Qəhrəmanları Mətləb Qulivev, Mirələkbər İbrahimov, general-leytenant Vəli Nağıyev və b. V.İ. Lenin adına Pedaqoji İnstitutu bitirmişlər.

1926-cı ildə Azərbaycan sovet kimyaçısı, akademik Yusif Məmmədəliyev, 1950-1951-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun rektoru olmuş akademik Mehdi Mehdizadə, ilk xalq şairi Səməd Vurğun, yazıçı, dramaturq, professor Şıxəli Qurbanov, fizika-riyaziyyat elmləri doktoru, professor, dövrünün canlı ensiklopediyası Maqsud Cavadov, türkoloq, əməkdar elm xadimləri, akademiklər Məmməd Arif Dadaşzadə, Feyzulla Qasımzadə, Əlsöhbət Sumbatzadə,

Həmid Araslı, Afat Qurbanov, şair və tərcüməçi, repressiya qurbanı Mikayıl Müşfiq, xalq yazıçısıları Mehdi Hüseyn, İsmayıl Şıxlı, Süleyman Rəhimov, İlyas Əfəndiyev, Qılman İlkin, Məmməd Araz, xalq artisti Səid Rüstəmov, şair və tərcüməçi İlyas Tapdıq, AMEA-nın müxbir üzvü Əbdüləzəl Dəmirçizadə, professorlar Abdulla Mehrabov, Əjdər Ağayev və Yəhya Kərimov, millət vəkili, professor Fəzail İbrahimli və b. Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunları və müəllimləri olmuşlar.

ADPU-nun kafedra müdiri vəzifəsində çalışmış, sonralar universitetin rektoru olmuş AMEA-nın müxbir üzvü, professor Sərvər Aslanov, kafedranın uzun illər müdiri olmuş, tarixçi alim, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor, Süleyman Məmmədov, professor Xəlil Köçərli, tarix elmləri doktoru, dosent Əli Haqverdiyev, tarix elmləri doktoru, dosent Nazir Əsədov da universitetin məzunları idi. Hazırda tarix-coğrafiya fakültəsinin dekanı, əməkdar müəllim, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Asif Axunovdur.

Hazırda universitetin rektoru professor Cəfər Cəfərov həm də Azərbaycan tarixi kafedrasının müəllimidir. Məzunlardan hazırda Azərbaycan tarixi kafedrasının müəllimlərindən professor Xəqani Məmmədov, dosentlərdən Zakir Kərimov, Elmira Süleymanova, Eldar Hacıyev, İradə Qasımova, Habil Həsənov, Elman Mirzəyev, Vurğun Məmmədov, müəllimlərdən Samirə Ramazanova, Nəbi Əsədov və b. göstərmək olar. Kafedranın tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədovadır.

ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının müdiri, professor Yusif Yusifov – ntarixçi, şərqşünas, dilçi türkoloq, elamist, toponimist, qədim yazı və Şumür dili üzrə mütəxəssislərdən olmuşdur. Azərbaycanın qədim dövr arxeologiyası üzrə dosent Roza Arazova, kafedranın müdiri və müəllimi olmuş professor, AMEA-nın müxbir üzvü, arxeologiya və etnoqrafiya üzrə alim Vəli Əliyev tədqiq etdiyi sahədə Azərbaycana böyük töhfələr vermişdir.

Kafedranın müəllimləri olmuş professorlar Şükür Sadıqovun, Türk xalqlarının tarixi üzrə mütəxəssis Dərgah Qüdrətovun, Mehdi Salahovun, dosent Tahir İskəndərovun, baş müəllim Rafiq Xəlilovun da adlarını çəkmək mümkündür. Hazırda kafedranın müdiri dosent Sevinc Əliyevadır.

Müəllimlərdən professor, əməkdar müəllim Oqtay Sultanov, professor Mübariz Əmirov, professor, əməkdar müəllim İntiqam Cəbrayılov, tarix üzrə elmlər doktoru, dosent Sevinc Seyidova, dosentlər Rəcəb Əliyev, Səidə Məmmədova, əməkdar müəllim Pərviz Səfərov, Afaq Piriyeva, dosent Nuruzadə Şubay, pedaqogika üzrə fəlsəfə doktorları Təranə İsayeva, Dəyanət Musayev, Səmayə Mustafayeva, Şəhla Qurbanova, İbadulla Məmmədov, Qabil Bəşirov, Nahidə Hacınskaya, Aytən Mehdiyeva, Səbinə Həziyeva, Taleh Cəfərov, Sevil Bəhrəmova, Əfqan Musayev, baş müəllimlər İndira Ələsgərzadə, İsaməddin Musayev, müəllimlər Nailə Əbdülrəhmanova, Sevinc Əyyubova, Günel Bababəyli, Turanə İsmayılova və s. yüksək səviyyədə kadr yetişdirilməsində, magistratura və bakalavr pilləsində öyrədənləri öyrətmək prinsipini həyata keçirirlər.

İlk bərqərar olunduğu gündən kadrları arasında bir nəfərdə alimi olmayan Azərbaycan Dövlət Pedaqoji Universiteti bu günə kimi saysız-hesabsız professorlar, dosentlər, elmlər namizədləri, akademiyanın müxbir üzvləri və s. elm xadimləri hazırlamışdır. Peşəkar kadrların hazırlanmasına görə 1972-ci ildə İnstitut Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. 1990-cı ildən isə Azərbaycan Pedaqoji İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universiteti adını almışdır. Hazırda Pedaqoji Universitet respublikamızın məktəbləri üçün yüksək keyfiyyətli müəllimlər hazırlayır və bu məsuliyyətli işi layiqincə yerinə yetirməyə davam edirlər.

Pedaqoji Universitetinin fundamental prinsiplərindən biri pillələr üzrə ümumtəhsil məktəblər, kolleclər, bakalavr, magistratura və doktoranturaya qədər elmi və elmi-pedaqoji kadrların fasiləsiz hazırlanması sisteminin həyata keçirilməsidir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru tarix elmləri doktoru, professor Cəfər Məmməd oğlu Cəfərovdur. Universitetdə 7000-dən çox tələbə təhsil alır. Universitetin 55 kafedrasında 330 dan çox peşəkar müəllim çalışır. Universitet 8 fakültədən ibarətdir: Tarix və coğrafiya, filologiya, riyaziyyat, fizika, kimya və biologiya, məktəbəqədər təhsil fakültəsi, İncəsənət və fiziki tərbiyə fakültəsi, İbtidai təhsil fakültəsi, Sabah Mərkəzi.

Hazırda ADPU-nun nəzdində Ağcabədi, Cəlilabad, Quba, Şamaxı, Şəki, filialları və

Azərbaycan Dövlət Pedaqoji Kolleci fəaliyyət göstərir. Universitetin tələbələr üçün əsas bilik və elmi tədqiqat bazası olan kitabxanası və oxu zalları vardır. Kitabxananın kitab fondu 700 min nüsxədən çoxdur. Universitetdə kompüter otaqları, onomastika laboratoriyası, zoologiya muzeyi, tibbi yardım mərkəzi, və s. vardır. ADPU AMEA-nın təhsil, elm, mədəniyyət və texnologiya problemləri ilə məşğul olan bölmələri, habelə digər aparıcı yerli universitetlərdən, problemlərin həllində nəzəri və praktik təcrübə toplamış institutlar ilə fəal əməkdaşlıq edir. Universitetimiz təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsilin beynəlmiləl, beynəlxalq əlaqələrin və xarici dilin səviyyəsinin yüksəldilməsi sahəsində gerçəkləşən tədbirlər həyata keçirir. Universitetin rektoru professor Cəfər Cəfərov beynəlmiləl əlaqələrin genişlənməsində Türkiyə Universitetləri ilə əlaqələr xüsusi önəm verir. ADPU müxtəlif beynəlxalq əlaqələrdə, o cümlədən inklüziv təhsil sahəsində iki böyük layihədə iştirak edir. MDB ölkələri ilə əməkdaşlıq edir.

Azərbaycan dövlət Pedaqoji Universiteti və ABŞ-in Corc Vaşinqton Universiteti arasında 31 mart 2020-ci ildə ikili diplom proqramı üzrə saziş imzalanıb. Tədbirdə Təhsil naziri, Corc Vaşinqton Universitetinin Təhsil və insan inkişafı fakültəsinin dekanı Maykl Foyer, ADPU-nun rektoru Cəfər Cəfərov, ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberqer, ali məktəblərin rektorları və digər rəsmi qonaqlar iştirak etmişdilər. Pedaqoji Universitet bir çox xarici ölkələrlə sıx əlaqə saxlayır.

Azərbaycan Dövlət Pedaqoji Universitetdə təhsil almış və 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak etmiş 12 məzunumuz şəhidlik zirvəsinə ucalmışdır. Tarixcoğrafiya fakültəsini 2019-cu ildə bitirmiş tələbəm, igid, qəhrəman Firdovsi Tahirov vətən uğrunda canından keçmişdir. Biz şəhidlərimizin qarşısında baş əyirik və onlarla fəxr edirik. "Çox sevinirəm ki, həmişə yazılmış tarixdən dərs deyirdim, indi amma tarix yazan müəllimlərdən biriyəm" deyən tələbəmiz olmuş Masallı rayon Qaralı kənd orta məktəbində müəllim işləyən kəşfiyyatçı Ceyhun Qurbanov Qubadlı, Fizuli, Şuşa uğrunda gedən müharibədə vuruşmuş, kəşfiyyat aparmış və qələbə ilə alnı açıq üzü ağ şagirdlərin qarşısında 44 günlük müharibənin canlı şahidi, müharibə iştirakçısı olmaqla yanaşı tarix dərsi keçir. "Bu dəqiqə ən çox gedəcəyəm və şagirdlərimə yeni tarix var deyəcəyəm Şuşanın, Fizulinin azad olunması bu tarixi öyrədəcəyəm yadda saxlasınlar." (Ceyhun Qurbanov)

**Problemin aktuallığı**. Məhz müstəqil düşüncəli şəxsiyyət həyatda fəal mövqe tutur, vətənin, dövlətin, millətin mənafeyini hər zaman uca tutur, tariximizi, mədəniyyətimizi milli dəyərlərimizi daim qoruyub saxlayırlar. ADPU təsis olunduğu vaxtdan bu günə qədər 100 il cəmiyyət üçün ən yüksək peşə olan zəngin müəllim kadrlar yetişdirmiş və hazırda bu ali peşənin davamçısıdır.

**Problemin elmi yeniliyi.** Müəllim olmaq təkcə öyrədən və öyrənən, öyrədənləri öyrətmək deyil, burada insan kapitalının, mənəvi tərbiyə, elmi dünyagörüşü, müstəqillik qabiliyyətinin və şəxsiyyətin formalaşmasına nail olmaq, bilik və tədqiqatçılıq bacarıqlarını tətbiq etməkdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti.** Sürətlə inkişaf edən və İnformasiya Kommunikasiya Texnologiyalarının tələblərinə uyğun formalaşan cəmiyyət müəllimlərin hazırlıq və peşəkarlığı səviyyəsinə müsbət təsir etməklə yanaşı praktik fəaliyyəti gücləndirir.

**Ədəbiyyat:**


1. AMEA-nın A. Bakıxanov adına Tarix institutu. Azərbaycan tarixi. 7 cilddə. VI cild. –Bakı: Elm, -2008, s. 204, 208.
2. Курбанов, А., Садыхов, Ш, Салахов, М. Первый Педагогический Институт Азербайджана. -Баку, -1981, -260 с.
3. Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları 1921-2021. –Bakı, -2021, -s. 318-319
4. T. İsayeva. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili (V-XI siniflər). -Bakı, -2013 (dissertasiya). -s. 17.
5. M. Verdiyeva. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Tarix və coğrafiya fakültəsi 100 ildə. -Bakı: Elm və zəka, -2021


**E-mail**: taranaisayeva@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok.* **İ. H. Cəbrayılov**
*t.ü.fəls.dok.,* dos. **A. Piriyeva**
**Redaksiyaya daxil olub:** 24.01.2022.

**UOT 371**

***Səadət Bəybala qızı Mazanova***
*texnika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0000-0003-2278-3790*
*https://doi.org/10.5281/zenodo.6445412*

***Xuraman Əliqulu qızı Aliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0000-0001-9015-8802*

# GƏLƏCƏK TƏHSİLİN ÇEVİK MODELİ

***Саадет Бейбала гызы Мазанова,***
*доктор философии по техническим наукам, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

***Хураман Алигулу гызы Алиева***
*Азербайджанский Государственный Педагогический Университет*

# ГИБКАЯ МОДЕЛЬ БУДУЩЕГО ОБРАЗОВАНИЯ

***Saadat Baybala Mazanova,***
*doctor of philosophy in technique, associate professor*
*Azerbaijan State Pedagogical University*

***Xuraman Aligulu Aliyeva***
*Azerbaijan State Pedagogical University, Baku*

# FLEXIBLE MODEL OF FUTURE EDUCATION

**Xülasə:** Pandemiyadan tədricən çıxdıqca bütün dünyada universitetlər pandemiya zamanı təhsil sahəsinin uyğunlaşmasını və onların gələcək üçün hərəkət kursunun müəyyən edilməsini qiymətləndirirlər. Təhsilin çevik qarışıq formatının müvəffəqiyyətlə reallaşdırılması strategiyası təqdim edilir. Aparılan sorğu göstərdi ki, pandemiya vaxtı kursların müvəffəqiyyətlə keçmə göstəriciləri, pandemiyaya qədər kursların müvəffəqiyyətlə keçmə göstəriciləri ilə təxminən eynidir. Lakin tələbələr virtual formata üstünlük vermədilər və hesab etdilər ki, bu, onların sosial rifahına təsir edir. Onlar əlavə dərs materiallarının öyrənilməsi ilə təhsilin hibrid modelinə üstünlük verdilər.
***Açar sözlər:*** *pandemiya, təhsil sahəsi, virtual format, hibrid model*

**Резюме:** По мере выхода из пандемии университеты по всему миру оценивают адаптацию в сфере образования во время пандемии и определения их курса действий на будущее. Предоставляются стратегии для успешной реализации гибкого смешанного формата обучения. Произведенный опрос показал, что успеваемость студентов прошедшей курс во время пандемии показали почти такие же результаты, как и студенты, проходившие курсы до пандемии. Однако студенты не предпочли полностью виртуальный формат, посчитали, что это повлияло на их социальное благополучие, и они предпочли гибридную модель образования с дополнительным учебным материалом.
***Ключевые слова****: пандемия, область исследования, виртуальный формат, гибридная модель*

**Summary:**As we emerge from the pandemic, universities around the world are assessing educational adaptations during the pandemic and charting their course of action for the future. Strategies are provided for the successful implementation of a flexible blended learning format. The survey showed that the performance of students who completed the course during the pandemic showed almost the same results as students who took courses before the pandemic. However, the students did not prefer a completely virtual format, they felt that it affected their social well-being, and they preferred a hybrid model of education with additional educational material.

***Key words:*** *pandemic, field of study, virtual format, hybrid model*

2019-cu ilin dekabrında Çinin Uxan şəhərində xəstəxanaya pnevmoniya simptomlu xəstələr daxil oldu. Qısa müddətdə bu, digər əyalətlərə də yayıldı və hakimiyyət araşdırmalara başladı. 2020-ci ilin bir neçə həftəsi ərzində yeni koronavirusun mövcudluğu təsdiq edildi. Bu virus digər ölkələrə yayıldıqda bütün dünyada pandemiya elan edildi. Pandemiya əvvəl və hazırda insan həyatına dağıdıcı zərbə vurmaqla yanaşı, bir çox müəssisələri dayanmağa məcbur etdi. Təhsil müəssisələri də pandemiyanın təsirindən kənarda qalmadı. Pandemiyanın birinci həftələrində bir çox təşkilatlar tam bağlandı və tədris fəaliyyətini davam etdirmək üçün özlərini yenidən kəşf etməyə başladı. Bütün dünya üzrə təlimatçılar öz kurslarını virtual mühitdə davam etdirmək üçün rəqəmsal texnologiyaları tətbiq etməyə başladı [1]. Onlardan bəziləri yeni texnologiyalar və virtual təhsilin müasir strategiyaları ilə tanış deyildi [2]. İnfrastrukturun, maliyyə, texniki ehtiyatların yoxluğu və logistika problemləri bəzi hallarda nəzərə çarpırdı.

Yuxarıda qeyd olunanlara baxmayaraq, bütün dünya üzrə universitetlər dayanıqlıq göstərdilər və təhsil proqramlarını onlayn/virtual formatda aparmağa qərar verməklə yeni reallığa uyğunlaşdılar. Bu, vacib idi, çünki universitetlərin gözlənilmədən bağlanması (pandemiyanın qurtardığı tarix məlum deyildi) və açılması bütün dünya üzrə milyonlarla tələbənin təhsil dövrlərini poza bilərdi, bununla da onların gələcəyinə əhəmiyyətli dərəcədə təsir edə bilərdi. Eyni zamanda təhsildəki bu yeni evolyusiya ilə yanaşı, texnologiyalardan güclü asılılıq səbəbindən təhsil bərabərsizliyində geniş fərq yarandı [2, 9]. Dünyanın qərb hissəsində ən çox Afrika, Latın Amerikası mənşəli və yerli xalqlardan olan tələbələr, ümumilikdə 1,6 milyard tələbə pandemiyadan ziyan çəkdi. Eyni ilə qeyd etmək olar ki, cəmiyyətin imkansız təbəqələrindən olan tələbələr arasında təhsildəki itkilər çox böyük idi.

Universitetlərin bağlanmasının digər mühüm aspekti sosial-iqtisadi təbəqələrin ən aşağı səviyyələrində bir çox tələbələrin ümumi sağlamlığına olan təsirdir. Onlar təhsil müəssisələrinə ümid edərək öz qida, bəzi hallarda tibbi ehtiyaclarını ödəyirlər [3]. Çoxsaylı tədqiqatlar, pandemiya ilə əlaqədar izolyasiyaya görə əhval-ruhiyyə və sağlamlıq problemlərinə yönəlmişdi [11-14]. Tələbələrin sağlamlığında yüksək stress, sosial və eyni səviyyəli qarşılıqlı əlaqənin olmaması üzündə problemlər yaranır [3]. Tədqiqatlar göstərir ki, təhsil müəssisələri tələbələrə təkcə təhsil vermir, onlara eyni zamanda sosial qarşılıqlı əlaqə, əməkdaşlıq, ideyalar və təcrübə mübadiləsi mühiti təqdim edir. Hərçənd virtual mühitin qarşılıqlı əlaqə üçün imkanlar yaratmasına baxmayaraq, tələbələrin sosial səriştələrini inkişaf etdirə biləcəyi şəxsi təlim mühitinin təklif etdiyi fiziki məkan kimi effektiv deyil. Başqa sözlə, sosial və emosional təlim əsasən virtual mühitdə əhəmiyyətli dərəcədə azalır, bu da tələbələrin rifahının ümumi vəziyyətinin aşağı düşməsinə gətirib çıxarır.

Onlayn-təhsil mühitindəki yuxarıda sadalanan problemlərə baxmayaraq, universitetlər əhəmiyyətli investisiya yatırır və onlayn-kurslar təklif edir [15]. Onlayn-təhsil çeviklik təmin etməkdən başqa, geniş bazar imkanları da yaradır. Bu imkanlar aşağıdakılardır:

- işləyən mütəxəssislər öz ixtisas dərəcələrini artıra bilər;
- istənilən coğrafi regiondan olan tələbələr proqrama qoşula bilər;
- tələbə yığımının genişləndirilməsi;
- istismar xərclərinin azaldılması;
- sadəcə olaraq, məqbul keyfiyyətli kontentin yaradılması və təklif edilməsi;
- gəlirlərin əhəmiyyətli dərəcədə artırılma potensialının mövcudluğu.

Gözlənilir ki, pandemiya zamanı akademik düzəlişlərlə, virtual məşğələlər və onlayn-kurslardan əldə edilən nəticələri nəzərə alsaq,

təhsilin bu rejimi çox güman ki, formal təhsil sisteminə əhəmiyyətli dərəcədə daxil olacaq [16-18]. Etiraf etmək lazımdır ki, pandemiya zamanı əldə edilmiş təcrübə gələcək təhsilə güclü təsir edir və öz təcrübəmizdən bilirik ki, gələcəkdə hibrid və qarışıq təlim üçün möhkəm bünövrə mövcuddur.

Bu tədqiqatın məqsədi, bu istiqamətdə müvəffəqiyyətlə hərəkət etmək üçün strategiyaları müəyyən etməkdən ibarətdir. Biz pedaqoji universitetin üç ixtisasının nəticələrinin xülasəsini təqdim etməklə başlayacağıq:

- riyaziyyat müəllimi;
- riyaziyyat və informatika müəllimi;
- informatika müəllimi.

Xüsusilə, biz pandemiya vaxtı üç ixtisas üçün virtual sinfin evolyusiyasının detallarını təqdim edəcək, şagirdlərin əvvəlki illərdəki işlərini müqayisə edəcək, təhsilin virtual modelinin təsiri haqqında nəticələr çıxaracağıq. Biz, eyni zamanda təhsilin onlayn-formatında aparılan sorğu zamanı 300-dən çox tələbənin fikrini qiymətləndirəcəyik. Bu nəticələri əldə etdikdən sonra biz, pandemiyadan sonra təlimin qarışıq və ya virtual mühiti üçün nəzərə alınması vacib olan əsas məqamları təqdim edəcəyik.

Universitetin bu üç ixtisasından hər birinin öz tədris planı var. Təhsili başa vurduqdan sonra məzun müəyyən səriştəyə yiyələnməlidir.

Pandemiyadan əvvəl və pandemiya zamanı bu ixtisaslar üzrə qeydə alınmış tələbələrin sayı Cədvəl 1-də verilib.

Hər semestr universitetdə keçilən məşğələlər 15 həftə davam edirdi. Hər həftə tələbə müəllimlərlə ümumilikdə 22-24 saat görüşürdü. Məşğələlər mühazirə, seminar və praktiki məşğələlər formasında aparılırdı. Eyni zamanda hər kursda tələbələr sərbəst iş təqdim edirdi.

*Cədvəl 1. Pandemiyadan əvvəl və pandemiya zamanı ixtisas üzrə qəbul sayı.*

| İxtisaslar / Dərs ili | Riyaziyyat müəllimi | Riyaziyyat və informatika müəllimi | İnformatika müəllimi |
|---|---|---|---|
| 2018/2019 | 100 | 120 | 74 |
| 2019/2020 | 100 | 112 | 98 |
| 2020/2021 | 110 | 120 | 104 |
| 2021/2022 | 125 | 119 | 98 |

Bütün kurslarda bütün dərs mühiti konstruktiv yanaşmaya əsaslanırdı [26-30]. Bununla yanaşı, şagirdlərə müxtəlif növ məsələləri həll etmək təklif olunurdu. Onlara dərs zamanı və dərsdənkənar öz yoldaşları ilə bu və ya digər məsələlərin həllinə yanaşmaları müzakirə etmək təklif olunurdu. Layihələri birgə işləyib hazırlamaq və təqdim etmək tövsiyə olunurdu.

*Pandemiyaya uyğunlaşma.* Pandemiya zamanı kurslar tam və onlayn-formatda keçirilirdi. Universitetdə bütün məşğələlər TEAMS platformasında keçirilirdi. Əsas məsələ davamiyyəti və tələbələrin aktivliyini təmin etmək idi. Bu, çox çətin məsələ idi. Eyni zamanda müəllimlər məşğələlərdən əvvəl mühazirələrin konspektlərini tutmağa və məşğələləri videoya yazmağa başladı. Bu tədbirlər universitet rəhbərliyi tərəfindən dəstəkləndi. Bu, ona görə idi ki, məşğələ zamanı texniki çətinliklərlə üzləşən və ya məşğələdə iştirak edə bilməyən tələbələr dərsdən əvvəl və ya sonra materiallardan istifadə edə bilsin. Buna görə, tədris üçün müxtəlif pedaqoji variantlar nəzərdən keçirilirdi: problemli təhsil [22,26-29], layihəli təhsil [30], aktiv təhsil [31-38], tədqiqatlı təhsil [39-41], birgə təhsil və kiçik qruplarda təhsil [31,33]. Bunların arasından aktiv təhsil mühitinə üstünlük verildi. Belə ki, o, tələbələrə praktiki rejimdə təhsil almağa imkan verir. Praktiki məşğələlərdə iştirak, materialı maksimum mənimsəməyə imkan verir, buna konspektləri oxumaqla və ya mühazirələrə baxmaqla nail olmaq olmaz. Ağıllı strategiya tələbələri məşğələlərə gəlməyə sövq etmək idi və bizdə kurslarda davamiyyət yüksək səviyyədə idi.

Kurslarda birgə işin gedişi zamanı biz aşağıdakıları etdik. Semestrlərin birində (yaz 2020, qış 2021) ali məktəbin təhsilin idarə edilməsi sistemində bütün fənlər üzrə suallar bazası yaradıldı. Hər bir tələbəyə ixtiyari fərdi tapşırıqlar verildi və onları müəyyən vaxt ərzində həll etmək lazım idi. Bundan sonra tələbələr ya həllərin skanerdən keçmiş versiyasını onlayn poçt

ünvanına göndərməli, ya da cavabları elektron poçt ünvanına göndərilməli idi. Bunu razılaşdırılmış vaxt ərzində yerinə yetirmək lazım idi. Nəhayət, 2021-ci ilin yaz sessiyasında sessiya qiymətləndirilmələri kameraların nəzarəti altında keçirilirdi və tələbələr kameranın nəzarəti altında imtahan verirdilər. Biz hesab edirik ki, ixtiyari tapşırıqlarla məsələnin həlli üçün ciddi vaxt çərçivəsinin birləşdirilməsi imtahan zamanı əməkdaşlıq şanslarını minimuma endirirdi.







Göründüyü kimi, tələbələrin əksər qiymətləndirmələrə görə təlim müvəffəqiyyəti (müxtəlif fənlər üzrə) demək olar ki, eynidir (pandemiyadan əvvəl və pandemiya vaxtı). Elə fənlər var ki (kompüter elmləri kafedrası fənləri), pandemiya vaxtı tələbələrin təlim müvəffəqiyyəti yaxşıdır. Buna baxmayaraq, pandemiya vaxtı əlamətdar nailiyyət kursdan çıxan tələbələrin sayının kəskin azalmasıdır. Bu azalma kurs daxilində həm mühazirələrin, həm də praktiki məşğələlərin və s. videoları kimi bir neçə yardımçı tədbirlərin daxil edilməsi ilə əlaqəli ola bilər. Bu tədbirlərin pandemiya vaxtı tələbələr üçün yardım mexanizmləri kimi nəzərdə tutulmasına baxmayaraq, tələbələr daim məşğul olmaq, nəticədə imtahana daha yaxşı hazırlaşmaq üçün onlardan istifadə etdilər.

*Tələbələrin rəyi.* Bütövlükdə tələbələrin qiymətlərdəki təlim müvəffəqiyyətinə görə təsdiq etmək olar ki, onlayn-təhsil tələbələrin təliminə güclü təsir etməyib və keçid ciddi problemsiz baş tutub. Bununla belə, bu cür nəticə süni ola bilər. Belə ki, ora əsas maraqlı tərəfin, yəni tələbələrin rəyi daxil edilməyib. Buna görə, təhlili başa vurmaq üçün bu kurslarda təhsil alan tələbələr arasında sorğu keçirdik. Sorğu, onlayn-təlimlə bağlı tələbələrin təcrübələrini və üstünlüklərini başa düşmək məqsədi daşıyırdı. Sorğunun nəticələrini iki əsas kateqoriyaya bölmək olar:

1. Mühazirələr və əlavə video – istifadə etdikləri və üstünlük verdikləri.

2. Virtual təlim – tələbə təcrübəsi və tələbələrə təsir.

*Mühazirələr və əlavə videolar.* Tələbələrin əksəriyyəti (50%-dən artıq) materialı yaxşı mənimsəmək üçün əlavə videoların olmasına üstünlük verirdi və əmin idilər ki, bu, materialı daha yaxşı başa düşməkdə onlara kömək edəcək. Onlar qeyd etdilər ki, əgər mühazirənin video yazısını əldə etmək mümkün olarsa, onda onlar materialın öyrənilməsinə daha çox köklənərlər.

Tələbələrdən materiallar onlayn təqdim edilsə, dərslərə gəlməmək ehtimalı barədə soruşduqda onlar, mühazirə və videoyazılar olduqda dərslərə gəlməmək barəsində düşündüklərini etiraf etdilər. Lakin onlar bəyan etdilər ki, mühazirələrin videoyazısının mövcudluğu onların dərsə gəlməmək qərarına təsir edən əsas amil olmayacaq.

Nəhayət, əlavə videoroliklərin müddətinə gəldikdə biz aydınlaşdırdıq ki, tələbələr 60 dəqiqəlik və daha geniş videoyazı əvəzinə qısa videoroliklərə (5 və ya 15-20 dəqiqə) üstünlük verdilər.

*Onlayn-təlim mühiti.* Tələbələrin əksəriyyətinin tam onlayn-təlim xoşuna gəlmədi. Bundan əlavə, onlar hesab edirlər ki, onlayn-təlim materialın mənimsənilməsinə bir qədər mane olur. Buna görə də onlar şəxsi təlimə üstünlük verdi. Baxmayaraq ki, müxtəlif kurslarda tələbələrin təlim müvəffəqiyyəti pandemiyadan əvvəlki və pandemiya vaxtı yekun qiymətlərin müqayisəsi zamanı eyni idi. Bu, təcrübələndirici deyil. Axı tələbələr onlayn-mühitdə kurslara cəlb edilməklə ora gözlənilmədən atılmış və yaşıdları ilə ünsiyyət üçün zəngin mühitdən, fənni yaşıdları və müəllimlərlə qarşılıqlı əlaqəli öyrənmək imkanı təmin edən universitet atmosferindən tamamilə təcrid edilmişdilər. Bu, şəxsi həyatlarına təsir edən pandemiya problemləri ilə birlikdə onlayn-təlim haqqında neqativ təəssürat əlavə edir.

Yuxarıda deyilənləri təsdiq edərək, tələbələrin əksəriyyəti qeyd etdilər ki, onlayn-təlim onların rifahlarına zərər vurur və onlayn-formatda təhsil haqqında yardımçı suallara cavab olaraq, soruşulanların təqribən 70%-i həm yaşıdları, həm də müəllimləri ilə şəxsi ünsiyyətə can atırdılar və hiss edirdilər ki, onların şəxsi rifahları əhəmiyyətli dərəcədə azalıb. Onlar pandemiya vaxtı onlayn-məşğələlərdə İnternetə pis qoşulma (28%), ötürücülük qabiliyyəti, texnoloji səriştəsizlik (10%) və s. kimi texniki məsələlərlə qarşılaşdılar. Bu da, həmçinin onların onlayn-təlimdən narazılıqlarını dərinləşdirdi, lakin yuxarıda göstərilən onlayn-təlim haqqında neqativ rəylərə və əyani məşğələlərə üstünlük verilməsinə baxmayaraq, seçim imkanı olarsa, tələbələrin 48 \%-i təklif olunan hibrid kurslara üstünlük verərdi. Bu, hibrid yanaşmanın çevikliyi ilə əlaqədardır. Bu zaman tələbələrin yaşıdları ilə şəxsən qarşılıqlı hərəkət etmək, eyni zamanda evdən məşğələlərə periodik qoşulmaq imkanları olacaq. Bu, əlavə video, onlayn-mühazirələr və dərs materialları ilə birlikdə tələbələri ideal təlim mühiti kimi cəlb edir. Biz inanırıq ki, təlimin hibrid modeli düzgün qurulduqda bu kateqoriyada bir çox tələbələr hibrid modelə üstünlük verəcək.

Bizim fikrimizcə, gələcəkdə təhsilin hibrid formasından istifadə optimal olardı. Bu, sorğunun nəticələrindən irəli gəlir ki, orada da tələbələr qarışıq/hibrid mühitə ehtiyaclarının olduğunu bildirirlər. Hibrid model – bəzi kurslar və ya onların bir hissəsi off-line, bəziləri isə virtual rejimdə tədris olunan təhsildir. Tələbələr kursun müəyyən aspektləri üzrə tədris müəssisəsində olduqda, xüsusilə məhdud maliyyə və məkan şəraitində işləyən universitetlərə öz ehtiyatlarını optimallaşdırmağa kömək edirlər. Bu da təlimə çeviklik gətirər, onlara öz həmyaşıdları ilə birgə işləməyə imkan verər.

Xüsusilə, əsasən nəzəri xarakter daşıyan, müzakirə və qiraət tələb edən kurslar tələbələr üçün bir neçə şəxsi əlaqə görüşləri ilə virtual formatda təqdim edilə bilər. Əsasən praktiki xarakter daşıyan kurslar (sınaqların keçirilməsi, PMK (proqramlaşdırıla bilən məntiqi kontroller) proqramlaşdırılması, layihələndirmə üsulları və s.), ilk növbədə, əyani məkanda keçirilə bilər (off-line). Bizim baxışlarımız aktiv təlimin əsas problemlərini həll edən müvafiq strukturun çox məşhur olacağını, hətta təhsilini artırmaq istəyən işləyən mütəxəssislər üçün təhsili əlçatan edəcəyini iddia edən hibrid təlimin [23, 55, 56] digər tərəfdarları ilə üst-üstə düşür.

Təlim proqramlarının hazırlanmasına yeni yanaşmalara əlavə olaraq [50], çevik təlimə aşağıdakılar daxil olmalıdır: təhsil aldıqları yerdən asılı olmayaraq, temp, məzmun və ardıcıllıq təklif etməklə təlim rejimlərinin müxtəlifliyi [51-54].

Nəzərə alın ki, tələbələr belə çox çevik təhsil mühitində uğurlu olmaq üçün vacib olan özünüidarə və özünütənzim vərdişlərinə malik

olmaya bilər [55, 56]. Dərs cədvəli, dərs vaxtı da əhəmiyyət daşıyır. Belə ki, fəndən asılı olaraq, bu, materialın mənimsənilməsinə təsir edir. Əlavə olaraq, virtual məşğələni daha diqqətlə planlaşdırmaq lazımdır. Belə ki, texnoloji problemlərlə rastlaşmaq olar.

Bütün tələbələr üçün bərabər təlim imkanları təmin etmək üçün dərslərdən kənar tələbələr üçün əlçatan olan qiraət üçün, mühazirə üçün materialların və mühazirələrin yazıların hazırlanması kimi tədbirlər görülərkən çevikliyin qorunub saxlanması yerinə düşərdi [56]. Problemlərin həlli üçün tətbiq edilən əsas anlayışlar və məsələlərin olduğu qısa roliklər kimi kursun əlavə materialları tələbələrin təhsilinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Bu, sorğuda iştirak edən tələbələrin əksəriyyəti tərəfindən faydalı hesab edilib. Aydındır ki, tələbələr məşğələlərdə öyrənilən mövzuya aid olan istənilən multimedia materiallarına daxilolma imkanına üstünlük verir.

Aşağıda sorğu zamanı verilən sualların siyahısı təqdim edilir:

**Sorğu sualları:**

1. Əlavə materialların Sizin kurs üzrə təlim müvəffəqiyyətinizi yaxşılaşdırdığını düşünürsünüz?

- Mühazirələrin əlavə video/yazıları mənim təlim müvəffəqiyyətimi yaxşılaşdırır.
- Mühazirələrin əlavə video/yazıları mənim təlim müvəffəqiyyətim üçün fərdi təlimimdən heç nə ilə fərqlənmir.
- Mühazirələrin əlavə video/yazıları mənim təlim müvəffəqiyyətimi azaldır.
- Cavab yoxdur.

2. Sizin bu kurs üzrə bütün videolara baxmaq və bütün mühazirələrdə iştirak etmək ehtimalınız nə qədərdir?

- Çox güman ki.
- Yəqin ki.
- Ehtimal azdır.
- Çox çətin.
- Cavab yoxdur.

3. Sizin əvvəlcədən yazılmış videolar əldə etmək imkanınız olarsa, onlara əvvəllər baxma ehtimalınız nə qədərdir?

- Çox güman ki.
- Yəqin ki.
- Ehtimal azdır.
- Çox çətin.
- Cavab yoxdur.

4. Əgər mühazirənin videoyazısına baxmaq imkanınız varsa, aşağıda sadalananlardan nə Sizin üçün məqbuldur?

- Məşğələlərdə az diqqətli olmaq, amma mühazirələrin əksəriyyətində iştirak etmək.
- Sinifdə az qeyd aparmaq, amma çox mühazirələrdə iştirak etmək.
- Çox mühazirələrdə iştirak etməmək, amma yenə də bəzilərində iştirak etmək.
- Mühazirələrdə iştirak etməmək.
- Çox çətin.
- Cavab yoxdur.

5. Aşağıda sadalananlardan hansılarını Sizə aid etmək olar?

- Əgər mühazirələr yazılsaydı və onları onlayn əldə etmək mümkün olsaydı, mən mühazirələrin çoxunda iştirak etməzdim.
- Mühazirələri onlayn əldə etmək mümkün olsaydı belə, mən mühazirələrdə iştirak edərdim.
- Mənim mühazirələrdəki iştirakım mühazirələrin yazılı şəkildə olmasından asılı deyil.
- Cavab yoxdur.

6. Müəyyən mövzu ilə əlaqədar problemləriniz olsa, aşağıdakılardan hansılarına baxardınız?

- Mövzu üzrə 5 dəqiqəlik video.
- Konsepsiyanın 5-10 dəqiqə ərzində izah edildiyi 60 dəqiqəlik video-mühazirə.
- Konsepsiyanın 5-10 dəqiqə ərzində izah edildiyi 120 dəqiqəlik video-mühazirə.
- Cavab yoxdur.

7. Müəyyən mövzuya aid vaxt müddəti nə qədər olan videoya baxmağa üstünlük verirsiniz?

- 5-7 dəqiqəlik videoroliklərdən istifadə etməklə izah edilən nümunələri olan konsepsiya.
- 15-20 dəqiqəlik videorolikdə izahat edilən nümunələri olan konsepsiya.
- Nümunələri olan bir neçə konsepsiyadan ibarət 60-120 dəqiqəlik tam mühazirə videosu.
- Cavab yoxdur.

8. Videoya baxmamağınızın əsas səbəbini göstərin:

- Bu, çox uzundur.
- Maraqlı deyil.
- Mən həmyaşıdlarımla daha yaxşı öyrənirəm.
- Vaxtım yoxdur.

- Qiymətlərə görə mükafatlandırma yoxdur.
- Cavab yoxdur.

9. Aşağıdakılardan hansı Sizin təcrübənizi daha yaxşı əks etdirir?

- Onlayn-təlimlə müqaisədə əyani təlimə üstünlük verirəm.
- Onlayn-təlim əyani təlimdən heç nə ilə fərqlənmir.
- Mən əyani təlimlə müqayisədə onlayn-təlimə üstünlük verirəm.
- Cavab yoxdur.

10. Kurs/mövzu üzrə onlayn-təlimin Sizin təlim müvəffəqiyyətinizi yaxşılaşdırdığını düşünürsünüz?

- Onlayn-təlim təlim müvəffəqiyyətimi yaxşılaşdırır.
- Mənim işim üçün onlayn-təlim fərdi təlimdən heç nə ilə fərqlənmir.
- Onlayn-təlim təlim müvəffəqiyyətimi azaldır.
- Cavab yoxdur.

11. Sizin təcrübəniz aşağıdakılardan hansını daha yaxşı əks etdirir?

- Onlayn-təlim nəticəsində mənim sosial rifahım pisləşib.
- Onlayn-təlim nəticəsində mənim sosial rifahım dəyişməyib.
- Onlayn-təlimə görə mənim sosial rifahım yaxşılaşıb.
- Cavab yoxdur.

12. Onlayn-təlim mühitində həmyaşıdlarla şəxsi əlaqənin yoxluğu Sizə necə təsir edir?

- Mənə çox pis təsir edir.
- Mənə bir qədər mənfi təsir edir.
- Mənə bir qədər müsbət təsir edir.
- Mənə çox yaxşı təsir edir.
- Mənə qətiyyən toxunmur.
- Cavab yoxdur.

13. Təlimatçı ilə şəxsi ünsiyyətin yoxluğu Sizə necə təsir edir?

- Mənə çox pis təsir edir.
- Mənə bir qədər mənfi təsir edir.
- Mənə bir qədər müsbət təsir edir.
- Mənə çox müsbət təsir edir.
- Bu, mənə qətiyyən toxunmur.
- Cavab yoxdur.

14. Sizin onlayn kurslarda iştirak etmə və ya kursun məzmununa daxilolma imkanınıza təsir edən İnternetə qoşulmaqda, verilənlərlə, ötürücülük qabiliyyəti ilə və ya digər texnologiyalarla probleminiz olub?

- Bəli, ekstremal çətinlik.
- Bəli, çətinliklər.
- Bəzən çətinliklər.
- Çətinlik yoxdur.
- Cavab yoxdur.

15. Hansı təhsil mühitinə üstünlük verirsiniz?

- Kampus mühitinə (off-line).
- Evdə işə.
- Həm fərdi, həm də evdə işləmək imkanı olan hibrid yanaşmaya.
- Cavab yoxdur.

**Problemin elmi yeniliyi:** Mövcud təriflər nəzərdən keçirilərək qarışıq öyrənmə və onun pedaqoji modellərini müqayisə edilməsi.

**Problemin praktik əhəmiyyəti:** cəmiyyətin informasiyalaşdırılmasında kompüter texnologiyalarından istifadənin rolundan ibarətdir.

**Problemin aktuallığı**: Təhsil sistemində baş verən dəyişikliklər geniş miqyasda yayılan informasiya və biliyə əsaslanır. Yeni təhsil sisteminin təməlində informasiya və kommunikasiya texnologiyaları (İKT) dayanır. Hazırda mövcud olan məlumat mübadiləsini tez, səmərəli və tamamilə həyata keçirməyə imkan verən texnologiyaların təhsildə əldə olunan uğurlara göstərdiyi təsirlər danılmazdır.

**Ədəbiyyat:**


1. Bao, W. COVID-19 and online teaching in higher education: A case study of Peking University. Hum. Behav. Emerg. Technol. 2020, 2, 113-115. [CrossRef]
2. Carroll, N.; Conboy, K. Normalising the “new normal”: Changing tech-driven work practices under pandemic time pressure. Int. J. Inf. Manag. 2020, 55, 102-186. [CrossRef]
3. Colao, A.; Piscitelli, P.; Pulimeno, M.; Colazzo, S.; Miani, A.; Giannini, S. Rethinking the role of the school after COVID-19. Lancet Public Health 2020, 5, 370. [CrossRef]
4. Dhawan, S. Online Learning: A Panacea in the Time of COVID-19 Crisis. J. Educ. Technol. Syst. 2020, 49, 5-22. [CrossRef]
5. Mishra, L.; Gupta, T.; Shree, A. Online teaching-learning in higher education during lockdown period of COVID-19 pandemic. Int. J. Educ. Res. Open 2020, 1, 100012. [CrossRef]

6. Mok, K.H.; Xiong, W.; Ke, G.; Cheung, J.O.W. Impact of COVID-19 pandemic on international higher education and student mobility: Student perspectives from mainland China and Hong Kong. Int. J. Educ. Res. 2021, 105, 101-718. [CrossRef]
7. Muhammad, N.; Srinivasan, S. Online Education During a Pandemic-Adaptation and Impact on Student Learning. Int. J. Eng. Pedagog. 2021, 11, 71-83. [CrossRef]
8. Muhammad, N.; Srinivasan, S. Transition from In-Class to Online Lectures during a Pandemic BT-Visions and Concepts for Education 4.0; Auer, M.E., Centea, D., Eds.; Springer International Publishing: Cham, Switzerland, 2021; pp. 307-314.
9. Engzell, P.; Frey, A.; Verhagen, M.D. Learning loss due to school closures during the COVID-19 pandemic. Proc. Natl. Acad. Sci. USA 2021, 118, e2022376118. [CrossRef] [PubMed]
10. Dorn, E.; Hancock, B.; Sarakatsannis, J.; Viruleg, E. COVID-19 and Learning LossDisparities Grow and Students Need Help; McKinsey & Company: Chicago, IL, USA, 2020; pp. 1–13.
11. Savage, M.J.; James, R.; Magistro, D.; Donaldson, J.; Healy, L.C.; Nevill, M.; Hennis, P.J. Mental health and movement behaviour during the COVID-19 pandemic in UK university students: Prospective cohort study. Ment. Health Phys. Act. 2020, 19, 100357. [CrossRef]
12. Essadek, A.; Rabeyron, T. Mental health of French students during the Covid-19 pandemic. J. Affect. Disord. 2020, 277, 392-393. [CrossRef]
13. Kaparounaki, C.K.; Patsali, M.E.; Mousa, D.-P.V.; Papadopoulou, E.V.K.; Papadopoulou, K.K.K.; Fountoulakis, K.N. University students' mental health amidst the COVID-19 quarantine in Greece. Psychiatry Res. 2020, 290, 113111. [CrossRef] [PubMed]
14. Copeland, W.E.; McGinnis, E.; Bai, Y.; Adams, Z.; Nardone, H.; Devadanam, V.; Rettew, J.; Hudziak, J.J. Impact of COVID-19 Pandemic on College Student Mental Health and Wellness. J. Am. Acad. Child Adolesc. Psychiatry 2021, 60, 134–141. [CrossRef] [PubMed]
15. Sun, A.; Chen, X. Online Education and Its Effective Practice: A Research Review. J. Inf. Technol. Educ. Res. 2016, 16, 157-190. [CrossRef]
16. Ashour, S.; El-Refae, G.A.; Zaitoun, E.A. Post-pandemic Higher Education: Perspectives from University Leaders and Educational Experts in the United Arab Emirates. High. Educ. Futur. 2021, 8, 219-238. [CrossRef]
17. Teichler, U. The future of higher education and the future of higher education research. Tert. Educ. Manag. 2003, 9, 171-185. [CrossRef]
18. Zhao, Y. COVID-19 as a catalyst for educational change. Prospects 2020, 49, 29-33. [CrossRef]
19. Jonassen, D.H. Thinking Technology: Toward a Constructivist Design Model. Educ. Technol. 1994, 34, 34–37.
20. Srinivasan, S.; Muhammad, N. A Constructivist Approach for Mathematics Education. J. Educ. Pedagog. 2020, 12, 1–5.
21. Hunter, A.-B.; Laursen, S.L.; Seymour, E. Becoming a scientist: The role of undergraduate research in students' cognitive, personal, and professional development. Sci. Educ. 2007, 91, 36-74. [CrossRef]
22. Srinivasan, S.; Centea, D. Problem Based Learning in Finite Element Analysis BT-Visions and Concepts for Education 4.0; Auer, M.E., Centea, D., Eds.; Springer International Publishing: Cham, Switzerland, 2021; pp. 240-246. Educ. Sci. 2021, 11, 557 18 of 19
23. Srinivasan, S.; Muhammad, N. Implementation of a Course in Computational Modeling of Biological Systems in an Undergraduate Engineering Program. Int. J. Eng. Educ. 2020, 36, 857-864.
24. Gijbels, D.; Dochy, F.; Van den Bossche, P.; Segers, M. Effects of Problem-Based Learning: A Meta-Analysis From the Angle of Assessment. Rev. Educ. Res. 2005, 75, 27-61. [CrossRef]
25. Dochy, F.; Segers, M.; Van den Bossche, P.; Gijbels, D. Effects of problem-based learning: A meta-analysis. Learn. Instr. 2003, 13, 533-568. [CrossRef]
26. Centea, D.; Srinivasan, S. Assessment in problem-based learning using mobile technologies. In Advances in Intelligent Systems and Computing; Auer, M., Tsiatsos, T., Eds.; Springer: Cham, Switzerland, 2019; pp. 337-346.
27. Centea, D.; Srinivasan, S. A Comprehensive Assessment Strategy for a PBL Environment. Int. J. Innov. Res. Educ. Sci. 2016, 3, 364-372.
28. Sidhu, G.; Srinivasan, S.; Centea, D. Implementation of a Problem Based Learning Environment for First Year Engineering Mathematics. In Social Progress and Sustainability; Guerra, A., Rodriguez, F.J., Kolmos, A., Reyes, I.P., Eds.; Aalborg University Press: Aalborg, Denmark, 2017; pp. 201-208.

29. Centea, D.; Srinivasan, S. Enhancing Student Learning through Problem Based Learning. In PBL, Social Progress and Sustainability; Guerra, A., Rodriguez, F.J., Kolmos, A., Reyes, I.P., Eds.; Aalborg University Press: Aalborg, Denmark, 2017; pp. 376-385.
30. Guo, P.; Saab, N.; Post, L.S.; Admiraal, W. A review of project-based learning in higher education: Student outcomes and measures. Int. J. Educ. Res. 2020, 102, 101-586. [CrossRef]
31. Wage, K.E.; Buck, J.R.; Wright, C.H.G.; Welch, T.B. The signals and systems concept inventory. IEEE Trans. Educ. 2005, 48, 448-461. [CrossRef]
32. Sidhu, G.; Srinivasan, S. An Intervention-Based Active-Learning Strategy To Enhance Student Performance in Mathematics. Int. J. Pedagog. Teach. Educ. 2018, 2, 277-288. [CrossRef]
33. Buck, J.R.; Wage, K.E. Active and cooperative learning in signal processing courses. IEEE Signal Process. Mag. 2005, 22, 76-81. [CrossRef]
34. Srinivasan, S.; Centea, D. An Active Learning Strategy for Programming Courses. In Mobile Technologies and Applications for the Internet of Things, Proceedings of the Mobile Technologies and Applications for the Internet of Things. Advances in Intelligent Systems and Computing; Auer, M., Tsiatsos, T., Eds.; Springer Nature: Berlin/Heidelberg, Germany, 2019; pp. 327-336.
35. Srinivasan, S.; Centea, D. Applicability of Principles of Cognitive Science in Active Learning Pedagogies. In Proceedings of the 13th International Workshop Active Learning in Engineering, Donostia, Spain, 6-10 July 2015; pp. 99-104.
36. Prince, M. Does Active Learning Work? A Review of the Research. J. Eng. Educ. 2004, 93, 223-231. [CrossRef]
37. Beichner, R. The Student-Centered Activities for Large Enrollment Undergraduate Programs (SCALE-UP) Project. Res. Based Reform Univ. Phys. 2007, 1, 2-39.
38. Cummings, K.; Marx, J.; Ronald, T.; Dennis, K. Evaluating innovation in studio physics. Am. J. Phys. 1999, 67, S38-S44. [CrossRef]
39. Bogoslowski, S.; Geng, F.; Gao, Z.; Rajabzadeh, A.R.; Srinivasan, S. Integrated Thinking-A Cross-Disciplinary Project-Based Engineering Education BT-Visions and Concepts for Education 4.0; Auer, M.E., Centea, D., Eds.; Springer International Publishing: Cham, Switzerland, 2021; pp. 260-267.
40. Deslauriers, L.; Schelew, E.; Wieman, C. Improved Learning in a Large-Enrollment Physics Class. Science 2011, 332, 862-864. [CrossRef]
41. Srinivasan, S.; Rajabzadeh, A.R.; Centea, D. A Project-Centric Learning Strategy in Biotechnology BT-The Impact of the 4th Industrial Revolution on Engineering Education; Auer, M.E., Hortsch, H., Sethakul, P., Eds.; Springer International Publishing: Cham, Switzerland, 2020; pp. 830-838.
42. Lewis, S.E.; Lewis, J.E. Departing from Lectures: An Evaluation of a Peer-Led Guided Inquiry Alternative. J. Chem. Educ. 2005, 82, 135. [CrossRef]
43. Muhammad, N.; Srinivasan, S. A Problem Solving Based Approach to Learn Engineering Mathematics BT-The Impact of the 4th Industrial Revolution on Engineering Education; Auer, M.E., Hortsch, H., Sethakul, P., Eds.; Springer International Publishing: Cham, Switzerland, 2020; pp. 839-848.
44. Dunham, T.; Wells, J.; White, K. Biotechnology Education: A Multiple Instructional Strategies Approach. J. Tech. Edu. 2002, 14, 65-81. [CrossRef]
45. Love, D.A.; Kotchen, M.J. Grades, Course Evaluations, and Academic Incentives. East. Econ. J. 2010, 36, 151-163. [CrossRef]
46. Radu, M.-C.; Schnakovszky, C.; Herghelegiu, E.; Ciubotariu, V.-A.; Cristea, I. The Impact of the COVID-19 Pandemic on the Quality of Educational Process: A Student Survey. Int. J. Environ. Res. Public Health 2020, 17, 77-70. [CrossRef]
47. Montacute, R.; Cullinane, C. Learning in Lockdown; The Sutton Group: London, UK, 2021.
48. Bell, B.S.; Federman, J.E. E-Learning in Postsecondary Education. Futur. Child. 2013, 23, 165-185. [CrossRef]
49. Boelens, R.; De Wever, B.; Voet, M. Four key challenges to the design of blended learning: A systematic literature review. Educ. Res. Rev. 2017, 22, 1-18. [CrossRef]
50. Centea, D.; Srinivasan, S.; Singh, I.; Wanyama, T. A Collaborative Approach in Designing Curriculum for Industry 4.0 Software Integration Implementation BT-The Impact of the 4th Industrial Revolution on Engineering Education; Auer, M.E., Hortsch, H., Sethakul, P., Eds.; Springer International Publishing: Cham, Switzerland, 2020; pp. 135-144.
51. Chen, Y.; Wang, Y.; Kinshuk; Chen, N.-S. Is FLIP enough? Or should we use the FLIPPED model instead? Comput. Educ. 2014, 79, 16-27. [CrossRef] Educ. Sci. 2021, 11, 557 19 of 19

52. Owston, R.; York, D.; Murtha, S. Student perceptions and achievement in a university blended learning strategic initiative. Internet High. Educ. 2013, 18, 38-46. [CrossRef]
53. Ozkan, S.; Koseler, R. Multi-dimensional students' evaluation of e-learning systems in the higher education context: An empirical investigation. Comput. Educ. 2009, 53, 1285-1296. [CrossRef]
54. Ruiz, J.G.; Mintzer, M.J.; Leipzig, R.M. The Impact of E-Learning in Medical Education. Acad. Med. 2006, 81, 207-212. [CrossRef]
55. Barnard, L.; Lan, W.Y.; To, Y.M.; Paton, V.O.; Lai, S.-L. Measuring self-regulation in online and blended learning environments. Internet High. Educ. 2009, 12, 1-6. [CrossRef]
56. Van Laer, S.; Elen, J. In search of attributes that support self-regulation in blended learning environments. Educ. Inf. Technol. 2017, 22, 1395-1454. [CrossRef]

**E-mail:** saadat.maznova@gmail.com
**Rəyçilər:** *dos.* **Q.İ. Əliyev**
*biol.ü.fəls.dok., dos.* **Q.İ. Əliyev**
**Redaksiyaya daxil olub:** 23.02.2022

## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

**UOT 37.0**

***Hikmət Əbdül oğlu Əlizadə***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Bakı Dövlət Universiteti*
*https://orcid.org/0000-0002-5434-3602*
*https://doi.org/10.5281/zenodo.6445470*

# XX ƏSRDƏ DƏRSİN FƏLSƏFƏSİNƏ ÜÇ YANAŞMA

***Хикмет Абдул оглы Ализаде***
*доктор наук по педагогике, профессор*
*Бакинский Государственный Университет*

# ТРИ ПОДХОДА К ФИЛОСОФИИ УРОКА В XX ВЕКЕ

***Hikmet Abdul Alizada***
*doctor of sciences in pedagogy, professor*
*Baku State University*

# THREE APPROACHES TO THE PHILOSOPHY OF THE LESSON IN THE 20TH CENTURY

**Xülasə.** Məqalədə qeyd olunur ki, dərs zamandan asılı olaraq daima təkmilləşir, yeni məzmun kəsb edir. Bu istiqamətdə XX əsrdə dərsin fəlsəfəsində onun müasirləşdirilməsi baxımından yaranmış üç yanaşmaya (ənənəvi dərs, fəal dərs, fəal/interaktiv dərs) nəzər salınır.
***Açar sözlər:*** *ənənəvi dərs, fəal dərs, interaktiv dərs, təlim məqsədləri taksonomiyası, analiz, sintez.*

**Резюме.** В статье отмечается, что урок с течением времени постоянно совершенствуется, обретая новое содержание. В связи с этим в философии урока XX века рассматриваются три подхода (традиционный урок, активный урок, интерактивный урок) с точки зрения его модернизации.
***Ключевые слова:*** *традиционный урок, активный урок, интерактивный урок, таксономия целей обучения, анализ, синтез*

**Summary.** The article notes that the lesson with the flow of time is constantly improved, gaining a new content. In connection with this, in the philosophy of the lesson of the twentieth century, three approaches (traditional lesson, active lesson, interactive lesson) are considered from the point of view of its modernization.
***Keywords:*** *traditional lesson, active lesson, interactive lesson, taxonomy of learning objectives, analysis, synthesis*

## Giriş

Bütün dövrlərdə mütəfəkkirlər, maarifçilər, müəllimlər dərsi zamanın tələbinə uyğunlaşdırmağa, başqa sözlə, müasirləşdirməyə çalışıblar. Amma dərs həmişə zaman qarşısında aciz qalıb, onu daim müasirləşdiriblər ki, zamanın tələblərinə uyğun olsun, lakin onu nə qədər müasirləşdiriblərsə, bir müddət sonra yenə müasirləşməyə ehtiyacı olub. Nə qədər qəribə səslənsə də, reallıq budur ki, dünyanı dərk etməyi dərsdə öyrənən adamlar sonralar onu tənqid edib, nöqsanlarının olduğunu bildiriblər. Amma dərsin elə bir modeli "kəşf edilməyib" ki, o, dəyişməz olaraq, uzun bir dövr qəbuledilən sayılsın. XX əsrdə də dərsin müasirləşdirilməsi mütəxəssislərin diqqətində olub. Nəticədə keçən əsrdə dərsin fəlsəfəsində onun müasirləşdirilməsi baxımından üç yanaşma meydana gəlib. Onlar

pedaqoji ədəbiyyatda belə mənalandırılır: 1. Ənənəvi dərs. 2. Fəal dərs. 3. İnteraktiv dərs (1, s. 100-254). Onları ayrı-ayrılıqda izah edək.

**Ənənəvi dərsin konturları**

Ənənəvi məktəbdə dərs məlumatvericilik episentri üzərində köklənmişdi. Şagirdləri bilik, bacarıq və vərdişlərlə silahlandırmaq üçün qavrama, anlama, tətbiq etmə və möhkəmlətmə (2, s. 223.) mərhələləri təlimin yolu kimi qiymətləndirilirdi. Bu ənənəvi dərsin qarşısında duran məqsədlə bağlı idi.

Dərsin məlumatvericilik episentri üzərində kökənməsini təcrübədə reallaşdırmaq müəllimdən xüsusi yaradıcılıq səyi tələb etmirdi. Müəllimlərin əksəriyyəti bu tələbdən çıxış edərək şagirdlər üçün (*diqqət edin, müəllimlər üçün deyil, məhz şagirdlər üçün)* yazılmış dərsliyi şagirdlərə danışmaqla (*oxu: nəql etməklə və ya izah etməklə*) öz vəzifələrini yerinə yetmiş hesab edirdilər. Müəllimin belə fəaliyyəti ənənəvi təlimin fənyönlü xarakter daşımasından irəli gəlirdi.

Fikrimizin daha aydın olması üçün gəlin ənənəvi dərsin gedişini yada salaq. Müəllim ev tapşırıqlarını yoxladıqdan və keçən dərsdə öyrənmək üçün evə verilən mövzunu soruşduqdan sonra yeni mövzunu elan edirdi: "Uşaqlar, bu gün ... mövzunu öyrənəcəyik". Sonra onu şərh etməyə başlayırdı. Şərhin sonunda müəllim sinfə "Kim dərsi başa düşmədi? (və ya "Kimə nə aydın olmadı?") sualı ilə müraciət edirdi. Dərsin sonunda isə biliyi möhkəmlətmək üçün şagirdlərə bir neçə sual və ya tapşırıq verirdi.

Lakin burada bir məqama diqqət etmək lazımdır: adi müəllimlər adətən ənənəvi dərsi yalnız biliyin verilməsi və tətbiq edilməsi mərhələləri üzərində qururdular. Onlar unudurdular ki, mənimsəmə prosesində anlama mərhələsi də var. Fikir verin, adi müəllimlərin dərsində idraki cəhətdən adətən 3-5 şagird fəal olurdu. Bunun səbəbi də adi müəllimlərin anlama mərhələsinə diqqət etməməsi idi. Biliyi anlaya bilməyən şagird onu necə tətbiq edə bilərdi? Fəal şagirdlər isə evdə dərsi öyrənərkən valideynləri tərəfindən və ya fərdi imkanları vasitəsi ilə biliyi anlayan şagirdlər idi.

Novator müəllimlər isə anlama mərhələsini həyata keçirmək üçün, yəni dərsdə biliyin şagirdin anlaması üçün fəndaxili və fənlərarası əlaqə prinsiplərinin tələblərinə riayət edir, keçmiş mövzu ilə yeni mövzu arasında əlaqə yaradır, yeni biliyin praktik əhəmiyyəti haqqında məlumat verir, müxtəlif priyomlardan (kartoçka, sual-cavab, oyun və s.), hətta bəzən dialoqdan və s. istifadə edirdilər. Novator müəllimlərə haqq qazandırmaq olar. Onlar bu yollardan istifadə edərək şagirdin biliyi anlaması üçün şərait yaradırdılar.

Novator müəllimlərin bu innovasiyaları təbii ki, metodiki xarakter daşıyırdı, mövzunun şərhini məzmunlaşdırır və onların belə fəaliyyəti daha çox şagirdin biliyi anlamasına imkan verirdi. Etiraf etməliyik ki, novator müəllimlər bu cəhdləri ilə dərsin səmərəliliyini artırır, onu daha maraqlı edirdilər, şagirdlərin biliyi daha dərindən anlaması üçün şərait yaradırdılar. Qabaqçıl müəllimlərin metodik yenilikləri dərsi maraqlı etsə də, onun səmərəsini artırsa da, onlar dərsin fəlsəfəsini yeniləyə bilmədilər. Etdikləri yeniliklər yalnız mənimsəmə məqsədinin daha optimal həyata keçməsinə şərait yaratdı. Axı ənənəvi didaktik sistemdə dərs zamanı müəllimi, ilk növbədə, proqram materialının şagirdlərə öyrədilməsi, məlumatın şagirdlərə verilməsi maraqlandırırdı.

Ənənəvi dərsdə müəllimlər avtoritar-inzibatçı üsullara daha çox üstünlük verirdilər. Bunun səbəbi məlumdur, ənənəvi dərsdə şagirdlərin idrak fəaliyyəti, müəllimlər üçün, ilk növbədə, sadəcə olaraq, intizam məsələsi kimi qiymətləndirilirdi. Bu təbii idi, dərs prosesində müəllimin istəyi sadəcə olaraq, şagirdlərin ona diqqətlə qulaq asması idi. Şagirdin yeni mövzunu anlaması üçün isə, o ən azı, sakitcə müəllimə qulaq asmalı idi.

Şagirdlərin biliyi möhkəm mənimsəməsi ənənəvi dərsin məqsədi olduğu üçün, sözün düzü həmin məqsədin daha dərindən həyata keçməsini təmin edə biləcək, maraqlı bir prinsip də irəli sürülmüşdür: "Biliyin möhkəmləndirilməsi". Bu, təkrarlama yolu ilə reallaşdırılırdı. Ənənəvi dərsdə təkrarlama o qədər təkmil yol kimi mənalandırılırdı ki, onu belə təqdim edirdilər: "Təkrar biliyin anasıdır". Bu düstur ənənəvi dərsin məntiqinə əsaslanaraq, onun onurğa sütununu təşkil edirdi. Lakin bu prinsip də ənənəvi dərsdə bütün şagirdlərin biliyi anlamasını təmin edə bilməmişdi.

**Fəal dərsin yaranması və onu ənənəvi dərsdən fərqləndirən cəhətlər**

XX əsrin ortalarında artıq dünyanın diqqəti psixoloji tədqiqatların bənzərsiz nəticələrinə yönəlmişdi. Jan Piajenin, Lev Semyonoviç Vı-

qotskinin, Abraham Maslounun və başqa psixoloqların tədqiqatları nəticəsində intellektin inkişaf modeli formalaşmışdı. Bu modelin reallaşdırılması dərsin müasirliyini artıracaqdı, zaman da intellektin inkişafı müstəvisində dərsin müasirləşdirilməsini tələb edirdi. Bu, o dövr idi ki, dünyanın müxtəlif ölkələrində dərsin müasirləşdirilməsi istiqamətində axtarışlar aparılırdı. Həm pedaqoqların, həm metodistlərin, həm də qabaqcıl müəllimlərin bu istiqamətdə axtarışlar apardıqları bir dövrdə, B. Blumun təlim məqsədləri taksonomiyası işıq üzü gördü və məlum oldu ki, bu taksonomiyanın tətbiqi dərsin müasirliyini təmin edə bilər. Taksonomiyada təlim məqsədləri (*ənənəvi dərsdə təlim məqsədləri biliyin verilməsi, anlama və tətbiq etmə idi*) yeniləndi və onların ierarxik quruluşu aşağıdakı kimi təqdim edildi:

***Bilik-anlama-tətbiq-analiz-sintez-qiymətləndirmə*** (3, s. 11)

Ənənəvi təlimin məqsədindən fərqli olaraq, bu taksonomiyada fikri əməliyyatlar xüsusi yer tutdu və iki fikri əməliyyata (təhlil və tərkib) xüsusi önəm verildi. Təhlil və tərkib əsas fikri əməliyyatlardır, müqayisə, ümumiləşdirmə və s. kimi proseslər məhz onlardan törəmədir.

Təhlil və tərkib proseslərinin köklü psixoloji effektləri fikirləşmə fenomeni ilə əlaqəlidir. Təlim fikirləşmə fenomeni üzərində qurulanda biliyin mənimsənilməsində hafizə müstəvisindən təfəkkür müstəvisinə keçid əmələ gəlir. Bu keçiddə fikri əməliyyatların fəallaşdırılması hafizənin mənalılığını aktuallaşdırdı, monoloji təlim dialoji təlimlə əvəzləndi. Nəticədə B. Blumun taksonomiyasının tətbiqi dövrün tələbinə müvafiq olaraq dərsin simasını yeniləşdirdi, müəllimlər şagirdləri fəallaşdırmağın yollarına yiyələndikcə..., bu yolları təkmilləşdirdikcə..., dərsin uğurları sərhədləri aşmağa başladı. Bu təsadüfi deyildi, dialoqun təşkili yollarının tətbiqi genişləndikcə, dərsdə müəllimlər vaxtı ilə Sokratın yaratdığı möcüzələrlə qarşılaşmağa başladılar. Bu möcüzələr o qədər rəngarəng idi ki,....müəllimlər onları gördükcə, daha həvəslə dərs deyir, dərsin səmərəliliyini artırmağın yeni-yeni yollarını axtarıb tapırdılar. Şagirdlər dil açmışdılar, nitqləri səlisləşmişdi, müstəqil fikirlər səsləndirirdilər, yeni ideyalar irəli sürürdülər, yeni biliyi "kəşf" edirdilər....., bütün bunlar sinifdə şagirdlərin təfəkkürünün inkişaf etməsinin təcəssümü və nəticəsi idi.

Blumun taksonomiyasının və onun tətbiqinin uğurları təbii ki, sovet pedaqoqlarına da məlum idi. Lakin ideoloji normalar onlara Amerika psixoloqlarının tədqiqatlarına əsaslanaraq, dərsə yeni məzmun gətirməyə mane olurdu. Amma bu yeniliyin edilməsi qaçılmaz idi. 70-ci illərdə Sovet pedaqoqları çıxış yolu kimi, problemli təlim ideyasını aktuallaşdırdılar, dərsin məlumatverici-inkişafetdirici məzmunda qurulmasının metodologiyasını işləyib hazırladılar (4). Bu dövrdə sovet pedaqoqları yeni təlim metodları – qismən axtarıcılıq, müstəqil iş, idrakı oyunlar, evristik müsahibə, disput, reproduktiv və problem axtarış, problem-tapşırıq, problem situasiyanın yaradılması, təlim müzakirəsi və s. metodlarını işləyib hazırladılar (5, s. 177-202). Lakin bu metodların tətbiqi nəzəri baxımdan öz inkişafını tapsa da, pedaqoji cəhətdə maraq kəsb etsə də, onu praktik istiqamətdə dərsdə yalnız novator müəllimlər tərəfindən reallaşa bildilər.

Problemli təlim özü-özlüyündə pedaqoji cəhətdən maraq kəsb edən ideya idi. Bunun nəticəsi idi ki, novator müəllimlər tədris etdikləri fənn üzrə dərsi müasirləşdirə bildilər. Problemli təlim müəllimdən dərsi monoloq üzərində deyil, dialoq əsasında təşkil etməyi tələb edirdi və şagirdin təlim fəallığı ön plana çəkilirdi. Məhz həmin illərdə ilk dəfə olaraq, müəllimlə yanaşı şagird də təlim prosesinin "subyekti" (ənənəvi təlimdə şagird təlim prosesinin "obyekti" kimi qiymətləndirilirdi) kimi mənalandırılmağa başlandı. Bu, o demək idi ki, yeni biliyin şagirdə ötürülməsində müəllim ilə şagirdin əməkdaşlığına üstünlüyün verilməsi bir zərurət kimi pedaqoji gündəmin reallığına çevrilmişdi.

Təlimin yeni metodları da – qismən axtarıcılıq, müstəqil iş, idrakı oyunlar, evristik müsahibə, disput, reproduktiv və problem axtarış, problem-tapşırıq, problem situasiyanın yaradılması kimi metodlar da ənənəvi təlim metodlarının, məsələn, müəllimin şərhi metodunun qarşısında çox əzəmətli idi. Belə dərsdə məqsəd təfəkkürün inkişafı və formalaşmasına istiqamətlənmişdi. Şagirdlərdə fikri əməliyyatların formalaşması dərsin əsas məqsədinə çevrilə bilərdi...

**İnteraktiv dərs və onun özünəməxsusluqları**

Ötən əsrin 90-cı illərində B. Blumun taksonomiyasının II variantı pedaqoji gündəmi zəbt etdi. Bu o dövr idi ki, dərsdən sadəcə olaraq tə-

fəkkürün inkişafını deyil (*bu fikrə diqqət edin: 60-cı illərdə təfəkkürün inkişafı xəyal kimi görünürdü, 90-cı illərdə isə inkişaf etmiş ölkələrin məktəblərində bu problem öz həllini tapmışdı*), zaman artıq şagirdlərdə yaradıcılıq keyfiyyətlərinin inkişafını tələb edirdi. B. Blumun təlim məqsədləri taksonomiyasının II variantı zamanın bu tələbinin reallaşması üçün geniş imkanlar açdı. Bu taksonomiyada təlim məqsədlərinin ierarxik quruluşu aşağıdakı kimi təqdim edildi:

***Xatırlama, anlama, tətbiq etmə, analiz, qiymətləndirmə və yaratma*** (5, s. 23-23).

Formaca əvvəlki taksonomiyadan çox da fərqlənməyən bu taksonomiyada məzmun baxımından yaradıcılıq problemləri önə çəkilmişdi. Bu, görünür XX əsrin 60-90-cı illəri arasında V.V. Davıdovun (*empirik və nəzəri təfəkkür*), C. Gilfordun (*divergent və konvergent təfəkkür*), Ə.S. Bayramovun (*tənqidi təfəkkür*) E. Bononun (*vertikal və lateral*) və başqa psixoloqların təfəkkür sahəsində apardıqları tədqiqatların nəticəsində yaradıcı təfəkkür tipinin bərqərar olması ilə bağlı idi və bu taksonomiya şagirdin yaradıcılıq keyfiyyətlərinin formalaşmasına istiqamətlənmişdi. Məsələnin belə qoyuluşu dərsin möcüzələrini daha da artırdı. Təlimin əvvəlki metodlarından köklü şəkildə fərqlənən yeni təlim metodları – interaktiv təlim metodları daha da təkmilləşdirildi (6, s. 54-55).

Bu metodlar çoxdur, onların bəzilərinə diqqət yetirmək istərdik: Beyin həmləsi, Bibo, auksion, klaster, suallar, anlayışların çıxarılması, söz assossasiyaları, müzakirə, diskussiya, debatlar, müzakirə xəritələri, qrupla iş, Sokrat üsulu, akvarium, rollu oyunlar, modelləşdirmə, səhnələşdirmə, təqdimat və esselər, problemin həlli, kublaşdırma, konkret hadisənin araşdırılması, Venn diaqramı, layihələrin hazırlanması, sorğu vərəqələri və müsahibələr, qərarlar ağacı, ideyalar xalısı, refleksiya, ziqzaq, karusel və s.

Bu metodların tətbiqi ilə sinifdə "möcüzələr" daha da artdı, şagirdlərin fəallığı çoxaldı, onlarda əqli bacarıqların formalaşması ilə yanaşı, sinifdə yaradıcı mühit yarandı, şagirdlər bir-birinin ardınca yeni ideyalar irəli sürməyə başladılar, dərs qeyri-standartlığı ilə yeni-yeni möcüzələr yaratmağa qadir olan möhtəşəm bir qüvvəyə çevrildi.

Vaxtı ilə müəllim sinfə girəndə tərpənməyə risk etməyən, müəllimin dediyi hər bir kəlməni qeydsiz-şərtsiz qəbul edən şagird sinifdə öz funksiyasını dəyişdi, "yenini axtaran şəxsə" çevrildi. Müəllim də öz funksiyasını dəyişdi, məlumat vermə funksiyası şagirdlərdə ideyalar yaratmaq funksiyası ilə əvəz olundu. Bu cür dərsi təşkil edə bilən müəllim şagirdləri müzakirəyə cəlb edərək, onların bu sehrli dünyanın sirlərini kəşf etməsinə və öz "əlavələrini" etməsini seyr edərək, böyük mütəfəkkir Sokrat kimi, sinfin bir tərəfində sakitcə durub, şagirdlərin yeni ideyalar irəli sürməsinə fəxrlə baxa bilir.

İnteraktiv təlimdə dərs yeni məzmun kəsb etdi. Bu təlimdə dialoqla yanaşı diskussiya önəm kəsb etməyə başladı. Artıq dərsdə təkcə təfəkkürün inkişafı və formalaşması deyil, həmçinin təxəyyülün inkişafı və formalaşması aktuallaşmışdı. Məzmunu baxımından bir-birindən daha əhəmiyyətli olan, əslində sinifdə əsl möcüzələr yaratmaq imkanlarına malik olan interaktiv təlim metodlarının o qədər zəngin məzmunu var ki,... onlar yaradıcı müəllimin əlində "Ələddinin sehrli lampası" kimi möcüzələr yarada bilir. Məhz bu müəllimlərin dərsində məlum oldu ki, müəllim əsrlər boyu olduğu kimi şagirdə yeni keçiriləcək dərs haqqında geniş məlumat vermədən, sadəcə həmin biliyin "kəşf" edilməsi və yeni ideyalar irəli sürülməsi üçün şərait yaratdıqda, şagirdlər hətta bir-birləri ilə əməkdaşlıq sayəsində yeni biliyi müstəqil olaraq, "kəşf" edə bilir, yeni ideyalar irəli sürə bilir və bu prosesdə onlarda fikri əməliyyatlar inkişaf edib, formalaşır.

Bu yolla dərsi necə təşkil etmək olar? G. Lefransuanın (7) təqdimatında sualı aşağıdakı nümunə ilə açıqlayır:

VII sinifdə təbiətşünaslıq dərsi idi. Dərsin mövzusu belə idi: "Şehin düşməsi". Müəllim şagirdlərə belə bir sualla müraciət edir:

– Şeh necə əmələ gəlir?

Şagird P. – Mən bilirəm. Yağışdan əmələ gəlir.

Şagird D. – Yox. Yağış olmayanda da şeh olur.

Müəllim – Suala necə cavab verə bilərik?

Şagirdlər xorla – elmi-tədqiqat metodlarının köməyi ilə.

Müəllim şagirdlərin elmi metod anlamını dəqiqləşdirir. Sonra aydınlaşdırır ki, şeh deyəndə nə başa düşülür. Şagirdlərə təklif edir ki, müvafiq praktik müşahidələr aparsınlar və faktlar toplasınlar.

Növbəti dərslərin birində onlar özlərinin müşahidələrini ümumiləşdirirlər və bu faktlara söykənən intellektual ehtimallar (*və ya fərziyyələr*) irəli sürürlər (*şeh gündən yaranır, şeh havadan əmələ gəlir, şeh obyektlərin özlərindən əmələ gəlir*).

Müəllim şagirdlərə zəruri müşahidələr aparmaqda kömək edərək, istiqamət verir, bəzi hallarda isə o, eksperimentlər fikirləşir: şeh nisbətən soyuq obyektlərdə əmələ gəlir, şeh buludsuz gecələrdə meydana çıxır, şeh əvvəllər tamamilə quru olan obyektlərdə əmələ gəlir...

Şagirdlər, nəhayət, belə bir nəticə ilə razılaşırlar: havada nəmişlik olanda su dənələri əmələ gəlir və onlar obyektin səthində toplaşırlar. Bundan sonra şagirdlər bu nəticənin doğru olmasını yoxlamaq üçün müxtəlif eksperimentlər fikirləşirlər (8, s. 203-204).

**Nəticə**

XX əsrdə dərsin müasirləşməsi istiqamətində üç yanaşmanın mövcud olduğunu qeyd etdik. Ənənəvi, fəal və interaktiv dərslər keçən əsrdə dərsin müasirləşdirilməsi baxımından həyata keçirilən yenilikləri özündə əxz etmiş, dərsin dövrün tələblərinə uyğun inkişafını təmin etmişdir. Maraqlıdır ki, hər üç yanaşma bir-biri üçün həm özül rolu oynamış, həm də öz sələfindən məzmunu baxımından yenilənmişdir. Bu gün pedaqoji təcrübədə aktual mövqe tutan interaktiv dərsin özü də yenilənmək, təkmilləşmək ərəfəsindədir. Bu müəllimləri dərsi müasirləşdirməyin yeni yollarını axtarmağa sövq edir.

**Problemin aktuallığı**. Ötən əsrdə dərsin fəlsəfəsinə üç yanaşma üzərində dayanılır ki, bu da məqalənin aktuallıq kəsb etməsindən xəbər verir.

**Problemin yeniliyi**. Həm ənənəvi, həm fəal, həm də interaktiv dərsin özünəməxsus xüsusiyyətləri təhlil edilir, hər bir yanaşmada mövcud olmuş təlim məqsədləri qeyd olunur, bu dərslərin bir-birindən fərqləri göstərilir, dərsin fəlsəfəsindən asılı olaraq hər bir dərsdə istifadə olunan metodlar açıqlanır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, pedaqoq və psixoloqlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Mahmudova R.M. Təhsilin psixodidaktik problemləri (tarixi müqayisəli təhlil): Monoqrafiya. – Bakı: Nurlar, -2018, -312 s.
2. Qasımova L.N., Mahmudova R.M., Pedaqogika: Dərslik. -Bakı: Ekoprint, -2021, -612 s.
3. Sultanova İ.H. Əbdül Əlizadənin üç tərkibli taksonomiya konsepsiyası. -Şamaxı, -2022, -90 s.
4. Махмутов М. И. Проблемное обучение: Основные вопросы теории. -М.: Педагогика, -1975. -367 с.
5. Əlizadə Ə.Ə., Sultanova İ.H. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. -Bakı, -2008, -172 s.
6. Veysova Z.A. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. -Bakı, -150 s.
7. Лефрансуа, Г. Психология для учителя. Санкт-Петербург: Прайм-Еврознак. -М.: Олма-Пресс, -2005, -416 с.
8. Əlizadə Ə.Ə., Əlizadə H.Ə., Əlizadə S.H. Psixopedaqogika: Dərs vəsaiti. -Bakı: Ecoprint, -2019, -368 s.


**E-mail:** hikmet56@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.elm.dok., prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub:** 16.02.2022.

*AŞIQ ƏLƏSGƏR-200*

UOT 37.0

***Vidadi Ömər oğlu Orucov***
*pedaqogika üzrə elmlər doktoru*
*Lənkəran Dövlət Universiteti*
*Pedaqogika, psixologiya və incəsənət fənləri kafedrasının professoru*
*https://orcid.org/0000-0002-8589-2364*
*https://doi.org/10.5281/zenodo.6445523*

## AŞIQ ƏLƏSGƏR FƏLSƏFƏSİNDƏ KAMİL İNSAN TƏRBİYƏSİ

***Видади Омар оглы Оруджев***
*доктор наук по педагогике*
*профессор кафедры педагогики, психологии и предметов искусства*
*Ленкоранский Государственный Университет*

## ВОСПИТАНИЕ СОВЕРШЕННОГО ЧЕЛОВЕКА В ФИЛОСОФИИ АШУГА АЛЕСКЕРА

***Vidadi Omar Orujov***
*doctor of sciences in pedagogyl*
*professor of the department Pedagogy, psychology and art subjects*
*Lankaran State University*

## THE MORALİTY FOR MATURE PERSON İN ASHUG ALASGAR'S PHİLOSOPHY

**Xülasə.** Məqalədə bütün Türk dünyasında böyük hörmət və şöhrət qazanmış Aşıq Ələsgərin yaradıcılığında insan tərbiyəsi ilə bağlı məsələlər araşdırılır. Aşıq Ələsgərin arzuladığı kamil insanın tərbiyəsinin əsasını təşkil edən amillərə aydınlıq gətirilir.

Humanist insan tərbiyə olunmasında bədii ədəbiyyatın təsirinə bir daha diqqət yetirilir. Kamil insan formalaşmasında Aşıq Ələsgər yaradıcılığına önəmli bir mənbə kimi istinad və ondan istifadə yolları göstərilir.
***Açar sözlər:*** *kamil insan, tərbiyə, fəlsəfə, fəlsəfi ideyalar, fəlsəfi-lirik üslub, poeziya, aşıq, Aşıq Ələsgər*

**Резюме.** В статье исследуется вопросы воспитания совершенного человека, связанные с творчеством прославившегося в Тюркском мире Ашуга Алескера.

Проясняется факторы, составляющие основу воспитания совершенного человека, которые хотел видеть Ашуг Алескер. Еще раз обращается внимание на влияние художественной литературы на воспитание гуманного человека. В формировании совершенного человека можно, как важный источник, ссылаться на творчество Ашуга Алескера и показать пути его использования.
***Ключевые слова:*** *совершенный человек, образование, философия, философские идеи, философско-лирический стиль, поэзия, ашуг, Ашуг Алескер*

**Summary.** It is searched about Ashug Alasgar, who got fame and respect in all Turkic world however, the issue of morality for human in his literary creativity. The issues are based upon a mature person's morality like Ashug Alasgar desired that it is clarified.

The fundamental morality of humanistic person that is affected with literature is regarded again. It is given significant references and the ways of usage for the formation for the mature person in Ashug Alasgar's literary activity.
***Key words:*** *perfect man, education, philosophy, philosophical ideas, philosophical-lyrical style, poetry, ashug, Ashug Alasgar*

İndiki dövrdə fəlsəfə ilə poeziyanın doğmalığı barədə heç kimsə mübahisə etmir. Bir çox alimlər də belə hesab edirlər ki, filosof olmadan şair olmaq olmaz, yəni şairlər həm də filosofdurlar. Sokratın təbirincə, poeziya ovsundur, hər kəsə qəlbini, sirrini açmır.

Fəlsəfə ilə poeziyanı birləşdirən nədir? Bu birləşmənin əsasında, ilk növbədə, bədii əsərin fəlsəfəsinin, ideyasının möhtəşəmliyinin estetik zəmində sözlə doğuluşu, dünyanın poetik yolla dərki dayanır. Hər yaranan yeni bir bədii əsər yeni bir həqiqətin ünvanına çevrilir. Bu məsələ ilə bağlı daha maraqlı bir fikir də böyük filosofumuz, professor Səlahəddin Xəlilovundur: "Bütün böyük sənətkarlar həm də ona görə filosofdurlar ki, onların əsərlərində mahiyyətlərin də təhkiyəsi var".

Mədəniyyətin, elmi-tərəqqinin inkişafına dəstək olan belə fəlsəfi ideyaların poeziya ilə sintezinin zaman-zaman bir çox nümunələri yaranmışdır. Onlardan biri də fəlsəfi lirikadır. Mütərəqqi ideyaların fəlsəfi lirika şəklinə salınması, həm də onların geniş kütlələrə çatdırılmasında və təbliğində ən uğurlu seçim olmuşdur. Burada antik dövr yunan filosoflarının fəlsəfi düşüncələrinin tarixdən silinməməsində xüsusi xidmətləri olan şair Tita Lukresiya Karı xatırlamaq yerinə düşərdi. Yunan filosoflarının fəlsəfi ideyalarını sistemli fəlsəfi-lirik poemalar şəklinə salmaqla o, onlara əbədilik qazandırdı. Hamının diqqətini cəlb edən bu fəlsəfi-lirik əsərlər böyük marağa çevrilərək geniş oxucu kütləsi toplamağa, ardınca aparmağa qadir oldu. Bu əsərlərlə daha yaxından maraqlanan insanlar onları dinləmək və müzakirə etmək məqsədilə bir araya gələrək fəlsəfi-lirik poeziya məktəblərinin yaranmasına güclü təsir göstərdilər. Dahi Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin və digər Azərbaycan şairlərinin əsərlərindəki poeziya ilə fəlsəfənin vəhdətinin uğurlu nümunələri də belə bir məktəbin davamıdır.

Fəlsəfi lirikadan məharətlə istifadə edənlərdən biri də Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, yaratdığı dahiyanə əsərlərinin ləngəri, dərin fəlsəfi tutumu və özünəməxsus poetik tərzi ilə könülləri fəth edən qüdrətli söz sahibi, ustad Aşıq Ələsgərdir.

Bütün Türk dünyasında böyük hörmət və şöhrət qazanmış bu dahi sənətkarın "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 fevral 2021-ci il tarixli Sərəncamında qeyd olunur: "Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla, həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. ...Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür"...

Sərəncam milli-mənəvi dəyərlərimizə, poeziyamıza, bu sənətdə ucalıqda yeri və mənəvi haqqı olan Aşıq Ələsgər yaradıcılığına xalqımızın və dövlətimizin qayğısının və diqqətinin ən bariz nümunəsidir.

Yaranma tarixi çox qədim zamanlara söykənən aşıq sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin fomalaşmasında misilsiz rolu olmuşdur. Xalqın içindən çıxan, xalqla elə xalqın öz dilində də danışan bu müqəddəs sənətə və onun sahiblərinə vətənimizdə el məhəbbəti vardır. Azərbaycanın xalq şairi Zəlimxan Yaqubun təbirincə desək: "Biz Dədə Qorquddan üzü bu yana aşıq sənətinə mərifət, təriqət, şəriət, həqiqət sənəti kimi baxmışıq. Biz aşığa Peyğəmbər kimi baxmışıq. Onun şəxsiyyətinə ustad, müəllim, ozan, dədə səviyyəsində baxmışıq. Qurbaniyə, Dədə Qorquda, Ələsgərə, Xəstə Qasıma, Abbasa dədə demişik. Bunlar həqiqi mənada xalqın mənəvi dədələridir" **(Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, XII cild. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 400 s., səh. 353).**

Türk dünyasının mənəvi dədələrindən birinə çevrilmiş Aşıq Ələsgərin yaratdığı əsərlərə diqqət yetirsək, hər bir kəlməsindən, fəlsəfi-lirik fikrindən onun kamil elm-ürfan əhli olduğu görünür. Aşıq Ələsgərin elmi dünyagörüşü haqqında daha düzgün təsəvvürlər formalaşdırmaq üçün onun özü haqqında öz dilindən qopan bəzi fəxriyyələrinə nəzər salsaq; "Ələsgər, elmində olma nabələd", "Ələsgərəm, hər elmdən halıyam", "Dərs almışam o Əliyyül-əladan, Xof etmərəm Xeybər kimi qaladan", "Arif məclisində, alim yanında, Neçə dəfə imtahana düşmüşəm", "Altı min altı yüz ayə..., Firdovsi, Füzuli, Hafiz, Nəsimi, Onlar da yazdığı ayə məndədi", "Ələst

aləmindən, qalu-bəladan, Nuri-Əhməd yaranandan danışaq", "Xalların dürrü-gövhərdi, Sərrafıyam, tanıram mən", "Dərsi azlar Ələsgərdən dərs alsın" "On iki şagirdim işlər hər yana", "Ələsgərəm, doğru yoldan azmaram", "Ələsgər, mətləbin Xudadan istə" və s. deyən Aşıq Ələsgərin yaratdığı əsərlərdə bədii təfəkkürlə elmi təfəkkürün vəhdəti tam aydınlığı ilə görünür:

*Hikmət məclisində əyləşən alim,*
*Gəl səninlə yol-ərkandan danışaq.*
*Ələst aləmindən, qalu-bəladan,*
*Nuri-Əhməd yaranandan danışaq.*

Və ya:

*Əgər haqq aşıqsan, "meydana gəl" de!*
*Arifsənsə, bu sözlərə "gözəl" de!*
*Farsiyyət bilirsən, şeri-qəzəl de!*
*Ərəbxansan, gəl, Qurandan danışaq!*

Aşıq Ələsgər yaradıcılığına bir tam kimi baxdıqda başdan-başa sirli-sehirli gözəlliklər aləmidir, bu aləm içində daha maraqlısı onun əsərlərinin insanları özünə cəzb etməklə yanaşı, həm də onları fəlsəfi-lirik ideyaları ilə daha üstün düşünməyə vadar etməsidir. Bir sirr də onun sözlərinin bütün dövrlərdə canlı, insanlara təsiretmə, tərbiyəetmə, onları dəyişmə gücünə malik olmasındadır. Aşıq Ələsgərin fikirləri xalqa çatanda onu hərəkətə gətirir, elə bir təlatüm yaradır ki, el gücünə çevrilir, elin düşünmə tərzini dəyişir, istiqamətini və sürətini dəyişən sosial-pedaqoji dəyərə çevrilir və yaxud geniş vadidə su kimi bir sakitlik tapır, ruhu oxşayır, insan mənəvi bir rahatlıq tapır... Daha maraqlısı odur ki, böyük sənətkarların yaratdığı əsərlər bütün zamanlarda, bütün fəsillərdə təravətini itirmir, həmişə təzə-tər, sevilən və dəbdə olandır. Əbu Turxan demişkən: "Həqiqi fəlsəfi fikir heç vaxt tarixə çevrilmir, o, həmişə müasir qalır" **(Əbu Turxanın hikmət dünyası. Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2012, 448 s., səh. 245).**

Dünya, Türk xalqlarının həm maddi, həm də mənəvi sərvəti, yazılı yaddaşı olan "Kitabi-Dədə Qorqud" eposunda "Qadir tanrı verməyincə ər bayımaz" deyilir **(Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 s., s. 19).** Bəli, bütün böyük dahilərin, o cümlədən, Aşıq Ələsgərin də Uca Tanrıdan payı bol olmuş, mütləq olaraq mayası haqqın nuru ilə yoğrulmuş, məqamı adi şairlərə verilən ilham məqamından çox-çox üstün olmuşdur.

**Bir haşiyə:** Belə rəvayət edirlər ki, birisi Azərbaycanın dahi və ölməz şairi Məhəmmədhüseyn Şəhriyara yaxınlaşıb deyir: "Sizin şeirlərinizin hamısı çox güclüdür, amma bax, bu çox zəifdir". Cavab belə olur: "Onu mən yazmışam, geridə qalanları Allah yazdırıb".

Uca Tanrıdan payı olan hər bir bəndənin haqqı hər şeydən üstün tutması, haqdan danışması və yaratdıqlarının da haqqa söykənməsi mütləqdir. Aşıq Ələsgər də tərəddüd etmədən əmin idi ki, sözləri haqdan gələn bir paydır. Bunu onun özü tez-tez xüsusilə vuruğulayırdı: "Şükr eylərəm haqdan gələn zülümə", "Haqdan yanan çıraq bad ilə sönməz", "Əyri yola gedən haqdan utanar", "Sidqin Allaha bağlayıb, Çağırır Şahi-Mərdanı".

Aşıq Ələsgərin yaradıcılığına hansı tərəfdən baxsaq onun mərkəzində insan və onu kamala və kamilliyə aparan "uzun incə bir yol", bütöv bir tərbiyə sistemi görünür. Cəfakeşi olduğu bu müqəddəs yolda o, şərq fəlsəfəsinin ənənələrinə sadiq qalaraq insanı daha kamil görmək üçün əlindən gələnləri əsirgəmirdi. Gah sadəcə əlçatan həmdəm, dost-yoldaşdır, dostu sözündən, baxışından, duruşundan anlayan, dərdinə şərik olmağı bacaran, İlahi nəğmələrinin gücü ilə qaranlığa qərq olmuş könülləri nura qərq eyləyən bir Allah bəndəsidir, gah üstad aşıq-şairdir, insanı alilləşdirən, yerin və göyün sonsuz gözəlliklərindən, sirli-sehirli dünyadan heyranlıqla söhbət açan, xəbərdar olan arifdir, alimdir, el dərdini öz dərdi bilən el ağsaqqalıdır. Eldə baş verən ictimai-siyasi hadisələrlə birgə yaşayır, yeri gələndə üsyan edir, narazılığını bidirir, "Qazıların düz bazarın görmədim," – deyir. Bəzən "Sinəmdədi eşqin şirin çeşməsi" deyən yar sevdasının nakamı, əsl aşiqdir, Kərəmdir, Məcnundur, Fərhaddır. Bəzən isə əsl duymağı, insan qəlbini bəsirət gözü ilə oxumağı, inamsızlığa qalib gəlməyi, güc və inam verməyi, həyatdan küsənləri həyata qaytarmağı bacaran müəllim-psixoloqdur. O, düşüncələrindən baş açmayanlara, öz içində boğulanlara ilahi sözün qüdrəti ilə əl uzadır, məlhəm olur:

*O qəmli könlünü, müşkül halını*
*Düşünən də yazıq, bilən də yazıq!*

*Ağlasan, ağlaram mən səndən betər,*
*Dağladın sinəmi güləndə, yazıq!*

Gah da dünyanın çoxunu da, azını da, yaxşısını da, pisini də görmüş, müşahidə, müqayisə aparmağı, nəticə çıxarmağı, insanları haqqa çağırmağı bacaran piranidir, dədədir.

Xoşbəxt bir cəmiyyət istəyir, ilk növbədə, onun insanlarından Uca Tanrıya sevgi, inamla yanaşı, digər dəyərləri – doğru-dürüst olmalarını, sözü ilə əməlinin bir olmasını istəyir və bu yolu tutanlara canını da qurban eləyir:

*Mən istərəm, alim, mömin yüz ola,*
*Meyli haqqa doğru, yolu düz ola,*
*Diliylə zəbanı üzbəüz ola,*
*Ələsgər yolunda can qurban eylər.*

"Altı min altı yüz ayə məndədi" deyən, hafizliyi ilə qürur duyan Aşıq Ələsgər həm də İslam dininin gözəl alimlərindən biri idi. O, insanın yer üzünün əşrəfi olduğunu dəqiqliklə bilirdi, poeziyasının aparıcı ideyası da elə kamil insan idi. Aşıq Ələsgər, insanlığın tərbiyə olunmasında xilas yolunu "İnsanların tanrısına" **(Qurani-Kərim. Bakı, "Çıraq", 2004. 636 s. ən-Nas surəsi, ayə-3, səh. 631)** xidmət etməkdə, əsmaül-hüsnanın mənasını bilməkdə, əzbərləməkdə, saymaqda, onun gözəlliklərinə vurulmaqda və onlara əməl etməkdə, islami dəyərlərin zənginliyində görürdü. O, insanların doğru-dürüst, halal olmasını istəyirdi və cəmiyyətin uğurunu, üstünlüyünü də uzaqgörənliklə bunlarda bilirdi. Zəmanəsinin qabaqcıl ziyalısı, sayılan aşığı kimi bir sıra insanları tərif etsə də, əslində insanlarda olan üstün insani dəyərləri təbliğ edirdi. Həm də möhtəşəm poeziyasının, fəlsəfi-lirik ideyalarının təsiri ilə müxtəlif yollarla diqqəti daha müasir və humanist tərbiyəyə yönəldirdi.

Aşıq Ələsgər dövründən sonra dünyada elm, texniki tərəqqinin sürətli inkişafı hesabına insanlara xidmət göstərən bir sıra qabaqcıl texnalogiyalar yaradıldı. Lakin cəmiyyətin əsas problemlərindən biri olan humanist insan ehtiyacı, onun modeli və tərbiyəsi ilə bağlı məsələlər indi də qlobal olaraq qalmaqdadır. Burada əsas məsələ humanist insan tərbiyəsi baxımından insanların bir-birini başa düşməsi, duyması, hörmət etməsi və insanlığın əldə etdiyi nailiyyətlərin qorunması ilə bağlı bir məsuliyyət hissinin formalaşdırılmasıdır. Bu görünən və düşündürücü problem inkişaf etmiş dövlətləri daha çox narahat etməkdədir. ABŞ-ın görkəmli təhsil nəzəriyyəçisi Hovard Qardner yazır: "İnsanların bir-birini başa düşməsi səviyyəsinin yüksəldilməsi baxımından nə olursa olsun, təhsil öz məxsusi təsdiqini tapmalıdır. Bütün elmlərin əsas obyekti insan olmalıdır" (**Пятьдесят современных мыслителей об образовании. От Пиаже до наших дней. М.: Изд. дом Высшей школы экономики, 2012, 488 с., с. 448).**

Aşıq Ələsgərin düşüncəsindəki insan obrazı mələk simalıdır, əxlaqlıdır. Onun düşündüyü kamil insana aid olan dəyərlər sırasında bir Allah bəndəsi, humanist olmaq ideyası hər şeydən öndədir. Belə bir müqəddəs, eyni zamanda, mürəkkəb tərbiyə modelinin formalaşmasında o, mərifət elminin rolunu xüsusilə vurğulayırdı. O, mərifəti ayrıca elm hesab edir, hər kəsin bu elmdən hali olmasını istəyir: "Nütfədən pak olan, loğmadan halal, Mərifət elminə nabələd olmaz", kamil insan üçün isə, bir qayda olaraq: "Mərifət elmində dolu gərəkdi", – deyir. Siracəddin Hacı yazır: "Arınmış, nurlanmış, bəsirət gözü açılmış qəlb, yəni vəhylə inşa olunmuş qəlb və ağıl mərifətullaha qovuşa bilər", daha sonra: "mərifət elmdir, elm də mərifətdir, mərifət elmi olan da arifdir... arif alimdir; mərifətin mənbəyi uca Allahdır, sonu isə yoxdur", – deyir (**Siracəddin Hacı, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, 525-ci qəzet, 19 may 2016-cı il. səh. 6).**

Özünü alim hesab edənlərə belə, mərifət elminin önəmli olmasını və bu elmə əməl etmələrini məsləhət bilir:

*Alimin elmiylə helmi yarıdı,*
*Həcvü-hədyan demək nahaq söhbətdi.*

Aşıq Əlsgər, eyni zamanda, insanların tərbiyə olunmasında mərifət elminin hər kəs üçün deyil, onun kamilliyə aparan dərin bir elm olduğunu, seçilmişlərə – ariflərə aid olduğunu da vurğulayır: "Arif məclisində bir söz söylərəm", "Bir söz söyləyərəm, ariflər qanar", ..."Oxu "əlif", "ğeyn", "eylə haqq-say", "Arif seçər əbcəd ilə cəm əli", "Gövhər sözüm məclislərdə yayılı, Arif ondan mətləb qanıb ayılı", "Arif ola, eyham ilə söz qana", "Bu, bir müəmmadı, ariflər qanar, Nadan bu elmdən hali ola bilməz",

"Arifsənsə, bu sözlərə "gözəl" de" və nəticə olaraq "Arif olan hər insana gözəldi", – deyir şair.

Aşıq Əlsgər düşüncəsindəki insanı ağıllı, savadlı, mərhəmətli və müasir dünyagörüşlü görmək istəyir. İnsanlarda belə dəyərlərin formalaşmasının yeganə yolunu isə, ilk, növbədə onların təhsil almasında görür. Həm də boş-boşuna yox, tələblər dəqiq elmi-pedaqoji əsaslara söykənir. Təhsil alan dərs almalı, öyrənməli və öyrəndiyini də öz malı etməyi bacarmalıdır. Böyük bir pedaqoji prosesin ardıcıllığını, məqsədini və nəticəsini öz şəxsi nümunəsində təcrübəli şair, alim-pedaqoq kimi dahiyanə, hər kəsə yetəcək üsulla, fəlsəfi-lirik dildə şərh edir:

*Yazıq Ələsgərəm, azdı kamalım,*
*Vacibdi ki, bir ustaddan dərs alım.*
*Dərs aldım, öyrəndim, oldu öz malım,*
*Bizdən də ustada nəfi rəhmətdi.*

Əxlaq insan davranışı ilə əlaqəli olduğundan, insan tərəfindən istifadə olunan bütün dəyərlər aksiologiyanın predmetidir. Yunan alimlərindən Demokrit əxlaq qurucusu, Sokrat isə əxlaq filosofu kimi tanınır. Bu baxımdan Aşıq Ələsgəri əxlaq şairi, əxlaq aşiqi, əxlaq müəllimi kimi qəbul etməliyik. Onun yaradıcılığına fikir versək görərik ki, aksiologiyanın diqqəti daha çox çəkən tərbiyəli-tərbiyəsiz, yaxşı-pis, xeyir-şər, xoşbəxtlik-bədbəxtlik, vicdanlı-vicdansız və s. kimi dəyərlərinə tarixi ənənə, milli dəyərlər baxımından aydınlıq gətirir. Mahiyyət etibarı ilə Aşıq Ələsgərin fəlsəfi-lirik ideyalarında ümumbəşəri dəyərləri özündə ehtiva edən əxlaqi-mənəvi keyfiyyətlərin formalaşmasının vacibliyindən, bunun bir çox tarixi hadisələrə və insanların həyatına mənfi və müsbət təsirlərindən bəhs edilir. Onun təkcə aşıqlara deyil, hamı üçün qanuna çevrilən, əxlaqi-mənəvi keyfiyyətlərlə zəngin məşhur "Gərəkdi" rədəfli qoşması başdan-başa "təmiz əxlaqın" fəlsəfi məktəbidir:

*Aşıq olub, diyar-diyar gəzənin,*
*Əvvəl, başda pür kamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

Aşıq Ələsgərin elmi-fəlsəfi düşüncəsində, bir-birindən maraqlı və çox çeşidli dünya anlayışları mövcüddur. O, bu dünyalarda sərbəst olaraq birindən digərinə transfer etməklə, öz düşüncələrini, qənaətlərini, hesab etdiyi üstün dəyərlərlə oxucusunu maarifləndirməyə, tərbiyə etməyə çalışır. Bu dünyalar içində bir fani dünya da var. Dədə Qorqud, Qurbani, Qaracaoğlan, Yunus Əmrə kimi, Aşıq Ələsgər də "Aldanma dünyanın bu fənasına" deyərək, Uca Tanrıya aparan yolları hər şeydən üstün tutur, qalanları isə fani bilir. Allaha olan sonsuz inam və sevgisini xüsusilə "Allahın adı ilə" şeirində və ümumilikdə əksər əsərlərində ən çox "Allah", "Allahu-əkbər", "Xaliqi-ləmyəzəl-Allah", "Allahimmə səlli", "Vallahül-əzim belədi", "Maşallah", "Şükür eylə Allaha", "Sən Allahı sevərsən", "Sən Allah", "İnşallah" və s. kimi müraciətləri daha müqabil bilir:

*Tut orucun, qıl namazın,*
*Şükür eylə Allaha;*
*Gül olma dünya malına,*
*Qalacaqdı dünyada.*

Bir dünya da sirr olaraq qalmaqdadır: Var olanın varlığına münasibət. Şübhəsiz ki, Aşıq Ələsgər kimi bir dahini də bu fikirlər düşünməyə vadar etmişdir. Onun ontoloji düşüncələri dövrünə bəlli elmi biliklərə əsaslanırdı. Elm aləminə bəllidir ki, Aristotelin ontologiyası var olanı var olduğu kimi, ilk öncə, olanın nə olduğunu öyrənməkdən ibarətdir. Bu baxımdan ontologiya elminin ən önəmli sualları: "İlk olan nədir?", "Hər şeyin başlanğıcı nədir?", "Bütün varlıqların ilk tozu-zərrəciyi nədir?" – Aşıq Ələsgər yaradıcılığında da özünəməxsusluğu ilə ən çox rast gəlinən (daha çox bağlamalarda) fikirlərdəndir:

*Yerin, göyün, ərşin, kürşün, insanın*
*Künhü, bünövrəsi ay nədən oldu?*

Və ya:

*Bizdən salam olsun arif olana,*
*Haqq nə gündə xəlq eylədi dünyanı?*
*Yer ilə göy nə saatda bəhs etdi?*
*Yer nə üstə bəndə saldı asmanı?*

Və ya da:

*Altı gündə dünya neçə don geydi,*
*Nə üstə əyləşdi, bərqərar oldu?*
*Əvvəli kim oldu ərşin bənnası?*
*Ulduzlar nə təhər yerbəyer oldu?*

Aşıq Ələsgərin yaradıcılığında daha sıx rast gəldiyimiz möcüzəli bir dünya diqqəti cəlb edir. Bu, könül dünyasıdır. Onu dolduran sevincin, həyəcanın, kədərin, qəmin duyulmasında, dərkində və şərhində elmin gücu yetərli deyildir. Bu sirli-sehirli insan dünyansının əngəlliklərindən xəbər verməyə yalnız incəsənətin, poeziyanın – bədii təfəkkürün gücü qadirdir. Öz düşüncəsində buna tam əmin olan Aşıq Ələsgərin istedadı, gücü adi adamların görə bilmədiklərini görməsində, deyə bilmədiklərini isə fəlsəfi-lirik dildə, qaydada deməsində idi. Bu baxımdan onun yaratdığı əsərlərin mahiyyətinin, ideyasının daha çox hər kəs üçün əl çatan və qəlbəyatan olmasıdır. Məsələn, "Yazıq" rədəfli qoşmasında bir adamı başqasından fərqləndirən psixi hallar və ya vəziyyətlər elə ilk cümlədən səmimiyyətlə diqqəti cəlb edir. Gözəllik, insanlıq ondadır ki, bu könlü qəmli, müşkül hallı insana böyük şairin özü həm həmdəm, həm də məlhəm olur:

*O qəmli könlünü, müşkül halını*
*Düşünən də yazıq, bilən də yazıq!*
*Ağlasan, ağlaram mən səndən betər,*
*Dağladın sinəmi güləndə, yazıq!*

Bildiyimiz kimi, ünsiyyət insanlar arasında qarşılıqlı əlaqənin ilkin forması olmaqla, həm də onun insanlar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsində və inkişafında böyük rolu vardır. İnsanların bir-birini qavraması və anlamasını ümumilikdə sosiallaşmağa doğru atılan ilkin addım kimi də başa düşmək olar. Hər cəmiyyətdə insanların bir-birini düzgün anlaması siyasi gücə, dəyərə çevrilir. Cəmiyyət tərəfindən qəbul edilmiş bu dəyərlərin gənc nəsil tərəfindən mənimsənilməsi, sosiallaşma prosesində böyük əhəmiyyətə malikdir. Aşıq Ələsgərin əsərlərində bu önəmli sosial-ictimai xarakterli hadisələrin həlli yolları ustalıqla göstərilir, insanlar səmimiyyətə, humanistliyə, qarşılıqlı anlaşmaya dəvət edilir:

*"Can" deməklə candan can əskik olmaz,*
*Məhəbbət artırar, mehriban eylər.*
*"Çor" deyənin nəfi nədi dünyada,*
*Abad könlü yıxar, pərişan eylər.*

Belə əsərlər hər bir adamın hisslərinə ustalıqla sığal çəkir, oxşayır, hakim kəsilir, oxucusunu öz təsirinə salaraq onu istqamətləndirir, dünyadan əlini üzənlərin "əlindən tutaraq" dünyaya qaytarır, daha inamlı və güvənli bir həyata səsləyir. Elə buna görə də insanların inam və güvən məbədinə çevrilmiş Aşıq Ələsgər məktəbinin oxucularının – sevdalılarının sayı günbəgün artmaqdadır, milyonlarladır.

İnsanların kamilliyə dəvət olunmasında, tərbiyə olunmasında səmavi dinlərlə yanaşı, Tanrıdan payı olan şairlərin də rolu çox böyük olmuşdur. Xüsusilə, Şərq aləmində – cəmiyyətində şairlər daha çox hörmət sahibi olmaqla yanaşı, həm də təsir gücünə malik olmuşlar. Avestanın yaradıcısı Zərdüştə peyğəmbər kimi baxmışlar, Əfzələddin Xaqaniyə, Nizami Gəncəviyə, İmadəddin Nəsimiyə və başqalarına da el məhəbbəti böyük olub. Məhəmməd Füzuli "Mətlə ül-etiqad" əsərində müqəddəs Quranın "Yasin" surəsindən 69 ayəni xatırladaraq: "Biz ona (Məhəmmədə) şeir öyrətmədik", – deyərək, "məni öyrətmişdir", – deyir **(Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. V cild. Bakı, "Şərq-Qərb", 2005, 224 s., səh. 81).** Məhəmməd Füzuli qürurla belə bir yüksək dəyərin peyğəmbərlərə yox, Allah tərəfindən şairlərə nəsib olmasını vurğulayır. Bu sevdalarla yaşayan Aşıq Ələsgər də şairləri peyğəmbərlərə, onların şeirlərini də Quran ayələrinə bənzər, Uca Tanrının payı bilirdi:

*Firdovsi, Füzuli, Hafiz, Nəsimi*
*– Onlar da yazdığı ayə məndədi.*

Əslində, yaradıcılıq yeni maddi və mənəvi dəyərlərin, gerçəkliyin modelinin yaranmasının canlı prosesidir. Fəlsəfi-poetik üslubda yaranmış bədii əsərlə tanışlıq zamanı bədii dərketmə yolu ilə yeni bir həqiqəti dərk edirik, qəbul edirik. Digər bir baxımdan, bu əsərlərin pərvazlanmasında fəlsəfə və poeziya qoşa qanaddır. Bunların hər ikisi dil hadisəsidir, hər ikisi dilin köməyi ilə reallaşır. Dil yeni bir əsərin yaradılması üçün əsas material, əsas vasitədir. Bədii əsərin səviyyəsi dilin inkişafı ilə birbaşa əlaqəlidir. Dil həm də düşünmə fəaliyyətinin ümumiləşmiş formasını oxucuya çatdırmaq üçün də əsas vasitədir. Yaranan əsərin estetik idealın zirvəsinə can atması, cəmiyyətin tələblərinə uyğun olması birbaşa dillə bağlıdır. Bu işdə dil əsas amildir. Xüsusilə, fəlsəfi-poetik dil müəyyən ideyaları gündəlik danışıq tərzindən daha çox işıqlandırmağa

qadirdir. Məsələnin belə qoyuluşu təlim-tərbiyə prosesində qoyulmuş məqsədə çatmaqda xüsusi əhəmiyyət kəsb edir, onu asanlaşdırır. Bu baxımdan Aşıq Ələsgərin yaradıcılıq dili obrazlı, çoxçeşidli, daha mükəmməl dildir. Fikirlərin sadəliyi, təbiiliyi, anlamlığın geniş olması, insanların bir-birinə yaxınlaşması, bir-birini başa düşmələrində maqnit təsirinə bənzəyir. Onun dili deyilmə tərzi ilə obrazlara nəfəs, can verməklə, əhval-ruhiyyə yaratmaqla, həqiqəti diqqət mərkəzinə çəkir. Aşıq Ələsgərin dili dialektlərdən yüksəkdə olmaqla, daha qədim və daha müasirdir: Dədə Qorqud, Xəstə Qasım, Qurbani, Tufarqanlı Abbas, Yunus Əmrə, Qaracaoğlan, Vaqifin dili olmaqla yanaşı, həm də onun coğrafiyası çox genişdir, müasir türk dünyası üçün çox mühüm əhəmiyyət kəsb edir.

Aşıq Ələsgərin oxuduğu kitablar sırasında Quranla, insanla yanaşı, bir də təbiət var idi. Təbiətdəki ənginlik və zənginlik onu sehrləmişdi, təbiət vurğunu etmişdi. Ana təbiətin gözəlliklərindən doymaq bilmirdi. Hər an təbiətdəki min bir gözəlliklərə heyran olmaqla yanaşı, onları duymağa, öz dilində danışmağa, onlara qovuşmağa can atırdı. Azərbaycanın Xalq şairi Zəlimxan Yaqubun yazdığı kimi: "Təbiət Allahın şah əsəridir... Hamısı ilham çeşməsi, şeir qaynağı, poeziya bulağı, müqəddəslik beşiyi, duruluq, təmizlik, halallıq mənbəyi!" (**Zəlimxan Yaqub. Əsərləri, XIII cilddə, I cild. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 416 s., səh. 20).** Gözünü-könlünü təbiətin belə gözəllikləri ilə doyuran Aşıq Ələsgər, yaratdıqlarını da "Allahın şah əsərinə" bənzər, bənzərsiz yaratmışdır. Xüsusilə, insanı – dağa, qızı, gözəli, göyçəyi – çiçəyə, mənəvi saflığı – ucalığa, ağılı, düşüncəni dərin dəryalara bərabər tutmuşdur.

İdeal qadın obrazı zaman-zaman dəyişsə də, Aşıq Ələsgərin vəsf etdiyi gözəllərin gözəlliyi bu gün də dəbdən və dillərdən düşmür. Onun gözəlləmələrində Maral, Ceyran, Tərlan, Yaxşı xanım, Gülxanım, Sarıköynək, Səlbi, Salatın, Güllü, Gülpəri, Güləndam, Leyli Bəyistan, Kəklik, və s. vəsf olunan gözəllərdə qadın xarakteri gözəlliyin əsas şərtidir. "Hər yetən gözələ "gözəl" demərəm", deyən Aşıq Ələsgərin məqsədi sadəcə zahiri gözəllikləri vəsf etməklə bitmir, daxili gözəllikləri də gözəlliyin əsas şərtini bilir, daxili və zahiri gözəlliyin vəhdətini qəbul edir. O, əsərlərində insani dəyərləri təbiətdəki gözəlliklərlə müqayisə edir və önəmli olanı diqqət mərkəzinə gətirir. Lakin bu əsərlərdə insani dəyərlərlə bağlı fikirlərlə tanış olduqca gözlərimizin önündə zəngin və əzəmətli, kamil bir insan obrazı canlanır.

Aşıq Ələsgər Peyğəmbər Əfəndimizin "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim" hədisini meyar tutaraq vəsf etdiyi insanları kamilliyə yönəldir. Bu yolda kamala çatmaq üçün onlara faydalanmağın yollarını göstərir. Allaha doğru cəhdi kamilliyə gedən yolun başlanğıcı hesab edərək, onun sonunu Qurani Kərimin "Şəms" surəsindəki "And olsun nəfsə və onu yaradıb kamilləşdirənə" ayəsində görür **(https://quran-al-karim.com/sems-suresi-91).**

**Problemin aktuallığı.** Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunması milli varlığımızın inkişafına xidmət göstərən əsas məsələlərdəndir. Qloballaşan dünyada milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması və onların inkişaf etdirilməsi aktual problemlərdən biridir. Eyni zamanda o da bəllidir ki, milli-mənəvi dəyərlərimizlə ümumbəşəri dəyərlərin sintezindən məqsədyönlü istifadə olunması gənclərin tərbiyə olunmasına hərtərəfli təsir göstərir.

**Problemin elmi yeniliyi.** Milli-mənəvi dəyərlərimiz xalqımızın görkəmli simalarının əsərlərində zaman-zaman yaşamış, özlərini qoruyub saxlamışlar. Dilimiz, dinimiz və adət-ənənələrimizlə daha sıx bağlı olan milli-mənəvi dəyərlərimiz Aşıq Ələsgərin yaradıcılığında daha qabarıq şəkildə özünü təqdim edir. Aşıq Ələsgər yaradıcılığında kamil insanla bağlı dəyərlərin təlim-tərbiyə prosesinə gətirilməsi milli-mənəvi dəyərlərimizin inkişafına bir töhfədir.

**Problemin praktik əhəmiyyəti**. Qloballaşan dünyada milli-mənəvi dəyərlərin sistemli şəkildə qorunub saxlanması və onlardan gənclərimizin tərbiyə olunmasında məqsədyönlü istifadə olunması milli-mənəvi kimliyimizin qorunmasına və milli mədəniyyətimizin inkişafına xidmət göstərir. Aşıq Ələsgərin yaradıcılığı gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət və məhəbbət ruhunda tərbiyə olunmasında geniş imkanlara malikdir.

**Ədəbiyyat**

1. Əbu Turxanın hikmət dünyası. Prof.Dr. Səlahəddin Xəlilovun təqdimatında. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2012, 448 s., səh.-245
2. Əbu Turxanın hikmət dünyası. Prof.Dr. Səlahəddin Xəlilovun təqdimatında. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2012, 448 s.,səh.-252

3. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, “Öndər nəşriyyat”, 2004, 376 s., səh.-19
4. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə.V cild. Bakı, “Şərq-Qərb”, 2005, 224 s., səh.-81
5. Qurani-Kərim. Bakı, “Çıraq”, 2004. 636 s. Ən-Nas surəsi, ayə-3, səh.-631
6. Siracəddin HACI, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, 525-ci qəzet.- 2016.- 19 may. səh.-6
7. Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, I cild. Bakı, “Şərq-Qərb” Nəşriyyat evi, 2011, 416 s., səh.-20
8. Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, XII cild. Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 400 s., səh.-353
9. Aşıq Ələsgər. Əsərləri, Bakı, “Şərq-Qərb”, 2004, 400 səh
10. Пятьдесят современных мыслителей об образовании. От Пиаже до наших дней. М.: Изд. дом Высшей школы экономики, 2012, 488 с., с.-448
11. https://quran-al-karim.com/sems-suresi-91

**E-mail:** vidadi_orucov@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 28.01.2022.

**UOT 37.0**

***Həsən Bayram oğlu Bayramov***
*pedaqogika üzrə elmlər doktoru*
*Bakı Dövlət Universiteti*
*https://orcid.org/ 0000-0003-2415-0284*
*https://doi.org/10.5281/zenodo.6445589*

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI VƏ ONUN YARANMASINI ŞƏRTLƏNDİRƏN MAARİFÇİ ZƏMİN

***Гасан Байрам оглу Байрамов***
*доктор наук по педагогике*
*Бакинский Государственнный Университет*

# ИРЕВАНСКАЯ УЧИТЕЛЬСКАЯ СЕМИНАРИЯ, ПРОСВЕТИТЕЛЬСКАЯ ОСНОВА, ОБУСЛОВИВШАЯ ЕЕ СОЗДАНИЕ

***Hasan Bayram Bayramov***
*doctor of sciences in pedagogy*
*Baku State University*

# TRAINING COLLEGE AND EDUCATIONAL BASIS DETERMINED ITS CREATION IREVAN TEACHERS'

**Xülasə**. Məqalədə İrəvandakı təhsil mühiti, xüsusilə İrəvan Müəllimlər Seminariyasının nümunəsində burada ictimai-maarifçi mühitin formalaşması sonralar böyük müsəlman maarifçisi İsmayıl bəy Qaspralının Rusiyada başlatdığı üsuli-cədid hərəkatının İrəvanda – Təbrizdə – Naxçıvanda yayılması, dövrünün yenilikçi məktəb xadimləri olan Mirzə Həsən Ruşdiyyə, Mirzə Əsgər Məmmədzadə-Bağçaban və Məhəmmədtağı Sidqinin elmi-pedaqoji fəaliyyətləri kontekstində öyrənilmişdir. Həmçinin İrəvan Müəllimlər Seminariyasının tatar-azərbaycanlı bölməsinin rəhbəri, eləcə də şəriət və ana dili müəllimi Molla Məhəmmədbağı Qazızadə haqqında onun elmi-pedaqoji fəaliyyəti haqqında məlumat verilir, İrəvan ziyalılarının yeni tipli rusdilli təhsil müəssisələrinin formalaşmasındakı xidmətlərindən bəhs edilir.
***Açar sözlər:*** *çar Rusiyası, İrəvan müəllimlər seminariyası, İrəvan maarifçi mühiti, Irəvan-Təbriz-Naxçıvan maarifçi arealı*

**Резюме.** В статье рассматривается образовательная среда в Иреване, особенности формирования социально-образовательной среды на примере Иреванской учительской семинарии. Вопрос рассматривается в контексте научной и педагогической деятельности Мирза Гасана Рушдийя, Мирза Аскера Мамед-заде Багчабана и Мохаммадтаги Сидги, являвшихся представителями движения «усул-и джадид», начатого в России выдающимся мусульманским просветителем Исмаил-беком Гаспринским и распространившимся впоследствии в Иреване, Тебризе и Нахчыване.

Кроме того освещается научная и педагогическая деятельность заведующего татаро-азербайджанским отделением Иреванской учительской семинарии, преподавателя шариата и родного языка Молла Мухаммедбаги Газизаде, указываются заслуги интеллигенции Иревана в формировании русскоязычных учебных заведений.
***Ключевые слова:*** *царская Россия, Иреванская учительская семинария, Иреванская просветительская среда, просветительский ареал Иреван-Табриз-Нахчыван*

**Summary.** In the article the initiatives in perfecting and development of the educational and methodological basis of religious and public schools after the Tsarist Russia occupation of the Irevan

Khanate which was an important historical part of Azerbaijan are spoken about. Its also noted here that mentioned initiatives became serious stage in history of Azerbaijani school, education and in all pedagogical sense, the activity in sphere of Russian-speaking schools network forming and preparing of native language schoolbooks for that schools is studied here. Besides, the newspaper articles of Irevan enlighteners are pointed out also. In the article the problems of study and establishment and development of Irevan social-education environment on the basis of Irevan Teacher's Training College and problems of forming of Nakhchevan-Tebriz-Irevan social-education space are touched also.

***Key words:*** *Tsarist Russia, Irevan Teacher's Training College, Irevan educative environment, Irevan – Tebri z-Nakhchivan educative area*

XIX əsrin 70-ci illərinədək bütün Qafqazda dünyəvi fənlər tədris edən məktəb, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil ocağı yox idi. Məlumdur ki, Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir. Bütün Azərbaycanda olan mollaxanalar və mədrəsələr təkcə İrəvan şəhərində deyil, eyni adlı quberniyanın Uluxanlı, Vedibasar, Dərələyəz, Göyçə, o cümlədən Basarkeçər, Ağbaba, Qafan, Sisyan, Zəngəzur və digər yaşayış yerlərində də fəaliyyət göstərmişdir. Əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişinin baza rolunu oynamış müsəlman təhsilinin əsasını təşkil etmişdir. “... Ümumiyyətlə, Şərqdə İslam dini ehkamlarını yerinə yetirməklə, həmçinin təhsildə ərəb dili universal dil idi. O vaxt müsəlman Şərqində, o cümlədən Azərbaycanda elmi əsərlər əsasən ərəb dilində yazılırdı. Orta əsrlərdə Qərbi Avropa ölkələrində fəlsəfənin, elmin yayılmasında latın dilinin oynadığı böyük rolu müsəlman Şərqində ərəb dili oynayırdı” [8, s. 39].

***Müsəlman təhsilindən dünyəvi təhsilə tarixi transformasiyanın təşəkkülü***

Bununla bərabər maarifçi-dini düşüncə tərzinin intisarına çevrilmiş orta çağ məktəbi, geniş anlamda təhsilin müsəlman cəmiyyəti üçün dini xarakteri ilə seçilirdi. Dini məktəblər forma və məzmun müxtəlifliyinə baxmayaraq, müxtəlif etnik toplumları birləşdirən Şərq arealını digər mədəniyyətlərdən qoruyan sarsılmaz sipərə çevrildi. Geniş bir siyasi coğrafi arealda etnik kimliyin dini kimliyə transformasiyası kimi qlobal proses həyata keçirildi. Bu prosesin tarixi daşıyıcıları özündə məktəb-məscid-mədrəsələri ehtiva edən müsəlman təhsil müəssisələri idi. Bu məktəblər iki dərəcəyə – məscid yanında məktəb və mədrəsələrə bölünürdü. Məscid təhsili aşağı, mədrəsə isə yuxarı hesab edilərək, bir növ birinci ikinciyə hazırlıq rolunu oynayırdı. O dövrün təhsil məmurlarından A. Zaxarov Çar Rusiyası işğal ərəfəsində belə tədris tipindən bəhs edərək yazırdı ki, məktəb mədrəsə binasında 2 və 3 otaqda yerləşirdi. Bundan başqa mollaların evlərində, gur məhəllələrdə də belə məktəblər açılırdı. [20, s.9]

Akad. H.M. Əhmədova görə, “köhnə üsullu məktəbin vəzifəsi şagirdlərə, hər şeydən əvvəl, hər bir mömin müsəlmana zəruri olan dini bilgiləri, ilk növbədə isə evdə oxumaq, namaz qılmaq üçün məscidə getmək vəzifəsini öyrətməklə müsəlmanların xristianlardan ayrılığını təlqin etmək idi”. ...İri mədrəsələrdə 200-dək, böyük mədrəsələrdə isə, məsələn, Nəcəf, Qum və Kərbəla mədrəsələrində 7000-dək, bəzən də çox tələbə olurdu [8, s. 48-49]. Dini təhsil üçün vəsiyyət edilmiş əmlaka vəqf deyilirdi. 6-8 və 10-15 il təhsil alan softi, yəni tələbə orda ixtisas və ali təhsil olmaqla müsəlman elminə yiyələnirdi. Ali təhsil müəssisələri isə Tehran, Qahirə, İstanbul, Bağdad, Şam, Kazan, Səmərqənd, Buxara kimi dini-maarifçi mərkəzlərdə yerləşirdi. Bu məktəblərdə yüzlərlə azərbaycanlı tələbələr oxuyurdu [8, s. 51].

Qafqazı fəth edən Çar Rusiyası əhalini rusiyalaşdırmaq, yəni ruslaşdırmaq və xristianlaşdırmaq üçün onları ictimai-humanitar layihələrlə öz tərəfinə çəkmək zərurətindən bəhs edən admiral Y. Mordvinovun 1816-cı ilin iyununda mərkəzi hakimiyyətə məşhur məktubu çox xarakterikdir. Orada deyilirdi: “Bu xalqları silah gücünə həmişəlik istila etmək mümkün deyildir... onları istila etmək üçün onlara ehtiyac hiss etdikləri şeylərin miqdarını artırmaq gərəkdir, onlarda yeni arzular, yeni ehtiyaclar, yeni adətlər yaratmaq, onları bizim baxışlarımıza, dəyərlərimizə, şəraitimizə yaxınlaşdırma, ev avadanlığına, hər cür şirnikdirici məmulata yaxınlaşdırmaq lazımdır. İlk növbədə bizim məktəbləri Cə-

nubi Qafqaz şəhərlərinə aparıb çıxarmaq lazımdır. O vaxt nəinki onlarla sərhədlərdə, döyüşlərdə dostlaşacağıq, həm də daimi düşmənçiliyi artırmağa səbəb olan süngü və mərmilərimizin heç bir vaxt çatmadığı zəngin sərvətli Qafqaz dağlarının təpələrinə qədər fəth edəcəyik" [22, s. 76].

Məhz bu geopolitik siyasətin nəticəsi olaraq XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi-tarixi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyllərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu.

Mənbələrin verdiyi məlumatlardan məlum olur ki, İrəvanda ilk qəza məktəbinin 1831-ci ilin mart-oktyabr aylarında açılması nəzərdə tutulsa da, amma hansısa səbəblərdən həmin ildə bu təşəbbüsün gerçəkləşməsi mümkün olmamışdı.

14 yanvar 1832-ci ildə İrəvanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. İrəvan qəza məktəbi 1869-cu ildə progimnaziyaya, 31 mart 1881-ci ildən isə 5 sinifli gimnaziyaya çevrildi.

Yeri gəlmişkən, Azərbaycanda müəllim kadrları hazırlığı problemi ölkənin maarifçi-ziyalılarını da çox düşündürürdü. Bu sahədə M.F. Axundovla H.B. Zərdabi arasındakı yazışmalar da çox məşhurdur. Belə ki, görkəmli mütəfəkkir M.F. Axundov, maarifçi mühərrir H.B. Zərdabinin təşəbbüsünə rəğmən "Əkinçi" qəzetinin 1877-ci il 2-ci sayında çap edilən məşhur məqaləsində yazırdı: "Bizim əzizimiz və gözümüzün işığı Həsən bəy! Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səmərəlini zikr edib, bizə hey təklif edirsən elm öyrənin, elm öyrənin! Çox yaxşı, sözün bimənə və nəsihətin, mufid və xeyirxahlığın sabit. İndi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək elmi harada öyrənək, kimdən öyrənək və hansı dildə öyrənək."

Görkəmli təhsil tarixçisi akad. H.M. Əhmədov çox ciddi məsələlərin qaldırıldığı məktubdakı problemləri və ondan çıxan nəticələri xarakterizə edərək yazırdı: "Birincisi bu dövrdə xalq məktəblərinin olmaması, ikincisi xalq müəllimlərinin çatışmazlığı, üçüncüsü, ana dilində dərs kitablarının çatışmazlığı və ana dilli məktəblərin təşkili qarşısında duran çox mühüm və həll edilməsi zəruri, vacib ictimai və pedaqoji problemlərdən idi" [10, s. 106].

Cənubi Qafqazda milli təhsilimizin inkişafında böyük rol oynamış tədris ocaqlarından olan İrəvan Müəllimlər Seminariyası tarixi əhəmiyyətə malikdir. Rusiya İmperiyasının Dövlət Şurasının 20 oktyabr 1881-ci il tarixli qərarı əsasında "Kutaisi və İrəvan Quberniyalarında" müəllimlər seminariyaları təşkil edilməyə başlanmışdır. Üç maddə və qətnamədən ibarət olan həmin qərarda qeyd edilir: "1) İmperiyada İrəvan Müəllimlər Seminariyası və Zaqafqaziya Müəllimlər Seminariyası haqqında əsasnamələr əsasında Kutaisi və İrəvan quberniyalarının hər birində bir Müəllimlər Seminariyası açılsın. 2) Ştatların layihələri üzrə seminariyaların saxlanması üçün Kutaisi seminariyasına – 27.800 rubl., İrəvan seminariyasına 28.350 rubl., yekun olaraq isə Zaqafqaziya diyarının yerli büdcəsinə ildə 6.150 rubl. keçirilsin..." [19, s.15]

***İrəvan Müəllimlər Seminariyası yeni ictimai-maarifçi mühit***

Seminariyada müxtəlif fənlərin tədrisi ilə yanaşı Azərbaycan dili və sənət dərslərinin tədris edilməsi də ştat cədvəlində öz əksini tapmışdı. Apardığımız araşdırmalardan məlum olur ki, Azərbaycan (tatar) dili fənnini və müsəlman dini üzrə şəriət dərslərini ilk vaxtlar seminariyada Axund Məhəmmədbağır Qazizadə tədris etmiş, həm də eyni zamanda azərbaycanlı bölməsinə rəhbərlik etmişdir. Ona görə də Azərbaycan (Tatar) dilinin və müsəlman dini üzrə şəriət fənlərinin tədrisi həm mövcud dövrün zərurəti, həm də yerli din xadimlərini neytrallaşdırmaq məqsədi güdürdü.

8 noyabr 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Stepan Şuşevski seminariyanın direktoru təyin edildi. Azərbaycanlı bölməsinə şəriət və tatar (şiə-H.B) dili müəllimi Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadə rəhbər təyin edilmişdir.

Burada müxtəlif millətlərin nümayəndələri ilə yanaşı azərbaycanlılar da təhsil alırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha da geniş vüsət almasına ciddi təsir göstərməklə İrəvan ictimai-pedaqoji mühitinin yeni tarixi transformasiyaya uyğun formalaşması prosesi, ərəb-farsdilli müsəlman təhsilindən rusdilli təhsilə

keçid prosesi başlandı. İrəvan-Naxçıvan ictimai-pedaqoji mühiti böyük müsəlman maarifçisi İsmayıl bəy Qaspiralının başlatdığı üsuli-cədid (yeni təhsil üsulu) hərəkatının Mirzə Həsən Rüsdiyyə, Mirzə Əsgər Bağçaban və Məhəmmədtağı Sidqinin açdıqları yeni tipli məktəblərin tarixi mərhələsinin daşıyıcısına çevrildilər. Sonralar M.H. Rüsdiyyənin simasında Təbrizdə dövrlər səviyyəsində bu tip məktəblərə xüsusi diqqət yetirilməsi İrəvan-Naxçıvan ictimai-maarifçi mühitin Qori seminariyasının azərbaycanlı müdavimlərinin ölkənin hər yerində yeni tipli maarifçi ideyasının ortaya atmaqla cənublu-şimallı ümumazərbaycan ictimai-maarifçi hərəkatına, yəni milli düşüncənin, son nəticəsində isə ümumazərbaycan davasının əsaslarına çevrildi. Seminariyada tatar dilini (Azərbaycan) Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadə tədris edirdi. O, 1813-cü ildə İrəvanda anadan olmuşdur. İlk təhsilini atası Hacı Molla Mehdi oğlu Qazızadədən almışdur.

Sonra isə mədrəsədə dini təhsilini başa vurduqdan sonra, Şərqdə elm və bilik mərkəzi kimi tanınan Nəcəf şəhərinə gedərək orada ali dini təhsil almışdır. Nəcəf şəhərindəki ali dini tədris mərkəzində on il təhsil almış, yüksək elmi və dini biliklərini daha da təkmilləşdirmişdir. Nəcəf şəhərindəki on illik təhsil dövrü Məhəmmədbağırın ərəb dilinin daha da incəliklərinə və eyni zamanda qədim və müasir riyaziyyat sahəsində dərin biliklərə yiyələnməsinə böyük stimul vermişdir. Yeri gəlmişkən, onu da qeyd edək ki, Qazızadələr soyu 18-19-cu əsrlərdə nəinki Cənubi Qafqazda, yaxın Şərqdə tanınırdılar. Yüksək elmi və dini biliklərə sahib olan Molla Məhəmmədbağır Qazızadə axund tituluna yiyələnmək üçün Zaqafqaziya ruhani idarəsində imtahan verərək, həmin adı almağa layiq görülmüşdü. Onun ilahiyyat və dəqiq elmlər sahəsindəki dərin biliyi, təşkilatçılıq qabiliyyəti və istedadı, ictimai-siyasi, pedaqoji, dini fəaliyyəti həmişə onun uğurlara nail olmasına böyük rəvac vermişdir. O həm də qədim Şərq ədəbiyyatın gözəl bilicisi idi. Axund Molla Məhəmmədbağır Qazızadə İrəvan progimnaziyasını bitirmişdir. Yüksək biliyə malik olan Axund Məhəmmədbağır Qazızadə həm də seminariyada azərbaycanlı bölməsinə rəhbərlik edirdi. O, 1911-ci ildə bir neçə İrəvan müəlliminin Tiflisdə Azərbaycan dilində nəşr etdirdiyi "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın azərbaycanlı bölməsinin rəhbəri Axund Məhəmmədbağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, soydaşlarının seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır. Onu da qeyd edək ki, Axund Məhəmmədbağır Qazızadə İrəvanın ictimai-siyasi, mədəni həyatında böyük rol oynamış, demək olar ki, azərbaycanlı əhalinin hüquqlarının keşiyində dayanan bir şəxs olmuşdur. O, azərbaycanlıların elmə, təhsilə cəlb edilməsində böyük fədakarlıq göstərmişdir. Onun fədakar və qabaqcıl müəllim kimi əməyini yüksək qiymətləndirən soydaşlarımızın tələbi ilə o, dövlət tərəfindən gümüş medalla təltif edilmişdir. O 1902-ci ildə öz evində rus-tatar (azərbaycanlı) qızlar məktəbi açmışdır. Məktəbin himayəçisi İrəvan quberniyasının vitse-qubernatoru knyaz Aleksey Çaqadayevin arvadı Yelena Çaqadayeva, müdir Antonina Valerianovna Kalinina, müəllimləri Yevgeniya Georgiyevna Pxakadze, Məmmədvəli Qəmərlinski və başqaları olmuşdur.

1905-ci ildə ermənilərin İrəvanda azərbaycanlı əhaliyə qarşı törətdikləri qırğınlarla bağlı Peterburqa gedən İrəvan quberniya qazisi və quberniya müsəlmanlarının dini icmasının rəhbəri Axund Məhəmmədbağır Qazızadən ibarət nümayəndə heyətinin tərkibində İrəvanda böyük nüfuz sahibi olan İrəvan şəhər dumasının üzvü Hacı Mir Abbas Ağa Mirbabayev, İrəvan quberniyası dini məclisinin üzvü Məmməd Axundov, tanınmış vəkil Məmmədqulu bəy Kəngərlinski də olmuşlar. O, Peterburqda Rusiyanın Qafqaz canişini knyaz Vorontsov-Daşkovla görüşmüş, İrəvanda yaşayan azərbaycanlıların mənəvi və maddi ehtiyaclarını ona çatdırmışdır [6, s. 24].

Axund Molla Xəlil Kərim oğlu Qazızadə İrəvan Quberniya Məclisinin sədri vəzifəsindən azad edildikdən sonra onun yerinə Molla Məhəmmədbağır Qazızadə təyin edilir. O İrəvan Quberniya Dini Məclisinin üzvləri Molla Abbasqulu Sultanhüseynbəyov, Lütfəli bəy Qazıyev, Əli Əfəndi Süleymanzadə, qəza qaziləri Axund Hacı Molla Saleh Möhsünzadə (Naxçıvan), Axund Şeyx Mehti Qazızadə (Üçmüədrin), Axund Molla Qurban Cənnətzadə (Novobəyazit), Axund Hacı Molla İsmayıl Nadirzadə (Şərur-Dərələyəz), Axund Mehti

Məhəmmədzadə (Ordubad), Kərim bəy Münşiyev, İsmayıl bəy Bağırbəyov, Hüseyn bəy Məcnunbəyov və başqaları ilə birlikdə çalışmışdır.

***İrəvan ictimai-maarifçi aristokratiyası və yeni təhsil hərəkatı***

Bu prosesdə, yəni əyalətin ictimai-maarifçi mühitinin formalaşmasında quberniyanın dövlət sənədlərində adları keçmiş İrəvan bəyzadələrini yeni nəslin bilməsi də maraqlıdır: Hacıbəy Məşədi Rəhimbəy oğlu, Əhməd bəy Kərimbəy oğlu, Rüstəm bəy Vəli oğlu, Şəfi bəy Mürsəl oğlu, Şükür xan Mayor Əhmədxan oğlu, Süleyman bəy Səlimbəy oğlu, Abdulla bəy Əlibəy oğlu, Molla Əkbər Məmməd oğlu, Kərim bəy Muradbəy oğlu, İsmayıl bəy Hacı Novruzəlibəy oğlu, Abasqulu bəy Mustafabəy oğlu, Hacı Əlisultan Əsədbəy oğlu, Axund Molla Əli oğlu, Hacı Məmmədsadıq Hacı Ağa oğlu, Hacı Abbas Kərbəlayı Əbdülhüseyn oğlu, Hacı Zeynalabdın Kərbəlayı Məmmədvəli oğlu, Kamil ağa Əlibəy oğlu, Budaq Hacı Əli oğlu, Hacı İsgəndər Sultan Vəli oğlu, Cəmil bəy Əlməmmədbəy oğlu Səfiyev, Mustafa Cəfər oğlu, İsmayıl Ağa oğlu, Həsən İsgəndər oğlu [13, s. 651].

Uluxanlı məktəbində dərs demiş Rəhim Xəlilov da 1899-cu ildən bir müddət seminariyada müəllim kimi fəaliyyət göstərmişdir. Yeri gəlmişkən onu da qeyd edim ki, Rəhim Xəlilov İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin təşəkkülündə də rol oynamışdır. Onun 1899-cu ildə İrəvanda "İrəvan quberniyası şiə müsəlmanlarının arasında mühərrəmlik təziyədarlıgı" adlı kitabı nəşr edilmişdir və həmin kitabda şəbih tamaşaları haqqında söhbət açılmışdır.

Tədqiqatlardan aydın olur ki, 1906-cı ilin iyun ayında Cəlil Məmmədquluzadə İrəvanda olmuş, seminariyada qabaqcıl azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmiş, "Molla Nəsrəddin" jurnalı barədə geniş fikir mübadiləsi aparmışdır.

"Molla Nəsrəddin" jurnalının İrəvanda özünə möhkəm yer tutmasında İrəvan Gimnaziyasının və Müəllimlər Seminariyasının azərbaycanlı müəllimlərinin və tələbələrinin də böyük rolu olmuşdur. "Tüti", "Zənbur", "İqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcüman" və s. mətbuat orqanlarının İrəvanda yayılmasında azərbaycanlı ziyalıların və tələbələrin böyük rolu olmuşdur.

Məlumat üçün onu da bildirək ki, İrəvanda Cabbar Əsgərzadənin redaktorluğu və Mir Məhəmməd Mir Fətullayevin nasirliyi ilə işıq üzü görən həftəlik "Leylək" satirik jurnalının səhifələrində İrəvanda maarifçilik məsələlərinə də diqqət ayrılırdı. Xalqda elmə, maarifə böyük maraq oyanırdı. İrəvan Quberniyasında dünyəvi məktəblərin açılması və bu məktəblərdə təlim-tərbiyənin, tədrisin pedaqoji prinsiplərə əsaslanması da jurnalda müəyyən yer tuturdu.

Bakıda "Bəhlul", "Ari", "Zənbur", Tiflisdə "Tartan-parton", Təbrizdə "Ənkabud", Tehranda "Suri-İsrafil", "Peşətdə", "Nəsimi-Şimal", nəhayət İrəvanda "Lək-lək" (Leylək) durna qatarına qoşuldu. Jurnalın ilk nömrəsi 22 fevral 1914-cu ildə çıxdı. Onun nəşrinə 22 fevral 1914-cü ildə icazə verilmişdir.

İrəvan Müəllimlər Seminariyasının müəllimləri, tələbə və məzunları haqqında ardıcıl, sistemli məlumatlar obyektiv səbəblər üzündən tamamlanmamışdır.

Bununla bağlı müxtəlif mənbələrə istinadən aparılmış müqayisələr İsrafil Məmmədovun Ermənistan Mərkəzi Dövlət Tarixi Arxivinin müxtəlif illər üzrə qovluqlarından topladığı materiallara daha uyğun gəlir. [13, s. 622-646] Arxiv mənbələrinə görə 1881-1895-ci illərdə 123 nəfər; 1896-1913-cü illərdə 63 nəfər; 1914-1918-ci illərdə 86 nəfər bitirib. Beləliklə, fəaliyyət göstərdiyi 1881-1918-ci illərdə seminariyanın 292 məzunu olmuşdur. Yeri gəlmişkən, orada 1883-cü ildə əlavə 7 buraxılış qeydə alınıb. Bu səhvdir. Həmin ildə buraxılış mümkün deyildi. Ilk buraxılış 1884-cü ildə olmuşdur. 1884-1895-ci illər üzrə 123 məzundan 25-i azərbaycanlı olmuşdur. Bütün məzunlar haqqında tam məlumat əldə edilmədiyindən 123-ün 25-ə nisbətinə əsaslansaq 292 məzundan təqribən 60 nəfər məzun ehtimal etmək olar. İllər üzrə məzunların təsnifatı aşağıdakı kimi olmuşdur: 1883-7; 1884-5; 1885-9; 1886-14; 1887-6; 1888-10; 1889-13; 1890-12; 1891-12;1892-14; 1893-5; 1894-9; 1895-14. 1896-1913-cü il*ə*dək 63 buraxılış olub. 1914-22; 1915-19; 1916-22; 1917-23; 1918-20; bütün illər üzrə cəmi 292 nəfər məzun olmuşdur. Digər statistik hesabatlara əsasən, hesablamalar 232 məzunun olduğunu bildirir. O cümlədən 1890-cı ildə 12 məzundan 6-sı İrəvan Yelizavetpol məktəblərində; 4 nəfər kilsə ruhani; 1 nəfər Stavropolda, yəqin ki, Ar-

mavirdə işləyir. Onlardan 5-i qeyri-müsəlman, 7 nəfəri azərbaycanlı olubdur. O cümlədən, 1884-1890-cı illər üzrə 39 məzundan 39 nəfər İrəvan-Yelizavetpol, 2 nəfər Bakı-Dağıstan, 1 nəfəri Kutaisi Stavropolda çalışıb, qalanların iş yerləri haqqında məlumat yoxdur. Yenqicə məktəbinin nəzarətçi müəllimi Həsən Ağayev buraxılışın fərqlənən məzunu olmuşdur. 1891-1895-ci illərdə 44 nəfər məzun olmuşdur.

Digər maraqlı məlumat ondan ibarətdir ki, 14 ildə Müəllimlər Seminariyasının 12 buraxılışı olub və 123 nəfər məzun arasında milli tərkib aşağıdakı kimi olmuşdur: ruslar 8, gürcülər 10, ermənilər 67, tatarlar (azərbaycanlılar) 26, dağlılar 2, qeyri millətlər 10 nəfər. [13, s. 538]

Elə buradaca 1884-cü ildə ilk məzunlardan, yəni 25 nəfərdən 9 azərbaycanlı olduğu qeyd edilir. Beləliklə, 292+4=296. Halbuki orada 1884-cü ildə məzun 5 nəfər göstərilirdi. Bütün bunlar həm məzunların ümumi siyahısını, həm də oranı bitirən azərbaycanlıların yekun sayını dəqiqliklə ifadə etmir, gələcək tədqiqatların mövzusu olaraq qalır.

Bir sözlə, İrəvan Müəllimlər Seminariyasının xalqımızın təhsil və pedaqoji fikir tarixindəki rolu heç də Qori Müəllimlər Seminariyasından az olmamış, milli-mədəni-maarifçilik mərkəzlərindən biri kimi müstəsna rol oynamışdır. Bu məktəb 1881-1918-ci illər arasında fəaliyyət göstərsə də, müəyyən fasilədən sonra Sovet Ermənistanında 1924-cü ildən İrəvan azərbaycanlı Pedaqoji məktəbi kimi fəaliyyət göstərmiş, SSRİ Nazirlər Sovetinin "1948-1953-cü illər üzrə kolxozçuların və digər Azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr tarixli qərarı ilə deportasiyadan sonra öz fəaliyyətini qısa bir müddət Gəncədə, 1949-1971-ci illərdə isə Xanlar (indiki Göygöl) şəhərində Pedaqoji məktəb olaraq milli təhsil tariximizdə şərəfli yer tutmuşdur.

Bizə elə gəlir ki, İrəvan ifadəsinin bizim üçün müasir ictimai-siyasi əhəmiyyətini nəzərə alaraq həmin məktəbi Azərbaycanda yenidən bərpa etmək lazımdır. Özü də respublikanın heç bir ali məktəbi olmayan yeganə şəhərimiz olan Şirvanda İrəvan Ali Seminariyası olaraq təsis etmək həm də 1948-1953-cü illərdə Kür-Araz ovalığına deportasiya edilərək oraların sosial-iqtisadi və mədəni-maarifçi simasının dəyişməsində böyük zəhməti olan İrəvanlıların (Qərbi Azərbaycanlıların – H.B) ruhuna da ehtiram olardı.

**Problemin aktuallığı**. İrəvan müəllimlər seminariyasının yaranmasını şərtləndirən maarifçi zəmin diqqət mərkəzinə gətirilir.

**Problemin elmi yeniliyi**. XIX əsrin 70-ci illərində bütün Qafqazı əhatə edən yeni dünyəvi təhsil müəssisələrinin açılması onu şərtləndirən maarifçi zəmin, eləcə də İrəvan xanlığı ərazisində yaradılan rusdilli qəza məktəbləri, progimnaziya və gimnaziyaların açılması, fəaliyyəti, Azərbaycan bölməsində oxuyan şagirdlər, ana dili və şəriət dərslərini tədris edən maarifçi-ziyalılarımızın yeni milli maarifçiliyin formalaşmasındakı xidmətlərinin təhlili verilir. İrəvan Müəllimlər Seminariyasının simasında əyalətin mədəni-maarifçi mühiti milli məktəb və pedaqoji fikir tarixinin mühüm tərkib hissəsi kimi tədqiqata cəlb edilir.

**Problemin praktik əhəmiyyəti**. Ali pedaqoji təhsil müəssisələrində milli məktəb və pedaqoji fikir tarixinin tədris zəminində İrəvan Müəllimlər Seminariyası, onun tədris mühiti, pedaqoji heyəti haqqında gələcək müəllimlərə elmi-praktik məlumatın verilməsi ciddi metodik əhəmiyyət daşıyır.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi, 7 cilddə, 4-cü cild (XIX əsr). -Bakı: Elm, -2000, -503 s.
2. Azərbaycan Müəllimlərinin Qurultayları. –Bakı: Çaşıoğlu, -2008, -784 s.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il, yeni əsr, yeni üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində.
4. Ağayev, Ə., Rzayev V. Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. -Bakı: Təhsil,-2004,-136 s.
5. Bayramov, H.B. Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmasının formalaşması. -Bakı: Elm, -2015, -368 s.
6. Cəfərov Cəfər, Allahverdiyev Cəlal. İrəvanda milli maarifçilik mühiti. -Bakı: Şərq-qərb, -2017, -440 s
7. Əhmədov, H.M. Seçilmiş pedaqoji əsərləri. XII cilddə. 4-cü cild. -Bakı: Təhsil-ABU, -2006, -580 s.
8. Əhmədov, H.M. XIX əsr Azərbaycan məktəbi. -Bakı, -2006, -580 s.
9. Əhmədov, H.M. Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər. -Bakı: Maarif, -2012, -542 s.

10. Əhmədov, H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. -Bakı, -2014, -432 s.
11. Həbibbəyli, İ.Ə. Naxçıvandan Naxçıvana. -Bakı: Elm və təhsil, -2015, -846 s.
12. Mahmudov, Y. və b. İrəvan xanlığı. -Bakı, -574 s
13. Məmmədov, İ. Tariximiz, torpağımız, taleyimiz. -Bakı, -2003, -703 s.
14. Mərdanov, M.C. Azərbaycan təhsil tarixi. I cild. -Bakı, -2011, -296 s.
15. Mollayev, İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Naxçıvan: Əcəmi -2016, -367 s.
16. Nadir Dövlət. Rusiya türklərinin milli mübarizə tarixi (1905-1917). -Bakı: Ağrıdağ, -2002, -263 s
17. Rüstəmov, F.A. Pedaqogika tarixi. -Bakı: Nurlan, -2006, -748 s
18. Rzayev, V. V. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri). -Naxçıvan, -2018, -392 s.
19. Sarıyeva, İ. Milli təhsil tariximizin əsası olan seminariyalar. -Bakı: Xəbər, -2016, -№ 201
20. Захаров, А. Народное образование Закавказских Татар, СМОМОК -Тбилиси ,-1890 с. выпуск 9 ,ст 1
21. Крымер Щакан, Исмаил бей Гаспиралы. -Анкара, -2001, -46 с.
22. Модзалевский, Л.Н. Ход учебного дела на Кавказе с 1802 по 1880 год. Тифлис: Тип. А.А. Михельсона, -1880, -96 с.
23. Образование Иреванской губернии в 1896 году. -Ереван, -1987 с.

**E-mail**: 9bineqedi2@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **H.H. Əhmədov,**
*ped.ü.elm.dok., prof.* **İ.H. Cəbrayılov**
**Redaksiyaya daxil olub:** 24.01.2022.

**UOT 37.0**

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*
*https://orcid.org/0000-0002-3319-7466*
*https://doi.org/10.5281/zenodo.6445667*

# ANTON SEMYONOVİÇ MAKARENKONUN TƏRBİYƏYƏ DAİR FİKİRLƏRİ

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования*
*АзербайджанскойРеспублики*

# МЫСЛИ АНТОНА СЕМЁНОВИЧА МАКАРЕНКО О ВОСПИТАНИИ

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the*
*Institute of Education of the Republic of Azerbaijan*

# THOUGHTS OF ANTON SEMYONOVICH MAKARENKO ON THE UPBRINGING

**Xülasə.** Məqalədə A.S. Makarenkonun tərbiyəyə dair nəzəri fikirləri diqqətə çatdırılır. Məlum olduğu kimi, Makarenko XX əsrin 20-39-cu illərində uşaq və yeniyetmələrdən ibarət qanunpozan uşaqlar və yeniyetmə koloniyasında, sonralar kommunasında işləmişdi. O, buradakı iş təcrübəsinə əsasən tərbiyə nəzəriyyəsini formalaşdırmışdır. Məqalədə tərbiyənin məqsədinə, tərbiyə işində müəllimin və valideynin oynadığı rola, tərbiyənin prinsiplərinə, düzgün tərbiyənin şərtlərinə dair fikirlərinə müraciət olunur.
***Açar sözlər:*** *tərbiyə, tərbiyəvi fikirlər, tərbiyənin məqsədi, qanunpozan uşaqlar, qanunpozan uşaqların tərbiyəsi*

**Резюме**. В статье рассматриваются теоретические взгляды А.С. Макаренко на воспитание. Как известно, Макаренко в 20-39 годах XX века работал в колонии, а позднее и в коммуне для детей- и подростков-правонарушителей. На основе своего опыта он сформировал теорию воспитания. Статья затрагивает его мысли о целях воспитания, роли учителей и родителей в воспитании, принципах и условиях правильного воспитания.
***Ключевые слова:*** *воспитание, воспитательные идеи, цель воспитания, дети-правонарушители, воспитание детей-правонарушителей.*

**Summary**. The article discusses the theoretical views of A.S. Makarenko about upbringing. Makarenko notoriously worked in a colony, and later in a commune for child and adolescent offenders between 1920 and 1939. He formed the theory of upbringing based on his experience there. The article draws attention to his views on the purpose of upbringing, the role of teachers and parents in upbringing, the principles and the conditions for proper upbringing.
***Key words:*** *upbringing, upbringing ideas, purpose of upbringing, child offenders, upbringing of child offenders*

A.S. Makarenko 13 mart 1888-ci ildə Xarkov quberniyasının Suma vilayətinin Belopolye kəndində dünyaya gəlmiş, 1939-cu il aprelin 1-də ürək çatışmazlığından dünyasını dəyişmişdir. Poltava Müəllimlər İnstitutunu qızıl medalla başa vuran Anton Semyonoviç pedaqoji fəaliyyətinə Kryukova ibtidai məktəb müfəttişi kimi başlamışdır. 1920-ci ildə davranışı qüsurlu, qanun

pozan uşaq və yeniyetmələrdən ibarət koloniyada fəaliyyətini davam etdirmişdir. Sonralar haqqında danışılan koloniya Kuryajdakı kolonya ilə birləşdirilmiş, kolonya Kuryaja köçürülmüşdür.

Koloniyaların birləşdirilməsi nəticəsində Kuryaj koloniyasında artıq 430 yeniyetmə oldu. Makarenko çətin şəraitdə olsa da, qanunpozan uşaqlarla səmərəli təlim-tərbiyə işləri aparmağa nail olurdu.

Bir neçə il sonra Ukrayna çekistləri Dzerjinskinin xatirəsini əbədiləşdirmək məqsədilə bir kommuna yaratdılar. Kommunaya F.E. Dzerjinskinin adı verildi. Ona rəhbərlik də A.S. Makarenkoya tapşırıldı. O, koloniyada və kommunada uşaq və yeniyetmələrin tərbiyəsi və yenidəntərbiyəsi ilə məşğul olurdu. Bunun nəticəsi idi ki, kommunada möhkəm uşaq kollektivi yaranmışdı. Sonralar A.S. Makarenkonun tərbiyəvi təsirləri ilə nümunəvi davranışa yiyələnmiş şəxslər cəmiyyətdə layiqli yerlər tutdular.

Anton Semyonoviç ömrünü qanunpozan uşaqların tərbiyəsi məsələlərinə, onların həyatın fərəhli yolların çıxması uğrunda çalışan tərbiyəşünas müəllim olub. Əsərləri özünün iş təcrübəsinə aid idi ki, hər bir şəxs, valideyn, tədqiqatçı, müəllim, pedaqoji peşə sahibi o zamanlar da, indinin özündə də böyük pedaqoqun tərbiyəvi fikirlərindən faydalana bilər.

Makarenko ilk növbədə tərbiyə və təlim işləri ilə məşğul olacaq və olan şəxslərin özlərindən tərbiyəlilik, pedaqoji səriştəlilik tələb edirdi.

"Uşaq həyatın gülüdür!" Anton Semyonoviç valideynlərin, hətta bəzi pedaqoqların da belə fikirləşdiklərini görüb onları xəbərdar edirdi: "Ayaqüstü mühakimə edən sentimental adamlar bu gözəl sözlərin mənası üzərində düşünmək üçün özlərinə zəhmət vermirlər. Onların fikrincə, madam ki, söhbət güldən gedir, demək ona ancaq tamaşa etmək, valeh olmaq, onu ancaq əzizləmək, qoxulamaq, ah çəkmək lazımdır (1, s. 24).

Makarenkonun qənaətincə, uşaqları yalnız əzizləmək, yalnız qayğı və nəvazişlə əhatə etmək, ona, necə deyərlər "güldən ağır" söz demək azdır. Uşaq və yeniyetmələrə tələblər də vermək lazımdır. Yoxsa o, korlana bilər, davranış və rəftarı başqalarından ötrü zərərli ola bilər. Diqqət yetirək: "Həyatın güllərinə" məhz bağbanın öz sevimli ağacına bəslədiyi münasibət təriqi ilə yanaşmaq lazımdır. ...Ona görə güllərin üstünə təkcə aludəçilik və öpüşlərlə atılmayın, əlinizə bel, qayçı, susəpən alın, nərdivan götürün, bağınızda zərərli qurd əmələ gəlsə, göy daş məhlulu tapın. Qorxmayın, bir az dərman səpin, qoy hətta güllərin bundan bir qədər xoşu gəlməsin" (1, s. 24).

A.S. Makarenko pedaqoji peşə sahiblərinin və ata-anaların ilk növbədə tərbiyənin məqsədini aydın təsəvvür etmələrini vacib sayırdı. Bu baxımdan onun "Tərbiyənin məqsədi" məqaləsi səciyyəvidir. Həmin məqalədə deyilir: "Biz məktəblərimizdə cəmiyyətin fəal və sağlam məfkurəli üzvlərini yetişdirməliyik, belə ki, bizim tərbiyə etdiyimiz adamlar həmişə, öz həyatlarının hər anında şəxsi hərəkətləri üçün tərəddüd etmədən düzgün meyar tapa bilməli və eyni zamanda başqalarından da düzgün davranmağı tələb etməyə qadir olmalıyıq" (1, s. 22).

Anton Semyonoviçin tərbiyə sistemində bir "səciyyə tərbiyəsi" anlayışı, məsələsi var. Nədir səciyyə tərbiyəsi? Böyük pedaqoqa müraciət edək. Makarenko yazırdı: "Bəzən səciyyə tərbiyəsinə diqqət verilsə də, bu diqqətin istiqaməti düzgün olmur. ... Biz gözləyirik ki, şagird bu və ya başqa bir pis hərəkət etsin, sonra onu tərbiyə etməyə başlayaq. Təqsiri olmayan şagird bizi maraqlandırmır – onun hansı istiqamətdə irəlilədiyini, onun zahirən qaydalı görünən varlığında nə cür səciyyə inkişaf etdiyini biz bilmirik və onu öyrənib bilməyi bacarmırıq. "Yerə baxan sakit adamlar", "müqəddəs" simalı adamlar, pul yığanlar, hər şəraitə uyğunlaşanlar, maymaqlar, əməzəklər, əzilib-büzülənlər, müftəxorlar, adamdan qaçanlar, əzbərçilər və bu kimi başqa yayılmış səciyyə tipləri bizim pedaqoji qayğımızdan kənarda qalır" (1, s. 84).

Tamamilə düzgün qənaətlərdir. Makarenkonun da təsdiqlədiyi kimi, bir çox hallarda nadinclər və intizamı pozanlar deyil, məhz sakit, dinməz, qaraqabaq şəxslər böyüyüb ziyanlı ünsürlər olurlar. Tərbiyə işinin mürəkkəbliyi, çətinliyi də məhz buradadır.

A.S. Makarenko pedaqoji peşə sahibinin, müəllimin şəxsiyyətinə yüksək tələblər verir, onların bir sıra keyfiyyətlərə (müəllim nikbin, gümrah olmalı, öz enerjisi, qətiyyət və inadkarlığı ilə fərqlənməli, uşaqları sevməli və eyni zamanda onlara qarşı tələbkar olmalıdır") yiyələnmələrini əhəmiyyətli və zəruri hesab edirdi.

Böyük pedaqoqun düzgün düşünməsinə görə, uşağın sonrakı taleyi, gələcəyi, tərbiyəsi

müəllimdən, valideyndən, tərbiyəçidən çox asılıdır. O, qanunpozan uşaq və yeniyetmələrlə apardığı tərbiyə-təlim işlərindən belə bir qənaətə gəlmişdi: ”Mən də uşaqlıqda eyni vəziyyətə düşsəydim, onlar kimi olardım. Küçəyə atılmış köməksiz hər bir normal uşaq, cəmiyyətdən kollektivdən, dostlardan məhrum olmuş, əsəbləri sarsılmış, təcrübəsi və perspektivi olmayan hər bir normal uşaq özünü onlar kimi aparacaqdır”.

Ona görə Anton Semyonoviç inanırdı və əmin idi ki, əslində qanunpozan uşaqlar mövcud deyildir, daxili aləmi ondan (*Makarenkonun özündən – İ.Ə.*) daha zəngin olan, istedadlı, qabiliyyətli, xoşbəxt həyat sürməyə və qurub-yaratmağa qadir olan şəxslər vardır.

Makarenko düzgün adətlərin tərbiyə olunmasına xüsusi fikir verirdi. Onun fikrincə, tərbiyə işləri ilə olan məşğul şəxslərin vəzifəsi “təkcə davranış məsələlərinə düzgün, düşüncəli münasibət tərbiyə etmək deyil, həm də düzgün *adətlər* tərbiyə etməkdir, yəni biz özümüzdə elə adətlər tərbiyə etməliyik ki, oturub düşündükdən sonra yox, başqa cürə edə bilmədiyimiz üçün, məhz belə adət etdiyimiz üçün düzgün hərəkət edək” (1, s. 49).

Bəzən böyüklər də, uşaq və yeniyetmələr, gənclər də fikirləşirlər ki, insanda, lap onların özlərində müsbət cəhətlərlə yanaşı bəzən xoşagəlməz hallar, hərəkətlər, qüsurlu davranış və rəftar tərzi də ola bilər. Müqəvva deyillər ki, yalnız müsbət keyfiyyətlərin, əlamətlərin daşıyıcıları olsunlar.

Anton Semyonoviç belə düşüncə tərzi ilə razılaşmır, bu xüsusda yazırdı: “Bu yayılmış fikirdir ki, insanın həm ləyaqətli, həm də nöqsanlı cəhətləri olmalıdır. Bu cür fikirləşərək yaşamaq bir qədər “rahat” olur: ləyaqətlərim də var, qüsurlarım da var. Sonra insan özünə təsəlli verməyə başlayır: qüsurlar olmasaydı, insan yox, sxem əmələ gələrdi. Əlvanlıq üçün qüsurlar olmalıdır.

Lakin nədən ötrü, nəyin xatirinə mütləq qüsurlar olmalıdır? Hərgah sizin iyirmi ləyaqətiniz və on qüsurunuz varsa, biz sizdən əl çəkməməliyik: bəs nə üçün sizin 10 qüsurunuz var? Rədd olsun beşi. Beş qüsur qalanda – rədd olsun ikisi, qoy üçü qalsın. Ümumiyyətlə, insandan tələb etmək, tələb etmək, tələb etmək lazımdır! Hər bir adam özündən də tələb etməlidir” (1, s. 51).

Tərbiyə işinin düzgün və səmərəli aparılmasından ötrü müəllim, yaxud valideyn tərbiyənin təcrübədə sınanılmış metodlarından bəhrələnməli, bir sıra prinsipləri öz fəaliyyətində rəhbər tutmalıdır. Bu mənada A.S. Makarenko “Uşağı tərbiyə etmək nə deməkdir” məqaləsində tərbiyənin prinsiplərinə də öz münasibətini bildirmişdir. Diqqət yetirək: “1) hörmət və tələbkarlıq; 2) səmimiyyət və açıqürəklilik; 3) prinsipiallıq; 4) qayğı və diqqət, uşağı bilmək; 5) təmrin; 6) insanı möhkəmlətmək; 7) əmək; 8) kollektiv; 9) ailə, ilk uşaqlıq, sevginin miqdarı və sərtliyinin həddi; 10) uşaq sevinci, oyun; 11) cəza və mükafat” (1, s. 87).

A.S. Makarenko digər fənlərlə yanaşı xüsusi tərbiyə fənnini keçilməsini də məqsədəuyğun sayırdı. Maraqlı fikirdir. Müasir məktəbdə davranış qaydalarını özündə əks etdirən bir fənnin tədris olunması səmərəli olardı. Həyat bilgisi fənni bu və ya digər dərəcədə belə bir fənni əvəz edir. Şagirdlər cəmiyyətdə, ailədə, küçədə, ictimai yerlərdə özünüaparma qaydalarını öyrənir və onlara əməl edirlər.

Anton Semyonoviç pedaqoji prosesin məntiqinə də aydınlıq gətirmişdir. “Pedaqoji məntiq” məqaləsində bu barədə deyirdi: “Pedaqoji prosesin məntiqi necə olmalıdır? Hər şeydən əvvəl o, axıradək məqsədə uyğun olmalıdır. Demək, heç bir şablonun təsirinə yol verməmək mümkün deyildir. Heç bir qüsursuz vasitə yoxdur və mütləq qüsurlu olan vasitə də yoxdur. Müxtəlif şərtlərdən , zamandan, şəxsiyyətin və kollektivin xüsusiyyətlərindən, icraçıların istedad və hazırlığından, ən yaxşı məqsədlərdən, istifadə edilmir. Şəraitdən asılı olaraq bu və ya başqa bir vasitənin tətbiq edilmə dərəcəsi tam ümumi vasitə dərəcəsinədək yüksələ bilər, yaxud tamamilə inkar olunan vasitə dərəcəsinədək azala bilər” (1, s. 100-101).

Deyilənlərdə həqiqət vardır.

**Problemin aktuallığı**. A.S. Makarenko tərbiyə nəzəriyyəsinə dair qiymətli fikirlər söyləməklə, bu işin sistemini hazırlamaqla bağlı, eyni zamanda qanunpozan uşaq və yeniyetmələr koloniya və kommunasında işləmiş, praktik fəaliyyət göstərmişdir. Başqa sözlə, iş təcrübəsindən çıxış edərək tərbiyə nəzəriyyəsini formalaşdırmışdır.

**Problemin yeniliyi**. A.S. Makarenkonun tərbiyəyə dair nəzəri fikirləri diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən doktorant və dissertantlar, magistrantlar və gənc tədqiqatçılar bəhrələnə bilərlər.

**Ədəbiyyat:**

1. A.S. Makarenko. Seçilmiş pedaqoji əsərləri. Bakı: "Azərbaycan məktəbi" jurnalının nəşri, 1950.

**E-mail:** amiraliyeva_i@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 23.01.2021.

**UOT 37.0**

***Lalə Akif qızı Məmmədli***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*https://orcid.org/ 0000-0003-0686-3627*
*https://doi.org/10.5281/zenodo.6445734*

# “QABUSNAMƏ”DƏ TƏRBİYƏVİ FİKİRLƏR

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике,*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

## ВОСПИТАТЕЛЬНЫЕ ИДЕИ В «ГАБУСНАМЕ»

***Lala Akif Mammadli***
*doctor of philosophy in pedagogy*
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan

## EDUCATIONAL IDEAS IN "GABUSNAM"

**Xülasə**. “Qabusnamə” Şərqin böyük sənət abidələrindən biridir. Bu əsər güclü təhsilləndirici və tərbiyələndirici imkanlara malikdir. Gənc nəslin tərbiyəsində və maariflənməsində ondan istifadə etmək məsləhətdir. Kitabda valideynə hörmət, yoldaşlıq və dostluq qaydaları, uşaq tərbiyə etmək qaydaları, qocalıq və cavanlıq qaydaları, özünü idarə etmək qaydaları öz ifadəsini tapmışdır. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.
***Açar sözlər**: tərbiyəvi fikirlər, “Qabusnamə”, ata-anaya hörmət, uşaqların tərbiyə olunması, qız tərbiyəsi*

**Резюме**. «Габусname» – один из величайших памятников искусства Востока. Это произведение обладает сильным обучающим и воспитательным потенциал. Рекомендуется использовать его в воспитании и просвещении подрастающего поколения. В книге нашли свое выражение правила уважения к взрослым, к родителям, правила товарищества и дружбы, правила в воспитании детей, правила поведения в старости и юности, а также правила самоуправления. Статья будет полезна молодым исследователям.
***Ключевые слова**: воспитательные идеи, «Габусname», уважение к родителям, воспитание детей, воспитание девочек*

**Summary**. "Gabusname" is one of the greatest monuments of Oriental art. This work has a powerful educational and educational potential. It is recommended to use it in the upbringing and enlightenment of the younger generation. Rules of respect for adults and parents, rules of camaraderie and friendship, rules for raising children, rules for old age and youth; the rules of self-government found their expression in the book.

The article will be useful for young researchers.
***Key words**: educational ideas, "Kabusname", respect for parents, education of children, education of girls*

Qoca Şərqin möhtəşəm sənət abidələrindən biri də “Qabusnamə”dir. Bu əsərin müəllifi Qabus Vəşmgirdir. O, 1020-ci ildə dünyaya gəlmiş, 1067/68-ci ildə (bəzi mənbələrdə göstərildiyinə görə isə, 1082/83-cü ildə) vəfat etmişdir. “Qabusnamə” onun ömrünün son günlərində yazılmışdır, 44 fəsildən ibarətdir.

“Qabusnamə”nin ayrı-ayrı fəsillərində ata və anaya hörmət; təvazö və biliyin artırılması; natiqlik məharətini artırmaq; dost seçmək və onun qaydaları; qocalıq və cavanlıq qaydaları; özünü idarə etmək və yemək qaydaları; qonaq etmək, qonaq getmək və onların şərtləri; evlənmək, övlad tərbiyə etmək və onların qaydaları; düş-

məndən ehtiyatlı olmaq, cəza vermək və əfv etmək qaydaları; elm öyrənmək və fəqihlik, cavanmədrlik qaydaları və s. haqqında son dərəcə ibrətamiz fikirlər, qənaətlər öz ifadəsini tapmışdır. Həmin qaydalarla tanışlıq və onların yerinə yetirilməsi şəxsiyyətin inkişafına, təşəkkül tapıb formalaşmasına son dərəcə müsbət təsir göstərir.

"Qabusnamə"nin "Ata-anaya hörmət" fəslində valideyn haqqının övlad tərəfindən sözsüz yerinə yetirilməsi vacib sayılır. Bu xüsusda deyilir: "Ağlı başında olan hər övlad heç vaxt ata və ana haqqını unutmaz. Ata və ana sənin əsl böyüdənin və tərbiyə verənindir, sən onların haqqını ödəməklə kahıllıq göstərsən, bu ona dəlalət edər ki, sən heç bir yaxşılığa layiq deyilsən. Qədir bilməyən adama yaxşılıq etmək nadanlıqdır" (1, s. 32).

Ata və ananın qəlbini incitməmək, onların ürəyinə toxunmamaq da övlad-valideyn münasibətlərində əsas götürülürdü.

Əsərdə göstərilir ki, "öz övladlarının sənə qarşı necə olmalarını arzulayırsansa, sən də öz ata və anana qarşı elə ol. Sən səni doğanla necə rəftar edibsənsə, səndən doğulan da səninlə elə rəftar edəcəkdir" (1, s.34).

Çox düzgün qənaətdir. Hörmət – hörmət gətirər, nifrət – nifrət. Uşaq böyüklərin nümunəsində tərbiyə alır. O, valideynlərinin öz ata-analarına münasibətini (yaxşı və yaxud pis) görərək, bundan ibrət götürür. Odur ki, nümunə yaxşı olmalıdır, ibrətli olmalıdır.

Bu xüsusda "Qabusnamə"də özünə yer almış aşağıdakı fikir də qiymətlidir: "Övlad meyvəyə bənzər, ata-ana isə ağaca! Ağaca nə qədər çox xidmət etsən, o qədər onun meyvəsi yaxşı və gözəl olar, ata-anaya da nə qədər çox hörmət edib onlardan utansan, o qədər də onların sənin haqqındakı duaları tez müstəcəb olar, sən həm Allah yanında, həm valideynin yanında üzüağ olarsan" (1, s. 34).

Qabus Vəşmgir bir sənətin qulpundan yapışmağı, hər hansı bir peşəyə sahib olmağı hər bir şəxsə tövsiyə edirdi. Sənətə yiyələnməməyin insan üçün ağır olacağını bildirirdi. Bu, özünü ailə həyatında, cəmiyyətdə tutacağı mövqedə özünü göstərəcəkdi. Sənəti olmayanın, əməklə ülfət bağlamayanın ailəsində problemlər yaşanacaq, o şəxs cəmiyyətdə hörmət və nüfuz qazanmayacaqdır. Odur ki, "Qabusnamə"də deyilir: "Bədənini elm və sənət kəsb etməyə öyrət. Elm və sənət öyrənmək, istər böyük olsun, istərsə kiçik, hamıya vacibdir, çünki insan öz tay-tuşları arasında üstünlüyü yalnız elm və sənətə görə əldə edə bilər (1, s. 40)...Oğul, bil və agah ol ki, sənəti olmayan adamlar gövdəsi olub kölgəsi olmayan Muğilan (*Ərəbistan çöllərində bitən tikanlı bitki, kol – L.M*) ağacı kimi faydasız olarlar və nə özlərinə xeyir verərlər, nə başqalarına... Pisi odur ki, nə cövhərin ola, nə hünərin! (1, s. 35)...Bilik əldə edib sənət öyrənmək, bədəni tənbəllik xəstəliyinə tutmağa qoymamaq çox faydalıdır" (1, s. 42).

Qabus Vəşmgir savad almağı, elm kəsb etməyi lazım bilirdi. O, böyüklüyü mərifət və bilikdə görürdü. Odur ki, "Qabusnamə"də yazılıb: "Bil ki, sən ata-ananın şan və şöhrəti ilə kifayətlənməməlisən, çünki o, xarici bəzəkdir. Əsl ad-san ona deyərlər ki, onu öz istedad və bacarığınla əldə etmiş olasan, bu zaman səni "Zeyd", "Cəfər", "əmi", "dayı" əvəzinə "müəllim", "alim", "fəqih", "həkim" çağırırlar" (1, s. 35).

Qabus Vəşmgir oğluna müraciətlə deyirdi ki, o, bilmədiyi şeyləri öyrənməlidir, çünki bunun ona iki faydası olacaqdır: ya bildiyi şeyi təcrübədən keçirmiş olacaq, ya da bilmədiyi şeyi öyrənəcəkdir. Diqqət yetirək: "Oğlum, sən bilik yollarını tapmalısan, elə etməlisən ki, hansı vəziyyətdə olursansa ol, bir saatın belə elm öyrənmədən boş keçməsin; axı biliyi nadanlardan da öyrənmək olar (1, s. 40) .

Əsərdə nitq mədəniyyətinə yiyələnməyin, sözü yerində deməyin, faydasız danışmamağın zəruri olduğuna diqqət yönəlir. Eyni zamanda, yalan danışmamaq məsləhət görülür: "Sözü yerində deməyi bil, çünki yersiz deyilən söz nə qədər gözəl olsa, yenə də çirkin görünər. Faydasız sözlərdən həmişə ziyan gələr. Yalan iyi verən və hikmət ətri saçmayan sözlər deyilməsə, daha yaxşıdır" (1, s. 37).

"Qabusnamə"də insanlar yaxşı (xeyirxah) və pis (zərərli) olmaqla iki qismə ayrılır. Yaxşılıq etməyi vacib sayır ("Yaxşılıq etməkdən peşman olma, çünki yaxşılıq və pisliyin mükafatı sənə hələ bu dünyada, o dünyaya getməmişdən əvvəl çatacaqdır", "Nə qədər bacarırsansa, yaxşılığı heç kəsdən əsirgəmə, yaxşılıq axırda bir gün öz bəhrəsini verəcəkdir"), fəqət pis adamlara münasibətdə yaxşılığı məsləhət bilmir: "Şoranlıqda toxum əkmə ki, bar verməz, əməyin hədər gedər, yəni namərd adama yaxşılıq etmək şoranlığa toxum atmaq kimi şeydir" (s. 37).

Qabus Vəşmgir müsbət mənəvi keyfiyyətlər sırasında ədalətliliyi təqdir edirdi (“Bütün işlərdə ədalətli ol, çünki özü ədalətli olanın qazıya ehtiyacı olmaz”).

“Qabusnamə” intolerantlığa (hövsələsizlik, səbirsizlik, təmkinsizlik, dözümsüzlük) qarşı idi, insanları tolerant (dözümlü, təmkinli, səbirli, hövsələli) olmağa çağırırdı. Qabus Vəşmgir tələsib özündən çıxmağı heç xoşlamırdı. Belə şəxslər axırda peşman olurlar. Əsərə müraciət edək: “Tündxasiyyət olub özündən tez çıxmağa adət etmə, bir az da helmin olsa yaxşıdır, lakin o qədər yumşaq olma ki, səni çox yumşaq və həlim olduğun üçün hop eləyib udsunlar, o qədər də sərt olma ki, sənə salam verməyə də qorxsunlar. Hamı ilə yola getməyi bacar, bu üsulla həm dostdan, həm də düşməndən istifadə edib arzuna çata bilərsən” (1, s. 43).

Yuxarıdakı iqtibasdan hansı nəticəyə gəlmək mümkündür? Bu suala cavab verməyə çalsaq:

1. Tündxasiyyət olmağın ziyanı göstərilir.
2. Səbirli, hövsələli olmaq məsləhət bilinsə də, bunun qədərini bilmək məsləhət görülür. Hər şeyə dözmək də xeyir gətirmir. Bundan sui-istifadə oluna bilər.
3. Çox sərtlik də lazım deyil.
4. Deməli, orta hədd gözlənilməlidir.

“Qabusnamə” insanlarda özünü büruzə verən özünüöymə, lovğalıq, özündənbədgümanlıq, xudpəsəndlik hallarını pisləyirdi. Bu xüsusda əsərdə deyilir: “Özünü hamıdan bilikli hesab etmə, elə ki, özünü bilməyən hesab etdin, bilən olarsan, əsl bilən ona deyərlər ki, bilmədiyini bilə. Nə qədər böyük alim olsan da, öz biliyinlə qürrələnmə, öhdəsindən gələ biləcəyin işlərdə də öz rəyin haqqında böyük fikirdə olma, özləri haqqında böyük fikirdə olanlar həmişə peşmançılıq çəkərlər” (1, s. 44).

Dərin və mənalı fikirlərdir. Fəqət bir sıra hallarda heç də hamı bunu aydın dərk etmək istəmir.

Qabus Vəşmgir insanların söz anlamağı və söz deməyi bacarmalı olduğuna diqqəti yönəldirdi. Öz dilini saxlamağı hər bir kəsə tövsiyə edirdi. Sözlə bağlı “Qabusnamə”dəki aşağıdakı fikirlər son dərəcə diqqətəlayiqdir: “Sözün dalına-qabağına fikir vermək lazımdır, dediyin sözü ən gözəl tərzdə demək lazımdır ki, həm söz anladan olasan, həm söz anlayan. Əgər dediyin sözü anlamasan, səninlə tutuquşunun nə fərqi var? O da söz deyə bilir, lakin söz anlayan deyildir. Söz anlayan ona deyərlər ki, onun da sözünü başqaları anlasın, belələri ağıllı adamlar hesab edilər; əks halda insan deyil, heyvan zümrəsindən sayılarlar” (1, s. 49).

Böyüməkdə olan nəslin, gənclərin müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsi işinə hazırlanmaları baxımından “Qabusnamə”dən faydalanmaq məsləhətdir. Kitabda xüsusi fəsillər vardır: “Evlənmək haqqında”, “Övlad tərbiyə etmək və onların qaydaları haqqında”, “Qonaq etmək, qonaq getmək və onların şərtləri haqqında”, “Yuxu və istirahət haqqında”, “Ev və torpaq almaq haqqında” və s.

“Evlənmək haqqında” fəslində oxuyuruq: “Arvad alanda malına görə alma, çox gözəlini də axtarma, gözəlliyə görə məşuqəni seçərlər. Arvad ismətli, namuslu, dindar, evdar, ərini sevən, həyalı, təmizkar, başıaşağı, əlidüz, malyığan olmalıdır. Mehriban olmayan, ev dolandırmağı bacarmayan arvaddan qaç” (1, s. 113).

Nə deyə bilərik? Sadalananlar evin gəlini üçün arzuolunan keyfiyyətlərdir.

Əsərdə gənclərə məsləhət görülür ki, arvadı yaxşı ailədən alsınlar. Onun kimin qızı olduğunu bilmək lazımdır. Həm də göstərilir ki, həyat yoldaşı kimi seçilmiş qız gərək tam həddi-buluğa çatmış, ağıla-kamala dolmuş olsun.

Bu, çox düzgün qənaətdir. Yaxşı haldır ki, Qabus Vəşmgir hələ XI əsrdə bu qənaətə gəlmişdir. Bir çox hallarda azyaşlı qızları ərə verirlər. Bu hala respublikamızın bəzi rayonlarında da yol verilir. Həddi-buluğa çatmış qız “atasının və anasının necə ev saxladığını, necə ev dolandırdığını görmüş olsun. Beləsini tapsan, ehmallıq etmə, tez elçi göndər” (1, s. 114).

“Qabusnamə”də qısqanclıq təqdir olunmur, qısqanclığın fəsadları diqqət mərkəzinə gətirilir. Diqqət yetirək: “Çalış qısqanma, qısqanacaqsansa, heç evlənmə” (1, s. 114).

Əsərdə kişilərin qeyrətli olmaları xüsusi tələb kimi irəli sürülür (“Qeyrət şərtlərini yerinə yetir, qeyrətsiz kişini adam hesab etmə. Kişinin qeyrəti olmasa, onun məsləki də olmaz” (1, s. 115).

“Qabusnamə”də, qeyd etdiyimiz kimi, övlad tərbiyə etmək və onların qaydalar haqqında da faydalı fikirlər vardır. Fəsildə uşaqlara elm və sənət öyrətməyin (“Elm alıb sənət öyrənmək övladın haqqıdır”), onlara yaxşı tərbiyə verm-

yin ("Övlad üçün tərbiyədən yaxşı miras yoxdur") vacibliyindən söz açılır.

Əsərdə qız tərbiyəsi xüsusi diqqət mərkəzindədir. Fikir verək: "Övladın qız olsa, onu həyalı bir dayəyə tapşır, böyüyəndə ona bir müəllim tut" (1, s. 119). Göründüyü kimi, Qabus Vəşmgir hələ on birinci yüzillikdə qızların təhsilini məqsədəuyğun hesab edirdi.

"Qabusnamə"də qızlara xüsusi qayğı göstərilməsi diqqət mərkəzindədir, onların ailə həyatına hazırlanmasına da fikir verilir. Valideynlərə müraciətlə deyilir: "Nə qədər ki, sənin evindədir, onunla mehriban dolan, çünki qızlar ata və analarının əsiri olarlar, qız yazıq olar, hər nəyin varsa, əvvəlcə qıza xərclə, onun işlərini düzəlt, onu ərə ver... qız satan olma, onda kürəkən də mürvətli olub, öz insanlığını yerinə yetirər" (1, s. 120-121).

Gördüyümüz kimi, hələ o zamanlar qızlara görə başlıq alınmasına qarşı çıxılırdı. Bu, son dərəcə müsbət hal idi.

"Qabusnamə" ilə tanışlıqdan məlum oldu ki, o, həmişə tərbiyəedici, təhsilləndirici vəzifələrini özündə saxlayır.

**Problemin aktuallığı.** Şərqin sənət abidələrinin tədqiqi zəruridir. Bu məqalənin aktuallığı onunla önəmlidir ki, "Qabusnamə"də tərbiyəvi fikirlər araşdırılaraq qruplaşdırılmışdır.

**Problemin elmi yeniliyi.** "Qabusnamə"də tərbiyəvi fikirlər diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Qabusnamə. Bakı: Şərq-Qərb, 2006.

**E-mail**: lale23@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 17.01.2022

**UOT 37.0**

***Rafael Mail oğlu Əliyev***
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin baş müəllimi*
*https://orcid.org/ 0000-0001-9702-265X*
*https://doi.org/10.5281/zenodo.6445822*

# MƏHƏMMƏDAĞA ŞAHTAXTLININ PEDAQOJİ-MAARİFÇİLİK FƏALİYYƏTİ

***Рафаэль Маил оглы Алиев***
*старший преподаватель*
*Азербайджанского Государственного Университета Нефти и Промышленности*

# ПЕДАГОГИЧЕСКАЯ И ПРОСВЕТИТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ МУХАММЕД-АГА ШАХТАХТИНСКОГО

***Rafael Mail Aliyev***
*senior lecturer at Azerbaijan State University of Oil and Industry*

# PEDAGOGICAL AND ENLIGHTENING ACTIVITY OF MUHAMMAD AGHA SHAHTAKTLY

**Xülasə.** Məhəmmədağa Şahtaxtlı XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycanda maarifçilik hərəkatının ən görkəmli nümayəndələrindəndir. Onun Avropada təhsil alması, Avropa mədəni həyatını dərindən öyrənməsi, Şərq mədəniyyətinin zənginliklərinə bələdliyi bir maarifçi kimi fəaliyyətinə əsaslı təsir etmişdir. Azərbaycanda yeni tipli məktəblərin yaranması, dərsliklər, proqramlar hazırlanması sahəsində qətiyyətli addımları, əlifba islahatları ilə bağlı çıxışları, dil saflığı uğrunda mübarizəsi bir məqsəd olaraq bütün fəaliyyəti boyu müşahidə olunur. M. Şahtaxtlı məhz bu zəngin və çoxşaxəli fəaliyyəti ilə Azərbaycan pedaqoji fikir tarixinə adını şərəflə yazmışdır.
***Açar sözlər:*** *M. Şahtaxtlı, pedaqoji fikir tarixi, əlifba islahatları, Azərbaycan dili, maarifçilik hərəkatı, dərsliklər*

**Резюме.** В конце XIX века, начале XX века Мухаммед-ага Шахтахтинский был одним из видных представителей движения просвещения в Азербайджане. Образование, полученное в Европе, глубокое изучение культуры Европейской жизни, интерес к богатой Восточной культуре оказало огромное влияние на него, как на просветителя. Появление новых типов школ в Азербайджане, внушительные действия при подготовке таких сфер как руководства и программирования по алфавитной реформе, борьба за языковую чистоту – все как единая цель, прослеживается в течении всей его жизни. Всем этим богатством и многосторонними действиями М. Шахтахтинский вписал свое имя с честью в историю педагогики.
***Ключевые слова:*** *М. Шахтахтинский, история педагогического мнения, преобразования алфавита, Азербайджанский язык, просветительское движение, учебник*

**Summary.** M. Shahtakhtli was one of the most prominent representatives of enlightenment movement in Azerbaijan during the end of XIX century and the beginning of the twentieth century. Getting European education, studying European cultural life in detail, being acquainted with the richness of the East culture impasted his activity as an enlightenment. His decisive steps in the construction of a new type of schools in Azerbaijan; making textbooks, programs and his speeches related to the reforms in the alphabet, his struggle for the language purity are observed during all his activity. M. Shahtaktli is a researcher who actualized serious explorations as a linguist and pedagogue. Namely with this rich and varied activity, M. Shahtakhtli wrote his name on the history of pedogogical ideas of Azerbaijan pridely.
***Key words:*** *M. Shahtakhtlı, history of pedagogical ideas, alphabet reforms, the Azerbaijan language, enlightenment movemlent, textbooks*

XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycanın ictimai-mədəni həyatında böyük zənginliklərlə səciyyələnir. A. Bakıxanovdan, İ. Qutqaşınlıdan, M.Ş. Vazehdən başlanğıcını götürən yeniləşmə M.F. Axundovun zəngin fəaliyyəti ilə yeni sferaya daxil oldu. H. Zərdabi, M. Şahtaxtlı, İ. Qasprinski, Y. Akçuar, Ə. Hüseynzadə, Ə. Ağayev, Z. Göyalp, Y.V. Çəmənzəminli, Ü. Hacıbəyov, C. Məmmədquluzadə, H. Zeynallı, S. Hüseyn, M.Ə. Sabir, S. Mümtaz, S.M. Qənizadə, M. Mahmudbəyov, E. Sultanov, T. Bayraməlibəyov və başqaları tərəfindən uğurla davam etdirildi. Bu dövrdə təhsil, məktəb, əlifba, qadın azadlığı, dərslik və proqramların hazırlanması, yeni tipli təhsil sisteminin yaradılması bir problem olaraq mədəni mühitin qarşısında duran məsələlərdən idi. Məhəmmədağa Şahtaxtlı da məhz geniş dünyagörüşlü bir ziyalı kimi bu hərəkatın öncüllərindən olmuş, canlı fəaliyyətinin mühüm bir hissəsini bu yolda mücadiləyə həsr etmişdir.

Görkəmli ictimai xadim, maarifçi, publisist Məhəmmədağa Şahtaxtlı (1846-1931) Azərbaycana Qərb maarifçiliyini gətirən tək-tək şəxsiyyətlərdəndir. Qərblə Şərqi yaxınlaşdırmaq kimi böyük ideallara köklənən və bu yolda yorulmadan mübarizə aparan böyük ədib xalqın maariflənməsi, mədəni təbəqəsinin yüksəlişi üçün bütün sınaqlardan keçmişdir. "Bu nəhəng şəxsiyyətin Azərbaycana Qərb maarifçiliyi ənənələrini gətirmək, doğma xalqını Şərq fanatizmindən xilas etmək, Qərblə Şərqi yaxınlaşdırmaq kimi böyük vəzifələrin həyata keçirilməsinə təkbaşına etdiyi xidmət həmin amala ömür sərf etmiş bütöv bir ziyalı nəslinin fəaliyyətinə bərabərdir. Avropalılar üçün o tanınmış "Şərq mənşəli siyasətçi", ruslara görə millətin cəsarətli müdafiəçisi, Azərbaycan baxımından isə Avropa qiyafəli Şərq oğlu idi" (3, s. 3).

Məhəmmədağa Şahtaxtlı XIX-XX əsrlərin ən görkəmli azərbaycanşünaslarından biridir. Görkəmli dilçi alim F. Ağazadə keçən əsrin əvvəllərində M. Şahtaxtlını zəngin fəaliyyətinə, dil saflığı uğrunda ardıcıl mübarizəsinə görə "bu dövrün ən böyük heykəli Məhəmmədağa Şahtaxtlıdır" deyirdi (1, s. 15). Almaniyanın Leypsiq universitetində təhsil alarkən o, fransız, fars, ərəb dillərini mükəmməlliklə mənimsəmiş, yunan və Roma mədəniyyətinin böyük nümayəndələrinin, eləcə də Avropa klassiklərinin əsərlərinə xüsusi maraq göstərmişdir. Avropada məşhur şərqşünas, "Ərəb ensiklopediyası", "Ərəb tarixi" və s. əsərlərin müəllifi, Leypsiq universitetinin professoru Qustav Lebrext Flügel onun istedadını, güclü yaradıcı qabiliyyətini, dil məsələləri ilə bağlı orijinal mülahizələrini görüb yüksək qiymətləndirmişdir. O, Sarbon universitetinin Ali Təcrübi Təhsil məktəbində professor Pol Passinin rəhbərliyi ilə təcrübi fonetika laboratoriyasında dilçiliyə dair biliklərini zənginləşdirmiş, Falesin, Platonun, Pindarın, Demokritin, Sokrat və Aristotelin natiqlik sənəti ilə bağlı mülahizələrini dərindən mənimsəmişdir. Leypsiq universitetinin professoru Q.L. Flügeli M. Şahtaxtlı güclü mühakimə qabiliyyəti, böyük istedadı və bacarığı ilə heyrətə salmışdı.

Hələ "həyatının Fransa dövründə Məhəmmədağa Şahtaxtlı Parisdə fəaliyyət göstərmiş Beynəlxalq Fonetika Cəmiyyətinin və Asiya Cəmiyyətinin üzvü seçilmiş, bu cəmiyyət vasitəsilə həm fransız maarifçiləri, həm də ümumən Avropa alimləri ilə yaxından tanış olmuşdur" (3, s. 3). Bu tanışlıq ciddi məqsədə, Avropada gedən yeniləşməni mənimsəməyə və xalqını bu yeniləşməyə qoşulmaq düşüncəsinə köklənmişdi. Ona görə də "Avropaya baxış" məqaləsində ürək yanğısı ilə yazırdı: "Əgər biz ziyalı müsəlmanlar xalqımızın həyati mənafeyi naminə məktəbdən və canlı mətbuatdan, sözdən istifadə edərək hər şeydə Avropa baxışı, elmi görüşü təbliğ etsək, onda öz xalqımızı mədəni xalqlar arasına cəlb etmiş olarıq" (4). Görkəmli maarifçinin bütün elmi-pedaqoji fəaliyyətinin əsasını məhz xalqın gələcək taleyi, maariflənmə mücadiləsi təşkil edirdi. Hələ Fransa mətbuatında çap etdirdiyi "Əlifba və mədəniyyət", "Biz nə haqda düşünürük", "Şərq böhranı" məqalələrində problemlərin aktuallığını və həlli yollarını təhlil etmişdi. Onu da əlavə edək ki, "yeni mərhələdə Məhəmmədağa Şahtaxtlı əsasən iki sahə üzrə ciddi və sanballı xidmətlər göstərmişdir. Əlifba və mətbuat. Əlifba məsələsi ilə Məhəmmədağa Şahtaxtlı hələ Fransada ikən məşğul olmuşdu. Parisdə Beynəlxalq Fonetika Cəmiyyətinin iclaslarında iştirak edərkən o, Avropa alimlərinin öz ölkələrinin inkişafı naminə vahid latın əlifbasına keçmələri üçün etdikləri təşəbbüslərin şahidi olmuşdu. Buna uyğun olaraq M. Şahtaxtlı da

mənsub olduğu xalqın dirçəlişini təmin etmək məqsədilə əlifbanın daha da sadələşdirilməsi və Azərbaycan dilinin tələffüz xüsusiyyətlərinə uyğunlaşdırılması işinin zəruriliyi qənaətinə gəlmişdi" (3, s. 3).

XIX əsrin sonu XX əsrin əvvəllərində maarifçi ziyalı mühitinin apardıqları mədəni hərəkat xalqın maariflənməsinə, mədəni səviyyənin yüksəlməsinə, dil məsələlərinin, əlifba probleminin həllinə hesablanmışdır. M. Şahtaxtlı da öz sələflərinin həyata keçirməyə çalışdığı ideyaların gərəkliyini başa düşmüş və Avropada gedən yeniləşməni dərk edib bu hərəkata qoşulmuşdu. M. Şahtaxtlı artıq yeniləşmənin, yeni dünya ilə ayaqlaşmağın gərəkliyini sistemli şəkildə qaldırırdı. Şərq və Avropa mədəniyyətinə, dil sisteminə dərindən bələd olan, Avropanın universitetlərində dildən mühazirələr deyən M. Şahtaxtlının mücadiləsi dilin təmizliyi, saflığı və dərsliklərdə onun müntəzəm həyata keçirilməsi ilə bağlı idi. Əlbəttə, bu mübarizədə o müəyyən çətinliklərlə, mühafizəkarların güclü təzyiqi ilə qarşılaşırdı.

M. Şahtaxtlı bütün məsələləri konkret nümunələrdən çıxış etməklə qurur və maariflənmənin bütün problemlərin həlli üçün əsas olduğunu vurğulayırdı. "Şərqi-Rus" qəzetinin 29 avqust 1904-cü il (№ 148) sayında isə məsələnin türk dilləri səviyyəsində qoyuluşuna diqqət yetirilir. "Bu dəfə dilimizdən danışacağız. Rusiyada yaşayan müsəlmanların çoxusu türk və tatar qövmünə mütəəlliqdir. Türk dili ki, bu qövmlər danışırlar ümdə iki qismə bölünür:

Biri şərqi, biri qərbi. Şərqi türkcəsi cığatay dilidir ki, onun ilə Qazan türkcəsinin arasında fərq pək azdır. Hər ikisi bir dildir, bir ləhcədir. Ancaq aralarında bəzi kəlmələrin tələffüzcə cüzi fərq var. İsim və fellərin elalı isə hər iki ləhcədə birdir...

Qərbi türkcə Osmanlı ilə Azərbaycan türkcəsidir. Osmanlı türkcəsi ilə Azərbaycan türkcəsinin arasında, demək olar ki, heç bir fərq yoxdur" (2). Əlbəttə, bu müqayisələr və müxtəlifyönlü təhlillər "Şərqi-Rus" qəzetinin səhifələrində sözə, dil məsələlərinə, nitq mədəniyyətinə bir problem olaraq ciddi və davamlı yanaşıldığını göstərir. Qəzetin nəzdində yaradılan hazırlıq kurslarında və qəzetin mətbəəsində nəşr olunan dərsliklərdə də bu məsələlərə xüsusi önəm verylirdi.

M. Şahtaxtlının əlifba layihələri hazırlaması, 1902-1903-cü illərdə əlifba məsələsi ilə bağlı Azərbaycan, rus və fransız dillərində beş kitab çap etdirməsi problemin həlli istiqamətində işlərin məqsədyönlülüyünü aydınlaşdırırdı. "Dərdimiz və dərmanımız", "Azərbaycanda darülfünun", "Yazı və yainki ədəbi dilimizin əskiklikləri", "Türkcəmizi həqiqətdə türkcə etmək", "Azərbaycan əlifbasının tətbiq etməyə başladığı latın əlifbası münasibətilə", "Школьная жизнь у мусульман" və s. əsərləri özünün aktuallığı ilə ədəbi-mədəni mühitin xüsusi marağında olmuşdur. M. Şahtaxtlı bütün fəaliyyəti boyu məhz ana dili, əlifba, təhsil, məktəb, qadınların təhsil alması kimi vacib məsələləri qaldırırdı. Özü də "Şərqi-Rus" qəzetində bu məsələlərlə bağlı yazılara xüsusi yer verirdi. Hətta dərsliklərin hazırlanması və çapı işi də mətbəədə aparılırdı.

M. Şahtaxtlı bir vətənpərvər ziyalı kimi mənsub olduğu xalqın dirçəlişini təmin etmək məqsədi ilə müxtəlif vasitələrə əl atır, etnosun maariflənməsi sahəsində sözün həqiqi mənasında mücadilə edirdi. Onun hazırladığı əlifba layihələri, ərəb əlifbasının qüsurlarını konkret nümunələr əsasında şərh etməsi, müxtəlif variantların müzakirəyə təqdimi və bu sahədəki elmi-konseptual xarakterli yazıları bu gün özünün problem aktuallığı ilə diqqəti cəlb edir. Bütün bunların müqabilində təkrarən bir sual doğur ki, "Kimdir Məhəmmədağa Şahtaxtlı? O, ilk növbədə, görkəmli dilçi alimdir. Onu Avropada, Rusiyada və Azərbaycanda mükəmməl linqvist – şərqşünas kimi qəbul etmişlər. Bəlkə də o, nəinki Qərbdə, hətta bütün dünyada ən çox xarici dil bilən yeganə şərqşünasdır. Mükəmməl yiyələndiyi xarici dillər ona Şərq və Qərb mədəniyyətlərini sintez halında mənimsəməyə və dəyərləndirməyə imkan yaratmışdır. Bu mənada Məhəmmədağa Şahtaxtlı Qərb üçün dərk olunmuş Şərq, eyni zamanda, Şərqdən ötrü millətpərvər və maarifçi Qərb idi... Görkəmli şərqşünas Mirzə Kazımbəyin Azərbaycan baxımından gördüyü işi Avropada Məhəmmədağa Şahtaxtlı həyata keçirmişdir" (3, s. 3).

Göründüyü kimi, M. Şahtaxtlının yaradıcılığı, onun elmi-nəzəri mülahizələri, bütünlükdə fəaliyyəti Azərbaycan xalqının maariflənməsinə, ərəb əlifbası ilə bağlı çətinliklərin dərkinə və onun həlli məsələsinin vacibliyinə hesablanmışdır. Bütün bunlar M. Şahtaxtlının problemi bütün tərəfləri ilə dərk etdiyini və onun elmi,

nəzəri, praktik baxımdan həllini doğru müəyyənləşdirdiyini göstərir. Beləliklə, bu böyük maarifçi sələflərindən başlayan mücadilənin ən istedadlı nümayəndələrindən biri kimi XIX əsrin sonu, XX əsrin əvvəllərində etnosun taleyi ilə bağlı köklü problemlərin həllində əvəzsiz töhfələrini vermişdir.

**Problemin aktuallığı.** M. Şahtaxtlının yaradıcılığı, elmi-pedaqoji fəaliyyəti, hazırladığı əlifba layihələri və dil məsələləri, Azərbaycan xalqının maariflənməsinə yönəlmiş elmi-nəzəri mülahizələri bu gün özünün problem aktuallığı ilə diqqəti cəlb edir.

**Problemin elmi yeniliyi**. M. Şahtaxtlı Azərbaycan maarifçiliyinin ən görkəmli simalarındandır. Onun məqsədyönlü fəaliyyəti xalqın mədəni səviyyəsinin yüksəlməsinə, dil məsələlərinin həllinə, əlifba probleminin aradan qaldırılmasına yönəlmişdir. Bütün bunlar XIX əsrin sonu, XX əsrin əvvəllərindəki mədəni hərəkat kontekstində ciddi faktura ilə səciyyələnir.

**Problemin praktik əhəmiyyəti.** M. Şahtaxtlının maarifçilik fəaliyyətində mühüm bir hissəni məktəb, təhsil, elm, əlifba, dil məsələləri ilə bağlı sistemli təhlilləri təşkil edir. Bu fikirlər Azərbaycan xalqının XIX əsrin sonu, XX əsrin əvvəllərindəki mənzərəsini, ziyalı mühitini narahat edən problemləri aydınlaşdırmaq üçün əsaslı mənbədir. Böyük maarifçinin bu istiqamətli mülahizələri ayrıca bir tədqiqatın mövzusudur.

**Ədəbiyyat:**


1. Ağazadə F. Nə üçün ərəb hürufatı türk dilinə yaramır. -Bakı, -1922.
2. “Şərqi-Rus” qəzetinin 29 avqust 1904, (№ 148).
3. Həbibbəyli İ. Millətin canlı heykəli. Məhəmmədağa Şahtaxtlı. Seçilmiş əsərləri. -Bakı, Çaşıoğlu, -2006, s.3, -432 s.
4. Шахтахлы М. Взгляд на Европу. Кавказские вести. -Тифлис, -1906, № 9.
5. Şahtaxtlı M. Seçilmiş əsərləri. –Bakı: Çaşıoğlu, -2006, -432 s
6. Şahtaxtlı M. Dərdimiz, dərmanımız. “Şərqi-Rus” qəzeti, 1903, 13 aprel.


**E-mail:**adnsu61@mail.ru

**Rəyçi**: *filol.ü.elm.dok.,prof.* **A. Ağayeva**
**Redaksiyaya daxil olub:** 24.01.2022.

**UOT 37.0**

***Adilə Həsən qızı Nəzərova***
*filologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*
*https://orcid.org/0000-0002-4340-6882*
*https://doi.org/10.5281/zenodo.6448037*

# İMADƏDDİN NƏSİMİNİN HƏYAT VƏ YARADICILIĞI ÜMUMTƏHSİL MƏKTƏB PROQRAM VƏ DƏRSLİKLƏRİNDƏ

***Адиля Гасан гызы Назарова***
*доктор философии по филологии,*
*ведущий научный сотрудник Института*
*Образования Азербайджанской Республики*

# ЖИЗНЬ И ДЕЯТЕЛЬНОСТЬ ИМАДЕДДИНА НАСИМИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛЬНЫХ ПРОГРАММАХ И УЧЕБНИКАХ

***Adila Hasan Nazarova***
*doctor of philosophy in philology,*
*leading researcher of the Institute of*
*Education of the Republic of Azerbaijan*

# LIFE AND WORK OF IMADEDDIN NASIMI IN GENERAL EDUCATION SCHOOL PROGRAMS AND TEXTBOOKS

**Xülasə.** Nəsiminin əsərləri öz dövründə alimlər, ustad müəllimlər və xüsusilə də öz müridləri tərəfindən təbliğ və tədris olunurdu. Bu proses XX əsrin əvvəllərinə qədər davam etmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra məktəb təhsil sistemi yaradılmış və 1940-cı ildən Nəsimi yaradıcılığı tədris olunmağa başlamışdır. Müstəqillik dövründən başlayaraq şairin həyat və yaradıcılığı 7-9-cu siniflərdə geniş şəkildə tədris olunur.
***Açar sözlər:*** *məktəb və mədrəsə, təlim-tərbiyə, fəlsəfi sistem, dini cərəyan*

**Резюме.** Работы Насими пропагандировались и преподавались учеными, мастерами и особенно его мюридами (послушниками). Этот процесс продолжался до начала XX века. После установления советской власти в Азербайджане была создана система школьного образования, и в 1940 году преподавалось искусство Насими. С момента обретения независимости жизнь и творчество поэта широко изучаются в 7-9 классах.
***Ключевые слова:*** *школа и медресе, образование, философская система, религиозное течение*

**Summary.** Nasimi's works were promoted and taught by scholars, masters and especially his disciples. This process lasted until the early twentieth century. After the establishment of the Soviet government in Azerbaijan, a school education system was established and in 1940 Nasimi's art was taught. Since independence, the poet's life and work have been widely taught in grades 7-9.
***Key words:*** *school and madrasa, education, philosophical system, religious movement*

Azərbaycanda məktəb təhsili tarixi ərəblərin Azərbaycanı istila etməsindən sonrakı dövrdən başlanır. Artıq VIII-IX əsrlərdə ölkəmizdə mədrəsələr və qapalı qrup məktəblər fəaliyyət göstərirdi. Bu tədris ocaqlarında ilk illərdə Quran, sonrakı illərdə isə dünyəvi elmlər: riyaziyyat, fəlsəfə, tibb, məntiq, əxlaq, coğrafiya, musiqi və ədəbiyyat tədris olunurdu. Dərs vəsai-

ti kimi daha çox yunan dilindən ərəb dilinə tərcümə edilmiş əsərlərdən istifadə olunurdu.

XI-XII əsrlərdə məktəblərin və mədrəsələrin sayı artaraq Təbrizdə, Marağada, Naxçıvanda və Gəncədə mərkəzlər yaradılmağa başlamışdı. İlkin mərhələ olaraq, mollaxana və mədrəsə təhsili, sonrakı mərhələlərdə təhsil pillələrinin əsasını şəxsi mütaliə və fərdi təhsil tuturdu. O dövrdə əxlaqi dəyərlərə sahib olmaq, bu dəyərlərdən faydalanmaq və istifadə etmək ancaq bədii ədəbiyyat oxumaqla, ustadlardan alınan tərbiyə dərslərilə qazanıla bilərdi ki, bu da hər zaman bütün yaradıcı adamların, xüsusilə söz sənətkarlarının yönəldiyi istiqamət olmuşdur. Nəsimi də uşaqlıq və gənclik illərində belə bir mərhələdən keçmişdir. *"Öz dövründə məktəb və mədrəsələrdə tədris edilən zəruri biliklərə əsaslı yiyələnən Nəsimi, öz doğma Azərbaycan dilini, şifahi xalq ədəbiyyatını da mükəmməl öyrənmiş, şeir və mənzumələrində bunlara yer ayırmışdır. Nəsiminin əsərlərindən aydın olur ki, o, Mənsur Həllacın, Fəzlullah Nəiminin mübariz ruhunu, Sədi Şirazinin, N. Tusinin təlim-tərbiyə ideyalarını qəbul etmiş, onlardan bəhrələnmişdir. M. İbrahimov qeyd edir ki, bu işdə "Şamaxıdakı şairlər və üləmalar məclislərinin, həmçinin Nəsiminin müəllimlərinin də təsiri az olmamışdır. Onlar uşaq çağlarından Nəsimidə gözəl sözü duymaq, sevmək həvəsi, zövqü tərbiyə edə bilmişlər".* (3, s.109)

Nəsimi özündən əvvəlki müəlliflərin əsərlərindən öyrənirdisə, Nəsimidən sonra gələn nəsillər artıq onun əsərlərindən bəhrələnirdilər. Şairin əsərləri alimlər, ustad müəllimlər və xüsusilə də öz müridləri tərəfindən təbliğ və tədris olunurdu. Bu proses uzun müddət, dəqiq desək, XX əsrin əvvəllərinə qədər davam etmişdir.

Azərbaycanda sovet hakimiyyətini qurulması ilə məktəb təhsil sistemi də yaradıldı və bir çox fənlər kimi, ədəbiyyat fənninə dair proqram və dərsliklər tərtib edildi. Belə ki, 1932-ci ildən sonra ədəbiyyat bir fənn kimi orta məktəbin tədris planına daxil edildi (2, s.23). Artıq keçən yüzilliyin 40-cı illərindən başlayaraq Nəsimi yaradıcılığına xüsusi yer verilmiş, 7-9-cu siniflərdə ayrı-ayrı əsərləri, yuxarı siniflərdə isə həyat və yaradıcılığı sistemli şəklidə tədris olunmuşdur.

1942-ci il "Orta məktəb proqramı"nda "Azərbaycan dili və ədəbiyyat" fənninin XVI əsrə qədər Azərbaycan ədəbiyyatı bölümündə Nəsiminin irsinin tədrisi bu məzmundadır: Nəsiminin dövrü və həyatı. XV əsrin sonunda hürufiliyin canlanması. Nəsimi tərəfindən hürufilik ideyasının propaqanda edilməsi. Hürufiliyin fəlsəfi və ictimai kökləri. Nəsimi yaradıcılığında İslam dininə qarşı protest. Bu protestin tarixi yolu. Nəsimi şeirlərinin xüsusiyyətləri. Onun ədəbiyyat tarixində rolu. Nəsiminin dili (2 saat). Ey əzəli can ilə cananımız. (2 saat) Sonrakı illərə aid dərsliklərdə şairin həyat və yaradıcılığı bu istiqamətdə işlənilmiş, "Ağrımaz" qəzəli seçim edilmişdir. 1945-ci ildə F. Qasımzadənin tərtibatı ilə hazırlanmış orta məktəbin 8-ci sinfi üçün Ədəbiyyat müntəxəbatında şairin "Ey əzəli can ilə cananımız", "Dilbəra, mən səndən ayrı ömrü canı neylərəm?", "Məsnəvi (ixtisarla)" və "Sığmazam" əsərləri salınmışdır.

1949-cu ildə 8-ci sinifdə tədris olunan "Ədəbiyyat müntəxəbatı" dərsliyinə şairin ancaq qəzəlləri salınmışdır. Bu ondan irəli gəlir ki, həmin illərdə klassik ədəbiyyata, qəzələ və muğam sənətinə maraq artdığı üçün bu qəzəllərə geniş yer ayrılmışdır.

1955-ci ildə F. Qasımzadənin tərtibatında "Orta məktəbin 8-ci sinfi üçün Ədəbiyyat müntəxəbatı"nda Nəsiminin "Dil bazarçısı" və "Ağrımaz" qəzəlləri ərəb-fars dilində keçən sözlərin lüğəti ilə birgə verilir.

Nəsimi humanist şairdir. Onun bütün şeirləri insanı ilahiləşdirməyə, ucaltmağa xidmət edir. Şairin yaradıcılığının poetikası, ideyası və bədii-estetik cəhətləri, onun ruhunun azadlığından, cəsarətindən, həqiqətyönlüyündən, qorxmazlığından irəli gəlirdi ki, bu da orta əsrlərdə talançılığın bütün sahələrdə tüğyan etdiyi bir vaxtda nadanlığa, cəhalətə qarşı "ənəlhəq" üsyanı idi. "Dil bazarçısı" qəzəlinin öyrədilməsi uşaq və yeniyetmələri düşünmək, müstəqil fikir söyləmək, yalana, saxtakarlığa, haqsızlığa, qaragüruha qarşı cəsarətlə çıxmaq məqsədi daşıyırdı.

Araşdırmalar göstərir ki, XX əsrin I yarımilliyində İ. Nəsimi yaradıcılığına xüsusi önəm verildiyi, onun həyat yolu geniş tədris olunduğu halda, sonrakı on-on beş il ərzində "Ədəbiyyat" dərsliklərində ancaq dövrünün qısa xülasəsi verilir. O da "XIII-XVI əsr Azərbaycan ədəbiyyatı" bölməsində səhifə yarım təqdim olunur.

1960-cı illərin dərsliklərində İ. Nəsimi yaradıcılığına çox səthi toxunulmuşdur. 1960-cı illərdə 8-9-cu sinif dərsliklərinə yalnız "Sığmazam" qəzəli izahsız olaraq salınmışdır. Bu da

həmin illərdə ədəbiyyatın tədrisinə siyasi-ideoloji nəzarətin güclənməsi ilə bağlı idi.

***Haşiyə.*** 1959-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilən Vəli Axundovun Azərbaycana rəhbərlik etdiyi dövr – 1959-cu ilin iyulundan 1969-cu ilin iyulunadək – Sovet İttifaqının, o cümlədən Azərbaycanın həyatında çox gərgin və mürəkkəb bir dövr olub. O zaman Stalinin ölümündən sonra Xruşşovun hakimiyyəti dövründə Sovet İttifaqının həyatında çoxlu dəyişikliklər baş vermişdir. Bu siyasi hadisələr, təbii olaraq, təhsilin təşkilinə, tədrisinə də təsir edirdi.

1963-cü ildə Nəsiminin həyat və yaradıcılığı proqramdan tamamilə çıxarılmışdır. 1964-cü ilin 9-cu sinif "Ədəbiyyat" dərsliyində eynilə 1960-cı ildəki kimi, iki səhifəyə qədər məlumatla kifayətlənilmişdir. *(Ədəbiyyat. 1964, s.47-48).* 1965-ci ilin 9-cu sinif "Ədəbiyyat" dərsliyində yenə də orta dövr klassik şairləri tədris olunub. Təəssüf ki, burada da şairin irsinin öyrənilməsinə yer verilməmişdir.

1969-cu ilin 8-ci sinif "Ədəbiyyat müntəxəbatı"na şairin iki qəzəli salınmış [s.192-193] və 1971, 1973, 1977-ci illərdə bu proqram eynilə saxlanmışdır. Hətta 1981-ci ildə proqramda dəyişiklik edilsə də, yenə də "Dil bazarçısı" və "Ağrımaz" qəzəlləri proqrama daxil edilmişdir.

Bütün bu əsərlər mədəniyyət ocaqlarında, televiziya və radiolarda, qəzet və jurnallarda, eyni zamanda, məktəblərdə təbliğ olunurdu. 1980-ci ilin birinci yarısında Nəsiminin irsi dərsliklərdə nisbətən çox əks olunmağa, şairin həyat və yaradıcılığı daha geniş tədris olunmağa başlamışdır. 1984-cü ilin 8-ci sinif "Ədəbiyyat" dərsliyində Nəsiminin həyat və yaradıcılığı ilə yanaşı, onun ictimai, fəlsəfi qəzəlləri təhlil olunur, dilinin bədii xüsusiyyətləri, əsərlərində işlənən Azərbaycan-türk sözləri nəzərə çatdırılmaqla şairin həyat və yaradıcılığına 12 səhifə yer verilir.

Nəsimidən bəhs edən tədqiqatçılar, onu Azərbaycan ədəbi dil tarixində böyük islahatçı kimi təqdim edirlər. Nəsimi nəinki "islahatçı"dır, hətta ədəbi-bədii dilimizin norma və prinsiplərini, gələcək inkişaf perspektivlərini görüb müəyyənləşdirən və bunu ölməz sənət əsərləri ilə əməli şəkildə həyata keçirən nadir şəxsiyyətdir.

1980-ci illərdə Nəsimi yaradıcılığı bəzi kiçik fərqlərlə tədris olunmuşdur. Belə ki, 1982-ci il VI-X siniflər üçün "Ədəbiyyat" fənni proqramında Nəsiminin dövrü, həyat və yaradıcılığı, lirikası, yaradıcılığında mütərəqqi ictimai motivlər, "Məndə sığar iki cahan..." qəzəli, şeirdə ifadə olunan sosial-siyasi fikir, şairin məğrurluğu, insana verdiyi yüksək qiymət, şeirdə bədii ifadə vasitələri kimi məsələlər, həmçinin "Ağrımaz" qəzəli və onun şairin həyatı ilə bağlılığı, şeirdə lirik qəhrəmanlara məxsus mərdlik, mübarizlik, ideya mətinliyi, dili və vəzni kimi məsələlərin tədrisi qabardılır. Sinifdənkənar oxu üçün isə şairin 5-6 şeirinin oxusu və şair Qabilin "Nəsimi" poemasının öyrənilməsi nəzərdə tutulur.

H. Araslı və H. Eyvazovun tərtib etdikləri 8-ci sinif "Ədəbiyyat" dərsliyi yenidən işlənmiş və təkmilləşdirilmiş Nəsiminin hərtərəfli öyrənilməsi məqsədilə 14 səhifə yer ayrılmışdır. Nəsiminin insan, insan ləyaqətinə, onun qüdrətinə yüksək inamı tərənnüm edilmişdir.

Nəsimi hələ təbiətşünaslığın inkişaf etmədiyi bir zamanda dünya, kainat, təbiət haqqında fikirlərini şeirlərində açıqlamışdır. Nəsimiyə görə "mən" həyatdır, gözəllikdir, kainatdır, bəşəriyyətin taleyidir. Kainatın sirləri insanda gizlidir. Məs:

*Sərvə bənzətdim boyun, şövq ilə dirçəldi göyə,*
*İndi baxsan, tüm ağaclardan ucadır, sevgilim.*
*(4, s.23)*

Bu beytdə şair insanla təbiəti eyniləşdirib. İnsanla sərv ağacını eyni müstəvidə görən Nəsimi hər bir canlının mədh olunmağa layiq olduğunu demək istəyir. Sevilmək, tərif olunmaq, xoş söz eşitmək insanın həm cismən, həm ruhən, həm də işində, əməlində yüksəlməsinə şərait yaradır.

Müstəqillik illərindən başlayaraq, Nəsiminin həyat və yaradıcılığı daha dərindən öyrənilməyə başlanmışdır. Məlum olmuşdur ki, İslamdan sonrakı dövrdə Şamaxıda böyük mədəniyyət mərkəzləri, məktəb, mədrəsə, bütün Şərqə səs salan şeir və musiqi məclisləri fəaliyyət göstərmişdi. Burada mövcud olan zəngin ictimai və şəxsi kitabxana mühitindən bəhrələnən şair Şamaxının Məlhəm kəndində Xaqani Şirvaninin əmisi – alim və həkim Kafiəddin tərəfindən yaradılmış Dar-üş-şəfa tibb Akademiyasında təhsil almışdır. Amma nə Sovet dövrü, nə də müasir məktəb dərsliklərində Nəsiminin həyatı bu cür dəqiqliklə verilməmişdir. Bu, ya Nəsimi irsinin lazımı qədər tədqiq olunmaması səbəbilə, ya da

dövrün siyasi durumu həqiqətin üzə çıxmağına imkan verməməsi səbəbilə ola bilərdi.

Azərbaycanda təhsilin məqsəd və vəzifələrinə aid rəsmi tələblərdə qeyd olunur ki, hər hansı bir mövzunu öyrətmək üçün mövzunun təfərrüatlarına enmək, dərsin gedişində ardıcıllığı qorumaq lazımdır. Belə ki, müəllim hədəfi müəyyənləşdirməli, ona çatmağın ən uyğun yollarını, metodlarını və vasitələrini təyin etməlidir. X-XI siniflərdə şairin həyat və yaradıcılığının öyrədilməsində gözlənilən məqsəd şairin yaşadığı dövrlə, keçdiyi ömür yolu ilə şagirdləri tanış etməli, onun bədii yaradıcılığına maraq oyatmalı, əsərlərinə sevgi aşılamalı, dərsliyə salınan və ya əlavə oxu üçün vacib olan əsərlərinin öyrənilməsinə stimul yaratmalıdır.

Günümüzdə təhsil standartlarının, kurikulumların strateji hədəflərindən biri də məktəbdə şagirdlərin fiziki və əqli inkişafını üzə çıxarmaq, sosiallaşmasını təmin etmək, yaradıcılıq qabiliyyətlərinin səviyyəsini aşkarlamaq, eləcə də onlara həyati bilik və bacarıqları, davranış qaydalarını, etik normaları aşılamaqdır. Bu qayda və normalara şagirdlərdə olan müsbət xüsusiyyətlərin vurğulanması, yaxşı əməllərinin mədh olunması da daxildir. Bu, eyni zamanda, öyrətmək və öyrənmək qaydalarına öz müsbət təsirini göstərir. İ.A. Mollayev yazır: *"XIV əsr Azərbaycan mədəniyyəti və fəlsəfi fikrinin poeziyası və pedaqoji fikir salnaməsinin, elm və əxlaqının ən görkəmli korifeylərindən biri də, yaşadığı əsrin cəhalət qaranlığına nur çiləyib onu şöləlandirən İmadəddin Nəsimi Şirvanidir."* (6, s.202)

Nəsiminin Azərbaycan türkcəsində şeirlərinin dili zənginliyinə və sadə xalq dilinə yaxınlığı ilə seçilir. Nəsiminin rübailəri və tuyuğları Azərbaycan xalq şeiri nümunələrinə, bayatılara çox yaxındır. Eyni zamanda həmin nümunələrdə təbiət təsvirləri, tərbiyəvi əhəmiyyət kəsb edən fikirlər, müəllimə, ümumiyyətlə, böyüklərə olan hörmət və ehtiram tərənnüm olunur. Bu cür nümunələrin orta məktəb dərsliklərinə salınması həm təhsilin, tədrisin səviyyəsinin yüksəldilməsinə, həm də gənclərin təlim-tərbiyəsinin inkişafına, onların gələcək perspektivlərinə təsir göstərən amillərdəndir.

Nəsimi şeirinin ana dilində tərəqqisi sonrakı dövrlər üçün Azərbaycan ədəbi dilinin inkişafı üçün zəmin yaratmışdır. *"Nəsiminin əsərlərində ana dili, əlifba, tədris, təlim, təhsil, nitq, dil, söz və s. haqqında qiymətli fikirlər çoxdur. Nəsiminin özünəqədərki sələflərindən fərqləndirən cəhətlərdən birisi də onun Azərbaycan dilində yazması, bu dilə üstünlük verməsi və ana dilində yaratdığı əsərlərindəki novatorluğudur. Nəsimiyə qədər dərsliklər, kitablar ərəb və fars dillərində, XIX əsrdən etibarən, tək-tək hallar istisna olmaqla ana dilində yazılırdı."* (5, s.111)

Müstəqillik dövründə "Orta dövr Azərbaycan ədəbiyyatı" başlığı ilə Nəsiminin həyatı 7-9-cu siniflərdə çox geniş şəkildə tədris olunur. 1990-cı illərin ədəbiyyat dərsliklərindəki dolğun məlumatlardan artıq Azərbaycan gəncliyi Nəsiminin, dövrünün hikmət, məntiq, tarix, nücum, fiqh, təbiətşünaslıq və s. elmlərini mənimsədiyini, Yaxın və Orta Şərqin elmi və fəlsəfi irsinə yaxından bələd olduğunu bilir. Şairin öz elminin, ilhamının və sözünün gücünə əsaslanaraq həyatda gördüyü haqsızlıqlara, ədalətsizliklərə, qeyri-insani əməllərə qarşı çıxmaq üçün çıxış yolu axtardığını, onun insanları yenidən tərbiyə edən bir fəlsəfi sistem yaratmaq arzusunda olduğunu öyrənir.

1994-cü ildə N. Araslının müəllifi olduğu "Orta ümumtəhsil məktəblərinin VII sinfi üçün Ədəbiyyat dərsliyi"ndə Nəsiminin həyatı haqqında yığcam şəkildə bir səhifəlik məlumat verilir. Dərsliyə şairin yaradıcılığından iki qəzəl - "Ağrımaz" və "Neylərəm" qəzəlləri daxil edilmişdir. "Ağrımaz" qəzəli şərh edilmiş, "Suallar və tapşırıqlar" verilmiş, qəzəl janrının öyrədilməsi üçün nümunə gətirilmişdir.

1998-ci ildə Ə. Səfərli və X. Yusiflinin müəllifliyi ilə hazırlanan 9-cu sinfin "Ədəbiyyat" dərsliyində Nəsimi haqqında aşağıdakı ardıcıllıqla geniş məlumat verilir: Nəsiminin ədəbi kimliyi; Dövrü; Hürufilik; Həyatı; Yaradıcılığı; "Sığmazam" qəzəli (geniş şərhi); Şeirin bədii xüsusiyyətləri; "Dilbəra, mən səndən ayrı..." (geniş şərhi). Nəsiminin yaradıcılığı sadəcə qeyd edilən iki qəzəl olmaqla – "Ağrımaz" qəzəli 8-ci sinif ədəbiyyat dərsliyində, "Sığmazam" qəzəli isə 10-cu sinif ədəbiyyat dərsliyində tədris olunur.

2015-ci ildə nəşr olunan 8-ci sinif "Ədəbiyyat" dərsliyində "Ağrımaz" qəzəlinin məzmunu haqqında şagirdlərə suallar və tapşırıqlar verilir.

Hazırda Nəsimi yaradıcılığı 8-ci sinif "Ədəbiyyat" dərsliyində eynilə tədris olunur. Nəsiminin həyatı və ideoloji görüşləri haqqında

dəqiq məlumat almayan orta məktəb şagirdləri onun əsərlərinin anlamını dərk etməyə bilərlər. Buna görə də, onlara şairin yaradıcılığından öncə həyatı, dövrü və görüşlərinin öyrədilməsi məqsədəuyğundur. Dərsliklərdəki bir neçə qəzəl, əlbəttə ki, Nəsimi yaradıcılığını öyrənmək üçün yetərli deyildir.

Orta ümumtəhsil məktəblərində ədəbiyyatın kurikulumunun tələblərinə əsasən tədrisdə xüsusi keyfiyyətlər, həyati bacarıqlar aşılayan amillərə üstünlük verilməsi tələb olunur. Professor P. Əliyev qeyd edir ki, V-IX siniflərdə ədəbiyyat fənnindən şagirdlərin ümumi təlim nəticələri müəyyənləşdirilərkən həyati bacarıqlar əsas götürülür. Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyasında verilən bacarıqlar klassik şeirin tədrisində də nəzərə alınır. Yəni şagird klassik şeir nümunəsinin məzmunundan irəli gələn məna çalarına uyğun şeiri ifadəli oxumağı bacarır, mətni bədii, emosional cəhətdən qüvvətləndirən sözlərin mənasını izah edir, müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmununa uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir. (3, s.23)

X sinifdə Nəsimi mövzusunun tədrisi zamanı Nəsiminin ədəbiyyat tariximizdə rolu, onun həyat və yaradıcılığına xas xüsusiyyətlər, bədii irsinin əhəmiyyəti və s. kimi məsələlərə xüsusi diqqət yetirilir. Bununla yanaşı, çox təəssüflər olsun ki, məktəblərdə Nəsimi şeirlərindən nümunələrə aid praktik problemlərlə bağlı sistemli iş planı hazırlanmır. Bəlkə də bu sahədə həm metodik, həm də bədii ədəbiyyat çatışmır. Halbuki Nəsimi irsinin tədqiqi şairin şeirlərinin orta məktəblərdə sistemli iş aparmağa imkan verir.

**Problemin aktuallığı.** Son illər Nəsiminin həyatı daha dərindən öyrənilir, yaradıcılığı elmi və bədii cəhətdən daha geniş tədqiq olunur. Son iki ildə Nəsiminin İran, İraq, Suriya, Türkiyə və digər ölkələrin arxivlərində saxlanılan irsi araşdırılır və ərəb, fars, Anadolu türkcəsindən ana dilinə tərcümə edilir. Belə ki, dərsliklərdən başqa əlavə oxu materialları, şairin yeni qəzəllərinin tərcüməsi, şərhi, Nəsimi yaradıcılığı haqqında yazılanlar imkan verir ki, şagirdlər Nəsimi irsini daha dərindən öyrənsinlər.

**Problemin elmi yeniliyi.** Müstəqillik illərindən öncəki dövrlərdə klassik ədəbiyyatımıza, ana dilində olan əsərlərin təbliğinə, İslam dininin, o cümlədən digər dini cərəyanların ədəbiyyatda əks etdirilməsinə qadağalar qoyulmuş, belə əsərlər işıqlandırılmamışdır. Hazırda isə İslam dininə baxış dəyişilmiş, ölkəmizdə beynəlxalq tolerantlıq və multikulturalizm, dini etiqad azadlığı yaranmışdır. Bu səbəbdən məzmununda dini məsələlərin də yer aldığı Nəsimi yaradıcılığının tədqiqi, tədrisi və təbliği xeyli artmışdır.

**Problemin praktik əhəmiyyəti.** Nəsiminin vətənpərvər şeirləri – tuyuqları, təbiət şeirləri, milli-mənəvi dəyərlərin təbliğində rol oynayacaq məsnəviləri vardır. Bunlar sistemli şəkildə araşdırılaraq ədəbiyyat dərsliklərində və ya əlavə dərslik olaraq praktik işlərdə istifadə oluna bilər.

**Ədəbiyyat:**


1. Araslı H. Fədakar şair (İmadəddin Nəsimi).- Bakı: EA AzF nəşriyyatı, -1942.
2. Babayev Y. Anadilli Azərbaycan ədəbiyyatının təşəkkülü və epik şeirin inkişafı (XIII-XIV əsrlər). -Bakı: ADPU, -2008, -128s.
3. Əliyev P.B. Orta ümumtəhsil məktəblərində Azərbaycan klassik şeir nümunələrinin tədrisinin nəzəri və praktik problemləri. Avtoreferat. -2010, -54s.
4. İmadəddin Nəsimi - 40 qəzəl. –Bakı: Qanun nəşriyyatı, -2019, -128s. (Fars dilindən tərcümə: Dalğa Xatınoğlu. Tərtibçi: Nəzərova Adilə Həsən qızı)
5. Qafarova S., Gərayzadə E. Azərbaycan ədəbiyyatının tədrisi tarixi. Dərs vəsaiti. – Bakı: Mütərcim, -2010, -136s.
6. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. – Bakı: Maarif nəşriyyatı, -1996, -304s.


**E-mail:** adile1970@mail.ru

**Rəyçilər:** *ped. ü. elm. dok., prof.* **A.N. Abbasov**
*ped. ü. fəls. dok., dos.* **A.X. Hacıyev**
**Redaksiyaya daxil olub:** 14.02.2022.

**UOT 37.0**

***Nabat Natiq qızı Əhmədova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
*https://orcid.org/0000-0003-1776-2661*
*https://doi.org/10.5281/zenodo.6448052*

# İBTİDAİ İCMA QURULUŞUNDA TƏLİM-TƏRBİYƏNİN YARANMA ZƏRURƏTİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

***Набат Натиг гызы Ахмедова***
*докторант по программе доктора философии*
*Бакинский Государственный Университет*

# НЕОБХОДИМОСТЬ ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ В ПЕРВОБЫТНОМ ОБЩЕСТВЕ И ЭТАПЫ ИХ РАЗВИТИЯ

***Nabat Natig Ahmadova***
*doctorial student in the program of doctor of philosophy*
*Baku Stat University*

# THE NEED FOR TRAİNİNG AND EDUCATİON İN A PRİMİTİVE SOCİETY AND STAGES OF THEIR DEVELOPMENT

**Xülasə.** Məqalədə yeni nəslin təlim – tərbiyəsi istiqamətində ibtidai icma quruluşunda görülmüş işlər açıqlanır. Həyata keçirilən bu pedaqoji işlər cəmiyyətin inkişafının tələbi kimi meydana çıxıb və bu tələb çərçivəsində insanlar bir çox pedaqoji yeniliklərə imza atmışlar. İctimai tərbiyə, (ibtidai icma quruluşunun ilk dövrlərində cəmiyyət üzvlərinin hamısının tərbiyə prosesində iştirak etməsi), ailə tərbiyəsi (ailə yaranan-da), sənətkarların, tacirlərin peşə öyrətməsi, gənclərin hərbi-fiziki hazırlığı, gənclər evinin yaranması, inisi-asiya prosesi, yazının yaranması ilə müəllimlik peşəsinin aktuallaşması, məktəbin yaranması - ibtidai icma dövründə yeni nəslin təlim – tərbiyəsinin təşkilinin mərhələləri kimi mənalandırılır.
***Açar sözlər:*** *ibtidai icma quruluşu, ictimai tərbiyə, ailə tərbiyəsi, hərbi-fiziki hazırlıq, inisiasiya prosesi, məktəbin yaranması.*

**Резюме.** В статье рассмотрены вопросы обучения и воспитания подрастающего поколения в первобытном обществе. Потребность в данной педагогической деятельности возникла в условиях определенного развития общества, и в рамках этой потребности были созданы различные педагогические инновации. Социальное воспитание (участие всех членов общества в процессе воспитания на ранних этапах формирования первичной общины), семейное воспитание (при формировании семьи), профессиональная подготовка художников, купцов, военно-физическая подготовка молодежи, создание молодежных обществ, процесс инициации, возникновение письменности и появление учительской профессии, учреждение школы – все это есть этапы организации обучения и воспитания нового поколения в условиях первобытного общества.
***Ключевые слова:*** *первобытное общество, общественное образование, семейное воспитание, военно-физическая подготовка, процесс инициации, организация школы.*

**Summary.** The article deals with the issues of training and education of the younger generation in a primitive society. The need for this pedagogical activity arose in the conditions of a certain development of society, and within the framework of this need, various pedagogical innovations were created. Social education (participation of all members of society in the process of education in the early stages of the formation of a

primary community), family education (during the formation of a family), professional training of artists, merchants, military-physical training of youth, the creation of youth societies, the process of initiation, the emergence of writing and the emergence of a teacher's professions, the establishment of a school – all these are the stages of organizing the training and education of a new generation in a primitive society.

***Keywords:*** *primary society, social education, family education, military-physical training, initiation, organization of schools*

İnsanın bioloji varlıqdan sosial varlığa keçidi başlananda onlar hələ ibtidai həyat tərzinə malik idilər. Onların nəinki insan münasibətləri haqqında, ümumiyyətlə dünya haqqında bilikləri məhdud idi. "İnsanlar təbiətin hazır məhsullarını mənimsəyir və ovçuluqla məşğul olurdular" (1, s. 7). Bu təbii idi, onların bilikləri hələ əsasən bioloji tələbatlarını ödəməyə istiqamətlənmişdi. Lakin artıq ətraf aləm haqqında biliklər əldə etmək zərurətə çevrilirdi. Buna görə də onlar üçün "yeməli bitkilər, yerin relyefi, heyvan vərdişləri haqqında bilmək, güclü, dözümlü olmaq həyatı vacib məsələ idi" (2, s. 5). Bu ilkin pedaqoji biliklərin məişət təcrübəsi əsasında toplanmasının başlandığını göstərir. İnsanlar öz məişətlərində əldə etdikləri təcrübəyə əsasən onlara lazım olan bilikləri toplayırdılar. Bu həyati zərurətdən irəli gəlirdi. Ehtimal edə bilərik ki, bu inkişafın hansısa mərhələsində onlar qarşısında ikinci zərurət meydana çıxmışdı: əldə etdikləri bilik və təcrübənin yeni nəslə ötürülməsi zərurəti. Birinci zərurətin yəni, təbiət haqqında ilkin biliklərin mənimsənilməsi onların bioloji varlıq kimi fəaliyyəti prosesində əldə etdikləri təcrübənin fonunda davam edirdi. Amma yeni nəslə əldə etdikləri bilik və təcrübəni ötürmək tam yeni hadisə idi, onlar bunun yollarını tapmalı idilər.

Yeni nəsli həyata hazırlamaq zərurəti meydana çıxdığı vaxtdan qədim insanlar təlim-tərbiyə qayğıları ilə yaşamağa başladılar. Əgər belə olmasaydı, bu gün təhsilin tarixi öz zənginliyi ilə fərqlənməzdi. İlkin pedaqoji ideyaların tapılması və ya yeni nəslin tərbiyəsinin təşkil edilməsi qədim insanın təlim-tərbiyə qayğıları ilə yaşamağa başladığı dövrə təsadüf edir. Təbii ki, onlar birdən-birə dərin məzmunlu ideyalar irəli sürə bilməzdilər. Həmin dövrün tələbi insanın bioloji tələbatlarının ödənməsi üzərində qurulduğundan qədim insanın da ilk pedaqoji fəaliyyəti yeni nəslə bioloji tələbatları ödəmək üçün zəruri bilikləri, hər şeydən əvvəl qida əldə etməyin yollarını – təbiətdəki məhsulların hansının insan üçün yararlı olmasını, heyvan ovlamağın yollarını və s öyrətməkdən ibarət idi. F.A. Rüstəmovun dəqiq ifadəsi ilə desək, "həmin dövrdə uşağın tərbiyəsi onun bəslənməsi və böyüdülməsindən, yaşlı nəslin təcrübəsinin böyüyən nəslə verilməsindən ibarət idi" (3,s. 13). Bu, ilkin mərhələdə icmanın bütün üzvləri tərəfindən həyata keçirilirdi, sonrakı mərhələdə bu işlə icmanın başçıları, ağsaqqallar məşğul olmağa başladılar.

Pedaqogika tarixçiləri tarixi faktlara əsaslanaraq qeyd edirlər ki, "təxminən 100000 il əvvəl Avrasiyada buzlanma prosesi başlayır, bu da sosial münasibətlərin və təsərrüfat fəaliyyətinin təkamülünün sürətlənməsinə təkan verir" (4, s. 6). Bu təkamül insanların inkişafını şərtləndirdi. Tədricən daimi yaşayış yerləri yarandı, od əldə edildi, əmək alətləri meydana gəldi, insan daşdan istifadə etməyə başladı. Cəmiyyət həyatında baş verən bu inkişaf insanları həyatını getdikcə mürəkkəbləşdirirdi. Qədim insanlar onsuz da gördükləri işləri bir neçə nəfərlə birlikdə (məsələn, heyvan ovlamağa gedərkən və s.) həyata keçirirdi. Həyat mürəkkəbləşdikcə birgə fəaliyyətə daha çox ehtiyac duyulmağa başladı. Həyatın mürəkkəbləşməsi başqa bir çətinliyi də yaradırdı, yeni nəslə öyrədilən biliklərin məzmunu getdikcə çoxalırdı. Bu, təlim-tərbiyə prosesinin həm zərurətini artırırdı, həm də çətinləşdirirdi.

Tədricən bütün insanların eyni bir işi eyni səviyyədə yerinə yetirə bilmədiyi üzə çıxdı. Fəaliyyət sahələrinin çoxalması nəticəsində insan bacarıqları diqqəti cəlb etməyə başladı. Bu əmək bölgüsünün yaranmasını aktuallaşdırdı. Sənətlərin və sənətkarların yaranması insanlararası münasibətlərin yeni keyfiyyət mərhələsinə keçidi demək idi. Əgər yeni nəsli həyata hazırlamaq üçün əvvəllər təlim-tərbiyənin məqsədi bioloji tələbatları ödəməyin yollarını öyrətmək təşkil edirdisə, indi artıq məqsəd yenilənmiş, yeni nəslə peşə öyrətmək onları həyata hazırlamağın meyarına çevrilirdi.

Bu təlim-tərbiyə işinin iki istiqamətdə inkişafına səbəb oldu. Yaşlılar, qəbilənin ağsaqqalları uşaqlara sosial həyatla bağlı təcrübəni,

davranış qaydaları haqqında bilikləri verməyə başladı, sənətkarlar isə onlara peşə öyrədirdilər. Fikrimizcə, bu iki istiqamətin yaranmasını təlim ilə tərbiyə prosesinin sərhədlərinin yaranması kimi də qiymətləndirə bilərik.

Cəmiyyət həyatının daima təkmilləşməsi – neantrop (ağıllı insanların yaranması dövrü – Homo sapiens), neolit, ana xaqanlığı, ata xaqanlığı dövrlərində iqtisadi əlaqələrin, insanlararası münasibətlərin xarakterində dəyişikliklərin yaranması uşaqların həyata hazırlanması baxımından həm tərbiyə, həm də təlimin məzmununu getdikcə mürəkkəbləşdirirdi. İnsanlar bu məzmunun reallaşdırılması üçün yeni-yeni yollar axtarırdılar. Başqa sözlə desək, cəmiyyət həyatının mürəkkəbləşməsi yaşlı nəsli gənc nəslin təlim və tərbiyəsinin məzmununu, forma və yollarını axtarmağa təhrik edirdi. Bu zərurət pedaqoji fikirlərin inkişaf etməsi üçün şərait yaradırdı.

İbtidai icma quruluşunun inkişafının müxtəlif mərhələlərində yeni nəslin tərbiyəsi ilə müxtəlif insanlar məşğul olmuşlar: – əvvəlcə qəbilənin bütün üzvləri, sonra qəbilə ağsaqqalı, ailə yarandığı dövrdə valideynlər, ana xaqanlığı dövründə qadınlar, ata xaqanlığı dövründə kişilər, əmək bölgüsü yarananda sənətkarlar təlim-tərbiyənin əsas subyekti idilər. Bu əslində icmanın inkişafının müxtəlif mərhələlərində təlim-tərbiyə işinin inkişaf mərhələləri kimi də qiymətləndirilə bilər. İnsanlar təlim tərbiyənin təşkilinin səmərəli yollarını axtarırdılar. Belə ki, cəmiyyət həyatının getdikcə mürəkkəbləşməsi təlim – tərbiyənin məzmununun da getdikcə mürəkkəbləşməsinə səbəb olurdu ki, insanlardan onu reallaşdırmağın yeni yollarının axtarılmasını tələb edirdi. Baş verən bu inkişaf nəticəsində elə bir dövr gəldi ki, tərbiyə cəmiyyətdə sosial funksiya kimi aktuallaşdı. Tarixçilər tərbiyənin sosial funksiya kimi formalaşmasını 40-45 min il bundan əvvəl baş verdiyini güman edirlər. Onların fikrincə, bu "sosial təcrübənin mürəkkəbləşməsini və toplanmasını, onların ötürülməsi üçün yeni-yeni xüsusi forma və metodların yaranmasını tələb edirdi" (4, s. 6).

Əməyin insanlar arasında bölgüsü tərbiyənin məzmununda daha böyük dəyişikliklər yaratdı. Bu faktı pedaqogika tarixçiləri təsdiqləyirlər. Onların fikrincə, "bu və ya digər icmada uşaqlara ilk günlərdən qəbul edilmiş qaydalarla yaşamağı öyrədirdilər. Artıq erkən uşaqlıqdan sonra oğlanlar ovçuluq, balıqçılıq, döyüş sənətinə yiyələnirdilər, qızlar isə toxuculuğu, ip əyirməni, paltar tikməyi, xörək bişirməyi öyrənirdilər" (5, s. 14).

Pedaqogika tarixçilərinin bu fikrində maraqlı məqam ondan ibarətdir ki, uşaqlar – həm oğlanlar, həm də qızlar əmək prosesində tərbiyə olunurdular. Əmək prosesində uşaqlar böyüklərin fəaliyyətini müşahidə edirdilər. Təbii ki, onlar böyüklərin fəaliyyətini müşahidə edərək, nəyisə öyrənirdilər. Lakin öyrənmə prosesinin yalnız müşahidə əsasında olmasını düşünmək sadəlövhlük olardı. Uşaqlar əmək prosesində onların "gücünə müvafiq fəaliyyətə cəlb olunur, böyüklərlə bir yerdə, onların rəhbərliyi ilə kollektiv əməyə və məişətə alışdırılırdılar" (1, s. 8). Bu zaman artıq yaşlıların uşaqlara nəyisə izah etdiyini, əyani olaraq göstərdiyini güman etmək olar. Təbii ki, bunu sistemli, mütəşəkkil təşkil edilmiş tərbiyə prosesi kimi qiymətləndirmək düz olmazdı. Burada uşaqların böyükləri təqlid etməsi də öz əksini tapdığını düşünmək olar.

Böyükləri təqlid etmək, onların fəaliyyətini mexaniki surətdə təkrarlamaq tərbiyə prosesi üçün maraqlı faktdır. Onların belə fəaliyyətində motivasiya mühüm rol oynayır. Görünür qədim dövrdə uşaqlar həyatın ağırlığını, həyat uğrunda mübarizənin zəruriliyini dərk edir və böyüklərin bacardıqları işləri öyrənmək onlarda öz həyatlarını daha yaxşı etmək motivasiyasını formalaşdırırdı. Maraqlıdır ki, uşaqlar əmək prosesində böyükləri təqlid etməkdən əlavə, öz asudə vaxtlarında da böyüklərin əmək prosesində etdiyi hərəkətləri oyunlarında təkrar təqlid edirdilər. Uşaqların oyun prosesinə cəlb edilməsi və oyun vasitəsi ilə öyrənməsini təşkil etmək qədim insanın diqqət çəkən pedaqoji yeniliyidir.

Uşaqların boş vaxtlarını oyunda keçirməsi də maraqlı faktdır. Təbii ki, o vaxt hələ oyunlar yox idi, onlar oyunları tapan və kəşf edən ilk uşaqlar idilər. Oyunların çoxunun məzmununu onlar gündəlik rast gəldikləri hadisələrə əsasən müəyyənləşdirirdilər. Hər halda onlar oyunlar haqqında düşünür, tapır, öz yeniliklərini edirdilər. Bu onların həm sosial təcrübəyə yiyələnməsini, həm də peşə vərdişləri əldə etməsini asanlaşdırırdı.

Oyunların təşkili və keçirilməsində uşaqlar müstəqilliyə malik idilər. Bu yanaşma onları inamlı edir və yeni-yeni oyunların kəşf edilməsinə şərait yaradırdı. A.İ. Piskunovun qeyd etdiyi kimi, "uşaqlara verilən azadlıq və müstəqillik

onların oyunlarında əks olunur və özünəməxsus sosial davranış vərdişlərinin qazanılmasına xidmət edirdi. Böyüklərlə birgə əmək prosesinə cəlb edilmə, həmyaşıdlar qrupunda təqlidi uşaq oyunları – bütün bunlar ibtidai icmanın adi həyat ritminə daxil olub, müəyyən tərbiyə mühiti yaradırdı (6, s. 8). Bu tərbiyə mühiti icma dövründə təlim-tərbiyə prosesinin yeni mərhələlərində biri idi.

Burada bir məqam diqqəti cəlb edir: – həmyaşıd uşaqların birgə fəaliyyəti. Həmyaşıd uşaqların birgə fəaliyyəti tərbiyə baxımından sosial təcrübənin ötürülməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu mühitdə həmyaşıd uşaqlar müstəqil fəaliyyət göstərirlər. Onların oyunlar kəşf etməsi bu istiqamətdə əlamətdar hadisədir. Bu artıq uşaqların inkişaf səviyyəsinin nəticəsi idi.

Tədricən qəbilələrin həyatında ayinlər, mərasimlər, bayramlar keçirilir, nağıl və dastanlar yaranırdı. Həm ayinlər, mərasimlər, bayramlar, həm də nağıl və dastanlar tərbiyə baxımından mühüm əhəmiyyət kəsb edirdi. Artıq icmalarda müəyyən adət-ənənələr formalaşırdı. Adət-ənənələr uşaqların davranışlarının tənzimlənməsi baxımından mühüm rol oynayır. Nağıl və dastanların yaranması isə uşaqların tərbiyəsinin məzmununu daha da təkmilləşdirirdi. Güman etmək olar ki, nağıl və dastanlar uşaqlarda vətənpərvərlik hisslərinin formalaşmasında daha önəmli rol oynayırdı. Nağıl və dastanlarda icmanın rifahı uğrunda canından keçənlərin qəhrəmanlıqlarının nümunə göstərilməsi uşaqlarda mənəvi keyfiyyətlərinin formalaşmasına öz təsirini göstərirdi. Uşaqların fiziki və əmək hazırlığı haqqında təsəvvürlər həyat uğrunda mübarizə kontekstində meydana gəlmişdisə, vətənpərvərlik hisslərinin formalaşması üçün nağıl və dastanlardan istifadə edilməsi artıq qədim insanın pedaqoji yeniliyi və onların yeni nəslin tərbiyəsinə diqqətlə yanaşıldığının göstəricisi kimi qiymətləndirilməlidir. A.İ. Piskunov bu prosesi hətta ibtidai əqli-dünyagörüşünün tərbiyəsi kimi qiymətləndirərək, yazır ki, "böyüməkdə olan nəslin bərabər fiziki, əmək, mənəvi hazırlığı ibtidai əqli-dünyagörüşü tərbiyəsinin ayrılmaz hissəsi idi" (6, s. 8).

Tədricən icmalarda rəqslər, nəğmələr, ümumiyyətlə xalq yaradıcılığı inkişaf etməyə başladı. Hər bir icmanın xalq yaradıcılığı nümunələri digərində fərqlənsə də, bütövlükdə "bütün şifahi xalq yaradıcılığı-nağıllar, oyunlar və rəqslər, musiqi və nəğmələr əxlaqın, davranışın, xarakter keyfiyyətinin tərbiyəsində böyük rol oynayırdı" (1, s. 9). İcmada dini mərasimlərin keçirilməsi və adət-ənənənin formalaşması sosial-mənəvi tərbiyəni aktuallaşdırırdı. Xalq yaradıcılığının inkişafı təlim-tərbiyənin təşkil edilməsinin yeni mərhələsi olub, məktəbin formalaşması üçün ilkin şərtlər yaradırdı.

Eramızdan əvvəl 8-5 minilliklərdə əkinçiliyin, heyvandarlığın, ovçuluğun, məhsul yığımının və s. inkişafı ilə insan münasibətlərində yaranan dəyişikliklər ailənin əmələ gəlməsi ilə nəticələndi. Ailənin əmələ gəlməsi icmada hökm sürən münasibətlər sistemində mənəvi mühitin dəyişməsinə səbəb oldu. Uşaqların tərbiyəsi valideynlər tərəfindən aparılmağa başlandı. Bu meyl təlim tərbiyənin yeni mərhələsi kimi ailə tərbiyəsinin yaranmasını şərtləndirdi, ailənin tərbiyə institutu kimi fəaliyyət göstərməsinə təkan verdi. Oğlanların tərbiyəsi 5 yaşa qədər ailədə, sonrakı yaş dövrlərində icmada və öz yaşıdları arasında davam edirdi. Oğlanların 5 yaşına qədər evdə, sonra isə icmada və öz yaşıdları arasında tərbiyə edilməsi pedaqoji cəhətdən maraq kəsb edən faktdır.

İbtidai icma quruluşunun son dövrlərində maraqlı hadisə baş verdi. "Gənclər evi" adlandırılan təhsil müəssisəsi yaradıldı. Gənclər evi "mahiyyəti etibarı ilə məktəbin sələfi olub, insanlara müəyyən əmək vərdişləri və bacarıqların, ayinlərin (mərasimlərin) öyrədilməsi məqsədilə təşkil edilmişdi. Burada tərbiyənin başlıca forması birgə oyun və məşğələlər idi" (3,s. 17). Bu təhsil müəssisəsi artıq qədim insanın yeni nəslin təlim-tərbiyəsinə verdiyi qiymət kimi mənalandırıla bilər.

Pedaqogika tarixçiləri maraqlı bir məsələyə də diqqəti cəlb edirlər. İcmada insanların həyatı öz inkişaf sürətini artırırdı. Bunun nəticəsi olaraq, gənc nəslin yetkinlik həyatına qədəm qoymağa nə dərəcədə hazır olmasına ictimai nəzarətin olması tələb olunurdu. Bu tərbiyədə inisiasiya prosesinin yaranmasına təkan verdi. Pedaqogika tarixçiləri təsdiq edirlər ki, "10-15 yaşına çatmış hər iki cinsdən olan bu yeniyetmələr" (4, s. 11) inisiasiyadan keçirdilər. İnisiasiya "özünü böyüklərə təqdimetmə mərhələsi" olub, "dini mərasim formasında keçirilir və ənənəvi dini nəğmələr, mərasim rəqsləri, sehrli ovsunlar-

la müşayiət olunurdu" (3, s. 17). Bu proses yeni nəslin icma qarşısında məsuliyyətini artırırdı. Bundan əlavə onu qeyd etmək lazımdır ki, inisiasiyanın keçirilməsinə qərarın verilməsi icmanın öz inkişafı haqqında düşünməsinin, icmanın inkişafı üçün yeni nəslin yetkinlik dövrünə hazırlığının əhəmiyyətinin vacibliyini dərk etməsinin nəticəsi idi.

İcma inkişaf etdikcə yeni nəslin tərbiyəsinə ehtiyac artırdı və insanlar yeni nəslin bilik və bacarıqlar əldə etməsinə daha çox ehtiyac hiss edirdi. Bu ehtiyacdan irəli gələrək, A.İ. Piskunovun qeyd etdiyi kimi, "icmada həyat tərzinə uyğun olaraq, ovçuya, əkinçiyə, döyüşçüyə və s. zəruri olan bilik və bacarıqları özündə ehtiva edən özünəməxsus təlim proqramları hazırlandı. Evdarlığa, ev işləri olan – tikişçilik, toxuculuq, dulusçuluq və s. öyrədilməsinə yönəldilmiş oxşar proqram qızlar üçün hazırlandı. Həmçinin fiziki və mənəvi hazırlıq sosial-əxlaq tərbiyəsinin forması kimi mənalandırıldı (6, s. 9). Təlim proqramlarının hazırlanması artıq gənc nəslin tərbiyəsi baxımından daha mühüm bir addım idi. Bu proqramlar uşaqların hazırlığının əvvəlki dövrlərlə müqayisədə daha sistemli və mütəşəkkil təşkili üçün yeni mərhələ idi və yeni nəslin inisiasiyaya daha yaxşı hazırlaşmasına şərait yaradırdı.

Pedaqogika tarixçiləri inisiasiyanın məzmununa da diqqəti cəlb edirlər. Onların fikrincə, "inisiasiyaya hazırlığa təkcə fiziki məşqlər deyil, həm də bir sıra kompleks mədəni dəyərlər, qəbilə dini, miflər, fəlsəfə, tarix, rituallar və digər biliklər də daxil idi" (7, s. 18). F.A. Rüstəmov bu fikri daha dəqiq ifadə edərək yazır ki, "oğlanlar üçün inisiasiya hazırlığı proqramına ovçu, əkinçi, döyüşçü və b. üçün zəruri olan bilik və praktik bacarıqların, qızlar üçün proqrama isə ev təsərrüfatının idarə olunması ilə bağlı vərdişlərin mənimsədilməsi daxil idi" (3, s. 17).

Məlum olduğu kimi, icmanın inkişafının ilk dövrlərindən başlamış uzun bir müddət ərzində insanlar gündəlik tələbatlarını icma daxilindəki fəaliyyətləri ilə ödəyirdilər. Lakin müəyyən bir dövrdə, bu xüsusən sənətkarlığın inkişafı ilə bir dövrə təsadüf edir, icmanın birində toxuculuq, digərində əkinçilik, üçüncüdə dəmirçilik və s. daha yaxşı inkişaf etməyə başladı. Bu icmalar arasında ticarət əlaqələri yaranmasına səbəb oldu. İcmalar arası ticarətin inkişafı həm tacirliyin, həm də sənətkarlığım inkişafına təkan verdi. Təbii ki, tələbatlar artdığı üçün həm tacirlər, həm də sənətkarlar öz fəaliyyət sahələrini genişləndirmək üçün daha çox şagird götürməyə başladılar. Bu meyl nəticəsində hər bir sənətkar öz sənətini şagirdinə öyrətmək üçün müəyyən bir məzmun hazırlamağa başladı.

Təbii ki, hər bir icma daha çox varlanmaq üçün yaxın qəbilələrə hücum edirdilər. Kənar qüvvələrin hücumlarından qorunmaq üçün icmalarda hərbi-fiziki tərbiyə aktuallaşdı. Yeni nəslə "ox atmaq, nizədən istifadə etmək, at çapmaq və s. bacarıqlar" (4, s. 11) aşılanmağa başlandı. Hərbi-fiziki hazırlıq icmanın həyatının sabitliyi üçün daha vacib idi. Bu zərurət yeni nəslin tərbiyəsində yeni istiqamətin formalaşmasını şərtləndirdi.

Artıq yeni nəslin təlim-tərbiyəsinin məzmununda müxtəlifliklər yaranmağa başlayırdı. Bir tərəfdən sənətkarlığın öyrədilməsi, bir tərəfdən tacirliyin öyrədilməsi, bir tərəfdən də onların hərbi-fiziki hazırlığı həyata keçirildiyi dönəmdə təbii ki, uşaqların bu fəaliyyət növlərinin hansına cəlb olunması məsələsi gündəmə gəlməli idi. Ehtimal etmək olar ki, bu məsələdə əvvəlcə uşaqların maraqları əsas sayılsa da, tədricən onların hansının hansı işə bacarıqlarının olması prioritet oldu.

Yazının əmələ gəlməsi ilə əqli əməklə fiziki əmək arasında fərqlər meydana çıxdı. Təbii ki, yazmağı hamı bacarmırdı. Yazmağı bacaran tək-tək adamlar uşaqlara yazmağı öyrətməyə başladılar. Bu yeni peşənin – müəllimlik peşəsinin və məktəblərin yaranmasını tələb edirdi. Gənclər evinin nəzdində məktəblər yaradıldı. Bu məktəblər yazı, oxu və hesabın tədrisi ilə əlamətdar oldular. Xüsusi tərbiyə ocağı olan məktəbin yaranması yeni nəslin tərbiyəsində yeni istiqamət idi. Təbii ki, digər fəaliyyət növlərində olduğu kimi məktəbdə öyrədilən bilikləri hamı eyni səviyyədə dərk edə bilməzdi. Tədricən əqli fəaliyyətə meyl edən uşaqlar formalaşmağa başladı və məktəb yeni tərbiyə institutuna çevrildi.

Beləliklə, deyilənləri ümumiləşdirərək qeyd edə bilərik ki, yeni nəslin təlim – tərbiyəsi istiqamətində ibtidai icma quruluşunda nəzərə çarpacaq dərəcədə maraqlı işlər görülüb. Təbii ki, həyata keçirilən pedaqoji işlər cəmiyyətin inkişafının tələbi kimi zərurət olaraq meydana çıxıb. İnsanlar bu tələb çərçivəsində pedaqoji yeniliklərə imza atmışlar. Bu yeniliklər bir neçə istiqamət-

də mühüm əhəmiyyət kəsb edir. İlk dövrlərdə cəmiyyət üzvlərinin hamısının tərbiyə prosesində iştirak etməsi, sonra bu vəzifəni ağsaqqalın yerinə yetirməsi, ailə formalaşanda ailə tərbiyəsinin, sənətkarların, tacirlərin peşə öyrətməsi, gənclərin hərbi-fiziki hazırlığı, gənclər evinin yaranması, inisiasiya prosesinin meydana gəlməsi, yazının yaranması ilə müəllimlik peşəsinin aktuallaşması, məktəbin yaranması – ibtidai icma dövründə yeni nəslin təlim-tərbiyəsi sahəsində yaranmış yeniliklər idi. Bu yeniliklər sonrakı dövrlərdə yeni nəslin təlim-tərbiyəsi istiqamətində həyata keçirilən işlər üçün özül rolu oynadı.

**Problemin aktuallığı**. İbtidai icma quruluşunda təlim-tərbiyənin yaranma zərurəti və inkişaf mərhələləri barədə məlumatın verilməsi aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. İbtidai icma quruluşunda təlim-tərbiyənin yaranma zərurəti və inkişaf mərhələləri diqqətə çatdırılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə doktorant və dissertantlar, magistrantlar üçün faydalı ola bilər.

**Ədəbiyyat:**


1. Константинов, Н.А., Медынский, Е.Н., Шабаева, М.Ф. История педагогики: Учебник для студентов пед. ин-тов. -М.: Просвещение, -1982, - 447 с.
2. Джуринский, А.Н. История педагогики: Учеб. пособие для студ. педвузов. - М.: Гуманит. изд. центр ВЛАДОС, -2000. - 432 с.
3. Rüstəmov, F.A. Pedaqogika tarixi (Xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi): Dərslik. -Bakı: Nurlan, -2006, -748 s.
4. Hüseynzadə, R.L., Məlikov M.Ş., Kərimova G.H., Çıraqova V.M., Ələkbərova M.İ. və b. Pedaqogika tarixi: Təhsilin magistr pilləsinə hazırlıq üçün dərs vəsaiti. -Bakı: "Zərdabi LTD" MMC, -2018, -255 s.
5. Василева, З.И., Седова, Н.В., Буторина, Т.С. История педагогики и образования: Учебник для студ. Учреждений высш. проф. образования / Под. ред. З.И Василевой. -М.: Издательский центр «Академия», -2013, -432 с.
6. История педагогики и образования: Учебник для бакалавров / А. И. Пискунов [и др.] / Под общей редакцией А. И. Пискунова. -М.: Юрайт, -2013, -575 с.
7. Князев, Е. А. История педагогики и образования : учебник и практикум для академического бакалавриата / Е. А. Князев.-М.: Юрайт, -2016, -505 с.


**E-mail:** anatiq@gmail.com

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **H.Ə. Əlizadə,**
*psixol.ü.fəls.dok.* **S.H. Əlizadə**
**Redaksiyaya daxil olub:** 16.02.2022.

## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

**UOT 371**

***Müseyib İbrahim oğlu İlyasov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri*
*https://orcid.org/0000-0002-9379-1643*
*https://doi.org/10.5281/zenodo.6448066*

# TƏRBİYƏ XÜSUSİ TƏŞKİL EDİLMİŞ FƏALİYYƏT VƏ SİSTEM KİMİ

***Мусеиб Ибрагим оглы Ильясов***
*доктор наук по педагогики, профессор*
*зав. кафедрой Азербайджанского Государственного Педагогического Университета*

# ВОСПИТАНИЕ КАК СПЕЦИАЛЬНО ОРГАНИЗОВАННАЯ ДЕЯТЕЛЬНОСТЬ И СИСТЕМА

***Museyib Ibrahim Ilyasov***
*doctor of sciences in pedagogy, professor*
*head of departament at Azerbaijan State Pedagogical University,*

# EDUCATION AS A SPECIAL ORGANIZED ACTIVITY AND SYSTEM

**Xülasə.** Tərbiyə məqsədyönlü və mütəşəkkil bir proses olub böyüyən nəslin həyata hazırlanması funksiyasını yerinə yetirir. Tərbiyənin mütəşəkkilliyi və nəticəyönümlü olması onun mahiyyət və məqsədinin düzgün müəyyənləşdirilməsi və müəyyən prinsiplərin, qaydaların gözlənilməsilə həyata keçirilməsindən çox asılıdır. Tərbiyə uşağa edilən təsirlərin və onların sosial təcrübəsinin birliyi zəminində yaranır, inkişaf edir. Fərdin irsən gətirdiyi keyfiyyətlər də bu zaman müəyyən təsir imkanlarına malik olur. Tərbiyəlilik irsən gətirilmiş müəyyən keyfiyyətlərlə də şərtlənir.

Tərbiyə həm də geniş bir proses olduğundan onu təkcə təlim prosesilə, təlimin tərbiyəedici imkanlarından istifadə etməklə məhdudlaşdırmaq olmaz. Məktəbdə bu istiqamətdə sistemli, dərin və hərtərəfli işlər həyata keçirilməlidir.

Tərbiyə mərhələli prosesdir və məktəbdə onun təşkili bu mərhələləri əhatə etməklə müəyyən sistem təşkil edir. Tərbiyə xüsusi təşkil edilmiş fəaliyyət sistemi kimi tərbiyə olunanlarla tərbiyə edənlərin fəallığı zəminində baş verir və prosesin tamamlanması məhz bunların qarşılıqlı əlaqəsinə əsaslanır.
***Açar sözlər:*** *tərbiyə; sosial təcrübə; mərhələ; funksiya; mühit; formalaşma; sistem*

**Резюме**. Воспитание – это целенаправленный и организованный процесс, который служит для подготовки подрастающего поколения к жизни. Организация и ориентированное на результат обучение зависят от правильного определения его сущности и цели и его реализации с соблюдением определенных принципов и правил. Воспитание возникает и развивается на основе единства влияний на ребенка и его социальный опыт. Определенное влияние имеют и качества, унаследованные индивидуумом. Воспитание также обусловлена определенными унаследованными качествами.

Поскольку воспитание – это тоже обширный процесс, его нельзя ограничивать процессом обучения, используя образовательные возможности обучения. Школа должна проводить планомерную, глубокую и всестороннюю работу в этом направлении.

Воспитание – это поэтапный процесс, и его организация в школе образует определенную систему, охватывающую эти этапы. Воспитание как система специально организованных мероприятий происходит на основе деятельности педагогов и воспитателей, а завершение процесса – на их взаимодействии.
***Ключевые слова:*** *воспитание; социальная практика; этап; функции; среда; формирование; систем*

**Summary.** Upbringing is a purposeful and organized process and serves to prepare the growing generation for life. The organization and results-oriented education depend on the correct definition of its essence and purpose and its implementation with the observance of certain principles and rules. Upbringing arises and develops on the basis of the unity of influences on the child and their social experience. The qualities that an individual inherits also have a certain influence. Discipline is also conditioned by certain inherited qualities.

Because education is also a broad process, it cannot be limited to the learning process alone, using the educational opportunities of learning. The school must carry out systematic, in-depth and comprehensive work in this direction.

Education is a step-by-step process, and its organization in the school forms a certain system covering these stages. Education as a system of specially organized activities takes place on the basis of the activity of educators and educators, and the completion of the process is based on their interaction.

***Keywords:*** *education; social experience; stage; function; environment; formation; system.*

*Məktəbdə tərbiyə ilə bağlı xüsusi fəaliyyətə və tədbirlərə ehtiyac varmı, yoxsa bu vəzifənin təlim prosesində həyata keçirilməsi ilə kifayətlənmək lazımdır? Bu sualı birmənalı cavablandırmayanlar az deyildir. Bəzi müəllimlər, hətta mütəxəssislər də iddia edirlər ki, məktəblərdə tərbiyə ilə bağlı xüsusi tədbirlərin keçirilməsi keçmiş sovet pedaqogikasının və sovet ideologiyasının tələblərindən irəli gəlirdi. Təlimin tərbiyəedici funksiyası dərs prosesində məzmunlu şəkildə reallaşdırıla bilirsə, məktəbdə əlavə vaxtda tərbiyə ilə bağlı tədbirlərin keçirilməsinə ehtiyac yoxdur. Həm də indiki şəraitdə buna nə müəllimlərin, nə də şagirdlərin vaxtı yoxdur.*

*Lakin bir çox müəllimlər, pedaqoq və psixoloqlar qeyd edirlər ki, müasir dövrdə məktəb yaşlı uşaqların və gənclərin tərbiyəsinin qarşısında duran vəzifələrin bütövlükdə və kompleks şəkildə yerinə yetirilməsi üçün təkcə təlim prosesində aparılan tərbiyə ilə kifayətlənmək doğru deyildir. Əvvəla təlim prosesinin bu sahədə imkanları heç də çox geniş deyildir, ikincisi isə, məktəb həm də şagirdləri maraqlandıran, onların maraq və motivlərini əhatə edə bilən dərsdənkənar tədbirlərlə də şagirdlərin təlim maraqlarının formalaşmasına nail olmalıdır.*

Tərbiyənin yaranması insanın və insan cəmiyyətinin yaranması ilə bağlı olmuşdur. Cəmiyyətin tələb və tələbatları ilə şərtlənən tərbiyə cəmiyyət inkişaf etdikcə daha da inkişaf etmiş və gənc nəslin həyata hazırlanmasında onun tələblərini özündə ifadə etmişdir. Cəmiyyətin hazırkı inkişaf səviyyəsindən asılı olaraq müasir dövrdə tərbiyənin qarşısında duran tələblər daha da artmış, vəzifələr mürəkkəbləşmiş və daha intensiv xarakter almışdır.

Tərbiyə gənc nəslin həyata hazırlanması prosesini əhatə edir. Bu prosesdə yaşlı nəsil özlərinin bilik və bacarıqlarını gənc nəslə öyrədirlər. Kiçiklər də həyatda yeni problemlərlə qarşılaşdıqca yeni bilik, bacarıq öyrənir, təcrübə qazanırlar. Onlar da öz bildikləri və bacardıqlarını özlərindən sonra gələn nəslə öyrədirlər və beləliklə tərbiyə yaşlı nəsillə böyüyən nəslin arasında varislik əlaqəsini təmin edir.

Müasir dövrdə tərbiyənin qarşısında çox mühüm vəzifələr durur. Yetişən nəsil cəmiyyətin toplamış olduğu bilikləri mənimsəməli, müəyyən bacarıq və vərdişlər əldə etməli, cəmiyyətin davranış təcrübəsi və normalarına yiyələnməlidir. Fəal həyat mövqeyinə malik olmalı, cəmiyyətin həyatında yaxından iştirak etməlidirlər.

Lakin müasir həyat təcrübəsi göstərir ki, gənc nəslin həyata hazırlanması işində bunlar heç də kifayətləndirici deyildir. Böyüməkdə olan nəslə həmçinin elə keyfiyyətlər formalaşdırılmalıdır ki, bunlar yaşlı nəslin qarşısında durmayan və ya onların həll edə bilmədiyi yeni – yeni vəzifələrin həll edilməsi üçün lazım olsun. Əks halda nə inkişaf, nə də yeniləşmə prosesləri baş verərdi. Bunu Azərbaycan tarixinə qızıl hərflərlə yazılan və hər günü möhtəşəm olan 44 günlük Vətən müharibəsində gənclərimizin, Azərbaycan ordusunun rəşadətli qələbəsi bir daha sübut etdi. Azərbaycan ailələrində, Azərbaycan məktəblərində mənfur ermənilər üzərində qələbəmizi təmin edən minlərlə şəhidlərimizin, qazilərimizin, hər biri qəhrəman olunan əsgər və zabitlərimizin aldıqları tərbiyə, vətənpərvərlik tərbiyəsi sübut etdi.

*Tərbiyə insanın yiyələndiyi və malik olduğu mənəvi sərvətlərin məcmusudur, şəxsin və bütövlükdə götürüldükdə cəmiyyətin inkişaf səviyyəsinin göstəricisidir.* Bu baxımdan onun verilməsi, gənc nəsil tərəfindən mənimsənilməsi və gələcək nəsillərə ötürülməsi vacibdir. Bu, bi-

lavasitə qarşılıqlı fəaliyyətdir, nəzəri və praktik fəaliyyət tələb edir.

Tərbiyə prosesdir və bu prosesdə tərbiyəçi ilə tərbiyə olunanların qarşılıqlı təsiri təmin olunur. Xüsusi təşkil olunmuş şərait yaradılır və bu şəraitdə şəxsiyyətin məqsədyönlü formalaşdırılması baş verir. Yəni, qarşıya müəyyən məqsəd qoyulur, tərbiyə prosesi təşkil olunur, bir sıra üsul və vasitələrdən istifadə olunur, tərbiyə olunanlarla tərbiyəedənlərin qarşılıqlı əks-əlaqəsi yaradılır. Deməli, tərbiyə sadəcə olaraq böyüklərin kiçikləri öyrətməsi yox, pedaqoji əsasa söykənən, bir sıra qanunauyğunluqları olan, prinsipləri gözləməklə aparılan pedaqoji prosesdir, optimal metod, forma və vasitələr tətbiq etməklə aparılan prosesdir. Qarşısında müəyyən məqsəd və vəzifələr qoyulan, bunların reallaşdırılması istiqamətində təşkil edilən və aparılan, müxtəlif texnoloji proseslərin təmin olunduğu prosesdir. Daha konkret ifadə etmiş olsaq, ***tərbiyə*** *– cəmiyyətin gələcək inkişafını təmin etmək və gənc nəslin həyata hazırlanması məqsədilə onlara zəruri olan keyfiyyətlərin aşılanması, yaşlı nəslin sosial – tarixi təcrübəsinin verilməsi prosesidir.*

Tərbiyə özbaşına baş verən kortəbii bir proses deyildir. O, verilir, şəxsiyyətin məqsədyönlü inkişaf prosesi kimi təşkil edilir və həyata keçirilir. Uşaq tərbiyə prosesində ayrı-ayrı xalqların və bəşəriyyətin tarix boyu toplamış olduğu maddi və mənəvi sərvətlərə, təcrübə və biliyə yiyələnir, həyata düzgün münasibətin mahiyyətini anlayır, gələcək həyat və cəmiyyət üçün hazırlanır. Buna görə də pedaqogika elmində tərbiyə həm sosial mənada, həm də pedaqoji aspektdə nəzərdən keçirilir, öyrənilir.

*Sosial mənada tərbiyə* – yaşlı nəslin topladığı təcrübənin, yəni, bəşəriyyətin tarixi inkişaf prosesində yaranan mənəvi irsin, xüsusən insanlara məlum olan biliklərin, bacarıqların, təfəkkür tərzinin, hüquqi, etik normaların, mənəvi davranış qaydalarının və s. böyüyən nəslə ötürülməsidir. Burada tərbiyə şəxsiyyətin sosiallaşması kimi mühüm bir vəzifəni yerinə yetirmiş olur.

*Pedaqoji mənada tərbiyə* – tərbiyə edilən şəxsə təsirlər sistemini nəzərdə tutan xüsusi təşkil edilmiş fəaliyyət, şəxsiyyətin məqsədyönlü formalaşdırılması prosesidir.

Şəxsiyyətə edilən məqsədyönlü və fəal təsirlər onun sosiallaşması prosesini sürətləndirir və nəticə olaraq bu təsirlər onlarda bir sıra yeni keyfiyyətlərin formalaşmasına səbəb olur. Nəticənin necəliyi isə aparılan tərbiyə işinin məzmun və mahiyyətini özündə əks etdirir.

Tərbiyənin formalaşması yalnız tərbiyəçinin etdiyi təsirlərlə məhdudlaşmır. Uşaq şəxsiyyətinə edilən təsirlərdən əlavə, həmçinin, təfəkkürün, əxlaqın, şəxsiyyətlərarası münasibətlərin, ünsiyyətin, əməyin və s. müxtəlif sahələrində şəxsi təcrübə qazanılır. Yəni sosial mühit, sosial münasibətlər və tərbiyə olunanın şəxsi təcrübəsi zəminində böyüyən nəslin tərbiyəsi, həyat və fəaliyyət təcrübəsi formalaşır. Bunların da nəticəsində tərbiyənin zənginləşməsi baş verir və şəxsiyyətin həyata, insanlara, ətraf aləmə, əməyə, təlimə, sosial mühitə, fəaliyyətə çoxsahəli münasibəti yaranır. Tərbiyənin başlıca vəzifələrindən biri məhz bu münasibətlərin obyektiv olmasına, şüurlu dərk olunmasına, bunların uşağın şüurunun, əqidəsinin və davranışının formalaşmasına istiqamətlənməsinə və onların həyati tələbatlarına çevrilməsinə nail olmaqdan ibarətdir. Buna görə də o elə təşkil edilməli, elə məzmunda aparılmalıdır ki, o, təhsilalanlarda özünütərbiyəyə, özünüinkişafa və özünüreallaşdırmağa yol açsın, onun nəticəsində fəal, həyati bacarıqlara malik, cəmiyyətdə özünə layiqli yer tutmağı qərarlaşdıran vətəndaş-şəxsiyyət formalaşsın.

Böyük Şərq mütəfəkkiri İmam Qəzali (1058-1111) yazırdı ki, tərbiyə – məhsulunun yaxşı yetişməsi və kamil bir hala gəlməsi üçün bağbanın əkdiyi bitkilərin arasında cücərən yabanı və zəhərli otları, tikanları çıxarıb atmasına bənzəyir [2, s.27].

Tərbiyə prosesinin mərkəzində böyüməkdə olan insanın şəxsiyyət kimi formalaşması məsələsi durur. Şəxsiyyət bir sıra obyektiv və subyektiv, təbii və sosial, daxili və xarici, ixtiyari və qeyri-ixtiyari, gözlə görünən və görünməyən çoxlu sayda amillərin təsiri nəticəsində inkişaf edir, formalaşır. Lakin insan təbiətin cansız, qeyri-fəal materialı deyildir. O, şüurlu, fəal, ətraf aləmi dəyişməyə qabil olan şəxsi təfəkkürə və psixikaya malik olan şəxsiyyətdir. İnsan öz şəxsiyyətini formalaşdırmaq və inkişaf etdirmək subyekti kimi də fəaliyyət göstərir. Buna görə də tərbiyə prosesinin insanın müxtəlif psixi xüsusiyyətlərindən – temperamentindən, psixo-fizioloji imkanlarından, səy və marağından və digər xüsusiyyətlərindən asılılığı, onlarla şərtlənməsi özünü göstərir. Buna görə də

uşağın öz tələbatı, marağı, motivləri, hərəkət və davranışının məzmunu çox vaxt tərbiyə prosesinin gedişinə öz təsirini göstərir. Bunlarla yanaşı, şagirdlərin əhatəsində olan makro və mikro mühit, kütləvi informasiya mənbələri və vasitələri, uşağın özünün həyatda qazanmış olduğu təcrübə və s. amillər tərbiyə prosesinə təsir edir. Bu təsir həm məqsədyönlü, həm də kortəbii olur.

Lakin tərbiyə prosesi bunlarla da məhdudlaşmır. Həmçinin burada fərdin irsi, genetik xüsusiyyətləri də müəyyən təsir imkanlarına malik olur. Tərbiyə prosesinə onların təsirini nəzərə almamaq səhvə yol vermək olardı. Tərəddüd etmədən söyləmək olar ki, tərbiyədə irsi xüsusiyyətlər heç də az rol oynamır. Tərbiyə prosesində şəxsiyyətə edilən təsirlər və qazanılan keyfiyyətlərlə yanaşı, şəxsiyyətin tərbiyəlilik səviyyəsinin əsasında irsi xüsusiyyətlərin də durduğunu inkar etmək doğru olmazdı. Bunu empirik şəkildə müşahidə edilən yüzlərlə nümunələr və son illər amerikan pedaqoq və psixoloqları tərəfindən aparılan tədqiqatlar da sübut edir. Tərbiyənin formalaşmasına şəxsiyyətə edilən təsirlər və qazanılan təcrübə ilə yanaşı, irsi amillər də müəyyən təsir göstərir. Azərbaycan xalq pedaqogikasında da buna aid çoxlu sayda nümunələrin olduğuna da laqeyd qalmaq və bunların heç nədən yaranmadığını unutmaq olmaz.

Tərbiyə cəmiyyətin ən başlıca funksiyalarından biridir. Buna görə də o, cəmiyyətin tələblərinə uyğun olmalıdır. Tərbiyənin məqsədləri cəmiyyətin inkişaf tələbatları ilə təmin olunur, eyni zamanda sosial inkişafın, texniki tərəqqinin sürətindən və bütövlükdə cəmiyyətin, böyüklərin və uşaqların imkanlarından asılı olur.

Tərbiyənin məqsədləri, prinsipləri, vəzifələri və məzmunu hələ keçən əsrdə (Paris, noyabr 1974) Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət məsələləri üzrə Baş Konfransının "Tövsiyələri"ndə öz əksini tapmışdır. Bu sənəddə tərbiyənin tərifi aşağıdakı kimi verilir: "Tərbiyə sosial həyatın elə bir prosesidir ki, onun vasitəsilə ayrı-ayrı insanlar və sosial qruplar milli və beynəlxalq birlik naminə və onların çərçivəsində şüurlu surətdə bilik və qabiliyyətlərini inkişaf etdirməyi öyrənirlər." [3, s.4]. Tərbiyənin məzmunun əsas prinsipləri və vacib aspektləri bu sənəddə aşağıdakı kimi göstərilir:

– bütün xalqların, sivilizasiyaların mədəniyyətinə, dəyərlərinə, həyat tərzinə hörmət;

– xalqlar və millətlər arasında artan qlobal qarşılıqlı asılılığın dərk edilməsi;

– başqaları ilə ünsiyyət qabiliyyəti;

– ayrı-ayrı şəxslərin, sosial qrupların və xalqların bir-biri qarşısında hüquq və vəzifələrinin dərk edilməsi;

– beynəlxalq həmrəylik və əməkdaşlıq zərurətinin anlanılması və s.

Göründüyü kimi, burada tərbiyəyə dar çərçivədə, yəni müəyyən keyfiyyətlərin və davranış normalarının aşılanması kimi deyil, qlobal miqyasda və geniş mənada yanaşılır ki, bu da onun komponentlərinin ümumbəşəri dəyərlər olduğunu göstərir.

Respublikamız müstəqillik qazandıqdan sonra siyasi, sosial və iqtisadi həyatında baş verən yeniliklər təhsil sisteminə, cəmiyyətin mənəvi həyatına, bütün təhsil və tərbiyə institutlarında tərbiyə prosesinin məzmununa, onun təşkili və aparılmasına da köklü surətdə təsir göstərmişdir. Təlim-tərbiyə prosesinin məqsədi, vəzifələri, məzmunu, metodoloji əsasları yeniləşmiş, yeni mahiyyət və məzmun kəsb etmişdir. Soy-kökə qayıdış, tərbiyədə milli xüsusiyyətlərin nəzərə alınması, Türk dünyası və İslam əxlaqının dəyərlərinin tərbiyənin məzmununa gətirilməsi, milli və ümumbəşəri əxlaqının inteqrasiyası bu məqsəd, vəzifə və məzmunu daha da zənginləşdirmişdir.

Tərbiyə prosesində məqsəd onun nəticəsinin qabaqcadan aydın şəkildə görünməsi olduğundan onun məzmunu, forması, metodları, vasitələri bu məqsədə tabe olur və onun reallaşdırılmasına yönəlir. Bu baxımdan tərbiyənin məqsədinin aydın ifadə olmasının böyük əhəmiyyəti vardır. Hazırda respublikamızda ***tərbiyənin məqsədi milli və ümumbəşəri əxlaqi-mənəvi dəyərlərə yiyələnən, vətənpərvər, azərbaycançılıq ideyalarına sadiq olan və onları qoruyan, Azərbaycanı layiqincə təmsil edən vətəndaş-şəxsiyyət yetişdirməkdən ibarətdir.***

Tərbiyənin qarşısında duran vəzifələr onun məqsədindən irəli gəlir və onun həyata keçirilməsini təmin edir. Bu baxımdan respublikamızda ***tərbiyənin qarşısında duran vəzifələr gənc nəsildə milli və ümumbəşəri dəyərlərin, əxlaqi, siyasi, estetik, fiziki, ekoloji, iqtisadi, əməksevər və s. mənəvi keyfiyyətlərin aşılanması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsindən ibarətdir.***

Şagird şəxsiyyətinin formalaşdırılması onların əqli, mənəvi və fiziki güclərini inkişaf etdirməyi, yaradıcı qabiliyyətlərini dərinləşdirməyi, onlarda yüksək mənəvi keyfiyyətlər və davranış normaları tərbiyə etməyi, onları müstəqil Azərbaycan dövlətinin vətəndaşı kimi hazırlamağı tələb edir.

Tərbiyə – tərbiyə edənlərin tərbiyə olunanlara təsiri ilə müxtəlif fəaliyyət prosesinin təşkili prosesidir. Bu proses qarşılıqlı təsirdir və bu zaman şəxsiyyətin inkişafına rəhbərlik edilir. Nəticədə tərbiyə olunanlar müəyyən təcrübə əldə edirlər. Şəxsiyyətlərarası əlaqənin əsası olan ünsiyyət vasitəsilə şəxsiyyətin sosiallaşması və inkişafı baş verir. Bütün bunlar isə şəxsiyyətin mədəniyyətinin əsaslarını formalaşdırmağa imkan verir.

Tərbiyə birdən birə baş verən proses deyildir. Onun reallaşması müəyyən mərhələlər üzrə baş verir. Yəni tərbiyə mərhələli prosesdir. Rus pedaqoqu T.A. İlina bunun aşağıdakı bir neçə mərhələdən ibarət olduğunu qeyd edir:

1. *Şəxsiyyətin ümumi normalar və tələblərlə tanış edilməsi*. Bu mərhələnin tərbiyə prosesinin ilkin mərhələsi kimi vacib elementi şagirdlərin əsas anlayışlar və əxlaq normaları ilə tanış edilməsidir. Bunun üçün şagirdlərə davranış normaları, özünü aparmaq qaydaları, nə üçün başqa cür deyil, məhz bu cür aparmağın lazım olduğu öyrədilməlidir. Onlar davranışın ümumi normaları və onlara verilən tələblərlə tanış edilməlidirlər.

2. *Şagirdlərdə davranışın norma və tələblərinə müsbət münasibətlərin formalaşdırılması.* Tərbiyə prosesində bunun mühüm rolu vardır. Davranış normalarına aid biliklərə yiyələnməyin zəruriliyinin dərk olunması bu prosesin əsasında dayanır. Öyrədilən biliklərin şagirdlərin təsəvvürlər sistemi və ya onlara əvvəlcədən məlum olan hadisələrlə müqayisəsi bu prosesdə olduqca mühüm rol oynayır. Belə müqayisə onlarda qiymətvermənin formalaşmasına, düzü səhvdən, doğrunu yanlışlıqlardan fərqləndirməyə və bu istiqamətdə müzakirələrə gətirib çıxarır ki, bu da şagirdlərdə verilənlərə düzgün münasibətlərin formalaşmasına əsaslı təsir göstərir. Şagirdlər bu və ya digər tələbin ədalətli və ya ədalətsiz, faydalı və ya faydasız olduğu haqqında özləri qərar qəbul edirlər. Bu da onlarda davranış motivlərinin formalaşmasına əsaslı təsir göstərir.

3. *Baxış və inamın formalaşdırılması.* Şagirdlərdə müsbət davranış motivlərinin formalaşdırılması onlarda tələb olunan kimi hərəkət etmək arzusunun yaranmasına səbəb olur. Belə arzunun yüksək səviyyədə, güclü olması isə şagirdlərdə davranış normalarına müsbət baxışların və ona inamın formalaşmasına gətirib çıxarır.

Baxışların formalaşması *qəbuletmə, mənimsəmə və mənimsənilmişləri normalara çevirmək* mərhələləri ilə xarakterizə olunur. İnamın formalaşması isə *düzgün davranış təcrübəsinin təşkili, tərbiyəedici situasiyaların yaradılması, fəaliyyətdə mövqeyin aşkarlanmasının tələb edilməsi, düzgün fəaliyyətin təşkilində tapşırıqlar hesab olunur.*

Düzgün fəaliyyətin həyata keçirilməsi onun öyrədilməsini tələb edir. Bunun üçün tərbiyəverənlər xüsusi situasiyalar yaratmalı, düzgün davranış təcrübələri təşkil etməlidirlər.

4. *Şəxsiyyətin ümumi istiqamətinin formalaşdırılması.* Tərbiyə fəaliyyətinin düzgün təşkili, bu zaman müəyyən tapşırıqların yerinə yetirilməsi, onların dəfələrlə təkrar edilməsi şagirdlərdə düzgün davranış adət və vərdişlərinin formalaşmasına gətirib çıxarır. Belə adət və vərdişlər insanı düzgün davranışa yönəldən daxili qüvvə kimi çıxış edir. Bu mərhələdə marağın formalaşdırılması da önəmli rol oynayır [4, s.373-378].

Davranışda yaranmış düzgün adət və vərdişlər şəxsiyyətin xarakterində öz izlərini qoyur və onların gələcək inkişafı, təkmilləşməsi və özünütərbiyəsi üçün müəyyən əsas olur. Bu isə inama əsaslanan davranış normalarının reallaşması ilə nəticələnir.

Son illər məktəbdə aparılan tərbiyə işlərinin sırf təlimlə bağlanılması halları özünü göstərməkdədir. Müəllimlərin bir qismi təlimin tərbiyəedici imkanlarından kifayət qədər geniş istifadə edilməsini şagirdlərlə aparılan tərbiyəvi işlər üçün kifayətləndirici hesab edir və əlavə olaraq xüsusi təşkil olunmuş tərbiyəvi işlərə ehtiyac olmadığını iddia edirlər. Təəssüf ki, bu hal özünün mənfi nəticəsini heç də az gözlətmir. Şagirdlər, elə müəllimlərin də bir qismi məktəbə təlim-tərbiyə müəssisəsi kimi deyil, şagirdlərin dərs öyrəndikləri müəssisə kimi yanaşırlar. Buna görə də belə hesab edirik ki, tərbiyə şəxsiyyətin təşəkkülü, inkişafı və formalaşmasının xüsusi sahəsi olduğundan onun təhsil və təlimin əlavəsi olması kimi izah edilməsi heç də düzgün

hesab edilə bilməz. Belə yanaşma məktəbdə tərbiyənin rolunu azaldır və onu təhsilin əlavəsinə çevirir. Məktəbdə aparılan tərbiyə təlim prosesində aparılan tərbiyə imkanları ilə məhdudlaşdırılır ki, bu da onun qarşısında duran mənəvi və sosial vəzifələrin yerinə yetirilməsini tam əhatə edə bilmir. Belə olduqda bu biliklərin şagirdlərin əqidəsinə çevrilməsi çox zaman kölgədə qalmış olur. Görkəmli rus tənqidçisi V.Q. Belinski bu münasibətlə yazırdı ki, bilik hələ əqidə deyil, belə ki, oxunulan, yaxud eşidilən, hətta olduğu kimi başa düşülən, lakin şəxsi təbiətimizdən keçməyən, onun əlamətlərini əks etdirməyən ideya ölü kapitaldır.

Məktəbdə tərbiyə tam bir sistem kimi qəbul edilməli və onun aparılması təlimlə əlaqəli olmaqla yanaşı, müəyyən bir sistem daxilində həyata keçirilməlidir. Aydın məsələdir ki, məktəb təlim-tərbiyə müəssisəsidir və hər iki sistem özlüyündə məktəbin pedaqoji sisteminin əsaslarını təşkil edir, bir növ iki altsistemlər kimi pedaqoji sistemi tamamlayır.

Məktəbin başlıca vəzifəsi gənc nəsli həyata hazırlamaq, onları fəal, yaradıcı, yüksək mənəviyyatlı şəxsiyyətlər kimi formalaşdırmaq və cəmiyyətin fəal həyatına daxil etməkdir. Bu məqsəd məktəbin bütün fəaliyyət sahələrində, həm təlim, həm də tərbiyə proseslərində həyata keçirilir və bütün təhsil illərini, onun pillə və səviyyələrini əhatə edir. Təhsil prosesinin iştirakçılarının ünsiyyət və fəaliyyəti prosesində tərbiyə prosesi müəyyən prinsiplərə, qaydalara, pedaqoji nəzəriyyəyə əsaslanmaqla müəyyən metod və vasitələrlə həyata keçirilir. V. Belinski yazırdı: "Təhsilin müxtəlif növləri içərisində ən yüksək mərtəbəni mənəvi-əxlaqi təhsil tutur. Tərbiyə təhsildən üstündür, çünki insanı tərbiyə yaradır."

Tərbiyə sisteminin yaranması özü məqsədyönlüdür. Məktəbdə tərbiyə prosesinin bütün iştirakçılarının birgə fəaliyyəti bu sistemi yaradır və bu iştirakçılar onun işlək mexanizmini təşkil edirlər. "Onların birgə fəaliyyəti prosesində tərbiyə sisteminin məqsəd və vəzifələri formalaşır, onun gerçəkləşmə yolları müəyyən edilir və fəaliyyəti təşkil olunur" [5, s.119].

Məktəbin tərbiyə işinin sistemi onun ayrı-ayrı komponentlərinin məcmusu və tərbiyənin bütün növlərinin qarşılıqlı əlaqədə verilməsinin iştirakçıları arasında vahidliyin olması kimi özünü göstərir. Bu komponentlər əsasən qarşıya qoyulmuş məqsəd, onun reallaşdırılması üçün təşkil edilən fəaliyyətin məzmunu, istifadə ediləcək vasitələr, tərbiyəvi prosesin subyektləri arasında münasibətlər və s. ibarət olub, bütöv bir fəaliyyət sistemini təşkil edir.

Praktik pedaqoji fəaliyyətdə və ədəbiyyatlarda məktəbin tərbiyə sisteminin öz inkişafında dörd mərhələdən keçdiyi göstərilir:

1) sistemin qurulması. Burada əsas məqsəd aparıcı pedaqoji ideyaların seçilməsi, həmrəy kollektivin formalaşmasıdır;

2) sistemin işləməsi və təcrübədən keçirilməsi;

3) sistemin bütöv və bitkin şəklə salınması, təsdiq edilməsi;

4) tərbiyə sisteminin yenidən qurulması [5, s.122-123].

Təcrübə göstərir ki, məktəbin tərbiyə sisteminin yaranması və inkişaf texnologiyaları aşağıdakı bir sıra ardıcıllıqdan ibarətdir:

– əsas məqsəd və vəzifələrin dürüst ifadə edilməsi, onların əsasında nəzəri təlimatın tərtibi;

– sistem təşkil edən elementlərin dəqiqləşdirilməsi və onları hərəkətə gətirən mexanizmlərin, nəzəri təlimata müvafiq yeni pedaqoji texnologiyaların, təqdim olunan pedaqoji struktur bölmələrində onların reallaşdırma imkanlarının müəyyən edilməsi;

– bunun üçün vacib olan şəraitin yaradılması və yeni pedaqoji texnologiyalar vasitəsilə nəzəri materialların təcrübədə həyata keçirilməsi.

Tərbiyənin xüsusi təşkil edilmiş fəaliyyət və təsir prosesi kimi özünü göstərməsi əsasən onunla xarakterizə olunur ki, böyüməkdə olan şəxsiyyətdə cəmiyyətin müəyyənləşdirdiyi mənəvi normaların formalaşdırılması istiqamətində mütəşəkkil fəaliyyət təşkil olunur. Eyni zamanda uşaqlarda elə keyfiyyətlər formalaşdırmaq lazım gəlir ki, o, gələcəkdə qarşılaşa biləcəyi problemləri aradan qaldırmaq imkanına malik olsun. Bunun üçün tərbiyə prosesində sosial həyatda baş verən və verə biləcək dəyişiklikləri qabaqcadan görmək, nəzərə almaq və planlaşdırmaq lazım gəlir ki, bu da tərbiyə prosesinin məqsədyönlülüyünü təmin etmiş olur.

Deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, tərbiyə xüsusi təşkil olunmuş fəaliyyət olmaqla yanaşı, həm də tərbiyə olunanların bu prosesdə fəal olmasını da zəruri edir. Bu fəallığın qarşılıqlı, yəni tərbiyəedənlərlə

tərbiyə olunanların arasında olmasının təmin edilməsi ilə baş verməsi şagirdi tərbiyənin obyekti çərçivəsindən çıxarır və onun qarşılıqlı subyektinə çevirir ki, bu da aparılan işlərin mütəşəkkilliyini və nəticəyönlülüyünü təmin etmiş olur.

Müasir təhsilin qarşısında duran başlıca məqsəd və vəzifə böyüməkdə olan nəsli şəxsiyyət kimi formalaşdırmaq, onları cəmiyyət üçün faydalı vətəndaş kimi tərbiyə etməkdən ibarətdir. Belə bir şəxsiyyət-vətəndaşı xarakterizə edən ən mühüm keyfiyyətlər isə onların təkcə dərin bilik və bacarıqlara malik olması deyil, vətənpərvər, azərbaycançılıq məfkurəsinə malik olması, yüksək mənəviyyat daşıyıcısı kimi cəmiyyətdə fəal mövqe tutmasından ibarətdir. Təlim-tərbiyə müəssisəsi olan məktəb 6-17 yaşlıların bu keyfiyyətlərə yiyələnmələrində əsas mühitdir, ocaqdır və bazadır. Təlim, dərs prosesi ilə yanaşı, burada aparılan dərsdənkənar tərbiyəvi işlər də bu keyfiyyətlərin tərbiyə olunmasında mühüm rol oynayır. Şagirdlərin asudə vaxtlarında, dərslərdən əlavə vaxtlarda müəyyən tərbiyəvi işlərin həyata keçirilməsi təlim prosesində verilən (alınan) tərbiyənin daha da dərinləşdirilməsinə, genişləndirilməsinə və möhkəmləndirilməsinə əsaslı dərəcədə kömək etdiyindən məktəbdə tərbiyəvi işlər təlim prosesinin davamı kimi xüsusi təşkil edilmiş fəaliyyət olmalı, təlim və dərsdənkənar tədbirləri əhatə etməklə xüsusi bir sistem təşkil etməlidir.

**Problemin aktuallığı.** Məktəbdə şagirdlərin tərbiyəlilik səviyyəsinin yüksəldilməsi həmişə aktual olmuş və hazırda da aktual problem olaraq qalır. Tərbiyəyə təsir edən mənfi amillərin getdikcə artması, uşaqların tərbiyəsinə heç də hər zaman müsbət təsir etməyən informasiyaların çoxalması hazırda məktəbdə və ailədə gənc nəslin tərbiyəsinə daha həssaslıqla yanaşılmasını zəruri edir. Şagirdlərin bir şəxsiyyət kimi formalaşdırılması təhsilin əsas məqsədi və məktəbin başlıca vəzifəsi olduğundan məktəbdə bu işə həm təlim prosesində, həm də dərsdənkənar tərbiyəvi tədbirlər prosesində bir sistem kimi yanaşılmalı və onun kompleks şəkildə həyata keçirilməsinə nail olunmalıdır.

**Problemin yeniliyi.** Məqalədə tərbiyənin mahiyyəti, müasir dövrdə onun qarşısında duran başlıca məqsəd və vəzifələr, tərbiyənin mərhələli şəkildə həyata keçirilməsi, onun xüsusi təşkil olunmuş fəaliyyət sahəsi olması və təlim-tərbiyə prosesinin daxili mahiyyətindən irəli gələn bir sistem olması əsaslandırılmış və məktəbdə bu istiqamətdə aparılan işlərin başlıca funksiyaları şərh edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** İrəli sürülən fikirlər, əsaslandırılmış müddəalar məktəblərdə tərbiyə prosesinə xüsusi bir sistem kimi yanaşılmasında, onun müəyyən mərhələlər üzrə aparılmasında, məktəbin pedaqoji kollektivinin bu sahədə fəaliyyətinin qurulmasında praktik köməklik baxımından müəllimlər, sinif rəhbərləri və məktəbin ictimai təşkilatları nümayəndələri üçün faydalıdır.

**Ədəbiyyat:**

1. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu. -Bakı: Hüquq ədəbiyyatı, -2010.
2. İmam Qəzali. Ey oğul. -Bakı: Nurlar nəşriyyatı, -2007.
3. ЮНЕСКО: Рекомендании Генеральная конференции ООН по вопросам образования, науки и культуры. -Париж, -1974, с.4.
4. Ильина, Т.А. Педагогика.-Москва: Просвещение, -1984.
5. Сластенин, В.А., Исаев И.Ф., Шиянов Е.Н. Общая педагогика / Под ред. В.А. Сластенина. -Москва: Гуманит. Изд. центр ВЛАДОС,- 2003. –Ч 2.

**E-mail:** müseyibilyas@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 27.01.2022

**UOT 371**

***Leyla Fuad qızı Babayeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*
*https://orcid.org/ 0000-0001-7477-1738*
*https://doi.org/10.5281/zenodo.6448076*

# PEDAQOJİ TOLERANTLIQ MÜƏLLİMİN MÜHÜM PEŞƏ KEYFİYYƏTİ KİMİ

***Лейла Фуад гызы Бабаева***
*диссертант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ПЕДАГОГИЧЕСКАЯ ТОЛЕРАНТНОСТЬ КАК ВАЖНОЕ ПРОФЕССИОНАЛЬНОЕ КАЧЕСТВО УЧИТЕЛЯ

***Leyla Fuad Babayeva***
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State University*

# PEDAGOGICAL TOLERANCE AS AN IMPORTANT PROFESSIONAL QUALITY OF A TEACHER

**Xülasə**. Respublikamızda tolerantlıq dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkəmizdə dini, millətlərarası və s. tolerantlığın bərqərar olması və təbliği istiqamətində bir-birinin ardınca, özü də tez-tez beynəlxalq tədbirlər keçirilir. Pedaqoji tolerantlıq tələbə-tələbə, şagird-şagird, müəllim-tələbə, müəllim-şagird münasibətlərinin düzgün və səmərəli qurulmasında, şəxsiyyətlərarası münaqişələrin profilaktikasında, aradan qaldırılmasında, yaxud həll edilməsində mühüm əhəmiyyət daşıyır.
***Açar sözlər**: tolerantlıq, pedaqoji tolerantlıq, şagirdin tolerantlığı, müəllimin tolerantlığı, müəllim-şagird münasibətlərində tolerantlıq*

**Резюме**. Толерантность стала важной частью государственной политики в нашей республике. В нашей стране одно за другим часто проводятся международные мероприятия по формированию и пропаганде религиозной и межнациональной толерантности.

Существуют разные виды толерантности. Одним из них является педагогическая толерантность. Педагогическая толерантность имеет большое значение в правильном и эффективном налаживании отношений студент-студент, ученик-ученик, учитель-студент, учитель-ученик, предупреждении, устранении или разрешении межличностных конфликтов.
***Ключевые слова**: толерантность, педагогическая толерантность, ученическая толерантность, педагогическая толерантность, толерантность в отношениях учитель-ученик*

**Summary**. Tolerance has become an important part of the state policy in our country. In our country, one after another, international events are often held to form and promote religious and interethnic tolerance.

There are different types of tolerance. One of them is pedagogical tolerance. Pedagogical tolerance is of great importance in the correct and effective establishment of student-student, student-student, teacher-student, teacher-student relationships, prevention, elimination or resolution of interpersonal conflicts.
***Summary**: tolerance, pedagogical tolerance, student tolerance, pedagogical tolerance, tolerance in teacher-student relations*

Ailənin, cəmiyyətin səyləri ona doğru yönəldilir ki, vətənə layiqli oğul və qızlar yetişdirsinlər. Yeniyetmə və gənclər də həm ailələrinin, həm cəmiyyətin, həm də Vətənin taleyi üçün narahat olsunlar, ata-analarının, doğma yurdun şərəf və namusunu qorusunlar, Vətən darda olanda onun müdafiəsinə qalxsınlar.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təhsilin başlıca məqsədi belə müəyyənləşdirilmişdir: "1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; 2. Milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlamaq və s." (1).

Bu mühüm keyfiyyətləri özündə birləşdirən şəxs kamilliyi, hərtərəfli inkişafı ilə diqqət mərkəzinə gəlir, təqdir olunur, bəyənilir, nüfuz və hörmət qazanır.

Şəxsiyyətin önəmli keyfiyyətlərindən biri də tolerantlıqdır. Həzrəti Məhəmməd əleyhissəlam (s.ə.s) hələ vaxtilə deyirdi: "Qüvvətli adam güləşəndə qalib gələn deyil, qəzəblənən vaxtı qəzəbini boğa biləndir".

Tolerantlıq latın sözü olub tərcümədə "*dözüm, dözmək, dözümlülük, tab gətirmək, səbirli, hövsələli, təmkinli olmaq, fikir verməmək, göz yummaq*" mənasında işlədilir. Tolerantlıq – dözümlülük, hövsələli, səbirlilik, təmkinlilik, tolerant – dözümlü. səbirli, hövsələli, səbirli olan deməkdir. Lakin baxır nə zaman və harada, hansı şəraitdə? Söhbət şəxsiyyətlərarası qarşılıqlı münasibətlərdə tolerantlıq, səbir, hövsələ nümayiş etdirməkdən, mühasibinin şəxsiyyətinə, rəyinə, mövqeyinə, milliyyətinə, cinsinə, dininə, düşüncə tərzinə münasibətdə təmkinlilik göstərməkdən, tolerant, dözümlü, səbirli, hövsələli olmaqdan, özünü saxlamaqdan gedir. Əks təqdirdə intolerantlıq – hövsələsizlik, səbirsizlik, hövsələsizlik, təmkinsizlik baş qaldırır.

Tolerantlıq – müsbət, intolerantlıq – mənfi keyfiyyətdir. Yenə də baxır hansı şəraitdə, nə zaman və kimə münasibətdə. Əgər insan fiziki təzyiqlə, zorakılıqla, təhqirlə üzləşirsə, düşmənlə rastlaşırsa, tolerantlıq deyil, intolerantlıq nümayiş etdirmək lazım gəlir. Bu zaman artıq tolerantlıq deyil, intolerantlıq müsbət keyfiyyət kimi özünü göstərir. Erməni-faşist işğalçıları ilə mübarizədə biz məhz intolerant olduq, sonsuz nifrətə bələnib düşmənə ağır zərbələr vurduq, əzəli torpaqlarımızdan onları qovduq, erməni ordusunu darmadağın etdik.

Respublikamızda tolerantlıq dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkəmizdə dini, millətlərarası və s. tolerantlığın bərqərar olması və təbliği istiqamətində bir-birinin ardınca, özü də tez-tez beynəlxalq tədbirlər keçirilir.

Ümummilli liderimiz Heydər Əliyev tolerantlığa yüksək dəyər verirdi. Aşağıdakı fikirlər Ulu öndərə məxsusdur: "Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır. ... Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!"

Ölkəmizdə tolerantlığın möhkəmləndirilməsi istiqamətində Ulu öndər Heydər Əliyevin başladığı siyasəti Azərbaycan Prezidenti cənab İlham Əliyev müvəffəqiyyətlə davam etdirməkdədir. Cənab İlham Əliyevin sözləridir: "Azərbaycan qədim dini və milli tolerantlıq ənənələrinə malikdir. İndi mədəni müxtəliflik, çoxmədəniyyətlilik məsələləri geniş müzakirə olunur. Və əgər bu gün kimsə çox mədəniyyətliliyə qarşı çıxırsa, bu halda soruşmaq lazımdır ki, o, bunun əvəzində nə təklif edir? Özünü təcrid etmənimi?" Və ya: "Müxtəlif millətlərin və dinlərin nümayəndələri həmişə Azərbaycanda bir ailə kimi yaşayıb və dövlətin bərabər müdafiəsindən istifadə ediblər. Biz istəyirik ki, bizim təcrübəmiz öyrənilsin və başqa ölkələrdə maraq doğursun, çünki bu, nadir təcrübədir".

Tolerantlıqla bağlı Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fikirləri də diqqətəlayiqdir. Oxuyuruq: "Əsrlər boyu ölkəmizdə müxtəlif dillərdə danışan və müxtəlif dinləri təmsil edən insanlar qarşılıqlı hörmət və sülh şəraitində yaşayıb. Bu gün də dini dözümlülük, açıqlıq, tolerantlıq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir".

Tolerantlıq, başqa sözlə, dözümlülüklə əlaqədar bu və ya digər xalq müxtəlif düşüncə

tərzinə malikdir. Belə ki, ingilislər tolerantlığı milli xarakterin üzvi hissəsi kimi nəzərdən keçirdikləri halda, amerikalılar ona öz Əsas Qanunlarının – konstitusiyalarının ayrılmaz hissəsi kimi yanaşırlar.

Tolerantlığın bir sıra növləri vardır. Həmin növlərə aiddir: dövlətlərarası tolerantlıq, siyasi tolerantlıq, beynəlxalq münasibətlərdə tolerantlıq, dini tolerantlıq, irqi tolerantlıq, millətlərarası münasibətlərdə tolerantlıq, şəxsiyyətlərarası münasibətlərdə tolerantlıq, oğlanlar və qızlar arasındakı münasibətlərdə tolerantlıq, gender tolerantlığı, ailə münasibətlərində tolerantlıq, yoldaşlıq və dostluq münasibətlərində tolerantlıq, sevdiyi oğlana (qıza) münasibətdə tolerantlıq, tələbə (sinif) yoldaşlarına münasibətdə tolerantlıq, rəhbər işçi və tabe işçi arasındakı münasibətlərdə tolerantlıq və nəhayət, pedaqoji tolerantlıq.

Bəzi mənbələrdə "təhsil tolerantlığı" ifadəsinə də rast gəlirik. "Pedaqoji tolerantlıq" və "təhsil tolerantlığı" anlayışları arasında yaxınlıq olsa da, fərqli cəhətlər də özünü göstərir. Belə ki, "təhsil tolerantlığı" dedikdə, yüksək təhsilli insanların nisbətən az təhsilli insanların fikir və mülahizələrinə və davranışına dözümlü münasibət anlaşılırsa; pedaqoji tolerantlıq dedikdə, müəllim-şagird (tələbə), müəllim-valideyn, müəllim-müəllim, müəllim-məktəb rəhbərləri arasındakı münasibətlərdəki tolerantlıqdan söz açılır.

Pedaqoji tolerantlıq tələbə-tələbə, şagird-şagird, müəllim-tələbə, müəllim-şagird münasibətlərinin düzgün və səmərəli qurulmasında, şəxsiyyətlərarası münaqişələrin profilaktikasında və aradan qaldırılmasında, yaxud həll edilməsində böyük əhəmiyyət daşıyır.

Pedaqoji tolerantlıq başqa tələbələrin fərqli düşüncə, davranış və rəftarlarını anlamaq və onlara hörmət etmək qabiliyyəti kimi özünü göstərir. Bir sıra hallarda pedaqoji tolerantlığa hər hansı şagirdə, müəllimə müsbət yanaşma kimi də baxırlar. Bu, o deməkdir ki, müəllim şagirdi necə varsa eləcə də qəbul etməlidir.

Pedaqoji tolerantlıq zamanı müsbət yanaşma tələbənin (şagirdin) öz yoldaşlarına və ya yoldaşlarının ona, eləcə də müəllimin tələbələrə, tələbələrin də müəllimə necə varsa (mövcud olduğu kimi) və hörmətlə yanaşmasını tələbata çevirir.

Bunlar tələbələrin bir-birləri ilə, yaxud da müəllimlə münasibətlərinə, yaxud tələbələrin bu və ya digər sahədəki səhvlərinə və çatışmayan cəhətlərinə fikir verilməsini deyil, yaxşı keyfiyyətlərinə və hərəkətlərinə, bacarıq və qabiliyyətlərinə diqqət yetirilməsini nəzərdə tutur.

Pedaqoji tolerantlığın formalaşdırılmasında yanaşma tərzləri mühüm rola malikdir. Şəxsiyyətlərarası münasibətlərin düzgün qurulması tələbədə özünə inamı, müstəqilliyi, təşəbbüskarlığı və özfəaliyyəti xeyli dərəcədə artırır. Mənfi yanaşma isə, təbii ki, mənfi reaksiya doğurur. Bu zaman münasibətlərdə məcburetmə, təzyiq və mənfi qiymətləndirmə üstün mövqe qazanır. Nəticədə tələbələr təşəbbüskarlıqdan, idrak müstəqilliyindən və yaradıcı fəallıqdan məhrum olurlar.

Hər hansı bir ixtilaflı vəziyyət yaranırsa-yaransın, müəllimdən pedaqoji tolerantlıq və hövsələ tələb edir. Tələbə onu özündən çıxara, artıq hərəkətə yol verə bilər. Müəllim özünü ələ almalı, yersiz özündən çıxmamalı, səsini qaldırmamalı, nitqində artıq sözlər işlətməməlidir. Məktəb təcrübəsində bəzi müəllimlərin tələbələri (şagirdləri) təhqir etdiyi, onlara əl qaldırdığı, söyüş söydüyü hallar olur. Təbii ki, bu, yolverilməzdir.

Hər bir müəllim, istər ümumtəhsil, orta ixtisas, istərsə də ali məktəb müəllimi olsun Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, 1/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları" ilə tanış olmalı, tələbələrlə (şagirdlərlə) qarşılıqlı münasibətlərində tolerantlıq nümayiş etdirməlidirlər. Bu "...Qaydalar"da nəzərdə tutulur ki, müəllim pedaqoji etika və əxlaq normalarına riayət etməli, müəllim nüfuzunu yüksək tutmalı, ziyalılıq nümunəsi göstərməli" (3.8.-ci bənd); təhsilalanların şərəf və ləyaqətinə hörmətlə yanaşmalı, əsassız mühakimələrə yol verməməli, obyektivlik və qərəzsizlik nümayiş etdirməli (3.10.-ci bənd); təhsilalanlarla münasibətdə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət tərzi seçməli (4.1.1.-ci bənd); ***təmkinli*** davranmalı və hər bir vəziyyətdə özünü ələ almağı bacarmalıdır (4.1.3.-ci bənd).

Eyni zamanda müəllim "təhsilalanlara qarşı xeyirxah və ədalətli olmalı, onlara qarşı haqsızlığa yol verdikdə səhvini etiraf etməyi bacarmalı, onun nəticələrini aradan qaldırmağa çalışmalıdır (4.1.7.-ci bənd); hər zaman nitqinə fikir verməli, nitqində kobud və təhqiredici sözlər işlətməməlidir (4.1.8.-ci bənd); təhsilalanlara qarşı fiziki zor işlətməməli, onların şərəf və lə-

yaqətini alçaldan hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir (4.1.9.-ci bənd).

Yuxarıda sadalananlar müəllim-tələbə (müəllim-şagird) əməkdaşlığına, müəllim-tələbə (müəllim-şagird) münasibətlərinin səmərəli qurulmasına imkan verərdi.

**Problemin aktuallığı**. Məqalədə pedaqoji tolerantlıdan danışılır və bu sahədə müəllimin etik davranış qaydaları üzərində dayanılır ki, bu məsələ aktual olmaya bilməz.

**Problemin yeniliyi**. Məqalədə pedaqoji tolerantlıq tolerantlığın mühüm növü kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, o cümlədən doktorant və dissertantlar, magistrantlar və magistrlər üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. -Bakı: Qanun, -2009. 2.
2. "Müəllimlərin etik davranış qaydaları". Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, 1/2 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**E-mail:** l.babayeva16@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 23.02.2022

**UOT 371**

***Rəvanə Faiq qızı Cəbrayılova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Bakı Dövlət Universiteti*
*https://orcid.org/0000-0002-7749-4171*
*https://doi.org/10.5281/zenodo.6448106*

# YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ FƏAL HƏYAT MÖVQEYİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞƏ PEDAQOJİ RƏHBƏRLİK

***Ravana Faig Cabrayilova***
*doctorial student in the proqram of doctor of philosophy*
*Baki State University*

# PEDAGOGICAL GUIDE TO FORMING AN ACTIVE LIFESTYLE AMONG HIGH SCHOOL STUDENTS

***Равана Фаик гызы Джабраилова***
*диссертант по программе доктора философии Бакинского Государственного Университета*

# ПЕДАГОГИЧЕСКОЕ РУКОВОДСТВО ПО ФОРМИРОВАНИЮ АКТИВНОГО ОБРАЗА ЖИЗНИ У СТАРШЕКЛАССНИКОВ

**Xülasə.** Yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdırılmasına pedaqoji rəhbərlik təlim və tərbiyə prosesinin ümumi qanunauyğunluqlarına əsasən həyata keçirilir. Müəllim şagirdlərin ətraf aləmlə fəal təmasında, həyatda fəal iştirakında, müstəqilliyində, öz yerini düzgün müəyyənləşdirilməsində, möhkəm əqidəyə malik olmasında bir subyekt kimi çıxış edir. Şagirdlərin dünyagörüşünün formalaşması məktəbdən başlayır.
***Açar sözlər:*** *müəllim, şagird, məktəb, pedaqoji rəhbərlik, fəal həyat mövqeyi, formalaşdırma*

**Summary.** Pedagogical guidance on the formation of an active lifestyle in high school students is based on the general regularities of the educational and upbringing process. A teacher acts as a subject of the active engagement of students with the world, their active participation in life, independence, proper positioning and firm beliefs. The formation of students' outlook begins at school.
***Key words:*** *teacher, student, school, pedagogical guidance, active lifestyle, formation*

**Резюме.** Педагогическое руководство по формированию активного образа жизни у старшеклассников основано на общих закономерностях учебно-воспитательного процесса. Учитель выступает субъектом активного взаимодействия учащихся с миром, активного участия в жизни, независимости, правильного позиционирования и твердых убеждений. Формирование мировоззрения учащихся начинается в школе.
***Ключевые слова:*** *педагог, ученик, школа, педагогическое лидерство, активная жизненная позиция, формирование*

Schools contribute to the comprehensive and harmonious development of human beings. They must instill good qualities and habits in the education of students by upbringing them as personalities, train them to act conscientiously by considering the best of their abilities, to use social resources effectively, and to uphold moral standards. Teachers play a major role in nurturing a growing generation, and they can rightly be regarded as the spiritual leaders of young people. In pedagogical guidance, it is crucial to ensure that students are not overloaded,

that the activities are properly organized and implemented, and that the students who are left behind are receiving the necessary pedagogical support. Teachers' job is not only to provide knowledge, but also to enhance students' social activity, because the social activity of a person is his / her civil perfection. An active lifestyle is an essential part of the formation and socialization of a person.

A teacher underlies the development of a young personality as a citizen and the formation of moral qualities. Teachers should ingrain a feeling of love for the motherland, respect for the parents and the elderly, and a responsible attitude in students, and promote a student's self-esteem. Students under the guidance of a teacher at school acquire the skills necessary for an active lifestyle in the various types of classroom and out-of-school educational work.

The formation of an active lifestyle occurs in the course of time. This process should start from pre-school.

Teachers' system of educational activities can consist of the following actions:

1) The organization of a unit sincere collective of students;

2) A comprehensive and individual study of students;

3) Struggling for the acquiring of deep knowledge and conscious discipline among students;

4) Preparation and carrying out extra-curricular and out-of-school activities;

5) Providing public organizations with regular pedagogical training and advice;

6) Communication and cooperation with parents.

All these educational systems are closely bound with one another. Teachers should address some of these issues during the class, which they teach, and some during extracurricular activities.

Leading teachers of the Azerbaijani Republic efficiently benefit from pedagogical opportunities in out-of-classroom activities, and develop students' personal activeness taking into account their interests, abilities, age, and personal characteristics.

Extracurricular activities with high school students differ. These comprise of extracurricular reading activities, reading conferences, disputes and themed parties, excursions to exhibitions and museums, and tours around the country to get to know it better. In addition, the organization of large-scale movie and theater screenings and the subsequent discussion of those movies and theatrical performances, overseeing the regular release of classroom wallpapers, arranging meetings with leading figures, intellectuals, writers, national heroes, labor veterans, involvement and participation in socially useful work, etc. include in effective classroom extracurricular activities.

One of the most important forms of extracurricular activities is teachers' supervision of doing homework. Supervision activates students and creates a sense of responsibility in them. Teachers should also assist in the selection of literature by examining the interest of a student during the process of supervision. For this reason, a teacher should work closely with public organizations and parents, and familiarize with students' home environment and home library. One of the main directions of extracurricular activities is the students' selection of specialty.

High school students' participation in national composition and essay competitions, Olympiads, and intellectual competitions is also of great significance for nurturing an active lifestyle. In some schools, such activities are forgotten about during pedagogical guidance and are considered only as the job of head teachers and public organizations. In accordance with the results of pedagogical experiments, we can say that teachers bear a huge responsibility in the formation of an active lifestyle in high school students. The effectiveness of the formation process highly depends on teachers' performance.

Mikhail Ivanovich Kalinin said at the time that it was much harder to discipline people than to teach and educate them, because the educator not only gives knowledge to the educated ones, but also influences the ordinary phenomena. M.I. Kalinin claimed that upbringing is one of the most difficult pedagogical activities, because the personal actions, in other words, the personal example of a teacher, play a key role.

Awareness, adequate knowledge and skills are very important in getting an active life too. Knowledge is acquired through the

participation and guidance of a teacher. How, where, and in what kind of activities, can knowledge and skills be used? In this sense, students need teacher support and advice.

The social and political activity of high school students requires initiative and independence. They are not always able to achieve this. Therefore, teachers should play the role of methodologist, consultant and helper for students in this issue. The way in which social-political activity is shaped is that a student can participate as a preacher, an advocate, a lecturer, an organizer in a socially useful work, a leader of the association, and a direct presenter in the activity. In this case, the pedagogical guidance of the teacher-advisor becomes more of an issue. One of the most difficult and main issues in pedagogical guidance is the determination of the educational impact and usefulness of social and political activities. In other words, only a teacher who has the right guidance can develop and improve students' ability to summarize and evaluate the results of their own activities.

It is important for teachers and educators, who are actively engaged in the formation of an active lifestyle in students, to know the psychological basis of an active life position. The formation of a person's spiritual world is a complex and constant process, and it is influenced by a number of factors. Self-awareness, proper self-evaluation, and self-enhancement to improve one's morale hold a significant place among these factors. If a teacher also participates directly with students in the implementation of socially useful activities, the event becomes more organized. Pedagogical staff should explain to students that socially useful work develops and broadens a person's outlook, knowledge, and enables them to apply theoretical knowledge in practice.

High school students learn to serve the community while engaging in socially useful work and eventually begin to understand their civic duties.

In addition to socially useful activities in general education schools, various lectures and clubs have been established, which should also provide pedagogical guidance.

Children's social organizations should be regularly assisted. Students' self-control must be strengthened. It is necessary to create conditions for students to be responsible for the organization of cultural events and let them be the leaders of their own actions, that is, the events which they organized.

The diversity of forms and methods of cultural and collective work of high school students originates from the diversity of content. They should present these events in a timely and exemplary manner. Organizing group tours for parties, excursions, and movie and theater performances, and creating amateur artistic associations and drama clubs include in cultural-collective events. Pedagogical staff should help students in organizing such events. They advise pupils in the selection of artistic and dramatic works, the pedagogical and political correctness of the program of the amateur artistic association, the discussion of movies, theatrical performances, and artistic works in order to get one joint thought and achieve the best result in the organized events.

A teacher is the person closest to a student after his / her parents. Therefore, the active position of students in school and in life depends on the image, behavior and work of a teacher. A teacher should make sure that his / her activities are lively, interesting and highly scientific. Taking into account students' individual characteristics, teachers must be able to deal with them individually, be sensitive and attentive to them, and take care of them. Teachers must be fair in every case, sincere and kind towards every student. If every teacher fulfills these conditions and has the right pedagogical guidance, then students can adequately carry out their tasks. It can be concluded that the school, where the pedagogical staff contributes to the activities of children's social organizations, can improve the discipline, training and education of teenagers and thus create an active lifestyle for them.

**Problemin aktuallığı**. Tədqiqat işində uşaq ictimai birliklərinin fəaliyyətinin mahiyyəti açıqlanır, uşaq ictimai birliklərinin funksiya və vəzifələri nəzərdən keçirilir, fəaliyyət sahələri, uşaq ictimai birliklərinin növləri göstərilir.

**Problemin yeniliyi**. Yuxarı sinif şagirdlərinin ictimai-siyasi fəallığı təşəbbüskarlıq və müstəqillik tələb edir. Onlar heç də həmişə buna tam nail ola bilmirlər. Odur ki, müəllim bu sahədə şagirdlər üçün metodist, məsləhətçi və köməkçi rolunu oynamalıdır. İctimai siyasi fəallığın necə formalaşması özünü

onda göstərir ki, şagird təbliğatçı, təşviqatçı, mühazirəçi, ictimai-faydalı işdə təşkilatçı, dərnək rəhbəri və fəaliyyətdə bilavasitə aparıcı kimi iştirak etsin.

**Problemin praktik əhəmiyyəti**. Uşaq ictimai birliklərinin fəaliyyəti böyüklər və uşaqların birgə fəaliyyətinin məqsədyönlü prosesidir, bunun vasitəsilə gənclər öz ehtiyaclarını, pedaqoji qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi baxımından cəmiyyətə prioritetlərini çatdırmaq, könüllülük əsasında fəaliyyət göstərmək imkanlarına malik olurlar.

**Literature:**

1. Sharifov, S. School and Komsomol. -Baku, -1962.
2. Zeynalov ,S.M. Formation of an Active Lifestyle in Students. -Baku: Maarif, -1988.
3. Mamedzadeh,R.H. Professional Ethics of a Teacher. -Baku: Maarif, -1992.
4. Shafiyev, S.A. Pedagogical Staff and Komsomol Organization. -Baku: Azertedris publisher, -1964

**E-mail**: ravana697@gmal.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 23.02.2022

**UOT 371**

***Elnarə Eynulla qızı Qurbanova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
*https://orcid.org/0000-0002-1667-5809*
*https://doi.org/10.5281/zenodo.6448131*

## DEMOQRAFİK PROSESLƏRİN ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA YARATDIĞI ÇƏTİNLİKLƏR

***Эльнара Эйнулла гызы Гурбанова***
*докторант по программе доктора философии*
*Бакинский Государственный Университет*

## ТРУДНОСТИ, СОЗДАВАЕМЫЕ ДЕМОГРАФИЧЕСКИМИ ПРОЦЕССАМИ, В СОЦИАЛИЗАЦИИ ЛИЧНОСТИ

***Elnara Eynulla Gurbanova***
*doctorial student in the proqram of doctor of philosophy*
*Baku State University*

## DIFFICULTIES CREATED BY DEMOGRAPHIC PROCESSES IN THE SOCIALIZATION OF THE INDIVIDUAL

**Xülasə.** Məqalədə əhalinin sürətli artımı nəticəsində XX əsrdən başlayaraq demoqrafik proseslərdə baş verən dəyişikliklərə və bu dəyişikliklərin şəxsiyyətin sosiallaşmasına təsiri məsələsinə diqqət cəlb edilir. Qeyd olunur ki, əhalinin sayının artması urbanizasiya və miqrasiya proseslərinin intensivləşməsi, şəhərlərin böyüməsi ailənin həyat tərzində köklü dəyişikliklərin yaranmasına səbəb olmuşdur. Şəhər həyat tərzində nuklear ailələrin çoxalması, ailədə uşaqların sayının azalması, valideynlərin hər ikisinin işləməsi, boşanmaların sayının artması, təkrar nikah və s. kimi demoqrafik proseslər ailədə uşaqların sosiallaşmasında müəyyən çətinliklər yaradır. Müəllif müəllim-valideyn əməkdaşlığını həmin çətinliklərin aradan qaldırılması yolu kimi qiymətləndirir.
***Açar sözlər:*** *sosiallaşma, demoqrafik proseslər, miqrasiya, urbanizasiya, şəhər həyat tərzi, boşanma, ailədə uşaqların sayı.*

**Резюме.** В статье анализируются процессы демографических изменений, которые начались в XX веке в результате быстрого роста населения. Отмечается, что в результате роста населения усилилась и интенсивность процессов урбанизации и миграции, выросло число населении в городах, что привело к коренным изменениям в образе жизни семьи. Такие демографические процессы, как рост числа нуклеарных семей, уменьшение количества детей в семье, занятость обоих родителей, увеличение числа разводов, повторных браков и т.д. способствуют появлению определенных трудностей в социализации детей в семье. В статье анализируется эти трудности и сотрудничество учителей и родителей оценивается, как один из способов их преодоления.
***Ключевые слова:*** *социализация, демографические процессы, миграция, урбанизация, городской образ жизни, развод, количество детей в семье.*

**Summary.** The article analyzes the processes of demographic changes that began in the twentieth century as a result of rapid population growth. It is noted that as a result of population growth, the intensity of urbanization and migration processes has increased, the number of people in cities has increased, which has led to fundamental changes in the way of life of the family. Demographic processes such as an increase in the number of nuclear families, a decrease in the number of children in a family, the employment of both

parents, an increase in the number of divorces, remarriages, etc. contribute to the emergence of certain difficulties in the socialization of children in the family. The article analyzes these difficulties and evaluates the cooperation of teachers and parents as one of the ways to overcome them.

***Keywords:*** *socialization, demographic processes, migration, urbanization, divorce, the number of children in the family.*

Hər bir dövlətin gələcəyi özündə intellektual, mənəvi və fiziki inkişafı cəmləşdirən gənc nəslin sosial potensialı ilə müəyyən olunur. Məsələnin belə qoyuluşu təhsil sahəsində şəxsiyyətin sosiallaşmasına diqqəti artırmağı tələb edir. Təsadüfi deyil ki, şəxsiyyətin sosiallaşması psixoloji problem kimi çoxlu sayda alimlərin (Dyü, Mid, Kuli, Qiddens, Dürkheym, Erikson, Fromm, Merton, Vıqotski, Kon, Bojoviç, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, A. Bandura, C. Rotter, F. Zimbardo, M. Lyayppe, S. Miller və b.) tədqiqatlarının predmetinə çevrilmişdi. Bu tədqiqatlarda sosiallaşma fərdin ömrü boyu mənsub olduğu cəmiyyətin sosial normaları və mədəni dəyərlərinin mənimsənilməsi prosesi kimi dəyərləndirilir, şəxsiyyətin sosiallaşmasının bir çox amillərin təsiri altında formalaşdığı təsdiq edilir. Həmin amillər pedaqoji ədəbiyyatda makro, mezo, mikro amillər kimi qruplaşdırılır (1, s. 361). Hər bir qrupa çoxlu sayda amillər daxil edilmişdi. Bu sosiallaşmanın nə qədər mürəkkəb proses olduğunu göstərir.

Mikro amillər arasında ailə sosiallaşmaya təsir edən amillərdən biri kimi səciyyələndirilir. Ailənin tərbiyə institutu kimi şəxsiyyətin sosiallaşmasının əsas amillərindən biri olması bir mənalı qəbul edilən fikirlərdəndir. Zamandan asılı olaraq ailə məzmunu etibarı ilə daima dəyişikliklərə məruz qalır. Bu dəyişikliklər cəmiyyət həyatının bütün sahələrinə öz təsirini göstərir. Buna görədir ki, ailə müxtəlif elmlərin tədqiqat predmeti kimi daima öyrənilir, baş verən hər bir dəyişikliklərin tənzimlənməsi yolları araşdırılır.

Ailədə baş verən dəyişikliklərdən biri də demoqrafik proseslərlə bağlıdır. Demoqrafik proseslərdə dəyişikliklər bütün dövrlərdə olub, lakin XX əsrdən başlayaraq bu dəyişikliklər daha intensiv xarakter daşımağa başlayıb. Müəyyən edilmişdir ki, ailədə baş verən demoqrafik proseslər ailənin həyat fəaliyyətinə təsir edir, ailənin mənəvi-psixoloji iqlimində nəzərəçarpacaq dəyişikliklərin yaranmasına səbəb olur. Nəticədə ailənin tərbiyə funksiyasını yerinə yetirməsində müəyyən çətinliklər meydana gəlir ki, bu da uşaqların sosiallaşmasına öz təsirini göstərir (2,s. 70-79).

Şəxsiyyətin sosiallaşması xüsusən yeniyetməlik dövründə mürəkkəb sosial-psixoloji və fizioloji proseslərlə müşayiət olunur. Pedaqoji ədəbiyyatda yeniyetməlik dövrü mürəkkəb və ziddiyyətli proses kimi xarakterizə edilir. Bu yeniyetmələrin fizioloji sistemində, eləcə də psixikasında baş verən dəyişikliklərlə bağlıdır. Buna görədir ki, yeniyetməlik şəxsiyyətin sosiallaşması baxımından həm dinamik, həm də məsuliyyətli və mühüm bir dövr hesab olunur. Bu dövrdə insanın sosial yetkinləşməsi baş verir, əxlaqi sistemin, dünyagörüşünün, “Mən” şüurunun sabitləşməsinə zəmin yaranır, sosial münasibətləri formalaşır, fərdin özünə, insanlara, cəmiyyətə münasibətləri aydınlaşır (3, s.113-117). Məhz bu dövrdə demoqrafik amillərin təsiri daha köklü xarakter daşıyır. Ə.Ə. Əlizadə və H.Ə. Əlizadə bu istiqamətdə fikirlərini belə əsaslandırırlar: “Ailədə əmələ gələn köklü demoqrafik dəyişikliklər uşağın psixoloji avtoritetində, mənlik şüurunda, iddia səviyyəsində bilavasitə əks olunur. Müəyyən sözlər, xüsusilə ata, ana, yazıq, yetim və s. onlar üçün özünəməxsus psixo-semantik məna kəsb edir. Adi şagirdin diqqətini cəlb etməyən hər hansı bir təsadüfi söz çox vaxt onları asanlıqla sarsıdır” (4, s. 387). Bu istiqamətdə demoqrafik amillərin yeniyetmələrə göstərdiyi təsirlər vaxtında öyrənilməli, onların aradan qaldırılması və neytrallaşdırılması üçün yollar axtarılmalıdır. Aparılan tədqiqatların nəticələri inandırıcı şəkildə göstərir ki, valideynlər təkcə öz qüvvələri ilə ailədə baş verən demoqrafik proseslərin neqativ təsirlərini aradan qaldıra bilmirlər. Yeni nəslin tərbiyəsi baxımından eyni məqsədə malik olduğu üçün, demoqrafik amillərin şagirdlərin sosiallaşmasına neqativ təsirlərinin aradan qaldırılmasında, ilk növbədə, məktəb ailəyə daha məqsədyönlü şəkildə kömək edə bilər. Məktəbin bu imkanları var (2, s. 105-215).

Məlum olduğu kimi, məktəbdə şagirdlərin fəaliyyəti yalnız təlim fəaliyyətinin təşkili ilə məhdudlaşmır, onların həm də sosiallaşması üçün müxtəlif pedaqoji işlər həyata keçirilir. Ailədə baş verən demoqrafik proseslər bu mənada məktəbin həyata keçirdiyi pedaqoji işə öz ne-

qativ təsirini göstərir. Ailədə baş verən demoqrafik proseslərin şagirdlərin sosiallaşmasına neqativ təsirlərinin məktəbdə aradan qaldırılması bu istiqamətdə mühüm əhəmiyyət kəsb edir. Yəni ailədə baş verən demoqrafik proseslərin neqativ təsirlərinin aradan qaldırılması və neytrallaşdırılması yolu ilə məktəb həyata keçirdiyi pedaqoji işlərin səmərəlilik dərəcəsini artıra bilir. Başqa sözlə desək, məktəb bu yolla ailədə baş verən demoqrafik proseslərin neqativ təsirləri nəticəsində şagirdin təlim fəaliyyətində yaranmış mənfi meyllərin qarşısını almış olur. Bu məsələnin bir tərəfidir. Demoqrafik amillər uşağın psixi inkişafına da təsir göstərir. Məktəbdə demoqrafik amillərin neqativ təsirlərinin aradan qaldırması bu istiqamətdə də mühüm əhəmiyyət kəsb edir.

Dünya əhalisinin sayı sürətlə artır. Əhalinin sürətli artımı demoqrafik proseslərin intensivləşməsinin səbəblərindən biri kimi qiymətləndirilir. Statistik məlumatlardan bu aydın görünür. D.E. Yusifov qeyd edir ki, "hər gün 250 min körpə doğulur – saatda 1040, saniyədə isə 3 körpə. 21 gün ərzində o qədər uşaq doğulur ki, böyük şəhərin əhalisini təşkil edir" (5, s. 96). Bu məsələni daha aydın izah etmək üçün başqa statistik məlumata diqqəti cəlb edək. "1900-cu ildə dünya əhalisinin sayı 1,6 milyard nəfər idi. 1960-cı ildə isə artıq dünyada 3 milyard adam yaşayırdı, başqa sözlə dünya əhalisinin sayı iki dəfə artmışdı və bunun üçün 60-ildən bir qədər çox vaxt tələb olunmuşdu" (2, s. 7). Əhali artımı ilə bağlı proqnozlar da o qədər optimist deyil. "Gözlənilir ki, 2025-ci ildə bu miqdar 8,467 milyarda çatacaq. Yəni 1960-cı ildə planetdə əhalinin sayına uyğun gələn artım yaxın 35 il ərzində təkrarlanacaq. Əhalinin artımı 3,1 milyard olacaq" (5, s. 86).

Əhalinin sayının belə sürətlə artmasının iqtisadi baxımdan, xüsusən əhalinin ərzaq təminatında müəyyən çətinliklərin yaranmasına səbəb olacağı haqqında həyəcanla danışılır. Bunun səbəbləri aydındır. Təbii ki, əhalinin sürətli artımı insanların ərzaq təminatında problemləri çoxaldır. Lakin bu, əhali artımının yaratdığı yeganə problem deyil. Əhali artımı digər sahələrə, xüsusən sosial problemlərin, o cümlədən gənc nəslin sosiallaşmasına təsir göstərən digər demoqrafik proseslərin intensivliyini artırır. Bu məsələni izah edək:

Prof. H.Ə. Əlizadə qeyd edir ki, "XX yüzilliyin ikinci yarısından başlayaraq əhalinin sürətlə artması-özünəməxsus "demoqrafik" partlayışın dünyanın sosial-iqtisadi mənzərəsində köklü dəyişikliklər əmələ gətirdi. Miqrasiya prosesləri yeni vüsət kəsb etdi. Şəhər əhalisinin mütləq çəkisi sürətlə artdı.....Urbanizasiya şəraitində yeni problemlər, o cümlədən ciddi tibbi pedaqoji problemlər meydana çıxdı. Doğum, ölüm, boşanma, təkrar nikah, miqrasiya və s. XX yüzilliyin qlobal problemləri kimi diqqəti cəlb etməyə başladı" (2, s. 7-8). Müəllifin dediyindən aydın görünür ki, əhalinin sürətli artımı insanların həyat-fəaliyyətində mühüm rol oynayan demoqrafik prosesləri aktuallaşdırdı ki, bu proseslər insanların həyat tərzində nəzərəçarpacaq dərəcədə yeniliklərə imza atdı. Bu məsələləri Azərbaycan ailələrinin həyat-fəaliyyətində yaranan dəyişikliklər baxımından təhlil edək.

Azərbaycan ailəsinin uzun əsrlər boyu kiçik şəhər və kəndlərdə yaşadığı hamıya bəllidir. Məsələn, Bakı şəhərinin 1857-ci ildə təxminən 10 min əhalisi olub (bax: 2,7-8). Əgər nəzərə alsaq ki, Bakı şəhəri daha böyük yaşayış məskəni olub, onda rayon mərkəzlərində və kəndlərdə daha az sayda əhalinin məskunlaşdığını və yaşadığını deyə bilərik. Az sayda insanların məskunlaşdığı ərazidə özünəməxsus tərbiyəedici mühit mövcud olur. Belə ki, həmin ərazidə icma tərəfindən qəbul edilmiş sosial normalar mövcud olub. İcmanın hər bir üzvi mövcud sosial normaları qoruyub, öz fəaliyyətində onları rəhbər tutub. Maraqlıdır ki, icma üzvləri eyni zamanda sosial normaların hamı tərəfindən qorunmasına nəzarət edib. Bu gənc nəslin sosiallaşmasında mühüm rol oynayıb.

XX əsrə qədər xalqımız öz həyat tərzində mürəkkəb ailə tipinə üstünlük verib. Baba və nənə icmada böyük tərbiyəçi (ağsaqqal) kimi qiymətləndiriliblər, onlar öz həyatları ərzində yeni nəslin tərbiyə təcrübəsini əxz etdikləri üçün bu işi müdrikcəsinə həyata keçiriblər. Mürəkkəb ailədə avtoritar münasibətlər mövcud olub. Kiçik böyüyə sözsüz tabe olub. Bu ailədə oğlanlar babanın, qızlar nənənin yanında böyüyüblər. Ata və ana ailə təsərrüfatı ilə məşğul olublar. Baba və nənə o dövrün sosial təcrübəsini nəvələrə müdrik tərbiyəçilər kimi aşılaya bilmişlər.

Mürəkkəb ailə çoxuşaqlı olması ilə fərqlənirdi. Bu da ailədə özünəməxsus uşaq kollekti-

vinin olması demək idi. Əgər mürəkkəb ailədə bir neçə qardaşın (onların bir həyətdə yaşaması və ümumi təsərrüfata malik olması nəzərdə tutulur) ailəsinin yaşadığını da nəzərə alsaq, burada daha böyük uşaq kollektivinin mövcud olduğunu görə bilərik. Uşaqların sosial təcrübəni böyüklərdən əldə etməklə bahəm, bir-birlərindən də əxz etdikləri bəllidir. Mürəkkəb ailədə uşaqlar üçün belə bir mühit var idi və bu mühitin üstünlüyü ondan ibarət idi ki, oradakı insanlar eyni dəyərlərə və mədəni səviyyəyə malik idilər. Bildikləri sosial təcrübəni həyat şəraitində bir-birlərinə ötürürdülər.

Əhalinin çoxalması və bunun nəticəsi kimi şəhərlərin böyüməsi miqrasiya proseslərinin intensivliyini artırdı. Kənddən şəhərə köçmək meyli güçləndi. Şəhər həyat tərzi məlumdur ki, kənd həyat tərzindən köklü surətdə fərqlənir. Əgər əvvəllər bu əsasən peşə məşğuliyyəti ilə bağlı idisə, şəhər əhalisinin sayının çoxalması bu fərqləri daha da artırdı. Böyük şəhər öz həyat tərzi ilə daha çıx fərqlənməyə başladı. Şəxsiyyətin sosiallaşması baxımından mühüm əhəmiyyət kəsb etdiyi üçün biz diqqəti ilk növbədə, şəhər həyat tərzində ailənin nuklearlaşmasına cəlb edək. Bu ailə mürəkkəb ailədən fərqlənir. Ailənin nuklearlaşması ölkəmizdə keçən əsrin ortalarından başlayaraq çoxalmağa başladı. H. Cavadova haqlı olaraq qeyd edir ki, "Müasir Azərbaycan ailəsi əsasən özündə 2 valideyni, bir və ya iki uşağı birləşdirən ilkin sosial və iqtisadi birlikdir. Belə ailələri nuklear (latınca *nukleis – nüvə* deməkdir) ailə adlandırırlar (6, s. 92). Göründüyü kimi, nuklear ailə ata, ana və uşaqlardan ibarət ailə tipidir. İlk baxışda burada uşağın sosiallaşması baxımından heç bir problem diqqəti cəlb etmir. Lakin əgər valideynlərin hər ikisinin istehsalda işlədiyini və axşam saat 6-7-dən tez evə gəlmədiyini (uşaqlar səhər saat 8-dən günorta ən geci saat 2-yə qədər məktəbdə olurlar) nəzərə alsaq, uşaqların məktəbdən sonra evdə nəzarətsiz qalmalarının ciddi pedaqoji problem olduğunu görə bilərik. Bununla yanaşı, bu ailə tipində baba və nənənin nəvələrlə münasibətləri zəifləməyə başladı. Baba və nənənin ayrı yaşaması əslində onların tərbiyə funksiyasından kənarda qalmasını göstərir.

Şəhər həyat tərzində çox uşaqlı ailədən az uşaqlı ailəyə keçid baş verdi (2, s. 15-16). Bu amil də mühüm tərbiyə amili kimi dəyərləndirilməlidir. Uşaq kollektivinin yoxa çıxması ailədə uşaqların ünsiyyət tələbatının azalmasına səbəb oldu. Çoxuşaqlı ailələrdə uşaqlar kommunikativ keyfiyyətləri ilə fərqlənirdilərsə, azuşaqlı ailələrdə uşaqların ünsiyyət tələbatının ödənilməsində çətinliklər yarandı. Ümumiyyətlə, az uşaqlı ailələrdə çoxuşaqlı ailələrdən fərqlənən özünəməxsus tərbiyə mühiti yaranır (7, s. 6-9).

Azuşaqlı ailəyə keçid meylini valideynlər adətən sosial-iqtisadi vəziyyətlə əlaqələndirirlər. Sosioloqların fikrincə, isə şəhər ailələrində az uşağın olması təkcə sosial-iqtisadi vəziyyətlə əlaqəli deyil. Burada Avropa meyllərinin də böyük rol oynadığı müşahidə edilir. Təkuşaqlı ailələrin sayı günü-gündən artmaqdadır. Tək uşaqla kifayətlənən ailələr ümumiyyətlə, uşaq sahibi olmağa çox dəyər verən və uşaq yetisdirmə mövzusunda qayğıları olan ailələrdir. "Bu ailələr uşaqlarının inkişaf impulslarına mane törətməməyə, zehni və psixoloji inkişaflarını dəstəkləməyə əhəmiyyət verirlər. Bəzi ailələr çoxuşaqlı ailələrin övladlarına lazımi zaman ayrılmaması qənaətindədirlər. Yəni, az uşaq sahibi olan valideynlər elə hesab edirlər ki, ailəsində 7- 8 uşaq olan valideyn övladına yetərli zaman ayıra bilmir və bu da uşağın gələcək həyata hazırlanmasına (təhsil, iş, karyera) əsaslı dərəcədə təsir edir" (7, s. 6). Halbuki ailədə ünsiyyət tələbatının ödənməməsi və onlara nəzarətin azalması daha ciddi pedaqoji-psixoloji problemdir. Bununla yanaşı, qeyd edilməlidir ki, ailədə uşaqların sayının azalması onların bir-birindən öyrənmə imkanlarını məhdudlaşdırır.

Ünsiyyət tələbatının ödənilməməsi və ailədə nəzarətin azalması nəticəsində uşaqların həyatında tədricən küçə (həyət) qruplarının rolu artmağa başlayır. N. Əliyevin qeyd etdiyi kimi, "yeniyetmələr çox vaxt özünütəsdiq üçün "küçə qruplarına" daxil olur, ünsiyyət tələbatlarını bu yolla ödəməyə çalışırlar" (8, s. 10). Təbii ki, küçə (həyət) qruplarının uşaqların sosiallaşmasına neqativ təsir göstərməsi haqqında bir mənalı fikir yürütmək olmur. Belə qrupların fəaliyyətinə nəzarət olduqda və onlar maraqlar əsasında fəaliyyət göstərdikdə, bu qrupların müsbət təsirləri özünü açıq-aydın göstərir. Amma nəzarət olmadıqda bu qruplarda uşaqların fəaliyyətində tədricən mənfi meyllər yaranır, onlar anti-sosial fəaliyyətləri ilə daha çox yadda qalmağa başlayırlar. Hətta bu qrupların anti-sosial hərəkətləri-

nin qarşısı alınmayanda onlar həddi-buluğa çatmayan cinayətkarlara da çevrilə bilirlər. Bu qruplarda uşaqların sağlamlığının pozulmasına səbəb olan neqativ davranışlar da (siqaret çəkmək, spirtli içkilər qəbul etmək, narkotikdən istifadə və s.) vardır. Belə hallar xüsusən yeniyetmədə özünəhörmət və özünüqiymətləndirmə səviyyəsinin aşağı düşməsi, aqressivlik, münaqişəlilik, öz gələcəyinə ümidsizlik kimi xasiyyətlər inkişaf edir. İ.Q. Quliyeva belə hallarda uşaqlara kompleks, pedaqoji-psilxoloji-tibbi kömək göstərməyin zəruri olduğunu göstərmiş və onların yollarını araşdırmışdır (9).

Ailədə uşaqların azalması, ünsiyyət tələbatının ödənilməməsi və evdə uşaqların nəzarətsiz qalma halları uşaqların sosiallaşması baxımından çətin problemlərdən biri kimi meydana çıxır. Lakin, son dövrlərdə boşanmaların sayının artması, belə ailələrdə uşaqların sosiallaşması problemini daha da çətinləşdirir. Boşanma ağır sosial psixoloji hadisədir. Bu hadisədə ata-ana ilə yanaşı uşaqlar da ciddi problemlərlə üzləşirlər, psixoloji travma alırlar. Təbii ki, boşanma prosesinin gedişi zamanı və ondan sonrakı vaxtda uşağın sosiallaşması baxımından daha böyük problemlər yaranır. Ana əgər işləyirsə, uşağın məktəbə gedib-gəlməsi, dərsdən sonra ona nəzarətin təşkil edilməsi daha ciddi problemə çevrilir. Bu ailələrdə ünsiyyət tələbatının ödənilməməsi daha qabarıq şəkildə özünü göstərməyə başlayır. Bütün bunlar natamam ailədə uşağın sosiallaşması baxımından yaranmış şəraitin gərginliyini daha da artırır.

Natamam ailə təkcə boşanma prosesi nəticəsində yaranmır. Dünya əhalisinin sürətlə artması xəstəliklərin, qəzaların, bədbəxt hadisələrin sayının artmasına səbəb olmuşdu. Texnikanın inkişafı, fərdi avtomobillərin çoxalması bədbəxt hadisələrin artmasını şərtləndirən amillərdən birinə çevrilmişdi. Ölüm hadisəsi nəticəsində yaranmış natamam ailədə də uşaqların sosiallaşması baxımından eyni problemlər yaşansa da, bu ailələrin boşanma nəticəsində yaranmış natamam ailələrlə müqayisədə yeganə fərqi ailənin mənəvi dəyərlərini itirməməsidir. Bu kifayət qədər ciddi amildir və uşağın sosiallaşması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Natamam ailələrdə uşaq adətən ana ilə qalır. Təbii ki, belə hallarda anaya uşağın tərbiyəsində valideynləri (baba və nənə), o cümlədən bacı və ya qardaşı kömək edir. Uşağın tərbiyəsində qohum ailələrin köməyə gəlməsi yaxşı haldır, amma bu sistemli şəkildə olduqda müsbət nəticəyə malik olur.

Natamam ailələrin hamısında olmasa da, bir qismində ögey ata, ögey ana faktı da özünü göstərir. Ögey ata və ögey ana terminlərinin yaşı kifayət qədər çoxdur. Burada əsas məsələ təkrar nikahın uğurlu və ya uğursuz olmasıdır. Təbii ki, uğurlu olarsa, bu ailənin mənəvi mühitinin yaranmasına və ya bərpa olunmasına şərait yarada bilir. Lakin uğurlu olmadıqda həm ananın, həm də uşağın faciəsinin artmasına gətirib çıxarır. Təbii ki, belə hallarda ailəyə kömək etmək daha da çətinləşir.

Məsələnin mahiyyətini geniş araşdıranda görürük ki, natamam ailədən olan uşaqlar xasiyyətlərinə, davranışına görə yaşıdlarından fərqlənirlər. Başqa uşaqlara deyilən sözü, verilən tapşırığı onlar eyni cür qəbul etmirlər. "Bu, əlbəttə, onların ailə problemlərindən, ailənin natamamlığından, iqtisadi çətinliklərindən, mənəvi yükündən yaranan vəziyyətdir" (10,4-5). Bu təbiidir, onlar tam ailədən olan uşaqlarla müqayisədə daha çox gərginliyə məruz qalırlar. Onların ailə şəraiti, xüsusən sosial təminatları zəif olur. Belə hallarda qohumlar ailənin sosial təminatının yaxşılaşdırılması baxımından ona köməklik göstərirlər. Asılılıq bu ailədən olan uşaqlarda müəyyən mənfi hisslər yaradır, onların məktəb və həyat yoldaşları ilə tez-tez münaqişələri yaranır. Bu onların xasiyyətini dəyişdirir. Təbiətində olduğu kimi inkişaf etməsinə mane olur. Çox vaxt münaqişələrdə onlar özləri günahkar olurlar, bu onların daxilində yaranmış ziddiyyətləri və ailədə formalaşmış emosional-psixoloji mühitlə bağlıdır. Təbii ki, bu uşaqları belə vəziyyətlərdə günahlandırmaq, cəzalandırmaq onlara daha da neqativ təsir göstərə bilər. Ona görə bu uşaqlara daha diqqət və qayğı ilə yanaşılmalıdır. H.T. Cəfəri-Qəmbəri belə vəziyyətdən çıxış yolu kimi, müəllimin fəaliyyətini yüksək qiymətləndirir. Onun fikrincə, "bu problemi məqsədyönlü qaydada həll etmək üçün əsas yük müəllimin üzərinə düşür" (10,4-5).

Prof. H.Ə. Əlizadə bildirir ki, natamam ailədən olan uşaqlar ümumtəhsil məktəblərində digərləri ilə birgə təhsil aldıqlarından öz həyatlarının başqa uşaqlardan fərqləndiyini hiss edirlər: "Bu fərqli cəhətlər onların özləri haqqındakı

təsəvvürlərində, mənlik şüurunun xüsusiyyətlərində əks olunur, lakin müəllim sinifdə sağlam psixoloji mühit yaratdıqda bu fərqi neytrallaşdırır" (1, s. 237).

Demoqrafik təsirlərin yaratdığı mənəvi-psixoloji problemlər sırasında stress və zehni gərginliklər öndə durur. "Stress" və "zehni gərginlik" anlayışları çətin şəraitdə zehni fəaliyyətin xarakteristikası və ya çətin həyati situasiyalar üçün sinonim kimi istifadə olunur. Başqa sözlə, demoqrafik təsirlərlə üzləşdikdə stress reaksiyalarından qaçmaq mümkün deyil. Bu hallarda yaranan stress çıxılmaz vəziyyətdən, problemin həlli yollarının tapılmamasından, özünün başqalarından daha aciz, köməksiz, kimsəsiz, gücsüz və ya imkansız olduğunu anladığı zaman beş verən psixoloji reaksiyalar aiddir. Belə reaksiyaların özü də gücü və müddəti baxımından əhəmiyyətli olan əlverişsiz xarici və daxili təsirlərə səbəb olur.

Stressli vəziyyətdə insanlar fərqli davranırlar. Hər bir insanın eyni stressli şərtlər üçün fərdi reaktiv stereotipləri vardır. Həddindən artıq gərgin vəziyyətdə, emosional sahədə də gərginlik yaranır, zehni proseslərin pozulmasına və bunların əsasında səhv qərarların qəbul edilməsinə, səhv hərəkətlərə yol açır. Bu çətinliklərin yaranmaması üçün məktəb demoqrafik amillərin neqativ təsirlərinin vaxtında aradan qaldırılması üçün hər bir şagirdin ailəsində baş verən demoqrafik prosesləri öyrənməli və onların neqativ təsirini vaxtında müxtəlif pedaqoji yollarla aradan qaldırmağa çalışmalıdır. Məsələnin belə qoyuluşu müəllim-valideyn əməkdaşlığını aktuallaşdırır. Həm müəllim, həm də valideyn uşaqların sosiallaşması baxımından eyni məqsədə malik olur. Onlar əməkdaşlıq etməklə, həm demoqrafik amillərin neqativ təsirlərini aradan qaldıra bilər, həm də şagirdin daha yaxşı sosiallaşması üçün şərait yarada bilərlər.

**Problemin aktuallığı**. Məqalədə demoqrafik proseslərin şəxsiyyətin sosiallaşmasında yaratdığı çətinliklərdən danışılır ki, bu da aktual bir məsələdir.

**Problemin yeniliyi**. Şəhər həyat tərzində nuklear ailələrin çoxalması, ailədə uşaqların sayının azalması, valideynlərin hər ikisinin işləməsi, boşanmaların sayının artması, təkrar nikah və s. kimi demoqrafik proseslər ailədə uşaqların sosiallaşmasında müəyyən çətinliklər yaranır. Müəllif müəllim-valideyn əməkdaşlığını həmin çətinliklərin aradan qaldırılması yolu kimi qiymətləndirir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika: Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, -2013, -368 s.
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. -Bakı: Maarif, -1993, -230 s.
3. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika: Dərslik. -Bakı: Ekoprint, -2021, -612s.
4. Əlizadə Ə. Ə., Əlizadə H.Ə. Əsrin meqameyilləri. II hissə. –Bakı, -2008, -527 s.
5. Yusifov D.E. İnsan: təbiət və cəmiyyət. -Bakı: Avropa, -2014, -206 s.
6. Cavadova H.Q. Ailə sosial institut kimi / Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, -2006, -№ 4, -s. 90-97
7. Allahverdiyeva L., Şirəliyeva G. Azuşaqlı və çoxuşaqlı ailələrin tərbiyə imkanları // ARTİ-nin elmi əsərləri, -2018, -№ 4, -s. 6-9
8. Əliyev N.R. Yeniyetmə şəxsiyyətinin formalaşmasında yaşıdlarla qarşılıqlı münasibətlərin rolu: Psixol. ü. fəls. dok. ...dis. avtoref. -Bakı, -2021, -22 s.
9. Quliyeva İ.Q. Fiziki və psixi cəhətdən zəif inkişaf etmiş ibtidai sinif şagirdlərinin təhsilinə kompleks köməyin təşkili yolları: Ped.ü. fəls. dok.... dis. -Bakı, -2003, -145 s.
10. Cəfəri-Qəmbəri H.T. Məktəbdə natamam ailələrdən olan şagirdlərlə işin sistemi: Ped. ü. fəls dok. ...dis. -Bakı, -2008, -134 s.


**E-mail:** qurbanova@bk.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **H.Ə. Əlizadə,**
*psixol.ü.fəls.dok.* **S.H. Əlizadə**
**Redaksiyaya daxil olub:** 16.02.2022.

## *RİYAZİYYATIN TƏDRİSİ METODİKASI*

**UOT 372.851**

***Firədun Nadir oğlu İbrahimov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı*
*https://orcid.org/0000-0002-0775-1048*

***Günel Oktay qızı Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının müəllimi*
*https://orcid.org/0000-0002-6613-8227*
*https://doi.org/10.5281/zenodo.6448158*

# İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYATIN TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN FƏZA TƏSƏVVÜRLƏRİNİN FORMALAŞDIRILMASI İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Фирадун Надир оглы Ибрагимов,***
*доктор наук по педагогике, профессор*
*Шекинский филиал Азербайджанского Государственного Педагогического Университета*

***Гюнель Октай гызы Алиева***
*преподаватель Шекинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАБОТЫ ПО ФОРМИРОВАНИЮ ПРОСТРАНСТВЕННЫХ ПРЕДСТАВЛЕНИЙ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ МАТЕМАТИКЕ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Firadun Nadir Ibrahimov,***
*doctor of sciences in pedagogy, professor*
*Sheki branch of Azerbaijan State Pedagogical University*

***Aliyeva Gunel Oktay***
*lecturer of the Sheki branch of the Azerbaijan State Pedagogical University*

# THE MAIN DIRECTIONS OF THE WORK ON THE FORMATION OF STUDENTS' SPATIAL PERCEP TIONS IN THE PROCESS OF TEACHING MATHEMATICS IN PRIMARY SCHOOL

**Xülasə:** Məqalədə ibtidai sinif şagirdlərinin fəza təsəvvürlərinin inkişafının səviyyələrinə diqqət yönəldilir, kiçik yaşlı məktəblilərin fəza təsəvvürlərinin formalaşmasında müşahidənin, müqayisənin, ölçmənin, qurmanın yeri və rolu dəyərləndirilir, ölçmə fəaliyyətinin inkişaf mərhələlərinin şərhi verilir, şagirdlərin qurma və modelləşdirmə fəaliyyətləri ilə ölçmə və müşahidəetmə fəaliyyətlərinin vəhdətinin təmin olunmasının zəruriliyi vurğulanır. Tədqiqat işində fəza əlamət və münasibətləri ilə bağlı terminlərin mənimsənilməsi və onların şagirdlərin aktiv danışıq lüğətlərinə daxil edilməsində faydalı vasitə olan riyazi imlaların nümunələr əsasında interpretasiyası verilir.
***Açar sözlər:*** *fəza əlamətləri, fəza münasibətləri, sadə və mürəkkəb fəza təsəvvürləri, böyüklük, istiqamət, forma, məsafə, ölçmə fəaliyyətinin inkişaf mərhələləri, tapşırıq*

**Резюме:** В статье уделяется внимание уровню развития пространственных представлений младших школьников, оценивается место и роль наблюдения, сравнения, измерения, построения в формировании пространственного представления младших школьников, разъясняются этапы развития измерительной деятельности, обеспечивающие единство измерительной и наблюдательной деятельности. В исследовании приводятся примеры интерпретации математической орфографии, которая является полезным средством для усвоения терминов пространственных знаков и отношений и включения их в активный словарный запас учащихся.

***Ключевые слова:*** *пространственные признаки, пространственные отношения, простые и сложные пространственные представления, величие, направление, форма, расстояние, этапы развития измерительной деятельности, задание*

**Summary:** The article focuses on the level of development of spatial imagination of primary school students, evaluates the place and role of observation, comparison, measurement, construction in the formation of spatial imagination of young schoolchildren, explains the stages of development of measurement activity, ensuring the unity of measurement and observation activities The research provides examples of interpretation of mathematical spelling, which is a useful tool for mastering the terms of spatial signs and relations and their inclusion in the active vocabulary of students.

***Keywords:*** *space signs, spatial relations, simple and complex spatial concepts, greatness, direction, form, distance, stages of development of measurement activity, assignment*

***Tədqiqatla bağlı toplanmış materiallar üzrə mülahizələr və fikirlərə aydınlıq gətirən nümunələr.*** Fəza təsəvvürləri materiyanın mövcudluq formasına aid olmaqla forma, vəziyyət, böyüklük, məsafə, istiqamət və başqa fəza əlamət və münasibətlərinin inikasını özündə birləşdirir.

Fəza əlamətlərinin təhlili əsasında uşaqlarda ayrı-ayrı əşya və həndəsi forma, böyüklük (uzaqlıq, en, hündürlük ölçüləri), istiqamət (şagird öz bədəninin vəziyyətinə görə, burada insan bədəninin yerləşdiyi müstəvinin yerin səth müstəvisinə perpendikulyarlığı nəzərdə tutulur) haqqında sadə fəza təsəvvürləri formalaşır.

İbtidai siniflərdə şagirdlərin fəza təsəvvürlərini şərti olaraq üç mərhələyə (inkişaf mərhələsinə) ayırmaq olar. Öncə, şagirdlər əşyaya aid fəza əlamət və münasibətlərini ayırmağı və onları formasına, böyüklüyünə, istiqamətinə, vəziyyətinə və s. görə fərqləndirməyi öyrənirlər. Sonra onlar müxtəlif formalar, ölçülər, istiqamətlər, vəziyyətlər arasında və adı çəkilən fəza anlayışları daxilindəki fərqləri mənimsəyirlər. Şagirdlər düzbucaqlını kvadratdan, metri desimetrdən, santimetrdən, sağ tərəfi sol tərəfdən, əşyanı göz səviyyəsindən alçaq (aşağı) və ya yüksək (yuxarı) olmasını və s. fərqləndirməyi öyrənirlər. Sonrakı mərhələdə şagirdlərdə artıq əldə edilmiş ümumi təsəvvür sistemləri arasında fərq əmələ gəlir. Məsələn, onların təsəvvürlərində müstəvi (yastı) həndəsi forma ilə fəza (həcmli) həndəsi forma arasında, sahə ölçü sistemi ilə uzunluq ölçü sistemi arasında, əşyanın insan bədəninə nəzərən yerləşdiyi istiqamətlər sistemi ilə üfüqə nəzərən yerləşdiyi istiqamətlər sistemi (coğrafi) arasında fərq yaranır [1;162].

Şagirdlərin obyektlərin fəza əlamət və münasibətlərinin müşahidəsi üzrə fəaliyyəti onların fəza təsəvvürlərinin yaranmasında və inkişafında mühüm rol oynayır. Bu fəaliyyət növünün təlim prosesində yeri ayrı-ayrı mərhələlərə müvafiq olaraq qarşıya qoyulmuş məqsədlə müəyyən edilir. Məqsəddən asılı olaraq müşahidə əsas fəaliyyət növü kimi çıxış edir, ya da bu və ya digər fəaliyyətin elementinə çevrilir. Əgər müşahidə aparıcı fəaliyyət rolunu oynayırsa, onda o, tətbiq edildiyi mərhələyə müvafiq olaraq təşkil və idarə olunur. Əgər aparıcı rolu digər fəaliyyət növü oynayırsa, bu zaman müşahidə həmin fəaliyyətin həyata keçirilməsi üçün vasitəyə çevrilir.

Şagirdlərin fəza əlamət və münasibətlərinin müşahidəsinin səmərəliliyi bir sıra şərtlərlə təmin olunur. Birinci və əsas şərt aydın və konkret məqsəd kimi qarşıya qoyulmalıdır. Bu, şagirdin müşahidə fəaliyyətini istiqamətləndirir, onu idarə olunan prosesə çevirir. Məqsədin bir-biri ilə bağlı daha konkret vəzifələrə ayrılması, başqa sözlə, müşahidənin planlaşdırılması onun səmərəliliyinin yüksəl məsinə səbəb olur. Planlaşdırma birinci və ikinci siqnal sistemlərinin əlaqəsini təmin edir. [2; 280-282].

Müşahidənin səmərəliliyinə şagirdlərin əqli və praktik fəaliyyətlərinin qarşılıqlı əlaqəsi, həmin fəaliyyətin fəallığı müəyyənedici şəkildə

təsir göstərir. Müşahidə prosesində şagirdlərin praktik və əqli fəallığı qarşıya qoyulmuş məqsədlə bağlıdır. Məsələn, şagirdə verilmiş obyektin ayrı-ayrı hissələri arasındakı fəza münasibətlərini müəyyənləşdirmək tapşırılmışdırsa, o, analiz və sintezdən istifadə edir. Əgər şagirdə əşyaların oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirmək tapşırılmışdırsa, o, müqayisədən istifadə edir. Qeyd edək ki, şagirdlərin idrak fəallığını təmin etmək üçün müqayisə iki istiqamətdə tətbiq olunur: 1)obyektin fəza əlamət və münasibətlərini ardıcıl müqayisə etməklə öyrənmək; 2)obyektlərin fəza əlamət və münasibətlərini qarşılaşdırmaqla öyrənmək.

Müşahidənin nəticəsi müşahidəçinin obyekt olan münasibətindən və onun haqqında ilkin məlumatın səviyyəsindən asılıdır.

Kiçik yaşlı məktəblilərin fəza təsəvvürünün formalaşmasında vasitəli və vasitəsiz ölçmənin də rolu böyükdür. Riyaziyyatın təlimində şagirdlər müxtəlif praktik işlərə cəlb olunurlar. Düzgün təşkil olunmuş praktik işlər ölçmə fəaliyyətinin inkişafına güclü təsir göstərir. Təlim prosesinin təsiri ilə şagirdlərin ölçmə fəaliyyətlərinin inkişafı bir neçə mərhələdən keçir.

Birinci mərhələ uzunluq ölçü vahidlərinin öyrənilməsi üzrə hazırlıq işləri ilə bağlıdır. Bu işin məzmununun miqdar və fəza münasibətlərinin fərqləndirilməsi, gözəyarı və ya kağız lentlə ölçmə daxildir. Bununla şagirdlərin məktəbəqədər əldə etmiş olduğu təsəvvürlər dəqiqləşir, onlar ölçü alətləri ilə işləmək vərdişləri əldə edirlər. İkinci mərhələ üçün ölçü vahidləri ilə şagirdlərin tanış olmaları və onları praktikada tətbiq etmələri ilə xarakterizə edilir. Burada ölçmə, hesablama, qurma arasında bağlılığa diqqət yetirilir, fəza və miqdar təsəvvürlərinin sintezi başlanır, sonralar bu əlaqədən əqli fəaliyyətin əsası kimi istifadə olunur.

Üçüncü mərhələdə uzunluq ölçü sistemi öyrənilir. Burada ölçmə praktikası ölçmə və qurma arasındakı əlaqə ilə xarakterizə olunur. Bu mərhələdə şagirdlərin mürəkkəb fəza təsəvvürlərinin inkişafı üçün müxtəlif çalışmalar tətbiq edilir.

Dördüncü mərhələ sahə vahidləri sistemi və onların praktikada tətbiqi ilə şagirdlərin ölçmə fəaliyyəti inkişaf edir. Mürəkkəb təsəvvürlər sintez yolu ilə formalaşır və inkişaf edir.

Ölçmə fəaliyyətinin şagirdlərin fəza təsəvvürünün inkişafına effektli təsir etməsi üçün ölçmə praktikasında aşağıdakı iki şərt gözlənilməlidir: 1) alətlərlə ölçmə gözəyarı ölçmə ilə vahid halda birləşdirilməlidir; 2) şagirdlərin ölçmə fəaliyyəti onların müşahidə, qurma və hesablama fəaliyyəti ilə üzvi şəkildə əlaqələn dirilməlidir.

Şagirdlərin qurma və modelləşdirmə fəaliyyətlərinin inkişafı onların ölçmə və modelləşdirmə fəaliyyətlərinin əsas "nəzarətçisidir". Qurma və modelləşdirmə prosesində də şagird özünün mövcud təsəvvürlərindən istifadə edir.

Qurma və modelləşdirmə üzrə iş iki mərhələdə təşkil olunur. Birinci mərhələdə obyekt qavrayış üçün təqdim olunur, model və çertyoj ona müvafiq hazırlanır. Bu mərhələ fiqurla tanışlıq prosesində həyata keçirilir. Şagird formanın iki əsas fəza əlamətini öyrənir, müvafiq terminləri mənimsəyir. İkinci mərhələdə obyektin fəza əlamət və münasibətləri ikinci siqnal vasitələrinin köməyi ilə təsvir olunur, onun əsasında qurma yerinə yetirilir və ya model hazırlanır. Bu iş fəza təsəvvürlərinin möhkəmləndirilməsinə və dəqiqləşdirilməsinə istiqamətlənir. Tərtib olunan çertyoj və ya model praktik və əqli fəaliyyətdə əsas rol oynayır. Beləliklə, şagird təsəvvürünə əsaslanmaq bacarığı qazanır. [2;283].

Kiçik yaşlı məktəblilərin fəaliyyətində hesablama başlıca yer tutur. Bu, fənnin məzmun və strukturundan irəli gəlir. Şagirdlərin fəza təsəvvürlərinin formalaşmasında həmin fəaliyyət növünün də rolu böyükdür. Çünki hesablama digər fəaliyyət növləri ilə bağlana bilir: xüsusən fəza və miqdar təsəvvürlərinin sintezində bu fəaliyyət növünün əhəmiyyəti böyükdür.

Şagirdlərin hesablama fəaliyyətini təşkil etmək üçün xüsusi tapşırıqlardan istifadə olunur, hansı ki, bu tapşırıqlarda fəza əlamət və münasibətləri təhlil edilir. Məsələn, buna aşağıdakı məsələ bir nümunə ola bilər.

Məsələ. Semral velosipedlə A məntəqəsindən B məntəqəsinə yola düşdü. O, 400m getdikdən sonra müəyyən etdi ki, açarı itirmişdir. Semral 50m geri qayıtdıqdan sonra açarı tapır. Bundan sonra 650 m gedərək B məntəqəsinə çatır. A ilə B arasındakı məsafəni tapın.

Fəza əlamət və münasibətlərinin qavranılmasında fiqurların çevrilməsi üzrə iş az əhəmiyyətə malik deyildir. Həmin istiqamətdə kiçik yaşlı məktəblilərin fəaliyyətini iki növə ayırmaq

olar: 1) həndəsi forma, onun çevrilməsi yolu ilə əyani şəkildə verilir, işin icrası şagirdlərdən tələb olunur; 2) həndəsi forma, onun çevrilməsi yolu sözlərin köməyi ilə təsvir edilir, icrası şagirdlərdən tələb olunur.

Fəza fiqurlarının, onların əlamət və münasibətlərinin, müvafiq terminlərin mənimsənilməsində, onun şagirdlərin fəal lüğətinə daxil edilməsində həndəsi imlalar mühüm rol oynayır. Məzmununa görə həmin imlaları aşağıdakı kimi qruplara ayırmaq olar: 1) fiqurların yerləşdirilməsinə aid; 2) fəza əlamət və münasibətlərinin fərqləndirilməsi üzrə; 3) fiqur üzərində ölçmə əməliyyatları aparılmasına aid; 4) fiqurların qurulması və tərtibinə aid; 5) fiqurun hissələrə ayrılması və həmin hissələrdən fiqur tərtibinə aid və s. [1;165]

Tədris prosesində yerini və əhəmiyyətini daha yaxından hiss etmək məqsədi ilə bəzi imla nümunələrini bu başlığın məzmununa daxil edək:

1. Fiqurun yerləşdirilməsinə aid imla nümunəsi.

a) Masanın üzərinə göy rəngli kvadrat qoyun. Onun sağ tərəfinə sarı rəngli kvadrat yapışdırın. Neçə kvadratdan ibarət zolaq alındı? Zolağı elə çevirin ki, göy kvadrat sarı kvadratdan yuxarıda yerləşsin. İki kvadratdan ibarət zolaq çəkin.

b) Bir göy və iki ağ kvadrat götürün. Masanın üzərinə göy kvadrat qoyun. Ağ kvadratları elə yerləşdirin ki, göy kvadrat ortada yerləşsin. Neçə kvadratdan ibarət zolaq alındı? Üç kvadratdan ibarət zolaq çəkin.

2. Fiqurların hissələrə ayrılmasını tələb edən imlalar.

a) Masanın üzərinə kvadrat qoyun. Karandaşın ucunu kvadratın tərəfi üzərində aşağı, sağ tərəfdən bir dama yuxarıya qoyun və bir nöqtə qeyd edin. Sonra kvadratın tərəfi üzərində yuxarı sol tərəfdən bir dama aşağıda bir nöqtə qeyd edin. Həmin nöqtələrdən keçən düz xətt çəkin. Kvadratı həmin xətt boyunca kəsin. Alınmış hissələri üst-üstə qoymaqla müqayisə edin.

b) Masa üzərinə düzbucaqlı qoyun. Yuxarı sağ və aşağı sol təpədən keçən düz xətt çəkin. Fiquru həmin xətt boyunca kəsin. Siz iki üçbucaq aldınız. Onları elə yerləşdirin ki, üst-üstə düşsün. Bu mümkündürmü?

Riyaziyyatın tədrisində kiçik yaşlı məktəblilərin fəza təsəvvürlərinin formalaşması probleminin həlli üçün aşağıdakı üç istiqamət üzrə iş aparmaq zəruridir: fəza əlamət və münasibətlərinin diferensasiyası; fəza əlamət və münasibətlərinə aid terminlərin mənimsənilməsi və onun fəal lüğətə daxil edilməsi; fəza təsəvvürlərinin digər təsəvvürlərlə əlaqələndirilməsi.

Həmin istiqamətlər üzrə iş şagirdlərin təsəvvürlərinin inkişaf mərhələlərinə müvafiq olaraq həyata keçirilir. Şagirdlərin fəza təsəvvürlərinin inkişaf mərhələlərinin aşağıdakı ardıcıllığı müəyyənləşdirilir: kiçik yaşlı məktəblilərin məktəbəqədər əldə etdikləri fəza təsəvvürlərinin dəqiqləşdirilməsi; fəza əlamət və münasibətlərinin tapılması, fərqləndirilməsi və əyani situasiyada fəza təsəvvürlərindən istifadə olunması; fəza əlamət və münasibətlərinin təsəvvürdə canlandırılması və onlardan əqli fəaliyyətin əsası kimi istifadə edilməsi.

Məktəbəqədər dövrdə toplanmış təsəvvürlər məktəblilərin sonrakı fəza təsəvvürlərinin inkişafında əhəmiyyətli rol oynayır. Lakin həmin təsəvvürlər dəqiqləşdirilməli və sistemləşdirilməlidir.

Məlumdur ki, uşaqlar oyun prosesində obyektlərin qarşılıqlı vəziyyəti ilə tanış olurlar. Onlar obyektlərin qarşılıqlı vəziyyətini "aşağı", "yuxarı", "alt", "üst", "sağ", "sol", "arasında" sözləri vasitəsi ilə təsvir etməyi öyrənirlər.[2; 9]

Təlimin başlanğıc mərhələsində fəza əlamət münasibətləri üzrə təsəvvürlərin formalaşdırılması və müvafiq terminlərin mənimsənilməsi işi iki istiqamətdə aparılır: ölçmə işləri ilə əlaqədar fəza təsəvvürlərinin dəqiqləşdirilməsi və uyğun terminlərin mənimsənilməsi; obyektlərin fəzada yerləşməsi ilə bağlı təsəvvürlərin dəqiqləşdirilməsi və uyğun terminlərin mənimsənilməsi.

Məktəbəqədər yaşlı uşaqlar "eyni", "fərqli", "böyük", "kiçik" terminləri ilə fəza münasibətlərini ifadə etməyi bacarırlar. Ancaq bu terminlər fəza münasibətlərini daha düzgün əks etdirməsi istiqamətində dəqiqləşdirilməlidir. Məsələn, iki kağız zolağın sahəsi bərabər olduğu halda eni və uzunluğu müxtəlif ola bilər. Şagird uzunluğu (yaxud eni) əsas götürərək onların birinin digərindən böyük (yaxud kiçik) olduğunu bildirir. Odur ki, "eyni", "fərqli", "böyük", "kiçik" və s. terminlərinin konkretləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır. İlk növbədə obyektlər arasındakı münasibəti müəyyənləşdirən əsas fəza əlamətinin ayrılmalı olduğunu şagirdlər bilməlidirlər. Bunun üçün xüsusi tapşırıqlar tətbiq edilir. Onların məzmununa gözəyarı

ölçmə, əşyaları üst-üstə qoyma və s. tələbli tapşırıqlar daxil edilir.

Fiqurların fəzada yerləşməsi ilə bağlı təsəvvürlərin dəqiqləşdirilməsi və ümumidən konkretə yüksəlmə yolu ilə həyata keçirilir. Həmin məqsədlə üç və yaxud dörd obyektin qarşılıqlı vəziyyətinin müəyyənləşdirilməsindən istifadə edilir. Bu zaman bir obyektin vəziyyətinin müxtəlif terminlərlə izahı faydalıdır. Məsələn, qırmızı dairə göy dairədən sağda, qara dairədən sağda, qara dairədən aşağıda yerləşir və s.

Həmin prosesdə tələb olunan fəza münasibətlərinə müvafiq fiqurların yerləş dirilməsinə aid tapşırıqlara da diqqət yetirilməlidir. Məsələn, bir nöqtə qeyd edin, həmin nöqtədən 3 dama aşağıda, 3 dama solda yerləşən bir nöqtə qeyd edin.

Fəza təsəvvürlərinin formalaşması ilə bağlı işin ikinci mərhələsi iki istiqamət üzrə həyata keçirilir: 1) həndəsi fiqurların, onların fəza əlamət və münasibətlərinin fərqləndirilməsi, müvafiq terminlərin mənimsənilməsi; 2) uzunluq vahidləri ilə tanışlıq, fəza və miqdar təsəvvürlərinin sintez olunması, uyğun terminlərin mənimsənilməsi.

Bu tapşırıqlar üzrə işin ilk mərhələsində şagirdlər nöqtə, düz xətt, parça, əyri xətt, sınıq xətt, bucaq, çoxbucaqlı, dairə, çevrə, dördbucaqlı, kvadrat ilə tanış olurlar.

Eyni istiqamət üzrə işin ikinci mərhələsində çertyoj, modellər üzərində şagirdlərin praktik fəaliyyəti təşkil edilir. Obyektlərin, onların elementlərinin təhlili həndəsi formanın fəza əlamət və münasibətləri haqqında daha dəqiq təsəvvürlərin inkişafına səbəb olur.

Həndəsi formanın, onun elementlərinin fəza əlamət və münasibətlərinin praktik yolla aşkar edilməsi faydalıdır. Məsələn, düzbucaqlının qarşı tərəflərinin xassəsini ölçmə yolu ilə aşkar etmək lazımdır.

Üçüncü mərhələdə tətbiq edilən tapşırıqlar sistemi fəza təsəvvürlərinin sintezinə istiqamətlənməli, fəza təsəvvürlərindən əqli fəaliyyətin əsası kimi istifadə olunmalıdır.

Tapşırıqlar sisteminə hər bir sinif üçün aşağıdakılar daxil edilir: a) həndəsi fiqurların (dairə, çoxbucaqlı, çoxbucaqlının elementləri və s.) say obyekti kimi istifadə etməyi tələb edən tapşırıqlar (Belə tapşırıqların həllində fiqurların tanınması və fərqləndirilməsi, uyğun terminlərin mənimsənilməsi üçün imkan yaranır.); b) damalara ayrılmış kağız üzərində həndəsi fiqurların qurulmasına aid tapşırıqlar; c)damalara ayrılmış kağız üzərində ölçüləri ilə əlaqədar şərt qoyulmadan müxtəlif vasitələrin köməyi ilə fiqurların qurulmasını tələb edən tapşırıqlar; ç)verilmiş şərtlərə (düzbucaqlı olması, tələb olunan uzunluqda tərəfinin olması və s.) görə fiqur ların qurulmasına aid tapşırıqlar; e) fiqurların təsnifinə aid tapşırıqlar; ə) fiqurların hissələrə ayrılması və tərtibinə aid tapşırıqlar; g) həndəsi simvollardan istifadə etməklə çertyojların oxunması bacarıqlarının formalaşmasına istiqamətlənən tapşırıqlar; d)həndəsi ölçülər haqqında təsəvvürlər və fiqurların sahəsinin, uzunluqların ölçülməsi üzrə tapşırıqlar; j) çoxbucaqlının perimetri və sahəsinin hesablanmasına aid tapşırıqlar.[2; 10]

Yuxarıda qeyd olunan tapşırıqlar sisteminə daxil edilən növlərdən birinin məzmununa nəzər salaq.

Tapşırığın növü: Fiqurun hissələrə ayrılması və həmin hissələrdən fiqurun tərtib edilməsi.

Bu növə daxil edilən tapşırıqların birinci qrupu.

Tapşırığın icrası fiqurun çəkilməsindən və ya modelinin hazırlanmasından başlanılır. Çertyoju çəkilən və ya modeli hazırlanan fiqur əvvəlcədən şagirdlərə təqdim olunur. Ona başlanğıc fiqur deyilir. Bu tapşırıqda başlanğıc fiqur əyani verilir. Şagirdlərin qarşısında aşağıdakı kimi tələblər qoyula bilər:

1. Düz xətt çəkməklə və kəsməklə fiquru 2, 3 eyni hissəyə(forma göstərilir) ayırın

2. Düz xətt çəkməklə və kəsməklə fiquru 2, 3 eyni hissəyə(forma əyani göstərilmir) ayırın.

3. Düz xətt çəkməklə və kəsməklə fiquru müxtəlif hissələrə(hər bir hissə göstərilir)ayırın.

4. Düz xətt çəkməklə və kəsməklə fiquru hissələrə (onların ölçüsü və forması göstərilir) ayırın.

Bu növə daxil edilən tapşırıqların ikinci qrupu.

Tapşırıqlar üçün başlanğıc mərhələ tələb olunan fiqurların çəkilməsindən və ya kəsilməsindən ibarətdir. Burada da başlanğıc fiqur əyani şəkildə verilir. Şagirdlərin qarşısında aşağıdakı kimi tələblər qoyulur:

1. Fiqur və ya fiqurlar tərtib edin (fiqurun və ya fiqurların tərtibedilmə yolu verilir, ölçü şərti tələb edilmir);

2. İstənilən bir və ya bir neçə fiqur tərtib edin;

3. Təqdim edilən ölçüdə fiqur tərtib edin (tərtibetmə yolu verilir).

Bu növə daxil edilən üçüncü qrup tapşırıqlar.

Bu tapşırıqlar I və II qrup tapşırıqlarda yerinə yetirilən əməliyyatları özündə birləşdirir. III qrup tapşırıqlarda başlanğıc fiqura əsasən fiqur çəkilir və kəsilir. Kəsilmiş fiqur hissələrə ayrılır və tələb olunan fiqur tərtib edilir. Bu tapşırıqlarda şagirdlər qarşısında aşağıdakı kimi tələblər qoyula bilər: 1) verilmiş fiqura müvafiq hazırlanmış fiquru 2, 3 hissəyə (forma tələb olunmur) ayırın və həmin hissələrdən yeni fiqur tərtib edin (forma tələb olunmur); 2) verilmiş fiqura müvafiq hazırlanmış fiquru 2, 3 hissəyə (forma əyani göstərilir) ayırın və həmin hissələrdən yeni fiqur tərtib edin (forma tələb olunmur); 3) verilmiş fiqura müvafiq hazırlanmış fiquru 2, 3 hissəyə ayırın (forma əyani göstərilir, ölçü verilir) və həmin hissələrdən yeni fiqur tərtib edin (forma əyani göstərilir); 4) ) verilmiş fiqura müvafiq hazırlanmış fiquru 2, 3 hissəyə (forma göstərilir, ölçü verilir) ayırın və həmin hissələrdən yeni fiqur tərtib edin (forma və ölçü verilir). [2;286-287].

İkinci istiqamət üzrə işi iki mərhələyə ayırmaq olar.

Birinci mərhələni "böyüklük" fəza münasibətlərinin müəyyənləşdirilməsi və ilk ölçü vahidi ilə tanışlıq təşkil edir.

İkinci mərhələ üzrə iş uzunluq ölçü vahidlərinin və onların qarşılıqlı əlaqəsinin öyrənilməsinə istiqamətlənir və bu əsasdan da şagirdlərin fəza təsəvvürləri, ədəd haqqında anlayışları inkişaf edir.

Sahə ölçü vahidləri ilə tanışlıq da analoji qayda üzrə aparılır. Əvvəlcə, sahə haqqında təsəvvür əyani şəkildə yaradılır. Sonra şagirdlər sahə vahidləri ilə tanış olur, onların qarşılıqlı əlaqəsini öyrənirlər.

Bu istiqamətdə işin məzmununa aşağıdakılar da daxildir: 1) şagirdlərin təsəvvür etmə fəaliyyəti ilə bağlı qurma, hesablama üzrə bilik, bacarıq və vərdişlərinin formalaşdırılması; 2) əyani şəkildə verilmiş fiquru hissələrə ayırmaqla yeni fiqur tərtib etmək üzrə bacarıqların formalaşdırılması; 3) öyrənilmiş həndəsi fiqurların xassələri haqqında təsəvvürlərin formalaşdırılması.

Göstərilən istiqamətlər üzrə aparılan işin məzmunu haqqında aydın təsəvvür yaratmaq məqsədi ilə bu istiqamətlərdən biri üzərində dayanaq. Məsələn, ikinci isti qamətdə aparılan işə nəzər salaq. Şagirdlər üçün üç qrup tapşırıqlar üzrə fəaliyyət göstərmək təklif olunur: 1)şagird yerinə yetirməli əməliyyatları təsəvvür etməlidir; 2) şagird yerinə yetirməli əməliyyatları və yeni fiqurun formasını təsəvvür etməlidir; 3) şagird verilmiş fiquru, yerinə yetirilməli əməliyyatları və yeni fiquru təsəvvür etməlidir.

**Problemin elmi yeniliyi:** ibtidai sinif şagirdlərinin fəza təsəvvürlərinin inkişaf səviyyələri, fəza təsəvvürlərinin formalaşmasında müşahidənin, müqayisənin, ölçmənin yeri və rolu, ölçmə fəaliyyətinin inkişaf mərhələləri, şagirdlərin qurma və modelləşdirmə fəaliyyətləri ilə ölçmə və müşahidəetmə fəaliyyətlərinin vəhdətinin təmin olunmasının zəruriliyi, fəza əlamət və münasibətləri ilə bağlı terminlərin mənimsənilməsi və onların şagirdlərin aktiv danışıq lüğətlərinə daxil edilməsində faydalı vasitə olan riyazi imlaların tətbiqi formaları müəyyən edilmişdir.

**Problemin praktik əhəmiyyəti:** İbtidai siniflərdə riyaziyyatın "Həndəsə" məzmun xətti üzrə materialların tədrisi prosesində fəaliyyətini səmərəli qurmaqda müəllimə metodik yardımın səviyyəsinin yüksəlməsinə müsbət təsiri vardır.

**Ədəbiyyat:**


1. İbrahimov, F.N. Təlim prosesinin idarə edilməsinin bəzi məsələlərinə dair mühazirə konspektləri. – Bakı: Mütərcim, -2005, -2004 s.
2. İbrahimov, F.N. İbtidai məktəbdə riyaziyyat tədrisinin bəzi məsələləri(mühazirə konspektləri).-Bakı: Mütərcim, -2006, -232 s.
3. Ümumi psixologiya / Prof. A.V. Petrovskinin redaktorluğu ilə. –Bakı: Maarif, -1982, -495 s.


**E-mail:** kardelen.ava@mail.ru

**Rəyçilər:** *riy.ü.fəls.dok* **V.Ə. Abdurahmanov**
*riy.ü.fəls.dok.* **A.B. İmanova**
**Redaksiyaya daxil olub:** 23.02.2022.

**UOT 372.851**

***Müdafiə Cəmil oğlu Mahmudov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*https://orcid.org/0000-0003-1161-1416*

***Emil Əziz Rafik***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*https://orcid.org/0000-0003-4273-5374*
*https://doi.org/10.5281/zenodo.6448165*

***Azadə Cəmşid qızı Tahirova***
*Azərbaycan Texniki Universitetinin dosenti*
*https://orcid.org/ 0000-0003-3681-3882*

# LİSEYLƏRDƏ VƏ ALİ TEXNİKİ MƏKTƏBLƏRDƏ TƏTBİQİ MƏSƏLƏLƏRİN SEÇİLMƏSİ MEYARLARI VƏ VARİSLİYİN ƏHƏMİYYƏTİ

***Мудафие Джамиль оглу Махмудов***
*доктор наук по педагогике, профессор*

***Эмиль Азиз Рафик***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

***Азада Джамшид гызы Тахирова***
*доцент Азербайджанского Государственного Университета*

# КРИТЕРИИ ОТБОРА ПРИКЛАДНЫХ ВОПРОСОВ В ЛИЦЕЯХ И ВЫСШИХ ТЕХНИЧЕСКИХ ШКОЛАХ И ВАЖНОСТЬ ПРЕЕМСТВЕННОСТИ

***Mudafie Jamil Mahmudov***
*doctor of sciences in pedagogy, professor*

***Emil Aziz Rafik***
*doctorial student in the proqram of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

***Azada Jamshid Tahirova***
*Associate Professor of Azerbaijan State University*

# CRITERIA FOR SELECTION OF APPLIED ISSUES IN LYCEUMS AND HIGHER TECHNICAL SCHOOLS AND THE IMPORTANCE OF SUCCESSION

**Xülasə.** Məqalədə liseylərdə və ali texniki məktəblərdə əsas isbat metodlarının tətbiqi ilə məsələlərin seçilməsi meyarları və varisliyin mahiyyəti məsələlərinə toxunulmuşdur. İndiki dövrdə bu istiqamətlərdə məsələlərin həllində meydana çıxan çətinliklərin və ziddiyyətlərin aradan qaldırılması yolları öz əksini tapmışdır.
***Açar sözlər:*** *tətbiq, bilik, şagird, tələbə, proses, dəqiq, üsul, fənlərarası, varislik*

*Müdafiə Cəmil oğlu Mahmudov, Emil Əziz Rafik, Azadə Cəmşid qızı Tahirova*

**Резюме.** В статье затрагиваются критерии отбора поступающих в лицеи и высшие технические школы и сущность наследования. В настоящее время есть способы преодоления трудностей и противоречий в решении вопросов в этих сферах.

***Ключевые слова:*** *применение, знания, ученик, студент, процесс, точность, метод, междисциплинарность, наследственность*

**Summary:** The article touches on the criteria for selecting application issues in lyceums and higher technical schools and the essence of inheritance. At present, there are ways to overcome the difficulties and contradictions in the solution of issues in these areas.

***Key words:*** *application, knowledge, pupil, student, process, precision, method, interdisciplinary, inheritance*

Liseylərdə şagirdlərin riyazi hazırlığında tətbiqi məsələlərin həllinə yer verilməsi mühüm əhəmiyyət kəsb edir. Təlim prosesində tətbiqi məsələlərin həllinə yer verildikdə, onda ali texniki məktəblərdə riyazi bilikləri bilavasitə texniki fənlərin tədrisində tətbiq etməklə tələbələrin müasir tələblərə uyğun bilik və bacarıqlara malik olduqları özünü əks etdirir. Riyaziyyat, fizika, mexanika, radiotexnika və s. kimi elmlərdə müəyyən dəyişən kəmiyyətlər var və bu dəyişənlər arasında bir-birindən asılılıq və ya asılı olmamazlıq mövcuddur. Birinci halda, yəni baxılan prosesdə və ya riyazi məsələnin tədqiqində məsələnin həlli müəyyən edilir və bu məsələnin həlli iki halda özünü əks etdirir: dəqiq həll və ya təqribi həll. Texniki məsələlərin həllini həmişə dəqiq şəkildə təyin etmək olmur, ona görə də bu cür məsələlərin həllinin təqribi üsullarla həll edilməsi qarşıda durur, yəni qoyulmuş məsələnin həllində standart metodlardan istifadə yaramır, buna görə də riyaziyyatın nəzəri və praktik istiqamətlərdə tədrisində tətbiqi məsələlərin həllinə yer verilməsi diqqətdən qaçmamalıdır. Bu halda tələbələrin əldə etdiyi riyazi biliklərin onların ixtisaslarına istiqamətləndirilməsi gələcək mühəndislərin öz peşələrində keyfiyyətli təhsil almalarına səbəb olur.

Ali texniki məktəblərdə riyaziyyatın təlimində tətbiqi məsələlərin seçilməsində və onun düzgün həyata keçməsində fənlərarası əlaqələrin və varislik prinsipinin təmin edilməsi gələcək mühəndislərin bilik və bacarıqlarının dərinləşməsinə səbəb olur. Müşahidələrdən aydın olur ki, lisey və ali texniki məktəblərin riyaziyyat kursları arasında fəndaxili, fənlərarası əlaqələr və varislik prinsipinin həyata keçməsi aşağıdakı vəzifələrin yerinə yetirilməsində özünü əks etdirməlidir, yəni:

1) ali texniki məktəblərdə riyaziyyatdan ixtisas fənlərinin öyrənilməsində yeni təlim texnologiyalarından istifadə etməklə onun səmərəliliyinin artırılması;

2) gələcək mühəndislərin peşə üzrə tətbiqi məsələlərinin rolu və onun mahiyyətinin formalaşdırılması;

3) riyaziyyat, qonşu (qohum) fənlər və texniki fənlər arasında qarşılıqlı əlaqələri həyata keçirmək üçün öyrədənlə öyrənən arasında məqsədyönlü fəaliyyət öz əksini tapmalıdır;

4) gələcək mühəndislərə öz peşələri üzrə tətbiqi məsələləri seçməklə istiqamətləndirmək, təhlil etmək və həll yolunu göstərmək.

Ali texniki məktəblərdə tələbələrin riyaziyyat kursundan aldığı bilik və bacarıqların müasir tələblərə uyğun olması üçün orta ümumtəhsil məktəblərində, liseylərdə, kolleclərdə riyazi təhsilə diqqəti artırmaq və təhsilin keyfiyyətini yüksəltmək lazımdır. Bu halda riyaziyyat müəlliminin rolu, pedaqoji ustalığı mühüm əhəmiyyət kəsb edir.

İndi isə ümumtəhsil məktəblərində, liseylərdə və ali texniki məktəblərdə riyaziyyat və informatika fənlərinin digər qonşu və texniki fənlər arasındakı varislik və fənlərarası əlaqələrin tətbiqi məsələlərin həllində reallaşdırılması yollarına baxaq. Aydındır ki, orta məktəb riyaziyyat kursunda həndəsə fənni bir sıra fənlərlə əlaqəlidir. Cəbr və riyazi analizin bir sıra elementləri həndəsədə tətbiq olunur, həndəsinin bir sıra anlayışları isə başqa fənlərlə əlaqəlidir. Digər tərəfdən, qeyd edə bilərik ki, orta məktəbin həndəsə kursu ilə ali texniki məktəblərin riyaziyyat kursunun analitik həndəsə bölmələri (nəzəriyyələri) ilə varislik vardır. Buna görə də ali texniki məktəblərin riyaziyyat kursundan həndəsəyə aid konkret misallar göstərmək lazımdır. Tətbiqi məsələlər tələbələrin məntiqi təfəkkürünün inki-

şafında xüsusi rol oynayır və onların bilik, bacarıq və vərdişlərinin möhkəmlənməsində, dərinləşməsində öz əksini tapır.

Son on ildə bütün istiqamətlərdə texnologiyanın sürətlə inkişafının tələblərinə uyğun olaraq həm ümumtəhsil məktəblərində və həm də ali təhsil müəssisələrində yeniliklər və modernləşmələr baş verdi. Lisey və ümumtəhsil məktəblərində təhsilalanları bilik, bacarıq və vərdişlərlə silahlandırmaqla onların həm həyata hazırlanmasında, həm də ali məktəblərdə təhsillərinin davam etdirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu halda nüfuzlu ölkələrin təhsil sisteminə inteqrasiya olunması və hansı istiqamətlərdə sıçrayışla və ya təkamül yolu ilə həyata keçməsi öz əksini tapır. Göstərilənlərin həyata keçməsində müəllimin rolu danılmazdır, çünki o, öyrənənlərə ancaq riyazi bilikləri verməklə kifayətlənmir, həm də fənnin mahiyyətini, başqa elmlərlə əlaqəsini və tətbiqi yollarını göstərir. Bu hal isə təhsilalanların hərtərəfli dünyagörüşünü artırır və bir şəxsiyyət kimi dünyagörüşə malik olmasında rol oynayır.

Ali texniki məktəblərdə fənlərarası əlaqələrin reallaşmasında əsas məqsədlərdən biri də riyaziyyat kursunun öyrənilməsi və əldə olunmuş bilik və bacarıqların qonşu və texniki fənlərin öyrənilməsində tətbiqidir. Fənlərarası əlaqələrdən və varislik prinsipindən istifadə edərək müxtəlif texniki fənlərə aid bilik, bacarıq və vərdişlərə malik olunması gələcək mütəxəssislərin dünyagörüşünü artırır və şəxsiyyət kimi yetişməsində rol oynayır.

Orta məktəb kursundan həndəsə, cəbr və riyazi analiz kursunun elementlərinin tədrisində tətbiqi məsələlərin seçilməsi və həlli üsulları bu fənlərin öyrənilməsində əsas mərhələ təşkil edir. XXI əsrin əvvəllərindən başlayaraq müasir riyaziyyatın elementləri ildən-ilə geniş şəkildə lisey və orta məktəb riyaziyyat kursuna daxil edilmişdir. Ali texniki məktəblərdə riyaziyyatın təlimində varislik prinsipinə riayət etməklə tələbələrin biliklərini tətbiqi məsələlərin həllində formalaşdırmaq lazımdır. Riyazi analiz bölmələrinin təlimində kontur misallardan, analogiyalardan və əsas isbat metodlarından istifadə tətbiqi məsələlərin seçilməsində və həllində mühüm rol oynayır. Bu halda tələbələrin bilikləri dərinləşir, zənginləşir, möhkəmlənir və sistematikləşir. Gələcək mühəndislərin riyaziyyatdan keyfiyyətli bilik və bacarıqlara malik olması texnik fənlərin keyfiyyətli təlimində rol oynayır.

Orta məktəblərdə, liseylərdə funksiya anlayışı, onun limiti və kəsilməzliyi, ədədi ardıcıllıqlar və silsilələrin və s. tədrisi bir növ ali texniki məktəblərin birinci kursunda tədris olunur. Bu anlayışları ali məktəblərdə tədris edərkən yeni tip tətbiqi məsələlərin həllinə üstünlük vermək lazımdır. Diferensial və inteqral hesabının tədrisində əsas diqqəti kontrmisallara, analogiyalara və əsas isbat metodlarına ayırmaq lazımdır. Bu anlayışları öyrədərkən təriflərin, qaydaların və düsturların öyrədilməsi daha dərin və sistematik olmalıdır, çünki gələcək mütəxəssislərin məntiqi təfəkkürünün inkişafında rol oynayır. Məsələn:

**Misal 1.** $\{x_n\} = sin^2 n$ və $\{y_n\} = cos^2 n$ kimi iki ardıcıllıq verilmişdir və bunların cəmi $\sin^2 n + \cos^2 n = 1$, onda alırıq ki, $\lim\limits_{n\to\infty}(x_n + y_n) = 1$. Bilirik ki, əgər sonlu sayda ardıcıllıqların hər biri yığılandırsa, onda bu ardıcıllıqların cəmi də yığılandır, yəni $\lim\limits_{n\to\infty}(x_n + y_n) = \lim\limits_{n\to\infty} x_n + \lim\limits_{n\to\infty} y_n$. Bu münasibətdən sual meydana çıxır, hökmün tərsi doğrudurmu?

Onda aydındır ki, $\lim\limits_{n\to\infty}(sin^2 n + cos^2 n) = \lim\limits_{n\to\infty} sin^2 n + \lim\limits_{n\to\infty} cos^2 n$ və $sin^2 n + cos^2 n = 1$ olduğundan $\lim\limits_{n\to\infty}(sin^2 n + cos^2 n) = 1$. Lakin bu hökmün tərsi doğru deyil, çünki $\lim\limits_{n\to\infty} sin^2 n$ və $\lim\limits_{n\to\infty} cos^2 n$ limitləri yoxdur, yəni bu ardıcıllıqların hər biri dağılandır.

Bu, o deməkdir ki, $\{x_n\} = sin^2 n$ və $\{y_n\} = cos^2 n$ ardıcıllıqlarının cəminin yığılan olmasından onların hər birinin ayrılıqda yığılan olmasını demək olmaz, bu şərt isə ardıcıllığın yığılan olması üçün ancaq kafi şərtdir. Bu halda qeyd edə bilərik ki, diferensial və inteqral hesabının bütün bölmələrində kontrmisallardan istifadə etmək olar, çünki meydana çıxan bir sıra çətinliklər kontrmisallarla aradan qaldırılır. Bu deyilənlər isə tələbələrin məntiqi təfəkkürünün inkişafının formalaşdırılması prosesinin riyazi modelləşməsində özünü əks etdirir. Qarşıda duran suallar belə başa düşülür: 1) riyazi təklif və teoremlərə daxil olan şərtlər zəruridirmi?; 2) şərtlər kafidirmi?; 3) şərtlər zəruri və kafidirmi

və ya hökmü daha az şərt daxilində isbat etmək olmazdımı?

Analoji qayda ilə göstərmək olar ki, əgər iki ardıcıllığın hər biri yığılandırsa, onda bu ardıcıllıqların fərqi yığılandır. Burada da göstərmək olar ki, hökmün tərsi doğru deyil. Və ya iki ardıcıllığın sonlu limitləri varsa, yəni yığılandırsa, onda bu ardıcıllıqların hasili olan ardıcıllıq da yığılandır. Lakin kontrmisallarla göstərmək olar ki, hökmün tərsi doğru olmaya da bilər. Eyni qayda ilə analoji olaraq kontrmisallarla yığılan ardıcıllıqların nisbəti üçün göstərmək olar.

**Misal 2.** Limiti olmayan $x_n \frac{1+(-1)^n}{2}$ ardıcıllığı məhduddur, yəni ixtiyari $n \in N$ üçün $0 \le x_n \le 1$ şərtinin ödənilməsinə baxmayaraq, $\{x_n\}$ ardıcıllığı yığılan deyil. Yəni, istənilən həqiqi ədədin istənilən ətrafından kənarda $\{x_n\}$ ardıcıllığının sonsuz sayda həddi olur.

**Misal 3.**

İstənilən qeyd olunmuş natural $p$ ədədi üçün $\lim_{n\to\infty}(a_{n+p} - a_n) = 0$ şərtini ödəyən dağılan

$$a_n = 1 + \frac{1}{2} + \frac{1}{3} + \dots + \frac{1}{n}$$

ədədi ardıcıllığına baxaq. İstənilən qeyd olunmuş natural $p$ ədədi üçün

$$a_{n+p} - a_n = 1 + \frac{1}{2} + \frac{1}{3} + \dots + \frac{1}{n} + \frac{1}{n+1} + \dots + \frac{1}{n+p} - 1 - \frac{1}{2} - \frac{1}{3} - \dots - \frac{1}{n} =$$

$$= \frac{1}{n+1} + \frac{1}{n+2} + \dots + \frac{1}{n+p} \le \frac{1}{n+1} + \frac{1}{n+1} + \dots + \frac{1}{n+1} = \frac{p}{n+1} \to 0; n \to \infty.$$

Deməli, $\lim_{n\to\infty}(a_{n+p} - a_n) = 0$ olur. $\{a_n\}$ ardıcıllığı dağılan ardıcıllıqdır, çünki o, fundamental ardıcıllıq deyil, buna səbəb $\lim_{n\to\infty}(a_{n+p} - a_n) = 0$ münasibətinin $p$-yə nəzərən müntəzəm olaraq ödənilməsidir. Həqiqətən də $p = n$ götürsək,

$$a_{n+p} - a_n = a_{2n} - a_n = \frac{1}{n+1} + \frac{1}{n+2} + \dots + \frac{1}{2n} > \frac{1}{2n} + \frac{1}{2n} + \dots + \frac{1}{2n} = \frac{1}{2}$$

olar. Yəni, $\{a_n\}$ ardıcıllığı $a_{n+1} - a_n > \frac{1}{2} (p = n)$ olduqda şərtini ödəyir, bu isə onun fundamental olmadığını göstərir. Bu halda həqiqətən $\{a_n\}$ ardıcıllığı dağılan ardıcıllıq olar.

İstər liseylərdə, istərsə də ali texniki məktəblərdə riyaziyyatın tədrisində kontrmisalların seçilməsi mühüm əhəmiyyətə malikdir və xüsusi rol oynayır. Kontrmisalların seçilməsində teorem və təkliflərdəki zəruri və kafi şərtlərin hansı dərəcədə çox və ya az olması təklif və ya teoremin mənimsənilməsinə, dərinləşməsinə, zənginləşməsinə, möhkəmləşməsinə və sistemləşməsinə öz təsirini göstərir. Bu halda hökmlərin isbatına ehtiyac qalmır, bu isə təlimin keyfiyyətinin yaxşılaşdırılmasına və təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb olur.

İndiki zamanda ümumtəhsil məktəblərində, lisey və kolleclərdə riyaziyyat proqramlarına müasir riyaziyyatın, ümumiyyətlə desək, riyazi analiz nəzəriyyəsinin elementlərinin ali texniki məktəblərin riyaziyyat üzrə tədris proqramına daxil edilməsinin mahiyyəti ondan ibarətdir ki, bu riyazi elementlər tələbələr tərəfindən keyfiyyətli mənimsənilməlidir, çünki texniki fənlərin tədrisində təlimin keyfiyyətinin yaxşılaşdırılmasında rol oynayır.

Riyazi analiz kursunda birdəyişənli funksiyanın limitinin tədrisində onun xassələrindən istifadə edərək, yəni $x \to x_0$ olduqda, tutaq ki, $f(x)$ və $g(x)$ funksiyalarının sonlu limiti var, onda

1) $\lim_{x\to x_0}[f(x) \pm g(x)] = \lim_{x\to x_0} f(x) \pm \lim_{x\to x_0} g(x)$

2) $\lim_{x\to x_0}[f(x) \cdot g(x)] = \lim_{x\to x_0} f(x) \cdot \lim_{x\to x_0} g(x)$

3) $\lim_{x\to x_0} g(x) \neq 0$ olduqda,

$$\lim_{x\to x_0}\frac{f(x)}{g(x)} = \frac{\lim_{x\to x_0} f(x)}{\lim_{x\to x_0} g(x)}$$

xassələrə əsaslanaraq aşağıdakı kontrmisala baxaq:

**Misal 4.**

$$f(x) = \begin{cases} x + 2, & x < 0 \text{ olduqda}, \\ -4, & x = 0 \text{ olduqda}, \\ 2x - 6, & x > 0 \text{ olduqda}, \end{cases}$$

$$g(x) = \begin{cases} x + 3, & x < 0 \text{ olduqda}, \\ 9, & x = 0 \text{ olduqda}, \\ -3x + 11, & x > 0 \text{ olduqda}. \end{cases}$$

$f(x)$və $g(x)$ funksiyalarının cəmini $\varphi(x)$ ilə işarə etsək, onda alırıq:

$$\varphi(x) = f(x) + g(x) = \begin{cases} 2x + 5, & x < 0 \text{ olduqda}, \\ 5, & x = 0 \text{ olduqda}, \\ -x + 5, & x > 0 \text{ olduqda}. \end{cases}$$

Axırıncı münasibətdən deyə bilərik ki, $x = 0$ nöqtəsində $\varphi(x)$ funksiyasının limiti var, yəni $\varphi(x) = 5$, çünki $x = 0$ nöqtəsində sağ və sol limitlər var və bir-birinə bərabərdir, yəni

$x = 0$ olduqda $\varphi(x)$ funksiyasının sağ və sol limitləri var: $\lim_{x\to 0-}\varphi(x) = \lim_{x\to 0-}(2x+5) = 5$, sol limit,

$\lim_{x\to 0+}\varphi(x) = \lim_{x\to 0+}(-x+5) = 5$,, sağ limit.

Lakin $f(x)$ və $g(x)$ funksiyalarının hər birinin ayrılıqda $x = 0$ nöqtəsində limiti yoxdur. Həqiqətən də,

$\lim_{x\to 0-} f(x) = \lim_{x\to 0-}(x+2) = 2$, ($x = 0$ nöqtəsində sol limit),

$\lim_{x\to 0+} f(x) = \lim_{x\to 0+}(2x-6) = -6$, ($x = 0$ nöqtəsində sağ limit).

Axırıncı münasibətlərdən aydındır ki, $f(x)$ funksiyasının $x = 0$ nöqtəsində sağ və sol limitləri var, lakin bu limitlər bir-birinə bərabər deyil.

Analoji olaraq göstərə bilərik ki,

$\lim_{x\to 0-} g(x) = \lim_{x\to 0-}(x+3) = 3$, ($x = 0$ nöqtəsində sol limit),

$\lim_{x\to 0+} g(x) = \lim_{x\to 0+}(-3x+11) = 11$, ( $x = 0$ nöqtəsində sağ limit).

Alırıq ki, $g(x)$ funksiyasının $x = 0$ nöqtəsində sağ və sol limitləri var və bu limitlər bir-birinə bərabər deyil. Deməli, hər iki halda $x = 0$ nöqtəsində funksiyanın limiti yoxdur.

Bu tip misalların həlli gələcək mühə-ndislərin məntiqi təfəkkürünün inkişafına səbəb olur, bu isə müasir mühəndis hazırlığında mühüm əhəmiyyət kəsb edir.

Ali texniki məktəblər üçün istifadə olunan dərslik və dərs vəsaitlərində texniki məzmunlu məsələlər öz həllini hələ də tapmamışdır. İndiki zamanda ali texniki məktəblərdə istifadə olunan dərslik və dərs vəsaitlərində texniki məzmunlu məsələlər olduqca azdır və bu günün tələblərinə uyğun deyil. Buna görə də ümumi riyaziyyatın bütün bölmələrində (nəzəriyyələrində) təqribi hesablamalara geniş yer verilməlidir. Ümumi riyaziyyatın nəzəri və praktiki istiqamətlərdə tədrisində əsas isbat metodlarından da istifadə etmək təlimin keyfiyyətinin yaxşılaşmasında rol oynayır, yəni analiz və sintez, tam riyazi induksiya metodundan, əksini fərz etmə metodundan istifadə öz əksini tapmalıdır.

Bir təklifin doğruluğunu tapmaq işinə isbat etmək deyilir. Hər bir isbatın tərkib hissəsinə diqqət verdikdə onun üç hissədən ibarət olduğunu görürük, yəni: təklifin isbat olunması, buna tezis deyilir; tezisin həqiqiliyini əsaslandıran təklif, buna əsas və ya arqument deyilir və əvvəldən əsasın doğruluğu məlum olmalıdır; isbat prosesinin özü bir sıra təkliflərdən ibarət olur.

İsbatı tezisdən başlayaraq mühakimənin sonunda əsas təklifə, yəni doğruluğu əvvəldən məlum olan təklifə gətirilir, deməli məchul təklifdən məlum təklifə keçirik. Bu şəkildə olan mühakiməyə analiz deyilir.

İsbatı əsas təklifdən başlayaraq mühakimənin sonunda isbat ediləcək təklifə, yəni tezisə gəlib çıxmaq olar, deməli məlum təklifdən məchul təklifə keçirik. Bu cür mühakiməyə sintez deyilir.

**Misal 5.**

$\frac{a}{b}+\frac{b}{a} > 2$, (1)

burada $a \neq b,\ a > 0,\ b > 0$ bərabərsizliyinə baxaq.

**Analiz.** Əgər (1) bərabərsizliyi doğrudursa, onda alarıq

$a^2 + b^2 > 2ab$.(2)

(2) bərabərsizliyi doğru olduqda isə

$a^2 + b^2 - 2ab > 0$(3)

olar. (3) münasibətindən alarıq

$(a-b)^2 > 0$(4)

(4) bərabərsizliyi doğrudur, burada $a \neq b$.

**Sintez.** $(a-b)^2 > 0$ münasibətindən alarıq: $a^2 - 2ab + b^2 > 0$. Axırıncı bərabərsizlikdən alırıq: $a^2 + b^2 > 2ab$, deməli, $\frac{a}{b}+\frac{b}{a} > 2$ olar. Yəni (4) bərabərsizliyindən (1) bərabərsizliyi alınır.

**Misal 6.** $xdx + ydy = 0$ diferensial tənliyini həll edin.

**Analiz.**

$$xdx + ydy = 0 \Rightarrow \int xdx + \int ydy = \frac{c}{2} \Rightarrow \frac{x^2}{2} + \frac{y^2}{2} = \frac{c}{2} \Rightarrow x^2 + y^2 = c$$

**Sintez.**

$$x^2 + y^2 = c \Rightarrow \frac{x^2}{2} + \frac{y^2}{2} = \frac{c}{2} \Rightarrow d\left(\frac{c}{2}\right) \Rightarrow \frac{2x}{2}dx + \frac{2y}{2}dy = 0 \Rightarrow xdx + ydy = 0$$

**Misal 7.** $J = \int x\, arccos\frac{1}{x}dx\ (|x| > 1)$ inteqralını hesablayın.

***Analiz.***

$J = \int x\, arccos\frac{1}{x}dx = \int arccos\frac{1}{x}\, d\left(\frac{x^2}{2}\right) \Rightarrow$

hissə-hissə inteqrallama düsturuna əsasən, $\begin{cases} \arccos\frac{1}{x} = u \\ d\left(\frac{x^2}{2}\right) = dv \end{cases} \Rightarrow \begin{cases} du = \frac{1}{\sqrt{1-\frac{1}{x^2}}} \cdot \frac{1}{x^2} \\ v = \frac{x^2}{2} \end{cases}$ olduğundan

$$J = \int \arccos\frac{1}{x}\, d\left(\frac{x^2}{2}\right) = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int \frac{1}{\sqrt{1-\frac{1}{x^2}}}dx \Rightarrow$$

$$\Rightarrow J = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{|x|dx}{\sqrt{x^2-1}} \Rightarrow J = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{\frac{|x|}{x}\cdot xdx}{\sqrt{x^2-1}} \Rightarrow$$

$$\Rightarrow J = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{4}\int\frac{siq\ nx\ d(x^2-1)}{(x^2-1)^{\frac{1}{2}}} \Rightarrow$$

$$\Rightarrow J = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{4}\cdot\frac{\sqrt{x^2-1}}{\frac{1}{2}}\cdot siq\ nx + c \Rightarrow$$

$$\Rightarrow J = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\sqrt{x^2-1}\ siq\ nx + c$$

***Sintez.***

$$\frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\sqrt{x^2-1}\ siq\ nx + c =$$

$$\frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{4}\cdot\frac{\sqrt{x^2-1}}{\frac{1}{2}}\cdot sig\ nx + \quad + c \Rightarrow \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{4}\int\frac{siq\ nx\ d(x^2-1)}{(x^2-1)^{\frac{1}{2}}} =$$

$$\frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{\frac{|x|}{x}\cdot xdx}{\sqrt{x^2-1}} \Rightarrow$$

$$\Rightarrow \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{\frac{|x|}{x}\cdot xdx}{\sqrt{x^2-1}} = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{|x|dx}{\sqrt{x^2-1}} \Rightarrow$$

$$\Rightarrow \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{|x|dx}{\sqrt{x^2-1}} = \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{dx}{\sqrt{1-\frac{1}{x^2}}} \Rightarrow$$

$$\Rightarrow \frac{x^2}{2}\arccos\frac{1}{x} - \frac{1}{2}\int\frac{dx}{\sqrt{1-\frac{1}{x^2}}} = \int \arccos\frac{1}{x}\, d\left(\frac{x^2}{2}\right) \Rightarrow$$

$$\Rightarrow \int \arccos\frac{1}{x}\, d\left(\frac{x^2}{2}\right) = \int x\cdot \arccos\frac{1}{x}\, dx$$

**Misal 8.** Aşağıdakı bərabərsizliyi (Bernulli) isbat edin.

$(1+\propto)^n \geq 1 + n\propto, \propto > 1, n \in N.$(1)

İsbatı. (1) bərabərsizliyi $n = 1$ üçün doğrudur, yəni:

$1+\propto \geq 1+\propto$(2)

$n = k$ olduğunu fərz etsək, $(1+\propto)^k \geq 1 + k\propto$ ödənilir. İndi isə $1+\propto > 0$ şərtini nəzərə alsaq, onda $n = k+1$ üçün alarıq: $(1+\propto)^{k+1} \geq (1+k\propto)(1+\propto) \geq 1 + (k+1)\propto + k\propto^2$ (3)

$k\propto^2 \geq 0$ olduqda alarıq

$(1+\propto)^{k+1} \geq 1 + (k+1)\propto$(4)

Beləliklə, alırıq ki, $n$-in bütün qiymətləri üçün Bernulli bərabərsizliyi doğrudur.

Qeyd edək ki, elə teoremlər, riyazi təkliflər var ki, onları bildiyimiz qaydalarla və ya ənənəvi yolla (üsulla) isbat etmək mümkün deyil, onda əksini fərzetmə üsulundan istifadə etmək olar.

**Misal 9.** İsbat edin ki, $e$ irrasional ədəddir.

İsbatı. $e$ ədədinin irrasional ədəd olduğunu göstərmək üçün fərz edək ki, o, rasional ədəddir, onda $e = \frac{p}{q}$, $p \in Z$, $q \in N$. Onda alarıq ki, $p = e\cdot q$, $p = e\cdot q$ tənliyinin hər tərəfini

$$(q-1)! = eq! = q!\sum_{n=0}^{\infty}\frac{1}{n!} = \sum_{n=0}^{\infty}\frac{q!}{n!} = \sum_{n=0}^{q}\frac{q!}{n!} + \sum_{n=q+1}^{\infty}\frac{q!}{n!}$$

.

Axırıncı münasibətdən alarıq:

$$\sum_{n=q+1}^{\infty}\frac{q!}{n!} = p(q-1)! - \sum_{n=0}^{q}\frac{q!}{n!}.$$

Alırıq ki, axırıncı münasibətin sağ tərəfindəki bütün toplananların hamısı tam ədədlərdir, yəni, sol tərəfdə tam ədəddir. Eyni zamanda

$$\sum_{n=q+1}^{\infty}\frac{q!}{n!} = \sum_{m=1}^{\infty}\frac{q!}{(q+m)!} = \sum_{m=1}^{\infty}\frac{1}{(q+1)\ldots(q+m)} < \sum_{m=1}^{\infty}\frac{1}{(q+1)^m}$$

,

bu münasibətin sağında həndəsi silsilənin cəmi aşağıdakı kimi olar:

$$\sum_{n=q+1}^{\infty}\frac{q!}{n!} < \frac{1}{q},\ q \geq 1 \text{ olduğundan,}$$

$$\sum_{n=q+1}^{\infty}\frac{q!}{n!} < \frac{1}{q}$$

olar, bu isə ziddiyyət təşkil edir. Deməli, $e$ ədədi irasional ədəddir.

Əsas isbat metodlarının hər birinə aid analoji olaraq riyaziyyatın bütün bölmələrindən mi-

sallar seçmək olar, bu isə gələcək mühəndislərin məntiqi təfəkkürünün inkişafına səbəb olur.

Müasir zamanda lisey və ali texniki məktəblərdə riyaziyyatın nəzəri və praktiki istiqamətlərdə tədrisində keyfiyyətli təhsil almaq aktual problemlərdən biridir və yuxarıda göstərilən faktlar təlimin səmərəliliyinin yüksəldilməsində rol oynayır.

**Problemin aktuallığı.** İndiki dövrdə inteqrasiya təhsilin bütün sferalarında dəyişiklik, yenilik və modernləşməyə səbəb olmuşdur. Təlim prosesində interaktiv və fəal metodlarından istifadə etməklə tətbiqi məsələlərdə varislik prinsipinin həyata keçməsi keyfiyyətli təhsilin əldə olunmasına səbəb olur.

**Problemin elmi yeniliyi.** Məqalədə lisey və ali texniki məktəblərdə indiki zamanda müasir tələblərə uyğun riyaziyyatın tədrisində tətbiqi məsələlərin seçimi, meydana çıxan çətinliklər və onların aradan qaldırılması yollarının göstərilməsidir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə lisey və ali texniki məktəblərdə əsas isbat metodlarının tətbiqi ilə məsələlərin həllində fənlərarası əlaqələrin və varislik prinsipinin mahiyyəti göstərilir.

**Ədəbiyyat:**

1. Кудрявцев В.А., Демидович Б.П.. Краткий курс высшей математики. -Москва: Наука, -1989, -655 ст.
2. Корн, Г. и Корн Т. Справочник по математике. -Москва: Наука, -1974.
3. Фильчаков, П.Ф. Справочник по высшей математике. Киев: Наукова Димка, - - 1974.
4. M.C. Mahmudov. Riyaziyyatın tədrisi metodikası. -Bakı: ADPU-nun mətbəəsi, 2006, -273 s.
5. M.C. Mahmudov, A. Tahirova. Ali texniki məktəblərdə fənlərarası əlaqələrin bəzi aktual problemləri // ARTİ-nin Elmi əsərləri, 2021, № 2,-s. 91-95.

**E-mail:** mahmudov45@mail.ru

**Rəyçilər:** *ped.ü.eım.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **N.R. Abbasov**
**Redaksiyaya daxil olub:** 24.01.2022.

***BİOLOGİYANIN TƏDRİSİ METODİKASI***

**UOT 372.857**

***Rauf Lütvəli oğlu Sultanov***
*biologiya üzrə elmlər doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru*
*https://orcid.org/0000-0002-0932-4365*
*https://doi.org/10.5281/zenodo.6448172*

***Ülviyyə İsrayıl qızı Ələkbərova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0000-0002-8934-3055*

# BİOETİK BİLİKLƏRƏ DAİR TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİNDƏ FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYADAN İSTİFADƏNİN İMKANLARI

***Рауф Лютвели оглы Султанов***
*доктор наук по биологии,*
*профессор Азербайджанского Государственного Педагогического Университета*

***Ульвия Исраил гызы Алекперова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ВНУТРИПРЕДМЕТНОЙ И МЕЖПРЕДМЕТНОЙ ИНТЕГРАЦИИ В РАЗВИТИИ МЫШЛЕНИЯ О БИОЭТИЧЕСКИХ ЗНАНИЯХ

***Rauf Lutvali Sultanov***
*doctor of sciences in biology ,*
*professor of Azerbaijan State Pedagogical University,*

***Ulviya Israil Alakbarova***
*Azerbaijan State Pedagogical University*

# POSSIBILITIES OF USING INTERDISCIPLINARY AND TRANSDISCIPLINARY INTEGRATION IN THE DEVELOPMENT OF THINKING ON BIOETHICAL KNOWLEDGE

**Xülasə.** Bu məqalədə orta ümumtəhsil məktəblərində biologiya dərslərində müəyyən mövzulara uyğun bioetik biliklərin şagirdlərin diqqətinə çatdırılması müxtəlif nümunələrlə əks olunmuşdur. Bioetik biliklərin verilməsində müəllimlərin fəndaxili və fənlərarası inteqrasiyanı həyata keçirməklə şagirdlərin təfəkkürünün inkişafına müsbət təsiri məqalədə öz əksini tapmışdır.
***Açar sözlər:*** *təfəkkür, məntiqi təfəkkür, tənqidi təfəkkür, yaradıcı təfəkkür, bioetika, bioetik biliklər, fəndaxili inteqrasiya, fənlərarası inteqrasiya*

**Резюме.** В этой статье представлены различные примеры по определенным темам биоэтических знаний, которые доводятся до внимания учащихся на уроках биологии в средних школах. В статье также отражено положительное влияние на развитие мышления учащихся за счет реализации внутрипредметной и междисциплинарной интеграции при передаче биоэтических знаний со стороны учителей.
***Ключевые слова:*** *Мышление, логическое мышление, логическое мышление, творческое мышление, биоэтика, биоэтические знания, внутрипредметная интеграция, межпредметная интеграция*

**Summary.** This article states relevant various samples of bioethical knowledge linked to relevant certain topics to the attention of pupils at biology classes in secondary schools. This article as well highlights the positive manner of impaction to way of pupils thinking development methodology by provision of bioethical knowledge through interdisciplinary and transdisciplinary integration in the transmission by teachers.

***Key words:*** *thinking, logical thinking, critical thinking, creative thinking, bioethics, bioethical knowledge, interdisciplinary integration, transdisciplinary integration*

Təfəkkür cisim və hadisələr arasındakı qanunauyğun əlaqə və münasibətlərin ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesidir. Təfəkkür prosesində insan özündə olan bilikləri praktik təcrübə yolu ilə uyğunlaşdırır və bunun nəticəsində insan mahiyyəti daha yaxşı dərk edir. Təfəkkür insanın hər bir fəaliyyətində xüsusi rola malikdir. Təfəkkürsüz xarici aləmi dərk etmək, onun qanunauyğunluqlarından istifadə mümkün deyil.

Hal-hazırda təhsil şagirdlərə, tələbələrə təkcə bilik verməyi deyil, onlarda müəyyən bacarıq və vərdişlərin inkişaf etdirilməsini də nəzərdə tutur. Şagirdlərin müstəqil şəxsiyyət kimi formalaşmalarında təfəkkür çox böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə təhsilimizdə ayrı-ayrı fənlərin tədrisində ən mühüm və vacib məqsədlərdən biri məhz təhsilalanların düşüncə tərzinin və təfəkkürünün formalaşmasıdır. Şagird şəxsiyyətinin formalaşmasında biologiya fənninin də xüsusi rolu vardır. Şagirdlərin bioloji hazırlığının gücləndirilməsi ilə təfəkkürünün inkişaf etdirilməsi də biologiya fənn kurikulumunun əsas vəzifələrindən biri sayılır və onun pedaqoji prinsipləri öz əksini fənnin məzmununda tapır.

Təhsil sisteminin vacib məsələlərindən biri təlimin keyfiyyətinin yüksəldilməsi və innovativ texnologiyaların tətbiqi məqsədilə həyata keçirilən tədbirlərdir. Belə tədbirlərdən biri tədrisdə inteqrativ təlim üsullarından istifadəyə geniş yer verilməsi, təlim prosesində fəndaxili və fənlərarası inteqrasiyanın yaradılmasıdır. Təhsildə belə bir təlim üsulunun tətbiq edilməsi təhsilalanlarda sərbəst düşünmə və təhliletmə qabiliyyətini formalaşdırır, yeni təlim texnologiyalarından istifadə etməyə meylliliyi artırır, öyrəndiyi elm sahəsindən düzgün nəticə çıxarmağa kömək edir. Bu da təhsilalanların məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafı deməkdir.

Təlim prosesində biologiyanın tərkibinə daxil olan uyğun mövzuların əlaqəli öyrənilməsi və digər fənlərlə inteqrasiyanın yaradılması nəticə etibarilə hər hansı bir sahənin dərindən öyrənilməsini intensivləşdirir.

Elm-tərəqqi inkişaf edir. Bir tərəfdən alimlər insanları heyrətə gətirən elmi kəşflər edir, digər tərəfdən bu kəşflər nəticəsində əldə olunan biliklərin insanların zərərinə istifadə olunmasına mane olmaq üçün bioetik qanunlar işlənib hazırlanır. Bioetika insanın onu əhatə edən canlı aləmə müdaxiləsinin elmi təhlilini verən yeni təfəkkür tərzi kimi meydana gəlmişdir. Beləliklə də, cəmiyyətin üzləşə biləcəyi təhlükələrin qarşısının alınması üçün yeni baxışın, yeni mövqeyin, etika təliminin təşəkkülü zərurəti yaranmışdır.

Bioetik biliklərin şagirdlərə verilməsi olduqca vacibdir. Bioetik biliklərə yiyələnmiş şagird gələcək həyatında hər hansı bir sənətin sahibi olaraq düzgün qərar verməyi bacaracaq. Daha çox biologiya fənn müəllimləri bu biliklərin verilməsində yaxından iştirak etməlidirlər.

Biologiya fənninin tədrisi zamanı şagirdlərə müəllim tərəfindən bioetik biliklərin çatdırılması onların şəxsiyyət kimi formalaşmasına, təfəkkürün inkişafına öz müsbət təsirini göstərir. Bioetik biliklərin verilməsi zamanı həm fəndaxili, həm də fənlərarası inteqrasiyaya müraciət edilməsi bu prosesi daha da sürətləndirir və onların gələcək həyatlarında düzgün qərar qəbul etmələrinə köməklik göstərir.

*X sinif, mövzu: “Hərəkət sağlamlıqdır”.* Bu mövzunun tədrisi zamanı müəllim fəndaxili və fənlərarası inteqrasiyanı tətbiq etməklə bioetik bilikləri şagirdlərin diqqətinə çatdıra və onlarda təfəkkürün inkişafına nail ola bilər.

*Mövzu ilə bağlı fəndaxili inteqrasiya:* Şagirdlər artıq 8 ci sinifdə qan-damar sistemi, həzm sistemi, sinir sistemi və bu sistemlərin funksiya pozğunluqları ilə yaxından tanış olublar. Müəllim dərsin motivasiya mərhələsində qeyd olunan mövzularla bağlı şagirdlərə suallar ünvanlayıb inteqrasiyanı həyata keçirir. Çünki şagirdlər artıq bilirlər ki, ürəkdən axan qanın sürəti kapilyarlarda aşağı düşür, onun geri qayta-

rılması məhz skelet əzələlərinin yığılması sayəsində mümkün olur. Əzələlərin fəaliyyətdən qalması nələrə səbəb olar, bunun haqqında hər bir şagird öz fikrini irəli sürür və nəticədə müəllim mövzulararası məntiqi əlaqə yaratmış olur. Bunun sayəsində də şagirdlərdə məntiqi təfəkkür inkişaf etmiş olur.

Orqanizmin müxtəlif xəstəliklərə qalib gəlməsi üçün, eyni zamanda, daim hərəkətdə olmağın vacibliyi şagirdlərə çatdırılmalıdır. Onlar artıq əvvəlki siniflərdən xəstəliklərlə müəyyən qədər tanışdırlar və hansı xəstəliyin hərəkətsizliyin nəticəsində yaranması ilə bağlı şagirdlərdə müəyyən fikir formalaşmışdır. Müəllimin əsas məqsədi şagirdlərin bu fikirlərini ortaya çıxartmaq və onların mövzu ilə bağlı təfəkkürünü inkişaf etdirməkdir.

Mövzuda maraqlı məlumatlar verilib: tərpənmədən 70 gün uzanan insanın ürəyinin ölçüsü 13-18% kiçilir. İnsanın ömrünü fiziki işin yoxluğu 4 il azaldır və hərəkətsizlik ürək xəstəlikləri və insult riskini 2 dəfə artırır. Aktiv həyat tərzi olan insanlarda tez qocalma və artıq çəki problemləri xeyli azalmış olur. Bu məlumatlardan əlavə müəllim də müxtəlif mənbələrdən mövzu ilə bağlı fikirlər deyir. Verilən məlumatlardan şagird özü üçün bir nəticə çıxarır, bir növ öz yaşayış tərzinə tənqidi yanaşır.

*Bu mövzunun alt standartı:* 3.2.2.Sağlam həyat tərzində gigiyena qaydalarının rolunu və əhəmiyyətini dəyərləndirir, məruzə və təqdimatlar hazırlayır. Göründüyü kimi burada şagirddən təqdimat hazırlanması tələb olunur. Buna görə müəllim onlara bu sahədə araşdırma aparmağı və idman növlərinin orqanizm üçün əhəmiyyətinə dair təqdimat hazırlanmasını tələb edir. Bunun nəticəsində şagirdlərin yaradıcı təfəkkürü formalaşmış olur.

*Mövzu ilə bağlı fənlərarası inteqrasiya*: müəllim, ilk növbədə, fiziki tərbiyə ilə inteqrasiyanı həyata keçirir. Fiziki tərbiyə böyüməkdə olan gənc nəslin ümumi tərbiyəsinin tərkib hissəsi sayılır. Fiziki hərəkətlər şagirdlərdə sürət, çeviklik, dözümlülük kimi fiziki və psixoloji keyfiyyətlərin tərbiyə olunmasına kömək edir, bu da onları dolayı yolla əməyə hazırlayır. Həm biologiya, həm də fiziki tərbiyə dərslərində yaxından iştirak etmiş hər şagird hər 2 fənnin əlaqəsini dərindən başa düşür və nəticədə məntiqi təfəkkürünün inkişafı baş verir.

Müəllim mövzunu eyni zamanda ədəbiyyat fənni ilə də inteqrasiya edir. Şagirdlər əvvəlki siniflərdən artıq Nizami Gəncəvinin yaradıcılığı ilə müəyyən qədər tanışdırlar. Şairin əsərlərindəki estetik, ekoloji, əmək, fiziki, əxlaq tərbiyəsinə aid nümunələrindən istifadə edərək şagirdlərdə bu tərbiyə növlərinin formalaşmasına daha yaxşı nail olmaq olar. Şagirdlərə məlumdur ki, dahi şair ensiklopedik biliyə malik olmaqla fizika, astronomiya, kimya, coğrafiya, biologiya elmlərinə və tibb sahəsinə dair olduqca qiymətli fikirlər söyləmişdir. "Xəmsə"nin təhlili göstərir ki, şair fiziki sağlamlığın əhəmiyyətini, fiziki bacarıq və keyfiyyətlər haqqında, demək olar ki, bütün poemalarında dəyərli tövsiyələr vermiş, pedaqoji əhəmiyyətli fikirlər irəli sürmüşdür. O, fiziki sağlamlığın əhəmiyyətini çox yüksək qiymətləndirərək göstərirdi ki, insanın cismani cəhətdən sağlam və möhkəm olması onun əqli və əxlaqi inkişafına da müsbət təsir göstərir:

*Bədən xəstə olsa, belədir sonu*
*Sərv olsa da azar yıxacaq onu.*
*Neyləyər özünə özü xəstənin?*
*Xəstə olar fikri, sözü xəstənin.*
*Bədən sağlam olsa, saf olar söz də,*
*Süst adam süst olar, bədəndə sözdə.*

Nizami Gəncəvi burada göstərir ki, fiziki sağlamlığı və möhkəmliyi olmayan insanın əqli və əxlaqi tərbiyəsinin yüksək səviyyəsindən söhbət belə gedə bilməz. Onun yaratdığı müsbət obrazların, demək olar ki, hamısı (Xosrov, Fərhad, Bəhram, İsgəndər və s.) özünün ağıllı və mənəviyyatca zəngin olması ilə yanaşı, fiziki bacarıq və keyfiyyətləri: at çapmaları, ox atmaları, hünərpərvərliyi, cəldliyi, güclülüyü, cəsarətliliyi, dözümlülüyü və s. ilə fərqlənirlər.

Bilirik ki, bioetika həyat elmləri kontekstində həyatımızın əxlaqi hakimi, nəyin düzgün və nəyin yanlış olduğunu müəyyənləşdirmək strategiyasını yaratmaqla məşğul olan elm sahəsidir.

İnsan, ilk növbədə ,özünə qarşı etik davranmalı, öz orqanizmini nə üçün və necə qorumağı bilməlidir. Bunun üçün biologiya müəllimlərinin əsas vəzifələrindən biri məhz mövzu ilə bağlı bioetik biliklərin də verilməsidir. Şagird öz orqanizmini tanımalı, aktiv həyat tərzinin onun orqanizmi üçün nə kimi üstünlüyünün olmasını dərk etməlidir.

Eyni zamanda, şagirdlər Dədə Qorqudla da əvvəlki siniflərdən tanışdırlar. Bildiyimiz kimi, "Kitabi-Dədə Qorqud" eposunda fiziki mədəniyyət problemi ilə bağlı məsələlər diqqət mərkəzində olmuşdur. Dastanda əksər mərasimlərin, adət-ənənələrin əsasını fiziki mədəniyyət təşkil edir. Eposun hər bir qolunda türk oğuz ərənlərinin cəngavərlik xüsusiyyətlərini sübut və dəlillər yetərincədir. Müəllim bu nümunələrdən bir neçəsini çəkməklə şagirdlərdə maraq oyadır. Bu marağın nəticəsində də onlar həm ədəbiyyat fənnini daha çox sevir, həm də onlarda müəyyən bioetik davranışlar formalaşır.

Yuxarıda verilən fənlərarası inteqrasiya sayəsində müəllim şagirdləri düşündürür və nəticədə onların təfəkkürünün inkişaf etməsinə nail olur. Onlar Nizami Gəncəvinin, "Kitabi-Dədə Qorqud" eposunda qeyd olunan fikirlərdə necə dərin məna olduğunu dərk edir və fiziki sağlamlığın vacibliyini anlamış olur.

Hal-hazırda bilirik ki, gənclər arasında pis vərdişlərə meyllilik, intihar hadisələri artmışdır. Bunun qarşısının alınması üçün müəllimlər valideynlərlə birgə işləməlidir. Ona görə də müəllimlər hər bir mövzunun tədrisində şagirdlərə bioetik biliklərin verilməsinə də diqqət etməlidir. Məsələn, yuxarıda qeyd olunan mövzu vasitəsilə şagirdlərin idmana olan marağını artırmaq, onları müxtəlif idman növlərinə diqqətini cəlb etmək olar. Hər bir şagird orqanizmini qorumağının mütləq xarakter daşıdığını və hər birinin gələcəyin sağlam valideyni olmasını bilməlidirlər.

*XI sinif, mövzu: "Bitkiçilik və heyvandarlıqda istifadə olunan müasir metodlar".* Mövzu ilə bağlı dərslikdən əlavə mənbələrdə kifayət qədər məlumatlar var. Müəllim bu mövzunun tədrisini debat şəklində təşkil edir. Bilirik ki, debat müəyyən problemə aid mübahisədir, yəni müzakirə metodudur və debatın əsasını arqumentlər – dəlillər təşkil edir. Müəllim dərsi müzakirə şəklində təşkil etməklə həm fəndaxili, həm də fənlərarası inteqrasiyanı həyata keçirir. Belə ki, əvvəlki mövzulardan şagirdlər biotexnologiya, gen mühəndisliyi ilə bağlı məlumatlar əldə ediblər. Fənlərarası inteqrasiyanı müəllim Azərbaycan dili fənninə müraciət edə bilər. Çünki debat müzakirə metodudur, müzakirənin yüksək səviyyədə həyata keçirilməsi üçün isə şagirdlərdə yüksək nitq qabiliyyəti, yəni öz fikirlərini sərbəst, səlist ifadə etmək və qarşısındakını dinləmə qabiliyyəti olmalıdır. Müəyyən mövqe tutub onu arqumentlərlə müdafiə etməyi öyrənmək cəmiyyətdə mühüm həyat vərdişlərindən biridir.

Beləliklə, şagirdlərin qarşısına problem qoyulur: genetik modifikasiya olunmuş orqanizmlər haqqında faktlar toplamaq. Bir qrup GMO ziyanları, bir qrup isə GMO xeyirləri haqqında məlumat toplayır və müzakirəyə hazırlaşır. Bununla da şagirdlərin məntiqi, yaradıcı və tənqidi təfəkkürü inkişaf etmiş olur. Çünki debatda məntiqi davamlılıq, faktların dəqiqliyi önəmlidir və debatın ən vacib elementi tənqidi düşüncədir.

Bioetikanın əsas problemlərindən biri genetik modifikasiya edilmiş orqanizmlərdir. Hal-hazırda sahə ilə bağlı bəzi elm adamları geni dəyişdirilmiş növlərin təbiətə daxil olmasından və ekosistemlərdə fəlakətə səbəb ola biləcək dəyişikliklərdən ehtiyatlanır.

Bu növlərdən istifadə edilməsi düzgündürmü? Marketlərdə satılan qida məhsullarının qablaşdırılması zamanı məhsulun mənşəyi etiketdə öz əksini tapmalıdırmı? Heyvandarlıqda istifadə olunan metodlar etikdirmi? Sizcə, genetikası dəyişdirilmiş insan varmı və ya insanın genetikasının dəyişdirilməsi düzgündürmü? Verilən suallarla bağlı şagirdlər araşdırmalar apararaq bioetik biliklər də əldə etmiş olurlar. Nəticə etibarilə əldə etdikləri bioetik biliklərə əsasən düzgün qərar qəbul etməyi öyrənirlər.

Təhsilalanlar bilməlidirlər ki, elmi araşdırmalar aparılarkən tədqiqatların cəmiyyətin müxtəlif sahələrinə təsiri nəzərə alınmalı və bu tədqiqatların sosial, hüquqi və etik aspektləri diqqətə alınmalıdır. Yəni elm 2 tələbi yerinə yetirməlidir: 1) özünüinkişafı təmin etməli; 2) bəşəriyyətin inkişafına və təhlükəsizliyinə təminat verməlidir. Məhz bioetika göstərilən 2 müddəanın riayət olunmasını təmin edir.

Beləliklə, müəllim həm fəndaxili, həm fənlərarası inteqrasiyanı həyata keçirir, şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürünü inkişaf etdirir. Həm də şagirdləri müasir bioetik problemlərin həllində iştiraka istiqamətləndirir.

**Problemin aktuallığı.** Tədrisin keyfiyyətinin artırılması və təfəkkürün inkişaf etdirilməsi məqsədilə orta ümumtəhsil məktəblərində biologiya dərslərində müəyyən mövzulara uyğun bioetik biliklərin fəndaxili və fənlərarası inteqrasi-

yadan istifadə olunaraq şagirdlərin diqqətinə çatdırılması aktual hesab olunur.

**Problemin elmi yeniliyi.** Məqalədə elm və texnologiyanın inkişafı ilə əlaqədar bioetik biliklərin şagirdlərə verilməsinin əhəmiyyəti təhlil olunmuş və bu biliklərin verilməsində fəndaxili və fənlərarası inteqrasiyanın istifadəsinin təfəkkürün inkişafında üstünlükləri vurğulanmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Bioetika, elm və texnologiyaların etikası problemləri. Məruzələr toplusu. -Bakı, 2005.
2. Məmmədova N.və b. X sinif. Biologiya dərslik. / N. Məmmədova, B. Həsənova, K. Mahmudova, L. Fətiyeva -Bakı, 2017.
3. Məmmədova, N. və b. XI sinif. Biologiya dərslik. / N. Məmmədova, B. Həsənova, K. Mahmudova, L. Fətiyeva -Bakı-2017.
4. Apoyev, B.F. Nizami Gəncəvinin pedaqoji görüşləri. -Bakı, -2008.
5. Aslanlı, M. "Kitabi-Dədə Qorqud" eposunda fiziki tərbiyə mədəniyyəti". -Bakı, -2016.
6. Nəzərov, A. "Müasir təlim texnologiyaları". -Bakı - 2012.
7. Azərbaycan Milli Elmlər Akademiyası, İnsan Hüquqları İnstitutu. Genetik Modifikasiya olunmuş ərzaq məhsullarının Azərbaycanın istehlak bazarında yayılma təhlükəsi. Məqalələr toplusu. -Bakı- 2010.



**E-mail:** rsultanov@bk.ru

**E-mail:** ulviyyaalakbarova1989@gmail.com



**Rəyçilər:** *ped.ü.fəls.dok.dos.***X.Q. İbrahimova**

*ped.ü.fəls.dok.* **K.F. Mahmudova**

**Redaksiyaya daxil olub:** 21.02.2022.

**UOT 372.857**

***Könül Faiq qızı Mahmudova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0001-7042-9257*
*https://doi.org/10.5281/zenodo.6449320*

***Məleykə Oqtay qızı Şərifova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/ 0000-0003-3592-0272*

# GÜNÜN AKTUALLIĞI – YOLUXUCU XƏSTƏLİKLƏR

***Конуль Фаиг гызы Махмудова***
*доктор философии по педагогике*
*старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

***Малейка Огтай гызы Шарифова***
*Азербайджанский Государственный Педагогический Университет*

# АКТУАЛЬНОСТЬ ДНЯ – ИНФЕКЦИОННЫЕ БОЛЕЗНИ

***Konul Faig Mahmudova***
*doctor of philosophy in pedagogy*
*senior teacher of Azerbaijan State Pedagogical University*

***Maleyka Ogtay Sharifova***
*Azerbaijan State Pedagogical University*

# THE URGENCY OF THE DAY – INFECTIOUS DISEASES

**Xülasə.** Təqdim edilən məqalə ümumtəhsil məktəblərinin VIII siniflərində yoluxucu xəstəliklərin öyrədilməsinə həsr olunub. Məqalədə dövrümüzə qədər gəlib çatan, hal-hazırda da aktual problem olan bir neçə yoluxucu xəstəliyin təsnifatı verilmiş və ümumtəhsil məktəblərində bu problemin tədrisinin əhəmiyyəti vurğulanmışdır.
***Açar sözlər:*** *aktuallıq, müasir təhsil sistemi, müasir dərsliklər, yoluxucu xəstəliklər.*

**Резюме.** Представленная статья посвящена преподаванию инфекционных болезней в VIII классах общеобразовательной школы. В статье классифицированы некоторые инфекционные заболевания, дожившие до наших дней и до сих пор являющиеся актуальной проблемой, и подчеркнута важность преподавания этой проблемы в общеобразовательных школах.
***Ключевые слова:*** *актуальность, современная система образования, современные учебники, инфекционные болезни.*

**Summary.** The presented article is devoted to the teaching of infectious diseases in the VIII grades of secondary schools. The article classifies several infectious diseases that have survived to the present day and are still a pressing problem, and emphasizes the importance of teaching this problem in secondary schools.
***Keywords:*** *relevance, modern education system, modern textbooks, infectious diseases.*

Hal-hazırda alimlər hər gün bütün dünya üzrə çox sayda insanın həyatını alan koronavirusun müalicəsinin axtarışındadırlar.

Bu çətin dövrdə çoxları koronavirusun ilk epidemiya olmadığını və bəşəriyyətin əvvəllər də müalicə olunmayan xəstəliklərlə mübarizə

apardığını xatırlayır. İnsanların indiyədək məğlub etdiyi bir çox yoluxucu xəstəlik mövcud olmuş və bir çoxu hazırki dövrdə də insanlar üçün ölümcül təhlükələr yaradırlar.

Bu məqaləmdə onların bir neçəsinin adını çəkmək və hər biri haqqında qısa məlumat vermək istərdim.

Təbii çiçək

Çiçək xəstəliyi virusların törətdiyi xəstəliklərdən biridir. Bu xəstəliyə yoluxmuş insanın bədəni yaralarla örtülürdü, sağalmaq şansı isə çox az idi. İnsanlar təkcə bilavasitə əlaqə nəticəsində deyil, həmçinin üçüncü şəxslər tərəfindən də yoluxurdular. Sağalandan sonra xəstənin bədənində yara izləri qalırdı, ağır hallarda insan görmə qabiliyyətini itirirdi. Çiçək xəstəliyinin əlamətləri aşağıdakılardır:

- Balaca, qırmızı və ortasında su olan balaca ləkələr ilk öncə qarın və kürək nahiyəsində daha sonra isə bütün bədəndə görsənməyə başlayır. Səpkilərin içərisində olan maye bulanıq, ağ rəngdə olur.
- Dözülməz qaşınma müşahidə edilir lakin uşaqları bu səpkiləri qaşımaqdan çəkindirin əgər səpkilər qaşınıb qoparılsa onu yerlərində çapıqlar qalacaq,
- Bədəndə yüksək hərarət,
- İştahsızlıq və baş ağrısı,

Təbii çiçək xəstəliyinə qarşı peyvənd 18-ci əsrdə ingilis həkimi Edvard Cenner tərəfindən icad edilmişdir. 20-ci əsrin ikinci yarısında həkimlər bu xəstəliyin öhdəsindən tam olaraq gələ bildilər. Bu gün təbii çiçək virusu təbiətdə artıq yoxdur.

Poliomielit

Poliomielit – sinir sistemini zədələyə, əzələlərin iflicinə gətirib çıxara və ölümlə nəticələnə bilən yoluxucu xəstəlikdir.

Bu xəstəlik minlərlə uşağın həyatını məhv edib. Kütləvi yoluxma halları Skandinaviya ölkələrində və Amerikada qeydə alınmışdır. 20-ci əsrin ortalarında poliomielit xəstəliyinə yoluxma hallarının artması bir çox ölkə üçün əsl fəlakət idi.

Poliomielitə qarşı peyvəndi amerikalı alimlər Conas Solk, Hilari Koprovski və Albert Seybin tərəfindən icad edilmişdir.

Covid-19 (Koronavirus)

Koronaviruslar insan və ya heyvanlar arasında yayıldığı sübut edilmiş patogen xüsusiyyətləri olan geniş viruslar ailəsidir. Məlumdur ki, bir sıra koronaviruslar insanlarda adi soyuqdəymədən tutmuş daha ciddi xəstəliklərə qədər, məsələn Yaxın Şərq Tənəffüs Sindromu (MERS) və Ağır Kəskin Tənəffüs Sindromu (SARS) kimi respirator infeksiyalara səbəb ola bilər. Bu yaxınlarda aşkar edilmiş koronavirusların sonuncusu COVID-19 xəstəliyinə səbəb olur.

COVID-19 – koronavirusların son zamanlarda aşkar edilmiş yeni növünün səbəb olduğu infeksion xəstəlikdir. 2019-cu ilin dekabr ayında Çinin Vuhan şəhərində infeksiya yaranmazdan əvvəl yeni virus və xəstəlik haqqında heç nə məlum deyildi.

COVID-19 virusunun geniş yayılmış əlamətləri qızdırma, halsızlıq və quru öskürək hesab olunur. Bir çox xəstələrdə müxtəlif ağrılar: burun tutulması, burun axması, faringit və ya ishal ola bilər. Adətən bu əlamətlər tədricən inkişaf edir və yüngül xarakter daşıyır. Virusa yoluxmuş bəzi şəxslərdə heç bir əlamətlər və ya özünü pis hissetmə halı müşahidə olunmur.

Hepatit-C

Hepatit C eyni adla xatırlanan (Hepatit C virusu) virusla bağlı inkişaf edən xəstəlikdir. Xəstəlik uzun müddətə qaraciyəri zədələyir və qaraciyər sirrozunun inkişafına səbəb olur. Virus 1989-cu ildə kəşf edilmişdir. Bilinmədiyi dövrlərdə, hadisələr hepatit A və hepatit B xəstəliklərinə bənzədiyindən bu xəstəlik A- non B hepatiti (A və B-yə bağlı olmayan) adı ilə xatırlanmaqda idi. Əksər hallarda simptomları müşahidə olunmur, ancaq xroniki hepatiti izləmək mümkündür. Xəstəliyin sonrakı gedişi qaraciyərin liflərinin dağılması – qaraciyər sirrozu ilə nəticələnir. Hepatit C virusu (HCV) qan vasitəsilə yayılır. C hepatitinə qarşı heç bir vaksin yoxdur. İnfeksiyanın simptomları tibbi baxımdan idarə edilə bilər və pasientlərin proporsiyası anti-virus dərmanlarının uzun kursu ilə virusdan təmizlənilə bilər.

Qızılca

Qızılca ən yoluxucu xəstəliklərdən biridir. Əsasən ağız boşluğunun selikli qişasının iltihabı, yüksək hərarət, eləcə də yuxarı tənəffüs yollarının iltihabı ilə xarakterizə olunur. Xəstəliyin ən irəli vəziyyətlərində sətəlcəm və beyin iltihabı kimi vəziyyətlərə də yol aça bilir. Əlamətləri özünü mərhələlər halında göstərir. İlk 2 gün burun axıntısı, qızdırma, gözlərdə sulanma və qızarma, gözdə ağrıma, öskürək olur. İşığa qarşı həssaslıq göstərir. 3-cü gün ağız içində ağ nöqtə

şəklində ləkələr görülür. 4-cü gün isə bu əlamətlərdən sonra dəridə səpgilər meydana gəlməyə başlayır. Səpgilər alın və boyun bölgəsində başlayır. Sonra bədənə yayılır. Səpgilər yüngül qabarıq və qırmızıdır. Bəzən başqa komplikasyonlara da yol aça bilər.

Bu günlərdə inkişaf etmiş ölkələrdə qızılcaya qarşı peyvəndlər vurulur ki, bu da ölüm hallarının sayını əhəmiyyətli dərəcədə azaltmışdır.

Tetanus

Bu xəstəlik haqqında hələ Qədim Misir, Yunanıstan, Hindistan və Çində yazırdılar. Tetanus xəstəliyinin elmi tədqiqatı 19-cu əsrdə başlamışdır.

Əsasən iqlimi isti, rütubətli olan ölkələrdə çox yayılmışdır. **Tetanus** – ağır, kəskin, təhlükəli yoluxucu xəstəlikdir. Yunan dilində "*tetanus*" qıcolma, donma mənasını ifadə edir. Eritrositlərin parçalanması (hemolizi) və skelet əzələlərinin qıcolması ilə müşahidə olunan, asfiksiya (boğulma) və ölümlə nəticələnə bilən mərkəzi sinir sisteminin zədələnməsi ilə səciyyələnir. Mikroblar ancaq zədələnmiş dəri və selikli qişadan orqanizmə daxil olub oksigensiz şəraitdə inkişaf edib tetanus xəstəliyi törədir. Buna görə dərinə nüfuz edən yaralar tetanusun inkişafı üçün daha çox əlverişlidir.

Xəstəlik adətən kəskin, halsızlıqla, əksər hallarda sağalmaya meylli olan yara ətrafı əzələ və dərinin gərginliyi və dartılması ilə başlayır. Xəstəliyin başlanğıc əlaməti çeynəmə əzələlərinin yığılması nəticəsində trizmin (çənənin qıc olması) əmələ gəlməsidir. Ağır hallarda dişlər elə qapanır ki, ağızı açmaq mümkün olmur.

Fil xəstəliyi

Fil xəstəliyi və ya elefantiaz – insan bədəninin hər hansı bir hissəsinin hədsiz böyüməsidir. Ən çox Afrika ölkələrində yayılmışdır. 2015-ci il 5 oktyabrda Satosi Omura, Uilyam Kempbell ilə birlikdə bu infeksiyanın müalicəsi üçün preparatların kəşfinə görə Nobel mükafatına layiq görülüb.

Bu xəstəlik zamanı qızdırma və güclü ağrılar baş verir. Hipertrofiyaya uğramış ayaqlar, əllər, sinə və cinsiyyət orqanları, bu xəstəliyin ümumi simptomlarından sayılır. İnfeksiyanın ən ümumi görülən əlamətləri isə həddindən artıq dərəcədə böyümüş qollar, qıçlar, genitaliya və sinələrdir.

Bu xəstəliklər hər biri indiyədək insanların məğlub etdiyi yoluxucu xəstəliklərdir. Ancaq bu xəstəliklərdən əlavə hələ də insan üçün güclü təhlükə mənbəyi olan, insanların tamamilə məhv edə bilmədiyi bir çox yoluxucu xəstəliklər də mövcuddur. Bunlara misal olaraq Ebola, Zika, Sars, donuz qripi, QİÇS, hepatit və s. və son dövrün ən geniş yayılmış olanı Covid-19-dur.

Bunların hər biri ilə bağlı geniş miqyaslı tədbirlər görülsə də təhlükəli sayılan, nəzarətsiz olduqda, bədən müqaviməti zəif olduqda ölümlə nəticələnən xəstəliklərdir.

Yoluxucu xəstəlikləri öyrənən elm "epidemiologiya" elmidir. Epidemiologiya insanlar arasında müxtəlif yoluxucu xəstəlikləri və onların yaranma səbəblərini öyrənir. Xəstəliklərlə mübarizədə profilaktik tədbirlərin hazırlanması epidemiologiyanın əsas məqsədidir. Epidemiologiya qədim zamanlardan yoluxucu xəstəliklərin yayılması və onlara qarşı mübarizə zamanı aparılan müşahidələr əsasında yaranıb. Bu elmin banisi Hippokrat (e.ə 461-370) hesab olunur. Onun "Epidemiologiyalar haqqında yeddi kitab" əsəri günümüzə qədər gəlib çatıb.

Yoluxucu xəstəliklər günümüzün aktual problemlərindən olduğundan onlarla mübarizə biologiya fənninin 10-cu sinif dərsliyinin, "Canlılarda baş verən dəyişikliklər" başlığı altında "epidemiologiya" bölməsində məlumat verilmişdir. Bu bölmədə epidemioloji üsullardan, infeksiya mənbələrindən, yoluxma mexanizmlərindən, yoluxucu xəstəliklərin növlərindən və onlara qarşı mübarizə üsullarından bəhs edilir.

Həmin bölmədə biologiya fənninin 3-cü məzmun xətti olan "İnsan və onun sağlamlığı" məzmun xəttinə uyğun olaraq şagirdin aşağıdakı bilik və bacarıqlara yiyələnməsi nəzərdə tutulu:

3.2.Sağlamlığın qorunmasına dair bacarıqlar nümayiş etdirir əsas standartı əsasında;

3.2.1 Yoluxucu xəstəliklər, onlardan qorunma yolları haqqında referat, təqdimat hazırlayır.

3.2.2 Sağlam həyat tərzində gigiyena qaydalarının rolunu və əhəmiyyətini dəyərləndirir, məruzə və təqdimatlar hazırlayır.

Hər iki alt standart bu bölməyə daxil olan bütün mövzular üzrə reallaşdırılır.

Şagirdlər insan orqanizmi üçün yoluxucu xəstəliklərin çox qorxulu olduğunu həmişə özünü və ətrafdakıları bu xəstəliklərdən qorumalı olduğunu öyrənməli, yoluxucu xəstəliklərin asanlıqla xəstə adamdan sağlam adama keçib sürətlə yayıldığını bilməlidir. Bu mövzuları keçərkən şagirdlərə gündəlik həyatlarında xəstəliklərdən qorun-

maları üçün bir neçə əlavə məsləhət də vermək olar. Ümumtəhsil məktəblərinin ayrı-ayrı siniflərində biologiya dərsliklərində bu barədə məlumatlar yer alır.

VIII sinif biologiya dərsliyində vərəm, Hepatit C, QİÇS, qrip kimi yoluxucu xəstəliklər, onların əlamətləri haqqında şagirdlərə ətraflı məlumat verilir. Bu xəstəliklərdən qorunmaq məqsədilə şagirdlərin dərs prosesində yoluxucu xəstəlikləri əlamətlərinə görə müəyyən etməyi, yoluxma yollarını öyrənmələri vacibdir. Bir neçə tapşırıq nümunəsi üzərində bunun yollarını göstərmək istərdim:

1. Mövzu: Tənəffüs orqanlarımızı qoruyaq.

Standart: 2.1.2 Zərərli vərdişlərin insan orqanizminə mənfi təsirini izah edir.

3.2.1 Sağlamlığın qorunması qaydalarını izah edir.

Məqsəd: Spirt, alkoqol və narkotiklərin tənəffüs orqanlarına mənfi təsirini izah edir.

Tənəffüs orqanlarının qorunması qaydalarını izah edir.

Tapşırıq 1. Dərslikdən və paylama materialından istifadə etməklə cədvəli tamamlayın.

| Yoluxucu xəstəlilər | Yoluxma yolları | Əlamətləri | Qorunma yolları |
|---|---|---|---|
| | | | |

Tapşırıq 2. "Vərəm xəstəliyi və ondan qorunması yolları haqqında layihə hazırlayın. Layihədə istifadə olunacaq faktlar, şəkillər, layihənin verilmə zamanı müəllimlə birlikdə qərarlaşdırılır və sonda ən bəyənilən layihənin mükafatlandırılacağı qeyd olunur.

2. Mövzu: Qan xəstəlikləri və qanla yoluxan xəstəliklər.

Standart: 3.2.1. Sağlamlığın qorunması qaydalarını izah edir.

Məqsəd: Qan xəstəlikləri və qanla yoluxan xəstəlikləri fərqləndirir.

Qan xəstəlikləri və qanla yoluxan xəstəliklərdən qorunma yollarını izah edir.

Tapşırıq 1. Dərslikdən istifadə etməklə səhv cavabları seç, düzə çevir.

1. QİÇS törədən virus insana yalnız qanla yoluxur.
2. Hepatitlər zamanı qaraciyər zədələnir.
3. QİÇS xəstəliyi ağciyərləri sıradan çıxarır.
4. Xəstələr ən çox xəstəliyin gizli dövründə yoluxdurucu olurlar.
5. Hepatitlər zamanı sarılıq baş vermir.
6. QİÇS xəstəliyi insanın immun sisteminə təsir etmir.

Tapşırıq 2. İKT vasitələrindən istifadə edərək Hepatit B və C-ni araşdırıb, aralarındakı fərqləri vurğulayaraq təqdimat hazırlanması tapşırılır. Bunu ev tapşırığı olaraq vermək olar ki, şagird yalnızca dərsdə deyil, evdə də fənn ilə məşğul olsun.

**Problemin aktuallığı:** Ümumtəhsil məktəblərinin VIII siniflərində biologiya fənninin tədrisində keyfiyyətin artırılması məqsədilə yoluxucu xəstəliklərin vurğulanması aktual hesab edilir.

**Problemin elmi yeniliyi:** Məqalədə hal-hazırda dövrün qlobal problemi olan yoluxucu xəstəliklərin təsnifatı verilmiş, ümumtəhsil məktəblərinin VIII siniflərində biologiya fənninin tədrisində öyrənilməsinin əhəmiyyəti təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi:** Məqalədən ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Верзилин, Н.М., Корсунская, В.М. Общая методика преподавания биологии. -М.: Просвещение,-1983, -384 с.
2. Методика обучения биологии / В.С. Конюшко, С.Е. Павлюченко, С.В. -Чубаро.Мн.: Книжный дом, -2004.
3. Пометун, Е. Энциклопедия интерактивного обучения. Киев-2007
4. Məmmədova, N., Biologiya-8, Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. / N. Məmmədova, B. Həsənova, K. Mahmudova, L. Fətiyeva. –Bakı: "Şərq-Qərb", -2019.



**E-mail:** konul-mahmudova@mail.ru
meleykewerifovaa@mail.com



**Rəyçilər:** *biol.ü.fəls.dok.* **Q.M. Əliyev,**
*ped.ü.fəls.dok., dos.* **E.R. Hüseynova**
**Redaksiyaya daxil olub:** 23.02.2022

## HƏYAT BİLGİSİNİN TƏDRİSİ METODİKASI

UOT 372.850.2

***Aidə Əhliman qızı Əliyeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*
*https://orcid.org/0000-0002-5055-6504*
*https://doi.org/10.5281/zenodo.6449715*

# MÜSTƏQİL İŞLƏR HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ MÖVZULARIN SƏMƏRƏLİ MƏNİMSƏNİLMƏSİ VASİTƏSİ KİMİ

***Аида Ахлиман гызы Алиева***
*диссертант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# САМОСТОЯТЕЛЬНАЯ РАБОТА КАК СРЕДСТВО ЭФФЕКТИВНОГО УСВОЕНИЯ ТЕМ ПРЕДМЕТА «ПОЗНАНИЕ МИРА»

***Aida Ahliman Aliyeva***
*doctorial student in the proqram of doctor of philosophy*
*Ganja State University*

# INDEPENDENT WORK AS A MEANS OF EFFECTIVE MASTERING OF THE SUBJECT "KNOWLEDGE OF THE WORLD"

**Xülasə.** Həyat bilgisi fənni üzrə müstəqil işlər planlaşdırılarkən şagirdlərin səviyyələri də nəzərə alınmalıdır. Bu bir həqiqətdir ki, heç də bütün şagirdlər bilik və bacarıqlara eyni səviyyədə yiyələnməmişlər. Odur ki, onların hazırlıq və anlaq səviyyələri nəzərə alınmaqla müstəqil işlər bölüşdürülməlidir. Əks təqdirdə bu və ya digər şagird müstəqil işin icrası zamanı öz yoldaşının köməyinə ehtiyac duyacaqdır. Hələ üstəlik öz sualları, müraciətləri ilə onun da tapşırığı yerinə yetirməsinə bu və ya digər dərəcədə maneçilik törədəcəkdir.
***Açar sözlər***: *həyat bilgisi, müstəqil iş, müstəqil işlərin növləri, mənimsəmə vasitəsi, səmərəli mənimsəmə, müstəqil işlərin təşkili*

**Резюме**. При планировании самостоятельной работы по предмету «Познание мира» следует также учитывать уровни учащихся. Дело в том, что не все учащиеся обладают одинаковым уровнем знаний и умений. Поэтому самостоятельную работу следует распределять с учетом уровня их подготовки и понимания. В противном случае тому или иному ученику потребуется помощь одноклассника при выполнении самостоятельной работы. Помимо этого, его вопросы и обращения будут в какой-то мере мешать ему выполнить задание.
***Ключевые слова***: *познание мира, самостоятельная работа, виды самостоятельных работ, средства усвоения, эффективное усвоение, организация самостоятельной работы*

**Summary.** Student levels should also be considered when planning independent life skills work. The fact is that not all students have the same level of knowledge and skills. Therefore, independent work should be distributed taking into account the level of preparation and understanding. Otherwise, one or another student will need the help of a fellow student in independent work. moreover, his questions and appeals will to some extent prevent him from fulfilling his task.
***Key words:*** *knowledge of the world, independent work, types of independent work, means of assimilation, effective assimilation, organization of independent work*

Həyat bilgisi fənninin tədrisi zamanı müxtəlif növ müstəqil işlərə müraciət olunur. Onlar aşağıdakılardan ibarətdir: didaktik məqsədə görə, şagirdlərin tədris fəaliyyətinin xarakterinə görə, məzmununa görə, müstəqillik dərəcəsinə və kiçikyaşlı məktəblilərin yaradıcılıq fəaliyyətinə görə.

Təhsilalanların müstəqil işləri pedaqogika elmində tədris və özünütərbiyə metodu kimi təqdim olunur. Müstəqil iş mühüm tədris metodu olmaq etibarı ilə şagirdlərin nəzəri və praktik hazırlığında böyük rola malikdir.

Müstəqil işlərin təşkili zamanı tədris materialının seçilməsinə fikir verilməlidir. Diqqət yetirilməlidir ki, mövzu, mətn məktəblidən ötrü əlverişli olsun, onu çox da çətinliyə salmasın. Planlaşdırılmış müstəqil işlərin həm məzmunu, həm də həcmi mövcud tələblərə cavab verməlidir. Bunun üçün sinif müəllimi kiçikyaşlı məktəblilərin qazanmış olduğu bilikləri yadına salmalı, onları nəzərə almalıdır. Bu məsələ də mühümdür ki, şagirdlərin özləri də praktik və nəzəri cəhətdən müstəqil işləri yerinə yetirməyə hazır olmalıdırlar. Müstəqil iş kiçikyaşlı məktəblilərin təşəbbüskarlıq və idraki qabiliyyətlərinin formalaşmasına kömək göstərməlidir.

Müstəqil iş verilməzdən əvvəl müəllim izahat işləri aparmalıdır. Bu şagirdləri istiqamətləndirmək məqsədi daşıyacaqdır.

Mövcud ədəbiyyatda təşkili formasına görə müstəqil işin aşağıdakı növlərini qeyd edirlər: frontal, fərdi, qrup.

Müstəqil *fəaliyyətin təşkilinin frontal forması*. Bu formaya əsasən:

– şagirdlərin hamısı ümumi bir tapşırığı icra edirlər;

– müəllim tapşırığın tələb olunan səviyyədə yerinə yetirilməsi məqsədilə ümumi göstərişlər verir;

– şagirdlərin fəaliyyətinin təşkili və idarə edilməsinin ümumi üsullarından istifadə olunur.

*Frontal iş*. Bu işin başlıca üstünlüyü budur ki, ümumi problemlərin həlli kiçikyaşlı məktəbliləri əməkdaşlığa alışdırır.

*Fərdi müstəqil iş* – fərdi tapşırıqların icrasına yönələn və şagirdlərin əməkdaşlığını nəzərdə tutan iş kimi anlaşılmalıdır.

Bütün bunlar kiçikyaşlı məktəblilər və ibtidai sinif müəllimi arasında əməkdaşlıq üçün zəngin imkanlar yaradır. Müstəqil işin təşkili problemi üzrə tədqiqat aparmış alimlər bu işin məqsədyönlü olmasını məsləhət bilirlər. Həmin fikrə biz də şərikik.

Müəllim nisbətən zəif şagirdlər, təlimdə yetirməyən kiçikyaşlı məktəblilərin bəzilərindən ötrü məşq tapşırıqlarının sayını azalda bilər. III-IV siniflərdə yaradıcı, problemli və tədqiqat xarakterli tapşırıqlar təqdim etmək mümkündür.

Eksperimentə cəlb edilmiş məktəblərdə müstəqil işin sinif, təlim xarakterli sinifdənxaric və ev tapşırıqları kimi formalarına müraciət olunurdu. Sinif müstəqil işləri *hazırlıq, tərbiyəvi, sınaq* işlərinə bölünür.

Təcrübəli müəllimlər şagirdlərə müstəqil işin icrası zamanı təhlil etməyə və nəticə çıxarmağa kömək göstərən müxtəlif paylama materialları (*tapşırıq kartları, təlimat kartları*) təqdim edirlər. Müxtəlif forma və üsullardan faydalanmaq şagirdlərin müstəqil fəaliyyət bacarıqlarının formalaşdırılmasına kömək edir.

Müstəqil işin icrası kiçikyaşlı məktəblilərdən fəal əqli fəaliyyət, müxtəlif idraki tapşırıqların müstəqil həlli, vaxtilə qazanılmış biliklərin tətbiqini tələb edir. Müstəqil iş məktəblilərə özünü idarə etməyi, onlarda təhsil işinə məsuliyyətli münasibəti, yoldaşcasına qarşılıqlı yardım göstərməyi öyrədir. Müstəqil işin müxtəlif növlərindən faydalanmaqla, Həyat bilgisi fənni üzrə məşğələlər sistemində şagirdlərin idrak fəaliyyətinin və müstəqilliyinin inkişafını stimullaşdırmaq mümkündür.

Şagirdlərin müstəqil işi necə gəldi yox, sistemli təşkil olunmalıdır. Əks təqdirdə məktəblilərin anlayış və qanunları davamlı və dərin mənimsənilməsinə nail olmaq qeyri-mümkündür. Müstəqil idraka yiyələnmək zəruridir. Bu isə o vaxt mümkün olar ki, şəxsiyyət (*bizim tədqiqatda kiçikyaşlı məktəblilər*) idrak üsullarından xəbərdar olsunlar. Bu da bir həqiqətdir ki, müstəqil işlər olmadan onları mənimsəmək də çətindir.

Bilik və bacarıqların təkrarlanması, möhkəmləndirilməsi və yoxlanılması, monitorinqi və qiymətləndirilməsi zamanı müstəqil işlə əhatə olunmaq çox əhəmiyyətlidir.

Bu və ya digər dərsin məqsədindən və növündən asılı olaraq kiçikyaşlı məktəblilərin həyata keçirdikləri fəaliyyətin həcminin müxtəlif olması mümkündür. Müəllimin apardığı məqsədyönlü, sistemli işi nəticəsində günlər ötdükcə məktəblilər daha müstəqil və yaradıcı olurlar.

İlkin müstəqil işlər kiçikyaşlı məktəbliləri iki yeni biliyin qazanılmasına hazırlayır. Hələ mövzu öyrənilməmişdən əvvəl şagirdlər mətni oxuyur, müşahidələr və sadə təcrübələr aparır, bəzi materialları toplamaqla bağlı tapşırıqları yerinə yetirirlər. Belə ki, Həyat bilgisi fənni üzrə məşğələlərdə onlara tapşırılır ki, bitkilərin quruluşunu öyrənmək üçün payız yarpaqlarını toplasınlar. Yeni materialla tanışlıq məqsədilə həyata keçirilən müstəqil işə dərslik, xəritə, lüğətlə işləmə daxildir. Tədris materialı mənimsənildikdən sonra bilik və bacarıqların ümumiləşdirilməsinə yönəlmiş müstəqil işlər həyata keçirilir.

Həyat bilgisi fənninə daxil olan mövzuların yaxşı mənimsənilməsi baxımından evdə yerinə yetirilən müstəqil işlərin əhəmiyyəti də mühümdür. Bu zaman da məktəbli qazandığı bilikləri müstəqil şəkildə tətbiq etmək imkanı qazanır.

Müstəqil işin yerinə yetirilməsinin səviyyəsi müəllim tərəfindən yoxlanılır və qiymətləndirilir. Yoxlama tipli müstəqil iş aparılarkən dərsin bir hissəsindən, yoxlama testlərinin aparılması üçün isə bütün dərsdən istifadə edilir.

Yaradıcı müstəqil iş kiçikyaşlı məktəblilərə onlar üçün yeni biliklərə yiyələnməyə, müstəqil axtarış aparmağa şərait yaradır.

Təcrübəli ibtidai sinif müəllimləri kiçikyaşlı məktəblilərin təfəkkür fəallığını inkişaf etdirmək üçün müstəqil işin bir sıra növlərindən istifadə edirlər. Onları diqqət mərkəzinə gətirək:

1. Məktəbliləri yeni biliklərə yiyələndirmək üçün yerinə yetirilməsi məsləhət görülən müstəqil iş.

2. I-IV sinif şagirdlərinin bilik və bacarıqlarının möhkəmləndirilməsinə və təkrarlanmasına yönəlmiş müstəqil işlər.

3. Kiçikyaşlı məktəblilərin bilik və bacarıqlarını səviyyəsini aşkara çıxarmaq üçün həyata keçirilən müstəqil işlər.

Şagirdlərə verilən tapşırıqlar qazanılmış biliklərin təkrar mexaniki bərpasını deyil, mürəkkəb idrak problemlərinin həlli zamanı müxtəlif vəziyyətlərdə səmərəli tətbiqini nəzərdə tutmalıdır.

E.Y. Qolant müstəqilliyin təzahürünün üç istiqamətini irəli sürür:

"1) təşkilati və texniki müstəqillik;

2) tələbənin praktik fəaliyyətində müstəqillik;

3) koqnitiv fəaliyyət prosesində müstəqillik" (2).

Pedaqoji və psixoloji ədəbiyyatda "düşüncə müstəqilliyi" ifadəsinə rast gəlinir. Pedaqoq və psixoloqlar düşüncə müstəqilliyini şəxsiyyət xüsusiyyətlərini səciyyələndirən çox mühüm komponent kimi nəzərdən keçirirlər. Bu və ya digər şəxs, məktəbli, o cümlədən I-IV sinif şagirdləri öz davranış, hərəkət və fəaliyyətlərində nə qədər müstəqildirlərsə, bir o qədər də yetkin şəxsiyyət sayılırlar.

Düşüncə müstəqilliyini hansı bacarıqlara əsasən səciyyələndirmək mümkündür? Bu suala cavab tapmağa çalışaq:

– diqqəti başlıcaya yönəltmək, ümumi nümunəyə fikir vermək, ümumiləşdirilmiş nəticələrə gəlmək;

– məqsədə çatmaqdan ötrü yaradıcı qeyri-standart yanaşma komponentləri ilə mürəkkəb olan yeni şəraitdə biliklərdən faydalanmaq;

– ardıcıl və məntiqi şəkildə öz hərəkətlərini əsas götürmək, onlara nəzarəti həyata keçirmək;

– özü müstəqil surətdə həqiqətə çatmaq.

Beləliklə, biz Həyat bilgisi fənni üzrə mövzuların səmərəli mənimsənilməsində müstəqil işlərin imkanlarını diqqət mərkəzinə gətirməyə çalışdıq.

**Problemin aktuallığı**. Həyat bilgisi fənni üzrə mövzuların səmərəli mənimsənilməsində müstəqil işlərin imkanları araşdırıldığından aktuallıq kəsb edir.

**Problemin yeniliyi**. Həyat bilgisi fənni üzrə mövzuların səmərəli mənimsənilməsində müstəqil işlərin imkanları diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, -2021. -608 s.
2. Голант, Е.Я. Работа над учебником и книгой как метод обучения // Советская педагогика,1939, № 3

**E-mail:** ay-ka20@hotmail.com
**Rəyçilər**: *ped.ü.elm.dok.,prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 14.02.2022.

## İNFORMATİKANIN TƏDRİSİ METODİKASI

UOT 372.800.4.02

**Akif Padar oğlu Orucəliyev**
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
*Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası*
*https://orcid.org/0000-0003-3274-9502*
*https://doi.org/10.5281/zenodo.6449734*

**Nigar Mirzəbala qızı Məmmədova**
*müəllim*
*Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası*
*https://orcid.org/0000-0002-1711-8035*

# İNFORMATİKA FƏNNİNİN TƏDRİSİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ İNFORMASİYANIN MÜHAFİZƏSİ HAQQINDA

**Акиф Падар оглы Оруджалиев**
*доктор философии по физико-математическим наукам, доцент*
*Академия Службы Государственной Безопасности им. Г. Алиева*

**Нигяр Мирзабала гызы Мамедова**
*преподаватель Академии Службы Государственной Безопасности им. Г. Алиева*

# ОБ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ И ЗАЩИТЕ ИНФОРМАЦИИ ПРИ ПРЕПОДАВАНИИ ИНФОРМАТИКИ

**Akif Padar Orujaliyev**
*doctor of philosophy in physical and mathematical sciences, associate professor*
*Academy of the State Security Service named after H. Aliyeva*

**Nigar Mirzabala Mammadova**
*lecturer at the Academy of the State Security Service named after H. Aliyeva*

# ON INFORMATION SECURITY AND INFORMATION PROTECTION WHEN TEACHING COMPUTER SCIENCE

**Xülasə.** Məqalədə təhsil müəssisələrində informasiya təhlükəsizliyinin həlli yolunun təyin edilməsi dövrümüzün mühüm problemlərindən birinin şüurlu şəkildə dərk edilməsi kimi nəzərdən keçirilir. İnformasiya texnologiyalarının imkanlarının sürətlə genişləndiyi bir şəraitdə kiberfəzada müxtəlif təhdid və təhlükələrlə qarşılaşa bilən şagirdlərin bu təhlükələrdən mühafizəsinin vacibliyi vurğulanır, texniki vasitələrdən istifadə zamanı müvafiq qayda və qanunların şüurlu dərk edilməsinin zəruriliyi qeyd edilir. Belə bir şəraitdə ən mühüm məsələlərdən biri də ondan ibarətdir ki, informatika fənnini tədris edən müəllimlərin üzərinə böyük məsuliyyət düşür və onlar müəllim hazırlığı üçün zəruri tələblərə cavab verməlidirlər.
***Açar sözlər:*** *informasiya, informasiya təhlükəsizliyi, informasiya texnologiyaları, kiberfəza, informatika*

**Резюме.** В статье рассматривается обозначение пути решения информационной безопасности в образовательных учреждениях как осознанное понимание одной из важных проблем нашего времени. Далее подчеркивается важность защиты учащихся от различных угроз и опасностей, которым они могут подвергаться в киберпространстве, при условиях стремительного развития возможностей информацио-

нных технологий, а также отмечается необходимость сознательного понимания соответствующих норм и правил безопасности при применении технических средств. Один из самых важных вопросов при таких обстоятельствах заключается в том, что учителя, которые преподают информатику, несут большую ответственность и должны соответствовать необходимым требованиям для подготовки учителей.

***Ключевые слова:*** *информация, информационная безопасность, информационные технологии, киберпространство, информатика*

**Summary.** The article discusses the importance of a conscious understanding of information security as a solution to one of the biggest problems of our time in educational institutions. In the context of the rapid spread of information technology capabilities, the importance of protecting a student in cyberspace from various threats and dangers is emphasized, as well as the need for a conscious understanding of technical means, relevant norms and rules. In such circumstances, one of the most important issues is that teachers who teach computer science have a great responsibility and the training of teachers must meet the necessary requirements.

***Key words:*** *information, information security, information technologies, cyberspace, informatics*

İnformasiya texnologiyalarının və İnternetin insan həyatının bütün sahələrində, o cümlədən təhsil sferasında geniş miqyaslı tətbiqi, şagird potensialının maksimal realizasiyasını, onun təhsil və tərbiyəsinin, ləyaqətli həyat perspektivlərinin formalaşdırılmasını, eləcə də sosial pozitiv yaradıcılığının maksimallaşdırılmasını nəzərdə tutur. Bu məqsədin tələb olunan səviyyədə reallaşdırılması, yəni şagirdlər üçün tədrisi zəruri informasiyanı daha rahat şəkildə əldəetmə mühitinin yaradılması digər bir məsələni, daha dəqiq desək, şagird təhsil və tərbiyəsi ilə uyuşmayan informasiyanın yayıla bilməsi risklərinin də aktuallığını önə çıxarır. Bu risklərin yaratdığı təhdidlərə misal olaraq kiberfəzada mövcud ekstremist xarakterli kontentin, eləcə də böyüklər üçün nəzərdə tutulan kontentin yaratdığı təhdidləri, kiberbulinqi, fərdi verilənlərin mübadiləsini, tanımadığı adamlarla tanışlıq imkanlarını göstərmək olar. Bütün bunlar İnternetdən istifadə edən şagirdin təhlükəsizliyinə yarana bilən təhdidlərdir. Yüksək texnologiyaların tətbiqinin yaratdığı bu təhdidlər şagirdlərin arzuolunmaz kontent qarşısında mühafizəsini xüsusilə aktual edir. Dərkolunma prosesində olan şagirdin sonsuz informasiya mühitində ziddiyyətli, aqressiv və neqativ xarakterli informasiya ilə qarşılaşması onların sosial-mənəvi oriyentasiyasında ciddi pozuntular yarada bilər. Bu isə şagirdlərin mühafizəsi üçün təxirəsalınmaz qayda və qanunları tələb edir.

Şagirdin informasiya təhlükəsizliyi təhsil sisteminin, təhsili idarəetmə orqanlarının, təhsil cəmiyyəti və şuralarının tədrisin keyfiyyətinə qoyulan tələblər əhatəsində kifayətedici və qorunan informasiya ehtiyatları ilə təminindən, şagird şüur və təfəkkürünə pis təsir göstərə bilən neqativ kompüter informasiyasına təhdid və təhlükələri dərketmə, fərdi və qruplar halında bu təhdid və təhlükələrlə qarşılaşdıqda təhlükəsiz davranma bacarığının formalaşdırılması qabiliyyətidir. Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin qorunması istiqamətində hüququn əsas mənbəyi ölkə Konstitusiyasıdır. Konstitusiyanın 50-ci maddəsinə əsasən hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununda isə deyilir: "Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır" (1, maddə 2). İnformasiya əldə etmək azadlığı heç də o demək deyildir ki, hər bir şagird yerləşmə mənbəyini bilmədiyi intəhasız informasiya ehtiyatlarında istədiyi informasiyaya müraciət edə bilər və bu zaman informasiya sistemlərinin əsas elementlərindən olan onların proqram və texniki təminatında, eləcə də hüquqi normalarında pozuntulara yol verə bilər. Unudulmamalıdır ki, kompüter ehtiyatlarından, kompüter şəbəkəsindən və ya şəbəkə qurğusundan cinayət məqsədi ilə qanunsuz istifadə, yəni kibercinayətkarlıq Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə cəzalandırılır. Belə ki, "EHM-lər üçün ziyanverici proqramlar yaratma, onlardan istifadəetmə və ya onları yayma" (2, maddə 272), eləcə də "EHM-lərin, EHM sistemlərinin və ya onların şəbəkələrinin işinin qaydalarını pozma" (2, maddə 273) kompüter cinayətkarlığı hesab olunur. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası qanununda yazıldığı kimi :"İnformasiya ehtiyat-

ları – informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləridir" (3, maddə 2). İnformasiya ehtiyatları informasiya sistemlərinin fəaliyyətinin nəticəsi olub, istifadəçinin tələbinə uyğun hazırlanan, yayılma və tətbiqi üçün təyin olunmuş sənədlər, informasiya massivləri, verilənlər bazası və informasiya xidmətləridir. Bu mənada şagird sağlamlığına, onun normal şəxsiyyət kimi formalaşmasına ziyan vuran və bütövlükdə təhsilalanlar üçün qadağan olunmuş informasiya ehtiyatlarını yaratmaq və yaymaq da kompüter cinayətkarlığı kimi qiymətləndirilə bilər. Ona görə də təhsil müəssisələrində informasiya təhlükəsizliyi problemi təhsil sisteminin qarşısında duran vacib problemlərdən biridir.

Müasir rəqəmsal dünyada daha çox informasiyanın onlayn rejimdə olması, xüsusilə də koronavirus infeksiyası pandemiyası (COVİD-19) səbəbindən distant təhsilə keçid təhsil müəssisəsinin informasiya təhlükəsizliyi qarşısında yeni-yeni tələblər qoyur, daha dəqiq desək, onlayn rejimdə informasiyanın təhlükəsiz istifadəsinə və qorunmasına tələblər də artır. 10-15 il əvvəl informasiya təhlükəsizliyində aktuallıq iqtisadi aktuallıq üzərində qurulurdusa, indi bütün proseslərin rəqəmsallaşdırıldığı, yəni elektronlaşdırıldığı bir dövrdə informasiya təhlükəsizliyi bütövlükdə ictimai həyatın təhlükəsizliyinə çevrilmişdir. Bəs bu təhlükəsizliyin təmin olunmasında, onun olduğu səviyyədə dərk olunması üçün təhsil sahəsində təhlükəsizlik məlumatlılığında (*ing. security awareness*) nələrə diqqət edilməlidir? Onu da qeyd edək ki, rusdilli mənbələrdə *security awareness dedikdə* istifadəçilərin informasiya təhlükəsizliyi sahəsində məlumatlılığının artırılması kimi tərcümə edilməsinə baxmayaraq, bəzi mütəxəssislərə görə, kiberfəzada istifadəçi hərəkətlərinin dərk olunmasının artırılmasıdır (4, s. 38). Bu məqalədə bizim məqsədimiz informasiya təhlükəsizliyinə məhz şüurlu yanaşmanın əhəmiyyətini izah etməkdir.

Hər bir istifadəçi kompüterdə iş zamanı nə etdiyini, nəyə görə etdiyini dərk etməli, bu hərəkətlərin nə ilə nəticələnə biləcəyini təsəvvür edə bilməlidir. Bunun üçün o, kompüter virusunun, şəbəkə qurdunun, spamların nə olduğunu, fişinq hücumlarının, məntiqi bombanın (*ing. logic bomb*), casus proqram təminatının (*ing. Spyware*) varlığını, eləcə də onların hansı fəsadlara gətirib çıxara biləcəyini bilməli, virusa yoluxma hallarında necə hərəkət etmək lazım olduğunu dəqiq bilməsə də ilkin tədbirləri görə bilməlidir. Başqa sözlə desək, əgər istifadəçi kiberfəzada, yəni istifadəçilər, təşkilatlar, şəbəkələr, qurğular, informasiya sistemlərini əhatə edən, onlar arasında və vasitəsilə fəaliyyəti həyata keçirən virtual mühitdə özünü dərk edilmiş kimi aparırsa, onda onu aldatmaq və ya kənar hərəkətlərə sövq etdirmək olduqca çətin məsələyə çevrilir. Ona görə də informasiya təhlükəsizliyinə yalnız şüurlu münasibət istifadəçini, bütövlükdə təhsil ocağını mövcud təhdidlərdən və təhlükələrdən qoruya bilər. Məsələ ondadır ki, heç bir şeydən şübhələnməyən istənilən kompüter istifadəçisi tədricən çox təhlükəli insaydersə çevrilə bilər. Xüsusi halda informasiya təhlükəsizliyi qaydalarına riayət etməyən şagirdin yol verdiyi təhlükəsizlik pozuntularına görə həmin kompüterdə işləyə bilən digər şagird üçün proqram boşluqları, proqram təminatında nasazlıqlar, arzuolunmaz kontent və digər qadağan edilmiş informasiya ehtiyatlarına çıxış kimi fəsadlar yarana bilər. Bütün bunların baş verməməsi üçün, təhsil müəssisələrində şagirdlərdə informasiya təhlükəsizliyinə şüurlu dərketmənin formalaşdırılmasının zəruriliyi bir daha aydın olar. *Bəs şagirdlərdə kompüterdən istifadə zamanı təhlükəsizlik qayda və qanunlarına şüurlu dərketməni necə formalaşdırmaq olar?*

Bu məqsədin reallaşdırılması, ilk növbədə, texniki mühafizə vasitələrindən istifadə ilə həyata keçirilə bilər. Bunun üçün İnternet bağlantısı olan kompüter sinifləri xarici mühafizə vasitəsi olaraq xüsusi proqram komplekslərindən, sorğu verilən internet-kontentin məzmununun analizinə görə girişə icazə verən proksi-serverlərdən, eləcə də antivirus proqramları ilə təmin olunmalıdır. Bu məqsədlə təhsil müəssisəsinin vahid kontent-filtrasiya sisteminə (KFS) birləşdirilməsi qaydalarına müvafiq olaraq əlaqədar orqanlara müraciət olunmalıdır. Bu zaman kontent-filtrasiya sistemlərinə aşağıdakı tələblər qoyulur:

1) İnternetə çıxışı olan təhsil müəssisənin bütün kompüterlərinə belə vasitə quraşdırılmalıdır;

2) KFS–lər internet-ehtiyatlara təhsil məqsədlərinə zidd olan girişə məhdudiyyət qoymaq sahəsində vahid siyasəti yerinə yetirməlidir;

3) KFS-lər internet-ehtiyatlardan istifadənin monitorinqini təmin etməlidir;

4) KFS-lər Təhsil Nazirliyi tərəfindən təklif olunan kateqoriya siyahıları üzrə kontentin filtrasiyasını təmin etməlidir.

Təhsil müəssisələrində informasiya təhlükəsizliyini yalnız texniki vasitələrin köməyi ilə təmin etmək mümkün deyildir. Məsələ ondadır ki, texniki vasitələrin texniki və alqoritmik məhdudiyyətləri səbəbindən bu vasitələr tam mühafizəni təmin etmir, bəzi hallarda isə zəruri informasiyaya girişə imkan vermədiyinə görə hətta tədris prosesini dayandıra da bilər.

Digər tərəfdən, istənilən informasiya təhlükəsizliyi sisteminin ən zəif bəndi insan amili hesab olunur. Məhz insan amilinə əsaslanan bədniyyətli sosial mühəndislik üsullarından məharətlə istifadə edərək şəbəkəyə birləşdirilmiş istənilən kompüterə müvəffəqiyyətli hücumlar da edə bilər. Bəs nə etməli? Burada informatika fənnini tədris edən müəllim üzərinə xüsusi məsuliyyət düşür. Belə ki, tədris prosesinin aparıcısı kimi müəllim kompüter sinfində yarana biləcək müxtəlif xarakterli neqativ halları vaxtında aşkarlamalı və müvafiq tədbirlər görmək imkanında olmalıdır. Bu zaman xüsusilə diqqətli olmaq tələb olunur. İnformasiya təhlükəsizliyi probleminin həlli istiqamətində aparılan araşdırmalar nəticəsində belə fikir formalaşmışdır ki, istifadəçilər, o cümlədən şagirdlər informasiya texnologiyalarını düzgün tətbiq etmirlər və onları buraxdıqları səhvlərə görə cəzalandırmaq zəruridir.

Əgər hər hansı bir istifadəçi, o cümlədən şagird informasiya texnologiyalarını təhlükəsiz tətbiq edə bilmirsə, deməli onların bu istiqamətdə biliklərində boşluqlar vardır və yaxşı olar ki, bu boşluqlar vaxtında aşkarlanıb aradan qaldırılsın. Digər tərəfdən, əgər şagird kompüterdə işi zamanı təhlükəsizlik qaydalarına riayət etmədiyinə görə müəyyən şəkildə cəzalandırılarsa, onda bu hərəkətlərin daha ciddi fəsadlara gətirib çıxara biləcəyini də unutmaq olmaz.

Təhlükəsizlik qaydalarına əməl etmədiyinə görə xəbərdarlıq və ya töhmət almış şagird növbəti işi zamanı ona aydın olmayan müxtəlif xarakterli vəziyyətlər haqqında, eləcə də işlədiyi kompüterin ziyanverici proqramlarla yoluxması haqqında informasiyanı gizlətməyə çalışa bilər ki, belə hərəkətlərin də sonda nəyə səbəb ola biləcəyini təsəvvür etməmək mümkün deyildir. Bu isə o deməkdir ki, kompüter siniflərində iş zamanı informatika müəllimlərinə cəza orqanı kimi baxılması da yaxşı hal kimi qiymətləndirilə bilməz.

Yalnız öz hərəkətlərinə şüurlu yanaşma, onların nə ilə nəticələnə biləcəyini dərketmə ilə kompüter siniflərində informasiya təhlükəsizliyini təmin etmək olar. Bu məsələdə bir məqamı da qeyd etmək yaxşı olardı. Belə ki, istənilən auditoriyada informasiya texnologiyalarından digərlərinə nisbətdə kifayət qədər məlumatlı, daha bilikli şagird ola bilər ki, onlar da təhlükəsizlik qaydaları üzrə edilən iradları heç də həmişə yaxşı qarşılamır, əksinə, təhlükəsizlik qaydalarından yan keçməyə cəhd edə bilərlər. Belə bir halda da nəinki bir kompüterdə, bütövlükdə birbiri ilə lokal şəbəkədə birləşdirilmiş bütün kompüterlərdə və nəticədə təhsil müəssisəsinin kompüter şəbəkəsinin normal işində müxtəlif fəsadlar, o cümlədən təhsil müəssisəsinə aid konfidensial məlumatların itkisi və ya saxtalaşdırılması baş verə bilər.

Bütün bunlar onu qeyd etməyə əsas verir ki, informasiya təhlükəsizliyində şüurlu yanaşma ilə, onu tam şəkildə təsəvvür etməklə, onun fəsadlarını dərk etməklə kiberfəzada təhlükəsizliyə nail olmaq olar. Başqa sözlə desək, təhlükəli internet-kontentdən, ziyanverici kodlara yoluxma hallarından, müxtəlif kompüter fəsadlarından qaçmaqda ən yaxşı filtr bilavasitə şagirdin beynində şəbəkə təhlükəsizliyi üzrə mövcud təsəvvürlər əsasında formalaşdırılan şüurlu yanaşmanın səviyyəsidir ki, onun da tənzimlənməsi informatika müəlliminin peşəkarlıq səviyyəsindən asılıdır.

Beləliklə, internetə birləşdirilmiş kompüter siniflərində hər bir şagirdin işlədiyi kompüterdə baş vermiş fəsadlar zamanı, eləcə də bədniyyətli hücumlar zamanı özlərini necə aparmalarının əhəmiyyəti olduqca böyükdür. Bu zaman hər bir istifadəçiyə informasiya əldə etməyin təhlükəsiz qaydaları, fərdi verilənlərin, eləcə də konfidensial informasiyanın nə olduğu, kimin onları necə işlətməli olması diqqətlə izah edilməli, bu tələbləri pozan hər bir istifadəçini mövcud qayda və qanunlar üzrə hansı cəza gözlədiyi də başa salınmalıdır.

Bundan başqa, proqram yükləmələrinə ehtiyac olduğu təqdirdə yalnız rəsmi saytların proqramlarından istifadə etmək, şübhəli internet-resurslarına daxil olmamaq, elektron-poçtla iş za-

manı tanış olmayan ünvanlardan gələn məktubları açmamaq tövsiyə olunmalıdır. Şagirdlərə saxta saytlar nədir, eləcə də elektron poçtdan istifadə zamanı hansı kibertəhlükələrlə, o cümlədən ziyanverici proqram təminatının yüklənməsi, məqsədli fişinq hücumları və spamlarla qarşılaşabilmə təhlükələri izah olunmalıdır. Bu tövsiyələrə əməl olunmadığı təqdirdə onların təhsil və tərbiyəsinə ziyan vura bilən təhlükəli kontentlə qarşılaşacağı xüsusilə vurğulanmalıdır.

Hər bir kompüter sinfində informasiya təhlükəsizliyi üzrə aşağıdakı minimal qaydalara əməl olunmalıdır:

1. Təhsil müəssisəsinin təhlükəsizlik siyasətinə;

2. Parolların seçilməsi, dəyişdirilməsi və istifadəsi qaydalarına;

3. Konfidensial informasiyalarla işləmək qaydalarına;

4. Baş vermiş insidentlər, istifadə olunan proqram təminatındakı boşluqlar, səhvlər və dayanmalar haqqında vaxtında məlumat vermək prosedurlarına.

İnformasiya təhlükəsizliyi əsaslarının sadaladığımız bu minimal qaydaları hər bir təhsil ocağında öyrədilməli və inkişaf etdirilməlidir. Hər şeydən əvvəl informasiya təhlükəsizliyi standartının gənc nəsli təhlükəsiz kontentdən qorumağa xidmət edən məktəb tətbiqini nəzərdə tutan müəyyən təhlükəsizlik siyasətinin olması zəruridir. Başqa sözlə desək, hər bir şagird təhsil müəssisəsinin rəhbər tutduğu əsas hərəkət istiqamətlərindən biri olan təhlükəsizlik siyasətinin, yəni informasiya təhlükəsizliyinin təmini üçün təsdiq olunmuş plan və ya hərəkət üsullarının, eləcə də təhlükəsizlik prosedurlarının nədən ibarət olduğunu və nə üçün iş zamanı onlara riayət olunmalı olduğunu aydın təsəvvür etməli və uyğun vəziyyətlərdə hansı müvafiq zəruri addımların atılmalı olduğunu da bilməlidir. Ona görə də şagirdlər informasiya təhlükəsizliyi üzrə mütəmadi olaraq təlimatlandırılmalıdırlar. Bu prosesin kəsilməsi və ya müntəzəmliyinin pozulması İnternetə birləşdirilmiş kompüter siniflərində bədniyyətlilərin real hücumları zamanı ciddi pozuntularla müşayiət oluna bilər. Bu zaman alman psixoloqu German Ebbinqauzun ictimai həyatın bütün sahələrində, xüsusilə də təhsil sahəsində prinsipial bir qanun kimi tanınan məşhur "unutqanlıq qanunu" yaddan çıxarılmamalıdır. Bu qanuna görə: "Təhsil yalnız ilk 3 gün səmərəli olur, sonralar isə tədris olunmuş material praktiki möhkəmləndirilmirsə, onun 90%-i unudulur"(5, s. 58). Nəzərə alsaq ki, digər problemlərdən fərqli olaraq informasiya təhlükəsizliyinin təmini qayda və qanunlarında unutqanlıq şagird təlim və tərbiyəsində daha böyük əyintilərə səbəb ola bilər, onda unutqanlıq qanununa etinasızlığın yolverilməz olması bir daha aydın olar.

Göründüyü kimi, XXI əsrin ən böyük problemlərindən biri olan informasiya təhlükəsizliyi probleminin həllində bu problemin ayrı-ayrı elementlərinin təhsil müəssisələrində müntəzəm tədrisi xüsusilə zəruridir. Belə ki, bugünkü şagirdin cari anda əldə etdiyi istifadəçi vərdiş və bacarıqları onların gələcək təhsil və peşəkar fəaliyyətlərində kiberfəzada daha təhlükəsiz işləmələri, bütövlükdə isə cəmiyyətin informasiya təhlükəsizliyi üçün qarant ola bilər.

Beləliklə, şagirdlərin informasiya təhlükəsizliyinə hazırlığı və onu tənzimləmək bacarıqlarının formalaşdırılması müasir təhsil sisteminin əsas vəzifələrindəndir. Bu məsələnin həlli informasiya mühitinin bütün səviyyələrində həyata keçirilməlidir. Başqa sözlə desək, informasiya mühitinin ailə səviyyəsindən, təhsil müəssisəsinin səviyyəsindən, təhsil müəssisəsinin aid olduğu rayon və ya əyalətin səviyyəsindən və ümumölkə səviyyəsindən asılıdır. Aydın məsələdir ki, bütün bu səviyyələrdə aparıcı qüvvə müəllim və onun hazırlıq səviyyəsidir. Belə ki, informasiyaya məhdud giriş şəraitindən qeyri-məhdud giriş şəraitinə keçirildiyi müasir təhsildə informatika müəllimlərinin üzərinə xüsusilə böyük məsuliyyət düşür. Bu zaman hər bir informatika müəllimi informasiya təhlükəsizliyi üzrə hansı əsas qanunvericilik aktlarının mövcudluğundan və onların məzmunundan xəbərdar olmalı, eləcə də informasiya təhlükəsizliyi məsələləri üzrə şagird və valideynlərlə iş üçün xüsusi hazırlığa malik olmasını dərk etməlidir. Elə bu səbəbdən də informatika müəllimlərin peşəkarlığının artırılması problemi müasir təhsilin aktual məsələlərindən biri olmalıdır.

**Problemin aktuallığı**. Müasir şagirdin İnternetə qeyri-məhdud giriş imkanlarının mövcud olduğu bir şəraitdə informasiya təhlükəsizliyinin baza prinsiplərinin müntəzəm tədrisi zəruridir.

**Problemin elmi yeniliyi**. Şagirdlərin informasiya təhdid və təhlükələrinə hazırlığının və onun tənzimlənməsi bacarığının formalaşdırılması müasir

təhsil sisteminin əsas vəzifələrindən biri kimi informasiya mühitinin bütün səviyyələrində, o cümlədən ailə mühitindən başlayaraq ölkə səviyyəsinədək həyata keçirilməlidir.

**Problemin praktik əhəmiyyəti** şagirdlərin informasiya təhlükəsizliyinin təmini üçün, internet xidmətlərinə müraciət mədəniyyətinin formalaşdırılmasıdır. Yalnız informasiya təhlükəsizliyi sahəsində zəruri biliyə malik şagird öz şüurlu münasibəti sayəsində onlayn-serverlərdən təhlükəsiz necə istifadə edildiyini və bu server və saytlardan fikirləşmədən istifadənin isə hansı fəsadlara gətirib çıxara biləcəyini başa düşə bilər.

**Ədəbiyyat:**


1. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu. 30 sentyabr 2005-ci il.
2. "Azərbaycan Respublikası Cinayət Məcəlləsi".
3. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 03 aprel 1998-ci il.
4. "Information Security/Информационная безопасность", 2021, № 5, ноябрь
5. "Information Security/Информационная безопасность",2021, № 3, июль
6. "Information Security / Информационная безопасность", 2021, № 4, сентябрь,
7. Вестник кибербезопасности, 2021, № 9 (69), сентябрь,


**E-mail:** akiforuc@rambler.ru
**E-mail:** nigar.mirzayeva@mail.ru
**Rəyçilər:** *tex.ü.fəls.dok., dos.* **Z.M. Əmirov**
*riy. ü.fəls.dok.,dos.* **Z.A. Səmədova**
**Redaksiyaya daxil olub:** 21.02.2022.

**UOT 378.147**

***Aynur Eldar qızı Əliyeva***
*Azərbaycan Milli Elmlər Akademiyası*
*İdarəetmə Sistemləri İnstitutunda elmi işçi*
*https://orcid.org/0000-0003-3166-171X*
*https://doi.org/10.5281/zenodo.6449747*

# ALİ TƏDRİS MÜƏSSİSƏLƏRİNDƏ İNFORMATİKA FƏNNİNİN HİBRİD TƏDRİS MODELLƏRİNİN TƏTBİQİNİN TƏHLİLİ

***Айнур Эльдар гызы Алиева***
*научный сотрудник Института Систем Управления НАНА*

# АНАЛИЗ ПРИМЕНЕНИЯ ГИБРИДНЫХ МОДЕЛЕЙ ОБУЧЕНИЯ ПРЕДМЕТУ ИНФОРМАТИКА В ВУЗАХ

***Aynur Eldar Aliyeva***
*researcher at Institute of Control Systems of ANAS*

# ANALYSIS OF APPLICATION OF HYBRID MODELS IN THE SUBJECT COMPUTER SCIENCE AT UNIVERSITIES

**Xülasə.** Məqalədə ali məktəblərdə ənənəvi və distant hibrid tədris modellərinin tətbiqi zəruriliyi araşdırılmışdır. Tədrisin idarəetmə sistemlərinin təhlili aparılmış və informatika fənninin ali məktəblərdə ənənəvi və distant hibrid formada tədrisinin təşkil olunması üçün tövsiyələr verilmişdir.

***Açar sözlər:*** *ənənəvi forma, distant forma, hibrid forma, tədris idarəetmə sistemləri, sinxron forma, asinxron forma*

**Резюме.** В статье исследуется необходимость применения традиционных и дистанционных гибридных моделей обучения в вузах. Проведен анализ систем управления обучением и даны рекомендации по организации обучения информатики в вузах с использованием традиционной, дистанционной и гибридной форм.

***Ключевые слова:*** *традиционная форма, дистанционная форма, гибридная форма, системы управления обучением, синхронная форма, асинхронная форма*

**Summary.** The paper examines the need of use traditional and distance hybrid models at universities. The analysis of education management systems is carried out and recommendations are given on the organization of teaching computer science at universities in traditional and distance hybrid forms.

***Key words:*** *traditional form, distance form, hybrid form, learning management systems, synchronous form, asynchronous form*

Müasir dövrdə tədris sisteminə yeni texnologiyaların tətbiqi geniş yayılmışdır. Kompüter texnologiyalarından istifadə tələbələrin bilik və bacarıqlara yiyələnməsində böyük rol oynayır. Müəllimlər rəqəmsal texnologiyalardan istifadə edərək dərsin tələbələr üçün daha maraqlı olmasına çalışırlar. Lakin yalnız kompüterdən istifadə müasir tələblərə cavab verən tədrisi təşkil etməyə kifayət etmir. Məlumdur ki, artıq ənənəvi tədrislə yanaşı distant tədris də tətbiq olunur. Ənənəvi və distant hibrid tədris modelinin tətbiqi üçün texnologiyaların işlənməsi tədrisin yüksək səviyyədə təşkilinə və qiymətləndirmənin obyektiv aparılmasına kömək edəcəkdir.

Qeyd edək ki, son iyirmi ildə universitetlərimizdə distant tədris fəaliyyət göstərməyinə baxmayaraq, bu gün respublikamızda ənənəvi tədrisin nəticələrini əldə etməyə imkan verən

sistemli texnoloji və təşkilati həllər zəifdir. Distant tədris formaları tətbiq olunsa da, son bir ildə pandemiya dövründə distant tədris və həmin tədrisi həyata keçirən texnologiyaların inkişaf etdirilməsi aktual məsələ kimi qarşıya çıxdı. Hal-hazırda müxtəlif rəqəmsal tədris həlləri, platforma və xidmətlər yaradılaraq istifadəyə verilmişdir. Buna baxmayaraq, ənənəvi və distant hibrid tədrisin aparılması, biliklərin qiymətləndirilməsi məsələlərini həll edə bilən sistemli yeni texnologiyaların işlənməsi vacibdir [1].

Rəqəmsal cəmiyyətdə fəaliyyət göstərmək və inkişaf etmək üçün vətəndaşın bilik və bacarıqlara yiyələnməsi informatika fənnindən başlayır, bu da fənnin yeni dövrün tələblərinə cavab verən texnologiyalarla tədris olunmasını tələb edir.

"İnformatika" fənninin ənənəvi və distant hibrid tədris modellərinin və texnologiyalarının işlənməsi tələbələrin bilik və bacarıqlarını, tətbiqetmə qabiliyyətini artıracaqdır. Belə ki, dərslərin həm auditoriya, həm də distant şəkildə keçirilməsi kompüter laboratoriyalarının çatışmazlığı problemini həll edəcəkdir. Tələbələrə öyrəndikləri bilikləri necə tətbiq etməyi və qrup şəklində işləməyi öyrədəcəkdir.

Pandemiya dövründə müəllimlər ən sadə üsulla – yeni materialın tələbəyə göndərilməsi və yoxlanılması sxemi üzrə işlədilər. Qeyd etmək lazımdır ki, qısa zaman ərzində distant tədrisə keçid zamanı interaktiv tədris materiallarının çatışmazlığı və rəqəmsal mühitdə kollektiv iş alətləri ilə işləmə təcrübəsinin az olması tədrisdə problemlər yaratdı. Bundan əlavə, yeni dövr hibrid tədris modellərindən istifadə etməyi aktual məsələ kimi qarşımıza qoyur. Cünki artıq ənənəvi tədris sistemi mütəmadi inkişafda olan rəqəmsal cəmiyyətin, vətəndaşın tələblərinə cavab vermir. "İnformatika" fənninin bir çox bölmələri tətbiq xarakterli olduğu üçün hibrid tədris modellərinin tətbiqi öz bəhrəsini verəcəkdir. Tədrisin hibrid formada keçirilməsi tələbələrin sərbəst şəkildə işləmək bacarığını artırmağa və tətbiqi məsələləri yerinə yetirməyə imkan yaradacaqdır. Tələbə və müəllim üçün zaman və məkan anlayışı olmayacaqdır. Yolda itirilən vaxt daha optimal istifadə olunacaqdır.

*Hibrid tədris sisteminin əhəmiyyəti.* Tədris sisteminin yeni üfüqdə tədrisi, yəni daha maraqlı və keyfiyyətli formada aparılması bu gün aktual məsələdir. Dünyanın qabaqcıl universitetlərinin təcrübəsini analiz edərkən ənənəvi və distant tədrisin ayrılıqda tətbiqi yox, məhz bu iki tədris formasının hibrid modellərinin tətbiqinin vacib olduğu görünür. Xüsusən "İnformatika" fənninin tədrisinə ənənəvi və distant tədris hibrid modellərinin tətbiqi bu fənnin daha yaxşı tədris edilməsinə və tələbələr tərəfindən mənimsənilməsinə kömək edəcəkdir. Hibrid tədris sistemi qabaqcıl informasiya texnologiyaları ilə köhnə sınanmış metodları özündə birləşdirən tədris formasıdır. Hibrid sisteminin informatikanın tədrisinə tətbiqi tələbələrə klassik metodların yeni texnologiyalar vasitəsilə maraqlı və əlverişli şəkildə öyrənməyə imkan yaradacaqdır [2-4].

Qeyd etmək lazımdır ki, düzgün təşkil olunmuş hibrid tədris sistemi müəllim – tələbə münasibətini individual edəcək və tələbənin ona uyğun zamanda tapşırıqları yerinə yetirməyinə kömək edəcəkdir.

Distant tədris prosesində real didaktik ünsiyyətin yetərincə olmaması problemini ənənəvi tədris sistemini aradan qaldırdığı üçün hibrid tədris modellərinin informatika fənninin tədrisinə tətbiqi vacibdir. Qavrama səviyyələrinin eyni olmadığını, sərbəst işləməyi bacaran və bacarmayan tələbələrin olduğunu nəzərə alsaq, proqrama uyğun hibrid tədris modellərinin işlənməsi informatikanın tələbələr tərəfindən daha yaxşı mənimsənməsinə kömək edəcəkdir.

Hibrid tədris sistemi ənənəvi modelin əsas məsələsini həll edəcəkdir. Yəni hər tələbənin potensialını realizə və inkişaf etdirməyə imkan yaradacaqdır.

Qarışıq təlim konsepsiyasına əsaslanaraq deyə bilərik ki, hibrid formanın informatika fənninə tətbiqi müasir tədrisin dəyişən paradiqması kontekstində tədris prosesinin effektivliyini artıracaqdır.

Qeyd edək ki, ali təhsil müəssisəsində dərs yükü 60% auditoriya − mühazirə, məşğələ və ya laboratoriya işi və 40% auditoriyadan kənar – sərbəst iş, konsultasiya formalarında olur.

*Mühazirə* − tədris prosesinin realizə olunmasının əsas formasıdır. Belə ki, mühazirə fənn haqqında yeni nəzəri materialların verilməsi və mənimsədilməsi funksiyasını daşıyır. Həmçinin mühazirə dərslərində tələbə mövzu haqqında ilk məlumatı alır. Ənənəvi mühazirələrin üstünlüyü müəllimin mövzunu planlaşdırdığı kimi tədris etməkdir. Lakin tələbə mühazirə mövzusunu ön-

cədən bilmədiyi üçün sual verməк, müzakirə şəklində dərsi aparmağa imkan vermir. Adətən materialla tanış olandan sonra suallar meydana çıxır. Gələn mühazirədə yeni mövzu olduğu üçün tələbənin bir sıra sualları açıq qalır. Kaliforniyanın Kleyton Kristensen İnstitutunun (The Clayton Christensen Institute for Disruptive Innovation) təklif etdiyi hibrid modellərindən biri olan *Tərs çevrilmiş sinif otağı modelinin* (Flipped Classroom Model) tətbiqi bu problemləri aradan qaldıra bilər. Belə ki, hibrid tədris modelində mühazirə materiallarının elektron formada öncədən verilməsi tələbənin mühazirəni oxuyub anlamağına və yaranan sualları müzakirə şəklində auditoriyada aparmağa imkan verir [5]. Bundan əlavə, yeni mövzunu elektron formada öncədən paylaşmaq və auditoriyada mühazirəni müzakirə formasında aparılması hibrid tədris sisteminin üstünlüklərindədir. Bu, tələbənin müstəqil və qrup şəklində işləməyə, bilik və bacarıqlarını artırmağa kömək edəcəkdir.

İnformatika fənninin tədrisində mühazirə ilə yanaşı, *məşğələ və laboratoriya* dərslərinin xüsusi yeri olduğunu vurğulamaq lazımdır. Çünki verilən biliklər tətbiqi xarakterlidir. Ona görə də məşğələ dərslərinin üzərinə böyük yük düşür. Bu fənnin auditoriya və ya kompüter laboratoriyalarında ənənəvi tədrisi yeni mövzunun mənimsənilməsində və tələbənin kompüterdə çıxan problemini canlı müzakirə etməyə imkan verir. Laboratoriya və məşğələ dərslərində kompüter çatışmazlığını hibrid tədris modellərinin tətbiqi aradan qaldıracaqdır. Qeyd etmək lazımdır ki, məşğələ dərslərində bir akademik dərs çərçivəsində tələbələrin bütün suallarını cavablandırmaq və hər hansı tapşırığın yerinə yetirilməsində yaranan problemləri aradan qaldırmağa zaman kifayət etmir. İnformatika fənninin məşğələ və laboratoriya dərslərinin hibrid formada keçirilməsi dərsin keyfiyyətini artırmağa, hər tələbəyə individual yanaşmağa kömək edəcəkdir. Hibrid tədris formasında tələbə zamanı olduğunda və ya hansısa mövzunu yaxşı mənimsəmədiyi təqdirdə müəllimlə əlaqəyə keçərək suallarına cavab tapa biləcəkdir. İnformatikanın tədrisinə hibrid tədris modellərinin tətbiqi hər mövzunun spesifikliyini nəzərə alaraq tədris etmək imkanı yaradacaqdır. Yəni hər mövzunun öyrədilmə və qavrama çətinliyini nəzərə alaraq hibrid modelləri tətbiq etmək olar. Xüsusən proqramlaşdırma mövzularının tədrisi zamanı müəllim hər kompüterə yaxınlaşaraq tələbələrin tapşırıqlarını yoxlamağa çox zaman itirir. Bütün tələbələrin səhvlərini tapıb istiqamət vermək auditoriyada çətin olur. İnformatika fənninin tədrisinə *Yerdəyişmə növbələşmə* (Station Rotation Model), *Laboratoriya növbələşmə* (Lab Rotation Model), *İndividual növbələşmə* (Individual Rotation Model) hibrid tədris modellərinin tətbiqi məqsədəuyğun olar. Hibrid tədris sistemi imkan verir ki, hər tələbə müstəqil işləyib tapşırıqları sinxron və ya asinxron müəllimə təqdim etsin.

Ali məktəblərdə ənənəvi tədrisdə *sərbəst iş* dedikdə müxtəlif mövzularda araşdırma aparılaraq referatların hazırlanması nəzərdə tutulur. Tələbələr internetdən hazır məlumatlar məcmusu formasında sərbəst işlər təqdim edirlər. Hibrid tədris modellərinin informatikanın tədrisinə tətbiqi sərbəst iş kimi müxtəlif proqramlarda tətbiqi məsələlərin işlənməsinə və tələbə yoldaşları ilə bölüşmək imkanı verəcəkdir. Sərbəst iş kimi tələblərə praktiki xarakterli məsələlər vermək, onları qrup və ya mərhələli şəkildə qəbul etmək olar.

Ənənəvi tədris sistemində universitetlərdə *məsləhət saatları* həm müəllim, həm də tələbə üçün uyğun vaxtın tapılması baxımından problem yaradır. Hibrid tədris modelində konsultasiya saatlarını müəllim və tələbə üçün sinxron və asinxron şəkildə aparmaq olar. Yəni müəllim təyin olunan vaxt canlı (sinxron üsul) və ya çat, elektron ünvana gələn (asinxron üsul) sualları cavablandıra bilər. Bu həm müəllimin, həm də tələbənin vaxtının səmərəli istifadəsidir.

Hibrid tədris modellərinin işlənilməsi və bu modelləri tətbiq etmək üçün lazımi texnologiyaların bu sahədə olan dünya standartlarına uyğun gəlməsi çox vacibdir.

Hibrid tədris sistemini Tədris idarəetmə sistemləri vasitəsi ilə realizə etmək mümkündür. Bu sistemlər, demək olar ki, eyni funksionallığa malikdir və bəzi funksiyalarına görə fərqlənirlər. Ona görə də ənənəvi və distant hibrid tədris sistemi üçün texnologiyaların işlənməsi və tətbiqi bu sistemləri nəzərdən keçirməyi tələb edir.

*Tədris idarəetmə sistemləri (Learning Management System (LMS)).* Distant tədris – öyrənilən materialın şagirdlərə çatdırılmasını, öyrənmə prosesində tələbələrin və müəllimlərin interaktiv qarşılıqlı əlaqəsini təmin edən, tələbələrə öyrənilən tədris materialını mənimsəmək və

müstəqil işləmək imkanı verən informasiya texnologiyaları məcmusudur. Tədrisi təşkil etmək üçün texnologiyaların çox olmasına baxmayaraq, ən əlverişlisi tədris idarəetmə sistemləridir (Learning management systems) [6-7]. Tədrisin idarə edilməsi zamanı istifadəçi internet üzərindən və ya müstəqil işlədiyi zaman olmayan bir sıra üstünlükləri əldə edir. Bu sistem tədrisin tələbə və müəllim arasında sistemli şəkildə elektron mübadiləni təşkil etməyə, rəhbərlik tərəfindən tədrisi qiymətləndirməyə imkan verir. Halhazırda kifayət qədər Tədrisin idarəedilməsi sistemləri işlənilmiş və istifadəyə verilmişdir. Qeyd edək ki, bu sistemləri aşağıdakı göstəricilərinə görə fərqləndirmək mümkündür [8-10]:

- Tədris materiallarının hazırlanması və öyrətmə alətləri;
- Kommunikasiya alətləri;
- Sistemləri tərəfindən təmin edilən proqram xüsusiyyətləri.

Tədris idarəetmə sistemlərinin həm də aşağıdakı keyfiyyət və etibarlılıq meyarlarına görə də xarakterizə etmək olar [11-12]:

*İstifadəçi interfeysi* – səliqəli və vizual cəhətdən maraqlı olmalıdır. Kursu təşkil edənlər və istifadəçilər interfeysə tez adaptasiya ola bilməlidir.

*İstifadə rahatlığı* – yaxşı müştəri xidmətinə sahib olmalı, dərs materiallarını təmin etməli və bütün cihazlarda işləyə bilməlidir.

*İnteqrasiya* – multimedia, telekonfrans, məzmunun idarə edilməsi və digər platformalara inteqrasiya etmək asan olmalıdır.

*Qiyməti və keyfiyyəti* – çoxlu sayda distant təlim materialı, tədris məzmununun hazırlanmasını həyata keçirən alət və proqramları təqdim etməlidir. Bu xidmətlər qiymət baxımından sərfəli və keyfiyyətli olmalıdır.

Tədris idarəetmə sisteminin sadalanan meyarları hibrid tədris modellərinin tətbiqi və istifadəçilər tərəfindən rahat istifadəsi üçün vacibdir. Ona görə də hal-hazırda interfeysinə, istifadə imkanlarına və istifadəçi sayına görə yüksək reytinqə malik Tədris idarəetmə sistemlərinin təhlilini nəzərdən keçirək.

1. **“Moodle”** platformasının ilk prototipi 1999-cu ildə Martin Duqiamas tərəfindən Avstraliyada yaradılıb. Platforma həm tədris müəssisələri və mərkəzləri, həm də korporativ tədris üçün əlverişlidir. Belə ki, uzun müddətdir mövcud olan pulsuz və açıq mənbəli bir öyrənmə platformasıdır. Ödənişli olan rəqibləri qədər müasir görünməsə də, güclü funksiyalarının olması onu əla seçim edir. Bir çox plagin və yeni funksiyalar əlavə etməyə imkan verir. Bundan əlavə, NextCloud, Google Tətbiqləri, Microsoft Office 365 və s. həlləri ilə uyğunlaşa bilir. Tədris proqramlarını yaratmağa imkan verən güclü, təhlükəsiz və etibarlı alətlərə malikdir. Respublikamızın bir sıra tədris müəssisələri, Dövlət Pedaqoji Kolleci, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Universiteti və s. “Moodle” platformasından istifadə edir.

2. **“Blackboard”** platforması Amerikanın “Blackboard” şirkəti tərəfindən yaradılmışdır və rəqəmsal Tədris sistemlərindən ən populyar adlardan biridir. Platforma həm xidmət olaraq bulud texnologiyası əsasında (**Software as a Service** – “xidmət kimi proqram təminatı”), həm də SaaS olmayan modellərdə olur. Xidmət təminatçısı bütün əsas öyrənmə idarəetmə xüsusiyyətlərinin yanında güclü məlumat bazası analizini, ünsiyyət kanalları, əməkdaşlıq vasitələri və veb konfransı təqdim edir. Sistemin sinif və ev tapşırıqlarını, testləri və qiymətləri izləyə bilmək imkanı vardır. Bu platforma Azərbaycan Diplomatik Akademiyası və Bakı Dövlət Universitetlərində tətbiq olunur.

3. ABŞ-da yaradılmış **“Schoology”** dərsləri tərtib etmək, tələbələrlə ünsiyyət qurmaq və müəllimlərlə işləmək üçün lazım olan bütün vasitələri təmin etməyi hədəfləyən öyrənmə platformasıdır. Sistem yalnız sinfi deyil, həm də bütün məktəbinizi birləşdirməyə imkan verir. Bu şagirdlərin dərs saatları xaricində müəllimləri ilə ünsiyyət qurmaq üçün onlayn məkanlar yaratmağa imkan verir. “Schoology” platforması digər məktəblərdən və bölgələrdən olan müəllimlərlə ünsiyyət qurmağı və mənbələri paylaşmağı asanlaşdırır. Bundan əlavə, platforma Google Drive-dan Dropbox-a qədər üçüncü tərəf proqramları ilə asanlıqla uyğunlaşır, yəni mövcud sinif alətlərini Schoology sisteminə daxil etmək olur. Bu platforma orta məktəblərdə tədrisin idarə edilməsi üçün nəzərdə tutulmuşdur.

4. **“Google Classroom”** platforması “Google” şirkəti tərəfindən yaradılmışdır. Bu sistem Google həllərindən quraşdırma tələb etmədən şirkətin qalan məhsulları ilə inteqrasiya

edilir. Bu platformaya orta və ali tədris müəssisələri və ABŞ-da müəyyən meyarlara cavab verən evdə tədris təşkilatlarının qoşulmaq imkanı var. Bunun üçün Tədris müəssisəsinin rəsmi qeydiyyatı və akkreditasiyası olmalı, milli və ya beynəlxalq səviyyədə təsdiq edilmiş ibtidai, orta və ya ali tədris sənədlərini təqdim etməlidir.

**5. "Microsoft Teams"** "Microsoft" şirkəti tərəfindən yaradılmış korporativ platformadır. Bu sistem distant görüş, çat və birlikdə fayllar üzərində işləməyə imkan verir. Hal-hazıra respublikamızda orta və ali məktəblərdə hibrid tədris aparmaq üçün istifadə olunur.

Qeyd etmək lazımdır ki, pandemiya dövründə respublikamızda təlim-tədris prosesinin məsafədən təşkili məqsədilə ümumtəhsil məktəblərində "Microsoft Teams" platformasından istifadə edilib. "Microsoft Teams" platforması videobağlantı vasitəsilə məsafədən tədris etmək, müəllim-tələbə müzakirəsini təşkil etmək, interaktiv alətlərdən istifadə, dərs materiallarının ötürülməsi kimi imkanlara malikdir. Bundan əlavə, platforma böyük həcmli materialların yerləşdirilməsinə, təqvim aləti vasitəsilə dərslərin planlaşdırılmasına, qiymətləndirmənin aparılması alətlərindən istifadəyə, qrup işini təşkil etməyə imkan verir.

Tədris idarəetmə sistemlərinin bu imkanlarından yararlanmaq üçün tədris standartları, proqramları, sillabuslar dəyişdirilməli və uyğun metodik vəsaitlər hazırlanmalıdır. Belə ki, ali məktəblərdə hibrid tədris modellərinin tətbiqi fənnin hər mövzusuna uyğun şəkildə hazırlanmasını tələb edir. Yəni hər mövzunun spesifikliyinə uyğun hibrid modeli seçiləcəyi üçün proqram və sillabuslar müvafiq qaydada hazırlanmalıdır. İnformatika fənninin bölmələrinə uyğun hibrid tədris forması tətbiq edildikdən və proqramlar işlənib hazırlandıqdan sonra həmin materialların tədris idarəetmə sistemlərində yerləşdirmək lazım gələcəkdir. Sonra bu texnologiyalardan istifadə üçün metodik vəsaitlər işlənilməlidir. Bu işlərin yerinə yetirilməsi zaman aldığı üçün mərhələli şəkildə strategiya hazırlanmalıdır.

Məqalədə tədris idarəetmə sistemlərinin analizi informatika fənninin ənənəvi və distant hibrid tədrisini təşkil etməyə, müəllim-şagird mübadiləsini, şagirdlərin qrup şəklində işləyə bilməsini və biliklərin obyektiv qiymətləndirilməsini aparmağa imkan verən platformadan istifadənin məqsədəuyğun olduğunu göstərir.

İnformatikanın ənənəvi və distant hibrid tədris sistemi üçün texnologiyalar didaktikanın fundamental tədqiqatı əsasında yaradılmalı və layihələndirmə mərhələsində aşağıdakılar nəzərə alınmalıdır:

1. Tədris kursunun strukturunda modulların seçilməsi;
2. Tədris olunacaq materialların seçilməsi;
3. Multimedia vasitələrindən istifadə edərək nümayiş və təlim proqramlarının hazırlanması;
4. Nəzarət və özünənəzarət;
5. Tədris dövrünün nəticələrinin analizi.

Bundan əlavə, hibrid tədris sistemi üçün yaradılacaq texnologiyalar aşağıdakıları nəzərə almalıdır:

– tələbələrin hazırlıq səviyyəsi;

– distant tədris üçün istifadə olunacaq vasitələr və əks əlaqə;

– müəllimlərin distant tədris sahəsində bilik və bacarıqlarının səviyyəsi.

**Problemin aktuallığı.** Məqalədə informatikanın tədrisində aktual məsələ olan ənənəvi tədrisin effektivliyini artırmaq və distant tədrisin çatışmazlığını aradan qaldırmaq üçün hibrid tədris modellərinin tətbiqi və texnologiyalarının işlənməsi araşdırılmışdır.

**Problemin elmi yeniliyi.** Ali məktəblərdə informatika fənninin tədrisi üçün hər mövzuya uyğun hibrid tədris modellərinin işlənməsinin vacibliyi təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** İnformatika fənninin ənənəvi və distant hibrid tədris forması üçün yaradılacaq texnologiyalar müəllimlərin tədris materiallarını izah etmək imkanını və tələbələrin mövzuları daha yaxşı mənimsəməsini, qrup şəkildə işləmək qabiliyyətini artıracaqdır.

Bu iş Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəklədiyi "Müasir təlim texnologiyalarına və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycan Dövlət Pedaqoji Universitetində tətbiqi" layihəsi çərçivəsində hazırlanmışdır.

**Ədəbiyyat:**

1. Магомедова, К.Т. Этапы развития электронного обучения и их влияние на появление новых технологических стандартов качества электронного обучения. Вестник ЮУрГУ. Серия «Образование. Педагогические науки». г. 2015, Т. 7, № 2. С. 22–29.

2. Пушкарева, Т.П. , Калитина, В.В. Реализация смешанной модели обучения информатике. Ж. Открытое образование. Том 24, № 2 (2020). https://doi.org/10.21686/1818-4243-2020-2-39-46
3. Curtis, J. Bonk The Handbook of Blended Learning: Global Perspectives, Local Designs / Curtis J. Bonk, Charles R. Graham // Pfeiffer. – 2006.
4. Для цитирования: Блинов, В. И., Сергеев, И. С. Модели смешанного обучения в профессиональном образовании: типология, педагогическая эффективность, условия реализации // Профессиональное образование и рынок труда. 2021. № 1. С.4–25. DOI: 10.24412/2307-4264-2021-01-04-25
5. İnformatika fənninin orta məktəblərdə əyani və distant hibrid tədris sisteminin konsepsiyasina əsas tələblər. J.-Fizika, riyaziyyat və informatika tədrisi. № 3,2021.
6. Корнеев, А.Н., Котельникова, В.Е. Тенденции в области дистанционного обучения: методы и технологии // Интернет-журнал «НАУКОВЕДЕНИЕ» Том 9, №6 (2017) https://naukovedenie. ru/PDF/30EVN617.pdf
7. Radoslava K., Mehrudin S., Velin K. An Analysis of Some Learning Management Systems. International Journal on Advanced Science Engineering and Information Technology . August 2019, 9(4):1190-1198.
8. Turnbull D. , Chugh R., Luck J. Learning Management Systems: An Overview. J.A. Tatnall (ed.), Encyclopedia of Education and Information Technologies, 2019. https://doi.org/10.1007/978-3-319-60013-0_248-1.
9. Силкина, Н.С. Модели и стандарты электронного обучения / Н.С. Силкина, Л.Б. Соколинский // Вестник Южно-Уральского государственного университета. Серия «Вычислительная математика и информатика». -2014. - Том 3, № 4. - С. 5-35.
10. R. Mahalakshmi, E.S.M. Suresh. LMS for Computer Science students .International Journal of Information and Computation Technology. ISSN 0974-2239 Volume 4, Number 3 (2014), pp. 285-292 © International Research Publications House http://www. irphouse.com /ijict.htm.
11. Mohammad S. Explore the Major Characteristics of Learning Management Systems and their Impact on e-Learning .International Journal of Advanced Computer Science and Applications, Vol. 10, No. 1, 2019.
12. Aniedu A.N., Chukwuneke C.I., Asogwa D.C., Obioma P. C. Conceptual Model For Developing E-Learning Systems Based On User Learning Patterns And Styles.The International Journal of Engineering and Science (IJES) || Volume || 7 || Issue || 8 Ver. I|| Pages || PP 15-20 || 2018 || ISSN (e): 2319 – 1813 ISSN (p): 23-19 – 1805.

**E-mail:**aynur.aliyeva@gmail.com
**Rəyçilər:** *AMEA-nın müxbir üzvü* **K.R. Ayda-zadə,**
*texn.ü. fəls.dok.,dos.***S.B. Mazanova**
**Redaksiyaya daxil olub:** 12.01.2022.

## *XARİCİ DİLİN TƏDRİSİ METODİKASI*

**UOT 372.881.111.1**

***Xuraman Əliəsgər qızı Babayeva***
*Bakı şəhəri Nizami rayonu Ərəstun Mahmudov adına*
*220 nömrəli məktəb-liseyin ingilis dili müəllimi*
*https://orcid.org/0000-0002-1022-293X*
*https://doi.org/10.5281/zenodo.6449818*

# XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNTERAKTİV METODLARIN SƏMƏRƏLİLİYİ

***Хураман Алиаскер гызы Бабаева***
*учитель английского языка*
*школы-лицея № 220 имени Арастуна Махмудова,*
*Низаминского района города Баку*

# ЭФФЕКТИВНОСТЬ ИНТРАКТИВНЫХ МЕТОДОВ В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ

***Khuraman Aliasker Babayeva***
*English teacher*
*school-lyceum №. 220 named after Arastun Makhmudov,*
*Nizami district of Baku city*

# THE EFFICIENCY OF INTRACTIVE METHODS IN TEACHING FOREIGN LANGUAGES

**Xülasə:** Məqalədə qeyd olunur ki, tədrisin yeni forma və metodlarının axtarışı, davamlı dəyişən dünyada yaşamaq və işləmək bacarığı olan çoxşaxəli bir şəxsiyyətin formalaşmasına yönəldilmiş uğurlu müasir təhsil üçün zəruri şərtdir. Buna görə də xarici dillərin tədrisi metodikasında tədrisin fəal metodları və formalarının axtarılmasına xüsusi diqqət yetirilir və onların köməyi ilə şagirdlərin təhsil fəaliyyətinin yüksək səviyyəli fəaliyyəti əldə edilir.
***Açar sözlər:*** *xarici dil, tədris, təlim, interaktiv metodlar, məktəb, şagird*

**Резюме:** В статье подчеркивается, что поиск новых форм и методов обучения является необходимым условием успешного современного образования, направленного на формирование многогранной личности, способной жить и работать в постоянно меняющемся мире. Поэтому в методике обучения иностранным языкам особое внимание уделяется поиску активных методов и форм обучения, с их помощью достигается высокий уровень учебной активности учащихся.
***Ключевые слова:*** *иностранный язык, преподавание, обучение, интерактивные методы, школа, ученик*

**Summary:** The search for new forms and methods of teaching is a necessary condition for successful modern education aimed at the formation of a multifaceted personality capable of living and working in a constantly changing world. Therefore, in the methodology of teaching foreign languages, special attention is paid to the search for active methods and forms of teaching, and with their help, a high level of educational activity of students is achieved.
***Keywords:*** *foreign language, teaching, learning, interactive methods, school, student*

Təhsil sistemimizdə məktəbdə xarici dildə tədris prosesinin əsas struktur vahidi dərsdir. Bu, mürəkkəb bir ünsiyyət aktı kimi qəbul edilir. Öyrənmə prosesindəki ünsiyyət "tək tərəfli" və "çoxtərəfli" ola bilər.

“Birtərəfli” ünsiyyət ilə təhsil prosesinin təşkili frontal iş formalarının üstünlüyü ilə həyata keçirilir, yəni müəllim soruşaraq şagirdi nitq fəaliyyətinə təşviq edir və o cavab verir.

“Çoxtərəfli” ünsiyyət ilə dərsdəki tipik iş formaları, şagirdin özünü müəyyən bir fəaliyyətdə müstəqil və tam iştirakçı kimi sübut etmə fürsəti tapdığı qrup, kollektiv qarşılıqlı əlaqə növləri olur. Xarici dil dərsi zamanı “çoxtərəfli ünsiyyət”in təşkili zamanı bütün tədris prosesinin iştirakçıları qarşılıqlı əlaqə qurur və hər bir şagirddə şəxsiyyətin aşkarlanması üçün imkanlar yaradır.

Təcrübədə ənənəvi iş üsullarından və formalarından istifadə edərək (məşğələ və ya dərs zamanı) nitqin qarşılıqlı əlaqəsini təşkil etmək həmişə mümkün deyil. Buna görə daha məhsuldar texnologiyalar və öyrənmə modelləri var. Ölkəmizdə dövrümüzdəki əsas metodoloji yeniliklər birbaşa xarici dil tədrisi üçün interaktiv metodların, texnika və texnologiyaların istifadəsi ilə birbaşa bağlıdır.

“İnteraktiv metod” öz növbəsində şagirdlərin kimsə ilə söhbət və ya dialoq vəziyyətində olduqda qarşılıqlı əlaqə deməkdir [2]. “İnteraktiv metodlar” şagirdlərin bir-biri ilə bərabər şəraitdə qarşılıqlı əlaqə qurduqları bu cür tədris metodlarını bildirir. Bu metodlar şagirdlərin həm müəllimlə, həm də bir-biri ilə daha geniş qarşılıqlı fəaliyyətinə, tədris prosesində uşaqların fəaliyyətinin üstünlük təşkil etməsinə yönəlmişdir.

Qeyd etmək lazımdır ki, bu təlimdə müəllim həm də şagirdlərlə qarşılıqlı əlaqə prosesinə daxildir, lakin o, yalnız dərs məqsədlərinə çatmağa yönəlmiş hərəkətlərin koordinatorudur. “Müəllim, təhsil məlumatlarını özündən keçirən filtr rolundan imtina edir və köməkçi funksiyasını yerinə yetirir” [4].

İnteraktiv metodları təsnif etmək çox çətindir, çünki bir çoxu bir neçə texnika ilə iç-içədir. Müəyyən metodların istifadəsi müxtəlif səbəblərdən asılıdır: dərsin məqsədi, iştirakçıların və müəllimin təcrübəsi, onların zövqü. Bir çox metodun adının konvensiyasını da şərtləndirmək lazımdır. Çox vaxt eyni ad fərqli məzmunu göstərmək üçün istifadə olunur və əksinə oxşar metodlar fərqli adlarla tapılır: yaradıcı tapşırıqlar, kiçik qruplarda iş, təhsil oyunları, ekskursiyalar, sosial layihələr, müsabiqələr, tamaşalar, interaktiv mühazirələr, tələbə müəllimin rolu, “hər kəs hər kəsi öyrədir”, mürəkkəb və mübahisəli problemlərin müzakirəsi, layihə metodu, fikir miqyası, müzakirə, mübahisə, simpozium, “beyin fırtınası”.

İnteraktiv təlim tədris prosesinin həmişəkindən fərqli bir məntiqini nəzərdə tutur: nəzəriyyədən praktikaya deyil, tətbiqetmə yolu ilə yeni təcrübənin formalaşmasından nəzəriyyənin dərk olunmasına doğru yönlənir.

İnteraktiv metodlar təhsil prosesindəki bütün iştirakçıların qarşılıqlı fəaliyyətinə əsaslanır. Yalnız müəllim şagirdləri cəlb etmir, həm də uşaqların bir-biri ilə qarşılıqlı əlaqəsi oyunda müzakirə olunur, bununla da ünsiyyət yolu ilə bilik motivasiyası artırılır.

Bütün interaktiv tədris metodlarının məqsədləri eynidir:

– məlumatları müstəqil şəkildə axtarmağı, təhlil etməyi, müəyyən bir vəziyyət üçün düzgün həll yollarını seçməyi öyrətmək (məsələn: şablonlara / suallara cavab kliklərinə);

– komandada işləməyi öyrətmək: yoldaşlarınıza hörmətli olmaq, bir-birinin fikirlərinə hörmət etmək, fərqli baxışlara dözümlü olmaq;

– müəyyən faktlara əsaslanaraq öz fikirlərini formalaşdırmağı öyrətmək.

Bütün interaktiv təlim texnologiyaları təqlid olunmayan və təqlidçi olaraq bölünür.

Simulyasiya olmayan texnologiyalar öyrənilən fenomen və fəaliyyət modellərinin qurulmasını nəzərdə tutmur.

Simulyasiya texnologiyaları təqlid və ya imitasiya oyun modelləşdirməsinə əsaslanır, yəni. real sistemdə baş verən proseslərin öyrənmə şəraitində çoxalma [5].

Müasir pedaqogika bir-biri ilə qarşılıqlı təsir bağışlayan bütün interaktiv üsullarla zəngindir, bunlar bunlardır: kreativ tapşırıqlar; kiçik qruplarda işləmək; təhsil oyunları (rol oynayan oyunlar, təqlidlər, işgüzar oyunlar); ictimai mənbələrdən istifadə (bir mütəxəssisin dəvəti, ekskursiyalar); sosial layihələr və digər sinifdən kənar tədris metodları (müsabiqələr, müsahibələr, filmlər, tamaşalar, sərgilər); yeni materialın öyrənilməsi və konsolidasiyası (interaktiv dərs, əyani vəsaitlərlə iş, video) və səs materialları, “müəllim kimi öyrənmək”, “hər kəs hər kəsi öyrədir”, mozaika (açıq mişar), suallardan istifadə, Sokratik dialoq); test; istiləşmə; rəy; məsafəni öyrənmək; mürəkkəb və mübahisəli məsələlərin və problemlərin müzakirəsi (mövqe tutmaq, fi-

kir miqyası, POPS-düstur); problem həll etmə ("qərar ağacı", "beyin fırtınası", "hadisələrin təhlili", "nərdivanlar və ilanlar"); təlim.

Bütün interaktiv metodlar bu və ya digər dərəcədə qrupda işləməyə yönəldildiyi üçün dərsdəki cüt və qrup iş formaları ənənəvi frontal öyrənmə ilə müqayisədə üstünlük təşkil edir, ümumdünya təhsil fəaliyyətlərinin formalaşmasına kömək edir.

Öz növbəsində interaktiv metodlar sinifdə interaktiv texnologiyalar sistemi kimi tətbiq oluna bilər. İnteraktiv təlim texnologiyası dedikdə pedaqoji cəhətdən səmərəli idrak ünsiyyətinə zəmanət verən müəllimlə şagirdlərin qarşılıqlı fəaliyyətini tədris oyunları şəklində təşkil etmək məqsədilə metodlar sistemi nəzərdə tutulur, bunun nəticəsində şagirdlərin vəziyyət yaşaması üçün şərait yaradılır. Qarşıya qoyulmuş təhsil məqsədlərinə çatmaq üçün müəllimi səriştəli istiqamətləndirmək vacibdir [6].

Hal-hazırda, aşağıdakı iş metodlarını özündə birləşdirən kifayət qədər çox sayda interaktiv texnologiya hazırlanmışdır: "Akvarium", "Braun hərəkəti", "Qərar Ağacı", "Karusel" və digərləri.

İnteraktiv təlimin ən aydın texnologiyası qrup işidir (cüt, üçqat və s.). Qrup işindən istifadə etməyin bir çox yolu var. Məsələn, "Karusel" texnikası. Bu, bir çox interaktiv texnika kimi, psixoloji təhsildən götürülmüşdür. Texnika üzərində işləyərkən müəllim uşaqları iki halqaya ayırır: daxili və xarici. Daxili halqa hərəkətsiz outran şagirdlərdən ibarətdir və xarici halqa şagirdləri hər 30 saniyədə bir saat yönündə və ya əks istiqamətdə hərəkət edirlər. Beləliklə, kifayət qədər qısa müddət ərzində bir neçə mövzunu müzakirə etməyi bacarırlar və həmsöhbətini haqlı olduqlarına inandırırlar.

Digər maraqlı interaktiv texnika "Akvarium"dur. Bu, ayrı bir şagird qrupunun müəyyən bir vəziyyəti, məsələn, kafedə bir görüşü oynamasını və duyğuları, xarakter xüsusiyyətlərini və s. müəllimin işə başlamazdan əvvəl onlara təyin etdiyi qəhrəman əsasında canlandırır. Qalanları tənqidçi, müşahidəçi, mütəxəssis rolunu oynayır, hərəkətləri təhlil edir və natiqlərin çıxışından yeni sözlər və ifadələr öyrənirlər. İştirakçılar üçün "akvarium" mövzusu və emosional rollar müəllim tərəfindən təyin olunur, kartlar və digər əyani vasitələr üzərində dialoq şəklində təqdim olunur. Məsələn, mövzu "Your Home"-dir. Məqsəd: "your home" mövzusunda leksika istifadəsinə dair təlim keçməkdir. Öyrənilmiş söz ehtiyatını təkrarladıqdan sonra müəllim şagirdləri təcrübəyə dəvət edir və bir-birlərinə cüt-cüt evlər, mebellər, otaqlar, ev əşyaları barədə suallar verirlər. Sonra cütlüklərin hər biri müəllimə və sinifə başqasının evi haqqında öyrəndiklərini danışır. Bu məşq zamanı ünsiyyət bacarıqları inkişaf edir, ünsiyyətin tapşırıqlarına və şərtlərinə uyğun olaraq fikirlərini ifadə etmək bacarığı və həmsöhbət ilə qarşılıqlı əlaqə qurarkən özünü tənzimləmə bacarığı inkişaf edir.

"Braun hərəkəti" üsulu, təklif olunan mövzu ilə bağlı məlumat toplamaq üçün şagirdlərin sinif boyu hərəkətini əhatə edir. Bu texnika dərsin əvvəlində nitq məşqi kimi istifadə edilə bilər, məsələn mövzunu nəzərdən keçirin: "My holidays". Məqsəd: sinif yoldaşlarının hər birinin tətilləri haqqında məlumat toplamaq, dialoq qurma qabiliyyətini inkişaf etdirmək, şagirdləri dərsdə güclü fəaliyyətə hazırlamaq. Müəllim şagirdləri sinif yoldaşları ilə tətil günlərini necə keçirdikləri barədə danışmağa dəvət edir. Hər biri sinif yoldaşlarına vermək üçün bir və ya iki sual verir. Şagirdlər bütün sinif yoldaşlarına suallarını verərək ofis ətrafında təsadüfi hərəkət edirlər. Cavab qeyd edilə bilər və sonra bir cədvəl şəklində, faiz nisbətində və ya sinif yoldaşlarının hər birinin tətili haqqında öyrəndikləri barədə bir hekayə şəklində təqdim edilə bilər. Bu tapşırığı yerinə yetirərkən uşaqlar ünsiyyət və tənzimləyici təhsil fəaliyyətlərini formalaşdırırlar: alınan məlumatların ötürülməsi (tətbiqi və təqdimatı) ilə əlaqəli məlumatları diaqram, qısa qeyd və bacarıq şəklində düzəldirlər.

Beləliklə, ibtidai məktəb yaşının psixoloji və pedaqoji xüsusiyyətləri nəzərə alınmaqla, sinifdə interaktiv tədrisdən istifadə edərək xarici dilin tədrisi prosesi aşağıdakılara kömək edəcəkdir:

– uşaqların nitqini və ümumi inkişafını stimullaşdırmaq, ümumi təhsilin təməli kimi ibtidai təhsilin ümumi təhsil dəyərini artırmaq, uşaqları digər xalqların mədəniyyəti ilə tanış etmək və bununla da ümumi insan şüurunu formalaşdırmaq;

– 1-11 yaşında xarici dil öyrənməyə başlayarkən ortaya çıxan psixoloji maneələrin ortaya çıxmasının qarşısı alındığı üçün xarici dili mənimsəmək üçün və dili daha da dərindən öyrənmək üçün əlverişli bir başlanğıc bazası yaratmaq;

– birinci dilin öyrənilməsinin əvvəlcədən başa çatdırılması və ikinci dilin bağlanması ehtimalı;

– ümumi bacarıqların təkmilləşdirilməsi (kitab, istinad ədəbiyyatı ilə işləmək bacarığı);

– xüsusi təhsil bacarıqlarının formalaşdırılması (ikidilli lüğətlə işləmək bacarığı) [5].

Təcrübəmiz zamanı sübut etdik ki, ibtidai sinifdə xarici dil dərsində interaktiv metod və üsullardan istifadə tədris prosesini yaxşılaşdırır. Uşaqlar dərsə daha çox maraq göstərirlər. Həm də bu məqalə çərçivəsində ibtidai siniflərdə xarici dil tədrisinin interaktiv metodlarının istifadəsinə dair iş sistemindən istifadə ilə bağlı metodiki tövsiyələr təklif edilmişdir.

**Problemin aktuallığı.** İnteraktiv dərs hazırlayarkən müəllim qarşısında konkret bir mövzunu mənimsəmək üçün ən təsirli tədris metodlarını seçmək vəzifəsi durur; problemi həll etmək üçün bir neçə metodu birləşdirmə imkanı yaranır və bu, materialın şagirdlər tərəfindən daha yaxşı başa düşülməsinə kömək edir.

**Problemin elmi yeniliyi.** Təhsil prosesi bütün şagirdlərin aktiv daimi qarşılıqlı əlaqəsi şəraitində həyata keçirilir. Bu, şagird və müəllimin bərabər öyrənmə subyektləri olduğu öz-özünə təhsil, qarşılıqlı öyrənmədir. Müəllim yalnız təlim prosesinin təşkilatçısı, qrup rəhbəri kimi çıxış edir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc müəllimlər üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Абрамова, И.Г. Активные методы обучения в системе высшего образования/ И.Г. Абрамова. -М.: Гардарики, -2008. -368 с.
2. Берман, И.М. Очерки методики обучения чтения на иностранном языке / И.М. Берман: под ред. И.М. Бермана, В.А. Бухбиндера. –Киев: Вища шк. Изд-во при Киев. гос. ун-те, -1977. -175 с
3. Василевич, А.П. Учим детей английскому языку/ А.П. Василевич //Иностр. яз. в шк. -2009. No 4. -С.75-80.
4. Никитенко, З.Н. Личностно-развивающее иноязычное образование в начальной школе: Монография/ З.Н. Никитенко. -М.: Промитей, -2019. -355 с.
5. Пассов, Е.И. Урок иностранного языка/Е.И. Пассов, Н.Е. Кузовлева. - Ростов н/Д : Феникс; Глосса-Пресс, 2010. – 640 с.
6. Суворова, Н.А. Интерактивное обучение: Новые подходы/ Н.А. Суворова. -М.: Учитель. -2000. -No1. -С. 25-27
Məktəbəqədər yaşlı uşaqlar yaradıcılıq, maraq və əzmkarlıq hissi ilə elmə qarşı təbii meylə malikdirlər. STEAM məktəbəqədər yaşlı uşaqlara əməkdaşlıq və ünsiyyət üçün təbii mühiti təmin edir. Onlar sadə quraşdırma fəaliyyətləri üçün müxtəlif strategiyaları və təklifləri müzakirə edə bilirlər. Məktəbəqədər yaş elmi savadlılığın tətbiqi üçün mühüm yaş dövrüdür. Məktəbəqədər yaşlı uşaqlar materiallarla işləmək, hər şeyi sınamaq və problemi həll etmək üçün təbii hisslərə malikdirlər. Tərbiyəçi-müəllimlər problemi müəyyənləşdirir, həllini layihələndirir və qurur, uşaqlarla birgə sınaqdan keçirir və onu təkmilləşdirmək üçün çalışırlar (2). Məhsulların sınaqdan keçirilməsi mühəndislik dizayn döngəsinin əsas aspektidir.

İncəsənət məktəbəqədər yaşlı uşaqlarda yaradıcı qabiliyyətlərin inkişaf etdirilməsinə kömək edir. STEAM-la təlim zamanı incəsənət üzrə təlimin yaradıcılığı və təlimin keyfiyyətliliyi özünü göstərir. Məktəbəqədər yaşlı uşaqlar problemlərə tənqidi düşüncə və problemin həllinə müsbət münasibət bəsləməyi öyrənirlər.

Məntiqi və riyazi təfəkkürün inkişafı məktəbəqədər yaşlı uşaqlar üçün sadəcə rəqəmlərlə tanışlıqla məhdudlaşmır. O, həmçinin nümunələri, formaları görmək və müqayisə etmək, ümumiləşdirmək, təsnif etmək bacarığını, eləcə də qrafik və çeşidləmə kimi təşkilati bacarıqları da əhatə edir.

STEAM təhsilalanlarda tənqidi yanaşma, yaradıcı düşünmə, qazanılan biliklərin müqayisəli şəkildə anlaşılması, yaradıcı formada biliyin möhkəmlənməsi, əməkdaşlıq və s. kimi XXI əsr bacarıqlarını formalaşdırır. Məktəbəqədər təhsildə də STEAM məşğələləri, inkişaf sahələrini ayrılıqda deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirir. Bu araşdırma STEAM vasitəsilə erkən uşaqlıq dövründə qabaqcıl təlimi nəzərdən keçirmək məqsədi daşıyır. Bu yanaşma uşaqlara erkən yaşlardan mühəndislik səriştələri öyrədir, real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEAM yaşından asılı olmayaraq uşaqları həyata hazırlayır.

*Niyə kiçik uşaqlar STEAM-ı öyrənməlidirlər?*

Uşaqlar erkən yaşlardan bu mövzularda təməl anlayışları öyrənirlər. Məktəbəqədər təhsil müəssisələri və digər uşaq müəssisələri STEAM bacarıqlarını və konsepsiyalarını erkən yaşlardan inkişaf etdirməli, davamlı oyun və müzakirə vasitəsilə onlara əsaslanmalıdırlar.

Uşaqların məktəbəqədər təhsildə STEAM konsepsiyaları ilə məşğul olduqları zaman qazanılmış bacarıqlar uşaqların həyatlarının bir çox aspektlərində ötürülə biləndir və həm də faydalıdır. Məsələn, müşahidələr aparmaq, fərziyyələr irəli sürmək və tənqidi təfəkkürdən ibarət proses bacarıqları riyaziyyat və elm üçün əsas bacarıqlardır, eyni zamanda hər hansı bir fənni öyrənmək üçün dəyərli bacarıqlardır.

Müasir dövrdə STEAM-a tələbat vardır. Uşağınızın həyatının 20 ildən sonra necə olacağını heç düşünmüsünüzmü? Bəzi yollarla uşaqların böyüklər kimi hansı karyera seçimlərinə sahib ola biləcəyini təsəvvür etmək çətindir. Bir şey aydındır ki, elm, texnologiya, mühəndislik və riyaziyyat sahəsində bacarıqlar getdikcə daha vacib olacaq. İlkin bacarıqlar kimi erkən təhsil təminatçıları üçün uşaqlara qarşı məsuliyyətimizin bir hissəsi onları həyatda sonra qarşılaşacaqları reallıqlara hazırlamaqdır.

*Uşaqlar üçün STEAM necə olmalıdır?*

İlkin bacarıqlarda yanaşmamızın mühüm hissəsi uşaqları doğru zamanda doğru fəaliyyətlərlə tanış etməkdir. Uşaqları inkişafa hazır olduqları zaman yeni bacarıq və anlayışlarla tanış etdiksək, təlim əyləncəli və təbii olur.

Elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) gündəlik həyatın bir hissəsidir. Beləliklə, uşaqların hər gün kitablar, müzakirələr, eksperimentlər, elementar tədqiqatlar, təlimedici oyunlar və s. vasitəsilə bu mövzuları inteqrativ şəkildə araşdırması məntiqlidir. Bu üsul STEAM subyektlərinin və ya hər hansı bir mövzunun yalnız günün və ya həftənin müəyyən vaxtlarına dair təlimatları məhdudlaşdırmaqdan daha səmərəlidir.

*STEAM-ı evdə necə inkişaf etdirmək olar?*

Hörmətli valideynlər, STEAM konsepsiyalarının gündəlik həyatda yaranma yollarını axtarın və onları uşağınıza göstərin. Açıq havada gəzərkən fəsillərin necə dəyişdiyi, ərzaq alış-verişi zamanı meyvə və tərəvəzlərin haradan gəldiyi və ya birlikdə oxuduğunuz kitabda şəkilləri yaradan müxtəlif rənglər haqqında danışın. Suallar vermək əsas STEAM bacarıqlarını təşviq etmək üçün əla yoldur. "Necə düşünürsən?" kimi suallar STEAM-ın hər bir elementini qavramaq üçün vacib olan araşdırma və tənqidi təfəkkürün formalaşmasına səbəb olur. İncəsənət vasitəsilə yaradıcılığı inkişaf etdirmək və ya uşaqlar üçün əyləncəli elmi fəaliyyətlərlə sınaqdan keçirmək evdə STEAM təlimini təmin etmək üçün əla yoldur.

Uşaqlar üçün şəkilli kitablar elm, riyaziyyat, təbiət hadisələri, gündəlik həyati hadisələr kimi bir çox sahələri dəstəkləyən zəngin stimullardır. Şəkilli uşaq kitabları uşaqlara mücərrəd anlayışları konkretləşdirməklə anlayışları anlamağa və yeni mənalar yaratmağa imkan verir. Bu səbəbdən uşaqların idrak, dil, sosial, emosional və bədii inkişafını dəstəkləyən şəkilli uşaq kitabları məktəbəqədər təhsildə elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) fəaliyyətləri ilə strukturlaşdırılaraq istifadə edilməlidir.

Şəkilli kitablar müşahidə etməyə, təxmin etməyə, bəzən problemlərin böyük ideyalar yaratmağa kömək etməsinə kömək edir.

STEAM təlimi uşaqların daha fəal və öz biliklərində təşəbbüs göstərə bilməsini təmin edir.

**Problemin aktuallığı.** XXI əsr müasir texnologiyaların, yeni elmi yanaşmaların, ixtiraların sürətlə inkişaf etdiyi dövrdür. Bu ixtiraları yaradanlar isə müasir təhsil modellərinin yetişdirdiyi insanlardır. Bu baxımdan da məktəbəqədər dövrdən başlayaraq, müasir tələblərə cavab verən, əmək bazarında özünü doğrulda biləcək şəxslərin yetişdirilməsi çox vacibdir.

**Problemin elmi yeniliyi.** Uşaqlarda düşüncə və təfəkkürü daha da inkişaf etdirərək, formalaşdırmaq əsas məqsədlərdən biridir. STEAM uşaqlara erkən yaşlardan mühəndislik səriştələri öyrədir, real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEAM yaşından asılı olmayaraq uşaqları həyata hazırlayır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə praktik cəhətdən məktəbəqədər təhsil sahəsində məşğul olan bütün mütəxəssislər, tələbələr, eləcə də valideynlər üçün əhəmiyyətlidir.

**Ədəbiyyat:**

1. Jackson, M., Heil, D., Chadde, J. and Hutzler, N. (2011). Family engineering: An activity and event planning guide. USA. Foundation for Family Science and Engineering and Michigan Technological University.
2. Ingram, M. (2014). Preschoolers as engineers. Teaching Young Children, 7(3),30-31.Availableat: http://ezproxy. rowan.edu/login? url=http://search. proquest. com/docview/1510591523?accountid=13605
3. Altan, E. B., Yamak, H., & Kırıkkaya, E. B. (2016). A proposal of the STEM education for teacher training: Design based science education. Trakya University Journal of Education, 6(2), 212-232.
4. Banko, W., Grant, M. L., Jabot, M. E., McCormack, A. J. and O'Brien, T. (2013). Science for the next generation: Preparing for the new standards. Arlington, VA: National Science Teachers Association (NSTA) Pres.
5. Kermani, H., & Aldemir, J. (2015). Preparing children for success: integrating science, math, and technology in early childhood classroom. Early Child Development and Care, 185(9), 1504-1527.
6. Öztürk Yılmaztekin, E., & Erden, F. T. (2016). Investigating early childhood teachers' views
7. on science teaching practices: the integration of science with visual art in early childhood settings. Early Child Development and Care, 1-13. doi: 10.1080/03004430.2016.1160899

**E-mail:** ruxsare_mirzazade@yahoo.com

**Rəyçilər**: *ped.ü.fəls.dok.dos.* **L.K. Cəfərova,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 13.01.2022.

**UOT 373.2**

***İlahə Xeybər qızı Orucova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*https://orcid.org/0000-0003-1737-9427*
*https://doi.org/10.5281/zenodo.6449979*

# MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİ VƏ İSTİFADƏ YOLLARI

***Илаха Хейбар гызы Оруджова***
*ведущий специалист*
*Института Образования Азербайджанской Республики*

# СПОСОБЫ ПРИМЕНЕНИЯ И ИСПОЛЬЗОВАНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ

***Ilaha Khaybar Orujova***
*leading specialist at the*
*Institute of Education of the Republic of Azerbaijan*

# WAYS TO APPLY AND USE DIGITAL TECHNOLOGIES IN PRESCHOOL EDUCATION

**Xülasə.** Məqalə məktəbəqədər təhsil mühitində rəqəmsal texnologiyalardan istifadənin aktuallığı əsaslandırılır. Onlardan istifadənin xüsusiyyətləri təsvir edilir. Rəqəmsal texnologiyalar inkişafetdirici təlimin problemlərinin həlli və fəaliyyətli yanaşmanın həyata keçirilməsi, məktəbəqədər təhsil müəssisəsində inkişafetdirici mühitin zənginləşdirilməsi üçün effektiv vasitə kimi tətbiqindən bəhs edir.
***Açar sözlər:*** *məktəbəqədər təhsil, rəqəmsal texnologiya, məktəbəqədər yaşlı uşaqlar, multimedia, uşağın intellektual inkişafı, rəqəmsallaşma*

**Резюме.** В статье обосновывается актуальность использования цифровых технологий в среде дошкольного образования. Описаны особенности их использования. В ней рассматривается использование цифровых технологий как эффективного средства для решения задач развивающего обучения и реализации деятельностного подхода, обогащения развивающей среды в дошкольном образовании.
***Ключевые слова:*** *дошкольное образование, цифровые технологии, дошкольники, мультимедиа, интеллектуальное развитие ребенка, цифровизация.*

**Summary.** The article emphasizes the relevance of the use of digital technology in preschool education. Described the specifics of their use. It considers the use of digital technologies as an effective tool for solving the task of developing training and implementation of activity approach, enrichment of the environment in preschool education.
***Key words:*** *preschool education, digital technologies, preschoolers, multimedia, intellectual development of the child, digitalization*

Hazırda ətrafdakı rəqəmsal məkan müasir insan həyatının ayrılmaz hissəsinə çevrilib. Uşağın ətraf aləm haqqında təsəvvürlərinin formalaşmasının mənbəyi təkcə valideynlər, sosial mühit və təhsil müəssisələri deyil, həm də media resurslarıdır. Müasir uşaqlar üçün kompüter vasitələrinin köməyi ilə idraki, tədqiqatçılıq, oyun fəaliyyəti gündəlik cəlbedici məşğuliyyətdir, eyni zamanda, yeni bilik və təəssürat əldə etməyin əlverişli yoludur.

Uşaqların ehtiyacları və maraqları təhsil sahəsində əsas normativ sənədlərdə nəzərə alınmışdır ki, burada əsas vəzifə təhsilin keyfiyyətini və əlçatanlığını, o cümlədən müasir rəqəmsal

təhsil məkanının təşkili yolu ilə yaxşılaşdırmaqdan ibarətdir.

"Rəqəmsallaşdırma" termini təkcə analoq və ya fiziki resursu rəqəmsal resursla əvəz etməyən transformasiyanı təsvir etmək üçün istifadə olunur, lakin bizim uşaq bağçamızda bu, müxtəlif resurslar arasında onlayn dialoq qurmağa imkan verən bütün interaktiv və multimedia resurslarıdır.

"Rəqəmsallaşdırma" termini transformasiyanı təsvir etmək üçün istifadə olunur. Bu, sadəcə analoji və ya fiziki resursu rəqəmsal resursla əvəz etmir. Belə ki, uşaq bağçalarında təhsil prosesinin müxtəlif aspektləri arasında onlayn dialoq qurmağa imkan verən bir sıra interaktiv və multimedia resursları vardır.

Rəqəmsallaşma təhsil prosesini çevik, müasir dövrün reallıqlarına uyğunlaşdırmaq üçün zəruridir. Bu, həm də hər bir müəssisənin rəqabət qabiliyyətinin formalaşmasına öz töhfəsini verir.

İstənilən tipli müasir təhsil müəssisəsinin fəaliyyəti əsasən tərbiyəçi-müəllimlərin və rəhbərliyin rəqəmsal texnologiyalara və rəqəmsal informasiyaya nə dərəcədə malik olmasından, onu nə qədər tez emal edə və təhlil edə bilməsindən, həmçinin təlim alanlara, onların valideynlərinə (qanuni nümayəndələrə) çatdıra bilməsindən asılıdır.

Rəqəmsal olmaq istəyən təhsil müəssisəsi aşağıdakılara diqqət yetirməlidir:

– pedaqoji və inzibati işçilərin təlimi və ixtisaslarının artırılması;

– uşaqların və onların valideynlərinin rəqəmsal texnologiyalardan istifadəsinə həvəsləndirmə səviyyəsinin artırılmasının təmin edilməsi;

– məktəbəqədər təhsil müəssisələrində rəqəmsal texnologiyalardan istifadə üzrə məlumat və məsləhət xidmətlərinin göstərilməsi;

– məktəbəqədər təhsil müəssisələrində rəqəmsal texnologiyalardan istifadəyə dair məlumatların toplanması, sistemləşdirilməsi və yayılması.

Rəqəmsal texnologiyalar inkişafetdirici təlimin problemlərinin həlli və fəaliyyətli yanaşmanın həyata keçirilməsi, məktəbəqədər təhsil müəssisəsində inkişafetdirici mühitin zənginləşdirilməsi üçün effektiv vasitədir.

Virtual təhsil problemlərinin həlli prosesində uşaqlarda məktəbəqədər təhsilin dövlət standartlarının hədəf istiqamətləri olan yaradıcılıq, təşəbbüskarlıq, maraq, əzmkarlıq, zəhmətkeşlik, məsuliyyət inkişaf edir.

Uşaq bağçalarının qarşısında duran əsas vəzifələrdən biri uşaqların idraki, intellektual, yaradıcı inkişafı üçün müasir rəqəmsal texnologiyalardan istifadə etməklə həyata keçirilməsi məqbul olan şərait sistemi yaratmaqdır ki, bu da məktəbəqədər təhsil müəssisələrinin səviyyəsinin və rəqabət qabiliyyətinin artmasına kömək edir.

Rəqəmsallaşmanın güclü və zəif tərəfləri də vardır. Rəqəmsallaşmanın müsbət tərəflərə töhfə verdiyini qeyd edirik:

*1. Uşaqlarda idraki motivasiyanın artırılması*

Biz bu qənaətdəyik ki, marağın xarici motivasiya ilə deyil, daxili motivasiya hesabına artırılması vacibdir. Bu gün uşaqlar onlayn mühitdən oyun komponentli məzmun almağa öyrəşiblər ki, bu da məhz xarici motivasiyaya əsaslanır. Bu zaman əyləncədə istifadə olunanı təhsildə təkrarlamağa ehtiyac yoxdur, uşağa, ilk növbədə, özü ilə yarışmağa, başqaları ilə əməkdaşlığa diqqət yetirməyə kömək etmək lazımdır, yəni nəticələri yaxşılaşdırmağa çalışmaq lazımdır.

*2. Məktəbəqədər yaşlı uşaqların funksional savadlılığının inkişafı*

Müasir təhsil uşağa biliyi real həyatda tətbiq etməyi öyrətməlidir. Bunun üçün funksional savadlılıq inkişaf etdirilməli, mətni təhlil etməyi öyrənməli, informasiya ilə işləmək bacarığı formalaşdırılmalıdır.

3. *Tərbiyəçi-müəllimlər tərəfindən yeni bacarıqların mənimsənilməsi*

Pedaqoqun rolu daim dəyişir: əsrlər boyu bu peşəyə xas olan səriştələrə yeniləri əlavə olunur. İnformasiyanın həcmi heç vaxt olmadığı sürətə qədər artır və həmin informasiyalarla işləməyi bacarmaq vacibdir. Ona görə də müasir müəllim təkcə bilik daşıyıcısı olmamalı, o, həmçinin uşaqlara komandada işləməyi, refleksiyanı tətbiq etməyi öyrətməli, informasiya axınında oriyentasiya üçün ilkin şərait yaratmalıdır. Beləliklə, rəqəmsal texnologiyalarla işləyən tərbiyəçi-müəllimlərin bu texnologiya ilə işləmək bacarığına yiyələnmələri üçün əvvəlcə xüsusi təlim, kurs keçmələrinə ehtiyac vardır.

*4. Hamı üçün təhsilə bərabər imkanların təmin edilməsi*

"Rəqəmsal" ilə uşaqlara fərdi yanaşmanı daha sürətli formalaşdırmaq, hər kəsin ehtiyac-

larını nəzərə alan diferensiallaşdırılmış təhsili həyata keçirmək daha asandır. Rəqəmsal mühit bütün uşaqlar, o cümlədən məktəbəqədər təhsil müəssisələrinə getməyən uşaqlar və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər imkanlar yaratmağa qadirdir.

Rəqəmsallaşmanın mənfi tərəflərinə aşağıdakılar aiddir:

1. Zehni fəallığın və düşüncəliliyin azalması, təfəkkür qabiliyyətlərinin zəifləməsi.

2. Sosiallaşma ilə bağlı problemlərin yaranması. Rəqəmsallaşma insanın sosiallaşma səviyyəsini əhəmiyyətli dərəcədə azaldır. Bu, şəxsiyyətin gələcək inkişafına təsir edəcəkdir.

3. Sağlamlıq problemləri meydana çıxır. Əvvəlcə görmə və kiçik motor bacarıqları dəyişir. Uzun müddət ekran qarşısında qalma görmənin zəifləməsinə səbəb olur. Klaviatura və planşetlə işləmək barmaqların fiziologiyasının dəyişməsinə gətirib çıxarır.

4. Uşaqların yaradıcılığı nəzərəçarpacaq dərəcədə zəifləyir. İnformasiya texnologiyaları özünü göstərmək imkanını istisna edir. Elektron versiyalar "quru" xarakter daşıyır.

Zəif cəhətlərin ciddiliyinə baxmayaraq, standartlara ciddi riayət etməklə elektron tədris vəsaitlərinin uşaqlara mənfi təsirini minimuma endirməyə çalışmaq lazımdır.

Beləliklə, müasir təhsilin fərqli xüsusiyyəti rəqəmsal texnologiyaların onun bütün səviyyələrinə, o cümlədən xüsusi təhsilə sürətlə nüfuz etməsidir. Bu, məktəbəqədər yaşlı uşaqların dil və nitq inkişafındakı pozuntuları düzəltmək üçün ənənəvi loqopedik texnologiyalara yenidən baxılmasını tələb edir.

İnkişafın indiki mərhələsində loqokorreksiyaedici fəaliyyətin kompüterləşdirilməsi onun yaş imkanları və yaxın inkişaf zonası nəzərə alınmaqla uşağın inkişafına yönəlmiş sistemli fərdi və differensial təsir, inkişaf didaktikasının həyata keçirilməsi üçün texniki əsasa çevrilir.

İnteraktiv təlimedici oyunlar müxtəlif imkan və bacarıqlara malik uşaqların eyni vaxtda təlimini təşkil etməyə, hər bir uşağın fərdi xüsusiyyətlərinə əsaslanaraq təlim fəaliyyətini qurmağa imkan verir. Rəqəmsal texnologiyalar inkişafetdirici təlim problemlərinin həlli və fəaliyyətli yanaşmanın həyata keçirilməsi, məktəbəqədər təhsil müəssisəsinin inkişafetdirici mühitinin zənginləşdirilməsi üçün effektiv vasitədir.

Virtual təlim vəzifələrinin həlli prosesində uşaqlarda məktəbəqədər təhsilin dövlət standartlarının hədəf istiqamətləri olan yaradıcılıq, təşəbbüskarlıq, maraq, əzmkarlıq, əməksevərlik, məsuliyyət inkişaf edir. Rəqəmsal texnologiyalar uşaq bağçası ilə ailə arasında əməkdaşlığın təşkilində, o cümlədən distant təhsilin təşkilində, sosial təhsil şəbəkələrinin və icmaların yaradılmasında mühüm həlqə ola bilər.

Məktəbəqədər təhsil müəssisələrində təlim alan bugünkü uşaqlar gələcək məktəblilərdir və onların təlimi digər məsələlərlə yanaşı ənənəvi təlim metodlarından keyfiyyətcə üstünlüyə malik rəqəmsal texnologiyalarla əlaqələndirilməlidir.

Rəqəmsal texnologiyalar müasir təhsil mühitini formalaşdırır, klassik metod və üsullara yeni potensial verir, müəllimləri yeni alətlərlə təmin edir.

Beləliklə, bu işin aktuallığı, bir tərəfdən təhsil sahəsində əsas normativ sənədlərin tələbləri, digər tərəfdən, uşaqların və valideynlərin maraq və ehtiyacları ilə bağlıdır.

*1. Sənədləşmənin aparılması*

Təlim fəaliyyəti prosesində tərbiyəçi-müəllim aşağıdakı sənədləri: cari və perspektiv plan, hesabatlar, texnologiyanın icrasına nəzarət, uşaqların inkişafının diaqnostikası, valideyn guşəsinin dizaynı üçün material hazırlayır. Təhsil müəssisəsinin rəhbərliyi sənədləşməni aparır, hesabatları elektron formada hazırlayır və onları elektron poçt vasitəsilə göndərir.

*2. Metodik iş, müəllimin peşəkarlığının artırılması*

Müasir cəmiyyətdə elektron resurslar şəbəkəsi, yaşayış yerindən asılı olmayaraq, tərbiyəçi-müəllimlər üçün mövcud olan yeni metodik ideyaların və didaktik vəsaitlərin yayılmasının ən əlverişli üsuludur. Elektron resurslar şəklində olan metodik materiallar müəllimin məşğələlərə hazırlığı, yeni metodikanın öyrənilməsi, məşğələ üçün əyani vəsaitlərin seçilməsi zamanı istifadə oluna bilər.

Müəllimlərin şəbəkə icmaları nəinki lazımi metodiki işlənmələri tapıb istifadə etməyə, həm də materiallarını yerləşdirməyə, tədbirlərin hazırlanmasında və keçirilməsində, müxtəlif üsul və texnologiyalardan istifadədə pedaqoji təcrübəni bölüşməyə imkan verir.

Müəllimlər internet texnologiyalarından istifadə etməklə öz bacarıqlarını təkmilləşdir-

mək, biliklərini yeniləmək və davamlı özünütəhsil və peşəkar inkişafa dəstək vermək imkanı əldə edirlər(bunlara videokonfranslar, vebinarlar, onlayn konfranslar, distant təlim və yenidənhazırlanma, peşə bacarıqları müsabiqələri, metodiki işlənmələr, sınaq daxildir).

Tərbiyəçi-müəllimin fəaliyyətinin mühüm istiqaməti müxtəlif pedaqoji layihələrdə, distant müsabiqələrdə, viktorinalarda, olimpiadalarda iştirakdır ki, bu da həm müəllimin, həm də uşaqların özünə hörmət səviyyəsini artırır. Regionun uzaqlığı, maliyyə xərcləri və digər səbəblərdən belə tədbirlərdə üzbəüz iştirak çox vaxt mümkün olmur. Odur ki, belə tədbirlərdə distant iştirak hər kəs üçün əlçatandır.

*3. Təlim-tərbiyə prosesi*

Rəqəmsal texnologiyalardan istifadə etməklə 3 növ təlim fəaliyyəti var:

*a) Multimedia dəstəyi ilə keçirilən məşğələlər*

Multimedia təqdimatından istifadə məşğələni emosional, maraqlı, gözəl nümayişetdirici, əyani vəsaitdir ki, bu da məşğələnin səmərəliliyinə, nəticəliliyinə kömək edir.

*b) Kompüter dəstəyi ilə məşğələ*

Çox vaxt bu cür məşğələlər oyun təlim proqramlarından istifadə etməklə aparılır. Məktəbəqədər yaşlı uşaqlarla işləyərkən tərbiyəçi-müəllimlər əsasən inkişafetdirici oyunlardan istifadə edirlər. Təlim və diaqnostik oyunlardan daha az istifadə edirlər. Hazırda məktəbəqədər yaşlı uşaqlar üçün kompüter oyunlarının proqram təminatının seçimi kifayət qədər genişdir.

*c) Diaqnostik məşğələlər*

Bu cür məşğələlərin keçirilməsi üçün bəzi ümumi təhsil proqramları üçün az rast gəlinən və ya mövcud olmayan xüsusi proqramlar tələb olunur. Amma belə kompüter proqramlarının hazırlanması zaman məsələsidir. Tətbiqi proqramların köməyi ilə test tapşırıqları hazırlamaq və diaqnostika üçün istifadə etmək olar.

*4. Valideynlərlə iş zamanı istifadə edilməsi*

Müasir valideynlər məlumat qovluqlarına az diqqət yetirirlər – tərbiyəçi-müəllim onlara diqqət yetirənə qədər nadir hallarda elanları görürlər. Valideynlər müasir vasitələrdən istifadə edərək (uşaq bağçası veb-saytı, Viber, WhatsApp-da söhbətlər və s.) tərbiyəçi-müəllimlərlə ünsiyyətə girməyə və övladı haqqında məlumat almağa üstünlük verirlər.

Məktəbəqədər təhsil müəssisələrinin messencerlərindən və internet saytlarından istifadə tərbiyəçi-müəllimlərlə valideynlər arasında ünsiyyətin səmərəliliyini artırmağa

imkan verir. Uşaq bağçasının və uşaqların həyatı haqqında ətraflı məlumat, vatsapp söhbətlərindən və elektron poçtdan istifadə edərək ünsiyyət qurmaq bacarığı – bütün bunlar müəllimlərə və valideynlərə daha sıx ünsiyyət qurmağa kömək edir, eyni zamanda, valideynləri məktəbəqədər təhsil müəssisəsinin həyatına cəlb edir və onları birbaşa iştirakçıya çevirir.

Rəqəmsal texnologiyaların tətbiqi ənənəvi tədris vasitələri ilə müqayisədə üstünlüklərə malikdir:

1. Elektron təlim vasitələrinin istifadəsini genişləndirmək imkanı verir, çünki onlar informasiyanı daha sürətli ötürür.

2. Hərəkət, səs, animasiya uşaqların diqqətini uzun müddət cəlb edir və onların öyrənilən materiala marağını artırmağa kömək edir. Məşğələnin yüksək dinamikası materialın səmərəli mənimsənilməsinə, uşaqların yaddaşının, təxəyyülünün və yaradıcılığının inkişafına kömək edir.

3. Məktəbəqədər yaşlı uşaqların vizual-obrazlı təfəkkürünü nəzərə alaraq, materialın qavranılmasına və daha yaxşı yadda saxlanmasına kömək edən vizuallaşdırmanı təmin edir. Buraya üç növ yaddaş: vizual, eşitmə, motor daxildir.

4. Slayd şoular və videofraqmentlər ətraf aləmdən müşahidəsi çətin olan həmin anları göstərməyə imkan verir.

5. Gündəlik həyatdan göstərilməsi çətin olan, görmək mümkün olmayan həyati situasiyaları da modelləşdirmək olar(məsələn, təbiət səslərinin, nəqliyyat işi və s.).

6. Rəqəmsal texnologiyalardan istifadə uşaqları tədqiqatçılıq fəaliyyətinə həvəsləndirir;

**7.** Rəqəmsal texnologiyalar əlilliyi olan uşaqlarla işləmək üçün əlavə imkanlardır.

Tərbiyəçi-müəllimin təcrübəsində yeni informasiya texnologiyalarından istifadə uşaq şəxsiyyətinin idraki əsaslarının zənginləşdirilməsinə xidmət edir ki, bu da onun istedadının inkişafının mühüm şərti və dəstəyidir; müasir şəraitdə uşağın tərbiyəsinin məzmunu və üsullarının davamlı təkmilləşdirilməsinin pedaqoji vasitəsidir.

**Problemin aktuallığı.** Bu işin aktuallığı, bir tərəfdən təhsil sahəsində əsas normativ sənədlərin tələbləri, digər tərəfdən, uşaqların və valideynlərin maraq və ehtiyacları ilə bağlıdır. Rəqəmsal texnolo-

giyalar müasir təhsil mühitini formalaşdırır, klassik metod və üsullara yeni potensial verir, müəllimləri yeni alətlərlə təmin edir.

**Problemin yeniliyi.** Məktəbəqədər təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biri uşaqların idraki, intellektual, yaradıcı inkişafı üçün müasir rəqəmsal texnologiyalardan istifadə etməklə həyata keçirilməsi məqbul olan şərait yaratmaqdır ki, bu da məktəbəqədər təhsil müəssisələrinin səviyyəsinin və rəqabət qabiliyyətinin artmasına kömək edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə praktik cəhətdən müasir təhsil müəssisəsinin fəaliyyəti əsasən tərbiyəçi-müəllimlərin və rəhbərliyin rəqəmsal texnologiyalara və rəqəmsal informasiyaya nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Məqalədən uşaqların təlimi ilə məşğul olan hər kəs və valideynlər də faydalana bilər.

**Ədəbiyyat:**


1. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 16 iyun 2017. http://www.president.az/articles/24248
2. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". 16 iyul 2010-cu. il. http://www.edu.gov.az/
3. Уваров, А.Ю. Образование в мире цифровых технологий: на пути к цифровой трансформации - Изд. дом ГУ-ВШЭ, М.: 2018. -168 с.
4. Ставцева, Ю.Г. Статья «Информационно-коммуникационные технологии в дошкольном образовательном учреждении» //Психолого-педагогический журнал Гаудеамус, № 1 (25), 2015
5. https://www.frontiersin.org/articles/10.3389/feduc.2020.600305/full
6. http://www.diva-portal.org/smash/get/diva2:1401975/FULLTEXT01.pdf
7. https://dergipark.org.tr/tr/download/article-file/386082


**E-mail:** ilahe.qafarova@mail.ru

**Rəyçilər**: *ped.ü.fəls.dok.dos.* **L.K. Cəfərova**
*ped.ü.fəls.dok.*dos **Ş.A. Baxışova**
**Redaksiyaya daxil olub:** 13.01.2022.

## *TƏHSİLİN İDARƏOLUNMASI MƏSƏLƏLƏRİ*

**UOT 371**

***Sevda Hidayət qızı Axundova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Xəzər Universiteti*
*https://orcid.org/0000-0001-9112-7127*
*https://doi.org/10.5281/zenodo.6450088*

# KOLLECLƏRİN İNNOVATİV İDARƏÇİLİYİ VƏ ONUN TƏLİM KEYFİYYƏTİNƏ TƏSİRİ MODELLƏRİ

***Севда Хидаят гызы Ахундова***
*диссертант по программе доктора философии*
*Университет Хазар*

# МОДЕЛИ ИННОВАЦИОННОГО УПРАВЛЕНИЯ КОЛЛЕДЖАМИ И ИХ ВЛИЯНИЕ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

***Sevda Hidayat Akhundova***
*doctorial student in the proqram of doctor of philosophy*
*Khazar University*

# MODELS OF INNOVATIVE COLLEGE MANAGEMENT AND THEIR INFLUENCE ON THE QUALITY OF EDUCATION

**Xülasə.** Məqalədə kolleclərin innovativ idarəçiliyinin təhsil və tərbiyənin keyfiyyəti ilə əlaqəsindən bəhs edilir. Müəllif böhranlı və normal təlim şəraitində onların struktur modellərini təhlil etməyə çalışmışdır.

Müəllifin fikrincə, təklif olunan korrelyativ modellər təkcə öyrənmə zamanı baş verənlərlə bağlı proqnozları təkmilləşdirməyə deyil, həm də gələcək üçün lazımi xəbərdarlıqları və proqnozları hazırlamağa kömək edə bilər.

Tədqiqat pandemiyalar, məktəblərin kütləvi bağlanması və s. kimi böhran vəziyyətlərdə baş verə biləcək bəzi arzuolunmaz yan təsirlər barədə məlumatlılığı artırmaq üçün bu cür korrelyasiya modelləri ilə əlçatan müdaxilələr hazırlamağı tövsiyə edir.
***Açar sözlər:*** *kolleclərin innovativ idarə olunması modeli, innovativ fəaliyyət komponentləri, böhranlı vəziyyətdə innovativ təlim, innovativ fəaliyyətin təlimin keyfiyyətinə təsiri modeli*

**Резюме.** В статье рассматривается взаимосвязь инновационного менеджмента колледжей с качеством обучения и воспитания. Автор пытается проанализировать их структурные модели в критических и нормальных условиях обучения.

По мнению автора, предлагаемые модели корреляции могут способствовать улучшению прогнозов не только того, что происходит в обучении, но и выработать необходимые предупреждения и прогнозы на будущее. В исследовании рекомендуется разработать доступные меры с помощью таких корреляционных моделей, чтобы повысить осведомленность о некоторых нежелательных побочных эффектах, которые могут возникнуть в критических ситуациях, таких как пандемии, массовые закрытия школ и т. д.
***Ключевые слова:*** *модель инновационного управления колледжами, компоненты инновационной деятельности, инновационное обучение в кризисной ситуации, модель влияния инновационной дея*

**Summary.** This article views the correleation of innovative management of colleges with the quality of teaching and education. It also tries to analyze their structural modellings through the critical and normal educational conditions.

By the opinion of the author, the offered models of correlation can facilitate to better the prognoses not only on what happens in teaching, but also work out the necessary preventions and predictions for the future.

The study recommends working out the readily available measures through such correlative models to enhance the awareness about some undesirable side effects that may arise in critical situations as pandemics, mass lock downs and so on.

***Key words:*** *model of innovative management of colleges, components of innovation, innovative education in a crisis situation, model of innovations' influence on quality of education*

Ayrılıqda həm pedaqoji kollec müəllimləri və eləcə də kollec rəhbərliyinin gündəlik təcrübələrində yaratdığı yeniliklər təlim keyfiyyətində bu və ya digər şəkildə əks olunur. Pozitiv nəticələrə köklənmiş bu subyektlər gündəlik həyatlarında təlimin və təhsilin keyfiyyətini yüksəltmək üçün daim orijinal həll yolları axtarırlar. Əlbəttə, qabaqcıl ölkələrdə innovativ təlimi və idarəetməni stimullaşdırmaq üçün onlara daha çox müstəqillik verilir, həm də onların müvafiq innovativ davranışları müxtəlif yollarla stimullaşdırılır. Bu təcrübədən Azərbaycanda olan kolleclərin daha çox bəhrələnməsi artıq həyati bir reallığa çevrilməkdədir. Bu cür həvəsləndirici tədbirlərin görülməsi bütövlükdə təhsildə innovasiyaların və innovasiya proseslərinin əhəmiyyətinin artması ilə müşayiət olunur.

Ukraynalı alim V.İ. Zaqvyazinskiy doğru olaraq qeyd edir ki, "innovasiyalı idarəetmə fəaliyyəti yalnız hələ istifadə olunmayan fikirlər, yanaşmalar, metodlar, texnologiyalar deyildir, onlar, eyni zamanda, bu elementlərin kompleksidir və bu kompleks dəyişən şərait və situasiyalarda tərbiyə və təhsil problemlərini olduqca səmərəli şəkildə dəyişdirməyə imkan verir" [5, c. 49-56].

Həyata vəsiqə almış innovasiyaların geniş tətbiqinin mühüm xüsusiyyətlərindən biri də həm təlimin innovativ idarə edilməsinin təlimin keyfiyyətinə təsirinin imkanlarından, həm də bu innovativ idarəçiliyin təlim keyfiyyətinə təsirinin reallaşdırılması modellərinin öncədən hazırlanmasından, yəni bu proseslərin yol xəritəsindən də xeyli surətdə asılıdır. Odur ki, bu modellərin hazırlanması və onların struktur elementləri arasındakı korrelyativ əlaqələrin müəyyən edilməsi innovativ idarəetmədə mühüm təcrübə hesab edilir. Bu modellərin şərh edilməsi təlimin özünün bir proses kimi daxili mahiyyətinin araşdırılmasından irəli gəlir. Yəni, "təlim, hər şeydən öncə, şagirdləri elmlərin əsasları ilə dərindən silahlandırmağa, əqli və praktik fəaliyyətləri üçün bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə kömək edir" [3,s. 551], o, "müəllim və şagirdlərin qarşılıqlı, məqsədyönlü fəaliyyətidir. Təlim prosesində şagirdlər müəllimin rəhbərliyi altında bilik, bacarıq və vərdişlərə yiyələnir, tərbiyə olunurlar. Təlim təhsil almaq vasitəsidir." [1, s.7]

Kolleclərin innovativ idarə olunması modelinin hazırlanmasında çox vaxt alimlər mühüm bir dilemma ilə qarşılaşırlar: "İnnovasiya modelləri haqqında nəzəriyyə innovasiya idarəetmə modellərinə nə dərəcədə aiddir? İnnovasiya prosesi modeli ayrılıqda və innovativ idarəetmə modelləri nəyi nəzərdə tutur?" Bu sualların cavablarını tam aydınlaşdırmaq üçün innovasiyaların növləri, çoxsahəliliyi, mədəni və psixoloji dəyərlərin mövcudluğu, innovasiyaların miqyası və sair kimi məsələləri nəzərə almaqla araşdırılmalıdır. Çünki bir neçə onilliklər ərzində bəzi ölkələrdən olan tədqiqatçılar innovasiya modellərini daha geniş elmi-tədqiqat proseslərini təyin edən bir amil kimi nəzərdən keçirmişlər. Əslində, kollec həyatının innovativ idarə edilməsi modeli daha konkret bir sahəni əhatə etdiyindən, bu innovasiyaların iştirakçıları, proses və qarşıda duran vəzifələr burada ön plana çəkilməli, idarəetmənin səviyyələri, taksonomiyası və mərhələləri təhlil edilməlidir. Məsələn, Polşalı alim Krzysztof Palucha özünün məqaləsində innovativ idarəçiliyini əsasən iki faktorla əlaqələndirmişdir: yeni texnologiyanın inkişaf etdirilməsi və innovasiya proseslərinə olan tələbat. [7, pp. 34-38] Yəni o hesab etmişdir ki, innovasiyaya olan tələbat sanki bir hərəkətverici qüvvə kimi çıxış edərək, pedaqoji proseslərin innovasiyalı idarə edilməsi üçün mühüm şərt və sanballı zəmin yaradır.

İnnovativ fəaliyyətin reallaşdırılmasında həm praktiki, həm elmi, həm də təşkilatı-pedaqoji komponentlər mövcuddur. Praktik fəaliyyət komponenti kolleclərin idarə edilməsi sferası ilə birgə müəyyən bir sahədə, məsələn, pedaqoqların sinifləri idarə etməsi sahəsində həyata keçirdikləri metodların tətbiqində də özünü göstərə bilir. Lakin bu fəaliyyət inkişafda elmi komponentə aid edilə bilən müəyyən bir metodologiya-

ya, konseptual aparata, texnikaya əsaslanır ki, biz bunu müvafiq olaraq *innovativ təlim* adlandırırıq. Mövcud innovativ idarəetmə konsepsiyasının ümumiləşdirilməsi və onun tədqiqatla əlaqələndirilməsi onların elmi və nəzəri cəhətdən aşağıdakı mərhələləri ilə bağlıdır:

a) kolleclərdə innovasiyalı idarəetmənin formalaşması;

b) idarəetmənin pedaqoji və texnoloji cəhətdən proqnozlaşdırması;

c) kollec heyətinin innovativ idarəetməyə həssaslığı və müqavimətinin qiymətləndirilməsi;

ç) innovativ diffuziya (yeniliklərin paylanması);

d) innovativ idarəetməni kollec tələbələrinin və işçi heyətinin tələblərinə və ehtiyaclarına uyğunlaşdırılması;

e) innovasiyalı idarəetmənin təşkilinin forma müxtəlifliyi;

f) kollecin fəaliyyət göstərdiyi ərazidə konkret icmanın təkliflərinin nəzərə alınması;

g) innovativ idrəetmə strategiyalarının rəqabət üstünlükləri və inkişaf mərhələlərinin müəyyən edilməsi;

l) kollec həyatının innovasiyalı idarə edilməsi və innovasiyalı idarəetmə fəaliyyətinin dövlət tənzimlənməsi.

Göründüyü kimi, innovativ idarəetmə sistemli xarakter daşıyır. Məhz bu səbəbdən kolleclərdə innovativ fəaliyyətin reallaşdırılması və eləcə də onun təlimin keyfiyyətinə təsirinin reallaşdırılması modelləri onun daha dərindən təhlilə məruz qalması və konseptual nəticələrin əldə edilməsi ilə sıx bağlıdır. Bu əlaqələrin modellərindən və ya ümumi modelləşdirmədən danışarkən Amerikalı alim Benoit Qodin təklif edir ki, bu modellər "“danışıqda təsvir edilənin, şəkil və ya diaqramın konseptuallaşmış alət və perspektivi ola bilər”. Alimin fikrincə, “model ritorik bir funksiyaya sahibdir, çünki, birincisi, hər bir model “elmi” simvoldur və ikincisi, hər bir model alimlər və siyasətçilər arasında asanlıqla müzakirə olunan və yayıla biləndir”, odur ki, bu səbəbdən model “perspektiv imkanlara malikdir”". [6, pp.198-213]

Qeyd etmək yerinə düşərdi ki, normal fəaliyyətdə yaranmış idarəetmə modellərindən fərqli olaraq, fövqəladə (böhranlı) hallarda tətbiq olunan innovasiyalı idarəetmə mütləq şəkildə yeni, tez-tez dəyişə biləcək şəraitə və şərtlərə uyğunlaşdırılmalıdır. Məsələn, 2020-ci ilin əvvəllərindən xeyli əvvəl yaranmış və tətbiq edilən innovativ kompüter proqramları zamanla fors major şəraitdə formalaşdırılan yeni və normal “Microsoft Team”, “Zoom” və sair kimi virtual proqramlarda müxtəlif əməliyyatların aparılması, interaktivliyin qorunması, dərslərin və cədvəllərin yerləşdirilməsi, səmərəli təlimin bütün komponentlərini COVİD-19-un tüğyan etdiyi şəraitə uyğunlaşdırılmasını və onun innovativ idarə edilməsini tam əks etdirməmişdir. Bu ona görə belə hesab edilir ki, belə proqramların böhranlı vəziyyətlərdə tətbiqi daha yeni keyfiyyətlərə malik olmalıdır və bu addımlar, yaxşı olardı ki, öncədən planlaşdırılsın.

Bəs ənənəvi dərs tipindən fərqli olan bu cür öyrətmə və öyrənmədə, bütövlükdə təlim keyfiyyətində hansı yeni məsələlər üzə çıxmışdır və onların həlli necədir? Bu kimi sualların cavablandırılması elmi və pedaqoji əsaslara söykənərkən, kolleclərin tipik xüsusiyyətləri nəzərə alınmalıdır. Odur ki, kolleclərdə innovativ fəaliyyətin reallaşdırılmasında daha yeni yolların, metod və üsulların və eləcə də texnologiyaların yaranmasına indi daha çox ehtiyac yaranmışdır, çünki həyat göstərdi ki, kollec fəaliyyətinin yalnız müntəzəm təmir işləri ilə deyil, yenidən qiymətləndirmə ilə də davam etdirilməsinə böyük ehtiyacı vardır. Odur ki, böhranlı vəziyyətlər üçün təlimin keyfiyyəti ilə bağlı aşağıdakı bir sıra yeni tədris metodlarının innovativ idarəetməyə daxil edilməsi tövsiyə olunandır:

1. Qarışıq öyrənmə metodu – “on line” və ya “kompüter şəbəkə vasitəsilə öyrənmə” təhsildə yeni biliklər verən materialın yalnız daha əsas mahiyyətli hissənin rəqəmsal mənbələrdən istifadə etməklə qrup və siniflərdə tədris etməklə dərsin minimum məzmunu çatdırılmalıdır;

2. Müəllimin bacarıqlarının tələbələrin təlim prosesinə dəstəyi ilə səfərbər edilməsi (qarşılıqlı əməkdaşlıqla öyrətmə və öyrənmə) mühüm hesab edilməlidir;

3. Hər bir kollecin profilinə uyğun olan və öncədən düşünülmüş Təlim və Tədris Mərkəzləri (TTM) yaradılmalıdır. Belə mərkəzlər öz fəaliyyətində davamlı olaraq pedaqoji innovasiyaları yaymaqda önləyici mövqe tutmalı (buraya səmərəli texnologiyalar, səmərəli öyrənmə və öyrətmə üsulları və sair daxildir) təlimin davam-

lı inkişafını, təkmilləşdirilməsini və təşviqini dəstəkləməlidir;

4. İnnovativ kitabxana sisteminin qurulması: yəni, informasiyanın metodoloji mənbələrinin rəqəmsallaşdırılması imkanları genişləndirilməlidir (buraya, iş yerlərinə dair məlumatlar, rəqəmsal və fiziki kitab kolleksiyaları, rəqəmsal jurnallar, rəylər və məqalələr, müxtəlif məlumat bazaları, fərdi halların təhlili, kurslar, araşdırmaçılara dəstək paneli və sair daxil ola bilər);

5. Müxtəlif profillərdən olan kollec müəllimlərini və tələbələrini əhatə edən seçilmiş İnnovativ Öyrənmə Siniflərinin (İÖS) və İnnovativ İdarəetmə Komitəsinin (İİK) yaradılması mühüm hesab edilməlidir (2-ci tövsiyədə göstərilən prirekvizitlərdən qaynaqlan bu Komitə hər bir kollecin innovativ strategiyasına uyğun olan yeni, daha səmərəli metodların yaradılmasının təminatçısı olmalıdır);

6. Müəllimlər öz gündəlik tədrislərini birbiri ilə sıx məşvərət şəklində aparmalıdır. Yəni, xüsusi mövzuları kollec tələbələrinə tədris etməzdən əvvəl bu məlumat resursları professorlar, müəllimlər arasında öncədən virtual görüşlər keçirməklə, müzakirələr aparmaqla, müəllim heyətinin bilik və bacarıqlarını bu sahədə artırmaqla və mümkün paylaşılan layihələri müəyyənləşdirməklə pedaqoji təcrübələrin dövriyyəsi asanlaşdırılmalıdır. Aşağıda, diaqram 1-də təklif etdiyimiz yeni model Azərbaycanda kolleclərin innovativ idarə edilməsinin hər iki şərait (normal və böhranlı vəziyyət) üçün nəzərdə tutulmuş tədbirlər kompleksini əhatə edir.




***Diaqram1. Kolleclərin normal və böhranlı vəziyyətlərdə innovasiyalı idarəetmə modeli***

Təklif olunan modeldə innovasiyalı idarəetmənin situativ şərtlərinin verilməsi əlavə tədbirlər planının proqnozlaşdırılması və həyata keçirilməsində mühüm mərhələ ola bilər, yəni hadisələrin normal təlimdən fərqli xüsusiyyətlərini əks olunduğu bu modeldə adminstrativ, prosessual və responsiv tədbirlər kompleksi və onların korrelyativ əlaqəsi ilə daha yaxından tanış olmaq mümkündür.

Hazırda həm ölkəmizdə, həm də xaricdə böhranlı vəziyyətdə kolleclərin innovativ idarəetmə praktikası o qədər də yüksək deyildir və burada böhran səbəbinin özü və onun təsir dairəsi belə ən mühüm cəhətləri təşkil edir. Biz hesab edirik ki, təklif olunan bu model birdəfəlik və həmişəlik bir sxem deyildir və zaman keçdikcə, tələblərin dəyişməsi ilə daha yeni modellərin meydana gəlməsi istisna deyildir.

Öz peşə xüsusiyyətləri ilə seçilən Azərbaycan kolleclərinin innovativ idarəetmə modeli təlim keyfiyyətinin yüksəldilməsində həm inzibati, həm də innovativ pedaqoji proses baxımından təhlil edilərək araşdırılmalıdır. “Keyfiyyət mürəkkəb və ziddiyyətli anlayışdır. Bu ziddiyyətlər prosesin keyfiyyəti ilə nəticələrin keyfiyyəti arasında baş verir” [2, s.25] İnnovativ idarəetmənin pedaqoji modelləri, onun imkanlarından maksimum istifadə etməklə təlim keyfiyyətinin yüksəldilməsi xeyli mürəkkəbdir. Çünki kolleclərin innovativ idarəetməsində texnoloji yenilik insan resursları səfərbər olmadan əhəmiyyətli görünmür. Odur ki, innovasiyalı idarəetmə imkanlarının *təlim keyfiyyətində iştirakçı olduğu rezonatorlar* mütləq şəkildə təhlil olunmalıdır. Hesab edirik ki, bu *korrelyativ əlaqədə* başlıca olaraq aşağıdakı dörd komponent iştirak edir:

I. Kolleclərin innovativ idarəedilməsinin struktur komponentləri: a) motivasiya; b) kreativlik; c) texnoloji-əməliyyat komponenti; d) texnologiyaların reflektiv əks olunduğu elementlər daxildir.

II. Kolleclərin innovativ idarə edilməsinin funksional komponentlərinə daxil olan elementlər 2 yarımqrupa bölünür. Birinci yarımqrupun əhatə etdiyi əsas elementlər aşağıdakıları özündə birləşdirir: a) rəhbər şəxslərin motivlərində ehtiva edilən komponentlər - şəxsi motivasiyalar (onların təhsil keyfiyyətinə münasibəti, idarəetməni müsbət məcraya istiqamətləndirmədə daxili yönəmlilik və sair); b) kollec təhsili proqramına rəhbərliyin yanaşması, onun icrasına yönəlmiş hərəkətverici qüvvə); c) innovativ yeniliklərin təlimin keyfiyyətinin yüksəldilməsində istifadə etməkdə rəhbərliyin qərar qəbuletmə motivləri; İkinci yarımqrupun əhatə etdiyi əsas elementlər aşağıdakıları özündə birləşdirir: a) məqsədlərin formalaşdırılması üçün ümumi konseptual yanaşmadan istifadə metodu; b) kolleclərin innovativ idarə edilməsində qarşıya çıxa biləcək çətinlikləri və yanlışlıqları həll etmək üçün rəhbərlik tərəfindən korreksiyaedici qiymətləndirmə iradəsi daxildir.

III. Kolleclərin innovativ idarə edilməsində təlim keyfiyyətinin yüksəldilməsinə xidmət edən digər element meyarlara əsaslanan komponentdir. Buraya: a) innovativ idarəetmədə müəllim və rəhbərliyin birgə yaradıcı fəaliyyəti; b) innovasiyaların həyata keçirilməsi üçün metodoloji və texnoloji hazırlıq səviyyəsi; c) kollec mühitinin daxili innovativ təfəkkürünün durumu və d) idarəetmədə mövcud olan ünsiyyət mədəniyyətinin səviyyəsi daxildir.

IV. Kolleclərin innovativ idarə edilməsinin təlim keyfiyyətini yüksəldilməsində digər rolu bu idarəçiliyin səviyyələri ilə bağlıdır: Buraya aşağıdakı addımlar daxildir: a) innovasiyaların təlim keyfiyyətinə adaptivliyi; b) innovativ idarəetmənin təlim keyfiyyətində yenidən reproduksiya olunması; c) bu qarşılıqlı əlaqənin evristik təkrarı və d) bu korrelyasiyanın yaradıcılıq və kreativlik səviyyəsidir. Beləliklə, kolleclərdə innovativ fəaliyyətin təlimin keyfiyyətinə təsirinin reallaşdırılması modelləri yalnız bu idarəçiliyin metod və yolları ilə bağlı deyildir və bu əlaqə həm zaman, həm də məkan, kolleclərin tipləri, informasiya texnologiyalarından istifadə zamanı xüsusi təhsil tələblərinin yaranması və onların tələbələrin və müəllimlərin psixologiyasında yaratdığı dəyişikliklərin təlimin keyfiyyəti ilə necə uzlaşması baxımdan daha maraqlı və mürəkkəb bir struktur tələb edir. Biz kolleclərin innovativ idarəçiliyinin təlim keyfiyyətində əks oluna biləcək reallaşma modelini Diaqram 2-də göstərildiyi kimi təsvir edə bilərik.




***Diaqram 2. Kolleclərdə innovativ fəaliyyətin təlimin keyfiyyətinə təsirinin reallaşdırılması modeli***

Kolleclərin innovativ idarə edilməsinin 4 komponent göstəricisinin təlimin keyfiyyətinə təsirinin reallaşdırılmasında iştirakı vacib hesab edilən mexanizm birtərəfli olmayıb, onların korrelyativ təsiri vasitəsilə həyata keçirilən kompleks bir proses təşkil edir. Bu mexanizmdə maraqlı cəhət həm də ondan ibarətdir ki, o, bir tərəfdən kolleclərin multistruktural komponentlərin innovativ idarəçiliyinin komponentlərarası qarşılıqlı təsirindən, digər tərəfdən isə, hər bir komponentə daxil olan elementar addımların özlərinin bir-biri ilə qarşılıqlı və korrelyativ əlaqəsindən ibarətdir.

**Problemin aktuallığı.** Müasir dövrdə Azərbaycanda fəaliyyət göstərən bir sıra kolleclərin innovativ idarə edilməsinin mexanizminin işlənib hazırlanması və onun modelləşdirilməsi həmin təhsil müəssisələrində təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu aktuallığın təhlili və şərhi konkret olaraq bu sahədə olan boşluqların doldurulmasına mühüm töhfədir.

**Problemin elmi yeniliyi.** Məqalə pedaqoji yönlü kolleclərin innovativ idarəetmə strukturunu təhlil etmiş və bu struktur elementlərinin təhsil keyfiyyətinin artırılmasında müsbət rolunu təklif olunan korrelyativ modellərlə proqnozlaşdırıla bilən olmasını irəli sürmüşdür.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə təsvir olunan yeni korrelyativ modellər kolleclərin idarə olunmasında və təlim keyfiyyətinin artırılmasında müstəsna rola malikdir. Bu baxımdan bu əlaqələrin modelləşdirilməsi gələcək fəaliyyətdə onların kollec həyatının idarə edilməsində yardımçı olacaqdır.

**Ədəbiyyat:**


1. Ağayev, Ə. Pedaqogika / Ə. Ağayev, Y. Talıbov, A. Eminov [və d.] –Bakı: Adiloğlu,–2006.–183 s.
2. Ələkbərova Ş.İ. Təlimin keyfiyyəti cəmiyyətin inkişafının göstəricisidir // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2017, № 6, s. 25-27
3. İbrahimov F. N., Hüseynzadə R.F. Pedaqogika: [2 cilddə]. / F.N. İbrahimov, R.F Hüseynzadə. – Bakı: Mütərcim, – 2012. – 706 s.
4. Məmmədova R. Sosial psixoloji aspektdə qrup fenomeninin tədqiqinə metodoloji yanaşma // – Bakı: Azərbaycan məktəbi, Mütərcim, - 2019, № 1, s. 151-160.
5. Загвязинский, В. И. Педагогическое творчество учителя / В. И Загвязинский. –Москва: Педагогика, – 1987. – 160 с.
6. Bodin B. G. Models of Innovation.The History of an Idea. (Inside Technology) / B. G. Bodin – Cambridge, Mass., London, MIT Press, - 2017 - ix + 324 pp.
7. Palucha K. Innovation process management.//- International Scientific Journal Archives of Material Science and Engineering, Poland, –2012, November,Vol. 58, Issue 1, –p. 33-39. – 48 p.


**E-mail:** sevda.appp@gmail.com

**Rəyçilər:** *ped.ü. elm. dok., prof.* **P.B. Əliyev**
*ped. ü.elm. dok., prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub:** 17.01.2022.

**UOT 371**

***Rəna Məhəmməd qızı Ağayeva***
*Bakı Avropa liseyinin ibtidai sinif müəllimi*
*https://orcid.org/0000-0002-7986-0454*
*https://doi.org/10.5281/zenodo.6450094*

# SİNFİN SƏMƏRƏLİ İDARƏ EDİLMƏSİNDƏ MÜƏLLİM DAVRANIŞININ ROLU

***Рена Мухаммед гызы Агаева***
*учитель начальных классов Бакинского Европейского Лицея*

# РОЛЬ УЧИТЕЛЬСКОГО ПОВЕДЕНИЯ В ЭФФЕКТИВНОМ УПРАВЛЕНИИ КЛАССОМ

***Rana Mahammad Agayeva***
*primary school teacher of Baku European Lyceum*

# THE ROLE OF TEACHİNG BEHAVİOR İN EFFECTİVE CLASSROOM MANAGEMENT

**Xülasə.** Məqalədə sinfin səmərəli idarəsinin sinfin mürəkkəbliyini və müxtəlifliyini əlaqələndirən və daha effektiv tədris mühiti yaradan bir üsul olaraq, sinifdəki bütün təcrübələrlə bağlılığı vurğulanır. Bu təcrübələri hazırlayan və bələdçilik edən müəllimin davranışları tədris və təlimin məqsədlərinə çatmaqda mühüm amil kimi qeyd olunur. Həmçinin məqalədə müəllimin müəyyən məqsədlərə nail olmaq üçün hansı idarəetmə bacarıqlarına malik olmasından bəhs edilir. Burada sinfin idarəsi zamanı yarana biləcək problemlərdən çıxış yolları müzakirə olunur.
***Açar sözlər:*** *sinif müəllimləri, sinfi idarəetmə, arzuolunmaz davranış, intizam, həll təklifləri*

**Резюме.** В статье подчеркивается связь эффективного управления классом со всеми практиками, относящимися к процессу обучения, как способ, связывающий сложность и разнообразие класса и создающий более эффективную среду обучения. Поведение учителя, разработавшего и ориентировавшего эти практики, является важным фактором достижения целей обучения. Также в статье рассказывается о том, какие навыки управления должен иметь учитель для достижения определенных целей. Здесь обсуждаются пути выхода из проблем, которые могут возникнуть во время управления классом.
***Ключевые слова:*** *классные руководители, управление классом, нежелательное поведение, дисциплина, предложения решения*

**Summary.** The article emphasizes the association of effective class management with all practices relevant to the learning process as a way to connect the complexity and diversity of the class and create a more effective learning environment. The behavior of the teacher who designed and guided these practices is an important factor in achieving the goals of learning. The article also describes what management skills a teacher must have to achieve certain goals. It discusses ways out of problems that may occur during class management.
***Key words:*** *class teachers, class management, undesirable behavior, discipline, solution suggestions*

Sinfin səmərəli idarə edilməsi müəllimin qarşısında duran önəmli vəzifələrdən biridir. Demək olar ki, sinfin idarə edilməsi hələ də bir çox müəllimlər üçün əsas problemdir. Müəllim və şagirdlər arasında tez-tez anlaşılmazlıqlar və müəllimlərin öz siniflərini səmərəli idarə edə bilməməsi nəticəsində bir çox problemlər yaranır. Müəllim müəyyən məqsədlərə nail olmaq üçün bir sıra bacarıqlara malik olmalıdır. Bu bacarıqlardan biri də sinif idarəetmə bacarığıdır. Sinif idarəetmə bacarığı sayəsində müəllim bütün resurslardan və metodlardan səmərəli istifadə etməklə məqsədə nail ola bilər. Müəllim sinifdə öyrənmə – tədris proseslərindən ən yaxşı

şəkildə istifadə edir, mənfi davranışları müsbətə çevirir və müsbət davranışın daimi olmasını təmin edir. Lakin sinifdə nümayiş etdirilən müəllim davranışlarının həmişə arzuolunan şəkildə baş verdiyini söyləmək çətindir.

Təhsilin məqsədi müsbət xüsusiyyətlərə malik şəxsiyyət yetişdirməkdir. Müəllim təhsil məqsədinə yalnız yaxşı sinif idarəçiliyi ilə nail ola bilər.

Sinfin bir sistem kimi qavranılmasını tələb edən sinif idarəçiliyinin təhsil və təlimə təsiri ədəbiyyatda ümumi qəbul edilmiş anlayış formasıdır. Sinif idarəçiliyi, resursların təşkili, ətraf mühitin səmərəli təşkili, şagirdin inkişafının müşahidəsi, yarana biləcək şagird problemlərinin proqnozlaşdırılması kimi elementləri özündə birləşdirən bir orkestr kimi sinifdəki həyatın idarə edilməsidir. Səmərəli sinif idarəçiliyi olmadan, sinif mühitində arzuolunan davranış nümunələrinin istənilən səviyyədə əldə oluna biləcəyini söyləmək çətindir.

Sinfin idarəsi, sinfin mürəkkəbliyini və müxtəlifliyini əlaqələndirən və öyrənmə mühitini daha effektiv yaradan bir üsul olaraq, sinifdəki bütün təcrübələrlə bağlıdır. Bu təcrübələrin hazırlayıcısı və bələdçisi kimi müəllimin davranışları öyrənmə məqsədlərinə çatmaqda mühüm amildir. Bu səbəbdən şagird ehtiyacları çərçivəsində müəllim lazım olanda lider, lazım olanda isə dost olmalıdır.

Sinfin idarəsi tədris sistemi deyil, müasir sinif otağının qaçılmaz müxtəlifliyini və mürəkkəbliyini əlaqələndirən sistematik metoddur.

Sinfin idarə olunmasının məqsədləri:

✓ Vaxtın effektiv bir şəkildə istifadəsini təmin etmək;

✓ Şagirdin dərsə davamsızlığını minimuma endirmək;

✓ Sinif daxili qaydaları müəyyənləşdirib şagirdlərə mənimsətmək və tətbiq etdirmək;

✓ Sinifdə şagirdi motivasiya etmək;

✓ Sinifdə effektiv bir ünsiyyət mühiti yaratmaq;

✓ Sinif həyatının asanlaşdırılmasına yönəlmiş şagird-şagird, şagird-müəllim münasibətlərini tənzimləmək;

✓ Sinifdə istənilən davranışın nizam-intizamının yaranmasını təmin etmək.

Səmərəli idarəetmə bacarıqları olmadan müəllimlərin digər bacarıqları da səmərəsiz ola bilər. Sinfin yaxşı təşkili müəllimləri qarşılaşacaqları bir çox çətinliklərdən xilas edir. Səmərəli sinif idarəçiliyinin mühüm dəyişənlərindən birinin müəllim davranışları olduğunu söyləmək olar.

Müəllim bir tərəfdən öz bilik, bacarıq və davranışı ilə şagirdlərinin tərbiyəsi vəzifəsini yerinə yetirir, digər tərəfdən də davranışı ilə onlara təsir göstərir. Müəllimin səmimi, anlayışlı və səbirli olması şagirdi müsbət düşünməyə, əks davranış isə şagirdə mənfi təsir göstərə bilər.

Səmərəli sinif idarəçiliyi təkcə sinif hadisələri və davranış idarəçiliyinə deyil, həm də müəllimlərin öz tədris təcrübələrində necə davrandıqlarına və bu təcrübələri necə təşkil etdiklərinə diqqət yetirməyi tələb edir. Bu mənada bütün bunlar müəllimin sinfi idarəetmə fəaliyyəti, məqsədləri və məzmunu ilə bağlıdır.

Müəllim şagirdlərin davranış problemlərini aradan qaldırmaq, tədris-tərbiyə mühitini yaratmağı bacarmalıdır. Bu, birincisi, şagirdlərin təlimə ayrılan vaxtı səmərəli şəkildə qiymətləndirməsinə imkan yaratmaq, ikincisi, şagirdlərdə məsuliyyət hissini inkişaf etdirmək və davranışlarına nəzarət etmək bacarığını əldə etmək baxımından vacibdir. Müəllim planlaşdırmaqdan tutmuş proqnozlaşdırıla bilməyən problemlərin aradan qaldırılmasına qədər geniş diapazonda idarəetmə bacarıqlarına əsaslanan sinif mühitinin təşkilini və şagirdi arzuolunan məqsədlər istiqamətində koordinasiya etməyi bacarmalıdır.

Demək olar ki, bu tənzimləmənin istənilən səviyyədə həyata keçirilməsi ayrı-ayrı hissələri deyil, sinifdəki hadisələrin hamısını nəzərə almaqla əldə edilə bilər.

Müəllimlər təkcə şagirdlərin bacarıqlarına, öyrənmə vərdişlərinə deyil, həm də davranışlarına diqqət yetirməlidirlər. Davranışa nəzarət sinif idarəçiliyinin mühüm elementidir. Məsələn, şagirdlərin müxtəlif səbəblərdən dərsə bir neçə dəqiqə gecikdiyi vaxtları, demək olar ki, tez-tez müşahidə edirik. Bəs bu zaman müəllim şagirdə qarşı necə davranmalı? İlk növbədə, onu danlamağa çalışmayın, amma şagirddən hər şeyin qaydasında olub-olmadığını soruşun. Ona xatırlatmaq lazımdır ki, gecikmə onun qiymətlərinə təsir edə bilər.

Onu da qeyd etmək lazımdır ki, sinfin idarəedilməsində müəllimlər, xüsusilə də ibtidai si-

nif müəllimləri danışarkən fərqli səs tonlarından istifadə etməlidirlər. Bir çox müəllimlər yüksək səslə danışır. Onu bilmək lazımdır ki, səsi bu cür yüksəltmək şagirdlərin diqqətini çəkmək üçün heç də yaxşı üsul deyil. Bu, sinifdə stress yaradır, şagirdləri yorur və onlarda dərsə qarşı mənfi hisslər formalaşdırır. Müəllimin məqsədə uyğun olaraq danışıq tonundan istifadə etməsi daha yaxşı olardı. Dərsə bütün şagirdlərin diqqətini cəlb etdikdən sonra başlanılması daha yaxşı olardı. Çox vaxt müəllimlər şagirdlərin sakitləşməyini və ya çantalarından dəftər-kitablarını çıxarıb hazır vəziyyətə gəlmələrini gözləmədən, dərhal dərsi izah etməyə və ya tapşırığın təlimatlarını verməyə başlayır. Bu zaman, demək olar ki, həmişə müəllimin nə dediyini eşitməyən şagirdlər eşitmədiklərini bir-birindən soruşurlar. Təbii ki, bu hal sinifdə səs-küyün yaranmasına səbəb olur. Oxşar səs-küylü vəziyyət müəllimin göstərişindən sonra diqqətini müəllimə yönəltməyən şagirdlərin, dərsin sonrakı mərhələlərində də dərsə fikir vermədikləri zaman yaranır. Bu problemin yaranmaması üçün şagirdlərin hamısının sakitləşməsini gözləmək lazımdır. Müəllimin danışmağa başlamaq üçün onları gözlədiyini görən şagirdlər adətən özləri səs-küy salan sinif yoldaşlarına “uşaqlar sakitləşin” kimi iradlar bildirməyə başlayır. Bununla isə müəllim öz işini asanlaşdırmış olur.

Yaxşı olardı ki, müəllimlər bir çox üsullardan istifadə etməklə şagirdlərin diqqətini dərsə cəlb etsinlər. Məsələn, bir əlinizi havaya qaldıraraq şagirdlərlə göz kontaktı yaratmaq sinfi sakitləşdirməyin və onların diqqətini özünüzə cəlb etməyin əla yoludur. Şagirdlərin bu jestə öyrəşmələri bir qədər vaxt tələb edir, lakin öyrəşdikdən sonra bu jest mükəmməl işləyir. Əlinizi qaldıraraq şagirdlərə işarə edin ki, onlar da əllərini qaldırsınlar. Bütün şagirdlərin əlləri qalxdıqdan sonra isə öz əlinizi aşağı salın və danışmağa başlayın.

İbtidai sinif şagirdləri üçün üç dəfə əl çalaraq, şagirdlərinizin də sizə cavab olaraq iki dəfə əl çalmaqlarını istəyin. Bu, bütün şagirdlərin diqqətini sizə yönəltməyin əyləncəli və aktiv bir yoludur.

İşıqları yandırıb-söndürmək də şagirdlərin diqqətini qısa müddətdə cəlb etməyin klassik və səmərəli üsullarından biridir.

Müsbət mühit yaratmaq və problemlərin qarşısını almaq üçün müəllimlər fərdi fərqləri nəzərə almalı, müsbət davranışları və şagird motivasiyasını dəstəkləməlidirlər.

Düşünülmüş və şagirdləri dərsə cəlb edə biləcək dərs planı qurulması daha vacibdir. Adətən bunu açıq şəkildə dilə gətirməsələr belə, şagirdlər maraqsız və sıxıcı dərslərdə darıxır. Darıxan şagirdlər isə dərsdə problem yaratmağa ilkin namizədlərdir. Zəif planlaşdırılmış dərslərdə müəllim nitqi adətən daha çox yer tutur, dərs bir növ mühazirə xarakteri daşıyır. Şagirdlər tərəfindən praktiki formada öyrənmə və ya düzgün cavablara şagirdlərin özlərinin gəlib çıxması halları isə azlıq təşkil edir. Bunun üçün isə müəllimlər dərs planlaşdırmasına xüsusi diqqət yetirməli və vaxt ayırmalıdırlar.

Həmçinin dərsinizi tez-tez fərqli formalarda keçməyə çalışın. Dərsi həmişə eyni cür keçmək hər şeyi adiləşdirir, bu isə darıxma hallarına gətirib çıxarır. Darıxma isə sözsüz ki, davranış problemlərinə səbəb olur.

Davranışların və öyrənmənin yaxşı idarə olunduğu sinifdə şagirdlər öz tədris məqsədlərini dərk edirlər və məqsədlərin həyata keçirilməsinə mane olan davranışlara əməl olunmur.

Şagirdlərin təhsil məqsədlərinə gözlənilən səviyyədə çatmasına şərait yaradan sinif idarəçiliyində mühüm faktor olan müəllim sinif mühitində müəyyən prinsiplərə əməl etməlidir. Bu prinsipləri müəllim rollarının keçəcəyi mərhələlər də adlandırmaq olar. Bunları tələbənin yaxşı davranışını dəstəkləmək, şagirdin inkişafına kömək etmək üçün hərəkətə keçmək və bu inkişaf üçün tətbiq olunacaq növbəti mərhələni düzgün müəyyən etmək kimi ifadə edə bilərik. Bu baxımdan sinif müəllimlərinin aşağıdakı prinsipləri unutmamalı olduğu vurğulanır:

a) Şagirdlər üçün sinifdə fəaliyyət metodlarını, standartlarını və ünsiyyət dövrlərini təyin edin;

b) Tədris üçün əvvəlcədən planlaşdırın və tələbələrin ehtiyaclarına uyğun olaraq materialları əvvəlcədən hazırlayın;

c) Tələbələrin irəliləyişlərini izləyən hesabatlılıq sistemlərini inkişaf etdirin;

d) Öyrənmə proqramlarına həsr olunmuş vaxtınızı və tapşırıqlarınızı təhlil edin;

e) Tədris qaydalarına və standartlarına riayət edin. Şagirdlərə onları anlamağa kömək edin.

Sinif idarəçiliyi ilə yaradılacaq təlim mühiti şagirdlərin öyrənmək həvəsini, məlumat almağa hazırlığını, dərsin məzmununu dərk etmələrini artıran tədris mühitidir. Tədris fəaliyyətinin təşkilatçısı kimi müəllim həm də diqqətini şagirdə yönəltməlidir.

Uğurlu sinif idarəçiliyinin ən əsas açarı təcrübələri planlaşdırmaqdır. Planlı, səmərəli şəkildə işləmək üçün müəllim arzuolunmaz davranışları üzə çıxaran hadisələri nəzərə alaraq öz davranışını yaratmalıdır.

Bu kontekstdə müəllim uyğun tədris metodu müəyyən etmədikdə və çevik yanaşma nümayiş etdirmədikdə ən yaxşı dərs planı belə uğursuz ola bilər. Dərsdə vaxtdan istifadə ilə bağlı aparılan araşdırmalar göstərmişdir ki, zaman öyrənmədə mühüm amil ola bilər və vaxtdan istifadə təkcə müəllimlərə deyil, həm də şagirdlərə lazımdır.

İntizam problemlərinin çoxu dərsə müntəzəm başlamamaqdan qaynaqlansa da, ikinci ən problemli hissə dərsin bitməsidir. Diqqətlə planlaşdırılmış dərsin tamamlanması təcrübəli müəllimlərin bir təcrübədən digərinə uğurla keçə biləcəyi bir üsuldur.

Vaxtdan səmərəli istifadə müəllimin müəyyən bir dərs saatı ərzində şagirdə qazandırmalı olduğu bilik, münasibət və davranışların formalaşmasında mühüm amil kimi meydana çıxır. Daim eyni şeylər üzərində dayanmaq şagirdlər üçün darıxdırıcı olur. Şagirdlərə dərs cansıxıcı olduqda arzuolunmaz davranışlarla məşğul ola bilərlər. Dərsdə şagirdlərin səmərəli iştirakına şərait yaratmaqla müəllim arzuolunmaz davranışların qarşısını almış olar.

Mükəmməl pedaqoji bacarıqlara malik olan müəllimlər şagirdlərini dərsə fəal cəlb edirlər. Pedaqoji ustalığa malik olan müəllimlər şagirdlərin təlim zamanı qarşılaşdıqları problemləri bilən, şagirdlərin suallarına hazır olan, cavablarında heç bir yayınma və qeyri-müəyyənlik olmayan müəllimlərdir. Şagirdlərin səmərəli iştirakını təmin etmək üçün müəllim diqqəti cəlb edən, real həyatla əlaqə yaradaraq mövzunu emal edən müxtəlif tədris üsullarından istifadə edə bilər.

Müəllimin şən və özünə güvənən halı motivasiya, əks obrazlar isə mənfi təsir göstərir. Müəllimin emosional vəziyyəti, sinifdə rahat olub-olmamasından asılı olmayaraq, hər cür qərara təsir edir. Mənfi emosiyalar və reaksiyalar nəticəsində qərar qəbul edən müəllimlərin təsirli qərarlar qəbul edə bildiyini söyləmək çətindir. Bu səbəbdən müəllimlərin problemlərindən qurtularaq sinfə girərək daha təsirli qərarlar qəbul etmələrini və həyata keçirmələrini təmin edə bilər.

Səmərəli müəllim davranışları ilə bağlı praktiki yanaşmanı mənimsəyən səmərəli sinif idarəçisi olacaq müəllimlərin tətbiq etməli olduğu əsas qaydaları aşağıdakı kimi ifadə edir.

Dəqiq olun: sinif problemlərinin əksəriyyəti müəllim dərsə gec gələndə başlayır. Dərsə vaxtında gəlmək şagirdə və dərsə əhəmiyyət verdiyin təəssüratını yaradır.

Yaxşı hazırlaşın: tədris məqsədlərinə nail olmaq üçün dərsə yaxşı hazırlaşmaq vacibdir. Şagird öyrənmək üçün oradadır. Tədris məqsədlərinə nail olmaq sizin dərsə səmərəli hazırlığınızdan asılıdır.

Tez başlayın: dərsə tez və qətiyyətlə, şagirdləri cəlb edəcək üsullarla başlayın.

Bütün sinfin iştirakında israr edin: mövzunu izah etməyə başlamazdan əvvəl bütün sinfin diqqətini cəlb edin.

Səsinizdən səmərəli istifadə edin: səs müəllimin siniflə qarşılıqlı əlaqəsinin ən vacib elementidir. Səsindən səmərəli istifadə edən müəllim şagirdin diqqətini cəlb etməkdə səsindən səmərəli istifadə edə bilməyən müəllimdən daha üstündür.

Müəllim gərək şagirdləri bir-biri ilə müqayisə etməkdən çəkinsin, çünki aşağı nəticə göstərən şagirdlərin tamamilə itirilməsinə səbəb ola bilər.

Vədlərinizə əməl etmək üçün diqqətli olun: vədlərə əməl etməmək sinifdə inamı sarsıda bilər.

Sinif otağını məqsədinizə uyğun təşkil edin: oturacaqların təşkili, alətlərin və avadanlıqların düzgün yerləşdirilməsi yaxşı təşkilatçılıq üçün vacibdir.

Şagirdlərin problemləri ilə məşğul olmaq: şagirdin sinif daxilində və xaricində yaranan problemləri ilə məşğul olmaq şagirdin dərsdə fəal iştirakını artıra bilər.

Beləliklə, müəllimin təlim-təhsil fəaliyyətinin texnoloji əsasında dayanan başlıca prinsip şagirdlərin daha çox biliklərlə "yüklənməsi" deyil, qarşıda duran problemin həlli üçün optimal yollar axtarıb tapmağı onlara öyrətməkdən ibarətdir.

**Problemin aktuallığı.** Müəllim və şagirdlər arasında tez-tez anlaşılmazlıqlar və müəllimlərin öz

siniflərini səmərəli idarə edə bilməməsi nəticəsində bir çox problemlər yaranır. Bu baxımdan sinfin idarə edilməsi, şagird-müəllim münasibətləri cəmiyyətin ən aktual problemlərindən biridir.

**Problemin elmi yeniliyi.** Məqalədə sinfin təşkili və idarə olunmasında müəllim fəaliyyətinin rolu sistemli şəkildə araşdırılaraq öyrənilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə öz əksini tapan müəllimlərin sinif idarəçiliyi ilə bağlı qarşılaşdıqları çətinliklərdən çıxış yolları müzakirə olunduğu üçün gənc müəllimlər üçün praktiki əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**

1. İlyasov, M.İ. Müəllimin pedaqoji ustalığı. -Bakı: Elm və təhsil, -2013.
2. J. Kasin Lemlech. Classroom Management, Longman Press,- Newyork.-1988, -s.3.
3. Ayhan Aydın. Sınıf Yönetimi, Anı Yayıncılık, -Ankara, -1998,- s.16.
4. Nezahat Güçlü. “Öğretmen Davranışları”, Millî Eğitim, 147, 2-000,- s.21
5. Селевко, Г.К. Современные образовательныетехнологии. -М.: «Академия», -1998.

**E-mail:** renaagayeva75@gmail.com
**Rəyçilər:** *ped.ü. fəls.dok.,dos.* **K.S. Məmmədov,**
*ped.ü.fəls.dok.* **L. Hacımuradova**
**Redaksiyaya daxil olub:** 19.01.2022

**UOT 371**

***Xuraman Rəcəb qızı Səlimova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi işçisi*
*https://orcid.org/0000-0002-4963-0375*
*https://doi.org/10.5281/zenodo.6450108*

# TAM ORTA MƏKTƏBLƏRİN TƏMAYÜL SİNİFLƏRİLƏ YANAŞI ADİ SİNİFLƏRİN TƏŞKİLİ

***Хураман Раджаб гызы Салимова***
*Старший научный сотрудник Института Образования Азербайджанской Республики*

# ОРГАНИЗАЦИЯ ОБЫЧНЫХ КЛАССОВ НАРЯДУ С ПРОФИЛЬНЫМИ КЛАССАМИ В ПОЛНЫХ СРЕДНИХ ШКОЛАХ

***Khuraman Rajab Salimova***
*senior researcher at the Institute of Education of the Republic of Azerbaijan*

# ORGANIZATION OF ORDINARY CLASSES NEXT TO PREPARED CLASSES IN FULL SECONDARY SCHOOLS

**Xülasə.** Məqalədə respublikamızın təhsil sistemində aparılan islahatlardan biri olan təmayül siniflər və adi siniflər haqqında danışılmış, bu siniflərin şagirdlər və təhsilimiz üçün əhəmiyyəti təhlil olunmuşdur. Təmayül siniflərin məzunlarının ali məktəbə qəbul nəticələri təhlil edilir. Həmçinin valideyn, məktəb rəhbərlərilə söhbətlər əsasında deyə bilərik ki, tam da olmasa, təmayül siniflərin təşkili repititorluğun qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir. Bu siniflərin məzunlarının ali məktəblərə qəbul göstəricilərində müsbət nailiyyətlər var. Təmayülləşmənin tətbiq edildiyi pilot məktəblərin məzunlarının ali məktəbə qəbul göstəriciləri 70-80, bəzi məktəblərdə 90-100 faizə qədər olması nəzərə çatdırılır.
***Açar sözlər:*** *ümumtəhsil məktəbləri*, lisey, gimnaziya, *təmayül siniflər, adi siniflər, keyfiyyət, tədris proqramları*

**Резюме**. В статье анализируется профильные и обычные классы, что является одной из реформ в системе образования нашей республики, и их значение для учащихся и нашего образования. Анализируются результаты приема в вузы выпускников профильных классов. Основываясь на беседах с родителями и руководителями школ, мы можем сказать, что организация профильных классов важна для предотвращения репетиторства. Выпускники этих классов имеют положительные успехи при поступлении в вузы. Отмечается, что поступление в вузы выпускников пилотных школ, где имеются профильные классы, составляет 70-80 процентов, а в некоторых школах - 90-100 процентов.
**Ключевые слова:** *общеобразовательные школы, лицей, гимназия, профильные классы, обычные классы, качество, учебные программы.*

**Summary:** The article analyzes the tendency classes and ordinary classes, which is one of the reforms in the education system of the republic, and the importance of these classes for students and our education. The results of university admission of graduates of trend classes are analyzed. Also, based on conversations with parents and school leaders, we can say that, at least in part, the organization of trend classes is important in preventing tutoring. Graduates of these classes have positive achievements in university enrollment. It is noted that the enrollment rates of graduates of pilot schools, where the trend is applied, are 70-80 percent, and in some schools – 90-100 percent.
***Key words:*** *secondary schools, lyceums, gymnasiums, trend classes, regular classes, quality, curricula*

Ümumtəhsil məktəblərində (lisey və gimnaziyalardan fərqli olaraq) adi siniflərdə tədris tam orta məktəblərin tədris planına uyğun olaraq aparılır. Burada tədris planı tələbləri əsasında, cədvələ uyğun təlimlər təşkil edilir. Tədris olunan mövzular planauyğun şəkildə formalaşdırılır.

Ümumi orta təhsil səviyyəsindən sonra təhsilin təmayüllər üzrə təşkilinə heç də hər şagird cəlb edilmir. Bu siniflərə təmayül fənni üzrə istedadı olan şagirdlər seçilir. Təmayül sinifləri ilə yanaşı şagirdlərin könüllülüyü əsasında adi (qarışıq) siniflər də olur. Təmayül sinfinə cəlb edilməyən şagirdlər bu siniflərdə təhsil alırlar. İcbari təhsili bitirən şagird 9-cu sinifdən sonra təhsilini davam etdirməkdə sərbəstdir. İstəsə orta ixtisas təhsili müəssisəsi, ya da peşə məktəbini də seçə bilər, həmçinin təhsilini təmayül siniflərində də davam etdirə bilər.

Təmayül sinfi yaratmaq üçün bir məktəbdə heç olmazsa, bir neçə 9-cu sinif olmalıdır ki, onlardan təmayül seçilsin. Bir sinifdə 7-8 nəfər olanda bazada təmayül yaratmaq mümkün olmayacaq. Ona görə də biz belə təklif irəli sürdük ki, yaxın məktəblərin kompakt yerləşdiyi ərazilər üzrə zonalar yaradılsın. Ola bilər ki, bir rayonda yaradılan zona məktəbləri arasındakı məsafə müəyyən ediləcək. Şagirdlərin həmin məktəbə gedib-gəlməsi üçün nəqliyyat xidməti varsa, təmayülləşmə təşkil olunacaq. Məsafə çox olacaqsa, bu da şagird və valideynlərin narahatlığına səbəb olacaqsa, çalışacağıq ki, həmin məktəblərin öz daxilində adi siniflər yaradılsın. Şagirdlər də adi siniflərdə təhsillərini davam etdirsinlər. Qaydalara görə, təmayül sinifləri şagirdlərin sayı ən çoxu 20 nəfər olmaqla komplektləşdirilir.

Qərbi Avropanın tədqiqatçı pedaqoqları ümumtəhsil sistemində təhsilvermənin bir çox modellərindən, o cümlədən aşağıdakı yeni modellərindən (formalarından) də istifadə etməyi məsləhət bilirlər:

1) Seçmə qruplar (selektiv) modeli;
2) Birləşmiş qruplar modeli;
3) “Qarışıq qabiliyyətlər” modeli;
4) İnteqrativ təlim modeli;
5) İnnovasion təlim modeli və s.

Bu modellərdən istifadə tam orta məktəblər üçün çox əlverişlidir. Milli-mənəvi dəyərlərə uyğun olaraq modellərdən birini tətbiq etmək tam orta məktəblərdə ümumi modelləşmədə məqsədə münasiblik yaradır. Adi siniflərdə fənlərə ayrılan həftəlik saatlar bir neçə il dəyişmir, onun tərkibi isə dəyişir, yəni şagirdlər daha yaxşı oxuduqca, daha yüksək səviyyəli siniflərə keçə bilir. Adi siniflərdə şagirdlərə müəllimlərdən məsləhət almağa və əlavə məşğələ keçməyə icazə verilir.

Modellərin xarakterik cəhətləri vardır. Bu fənlər üzrə tədris materialının öyrənilməsi uzunmüddətli olmur. Siniflərdə təlimin metodları və yolları müəllim tərəfindən seçilir. Şagirdlərin siniflərdə birləşdirilməsinin tənzimlənməsi qabiliyyətləri maksimum dərəcədə yaxın olanların müəyyənləşdirilməsi prinsipi ilə aparılır. Bilik və bacarıq səviyyəsinə görə qiymətləndirilərək şagirdlərin siniflərdə qruplaşdırılması dövründən sonra seçmədə buraxılan nöqsanları aradan qaldırmaq üçün üfüqi yerdəyişmələr aparmağa yol verilir.

Şagirdlərə qazandığı nailiyyətlərə görə daha yüksək səviyyəli qrupa keçmək üçün ildə üç dəfə imkan verilir. Şagirdlərin ayrı-ayrı fənlər üzrə səviyyəsinin müəyyənləşdirilməsini və “qarışıq” qruplarda onların idarəedilməsini məsləhətçi həyata keçirir. Şagird başqa səviyyəli qrupa keçmək istədikdə, məsləhətçi fənn müəlliminə bu barədə xəbər verir. Bu modeldən bir çox Avropa ölkələrində istifadə edilir. Məktəbdə birinci yarımildə şagirdlər “qarışıq” qruplarda oxuyur, yoxlamadan keçdikdən sonra “eyni qabiliyyətli” müxtəlif qruplarda təhsilini davam etdirirlər. Belə modeldə bütün fənlərin öyrənilməsi sonadək “qarışıq qabiliyyətlilər” qruplarında aparılır. Bəzi fənlərin (riyaziyyat, xarici dillər, təbiət fənləri) tədris materialı müxtəlif müddətlərdə öyrədilir.

Siniflərdə bütün şagirdlər baza təhsil planları və proqramları əsasında təhsil alırlar. Baza tədris kurslarının öyrənilməsi başa çatdıqda şagirdlərin bilikləri diaqnostik testlərlə yoxlanılır. Baza proqramlarını yaxşı mənimsəyən şagirdlərə əlavə materialları da öyrənməyi təklif edirlər. Baza kurslarını mənimsəyə bilməyənlərə kurs materialını təkrar etmək, bir qədər korrektəedilmiş material və tapşırıqların öyrənilməsi təklif olunur. Qısa müddətdə təkraretmə qurtardıqdan sonra şagirdlərin hamısı birlikdə yeni bölmənin materialını öyrənir. Siniflərdə bütün şagirdlər baza təhsil planları və proqramlar əsasında təhsil alır. Tədris kurslarının öyrənilməsi başa çat-

dıqda şagirdlərin bilikləri diaqnostik testlərlə yoxlanılır. Proqramları yaxşı mənimsəyən şagirdlərə əlavə materiallar öyrənmək təklif edilir. Bu kursları mənimsəyə bilməyənlərə kurs materialını təkrar etmək, bir qədər korrektəedilmiş material və tapşırıqların da öyrənilməsi təklif olunur. Qısa müddətdə, təkraretmə qurtardıqdan sonra şagirdlərin hamısı birlikdə yeni bölmənin materialını öyrənirlər. Burada əlavə tapşırıq alan və kurs materiallarını təkrar edən şagirdlər qruplara ayrılmır, eyni sinifdə fəaliyyət göstərirlər.

Təmayül siniflərində şagirdlərə daha keyfiyyətli təhsil almaq imkanı yaradılır. Bu siniflər üçün xüsusi tədris planı və proqramları tərtib edilir. Həmin tədris planı, təmayüldən asılı olaraq, 8-10 fəndən ibarətdir. Şagirdlərin seçdiyi təmayül fənlərlə yanaşı, fiziki hazırlıq, çağırışaqədərki hazırlığı, xarici dil, informatika kimi fənlər ölkə komponenti kimi nəzərdə tutulmaqla tədris edilir. Lakin təmayül fənləri üzrə dərs saatları daha çox olur. Məsələn, adi siniflərdə riyaziyyat fənni həftədə 4-5 saat keçilirsə, təmayül üzrə siniflərdə 8-9 saat tədris olunur. Şagirdlər meyl və maraq göstərdikləri sahə ilə daha çox məşğul olurlar. Bu da onların ali məktəbə hazırlaşmalarına, ümumiyyətlə, repetitor hazırlığının qismən aradan qaldırılmasına təsir edir.

Həm şagirdlər, həm də məktəb rəhbərlərindən aldığımız məlumatlara görə, tam olmasa da təmayül siniflərinin təşkili repetitorluğun müəyyən mənada aradan qaldırılmasına təsir göstərir. Lakin təmayül sinifləri yaradılandan sonra bunun tamamilə repetitorluq fəaliyyətinə son qoyacağına hökm verə bilmərik. Şəxsi düşüncələr belədir ki, şagirdin bildiyindən artıq öyrənmək ehtiyacına mane olmaq düzgün deyil. Şagirdin tədris proqramından artıq öyrənmək istəyinin qarşısını almaq olmaz.

Bu yeniliyin bəzi məktəblərdə X-XI siniflərin ləğv edilməsinə səbəb olması barədə fikirlər var. Rayonlarda təhsil şöbələrində söhbətlər aparılır. Hesab edirik ki, bu məlumatların yayılması ümumi prosesin başa düşülməməsindən irəli gəlir. Bu fikirlərin yayılması, ola bilər məktəblərin özündən, ya da kənar şəxslərdən qaynaqlanır. Lakin bunun heç bir elmi əsası yoxdur. Bunu dəfələrlə dilə gətirənlər də var. Nazirliyə bu barədə məlumatlar daxil olduqca açıqlama verilir. Yerlərdə bəzən izahat prosesində müəyyən yanlışlığa yol verilir. Hər bir proses şagirdin mənafeyinə yönəldilir. Hər bir şagirdin təhsil almaq hüququ vardır, onların bu hüququnun təminatını da Təhsil Nazirliyi həyata keçirir. Ümumi orta təhsil səviyyəsindən sonra təhsilin təmayüllər üzrə təşkilinə hər şagird cəlb edilməyəcək. Bu siniflərdə şagirdlər könüllülük əsasında adi siniflərdə təhsillərinə davam edəcəklər. Bu şagirdlər təhsilini təmayül siniflərində də davam etdirə bilərlər.

Adi siniflər anlayışının mahiyyəti odur ki, iki və daha artıq sinfin tərkibindən olan şagirdləri bir müəllimin rəhbərliyi altında bir sinfə yerləşdirildikdə adi sinif yaranır. Müəllim və inzibatçılar adi siniflərə təyin ediləcək şagirdləri diqqətlə seçirlər. Onlar şagirdin akademik müvəffəqiyyətini, məsuliyyətli və müstəqil işləmək bacarığını, eləcə də uşağın digər şagirdlərlə birlikdə işləmə qabiliyyətini nəzərdən keçirirlər. Bu tip məktəblərin fəaliyyət göstərməsinin bir sıra səbəbləri var. Ümumi səbəblərdən biri maliyyələşmə və ya azalan şagird qrupları ilə bağlı narahatlıqlardır. Bir məktəb bir bölgədəki şagirdlərə bu tip məktəblərdən ayrı müəssisələrə nisbətən daha yaxşı xidmət göstərə bilir. Bir şagird kollektivi kiçik olduqda şagirdlər birləşmiş məktəbdə mövcud olan digər şagirdlərlə birlikdə təhsil alırlar. Bu tip məktəblərin yanaşması cəmiyyətin demoqrafik göstəricilərindən və yerləşdiyi bölgənin ən yaxşı məktəbi hesab etdiyi seçimdən asılıdır.

Azərbaycan Respublikasında ümumtəhsil məktəblərində ərazi üzrə yerləşmə məsafələrinin uzaqlığı nəzərə alınaraq və şagirdlərin say azlığına uyğun adi siniflərin çoxluğu üstünlük təşkil edir. Bu baxımdan təmayül sinifləri ilə yanaşı, adi siniflər də fəaliyyət göstərir. Təmayülləşmənin kütləviliyi o demək deyil ki, bu proses bütün ölkədə tətbiq edilir. Müəyyən olunmuş tələblərə cavab verə bilməyənlər təmayüllü siniflərlə yanaşı təşkil edilən adi siniflərdə təhsilini davam etdirir. Hamının təhsil hüququnun qorunması məqsədi ilə təmayülləşməyən siniflər də təşkil olunur. Əsas məqsəd bundan ibarətdir ki, təhsilini davam etdirmək istəyənlərin hamısı təhsillə əhatə oluna bilər. IX siniflərin 40 faizdən çoxu təmayül siniflərinə qəbul edilir. Araşdırmalar və təhlillər aparılaraq rayon və şəhərlərdə hər bir məktəbin imkanları, yol infrastrukturu, maddi-tədris bazası, kadr potensialı nəzərdən keçirilir. Könüllülük əsasında ümumtəhsil məktəblərinin

adi siniflərində, yaxud ilk peşə və orta ixtisas təhsili müəssisələrində təhsilini davam etdirmək istəyən şagirdlər haqqında məlumatlar toplanılır. Təhlil və araşdırmalardan sonra rayon və şəhərlərimizdə olan uşaq sayına görə təşkil ediləbiləcək siniflərin siyahısı tərtib edilir. Nəzərdə tutulduğu kimi, IX sinfi bitirən məzunların tədrisə cəlb olunması mütəşəkkil şəkildə yerinə yetirilir.

Beləliklə, ölkədə yenidən sınaqdan çıxarılsa da, əslində, özünü çoxdan doğruldan təmayülləşməyə böyük ümidlər var. Aztəminatlı, repetitor hazırlığına gücü çatmayacağını düşünən valideynlər bu yeniliyin tətbiqinə həvəslə dəstək verir, prosesi maraqla izləyirlər. Araşdırmalar və təhlillər göstərir ki, valideynlər, eləcə də təhsil ictimaiyyəti bütün ölkə ərazisində tətbiqi genişləndirilən təmayülləşmənin və adi siniflərdə tədrisin müsbət nəticə verəcəyinə inanır.

**Problemin aktuallığı.** Bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, indiyədək XI sinif məzunlarının ali məktəbə qəbul nəticələri təhlil edilərək müəyyən məsələlər aydınlaşdırılmışdır. Valideyn, məktəb rəhbərlərilə söhbətlər əsasında deyə bilərik ki, tam da olmasa, təmayül siniflərin təşkili repetitorluğun qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir. Əlbəttə, zaman keçdikcə bunun təsiri daha çox ola bilər.

**Problemin elmi yeniliyi.** Həm şagirdlər, həm də məktəb rəhbərlərindən aldığımız məlumatlara görə, tam olmasa da, təmayül siniflərinin təşkili repetitorluğun müəyyən mənada aradan qaldırılmasına təsir göstərir. Lakin təmayül yaradılan kimi bunun tamamilə repetitorluğa son qoyacağına hökm vermək olmaz. Şəxsi düşüncəm belədir ki, şagirdin bildiyindən artıq öyrənmək ehtiyacına heç kim mane ola bilməz. Şagirdin tədris proqramından artıq öyrənmək istəyinin qarşısını ala bilmərik.

**Problemin praktik əhəmiyyəti.** Ən azından təmayül siniflər ali məktəbə hazırlıq üçün alternativ bir imkan yaradır. Hər bir şagird dərsdən sonra əlavə olaraq istər repetitor, istərsə də internet vasitəsilə biliyini artıra bilər. Bizim əsas məqsədimiz odur ki, şagird məktəbdəki dərsin hesabına başqa yerə getməsin. Biz şagirdin dərs saatında məktəbə gəlməməsinə qarşı mübarizə aparırıq. Şagird nə qədər istəsə əlavə məlumat əldə edə bilər.

**Ədəbiyyat:**

1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. -Bakı, -2009.
2. “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
3. M.İ. İlyasov Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil, 2018.
4. “Ümumi təhsil müəssisələrinin növlər üzrə meyarları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.

**E-mail**: xuraman.salimova@mail.ru
**Rəyçilər:** *ped.ü. fəls.dok.* **M.S. Kazımov,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 19.01.2022

## *ŞAGİRDLƏRİN TƏDQİQATÇILIQ FƏALİYYƏTİ*

**UOT 372.834**

***Zərinə Hikmət qızı Nağızadə***
*İmişli rayonu, N. Gəncəvi adına 2-li tam orta məktəbin kimya müəllimi,*
*Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0000-0003-4543-5166*
*https://doi.org/10.5281/zenodo.6450118*

# TƏLİM PROSESİNDƏ ŞAGİRDLƏRİN TƏDQİQATÇILIQ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİNİN İMKAN VƏ YOLLARI

***Зарина Хикмет гызы Нагизаде***
*учитель химии полной средней школы №2 им. Н. Гянджеви Имишлинского района,*
*докторант по программе доктора философии Бакинского Государственного Университета*

# ВОЗМОЖНОСТИ И ПУТИ РАЗВИТИЯ ИССЛЕДОВАТЕЛЬСКИХ УМЕНИЙ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***Zarina Hikmet Naghizadeh***
*chemistry teacher of complete secondary school No. 2 named after N. Ganjav of Imishli region,*
*doctorial student in the proqram of doctor of philosophy*

# OPPORTUNITIES AND WAYS TO DEVELOP RESEARCH ABILITIES OF STUDENTS IN THE PROCESS OF LEARNING

**Xülasə.** Şagirdlərin tədqiqatçılıq bacarığını inkişafı, ilk olaraq, təlim fəaliyyətində təşəkkül tapır. Tədqiqatçılıq qabiliyyətinin formalaşması və inkişafı üçün tədris prosesi zamanı təqdimat, kublaşdırma, karusel, ziqzaq, debat, diskussiya, müxtəlif təlim üsulları və vasitələrdən istifadə olunur. Bu prosesin effektiv nəticələnməsi üçün sadəcə məktəbdə deyil, dərsdənkənar və məktəbdənkənar təşkil olunan dərnək və ya seminarlarda da şagirdlərin iştirakına şərait yaratmaq, onları daim diqqətdə saxlamaq lazımdır. Yalnız bu halda tədqiqatçı şagirdlərin bacarıq və vərdişlərinin təkmilləşdirilməsi, düzgün yöndə inkişafı təlimdə çox böyük uğurlara zəmin yarada bilər.
***Açar sözlər:*** *tədqiqat, təlim üsulu, eksperiment, kəşf, bilik*

**Резюме.** Развитие исследовательских умений учащихся в первую очередь формируется в учебной деятельности. Презентации, различные методы и средства обучения, такие как куб, карусель, зигзаг, дебаты, дискуссии, используются в процессе обучения для формирования и развития исследовательских умений. С целью эффективности этого процесса, необходимо создать учащимся условия для участия во внешкольных и внеклассных мероприятиях или кружках, держать их в постоянном центре внимания. Только в этом случае совершенствование учений и навыков учеников-исследователей, развитие их в правильном направлении может создать основу для больших успехов в обучении.
***Ключевые слова***: *исследовательская работа, метод обучения, эксперимент, изобретение, знание*

**Summary.** The development of students' research skills is primarily formed in learning activities. Presentation, cubing, carousel, zigzag, debate, discussion, various teaching methods and tools are used during the teaching process to form and develop research skills. For this process to be effective, it is necessary to create conditions for the participation of students not only in school, but also in extracurricular and extracurricular activities or clubs, and to keep them in constant focus. Only in this case, the improvement of the skills and habits of the research students, the development in the right direction can create the basis for great success in training.
***Key words***: *research, training method, experiment, discovery, knowledge*

Yaşadığımız dövr kompüter, texnika və texnologiyalar dövrüdür. İnformasiya və kommunikasiya texnologiyalarının, innovasiyaların tətbiqi və getdikcə inkişafı bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də özünü göstərir və ciddi dəyişikliklərin yaranmasına səbəb olur. Bu dəyişikliklər özünü ümumi orta təhsilin məzmununda, təşkilində, strukturunda, müəllimin pedaqoji fəaliyyətində, təlim prosesində, şagirdlərin bilik qazanmasında aydın görünür ki, bütün bunlar da dövrün tələbinə uyğun olaraq səmərəliliyin və keyfiyyətin olmasını tələb edir.

Bu gün müasir təlim texnologiyaları, fəal təlim metodları, İnteraktiv təlim metodları tələb edir ki, məktəbimiz beynəlxalq standartlara uyğun olsun, təhsil sistemimiz dünya təhsilinə inteqrasiya olunsun, qloballaşma dövründə elmin və texnikanın ən yeni, son nailiyyətləri yetişən gənc nəslimizin daimi istifadəsində olsun, məktəbi bitirən hər bir məzun yüksək intellektə, tədqiqatçılıq bacarığına yiyələnsin

Müstəqil və yaradıcı gənclər, layiqli vətəndaşlar, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirib, tərbiyə etmək ümumtəhsil məktəblərin qarşısında duran ən vacib vəzifələrdən biridir. Çünki cəmiyyətin aparıcı qüvvələri məhz onlar sayılır. Bugünkü məktəbli dünənkindən, sabahkı isə bugünkündən daha bilikli, daha hazırlıqlı olmalıdır.

Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır.

Bu cəhətdən bu gün yetişən gənc nəslimiz dərin və hərtərəfli biliklərlə silahlanmalı, onları hələ məktəb partası arxasından tədqiqatçılığa, yaradıcılığa, istiqamətləndirməli, məntiqi və tənqidi təfəkkürə alışdırmalıyıq.

Bu cəhətdən məktəblilərin müstəqil bilik qazanması, nəyi haradan axtarıb tapmağı bacarması, öyrənməyi öyrənməsi – bir sözlə, tədqiqatçılıq bacarıqlarına yiyələnməsi xüsusilə böyük aktuallıq kəsb edir.

Azərbaycan Respublikası təhsil nazirinin 27 iyun 2014-cü il tarixli, 752 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə"də deyilir: "Bu gün ənənəvi iqtisadiyyatdan "bilik" iqtisadiyyatına keçidin baş verdiyi şəraitdə mütəxəssislərin yaradıcılıq qabiliyyətinin yüksəldilməsi və intellektual səviyyəsinin formalaşdırılmasına yönəldilmiş təhsil texnologiyalarından istifadə edilməsi daha vacibdir. Bu sahədə həyata keçirilən iş yaradıcılıq fəaliyyəti konsepsiyasına söykənən pedaqoji texnologiyalar əsasında qurulmalıdır" (1).

Son dövrlərdə nəşr edilmiş Pedaqogika dərslik və dərs vəsaitlərində şagirdlərin tədqiqatçılıq bacarıqlarının, yaradıcı fəaliyyətinin inkişaf etdirilməsinə xüsusi diqqət verilmiş, bu barədə görkəmli pedaqoq alimlərimiz – prof. A.N. Abbasov (2), prof. İ.H. Cəbrayılov (3), prof. H.H. Əhmədov (4), prof. L.N. Qasımova (5), prof. R.L. Hüseynzadə (6) əsərlərində dəyərli fikirlər söyləmişlər.

Şagirdlərin tədqiqatçılıq və yaradıcılıq qabiliyyəti, hər şeydən öncə, təlim prosesində təşəkkül tapır. Bu proses nə qədər məqsədəuyğun, sistemli qurularsa, şagirdin bacarığı, istedadı, tədqiqatçılıq qabiliyyəti də bir o qədər tez özünü büruzə verər və sürətlə inkişaf edər. Deməli, hər bir şagirdin daxili dünyası ilə ilk olaraq müəllim tanış olmalıdır. O, şagirdin həm tədqiqatçılıq bacarığını düzgün müəyyənləşdirməli, həm də ona fərdi yanaşaraq bu qabiliyyətinin inkişafında düzgün istiqamət verməklə yardım göstərməlidir. Səriştəli və pedaqoji ustalığa malik müəllim şagirdin düşüncə tərzində, elmi işə marağında böyük dönüş yarada bilər.

Tədris prosesində şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsinin müxtəlif yolları və üsulları vardır. Tədqiqat xarakteri daşıyan tapşırıqları müxtəlif təlim üsullarının köməyi ilə vermək olar. Təcrübələrə əsasən belə qənaətə gəlinib ki, bu məqsədlə dərsdə interaktiv təlim metodlarından istifadə etməklə effektiv və uğurlu nəticələrə nail olunur. Lakin onlardan istifadə edərkən tədris olunan fənnin xüsusiyyətləri, cari mövzu və məqsədəuyğunluq, şagirdlərin yaş və fərdi xüsusiyyətləri də nəzərə alınmalıdır. Müzakirə, söz assosiasiyaları, debatlar, BİBÖ cədvəli, karusel, ziqzaq, İNSERT, Venn diaqramı, klaster, anlayışların çıxarılması, diskussiyaların təşkili və digər təlim üsulları gündəlik planlaşdırılmada mövzuya və məqsədə uyğun şəkildə istifadə edilməlidir.

Bəhs edilən intearktiv təlim metodlarından və müxtəlif iş formalarından istifadə etməklə fəal təlim şəraiti yaradılır ki, bu zaman şagirdlər tədqiqat aparmağa motivasiya olunur. Hər hansı bir yoldan, metoddan istifadə edərək şagirdləri

tədqiqat işinə cəlb etməyə, ilk növbədə, müəllimin özü böyük həvəs göstərməlidir. O, mütləq tədqiqatçı olmalıdır. Müəllim təlim materialını öncə özü saf-çürük edir, yəni dolaşıq və mübahisəli ola biləcək məsələləri aydınlaşdırır, daha sonra şagirdlərə düzgün araşdırma variantlarını öyrədir. Şagirdlər isə müəllimdən fərqli olaraq, tədqiq olunmuş məlumatları tədqiq edir – təlim materialında yeni məlumatlar üzərində düşünür, axtarış aparır, əlverişli olan variantı seçir, öyrənilənləri şüurlu mənimsəyir.

Məlumdur ki, müasir dərslərin təşkili elə qurulur ki, müəllim biliyi ötürən rolunda deyil, biliyin əldə olunmasına şagirdləri istiqamətləndirən, yəni bələdçi (fasilitator) kimi çıxış edir. O, problemli vəziyyətləri istiqamətlənmiş və planlı surətdə təşkil edir, şagirdlərin qarşısına tədqiqat tələb edən məsələlərin meydana çıxmağına şərait yaradır, onların həllində metodiki köməklik göstərir. Şagirdin mövqeyi isə – "tədqiqatçı", "kəşf edən" mövqeyidir; o, problemlə üzləşərkən, onların müstəqil tədqiqat prosesində həllinə çalışır.

Şagirdlər tədqiqatın mərhələlərini tədricən və ardıcıllıqla mənimsəməlidirlər. Onlar dəqiq bilməlidirlər ki, ilkin mərhələdə müxtəlif mənbələrdən materiallar toplamaq, sonrakı mərhələdə toplanılan materialları ümumiləşdirərək qruplaşdırmaq, nəhayət, üçüncü mərhələdə müəyyən nəticəyə gəlmək lazımdır. Onlar mövzu haqqında nəzəri biliyi şəxsi tədqiqatlarının nəticəsi olaraq əldə edirlər. Məsələn, təlim prosesində "Karusel" üsulundan istifadə edərkən şagirdlər saylarından asılı olaraq dörd və ya beş qrupa bölünür. Hər qrupa müxtəlif rəngli markerlər və tapşırıq verilmiş iş vərəqləri paylanır. Şagirdlər problemin həll yollarına dair axtarışa çıxırlar, əldə olunmuş nəticələri isə öz markerləri ilə işçi vərəqlərində qeyd edir, daha sonra isə onun müəllimə və bütün sinfə təqdimatını həyata keçirirlər. Qrupların təqdimatları bitdikdən sonra həmin tədqiqatların nəticələri arasında məntiqi rabitə yaradılır, qeyd olunmuş məlumatlar sistemləşdirilir və ümumiləşdirilərək təsnif olunur. Son olaraq bu yekunlarla tədqiqat prosesinin başlanğıcında şagirdlərin (qrupların) irəli sürdükləri ilkin fərziyyələr arasında müqayisələr aparılır. Tədqiqatçılar hansı informasiyaların üst-üstə düşdüyünü, hansıların isə yeni məlumat olduğunu müşahidə edərək yekun nəticəyə gəlirlər.

Göründüyü kimi, dərsdə əvvəlcə motivasiya yaratmaq məqsədilə öyrəniləcək mövzuya dair şagirdlərin qarşısına problem qoyulur. Motivasiya (təhriketmə) şagirdlərin təlim-dərketmə marağını və fəallığını problemin həllinə doğru canlı, istəkli şəkildə istiqamətləndirir. Digər tərəfdən isə tədqiqat sualını da ortaya qoymaq üçün şərait yaradır. Məhz tədqiqat sualı şagirdlərə öz ilkin fərziyyələrini irəli sürməyə, tədqiqat işini məqsədəuyğun şəkildə təşkil etməyə imkan verir. Əgər şagird öz fəaliyyətinə və istəyinə əsasən yeni biliklər kəşf edirsə, bu halda o, həm dərsə daha maraqla və yaradıcı yanaşır, həm də əldə etdiyi biliklər uzunmüddətli, möhkəm mənimsənmiş olur.

Dərsin "Tədqiqatın aparılması" mərhələsində diskussiyanın təşkil edilməsi bütün sinfi tədqiqatçılığa cəlb etmək üçün çox idealdır. Böyük və ya kiçik qruplar şəklində müəyyən bir problem üzərində müzakirələrin aparılması, müxtəlif fərziyyələrin səsləndirilməsi həm şagirdlərin araşdırma nəticələrini bir-biri ilə bölüşməsinə şərait yaradır, həm də onlarda qarşılıqlı ünsiyyəti, dinləmə mədəniyyətini formalaşdırır.

Şagirdin tədqiqatçılıq fəaliyyətinin göstəricisi təqdimat sayıla bilər. Bu üsul imkan yaradır ki, şagirdlər tədqiqatın nəticələrini müxtəlif yollardan istifadə edərək təqdim edə bilsinlər, öz fikirlərini dəqiq və dolğun ifadə etmək, yekun nəticə çıxarmaq bacarığına yiyələnsinlər. Şagirdlər təqdimatın hansı formada keçirilməsi barədə qaydalara öncədən yiyələnirlər. Müəllim bu barədə və təqdimatın növü haqqında şagirdləri təlimatlandırmalıdır. Təlimata əsasən işləyən şagird vaxtını səmərəli idarə etməyə, fikirlərini yığcam və dəqiq şəkildə ifadə etməyə hazır olur, təqdimatı zamanı onu şərhləndirməyi bacarır.

Təqdimat qrup və ya fərdi şəkildə həyata keçirilə bilər. Təqdimata hazırlaşan şagirdlər qrup halında işləyərkən həm ünsiyyət mədəniyyətinə yiyələnir, həm də fikirlərini bölüşməyi bacarır. Belə olduğu halda isə onları hazırladıqları təqdimatın dəqiqlik dərəcəsi yüksək olur, tərtibatının mükəmməlliyi isə diqqəti cəlb edir.

Təqdimat müzakirə olunur, qiymətləndirilməsi meyar cədvəli əsasında həyata keçirilir.

*Kublaşdırma* metodu geniş istifadə olunan tədqiqat metodlarından olub mövzunu hərtərəfli öyrənmək üçün şərait yaradır. Şagird diqqətini mövzunu təsvir etməyə, müqayisəyə, əlaqələn-

dirməyə, təhlil və tətbiqə, mübahisəyə yönəldir. Bu prosesdə şagirdin tədqiqatçılıq qabiliyyəti, tənqidi, məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirilir, mövzuya müxtəlif prizmadan baxışı, özünü və yoldaşlarını qiymətləndirmə bacarığı, eləcə də əməkdaşlıq vərdişləri formalaşır. Bu metod müəllimi mövzunu və vəziyyəti ətraflı tədqiq etmək üçün imkanla təmin edir, şərait yaradır ki, şagirdlər mürəkkəb araşdırmalara inteqrativ yanaşsınlar. Mərhələlər aşağıda verilən ardıcıllıqla həyata keçirilir:

1) Kub düzəldilir; 2) Kubun hər bir üzünə verilmiş altı göstərişdən biri qeyd olunur; 3) Tədqiqat aparılacaq mövzu müəyyən edilir; 4) Sinif şagirdləri 6 qrupa bölünür, hər qrupa bir göstəriş verilir;5) Şagirdlər təlimatlandırılır; 6) Şagirdlər təsvir, əlaqələndirmə, təhlil, müqayisə, tətbiq, mübahisə edirlər; 7) Təqdimat olunur; 8) Ümumiləşdirmə aparıb yekun nəticə çıxarırlar; 9) Yekun lövhədən asılır.

Nisbətən iri həcmli mövzuların mətni üzərində tədqiqat işini *ziqzaq* üsulu ilə aparmaq vaxtdan səmərəli istifadəyə şərait yaradır, əməkdaşlıq vərdişlərini inkişaf etdirir. Tədqiq olunacaq mətn hissələrə bölünür və nömrələnir. Şagirdlər də qruplara bölünərək 1-dən 4-ə qədər sayırlar və hər biri müvafiq nömrə ilə işarələnir. Daha sonra eyni nömrəyə sahib şagirdlər (ekspertlər) bir parta ətrafında toplaşıb yeni qrup əmələ gətirirlər. Hər qrup hissələrə bölünmüş mətnin bir hissəsini oxuyub tapşırıqları yerinə yetirir. İş başa çatdıqdan sonra ikinci mərhələ başlanır. İkinci mərhələdə ekspertlər əvvəlki qruplarına qayıdır və ekspert olaraq əldə etdikləri informasiyanı qrupun digər üzvləri ilə bölüşərək mətn üzərindəki işi bütövləşdirirlər.

Müxtəlif mövzuların sərbəst şəkildə tədqiq edilməsində layihələrin hazırlanması mühüm rol oynayır. Şagirdlər öz layihələrini sinfə təqdim etməzdən əvvəl onun üzərində uzun müddət işləyirlər. Layihələr şagirdlərdə tədqiqat vərdişlərinin, habelə biliklərə müstəqil olaraq yiyələnmə bacarıqlarının formalaşmasına, onların öz fəaliyyət proqramlarını qurmasına, öz vaxtını və iş qrafikini planlaşdırmağa kömək edir. Bu üsuldan istifadə şagirdləri əlavə ədəbiyyatlardan istifadə etməsinə istiqamətləndirir, onların məktəbdən kənarda da müxtəlif adamlarla, eləcə də bir-birilə qarşılıqlı əlaqədə olmaları üçün şərait yaradır və hadisələrin müəyyən aspektini daha da dərindən anlamaq imkanı verir. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və sona çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, məlumat mənbələri, təsviri vasitələri və s.), internet resurslarını və bunları əldə etmək yollarını, şagirdlərin iş formalarını (fərdi, cütlərlə iş və yaxud qrup şəklində) müəyyən edirlər.

Layihə hazırlayarkən müəllim problemi və yaxud mövzunu müəyyən edir və şagirdlərə bunlardan birini seçmək imkanı verir. Problemi, həmçinin "Əqli hücum" üsulu ilə də şagirdlərin fikrinə əsasən seçmək mümkündür. Tədqiqat işinin məhsuldar olması üçün seçilmiş problem konkret olmalıdır. İş prosesinin gedişi zamanı müəllim yol göstərə və ya suallara cavab verə bilər. İşin icrasında isə şagirdlər özü məsuldur.

Tədqiqatın nəticəsi hesabat, cədvəllər, qrafiklər, xəritə, illüstrasiya, fotoşəkillər formasında nümayiş oluna bilər. Pedaqoji fəaliyyət göstərdiyim məktəbdə kimya fənnini tədris etdiyim zaman şagirdlərdə praktik cəhətdən tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasında kimya eksperimentinin əhəmiyyətli rolunu da vurğulamaq istəyirəm. Şagirdlər kimyəvi eksperimentləri yerinə yetirərkən daha çox idraki fəaliyyət göstərərək müasir təhsil sistemi üçün xarakterik olan bacarıq və vərdişlərə yiyələnmiş olurlar. Onların tənqid, yaradıcı və məntiqi təfəkkürləri inkişaf edir, mənimsənilməsi nəzərdə tutulan təlim materialını da şüurlu surətdə öyrənirlər. Təsadüfi deyil ki, kimya fənn kurikulumunun məzmun xətlərindən birini "Eksperiment və modelləşdirmə" təşkil edir. Həmin məzmun xətti üzrə verilmiş standartların reallaşdırılması zamanı dərslikdəki müvafiq praktik işlər və laboratoriya təcrübələri yerinə yetirilir.

**Problemin aktuallığı.** Kimya fənninin tədrisində fəal və interaktiv metodlardan istifadə etməklə bərabər, müxtəlif kimyəvi təcrübələrin, layihələrin aparılması şagirdlərin yaradıcılıq və tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsində mühüm əhəmiyyətə malik olub, aktuallıq kəsb edir. Belə ki, təcrübələrin təşkili və aparılması zamanı istifadə olunan maddələrin kimyəvi və fiziki xassələri şagirdlər tərəfindən tez mənimsənilməklə yanaşı, reaktiv və avadanlıqlar ilə davranmaq, müstəqil işləmək, müşahidə etmək, tədqiqatçılıq və nəticə çıxarmaq kimi qabiliyyətlər formalaşır və inkişaf edir.

**Problemin elmi yeniliyi.** Kimya fənnindən aparılan təcrübələrdən dərslərdə sistemli olaraq isti-

fadə edilməsi bu təcrübələrin özünəməxsus informativ (məlumatlandırıcı), evristik, korrektədici (düzəldici, redaktədici), dünyagörüş, ümumiləşdirici kimi funksiyaları olması ilə bərabər, həm də şagirdlərdə tədqiqatçılıq funksiyasının da həyata keçirilməsi üçün əlverişli zəmin yaradır. Şagirdlərin tədqi-qatçılıq funksiyasının yerinə yetirilməsi- maddələrin analizi və sintezi, onların ümumi xassələrinə aid biliklərin axtarışı, kimyəvi reaksiyaların əlamətlərinin tədqiqi, cihaz, avadanlıq və qurğuların hazırlanması, başqa sözlə, elmi-tədqiqatla əlaqəli bütün prosesin sadə üsullarla qavranılması şagirdlərin tədqiqatçılıq bacarığını inkişaf etdirir. Tədris prosesi zamanı fənlərarası əlaqə yaratmaq da şagirdlərin tədqiqatçılıq qabiliyyətinə ciddi təsir göstərir. Belə ki, bu tədqiqatın gedişatında fənlərarası əlaqəyə əsaslanmaq tədqiqatçılıq bacarıqlarını ya eyni anda bir neçə tədris fənni istiqamətində inkişaf etdirər, ya da hər bir şagird hansı fənnin əsaslarına dərindən yiyələnmək istədiyini kəşf edərək, özünü hansı fənn sahəsində daha yüksək səviyyədə təsdiq edə biləcəyini anlayar. Məsələn, kimya fənninin müxtəlif mövzularının tədrisi zamanı fizika, riyaziyyat, biologiya, tarix, coğrafiya kimi fənlərə inteqrasiya etmək ehtiyacı yaranır. Bu, şagirdlərin məlumatlı olduqları anlayışları yenidən araşdırıb vaxt itkisinə yol verməmələri üçün nəzərdə tutulur. Beləliklə, təkraretmə, yadasalma zamanı şagirdin inteqrasiya olunmuş fənlə əlaqəli bacarıqları, maraq dərəcəsi ortaya çıxır.

Dərs prosesində şagirdin hansı fənn üzrə xüsusi istedada, tədqiqatçılıq qabiliyyətinə malik olduğunu müəyyən etdikdən sonra onları sinifdənxaric təşkil olunan tədbirlərə də cəlb etmək lazımdır. Belə tədbirlərin əsasında dərnəklər, müxtəlif yazı və oxu müsabiqələri dayanır. Ümumiyyətlə, ümumtəhsil məktəblərində tədris olunan fənlər üzrə dərnəklərin də olması istedadlı şagirdlər üçün çox vacibdir. Bu, fənlərin tədrisindəki tədqiqatçılıq imkanlarına geniş imkanlar açır. İstedadlı şagirdləri təkcə müxtəlif fənn müəllimlərinin ayrı- ayrılıqda kəşf etməsi kifayət deyil, digər tərəfdən qırx beş dəqiqəlik dərs müddəti özü də tədqiqatçı müəllim və şagirdlər üçün məhdud zamandır. Tədqiqatçı və xüsusi istedadlı şagirdləri müxtəlif dərnəklərdə, şagird elmi cəmiyyətlərində, disputlarda birləşdirməli və onların qabiliyyətləri orada daha da inkişaf etdirilməlidir. Şagirdlərdə yaradıcı-tənqidi təfəkkürün, tədqiqatçılıq qabiliyyətinin düzgün yöndə inkişafı onların gələcək təhsil və ya iş həyatını böyük uğurlara aparıb çıxarda bilər. Ancaq bir faktoru nəzərdə saxlamaq lazımdır ki, kollektivdəki şagirdlərin hamısını araşdırma işinə, tədqiqatçılığa cəlb etmək və ya məcbur etmək düzgün qərar deyil. Tədqiqatçı şagird tam müstəqil olmalıdır – axtarışa müstəqil surətdə qoşulmalı, öz düşüncələrini sərbəst ifadə etməli, fikirlərinin səhv olacağından çəkinməməlidir. Çünki təlim prosesindəki bu müstəqillik şagirdin gələcəkdə digər vəziyyətlərdə də sərbəst söz, fikir deyə bilmək qabiliyyətini üzə çıxarır. Onları bütün məktəbə, kollektivə təqdim etmək lazımdır ki, gələcəkdə özünəinamı itirməsin və cəmiyyətin önündə gedə bilsinlər. Belə olan halda həmin şagirdlərin bacarığına inanmaq və onların işıqlı gələcəyinə ümidlə baxmaq olar.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qoyulan məsələlər, irəli sürülən mülahizələr nəinki yalnız kimya müəllimləri üçün, digər müəllimlər üçün də faydalı olub praktik əhəmiyyətə malikdir.

Bütün deyilənləri nəzərə alaraq belə nəticə çıxarmaq mümkündür ki, şagirdlərin tədqiqatçılıq bacarıqlarının formalaşması və inkişafı üçün aşağıda ümumiləşdirilmiş əhəmiyyətli nüansları qeyd etmək olar:

– Tədris prosesində mövzuya, məqsədə və şagirdlərin yaş, fərdi mənəvi-psixoloji xüsusiyyətlərinə uyğun təlim metodlarından istifadə etmək;

– Elmi tədqiqatçılıq fəaliyyətinə meylli olan şagirdlərin istedadını vaxtında aşkara çıxarmaq;

– Şagirdləri elmi yaradıcılığa həvəsləndirmək və xüsusi maraq oyatmaq, onların tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək;

– Şagirdlərdə elmi dünyagörüşünün formalaşdırılması istiqamətində müntəzəm və sistemli iş aparmaq;

– Tanınmış mütəxəssis və alimləri tədqiqatçılıq qabiliyyəti olan şagirdlər ilə işə cəlb etmək;

– Şagirdləri intellektual klub və dərnəklərdə, elmi cəmiyyətlərdə təmsil olunması üçün şəraitlə təmin etmək;

– Tədqiqatçılıq bacarığı ilə kollektivdə fərqlənən şagirdlərə elmi məruzələri ilə çıxış etmək, təqdimat və referatlar hazırlamaq, elmi layihələrdə iştiraketmə vərdişlərinin formalaşdırılmasına səmərəli şərait yaratmaq;

– Mövcud yaradıcılıq potensialı nəzərə alınmaqla şagirdlərin gələcək peşə- sənət istiqamətlərini müəyyənləşdirmək.

**Ədəbiyyat:**


1. Ali təhsil muəssisəsində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə (Azərbaycan Respublikası təhsil nazirinin 27 iyun 2014-cü il tarixli, 752 nömrəli əmri ilə təsdiq edilmişdir). Xalq / 28 iyun , -2014.
2. Abbasov A. N. Seçilmiş əsərləri. 12 cilddə. I cild.-Bakı: Mütərcim, -2010, -344 s.
3. 3.Cəbrayılov İ.H.Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. -Bakı: Mütərcim, -2011, -220 s.

4. Əhmədov H.H. Pedaqogika.Bakalavr hazırlığı üçün dərslik. -Bakı: Elm və təhsil, -2016. -455 s.
5. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərslik -Bakı: Ekoprint, -2021, -612 s.
6. Hüseynzadə R.L., Əzizova Z.M. Pedaqogika. Dərslik. -Bakı: Mütərcim, -2021, -88 s.

**E-mail:** *zarinanagizade@gmail.com*
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova**
*ped.ü.elm.dok., prof.* **R.L. Hüseynzadə**
**Redaksiyaya daxil olub:** 14.02.2022.

## *PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*

**UOT 159.9**

***Səbinə Hikmət qızı Əlizadə***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0000-0002-0717-7197*
*https://doi.org/10.5281/zenodo.6450124*

# İNTELLEKTLƏ SOSİAL İNTELLEKT ARASINDAKI ƏLAQƏ VƏ ASILILIQLAR

***Сабина Хикмет гызы Ализаде***
*доктор философии по психологии*
*Азербайджанский Государственный Педагогический Университет*

# СВЯЗЬ И ЗАВИСИМОСТЬ ИНТЕЛЛЕКТА С СОЦИАЛЬНЫМ ИНТЕЛЛЕКТОМ

***Sabina Hikmet Alizada***
*doctor of philosophy in psychology*
*Azerbaijan State Pedagogical University*

# CONTACT AND DEPENDENCİES OF İNTELLECT WİTH SOCİAL İNTELLECTS

**Xülasə.** Məqalədə bəhs edilən məsələlər sosial intellekt problemi ilə bağlıdır. Müəllif məqalədə sosial intellektin əsasında duran intellekt anlayışını, onun yaranması tarixini qısaca nəzərdən keçirir. Bu sahədə əməyi olan tədqiqatçılardan bəhs edir. Psixologiya inkişaf etdikcə intellektə də yanaşmaların dəyişdiyini qeyd edir. Göstərilir ki, əvvəllər intellektə əsasən bioloji aspektdə baxılırdı. Hesab edilirdi ki, onun əsasında duran genetik amillər intellektin əsas keyfiyyət göstəriciləri kimi çıxış edir. Psixologiya inkişaf etdikcə, intellekt daha dərindən, əhatəli öyrənildikcə bu sahədə yeni nəzəriyyələr də meydana gəlməyə başlamışdır. Son onilliklərdə isə artıq daha çox sosial intellekt anlayışından istifadə olunur. Hesab edilir ki, potensialı reallaşdırılmamış intellekt başqaları üçün o qədər də əhəmiyyət kəsb etmir. Mühit üçün maraqlı olan cəhət fərdin sosial intellektidir. Yekunda müəllif bildirir ki, sosial intellekt insanın mühitlə qarşılıqlı sosial əlaqələrdə əldə edə bildiyi uğurları şərtləndirən bacarıq, səriştə və qabiliyyətlərin cəmidir. Sosial intellekt həm də fərdin özünün və başqalarının davranışını, münasibət və qiymətləndirmələrini, sosial gözləmələrini anlamaq, üzləşdiyi sosial situasiyalara, gözlənilməz vəziyyətlərə uyğun hərəkət etmək bacarığıdır.
***Açar sözlər:*** *şəxsiyyət, sosial təsir, intellekt, bioloji intellekt, sosial intellekt, sosial irsiyyət, yaradıcılıq, istedad, intellekt əmsalı, testologiya, sosial intellektin quruluşu.*

**Резюме.** Вопросы, рассматриваемые в статье, связаны с проблемой социального интеллекта. По мере развития психологии, более глубокого и всестороннего изучения интеллекта в этой области стали появляться новые теории. Однако в последние десятилетия концепция социального интеллекта стала более широко использоваться. Считается, что интеллект, потенциал которого не реализован, не так важен для окружающих. Что интересно для окружающей среды, так это социальный интеллект человека. В статье автор показывает основные аспекты структуры социального интеллекта и напоминает, что должен делать каждый человек в этой области. То есть каждый должен развивать свой социальный интеллект на основе своих интеллектуальных способностей. Потому что между интеллектом и социальным интеллектом существуют связи и зависимости. Эти взгляды основаны на объяснениях исследователей, изучавших особенности социального и эмоционального интеллекта в

психологии. В заключении автор констатирует, что социальный интеллект представляет собой совокупность, умений, навыков и способностей, определяющих успешность человека в социальных взаимодействиях с окружающей средой. Социальный интеллект – это также способность личности понимать поведение, установки и оценки, социальные ожидания от себя и других, действовать в соответствии с социальными ситуациями и непредвиденными ситуациями, с которыми он сталкивается.

***Ключевые слова:*** *личность, социальное влияние, интеллект, биологический интеллект, социальный интеллект, социальная наследственность, творчество, талант, интеллект, тестология, структура социального интеллекта.*

**Summary.** The issues considered in the article are related to the problem of social intelligence. Underlying genetic factors were thought to act as key indicators of intelligence. With the development of psychology, with a deeper and more comprehensive study of the intellect, new theories began to appear in this area. However, in recent decades, the concept of social intelligence has become more widely used. It is believed that the intellect, the potential of which is not realized, is not so important for others. What is interesting for the environment is human social intelligence. In the article, the author shows the main aspects of the structure of social intelligence and recalls what each person should do in this area. That is, everyone should develop their social intelligence based on their intellectual abilities. Because there are connections and dependencies between intelligence and social intelligence. These views are based on the explanations of researchers who have studied the characteristics of social and emotional intelligence in psychology. In conclusion, the author states that social intelligence is a set of skills, abilities and abilities that determine the success of a person in social interactions with the environment. Social intelligence is also the ability of an individual to understand behavior, attitudes and assessments, social expectations from himself and others, to act in accordance with social situations and unforeseen situations that he encounters.

***Key words.*** *personality, social influence, intelligence, biological intelligence, social intelligence, social heredity, creativity, talent, intelligence, testology, structure of social intelligence.*

Müasir dövrdə insan qabiliyyətlərinə, bacarıq və səriştələrinə yanaşmalar dəyişmişdir. Buna səbəb qloballaşmanın və elmi-texniki tərəqqinin təsiri ilə insan şəxsiyyətinin quruluşunda duran əsas komponentlərə (dəyər, motiv, məqsəd, münasibət, yaradıcılıq, koqnitiv sistem və b.) münasibətin dəyişməsidir. Belə ki, tarix boyu inkişafla bağlı olaraq mədəniyyətlərdə, bu əsasda da cəmiyyətlərdə insanın mədəni dəyərləri, baxışları, dünyagörüşü və adət-ənənələrinin dəyişməsi insan şəxsiyyətinin istər intellektual-yaradıcı, istərsə də mənəvi-psixoloji keyfiyyətlərinə yeni quruluşlar gətirmişdir.

Erkən və orta əsrlərdə kişilər cəngavərliyi, igidliyi, qadınlar evdarlığı və nəsilartırma funksiyalarını hansı səviyyədə yerinə yetirmələrinə görə qiymətləndirilirdi. Eləcə də son əsrlərdə, məsələn XX əsrin əvvəlləri ilə XXI əsrin əvvəllərində işlənmiş nəzəriyyə və konsepsiyalarda intellektual fəaliyyətə tələblər fərqlidir. İndi biz artıq süni intellektdən danışırıq. Şəxsiyyətin formalaşdırılması prosesində yeni sosial keyfiyyətlərin (rəqabətəqabillik, özünügerçəkləşdirmə, özünütəşkiletmə, sosial və emosional intellektə sahibolma və s.) inkişaf etdirilməsinə səy göstəririk Bunu nəzərə alaraq F.N. İbrahimov və R.L. Hüseynzadə şəxsiyyətin inkişafına edilən sosial təsirləri mürəkkəb bir proses kimi səciyyələndirirlər: *"Sosial və istehsal əlaqələrinin çoxşaxəliliyində insan inkişaf edir və bu inkişaf onun psixikasının formalaşması, şəxsiyyətin xüsusiyyətlərinin təkmilləşməsi üçün real zəmin yaradır. Şəxsiyyətin xassələrinin formalaşması sinir sistemi fəaliyyətinin xüsusiyyətlərindən-temperamentdən, neyrodinamik və konstitusion-biokimyəvi proseslərdən də asılıdır. Bu mənada müasir pedaqogika elmində şəxsiyyət fərdi inteqrasiya orqanı kimi də tədqiq edilir*" (2, s. 97).

Müəlliflər haqlı olaraq şəxsiyyətin formalaşmasına təsir göstərən amillər sırasında təlim prosesindəki intellektual fəaliyyətin, ümumilikdə isə fəallığı önə çəkirlər. Bu cür fəaliyyətdə insan maraqlanır, heyrətlənir, psixoloji situasiyalarda olur, müqayisə aparır, məsələlərə tənqidi yanaşır və b. təfəkkür əməliyyatları yerinə yetirir. Bundan başqa, o, sosial əlaqələrə, ünsiyyət və münasibətlərə daxil olur, nəticədə sosiallaşır.

Şəxsiyyətin sosial quruluşu, o cümlədən sosial intellektin inkişafı və formalaşması sosiallaşma prosesi ilə sıx bağlıdır. Sosial intellektin quruluşca möhkəmlənməsi, sabitləşməsi, dayanıqlı və dözümlü olması təlim-tərbiyə mühitin-

dən, xüsusilə mədəniyyətin təsirlərindən asılıdır. Bunu nəzərə alaraq sosial intellektin özünün quruluşuna nələrin daxil olduğunu, bu quruluşun hansı əsasda formalaşdığını nəzərdən keçirək.

"İntellekt" problemi artıq 200 ildən çoxdur ki, psixologiya elminin əsas tədqiqat mövzularından biridir. Hələ XX əsrin əvvəllərindən başlayaraq Fransa eksperimental psixologiya məktəbinin nümayəndəsi A. Bine öz araşdırmalarını dövrün daha aktual problemi olan intellektin öyrənilməsinə yönəltdi. Həmin dövrdə intellekt səviyyəsinin müəyyən edilməsi metodları həm praktik, həm də nəzəri-metodoloji əhəmiyyətə malik olduğundan psixoloqların diqqətini daha çox cəlb etməyə başlamışdı.

A. Bine 1896-cı ildə fərdin psixologiyasına aid məqalə yazır. Həmin dövrdə intellektin ölçülməsi sahəsində aparılan dəyərli tədqiqat işlərindən biri də məhz Binenin "İntellektin eksperimental tədqiqi" əsəri idi (1903). Həmin əsər özündən əvvəl işlənmiş 200-dən artıq nəşrlər arasında psixologiya elmi üçün daha əhəmiyyətli hesab edilirdi. Bu əsərdə A. Bine normal təhsil tələblərinə cavab verməyən uşaqları təlimdən kənarlaşdırmazdan əvvəl yoxlamalardan keçirilməsi və onların təlimə qabilliklərinin daha dəqiq ölçmələrlə müəyyənləşdirilməsi yollarını göstərmişdi. Bununla da psixologiya elmində intellektin ölçülməsi üçün təşəbbüslər daha da artmağa başladı. Hazırda dünyada çoxsaylı intellekt nəzəriyyələri yaradılıb. İntellektin ölçülməsi üçün minlərlə test nümunələri hazırlanıb. Daha müasir nümunələr isə onlayn testləşdirmələrdir.

İntellektin ölçülməsində ən dəqiq və səmərəli yol hesab edilən testologiyanın inkişafında C.M. Kettelin böyük rolu olmuşdur. M.Kettel testləri intellektin əsas ölçmə vasitəsi kimi görürdü. Tədqiqat metodu kimi istifadə etdiyi "əqli test" (mental test) haqqında M.Kettel 1890-ci ildə nəşr etdirdiyi "İntellekt testləri və onların ölçülməsi" əsərində (1890) bəhs edirdi. Məhz bu tarix psixologiyada intellektin ölçülməsinin (testologiyanın) başlanması kimi qəbul olunur. M. Kettelin hazırladığı bu nümunələr hazırda test deyil, yoxlama tapşırıqları adlanır.

İntellektin ölçülməsi üçün test nümunələrinin işlənməsi testologiya tarixində xüsusi mərhələni təşkil edir. Bu sahədəki ilk nümunələr fərdi fərqlərin öyrənilməsinə həsr olunmuşdu. İnsanın fərdi fərqləri öz-özlüyündə deyil, yaş xüsusiyyətlərinin inkişaf dinamikası əsas götürülərək öyrənilirdi. Aparılan araşdırmalar bu prinsipə əsaslanırdı ki, əgər sınanılan öz həmyaşıdlarının əksəriyyəti tərəfindən uğurla yerinə yetirilən tapşırıqları düzgün həll edə bilirdisə, o, normal hesab edilirdi. Bir sıra hallarda həmin tapşırıqlar sınanılan üçün, ya həddindən artıq asan, ya da həddən artıq çətin olurdu. Belə halların müəyyən edilməsi onunla nəticələndi ki, psixologiyada daha bir yaş anlayışı meydana gəldi. Beləliklə, fərdi fərqlər 2 kontekstdən öyrənilməyə başlandı: xronoloji yaş – CA (chronilogukal age); ağıl yaşı MA (mental age). *"Bu göstəricilərin bir-birinə uyğun gəlməməsi hazırda, ya psixi ləngimənin (MA < CM), ya da inkişafın normanı üstələməsinin, yəni istedadın (CA < MA) nəticəsi hesab edilir. 1912-ci ildə V.Ştern bu göstəricilərin nisbətini (MA/CA) intellekt əmsalı – İQ (intelligence guotient) adlandırdı. Bununla da artıq ağıl yaşının qiymətləndirilməsi normativ ölçü vasitəsi kimi istifadə edildi. Sınanılanın topladığı balın şkaladakı uyğun mövqeyi onun ağıl yaşının göstəricisi kimi qəbul olundu. Əksər intellekt testlərində orta IQ göstəricisi 100 baldır. İntellekt əmsalı (IQ) aşağıdakı düsturla hesablanır: İQ = (MA / CA) × 100" (6, s. 18).*

Hazırda isə psixologiya elmində "intellekt" anlayışına münasibət dəyişib. Bir zamanlar "daha yüksək intellektə malik olan şəxs daha üstündür" münasibəti öz aktuallığını itirib. Artıq insanın dəyəri onun təbiətindəki yüksək intellektual və yaradıcılıq potensialı ilə deyil, bu potensialı reallaşdırması bacarıqları, səriştələri ilə dəyərləndirilir. Bu mənada artıq "intellekt" deyil, "sosial intellekt" anlayışına maraq artmaqdadır.

H. Ayzenk aktuallaşdığı ilk dövrlərdən etibarən sosial intellektin geniş konsepsiyasını hazırlamağı vacib hesab edirdi. Onun qənaətinə görə, fərdi fərqlər əsasən intellektin quruluşundakı fərqlərlə, həm də bir çox digər parametrlərlə müəyyən edilir. Halbuki tədqiqatçıların, o cümlədən, R. Sternberqin sosial intellektlə bağlı izahı qənaətbəxş deyildir. *"Ümumiyyətlə, sosial intellekt sosial uyğunlaşma üçün İQ-dən istifadədə özünü göstərir. R. Sternberqin əsərləri intellektə sosial baxımdan faydalı uyğunlaşmanın təzahürü kimi baxanlar üçün münasib sayıla bilər. Bununla belə, bu tərif uğursuz görünür, çünki o özündə əlaqəsiz komponentlərdən yara-*

*nan törəmələri birləşdirir – IQ, şəxsiyyət, motivasiya və s." (18, s. 113).*




***Şəkil 1.***
**A (bioloji intellekt) və B (intellekt) intellekti arasındakı *əlaqə***

H. Ayzenk bəzi mənbələrdə (D. Hebb, 1949) intellekti – bioloji intellekt (A), sosial intellekti isə – intellekt (B) kimi izah edildiyini bildirir. Bu halda aydın olur ki, intellekt (B) bioloji intellektlə müqayisədə (A) daha geniş anlayış statusu əldə edir. H. Ayzenkin izahındakı bu əlaqə şəkildə də təsvir etdirilmişdir (şəkil 1). Beləliklə, H. Ayzenk belə hesab edir ki, intellektə (A – bioloji intellekt) aid edilən üç əsas konsepsiya arasından (K. Spirman, K. Berta, R. Strenberq) daha fundamental olana əsaslanmalıyıq. *"Son 50 il ərzində Amerika psixoloqları intellektin sosial və uyğunlaşma komponentləri baxımından müəyyənləşdirilməsinə getdikcə daha çox meyl göstərirlər. Beləliklə, onun təbiəti haqqında nəzəri baxışları deyil, daha çox onun məsələn, düşünmə, problemi həlletmə, yaddaş, öyrənmə, anlama, informasiyanın işlənməsi, strategiyanın hazırlanması, ətraf mühitə uyğunlaşma kimi təzahürlərini əsas götürməliyik" (18, s. 114).*

Sosial intellektin quruluşunun mürəkkəbliyinə, hər bir fərddə fərqli tərzdə formalaşmasına əsaslanaraq Ə.Ə. Əlizadə və H.Ə. Əlizadə "dünyanın intellekt "xəritəsi" ilə bağlı olaraq məşhur insanların heç də yüksək intellektə malik olmadıqlarını göstərirlər: *"Cəmiyyətin intellekt əmsalının (İQ) orta statistik mənzərəsinə görə, əhalinin təxminən 25%-nin İQ göstəricisi 90-100, 25%-i isə 100-110 arasındadır. Bu faktlar X. Ziverin şərhində belə açıqlanır: adamların yalnız cüzi hissəsi yüksək və aşağı intellektə sahibdirlər. Cəmiyyətdə intellektin orta səviyyəsi üstünlük təşkil edir. Adamların təxminən 70%-nin İQ-si 85-115 nöqtələri civarındadır" (5, s. 138-139).*

R. Əliyev, G. Əliyeva, C. Əliyev isə intellektin quruluşunun ölçülməsinə mədəniyyətlərin təsirini önə çəkərək bildirirlər ki, buna səbəb, intellektual potensialın reallaşdırılmasına və aktuallaşdırılmasına sosial amillərin, xüsusən mədəniyyətin üstün təsirə malik olmasıdır. *"Mədəni fərqlərin təsirini kifayət qədər göstərmək mümkünüdür. Bunların bir qismi koqnitiv fərqlərə aid olmaqla abstrakt məsələlərin həllində özünü göstərir. Digər fərqlər isə motivasiya və ustanovka ilə bağlıdır. Məsələn, intellektual işlərə az maraq göstərilməsi, şəxsi müvəffəqiyyətə cəhd edilməməsi və s. buna misal ola bilər" (3, s. 76).*

Müəlliflər buna nümunə olaraq maddi vəziyyəti pis olan ailələrdə böyüyən uşaqların abstrakt məzmun kəsb edən testləri çətin həll etdiklərini misal göstərirlər. Bundan başqa, "*Amerika psixoloqlarının hazırladıqları testlər Amerika mədəniyyətinə uyğun olduğundan, onların insanları da bu testləri daha düzgün və həvəslə yerinə yetirirlər" (3, s. 78).*

Bütün bunlar sonda intellektə sosial məzmun verir. Beləliklə, hər bir fərdin özünəməxsus sosial intellekti formalaşır. Burada sosial intellektin intellektlə əlaqəsi özünü bioloji amillərdə göstərir. əgər bir insan yüksək istedada malik olsa belə, əlverişli mədəni mühit olmadıqda onun sosial intellektin inkişafdan qala bilər. Sual yaranır: məgər insan özünün istedadı sayəsində bu maneələri dəf etmək gücündə deyilmi və bu halda hansısa bir fərdə təbiətin bəxş etdiyi intellektual üstünlüklər nəyə gərəkdir?

Əlbəttə, istedad, yaradıcılıq kimi bioloji amillər sosial intellekt üçün vacibdir. Əgər bunlar olmazsa, sosial intellektin yüksək inkişafından da danışa bilmərik. Bununla bağlı olaraq Ə.Ə. Əlizadə istedadın və intellektin əsasında duran, sosial intellektin əsas genetik quruluşunu əmələ gətirən "sosial irsiyyət" anlayışından bəhs edir. *"Sosial irsiyyətin köklü psixoloji effektləri var. Bu effektlər ilk növbədə ana laylaları ilə qaynaqlanır. Bu gün belə hesab edirlər ki, fədakar azərbaycanlı ana öz möcüzəli laylasını elə muğam kökü də deyir. Şərqşünaslarında, psixoloqların da dəstəklədikləri həmin önəmli faktın dialektik mənzərəsi aydındır: istedadlı uşaq, hər şeydən öncə, bir şəxsiyyət kimi bənzərsiz so-*

*siumda – ana-bala simbiozunda ecazkar muğam dalğalarında formalaşır. Onun "Mən-konsepsiyası" bilavasitə Azərbaycan mədəniyyətinin etnopsixoloji üfüqlərində inkişaf edir və tədricən yeni məzmun kəsb edir" (5, s. 88-89).*

E.B. Bəylərov isə elmi psixologiyada yaradıcı insanı digərlərindən fərqləndirən göstərici olan istedadın quruluşunda intellektin rolunu önə çəkərək bu sahədə gərəkli olan qabiliyyətləri sıralayır: *fikrin itiliyi; müşahidəçilik qabiliyyəti; fövqəladə yaddaş, hərtərəfli maraq; bu və ya digər məsələnin həllinə baş vurmaq; biliklərə asanlıqla yiyələnmək və həvəslə oxumaq; fikirlərini aydın ifadə etmək; biliklərini praktik tətbiq etmək; problemin həllində fövqəladə qabiliyyət nümayiş etdirmək; əsas anlayışları tezliklə mənimsəmək; informasiyanı asanlıqla yadda saxlamaq və uzun müddət unutmamaq; informasiyanı təhlil edib araşdırmaq (2, s. 32).*

Halbuki sosial intellektə verilən tələblər fərqlidir. Məsələn, fərdin praktik fəaliyyətində vacib olan keyfiyyətlər sırasında bunlar önə çəkilir: "*Emosional-sosial intellekt özünü təhlil edə bilmək, emosional sahənin aydın olması, özünü ifadə etmək, müstəqil olmaq, empatiya, sosial məsuliyyət, əlverişli səxsiyyətlərarası münasibət qura bilmək, stressə qarşı davamlı olmaq, daxili impulslarına nəzarət etmək, reallığı düzgün qiymətləndirmək, mühitə uyğunlaşmaq, üzləşdiyi problemləri həll etmək, özünü gerçəkləşdirmək, optimist olmaq, xoşbəxt olmaq" (16)*

Göründüyü kimi, burada biz artıq daha çox intellektin quruluşuna aid edilən xassə və keyfiyyətlərlə deyil, bütövlükdə sosiallaşan insanın şəxsiyyətinin quruluşuna aid edilən geniş keyfiyyətlər toplusu ilə üzləşirik. Bu fərqliliyi nəzərə alaraq D.V. Uşakov sosial intellekti – intellektin ayrıca bir növü olaraq izah edir. *"Son zamanlar sosial intellekt problemi diqqəti cəlb edir. Bunun bir neçə səbəbi var. Bir tərəfdən sosial intellekt son dərəcə vacib praktik keyfiyyətdir. Tədqiqatların inkişafı ilə bağlı olaraq onun tətbiqinin yeni, tamamilə gizli tərəfləri aydınlaşır. Bu əsasda R. Sternberg (Sternberg, Grigorenko, 1997) "yaradıcılığın investisiyası" nəzəriyyəsini işləyib hazırlamışdır. Bu nəzəriyyəyə görə, yaradıcı şəxsiyyət öz bacarığını hazırda peşəkar cəmiyyətdə qiymətləndirilməyən ideyaya yatırmaq bacarığı ilə seçilir" (11 ,s. 9).*

Bununla yanaşı, D.V. Uşakov sosial intellekt üzrə vacib olan bacarıqları şəxsiyyətin koqnitiv quruluşu ilə əlaqələndirir. Belə ki, D.V. Uşakova görə, sosial intellekt koqnitiv və affektiv sistemlə qarşılıqlı əlaqədə olan bir problemdir. Onun təhlillərindən belə nəticəyə gələ bilirik ki, sosial intellekt sahəsində insana sadəcə hesablama mexanizmi ilə işləyən deyil, özünü və dünyanı koqnitiv – emosional əlaqədə dərk edən varlıq olaraq yanaşmalıyıq. L.Ş. Əmrahlı koqntiv-emosional sahədəki bu əlaqəni əsaslandıraraq dərketmə proseslərinin koqnitiv fəaliyyətə qoşulması üçün onların qarşılıqlı əlaqələrini vacib hesab edir: *"Həmin əlaqələr əsasında koqnitiv fəaliyyət üçün yaşa, cinsə və fərdi xüsusiyyətlərə xas olan yeni strukturlar – koqnitiv törəmələr yaranır. Nəticədə koqnitiv fəaliyyət yeni keyfiyyətlər qazanır: diqqət tənzimlənir, hafizənin mnemik imkanları artır, nitq fəallaşır, zənginləşir, məntiqi və abstrakt təfəkkür formalaşır. Onlar (şagirdlər, tələbələr) artıq geniş həcmdə informasiyaları mənimsəyir, anlayışlarla əməliyyatlar aparır, cisimlərin xassə və keyfiyyətləri haqqında mühakimələr yürüdür, müzakirələrə qoşulur, fərziyyələr irəli sürür, özünün tədqiqedici fəaliyyətini planlaşdıraraq həyata keçirirlər" (7, s. 294-295).*

L.Ş. Əmrahlının yeniyetmələrdə koqnitiv fəaliyyətin emosional baxımdan tənzimlənməsi üzrə apardığı təcrübələr bir daha göstərmişdir ki, onların dərketmə sahəsinin səmərəliliyi emosiyaların, bütövlükdə isə koqnitiv fəaliyyətinin assosiativ əlaqələrinin qurulmasını tələb edir. Məsələn, təlim prosesində şagirdin həssaslıq dərəcəsinin yüksəldilməsi zamanı emosional baxımdan daha aydın və təsirli ifadə edilən fakt daha tez qavranılır və yadda qalır. Nəticədə emosional-koqnitiv fəaliyyət koqnitiv üslubun formalaşmasına da əhəmiyyətli dərəcədə təsir göstərir.

Biz intellektin tədqiqi tarixi haqqında etdiyimiz kiçik bir xatırlamadan gördük ki, intellektin quruluşunun öyrənmədən onun ölçülməsi mümkün deyildir. İntellektin testlərlə ölçülməsi prinsipi də buna əsaslanır. Yəni, intellekt ölçülərkən onun quruluşunda olan idrak prosesləri, həmin proseslərə qoşulan emosiya, iradə ölçülür. Bu yanaşmanın əks-əlaqəsi belə olacaq: sosial intellektin quruluşunu öyrənərkən bu sahədə hazırlanmış ölçmə materiallarını nəzərdən keçirmək səmərəlidir.

Müasir psixologiyada sosial intellekti R. Kettel onun quruluşu (10), B.F. Skinner sosial rol davranış və sosial öyrənmə (12), C.R. Strenberq intellektin kreativliyi (13), yaradıcı vizualizasiya (14), D. Qoleman sosial intellektin emosional təbiəti (9) baxımından öyrəniblər. Sosial intellektin ən məşhur tədqiqatçısı isə D. Qolemandır. O, özünün "Sosial intellekt: insan münasibətləri haqqında yeni elm" adlı əsərində yazır ki, *"mən bu kitabı demək olar ki, hər gün şəxsiyyətlərarası qarşılıqlı əlaqə sahəsində heyrətamiz kəşflər edən yeni yaranan elmin üzərindəki pərdəni qaldırmaq üçün yazdım. Bu yeni intizamın ən fundamental kəşfi budur: biz sadəcə olaraq qarşılıqlı əlaqədə olmaq üçün yaradılmışıq. Neyrologiya müəyyən edib ki, beynimizin quruluşu bizi ünsiyyətcil edir. Başqa insana yaxınlaşan kimi beynimiz onun beyninə "qoşulmaq" üçün qarşısıalınmaz istək hiss edir. Bu neyron əlaqəsi bizi beyinə, beləliklə bütün bədənə, ünsiyyət qurduğumuz hər kəsə təsir etməyə məcbur edir. Onlar da öz növbəsində bizə təsir edirlər" (9, s. 4).*

D. Qolemana görə, hətta ən adi qarşılıqlı əlaqələr belə, beyin tənzimləyiciləri kimi işləyərək bəzən xoş, bəzən mənfi emosiyaları oyadır. Hansısa bir insanla nə qədər güclü emosional bağlı olsaq, bu qarşılıqlı təsir də bir o qədər güclü olar. Ən yaxşı mübadilə daha çox vaxt keçirdiyimiz insanlar, xüsusən də bizim üçün əziz olan insanlar arasında baş verir.

Sosial intellektin daha bir tədqiqatçı S.S. Belova özünün ölçmə metodikasında sosial intellektin quruluşuna aydınlıq gətirir. O bildirir ki, sosial intellektə verilən təriflər çoxdur. Bunlar sadədən mürəkkəbə doğru dəyişir. Məsələn, sosial intellektin ilk tədqiqatçısı *"E.L. Tornday-kın verdiyi tərifdə qabiliyyəti nəzərə almağın iki aspekti vurğulanır – idrak qabiliyyəti və davranış qabiliyyəti. Eyni vurğu, 1933-cü ildə P.E. Vernon tərəfindən qoyulur: "sosial intellekt – insanlarla işləmək bacarığı olub onun izahı cəmiyyətdəki sosial texnika və azadlıqlar, sosial məsələlər haqqında biliklər, qrupun digər üzvlərinin davranışlarına həssaslıq, o cümlədən insanların şəxsiyyətinin gizli xüsusiyyətlərinə bələd olmaq" (sitat Kihlstrom, Cantor, 2000, s. 360) Weis, 2002) kimi açıqlanır" (8,s. 106).*

S.S. Belova 1980-ci illərdə M.E. Ford və M.S. Tisak (Ford, Tisak, 1983) tərəfindən təklif edilmiş yanaşma üzərində dayanır. Belə ki, həmin yanaşmada sosial intellektin müəyyən edilməsi üçün üç meyardan istifadə olunur:

*1) sosial məlumatı aydınlaşdırmaq bacarığı – qeyri-şifahi stimulları tanıma bacarıqlarından dözümlülüyə qədər düzgün sosial mühakimələr, burada istifadə edilən strukturlar: sosial rolların qəbulu, başqa insanı qavramaq, sosial fakta əsaslanmaq, şəxsiyyətlərarası münasibətlərdə üstünlük əldə etmək və s.;*

*2) sosial davranışın effektivliyi və ya uyğunlaşması: illüstrativ konstruksiyalar – davranış nəticələri, yüksək "sosial idrak" bacarıqları;*

*3) Borinqin sosial intellekt testi ilə ölçülə bilən hər hansı sosial bacarıq (8, s. 106).*

Nəticə budur ki, sosial intellekt anlayışı ilə emosional intellekt anlayışı biri-birinə yaxın olub psixoloji ədəbiyyatlarda məzmun baxımından əlaqələndirilir. D. Qoleman, R.J. Strenberq, S. Urgan, Ş. Sevim və b. emosional intellekt ideyasının sosialdan yarandığını bildirirlər. Ümumilikdə əksər müəlliflər bu anlayışların bağlılığını qəbul edirlər. Beləliklə, sosial intellekt – insanın mühitlə qarşılıqlı sosial əlaqələrdə əldə edə bildiyi uğurları şərtləndirən bacarıq, səriştə və qabiliyyətlərin cəmidir. Yüksək sosial intellektə sahib olan insan özü və başqalarının davranışı, münasibət və qiymətləndirmələri, sosial gözləmələrinin məzmununu anlamaq, eləcə də üzləşdiyi sosial situasiyalara, gözlənilməz vəziyyətlərə uyğun hərəkət etmək bacarığıdır.

**Problemin aktuallığı**. Məqalədə intellektlə sosial intellekt arasındakı əlaqə və asılılıqlardan söz açılır ki, bu problem az tədqiq olunduğundan aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Müəllif məqalədə sosial intellektin quruluşunda duran əsas cəhətləri göstərərək bu sahədə hər bir fərdin etməli olduqlarını xatırladır. Yəni hər kəs özünün intellektual imkanlarına əsaslanaraq sosial intellektini inkişaf etdirməlidir. Çünki həm intellekt, həm də sosial intellekt arasında əlaqə və asılılıqlar vardır. Bu fikirlər psixologiyada sosial və emosional intellektin xüsusiyyətlərini araşdırmış tədqiqatçıların izahları ilə əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə doktorant və dissertantlar, magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Bəylərov, E.B. Uşaqlarda istedadın müəyyənləşdirilməsi. İstedadın işçi konsepsiyası // E.B. Bəylərov. -Bakı: Təhsil, - 2008. -224 s.
2. İbrahimov, F.N. Pedaqogika. I cild / F.N. İbrahimov, R.L. Hüseynzadə. -Bakı: Mütərcim, -2012. -811 s.
3. Əliyev, R.İ. Praktik psixologiya məsələləri / R.İ. Əliyev, G. Əliyeva, C.R. Əliyev. -Bakı: Elm və təhsil, -2011. -192 s.
4. Əlizadə, Ə.Ə. İstedadlı uşaqlar: psixopedaqoji məsələlər / Ə.Ə. Əlizadə. -Bakı: -2005. -352 s.
5. Əlizadə, Ə.Ə. Əlizadə H.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. 3 cild. I hissə / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. -Bakı: ADPU-nun mətbəəsi, -2008. -479 s.
6. Əmrahlı, L.Ş. Psixodiaqnostika / L.Ş. Əmrahlı. -Bakı: MBM, -2014. -304 s.
7. Əmrahlı, L.Ş. Koqnitiv psixologiya: dərketmə fəaliyyətinə müasir yanaşma. -Bakı: MM-S müəssisəi, -2018, -338 s.
8. Белова, С.С. Социальный интеллект: сравнительный анализ методик измерения // Социальный интеллект: Теория, измерение, исследования / Под ред. Д.В. Люсина, Д. В. Ушакова. - М.: Институт психологии РАН, -2004. -с. -109-119.
9. Гоулман, Д. Социальный интеллект. Новая наука о человеческих отношениях. / пер. из анг.Н.Аллунан, А.Анваер. Издательство АСТ -2021, -571 с.
10. Факторная теория Кеттела // Теории личности. К.С. Холл, Г. М.Линдсей. - СПб.: - Апрел - Пресс, -2000. - с. 289-337 - 547.
11. Ушаков, Д.В. Социальный интеллект как вид интеллекта // Социальный интеллект: Теория, измерение, исследования / Под ред. Д. В. Люсина, Д. В. Ушакова. - М.: Институт психологии РАН, -2004. - с. 11 – 29.
12. Skinner, B.F. (1990). Can psychology be a science of mind? American Psychologist, 45(11), 1206-1210.
13. Sternberg J.R. The Nature of Creativity// Creativity Research Journal 2006, Vol. 18, № 1, p. 87-98
14. Sternberg, R. J. Creating a vision of creativity // The first 25 years. *Psychology of Aesthetics, Creativity, and the Arts,* 2006, s (1), 2-12.
15. Thorndike E.L. Intelligence and its uses // Harper’s Magazine. - 1920. - № 140. - с. 227-235.
16. https://www./tianshi.az/posts/1281863265252516//Emosional-sosial intellekt
17. https://www.facebook.com/tianshi.az/posts/1281863265252516//Emosional-sosial intellekt
18. http://raai.org/library/books/aizenk/aizenk.htm// Г.Ю. Айзенк. Понятие и определение интеллекта // Вопросы Психологии. -1995. № 1. -с.111-131.


**E-mail:** sabina.az@gmail.com

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **H.Ə. Əlizadə,**
*psixol.ü.elm.dok., prof.* **R.İ. Əliyev**
**Redaksiyaya daxil olub:** 16.02.2022.

**UOT 159.9**

***İlahə Murad qızı Rzaxanova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*
*https://orcid.org/ 0000-0002-2332-3406*
*https://doi.org/10.5281/zenodo.6450143*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA DİZARTRİYANIN TƏSNİFATI VƏ ONLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

***Илаха Мурад гызы Рзаханова***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# КЛАССИФИКАЦИЯ ДИЗАРТРИИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА И ИХ ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ

***Ilaha Murad Rzakhanova***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

# CLASSIFICATION OF DYSARTHRIA IN PRESCHOOL CHILDREEN AND THEIR CHARACTERISTICS

**Xülasə.** Müasir dövrdə məktəbəqədər yaşlı uşaqlar arasında nitq qüsurlarına, xüsusilə dizartriyaya tez-tez rast gəlinir. Hazırda cəmiyyətdə rastlaşdığımız dizartrik uşaqların düzgün qruplaşdırılması və onlarla korreksiya işini təşkil etmək üçün qüsurların təsnifatı və xarakterik xüsusiyyətlərinin müəyyən olunması mühüm əhəmiyyət kəsb edir. Məqalədə məktəbəqədər yaşlı uşaqlarda dizartriyanın təsnifatı və onların xarakterik xüsusiyyətləri müxtəlif prinsiplərə və yanaşma üsullarına uyğun olaraq açıqlanır, dizartriyanın əsas əlamətlərinin – simptomlarının müəyyən olunması üsulları haqqında geniş məlumat verilir. Bundan əlavə, serebral iflicli uşaqlarda nitq pozulmalarının ağırlıq dərəcələrinin təyin edilməsi də öz əksini tapmışdır.
***Açar sözlər:*** *dizartriya, tələffüz pozulması, koordinasiya pozulması, spastik parez, əzələlərin iflici, refleks, innervasiya*

**Резюме.** В современное время среди детей дошкольного возраста распространены дефекты речи, особенно дизартрия. Важно классифицировать и охарактеризовать дефекты, чтобы правильно сгруппировать детей-дизартриков, которых мы встречаем в современном обществе, и организовать с ними коррекционную работу. В статье описаны классификации дизартрии у детей дошкольного возраста и их характеристика в соответствии с различными принципами и подходами. Представлена подробная информация о методах выявления основных симптомов дизартрии. Кроме того, отражено определение степени выраженности речевых нарушений у детей с детским церебральным параличом.
***Ключевые слова:*** *дизартрия, нарушение произношения, нарушение координации, спастический парез, паралич мышц, рефлекс, иннервация*

**Summary.** In modern times, speech defects, especially dysarthria, are common among preschool children. It is important to classify and characterize the defects in order to properly group the dysarthria children we meet in society today and to organize correctional work with them. The article describes the classification of dysarthria in preschool children and their characteristics in accordance with various principles and approaches, provides detailed information on the methods of identifying the main symptoms of dysarthria. In addition, the determination of the severity of speech disorders in children with cerebral palsy is also reflected.
***Key words:*** *dysarthria, pronunciation disorder, violation of coordination, spastic paresis, paralysis of muscles, reflex, innervation*

Müasir loqopediyada dizartriyanın təsnifatı lokallaşma prinsipi, sindromlaşdırıcı yanaşma, nitqin ətrafdakılar üçün anlaşıqlı dərəcəsi durur. Loqopediyada geniş yayılmış təsnifat nevroloji yanaşma hesaba alınmaqla, nitqin hərəki aparatının zədələnmələrinin lokallaşma səviyyəsi əsasında tərtib olunmuşdur. Onlar dizartriyanın aşağıda göstərilən formalarını fərqləndirirlər: bulbar, psevdobulbar, qabıqaltı, beyincik, beyin qabığı dizartriyaları.

Bu təsnifatda ən mürəkkəb və mübahisəli beyin qabığı dizartriyası hesab olunur. Bu növ dizartriyanın mövcudluğunu müəlliflər qəbul etmirlər. Yetkin yaşlı xəstələrdə bir sıra hallarda dizartriyanı motor afaziyanın təzahürlərilə səhv salırlar. Beyin qabığı dizartriyası haqqında mübahisəli məsələ, əhəmiyyətli dərəcədə, qeyri-dəqiqliyi, motor alaliyası və afaziyası mexanizmlərinə vahid nöqteyi-nəzərin olmaması ilə əlaqədardır.

Y.N. Vinarskayaya görə [1973], beyin qabığı dizartriyası ümumiləşdirici anlayışdır. Müəllif onun artikulyasiya əzələlərinin spastik parezi, həmçinin apraksiya ilə şərtlənən müxtəlif formaların mövcudluğunu qəbul edir. Axırıncı formalar aprastik dizartriya kimi qeyd olunur.

Serebral iflicli uşaqlara sindromlaşdırıcı yanaşmanın əsasında dizartriyanın aşağıdakı formaları fərqləndirilir: spastik-natamam iflic, spastik-rigiq, spastik-qeyri-iradi, spastik-ataktik, atati-hiperginetik dizartriyalar.

Belə yanaşma serebral iflicli uşaqların beyinlərinin zədələnmələri və onun ağırlaşmış formalarının çoxluğu ilə şərtlənir. Pozulmalar dəqiq hərəki pozuntularla təzahür olunmursa, nevroloji diaqnostikada artikulyasiya motorikası pozulmanın xarakterinin qiymətləndirilməsi əhəmiyyətli dərəcədə mürəkkəbləşir. Bu təsnifat əsasında müxtəlif nevroloji sindromlar dayandığı üçün, diaqnostika loqoped tərəfindən aparıla bilməz. Serebral iflicli uşaq üçün aparılan müalicənin inkişafının təsiri altında nevroloji sindromların tez-tez dəyişməsi xarakterikdir. Bununla, sindromlaşdırıcı prinsipə əsasən dizartriyanın təsnifatlaşdırılmasında müəyyən çətinliklər ortaya çıxır.

Bəzi hallarda loqoped və həkim-nevropatoloqun işində, sıx qarşılıqlı əlaqə şəraitində dizartriyanın müxtəlif formalarının fərqləndirilməsinə, iki yanaşmanın birləşdirilməsi məqsədəuyğun ola bilər. Məsələn, psevdobulbar dizartriyanın ağırlaşmış forması, spastik-hiperginetik və ya spastik-ataktik sindrom və s.

Serebral iflicli uşaqlarda nitqin ətrafdakılar üçün aydınlıq dərəcəsinə görə dizartriyanın təsnifatı fransız nevropatoloqu G.Tardier [1968] tərəfindən verilmişdir. Müəllif belə uşaqlarda nitq pozulmalarının dörd ağırlıq dərəcəsini təyin etmişdir:

I yüngül dərəcə: – səs tələffüzü pozulması. Ancaq mütəxəssis tərəfindən, müayinə prosesində aşkar olunur.

II dərəcə: – tələffüz pozulmaları hamıya aşkardır, lakin ətrafdakılar tərəfindən başa düşülür.

III dərəcə: – uşağın nitqi ancaq yaxınlarına, qismən də ətrafdakılara aydındır.

IV ən ağır dərəcə : – nitqin yoxluğunu başa düşmürlər (anartriya).

Anartriya dedikdə, nitq hərəki əzələlərinin iflici nəticəsində səs tələffüzü imkanlarının tam və ya qismən olmaması başa düşülür. Anartriya aşkarlanmasının ağırlığına görə müxtəlif ola bilər: ağır – nitqin və səsin olmaması; orta ağır – yalnız səs reaksiyaları var; yüngül – səs-heca aktivliyi var.

Dizartriyanın əsas əlamətləri simptomlardır. Hər şeydən əvvəl, artikulyasiya, motorika və nitq tənəffüsü pozulmaları ilə birləşən səs və səs tələffüzü qüsurlarıdır. Dislaliyadan fərqli olaraq, dizartriyada həm samit, həm sait səslərin tələffüzündə pozulmalar baş verir.

Samitlərin tələffüzündə pozulmalar sıralara və yüksəkliyə görə təsnif olunur. Samitlərin tələffüzündə pozulmalar onların əsas əlamətinə görə, aşağıdakı kimi təsnif olunur: səs tellərində vibrasiyanın olub-olmamasına görə; artikulyasiya yeri və üslubuna görə; dil arxasının sərt damağa əlavə yüksəkliyinin olub-olmamasına görə. Dizartriyada səs tələffüzünün bütün qüsurları pozulmaların tiplərindən asılı olaraq aşağıdakılara bölünürlər:

– səsin təhrif olunması;

– səsin olmaması, dəyişilməsi, anlaşılmaz tələffüz.

Səsin olmaması, səslərin akustik artikulyasiya xarakterlərinə görə, müqayisə olunmasının çatışmazlığı ilə müşahidə olunur. Buna görə də yazılı nitqdə pozulmalar daha tez-tez qeyd olunur.

Dizartriyanın bütün formaları üçün aşkar olunan artikulyasiya motorikasının pozulmaları xarakterikdir. Əzələ tonusu pozulmalarının xa-

rakteri, hər şeydən əvvəl, beyin zədələnmələrinin lokallaşdırılmasından asılıdır. Artikulyasiya əzələlərində onun aşağıdakı formalarını fərqləndirirlər: artikulyasiya əzələlərinin yığılması: dil, dodaq, sifət və boyun əzələlərində daimi tonusun yüksəlməsi, əzələ tonusunun yüksəlməsi yalnız dilin ayrı-ayrı əzələlərinə aid ola bilməsi.

Əzələ tonusunun ifadə olunmuş yüksəlməsində dil gərgindir, geriyə dartılıb, dil arxası qatlanıb və yuxarı qalxıb, dilin ucu ifadə olunmayıb, adi vəziyyətdədir. Gərginləşmiş, sərt damağa tərəf qaldırılmış dil, arxası samit səslərin yumşaldılmasına xidmət edir. Dil əzələlərinin gərginləşməsi artikulyasiyanın əsas xüsusiyyətinin incələşməsi fonematik inkişafdan geri qalmaya səbəb olur.

Ağızın dairəvi əzələsində əzələ tonusunun yüksəlməsi dodaqların gərginliyinə gətirib çıxarır və ağız kip bağlanır. Bu zaman hərəkətlərin aktivliyi məhdudlaşır. Dilin irəli hərəkətinin məhdudlaşması və ya mümkünsüzlüyü çənədil, çənə-dilaltı, ikili arxa əzələlərinin, həmçinin dilaltı sümüyə birləşən əzələlərin gərginləşməsi ilə əlaqədar ola bilər.

Udlaq-dil sinirləri ilə innervasiya olunan dil-damaq əzələləri istisna olmaqla, bütün dil əzələləri dilaltı sinirlərlə təmin olunur. Üzün və boyunun əzələlərində əzələ tonusunun yüklənməsi artikulyasiya aparatında sərbəst hərəkətləri daha da məhdudlaşdırır.

Əzələ tonusu pozulmasının digər növü hipotoniyadır. Hipotoniyada dil nazikdir, ağız boşluğunda yayılıb, dodaqlar süst vəziyyətdədir, onları kip bağlamaq imkanı yoxdur. Buna görə də, adətən, ağız yarıaçılı vəziyyətdədir, hərəkət çatışmazlığı aşkar olunur.

Hərəkət çatışmazlığında artikulyasiyanın əsas xüsusiyyəti, səsin burunda tələffüz olunmasıdır ki, bu zaman yumşaq damaq əzələlərinin hərəkəti damaq pərdəsinin yuxarıya kifayət qədər hərəkətinə və əsnəyin arxa divarına sıxılmasına mane olur. Hava axını burundan xaric olur və ağız boşluğundan çıxan hava axını isə çox zəif olur. Partlayan küylü dodaq samitlərinin p, b tələffüzü pozulur.

Bununla əlaqədar partlayan kar samitlərin tələffüzündə pozulmalar baş verir. Partlayan kar samitlərin əmələ gəlməsində dodaqların daha enerjili işi lazımdır ki, bu da hərəkət azlığında mümkün deyil. Partlayan burun sonorları m, n, həmçinin, artikulyasiyası alt dodağın yuxarı dişlərlə sıx bağlanmasını tələb etməyən və ensiz aralıq əmələ gətirən f, v dodaq-diş küylü samitləri daha asan tələffüz olunur. Dilönü-partlayan küylü samitlərin də t, d tələffüzü pozulur, dilönü ş, j samitlərinin artikulyasiyasında təhriflərə yol verilir.

Dizartriya zamanı artikulyasiya əzələlərində əzələ tonusunun pozulmaları şəklində aşkar oluna bilər: sakit halda artikulyasiya aparatında aşağı əzələ tonusu qeydə alınır, nitq cəhdlərində isə tonus kəskin şəkildə yüksəlir. Bu pozulmaların xarakter xüsusiyyətləri onların dinamikliyi, təhriflərin daimi olmaması, səslərin əvəzlənməsi və buraxılmasıdır.

Dizartriyada artikulyasiya motorikasının pozulması atikulyasiya əzələlərinin hərəkətliliyinin məhdudlaşmasının nəticəsidir. Bu əzələ tonusunun pozulmaları qeyri-iradi hərəkətlərin olması, koordinasiya pozulmalarının təsiri ilə daha da güclənir. Artikulyasiya əzələləri kifayət qədər hərəkətli olmadıqda səs tələffüzü pozulur. Dodaq əzələləri zədələnmələrində həm sait, həm də samit səslərin tələffüzü ziyan çəkir.

Xüsusilə dodaqlanan səslərin o, u tələffüzü pozulur, çünki bu səslərin tələffüzünə dodaqların aktiv hərəkətləri, dairəvi forma alması (dartılmaq, uzatmaq) tələb olunur. Kipləşən dodaq samitlərinin p, b tələffüzü pozulur. Uşaq dodaqlarını irəli uzatmaq, onları dairəvi formaya salmaq, ağız künclərini yanlara çəkmək, üst dodağı yuxarı qaldırmaq, alt dodağı aşağı buraxmaq və bir çox başqa hərəkətləri yerinə yetirməkdə çətinlik çəkir.

Dodaqların hərəkət məhdudiyyəti çox vaxt, ümumiyyətlə, artikulyasiyanın pozulmasına səbəb olur. Belə ki, bu hərəkətlər ağızın ön qapısının forma və ölçülərini dəyişir, bununla da bütün ağız boşluğunda borunun yaranmasına təsir göstərir.

Dil əzələlərinin hərəki məhdudiyyəti ağız boşluğunda dil ucunun kifayət qədər yuxarı qalxmaması ilə qeyd oluna bilər. Adətən, bu, bizvari-dil və digər əzələlərin hərəkətinin pozulması ilə əlaqədardır. Bu qüsur fısıldayan, vıyıldayan, vızıldayan səslərin, həmçinin ön sıra saitlərin u, e və digər səslərin tələffüzündə pozulmalar yaradır.

Dilin geriyə hərəkətinin məhdudlaşması dilaltı-udlaq-kürək, dilaltı-bizvari, ikili arxa və digər əzələlərin pozulmalarından asılı ola bilər.

Bu zaman dilarxası səsləri q, k, x, həmçinin, bir çox saitlərin, xüsusilə e, o, a saitlərinin artikulyasiyası pozulur. Dil əzələlərinin iflicində, onların əzələ tonusunun pozulmalarında çox vaxt dilin dəyişmələri, onun uzanması, qısalması, irəli, geri hərəkətləri imkansız olur.

Səs tələffüzü pozulmalarını yumşaq damaq əzələlərinin hərəkət məhdudluğu (*onu gərib uzadan və qaldıran damaq-udlaq və damaq dil əzələləri*) daha da ağırlaşdırır. Bu əzələlərin iflici zamanı damaq pərdəsinin qalxması çətinləşir, havanın burun boşluğundan axıb getməsi baş verir, səs burun tembri alır, nitqin ahəngi təhrif olunur. Nitq səslərinin küy əlamətləri kifayət qədər ifadə olunmur.

Yumşaq damaq əzələlərini təmin edən üçlü sinirin, üz və azan sinirlərin şaxələri ilə həyata keçirilir. Dizartriyada tez-tez müşahidə olunan üz əzələlərinin iflicləri də səs tələffüzünə təsir göstərir. Gicgah əzələlərinin, çeynəmə əzələlərinin iflicləri alt çənənin hərəkətini məhdudlaşdırır, nəticədə səsin modulyasiyası və ahəngi pozulur.

Əgər ağız boşluğunda dilin vəziyyəti düzgün deyilsə, damaq pərdəsinin hərəkətliliyi azdırsa, ağız boşluğu dibi əzələlərinin, dilin, dodaqların, yumşaq damağın, udlağın arxa divarın əzələlərinin tonus pozulmalarında bu pozulmalar daha da güclü ifadə olunur.

Dizartriyada artikulyasiya motorikası pozulmalarının xarakterik əlamətləri koordinasiya pozulmalarıdır. Bu, artikulyar hərəkətlərin dəqiqliyi və uyğunluğunun pozulmalarında özünü göstərir. Əsasən, zərif, fərqləndirici hərəkətlərin yerinə yetirilməsində pozulmalar müşahidə olunur. Beləliklə, artikulyar əzələlərdə ifadə olunmuş ifliclər olmadıqda da iradi hərəkətlər qeyri-iradi və uyğunsuz, tez-tez həddən artıq hərəkəti ilə həyata keçirilir.

Məsələn, uşaq dili ilə burnunun ucuna toxuna bilir, eyni zamanda, dilini loqopedin üst dodağın üstündə dəqiq göstərdiyi yerə çatdıra bilmir. Adətən, bu pozulmalar hərəkətlərin növbələşməsində, məsələn, xortum-dişağartma və s. çətinliklərlə, həmçinin məcburi, qeyri-iradi hərəkətlərin xırda titrəyişlərinin meydana çıxması zamanı müəyyən artikulyasiya pozalarının saxlanmasında ortaya çıxan çətinliklərlə birləşir [2].

Koordinasiya pozulmalarında ayrı-ayrı səslərin tələffüzü səviyyəsində yox, hecaların, sözlərin, cümlələrin tərkibində avtomatlaşdırılmış səslərin tələffüzündə pozulmalar baş verir. Bu, ayrı-ayrı səslərin və hecaların tələffüzü üçün lazım olan bəzi artikulyasiya hərəkətlərinin qoşulmasında gecikmələrlə əlaqədardır. Nitq ləngiyir və heca-heca, qırıq-qırıq, ucadan danışıq meydana çıxır.

Reseptorların təmin edilməsi iradi hərəkətlərin yerinə yetirilməsindəki rolu barədə ilk dəfə Şerinqton [1923, 1935] tərəfindən eksperimentlər aparılmışdır. Müəyyən olunmuşdur ki, ixtiyari hərəkətlərdə əzələlərin yığılmasını təmin edən əsəb mərkəzlərinin oyanması ilə yanaşı, əks funksiyaları yerinə yetirən əzələlər qrupuna nəzarət edən mərkəzlərin oyanıqlığını azaldan, induksiya nəticəsində meydana çıxan tormozlanma böyük rol oynayır [3, s. 20-28).

Bir çox əzələlərdə əsas hərəkəti yerinə yetirən liflərlə yanaşı, antoqonist qruplar da var. Bunların birgə işi normal səs tələffüzü üçün lazım olan hərəkətlərin dəqiq təbəqələşməsinə səbəb olur. Belə ki, dili ağız boşluğundan çıxartmaq, xüsusən də dil ucunu yuxarı qaldırmaq üçün çənə-dil əzələlərinin aşağı dəstəsi yığılmalıdır, lakin, eyni zamanda, həmin əzələlərin dili geriyə və aşağı çəkən lifləri boşalmalıdır, əgər bu seçici orqanlar baş vermirsə, onda bu hərəkətin yerinə yetirilməsi və bir sıra dilönü səslərin tələffüzündə pozulmalar gedir.

Dilin geriyə və aşağı hərəkəti zamanı bu əzələnin aşağı dəstəsi boşalmalıdır. Çənə-dil əzələsinin orta dəstələri dil arxasını yuxarıya doğru qatlayan uzunsov əzələ lifləri hesab olunur. Dilin aşağı hərəkətində dilaltı dil əzələləri bizvari-dil əzələlərinin lifləri, dilin geriyə hərəkətində iki əzələ əl barmaqlarının hərəkətində işləyir. Dilin bir istiqamətdə yana hərəkətləri yalnız digər tərəfin cüt əzələlərinin boşalması zamanı mümkün olur.

Dilin orta xətlə bütün istiqamətlərdə irəli, geri, yuxarı, aşağı, simmetrik hərəkət etməsi üçün sağ və sol tərəfin əzələləri aqonist əzələlər kimi sinxron işləməlidir, yoxsa dil yana doğru əyiləcək. Dilin vəziyyətinin dəyişməsi, onun daralması və dilin köndələn əzələlərinin yığılmasını, dilin qalınlaşmasında və genəlməsində iştirak edən vertikal əzələ liflərinin və dilaltı-dil, bizvari-dil əzələlərinin boşalmasını tələb edir.

Artikulyasiya əzələlərində məcburi hərəkətlərin və oral sinkeziyaların mövcudluğu dizartriyanın tez-tez rast gəlinən əlamətlərindən-

dir. Onlar səs tələffüzünü təhrif edir, nitqi az anlaşıqlı, ağır hallarda isə mümkünsüz edir: adətən, həyəcanlananda, emosional gərginlik keçirəndə bu hallar güclənir. Buna görə də, nitq ünsiyyəti vəziyyətindən asılı olaraq, səs tələffüzü pozulmaları müxtəlifdir. Bu zaman dilin, dodağın dartılması, qıcolma, sifətin əyilməsi ilə yanaşı, dilin xırda titrəmələri, ağır hallarda ağızın qeyri-ixtiyari açılması, dilin irəli çıxması, məcburi təbəssüm qeyd olunur [5].

Məcburi hərəkətlər, artikulyasiya pozulmalarında, dil orta xətdə olarkən də baş verir. İxtiyari hərəkətlər yerinə yetirilərkən və ya onlara cəhd olunanda bunlar güclənir. Bununla məcburi hərəkətlər, ixtiyari və ya başa düşülməyən hərəkətlərlə paralel icra olunan qeyri-ixtiyari hərəkətlərdən fərqlənir. Məsələn, dilin yuxarıya hərəkətində, aşağı çənəni yuxarıya qaldıran əzələlər, zamanı bütün boyun əzələləri gərginləşir və uşaq hərəkəti başını əyməklə yerinə yetirir.

Qeyri-ixtiyari hərəkətlər yalnız nitq əzələlərində yox, skelet əzələlərində və funksional cəhətdən daha sıx bağlı olan şöbələrində də müşahidə oluna bilər. Dizartriyalı uşaqlarda dilin hərəkəti zamanı çox vaxt sağ əlin barmaqlarının, xüsusilə tez-tez böyük barmağın müşayiətedici hərəkətləri meydana çıxır.

Dizartriyanın xarakterik əlamətlərindən biri də artikulyasiya aparatı əzələlərindən gələn afferent impulsların pozulmasıdır. Uşaqlar dilin, dodaqların vəziyyətini zəif hiss edir, təqlid yolu ilə artikulyasiya quruluşunu təkrar etmək və onu qoruyub saxlamaqda çətinlik çəkirlər, bu da çatışmazlığın inkişafını ləngidir.

Dizartriyanın tez-tez özünü göstərən əlamətlərindən biri artikulyasiya nitq səslərini və onların seriyalarını, sözləri tələffüz etmək bacarığı çatışmazlığıdır. Dizartriya ikincili artikulyasiya aparatı əzələlərinin pozulması nəticəsində, həm də birincili beyin zədələnmələrinin lokallaşdırılması ilə əlaqədar ola bilər. A.R. Luriyanın işləri əsasında pozulmaların iki tipi qeyd olunur: kinestetik və kinetik.

Kinestetik artikulyasiya quruluşunun, əsasən, samit səslərin ümumiləş-dirilməsi inkişafındakı çatışmazlıqlar, çətinliklərlə qeyd olunur.

İrsi pozulmalarda artikulyasiya quruluşunun təşkili zamanı çatışmazlıq qeyd olunur. Bu halda həm sait, həm də samit səslərin tələffüzü pozulur. Saitlər tez-tez uzanır, onların artikulyasiyası neytral a səsinə yaxınlaşır. Əvvəldə və ya sonda gələn samitlər gərgin, ya uzadılaraq tələffüz olunur, onların spesifik dəyişmələri də qeyd olunur: aralıq səsləri, partlayan səslərlə z-d səs əlavəsi qeyd olunur.

Dizartiyada ağızda səsin avtomatlaşması aşkar oluna bilər: sorucu, xortum, axtarış, ovucbaş və erkən dövrdə uşaqlar üçün norma sayılan digər reflekslər. Bu reflekslərin mövcudluğu ixtiyari olaraq, ağız hərəkətlərini çətinləşdirir.

Artikulyasiya motorikasının pozulmaları uzlaşaraq, dizartriyanın birinci əsas sindromunu, yəni, artikulyasiya pozulmaları sindromunu yaradır. Bu sindrom beyin pozulmalarının ağırlığı və lokallığından asılı olaraq formasını dəyişir [4, s.78].

Dizartriyada tənəffüs əzələlərinin təmin olunması, pozulması hesabına nitq tənəffüsü pozulur. Tənəffüs ritmi nitqin məzmununun mənası ilə tənzimlənir, nitq yanında o, adətən, tezləşir, ayrı-ayrı hecaların və ya sözlərin tələffüzündən sonra uşaq səthi təlaşla nəfəs alır, aktiv nəfəsvermə müddəti qısalır və ağızın daim yarımaçıq olmasına baxmayaraq, burun nəfəsverməsi baş verir.

Nəfəsalma və nəfəsverməni həyata keçirən əzələlərin işindəki uyğunsuzluq uşaqda nəfəsalma zamanı danışıq tendensiyası yaradır. Bu tənəffüs hərəkətləri üzərində ixtiyari nəzarəti, həmçinin tənəffüs, artikulyasiya və səs fondlaşdırılması arasında koordinasiyanı daha artıq pozur.

Dizartriyanın ikinci sindromu-nitq tənəffüsünün pozulmasıdır.

Dizartriyanın növbəti xarakter xüsusiyyəti səs pozulması və melodiya-intonasiya pozulmalarıdır. Səs pozulmaları dil, dodaq, yumşaq damaq, səs telləri, udlaq əzələlərinin natamam iflic, onların əzələ tonusu pozulmaları, hərəki məhdudluğu ilə əlaqədardır. Səs aparatı əzələlərinin yığılması səs tellərinin titrəmə imkanlarını tamamilə istisna edə bilər. Bu isə cingiltili samitlərin əmələgəlmə prosesini kəskin pozur. Səs tellərinin titrəməsi həm də səs aparatı əzələlərinin zəifliyi və iflici nəticəsində pozulur. Belə şəraitdə səsin gücü minimum həddə olur.

Dizartriyada səs pozulmaları çox müxtəlifdir, onun müxtəlif formaları üçün spesifikdir. Onlar daha çox səsin gücünün kifayət qədər olmaması ilə səs zəifdir, sakitdir, nitq prosesində tükənir, səs ahənginin pozulması ilə boğuq, burun səsi, xırıltılı, monoton, qısıq, sönük, qırtlaq

səsi gərgin, qırıq-qırıq, gücləndirilmiş və s. səs modulyasiyalarının zəif ifadə və ya heç olmaması ilə uşaq səs tonunun yüksəkliyini müstəqil dəyişə bilməməsi ilə xarakterizə olunur.

Dizartriyada dilin ən aşağı fonoloji vəziyyəti pozulur. Nitq funksiyasının intensiv inkişafı dövründə dilin fonoloji səviyyəsinin pozulması bəzi hallarda uşağın bütün nitq inkişafının patologiyasına səbəb ola bilər. Bununla əlaqədar ayrı-ayrı dizartriyalı uşaqlarda nitq inkişafının ahəngində ləngimələr, nitqin leksik-qrammatik sırasının ikincili pozulmaları, nitq zəifliyi halları müşahidə olunur.

Dizartriyada nitq pozulmaları ilə yanaşı, qeyri-nitq pozulmaları da müşahidə olunur. Bunlar sorma, udma, çeynəmə, ümumi motorika, əl barmaqlarının zərif diferensiallaşmış motorikasının pozulmaları ilə birləşən fizioloji tənəffüs pozulmaları şəklində təzahür edən bulbar və saxta bulbar sindromlarıdır [1, s. 96].

Beləliklə, dizartriyanın əsas simptomları - səs tələffüzünün pozulmaları və nitqin prosodik tərəfləri-artikulyasiya, tənəffüs və səs pozulma təzahürlərinin ifadə olunma səviyyəsi və xarakteri ilə müəyyən olunur.

**Problemin aktuallığı.** Dizartriyanın təsnifatının səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək və həmin istiqamətdə məqsədyönlü işlərin aparılması aktuallıq daşıyır.

**Problemin elmi yeniliyi.** Dizartriyanın təsnifatının səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilir və bu istiqamətdə aparılacaq işlər diqqət mərkəzinə çatdırılır.

**Problemin praktik əhəmiyyəti.** Mütəxəssislər dizartriyalı uşaqların xarakterik xüsusiyyətlərini bilməklə, bu uşaqların nitqini korreksiya edərkən müsbət nəticələr əldə edəcəklər.

**Ədəbiyyat:**


1. Dostuzadə, D.Ə. Sadıqov F.B. Dizartriya. D.Ə. Dostuzadə, F.B. Sadıqov. -Bakı, -2017. - 206 s.
2. Бабина, Г.В. Речевые нарушения при детском церебральном параличе/ Г.В. Бабина / Вопросы логопедии. - М.: МГПИ, -1978.- 136 с.
3. Борякова, Н.Ю. Практикум по коррекционно-развивающим занятиям / Н.Ю. Борякова, А.В. Соболева, В.В. Ткачева.-М.: Наука, -1994.- 136 с.
4. Выявление и преодоление речевых нарушений в дошкольном возрасте: метод, пособие/2005.- 224 с.
5. Лопатина, Л.В. Нарушения мимической мускулатуры и артикуляционной моторики у детей со стертой формой дизартрии / Речевые и нервно-психические нарушения у детей и взрослых / Л.В. Лопатина. -Л., -1987.


**E-mail:** rasimrzaxanov@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **D.Ə. Dostuzadə,**
*ped.ü.fəls.dok*. **L.H. İmanova**
**Redaksiyaya daxil olub:** 26.01.2022.

**UOT 159.9**

***Samirə Elxan qızı Cəfərova***
*Gəncə Dövlət Universitetinin baş müəllimi*
*https://orcid.org/ 0000-0001-9458-370X*
*https://doi.org/10.5281/zenodo.6450150*

***Lalə Kamal qızı Rəhimova***
*Gəncə Dövlət Universitetinin müəllimi*
https://orcid.org/ 0000-0002-7731-9728

## SÜNİ İNTELLEKT ÜMUMİ TƏHSİLİN YENİLİK KOMPONENTİ: DÜNYA TƏCRÜBƏSİNİN TƏHLİLİ VƏ DAXİLİ PERSPEKTİVLƏR

***Самира Эльхан гызы Джафарова,***
*старший преподаватель Гянджинского Государственного Университета*

***Лала Камал гызы Рагимова***
*преподаватель Гянджинского Государственного Университета*

## ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ ИННОВАЦИОННЫЙ КОМПОНЕНТ ОБЩЕГО ОБРАЗОВАНИЯ: АНАЛИЗ МЕЖДУНАРОДНОГО ОПЫТА И ВНУТРЕННИЕ ПЕРСПЕКТИВЫ

***Samira Elkhan Cafarova,***
*senior teacher of Ganca State Universitety*

***Lala Kamal Rahimova***
*teacher of Ganca State Universitety*

## ARTIFICIAL INTELLIGENCE AS A COMPONENT OF INNOVATIVE CONTENT OF GENERAL EDUCATION: ANALYSIS OF WORLD EXPERIENCE AND DOMESTIC PROSPECTS

**Xülasə.** Müxtəlif ölkələrin təhsil sistemlərinə süni intellektin daxil edilməsi məsələsinin hələ inkişaf mərhələsində olması göstərilir. Məlum olub ki, bu gün süni intellektə ən çox öyrənmə obyekti kimi deyil, məktəblilərə öyrətmə vasitəsi kimi baxılır. Tədqiqatın nəticələri ümumtəhsil məktəblərində süni intellektin əsaslarının öyrənməsinə yanaşmalar təklif etməyə və tədris materialının məzmununun öyrədilməsi məktəblilərin yaş xüsusiyyətlərinə uyğunlaşdırmağa, sistem formalaşdıran bilik və bacarıqların müəyyən edilməsinə, habelə ümumi təhsil məktəbinin informatika müəlliminin peşə fəaliyyətinin səmərəliliyinin artırılmasına imkan verir.
***Açar sözlər:*** *süni intellekt, kompüter elmləri üzrə məktəb kursu, məktəblilərin ümumi təhsili, kompüter elmləri üzrə tədris metodları, rəqəmsal texnologiyalar*

**Резюме.** В статье подчеркивается, что вопрос включения искусственного интеллекта в образовательные системы различных государств находится на стадии разработки и проектирования, основанных на различных подходах. Выявлено, что сегодня искусственный интеллект чаще всего рассматривается как средство обучения школьников, а не как объект их изучения. Результаты проведенного исследования позволили предложить подходы к обучению основам искусственного интеллекта в общеобразовательной школе, реализация которых дают возможность адаптировать содержание учебного материала к возрастным особенностям школьников, определить системообразующие знания и умения, а также повысить эффективность профессиональной деятельности учителя информатики общеобразовательной школы.
***Ключевые слова:*** *искусственный интеллект, школьный курс по компьютерным наукам, общее образование школьников, учебные методы по компьютерным наукам, цифровые технологии*

**Summary.** It is shown that the issue of including artificial intelligence in the educational systems of various states is at the stage of development and design, which is based on various approaches. It was revealed that today, artificial intelligence is most often regarded as a means of teaching schoolchildren, and not as their object of study. The results of the study made it possible to propose approaches to teaching the basics of artificial intelligence in a general school.

***Key words:*** *artificial intelligence, school course in computer science, general education of schoolchildren, teaching methods in computer science, digital technologies*

Hal-hazırda süni intellektin (Sİ) didaktik element sahələri təhsildə öz əksini tapmamışdır. Ancaq informatika sahəsindəki nəzəri və tətbiqi inkişafın əhəmiyyətli bir sahəsi olan süni intellekt müasir insanın iş şəraitini və həyatını dəyişdirə bilər. Çox tezliklə insan fəaliyyətinin müxtəlif sahələrində süni intellekt texnologiyalarının bilikləri hər hansı bir peşə sahiblərindən tələb ediləcəkdir. Ona görə də süni intellektin əsaslarının tətbiqini məktəb təhsilinə salınmasının yolları araşdırılmalıdır. Problemin həlli üçün məktəblərdə süni intellekt sahəsində tədrisin əsas prinsipləri, məzmununa uyğunlaşdırma, tədris materialının şagirdlərin yaş xüsusiyyətlərinə və normaya uyğun öyrənilməsi, təhsil ərzində əsas sistem formalaşdırması, bilik və bacarıqlarını müəyyənləşdirməsi lazımdır. Süni intellektin dinamik inkişaf edən çoxsaylı komponentlərlə - yəni bilik təqdimatı, bilik əldəetmə, əsaslandırma, maşın öyrənmə, qərar qəbuletmə, prosesə nəzarət və ağıllı sistemlə fərqlənən bir elim sahəsidir. Sənayenin inkişafında süni intellektin əhəmiyyəti dövlət səviyyəsində vurğulanır. (Sİ) əsaslarının məktəb tədrisində mümkün yanaşmaları müəyyənləşdirmək üçün dünyanın aparıcı ölkələrində süni intellektinin tədrisi təcrübəsini nəzərdən keçirək. Amerika məktəblərində süni intellektin elementləri yuxarı sinif tədrisində öyrədilir. Qeyd etmək lazımdır ki, Amerika məktəb tədris modelində şagirdlər süni intellektin praktik fəaliyyətini öyrənirlər. Son zamanlar Amerika məktəblərində robot və proqramlaşdırmağa maraq artıb və süni intellekt vasitələri motivasiya üçün istifadə olunur. Amerika tədqiqatçılarının fikrincə, bu şagirdlərdə müasir sosial və peşə fəaliyyətinin şərtləri haqqında təsəvvürünü formalaşdırır. Süni intellekt platforması süni zəkanı araşdırması üçün proqramlaşdırma vasitələri və insanları kompüter elmlərini öyrənməyə sövq etmək üçün istifadə olunur. 2018-ci ildə SI-nin İnkişafı Assosiasiyası və informatika Müəllimləri Birliyi tərəfindən AI4K12 işçi qrupu yaradılmışdır ki, bu işçi qrup məktəb məzunu hazırlığına dair tələbləri – bilik mühəndisliyi və Data Mining, böyük məlumat massivləri və neyron şəbəkələr təlimi formalaşdırmışdır.

2019-cu ildə Çində də məktəblərdə süni intellektin tədrisi dərsləri tətbiq olundu. Bunun üçün süni intellekt ilə bağlı bir sıra dərsliklər (10 cild) hazırlanmışdır. Onlardan süni intellektin inkişaf tarixi, müxtəlif texnologiyaları, insanların üzlərini tanımaq üçün proqram, avtonom sürmə, ictimai təhlükəsizliyi və s. Tədris vaxtı mövzunun formalaşmasına yönəlmiş praktik məşqlər aparmaq planlaşdırılır. İngiltərədə isə məktəblərdə kompüter elmləri sahəsində tədris aşağı səviyyədədir və İngiltərə Parlamentinin Elm və Texnologiya Komitəsinin nümayəndələrinin fikrincə bu nöqsanı tez bir zamanda aradan qaldırmaq lazımdır. Xüsusi diqqət şagirdlərin robot texnikası sahəsində layihələrinə verilməlidir. Alman məktəblərində təhsilin məzmununun formalaşmasına vahid yanaşma mövcud deyil, çünki hər federal əyalət öz məktəb fənlərinin siyahısı və onların məzmununu tətbiq edir. Məsələn, 5-7-ci siniflərdə "İnformasiya Texnologiyalarının Əsasları" fənnini öyrənmək məcburidir və 8-12-ci siniflərdə "İnformatika" fənni şagirdlərin istəyinə görədir. İsrail məktəblərində şagirdlərin inkişafına yönəlmiş müxtəlif kurslar təklif olunur: xarici dillər və proqramlaşdırma sistemləri, mühəndislik və süni intellekt texnologiyaları. Yuxarı sinif şagirdləri proqram təminatının hazırlanmasını öyrənirlər. Bu təlim Racket funksional proqramlaşdırma dilini istifadə edərək, alqoritm kompleksi (kor axtarış, maşın təlimi) vasitəsilə həyata keçirilir. Rusiya məktəblərində süni intellektin elementlərinin öyrənilməsi XX əsrdə başlayıb və süni intellektin elementlərini məktəblərdə tədrisi məcburi deyil, daha çox yuxarı siniflərdə informatika sahəsində dərin səviyyədə tədris çərçivəsində həyata keçirilir. Misal olaraq, 11-ci sinif şagirdləri üçün N. N. Samylkina tədris-metodik kompleksi xidmət edə bilər.

Bu gün məktəblilər üçün süni intellektlə bağlı layihələr yaranmağa başlayıb. Bu layihələr çərçivəsində robotların tərkib qurğusu, maşın təlimi və neyron şəbəkələrinin qurulmasını, fizika, riyaziyyat, informatika və biologiya üzrə məktəb biliklərinin süni intellektlə necə bağlı olduğunu, tezliklə hansı yeni peşələrin meydana çıxacağını, hansı peşələrin keçmişdə qalacağını öyrənmək mümkün olur. "Süni intellekt Akademiyası" rəqəmsal texnologiyalara marağın artması məqsədi ilə şagirdlər üçün süni intellekt, maşın öyrənmə texnologiyaları, böyük məlumatların təhlili və proqramlaşdırmaya aid təlim keçirilir və yarışlar təşkil olunur. Eyni zamanda, rus məktəblərində süni intellekt tədris ideyasının təbliği ancaq bəzi innovasiyaya meylli müəllimlər tərəfindən aparılır. Bu, Moskva elektron kitabxanasının resurslarının təhlili ilə təsdiqlənir. Kitabxanada süni intellektin elementlərinin öyrədilməsinə yönəldilmiş yalnız bir neçə dərs ssenarisi tapa bilərsiniz. Beləliklə, insan fəaliyyətinin müxtəlif sahələrində süni intellekt texnologiyalarının geniş tətbiqi məktəblilərə süni intellekt sahəsini öyrətmək üçün yeni üsullar tələb edir. Nəzərə almaq lazımdır ki, rus məktəb təhsilində süni intellekt haqqında biliklər praktik yox, daha çox fundamental xarakter daşıyır.

**Problemin aktuallığı.** Təhsil sistemində informatika müəlliminin hazırlığı və modernləşdirilməsi problemi, müəllim hazırlığına innovativ metodlarla yanaşma aktuallıq kəsb edir.

**Problemin yeniliyi.** Məqalədə təhsil sistemində süni intellektin tətbiqi ilə gələcək mütəxəssislərin hazırlanmasında müəllim hazırlığının rolu öz əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə təhsil sistemində fəaliyyət göstərən informatika müəllimləri üçün faydalıdır.

**Ədəbiyyat:**


1. Левченко, И.В. Формирование инвариантного содержания школьного курса информатики как элемента фундаментальной методической подготовки учителей информатики // Вестник Российского университета дружбы народов. Серия: Информатизация образования. -2009. № 3. -С. 61-64.
2. Национальная стратегия развития искусственного интеллекта в России на период до 2030 года: указ Президента РФ от 10 октября 2019 года № 490. URL:http://www.consultant.ru/document/cons_doc_LAW_335184
3. K-12 Computer Science Framework. URL: http://www.k12cs.org
4. Murphy, R.F. Artificial Intelligence Applications to Support K–12 Teachers and Teaching //A Review of Promising Applications, Opportunities, and Challenges.RANDCorporation, 2019.URL:https://www.rand.org /content/dam/rand/pubs/perspectives/PE300/PE315/RAND_PE315.pdf
5. В КНР появился первый школьный учебник по основам искусственного интеллекта // РИА Новости. 28.04.2018. URL: https://ria.ru/20180428/1519657500.html
6. Школьники и искусственный интеллект. URL:https://intalent.pro/article/shkolnikii iskusstvennyy-intellekt.html
7. Official website of the Ministry of education and training of North Rhine-Westphalia.URL: https://www.schulministerium.nrw.de
8. Official website of the real school Von-Fürstenberg-Realschule. URL: http://rsvonfuerstenberg.lspb.
9. Official website of the school St. Michael. URL: http://www.michaelsschule.
10. Sperling A., Lickerman D. Integrating AI and Machine Learning in Software Engineering Course for High School Students // Innovation and Technology in Computer Science
11. Education (ITiCSE), July 3–5, 2012, Haifa, Israel. 2012. Pp. 244–249.
12. Лапчик, М.П., Семакин И.Г., Хеннер Е.К. Методика преподавания информатики.М.: Академия, 2001. 624 с.
13. Калинин, И.А., Самылкина Н.Н. Информатика. М.: БИНОМ. Лаборатория знаний,2013. 212 с.
14. Ясницкий, Л.Н. Искусственный интеллект. Элективный курс. М.: БИНОМ. Лаборатория знаний, 2012. 197 с.


**E-mail:** cafarova_samira@bk.ru

**Rəyçilər:** *fiz.ü. fəls.dok. dos***. Ə. A. Aslanov,**
*ped.ü.fəls.dok., dos.* **N.R. Abbasov**
**Redaksiyaya daxil olub:** 27.01.2022.

**UOT 376**

***Səlbi Ağamehdi qızı Abasova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0000-0001-6353-5588*
*https://doi.org/10.5281/zenodo.6450161*

# UŞAQ SEREBRAL İFLİCİ ZAMANI KOMMUNİKATİV FUNKSİYANIN VƏ EMOSİONAL-İRADİ SFERANIN FORMALAŞMASININ POZULMASI

***Сальби Агамехди гызы Абасова***
*преподаватель Азербайджанского Государственого Педагогического Университета*

# НАРУШЕНИЯ КОММУНИКАТИВНОЙ ФУНКЦИИ И ФОРМИРОВАНИЕ ЭМОЦИОНАЛЬНО-ВОЛЕВОЙ СФЕРЫ ПРИ ДЕТСКОМ ЦЕРЕБРАЛЬНОМ ПАРАЛИЧЕ

***Salbi Agamehdi Abasova***
*дecturer at Azerbaijan State Pedagogical University*

# DISTURBANCES OF COMMUNICATIVE FUNCTIONS AND FORMATION OF EMOTIONAL WILL SPHERES IN CHILD'S CEREBRAL PARALISH

**Xülasə.** Ünsiyyət insan fəaliyyətinin spesifik forması olaraq onun sosial davranışının əsas tənzimləyicilərindəndir. Ünsiyyət şəxsiyyətin formalaşmasına, psixi proseslərə, psixi xassələrə və psixi vəziyyətlərə həlledici təsir göstərir. Ünsiyyətin vacib komponenti birgə həyat və fəaliyyətdə insanların bir-birini tanıması olan qnostik komponentdir. Ünsiyyət insanları anlamaq, onların psixologiyasından xəbərdar olmaq, ətrafdakıların emosional halına və davranışlarına adekvat yanaşmaq bacarığından irəli gəlir.
***Açar sözlər:*** *ünsiyyət, kommunikativ funksiya, emosional-iradi sfera, ünsiyyət vasitəsi, verbal ünsiyyət*

**Резюме.** Общение как специфическая форма человеческой деятельности является одним из основных регуляторов поведения. Общение оказывает решающее влияние на формирование личности, психические процессы, психические свойства и психические состояния. Важным компонентом общения является гностический компонент, где люди узнают друг друга в сосуществовании и деятельности. Общение происходит от способности понимать людей, осознавать их психологию, адекватно подходить к эмоциональному состоянию и поведению других.
***Ключевые слова:*** *общение, коммуникативная функция, эмоционально-волевая сфера, средства общения, вербальное общение*

**Summary.** Communication as a specific form of human activity is one of the main regulators of behavior. Communication has a decisive influence on the formation of personality, mental processes, mental properties and mental states. An important component of communication is the gnostic component, where people get to know each other in coexistence and activity. Communication comes from the ability to understand people, to be aware of their psychology, to adequately approach the emotional state and behavior of others.
***Key words:*** *communication, communicative function, emotional-volitional sphere, means of communication, verbal communication*

Ünsiyyət – insanlar arasında qarşılıqlı fəaliyyətə tələbat yaradan kontaktın yaranması və inkişafının çoxplanlı prosesidir. Bu prosesə informasiya mübadiləsi, başqa insanın anlanılması, qavranılması, qarşılıqlı fəaliyyət üçün vahid strategiyanın hazırlanması daxildir.

Uşağın həyatının ilk ilində uşağın nitqi yaranır və ünsiyyət prosesində inkişaf edir. Yeni doğulmuşların və erkən yaşlı uşaqların diqqəti

simada, nitqdə, audial və vizual qıcıqlandırıcılarda saxlamağı onun ünsiyyəti nəzərdə tutulur. Artıq nitqəqədərki dövrdə ünsiyyətin müxtəlif üsulları formalaşır.

M.İ. Lisina (1974-1981) tərəfindən ünsiyyət vasitəsi kimi nitqin mənimsənilməsi prosesinin üç əsas mərhələsi ayırd edilmişdir: verbaldan öncə, nitqin yaranması mərhələsi, nitq ünsiyyətinin inkişafı mərhələsi. Uşağın həyatının ilk yarım ilində dominantlıq edən böyüklərlə emosional situativ-şəxsi ünsiyyət nitqin formalaşması üçün vacib amildir. Bu zaman ünsiyyətin inkişafında qeyri-verbal formalar olan ağlama, qışqırma, təbəssüm, nəzərlər vacib yer tutur.

Qışqırma mənfi emosiyalar fonunda yaranır və aktiv kommunikativ vasitədir. Ağlama tədricən ünsiyyət vasitəsinə çevrilir. Serebral iflicli uşaqların ağlaması həyatın bir neçə ayı ərzində sağlam uşaqların ağlamasından kəskin fərqlənir. Uşağın ağlamasının xarakteri, ifadəliliyi, tonallığı, intonasiya rəngarəngliyi gücü, davamlılığı və ritmi pozulmaların xarakterini müəyyən etmək imkanını verir. Xəstə uşaqların ağlamağı adətən solğun, monoton, aritmik, qırıq-qırıq və fraqmentar eyni tiplidir.

Nitq əsas ünsiyyət vasitəsi kimi hərəkət və sosial kontakt vasitəsilə inkişaf edir və onun əsası hələ uşağın həyatının ilk ilində qoyulur. Serebral iflicli uşaqda sensomotor sferada, üz mimikası və jestlərin idarə edilməsində, kinestetik qavramada, tənəffüs, artikulyasiya, səs tələffüzü və hərəkətlərə nəzarətdə kənara çıxmalar olduqda uşaqların ətraf mühitdə müstəqil olaraq özlərini reallaşdırması imkanı itir. Bütün bunlar kommunikativ fəaliyyətə və ümumilikdə psixi inkişafa bilavasitə təsir edir.

Serebral iflicli uşaqlarda ünsiyyət funksiyası sağlam uşaqlardan fərqli olaraq qeyri-bərabər inkişaf edir. Serebral iflic zamanı 2-3 yaşında ünsiyyət motivləri, formaları və tələbatları nisbətən inkişaf etmiş olur. Ünsiyyət vasitələri sonuncu yeri tutur. Hərəkətlərin koordinasiyasının və artikulyasiyanın pozulmaları böyüklərlə ünsiyyət prosesində əlverişsiz olaraq əksini tapır. Eləcə də ünsiyyətdə şəxsi emosional vəziyyəti ifadə edə bilməmək ünsiyyətə mənfi təsir edir.

Sağlam uşaqlardan fərqli olaraq, serebral iflicli uşaqlar həyatın ilk 3 ilində passiv olur və böyüklərlə əməkdaşlıq etmək üçün heç bir maraq göstərmirlər. Onlar şəxsi həvəsləri ilə ünsiyyətə can atmırlar, amma inadlı olaraq həvəsləndirdikdə və dəstək verdikdə kontakt qurmağa nail olmaq olar. Böyük ona müraciət etdikdə uşaqlar təəssüratları ilə paylaşır və mütəmadi olaraq böyüyün diqqətini və dəstəyini axtarırlar. Sağlam uşaqlardan fərqli olaraq nadir halda ekspressiv-mimik nitqdən, daha çox jestlərdən istifadə edirlər.

Serebral iflicdən əziyyət çəkən uşaqlara ünsiyyət prosesində iştirak etmək üçün böyüklərin motivasiyası tələb olunur. Oyuncaq və əşyalarla fəaliyyət vahid xarakter daşıyır, çox nadir hallarda böyüklə birgə fəaliyyət həvəsi və ya böyüyün hərəkətlərini təlqinetmə marağı yaranır. Uşaq böyüyə fikir vermir, oyuncaq və ya yeni məşğuliyyətlər onu böyüklərlə kontaktdan daha çox maraqlandırır. Oyunu kiminləsə paylaşmaq və ya oyun əsnasında ona müraciət etmək üçün aktiv cəhdlər müşahidə olunmur.

Ünsiyyət prosesində serebral iflicli 2-3 yaşlı uşaqlar nadir hallarda nitqdən istifadə edirlər. Ekspressiv-mimik ünsiyyət vasitələri, canlı baxma, spontan hərəki reaksiyalar dərhal yaranmır və qısamüddətli, monoton və az ifadəli olur. Serebral iflicli uşaqlar ünsiyyət prosesində jestlərdən istifadə etməyə üstünlük verir, emosiyalarını ifadə etmək üçün jestləri kəskin mimika ilə və nida qrimasaları ilə müşayiət edirlər. Böyüklərlə kontakt ancaq motivasiya və dəstəklə yarana bilər.

Onlarda emosional vəziyyət və ya öz təəssüratları ilə bölüşmək arzusu zəif təzahür edir.

Beləliklə, serebral iflicli uşaqlarda ilk 3 ildə sağlam uşaqlarda olduğu kimi motiv və ünsiyyət formaları formalaşır. Lakin ünsiyyətə tələbat daha az ifadə olunur. Bu, xəstə uşaqlara münasibətdə böyüklərin təbii hiper qəyyumluğu, uşaqların sensomotor çatışmazlıqları ilə şərtlənən idrak fəaliyyətinin inkişafsızlığı və ev şəraitində sosial təcrid ilə izah olunur. Ünsiyyət vasitələrinin inkişafdan qalması serebral iflicli uşağın kommunikativ fəallığının zəif olması və özündə motor komponentləri birləşdirən funksiyaların yetərincə inkişaf etməməsindən irəli gəlir.

Uşaqlar özlərini eyni tərzdə və passiv aparır, böyüklərlə kontakt yaratmağa cəhd etmirlər. Yaş artdıqca serebral iflicli uşaqlarda ünsiyyətin inkişafı qeyri-bərabərliyi ilə fərqlənir. Serebral iflicli uşaqların həyatının birinci ilinə nisbətən sonradan ünsiyyət cəhdi artsa da, onlar böyüklər tərəfindən

davamlı olaraq fəallığa, inisiativliyə həvəsləndirilməli, nitqdən və ünsiyyətin ekspressiv vasitələrindən aktiv olaraq istifadə etməlidirlər.

Serebral iflicli uşaqlar məktəbəqədər və məktəb yaşı dövründə daha az sözlərdən istifadə edir və onların cavabları az fərqli olur.

Xaupt USİ zamanı beş tip kommunikativ pozulma fərqləndirir:

– hərəki pozulmalarla əlaqədar;
– beynin zədələnməsi ilə əlaqədar;
– uzun müddətli ambulator şəraitlə əlaqədar;
– sosial-emosional problemlərlə əlaqədar;
– fiziki qüsurla əlaqədar.

Tənəffüsün, boğaz və udlaq əzələlərinin, artıkulyator əzələlərin işinin, pozulması, nitqəqədərki dövrdə ağlama, qığıldama və hecalamaların formalaşmasına mənfi təsir göstərir. Zəif koqnitiv fəaliyyət və kommunikativ təcrübənin olmaması kommunikativ vərdişlərin formalaşmasına təsir edən əsas amillərdir.

Hərəki pozulmaları olan uşaq ünsiyyət qurmağa cəhd edərkən müxtəlif çətinliklərlə üzləşməli olur, onun üçün kontakt yaratmaq çətin olur, çünki çox zaman onun nəzərləri, hərəkətləri düzgün başa düşülmür. Uğursuz kontaktlardan sonra serebral iflicli uşaqlar nadir hallarda ünsiyyət fəallığını öz üzərlərinə götürürlər.

Hərəki pozulmalar həm də qeyri-verbal ünsiyyətə də təsir edir. Əgər əllər vasitəsilə aydın olan jestləri göstərmək olmursa, məlumatı ötürmək çətinləşir. Qeyri-verbal ünsiyyət vərdişləri ətrafdakıların həmin cəhdləri anladığı halda inkişaf edə bilər.

İlk dəfə olaraq, xüsusi psixologiyaya qüsurlu uşağın şəxsiyyətinin inkişafı anlayışı L.S. Vıqotski tərəfindən gətirilmişdir. O göstərirdi ki, hər bir qüsur, hər bir bədən çatışmazlığı insanın ətraf aləmlə münasibətini müəyyən qədər dəyişən amildir. Bu da “normal olmayan sosial davranış” ilə nəticələnir. Demək, USİ zamanı hərəki çatışmazlıq sağlamlıq cəhətdən özündən fərqlənən insanlarla ünsiyyətə qoşulduqda artıq psixoloji fakt olur.

Sosial kontaktların pozulması dayaq-hərəkət aparatı patologiyaları olan uşaqların şəxsiyyətinin formalaşmasında bir sıra kənaraçıxmalar yaranır və yetərli professional psixoloji-pedaqoji korreksiya olmadıqda xarakterdə neqativ xüsusiyyətlər meydana gələ bilər.

Artıq 4 aylığından etibarən sağlam uşaq ananı gördükdə, onun səsini eşitdikdə ümumi canlanma kompleksi ilə reaksiya verir. Amma 4 ayınadək olan dövrdə onun reaksiyaları diferensiasiya olunmur, uşaq həm yaxınlarına, həm də yad adamlara eyni cür müsbət münasibət göstərə bilər. 9-10 aylığında körpə sevinərək əllərini anasına doğru açır. Yad bir adamı görərkən ona şübhə ilə, təəccüblə yanaşır, tanımadığı adam qucağına götürmək istədikdə körpə başı, əlləri və ucadan ağlamağı ilə müdafiəedici hərəkətlər edir. 6 aylığından uşaqda müxtəlif oyuncaq və oyuncaqlarla fəaliyyət zamanı pozitiv emosional reaksiyalar yaranır.

Serebral iflicli uşaqlarda emosional reaksiyaların inkişafında ləngimə müşahidə olunur. Onlarda ananı gördükdə, onun təbəssümünü, səsini eşitdikdə kompleks canlanma ifadə olunmur. Analar diqqət vermişlər ki, körpələr onları yadlardan fərqləndirmirlər. Bundan başqa, belə körpələrdə neqativ emosional təzahürlər müşahidə edilir: heç bir xarici qıcıq olmadan tez-tez ağlamaq və ya gülmək. Xüsusilə yaxın və tanış əşyalara emosional reaksiyaların pozulması uşaqda psixi inkişafın ləngiməsinin olmasına proqnostik göstəricidir. Serebral iflicli uşaqlarda hərəki qüsurların dərəcəsindən asılı olmayaraq, emosional-iradi sferanın pozulmaları müşahidə olunur. Bu pozulmalar uşağın yüksək oyanıqlığında, hər cür xarici qıcıqlara həssaslıq və qorxu ilə təzahür edir. Uşaqların bəzilərində narahatlıq, təlaş, digərlərində, əksinə passivlik, təşəbbüsün olmaması, motor ləngimə qeyd olunur.

Bir çox uşaqlar çox təsirli olmaları ilə, küsəyənliklə, səs tonuna həssas reaksiya ilə, hər irada qarşı əhvalın dəyişməsi ilə fərqlənirlər. Onlarda asanlıqla narazılıq, inadkarlıq və neqativizm reaksiyaları yaranır.

Serebral iflicli uşaqların çoxu üçün fobiyalar xarakterikdir. Qorxu sadə taktil qıcıqlar (məsələn, masaj prosesində), bədənin mövqeyi və ətraf mühit dəyişdiyi zaman yarana bilər. Bəzi uşaqlarda hündürlükdən, bağlı qapılardan, qaranlıqdan, yeni əşyalardan qorxma qeyd olunur. Qorxu hissi uşağın ümumi vəziyyətində kəskin dəyişikliyə səbəb ola bilər. Serebral iflicli uşaqlar qorxaq, qətiyyətsiz və özgüvənsiz böyüyür, yeni şəraitə düşdükdə özlərini itirirlər. Belə uşaqlar məktəbdə çox narahat olurlar, şifahi cavab verərkən qorxu hissi keçirir, bəzi hallarda

kəkələmə və hiperkinezlər təzahür edir. Onlar heç nə ilə maraqlanmırlar, bütün boş vaxtlarını dərslərinin hazırlanmasına sərf edir, verilən tapşırıqları əzbərləməyə çalışırlar. Bütün bunlar onların intellektinin inkişafına mane olur.

Məktəb yaşında belə uşaqlarda çox zaman öz sağlamlıqları üçün qorxu hissi yaranır. Daha çox bütün diqqət xəstəliyə yönəlmiş ailələrdə tərbiyə olunan uşaqlarda bu hal qeydə alınır. Evdə ancaq xəstəlik haqqında söhbət gedir, uşağın səhhətində baş verən hər hansı bir dəyişiklik valideynlərdə nəinki həyəcan, həm də panika yaradır. Belə uşağın yanında yaxınlarının xəstəlikləri haqqında danışırlar. Nəticədə uşağın diqqəti öz xəstəliyində, ağrı hislərində cəmlənir. Ailədə düzgün tərbiyə belə vəziyyətlərin qarşısını ala bilər.

Məlumdur ki, kiçik yaşlı sağlam uşaqda qorxu hissi ancaq tanış olmadığı hadisələrlə toqquşduğu zaman yaranır. Serebral iflicli uşaqda ətraf mühit haqqında təsəvvürlər çox məhduddur. Buna görə də onun dünyagörüşünü tədricən genişləndirmək, müxtəlif əşyalar və hadisələrlə tanış etmək, lakin təəssüratların bolluğu ilə yükləməmək şərtilə vacibdir. Uşağa hər hansı bir ev heyvanını əyani göstərməzdən əvvəl həmin heyvan haqqında danışmalı, uşağa onun təsvirləri təqdim edilməlidir.

Qorxu hissi dərin ifadə olunan uşağa xüsusi yanaşma tələb olunur. Valideynlər onu qorxu ilə yanaşdığı əşyalarla olduqca ehtiyatla tanış etməli, qorxunu tədricən dəf etməkdə kömək olmalıdırlar.

Qorxaqlıq, özünəinamsızlıq, ürkəklik kimi xarakterin neqativ xüsusiyyətlərin aradan qaldırılması üçün uşaqda aktivliyi, fəallığı tərbiyə etmək vacibdir. Uşaq evdə mütləq gücünə müvafiq olan işləri yerinə yetirməlidir. Onun hərəki imkanlarını nəzərə alaraq, müstəqil qidalanmaq, geyinmək, sadə məişət bacarıqlarını aşılamaq gərəkdir. Uşaq nəinki özünə qulluq etməyi öyrənməli, həmçinin, ailədə kömək məqsədilə də bir sıra fəaliyyət növlərini mənimsəməlidir, məsələn, süfrə hazırlamağa, qab-qacağı yığışdırmağa kömək etməlidir. Nəticədə onda əməyə maraq, böyüklərə kömək edə biləcəyi üçün sevinc hissi, özünəgüvən hissi yaranır.

Fəaliyyət prosesində uşağın dünyagörüşü formalaşır, intellekti inkişaf edir. Bir çox valideynlər uşağın yıxılmağından, düzgün geyinə bilməyəcəyindən, qab-qacağı sındıra biləcəyindən qorxaraq ona müstəqil olaraq iş görmək imkanı vermirlər. Bu da uşağın passiv, süst böyüməsinə gətirib çıxarır və uşaq öz yaşıdları ilə kollektiv oyunlara qoşula bilmir, oyun qaydalarına riayət etmir. Beləliklə də, uşağı çətinliklərdə qorumaq arzusu ilə daim qəyyumluq edərək uşağı uzun illər ərzində bir sıra vərdişlərin formalaşmasına imkan verməyərək onu çətin vəziyyətlərə salırlar. Səbir, təşkilatçılıq və iradi güc ailədə uşağın tərbiyəsinin əsas şərtləridir.

Xəstə uşaq üçün tez-tez qonaq getmək və ya qonaq qəbul etmək, yatmamışdan öncə emosional oyanıqlıq zərərverici amildir. Axşam saatlarında bütün ailə bir yerə toplananda uşaqda oyanıqlıq artır, tez yorulur, məcburi hərəkətləri çoxalır, ümumi narahatlığı artır. Uşağı sakitləşdirmək üçün onunla təmiz havada gəzmək, daha sakit bir fəaliyyət növünə diqqətinə cəlb etmək məsləhətdir. Daim rejimi güdmək və düzgün tərbiyə xəstə uşağın sinir sisteminin möhkəmləndirilməsinə kömək ola bilər.

Serebral iflicin diplegiya və hemiparetik formaları olan uşaq və yeniyetmələrdə emosional sferanın psixodiaqnostikası normal intellekt olduğu halda emosional labilliyi üzə çıxarmışdır ki, bu da sürətli oyanıqlığı şərtləndirir. Serebral iflicli uşaqlarda xarakterik əlamət və emosional sferanın pozulması indikatoru kimi yüksək narahatlıq səviyyəsi qeyd olunur, bu da bir sıra patogen amillərlə: serebral-üzvi çatışmazlıqla, tez-tez ambulator şəraitlə, fiziki çatışmazlıq səbəbindən narahatlıqla şərtlənir.

Serebral iflicli uşaqlarda davranış üzərində intellektual nəzarətin çatışmazlığı qeyd olunur. Yüksək emosional davranış frustrasiya situasiyalarında davranışın davamsızlığında, qarşıda duran vəzifələrin həlli bacarıqlarının zəif olmasında təzahür edir. Situasiyalarda emosional iştirakın azalması uşaqda daha adekvat davranış formalaşmasının göstəricisidir.

Serebral iflicli uşaqların şəxsiyyət profilinin əsas xüsusiyyəti emosional-iradi davamsızlıqdır. Bu əsasən yüksək səviyyəli frustrasiya, şəxsi narahatlıq və sinir proseslərinin qeyri-stabilliyində təzahür edir. Həmçinin, ətrafdakılardan asılılıq, passivlik, sosial qorxaqlıq və həssaslıq kimi davamlı xarakterik xüsusiyyətlər qeydə alınır.

**Problemin elmi yeniliyi.** Serebral iflicli uşaqların frustrasiya reaksiyalarının öyrənilməsi onların situasiyanı ölümcül, qaçılmaz bir şey kimi qavramalarını üzə çıxardı. Xəstə uşaqların bu istiqamətdə reaksiyalarını özünəməxsus psixoloji müdafiə – konfliktdən uzaqlaşmaq kimi nəzərdən keçirmək olar. Mövcud çətinliklər üzərində diqqəti cəmləmək, optimal çıxış yolunun tapılmasında çətinliklər, konfliktdən rasional çıxış, onların daxili acizliyi, həyat çətinliklərinin öhdəsindən müstəqil olaraq gələ bilməmək, passivlik, konfliktin həllində asılılıq serebral iflicli xəstələr üçün xarakterikdir.

**Problemin praktik əhəmiyyəti və aktuallığı.** Sağlam uşaqların frustrasiya situasiyalarına reaksiyaları müstəqillik, inadkarlıq, məqsədyönlülük, məsuliyyətlilik, cavabdehlik kimi şəxsi keyfiyyətlərlə müəyyən olunur. Serebral iflicli uşaqların frustrasiyaya reaksiyaları isə şəxsiyyətin emosional-iradi xüsusiyyətləri, məhz emosional davamsızlıq, narahatlıq, ünsiyyətdən qaçmaq ilə əlaqədardır. Bütün bunlar onların davranışında sosial adekvatlığı azaldır.

Yaş artdıqca, serebral iflicli uşaqlarda şəxsiyyət və emosional-iradi komponentlərin məzmunu artır. Onlarda emosional diskomfortu azaltmaq üçün konfliktdən uzaqlaşmaq tendensiyası təzahür edir. Belə müdafiə mexanizmləri irrasional olaraq xəstə uşağın davranış xüsusiyyətlərində neqativ əksini tapır.

**Ədəbiyyat:**


1. Под редакцией А. М. С. Эрмеллина Детский Церебральный Паралич. Что хотят знать родители” Федрицци, -2016
2. Под редакцией И.В. Добрякова, Т.Г. Щедриной «Детский церебральный паралич: лечение в школьном возрасте», Санкт-Петербург Издательский дом СПбМАПО .
3. Семенова, К.А. Детские церебральные параличи, -Из-во: Медицина, -1968


**E-mail**: s-asadzade@mail.ru

**Rəyçilər :** *filol.ü.fəls.dok., dos.* **T.H. Ağayeva**
*ped.ü.fəls.dok.,dos.* **S.R. Aslanova**
**Redaksiyaya daxil olub:** 27.01.2022

**UOT 159.9**

***Sara Muradxan qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ağcabədi filialının baş müəllimi*
*https://orcid.org/0000-0003-1925-5516*
*https://doi.org/10.5281/zenodo.6450175*

# MƏKTƏBİN PEDAQOJİ KOLLEKTİVİNDƏ SOSİAL-PSİXOLOJİ İQLİMİN YARADILMASI

***Сара Мурадхан гызы Мамедова***
*старший преподаватель Агджебединского филиала Азербайджанского Государственного Педагогического Университета*

# СОЗДАНИЕ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОГО КЛИМАТА В ПЕДАГОГИЧЕСКОМ КОЛЛЕКТИВЕ ШКОЛЫ

***Sara Muradxan Mammadova***
*senior lecturer of the Aghcabedi branch*
of *Azerbaijan State Pedagogical University,*

# ESTABLISHMENT OF SOCIAL-PSYCHOLOGICAL CLIMATE IN PEDAGOGICAL COLLECTIVE AT SCHOOL

**Xülasə.** Pedaqoji kollektivin birliyinin təmin edilməsi və onların vahid məqsəd ətrafında birləşərək fəaliyyət göstərmələri olduqca mühüm əhəmiyyətə malikdir. Kollektivin mütəşəkkil olması və onların vahid ideya istiqamətində birgə addımlamalarında burada yaradılan sosial-psixoloji iqlimin yüksək səviyyədə olması olduqca vacibdir. Bu, müəllimlərin peşəkarlıq səviyyəsindən, müəllim adını, şərəfini qorumaq təşəbbüsündən, məktəb rəhbərlərinin rəhbərlik səriştəsindən və bacarığından çox asılıdır. Təcrübə belə bir fikri təsdiq edir ki, pedaqoji kollektivdə sosial-psixoloji iqlimin yüksək olması burada həm müəllimlər, həm də şagirdlər üçün rahatlığın, əməkdaşlığın və işgüzarlığın olmasıdır. Təqdim olunan məqalədə pedaqoji kollektivdə belə bir iqlimin vacibliyi əsaslandırılmış, onun yaradılmasının mahiyyət və məzmunu açıqlanmışdır.
***Açar sözlər:*** *kollektiv, iqlim, funksiya, əməkdaşlıq, münaqişə*

**Резюме.** Очень важно обеспечить единство педагогического коллектива вокруг общей цели. Важно, чтобы команда была организована, и чтобы создаваемый здесь социально-психологический климат находился на высоком уровне в их совместных шагах к общей идее. Это зависит от уровня профессионализма руководителей и учителей, инициативы по защите имени и чести учителя, лидерских качеств и способностей руководителей школ. Опыт подтверждает идею о том, что высокий социально-психологический климат в коллективе является источником комфорта, сотрудничества и деловой хватки как для преподавателей, так и для школьников. В представленной статье обосновывается важность такого климата в педагогическом коллективе, разъясняется сущность и содержание его создания.
***Ключевые слова:*** *коллектив, климат, функция, сотрудничество, конфликт*

**Summary:** It is very important to ensure the unity of the teaching staff and their unity around a common goal. It is very important that the team is organized and that the socio-psychological climate created here is at a high level in their joint steps towards a common idea. It depends on the level of professionalism of teachers, the initiative to protect the name and honor of the teacher, the leadership skills and abilities of school leaders. Experience confirms the idea that the high socio-psychological climate in the teaching staff is a source of comfort,

cooperation and business acumen for both teachers and students. The presented article substantiates the importance of such a climate in the pedagogical staff, explains the essence and content of its creation.

***Key words:*** *collective, environment, function, co-operation, conflict*

Məktəbdə təhsilin keyfiyyətinin yüksək olmasının başlıca səbəblərindən biri orada fəaliyyət göstərən pedaqoji kollektivin üzvləri arasında səmimi ünsiyyət, kollektivdə münasibətlərin yüksək səviyyədə olmasıdır. Pedaqoji kollektiv o zaman daha güclü, daha çevik və yüksək əhval-ruhiyyədə olur ki, burada sosial-psixoloji iqlim yüksək səviyyədə olsun. İstər müəllimlər, istər rəhbərlik edən şəxslər, istərsə də təhsilalanlar üçün belə kollektivlərdə fəaliyyət göstərmək asan və çox vaxt yaradıcı xarakterdə olur. Belə kollektivlərdə müəllimlər yüksək yaradıcılıq keyfiyyətlərinə malik olur və şagirdlər də dərsdə sıxılmır, gərginlik keçirmir və daha fəal olurlar.

Pedaqoji kollektivdə sosial-psixoloji iqlimin yüksək olması kollektiv üzvlərinin bir-biri ilə sıx münasibətdə olması, qarşılıqlı əməkdaşlıq, ünsiyyətin demokratik tərzinə malik olmaq, bir-birlərinin nailiyyətlərini dəyərləndirmək, bir-birlərinə yardım etmək, yüksək emosionallığın olması və s. kimi göstəricilərlə xarakterizə olunur. Belə kollektivlərdə əməkdaşlar arasında sosial-mənəvi və psixoloji münasibətlər, yoldaşlıq, dostluq, hörmət və eyni zamanda, tələbkarlıq, məsuliyyət hissi, kollektivin mənafeyini müdafiə etmək, şəxsi müvəffəqiyyəti ilə kollektivin müvəffəqiyyətini uzlaşdıra bilmək kimi keyfiyyətlər bir vəhdət təşkil edərək kollektivin müvəffəqiyyətini təmin edir.

Kollektivdə nikbin münasibətlərin olması onun müvəffəqiyyətini daha da artırır və kollektivin inkişafına müsbət təsir göstərir. Kollektiv, kollektivdə və kollektiv vasitəsilə tərbiyə prinsipinin yaradıcısı, görkəmli pedaqoq A.S. Makarenko kollektivin bu xüsusiyyətini yüksək qiymətləndirərək yazırdı: "Kollektivdə yoldaşın yoldaşa münasibəti məsələsi dostluq, məhəbbət, qonşuluq məsələsi deyil, məsul bir asılılıq məsələsidir. Hətta bərabər şəraitdə olan, bir sırada yanaşı gedən yoldaşlar, təxminən bərabər vəzifələr daşıyan kollektiv, sadəcə dostluqla deyil, işdə ümumi məsuliyyətə, kollektivin işində ümumi iştirakla bir-birlərinə bağlıdırlar" [2, s. 215].

Kollektivdə sosial-psixoloji iqlim kollektivin işinə təsir göstərən amillərdəndir. Bu həm müsbət, həm də mənfi təsir göstərə bilir. Bunlar yaranmış iqlimin yüksək və ya aşağı səviyyədə olmasından asılıdır.

Sosial-psixoloji iqlim yüksək olduqda işçilər arasında mehribançılıq, əməkdaşlıq, qarşılıqlı yardım, vahid bir məqsəd uğrunda çalışmaq kimi keyfiyyətlər özünü qabarıq şəkildə göstərir və bunlar kollektivi daha da inkişaf etdirir. Bu iqlim aşağı səviyyədə olduqda isə kollektivdə konflikt, süstlük, başlanılan işləri sona çatdırmamaq, fəaliyyətin zəifliyi kimi mənfi hallar çoxalır ki, bu da getdikcə kollektivin dağılmasına səbəb olur.

Pedaqoji kollektivdə sosial-psixoloji iqlimin məzmunu kollektiv üzvlərinin buradakı münasibətləri emosional dəyərləndirmələri ilə sıx bağlıdır. Sosial-psixoloji iqlim birgə fəaliyyət və ünsiyyətin yüksək emosional fonda olmasına şərait yaradır və kollektivin işinin məzmununa olduqca müsbət təsir göstərir. Buna görə də kollektivdə sosial-psixoloji iqlimi həm də qarşılıqlı emosional vəziyyət sistemi kimi də dəyərləndirmək olar. Belə ki, sosial-psixoloji iqlim həm də üzvlərin emosional vəziyyətinə də ciddi surətdə təsir göstərir.

Pedaqoji-psixoloji ədəbiyyatlarda kollektivdə sosial-psixoloji iqlimin yüksək olmasının bir sıra funksiyalar daşıdığı göstərilir. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

1. Birləşdirici funksiya. Bu, kollektivdə sosial-psixoloji ab-havanın yüksək olması, üzvlər arasında dostluğun möhkəmlənməsi, məqsəd birliyi və fəaliyyətin vahid təlim-tərbiyə məqsədinə yönəldilməsi ilə xarakterizə olunur.

2. Həvəsləndirici, stimullaşdırıcı funksiya. Bu, kollektivdə kollektivin emosional vəziyyətinin yüksək olması, üzvlər arasında işgüzarlığın, həyat enerjisinin artması, yeni-yeni imkanların yaranması ilə xarakterizə olunur.

3. Stabilləşdirici funksiya. Bu funksiya kollektiv münasibətlərinin möhkəmlənməsini, kollektivə yeni daxil olan müəllim kadrlarının kollektivdə yer tutmalarını və möhkəmlənməsini təmin edir.

4. Tənzimləyici funksiya. Bu funksiya kollektivdə münasibətlərin normal vəziyyətdə olmasını, kollektivdaxili etik davranış normalarının

kollektiv üzvlərinin bütün hərəkət və davranışlarında əks olunmasını təmin edir [4, s. 218].

Kollektivdə sosial-psixoloji iqlimin yüksək olması və müsbət iqlimin yaradılması olduqca vacib amillərdəndir. Bu, həm şəxsiyyətlərarası münasibətlərin formalaşmasına, həm kollektivdə mənəvi dəyərlərin qorunmasına, həm kollektivin işgüzarlığına, həm də üzvlər arasında hüquqi münasibətlərin bərqərar olmasına səbəb olur. Bu baxımdan kollektivdə sosial-psixoloji iqlimin yüksək olmasını aşağıdakı bir sıra amillərlə səciyyələndirmək olar:

– kollektiv üzvlərinin öz işlərindən məmnun olması;
– üzvlər arasında qarşılıqlı yardımın olması;
– kollektivdə nikbin əhval-ruhiyyənin olması;
– kollektiv üzvlərinin kollektivin idarə olunmasında iştirakı;
– kollektiv üzvlərinin birliyi və həmrəyliyi;
– kollektivdə şüurlu intizamın olması;
– əmək məhsuldarlığının yüksək olması;
– kollektivdaxili münasibətlərdə səmimilik;
– heç kəsin diqqətdən kənar qalmaması;
– kollektiv üzvlərinin özünüinkişafına şəraitin olması;
– kollektivdə özünüidarənin yüksək olması;
– kollektivdə ictimai rəyin formalaşması və s.

M. Prişvin yazırdı ki, *ən yüksək mənəviyyat özünü kollektivin işinə fəda etməkdir. Ən yüksək mənəviyyatsızlıq isə kollektivin öz xeyrinə şəxsiyyəti məhv etməsidir.* Bu onu göstərir ki, kollektivdə həm də elə bir psixoloji iqlim, ab-hava yaradılmalıdır ki, burada ayrı-ayrı fərdlərin işi kollektivin ümumi fəaliyyətində əriyib getməsin, yəni ayrı-ayrı şəxsiyyətlərin həm də fərdi inkişafı kollektivin marağında olsun, onların (əlbəttə, qabiliyyəti, bacarığı yüksək olanların) inkişafına şərait yaradılsın. Bu, kollektivdə yaranmış sosial-psixoloji münasibətlərdən də çox asılıdır.

Pedaqoji kollektivdə sosial-psixoloji iqlimin yüksək olması onun üzvlərinin fəaliyyətində özünü qabarıq şəkildə göstərir. Belə kollektivdə işləmək onların hər birinin ürəyincə olur və fəaliyyətlərinin nəticəsindən fərəh duyurlar. Kollektiv üzvləri işlərində həvəslə, maraqla çalışır, bir-birlərinə hörmətlə yanaşırlar. Eyni zamanda, gənc müəllimlərə qayğı, onlara kömək etmək yüksək səviyyədə olur ki, bu da onların həm öz işlərinə daha məsuliyyətlə yanaşmağa, öyrənməyə maraqlarını artırır, həm də onların sosial-pedaqoji adaptasiya işlərini də möhkəmləndirir. Lakin kollektivin aşağı səviyyədə olması, həddindən artıq avtoritarlıq və ya liberal rəhbərlik tərzlərinin olması kollektiv üzvləri arasında gərginliyə, narazılığa, fəaliyyətin aşağı səviyyədə olmasına gətirib çıxarır. Daha çox kollektiv iş yox, ayrı-ayrı üzvlərin fərdi fəaliyyəti özünü göstərir.

Pedaqoji kollektiv vahid bir mexanizmi xatırladır. Bu mexanizmin bütün hissələri işlək səviyyədə olduqda vahid məqsədin reallaşdırılması baş verir. Burada üzvlər arasında humanist münasibətlərin olması, mənəvi normaların gözlənilməsi, "Müəllimlərin etik davranış qaydaları"nın [3] gözlənilməsi, müəllimlərin bir-birinə diqqət göstərməsi, ayrı-seçkiliyin olmaması, kollektiv üzvlərinin ehtiyac, sevinc və kədərlərinin bölüşdürülməsi mühüm rol oynayır. Belə münasibətlər kollektiv daxilində ünsiyyət münasibətlərini genişləndirir, qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında birgə səy göstərməyə ruhlandırır. Bunlar kollektivi emosional cəhətdən daha zəngin edir, üzvlər arasında münasibətlərin daha sıx olmasına təsir göstərir, fəaliyyət və davranışın inkişafına səbəb olur.

A.S. Makarenko yazırdı: "Kollektiv üzvünün digər kollektiv üzvünə münasibəti... özbaşına olmayan-aralıqda boş-boş gəzməyən, əksinə, öz öhdəliyi və əlaqələrilə, öz borcu ilə, öz namusu ilə, öz hərəkətlərilə kollektivə bağlı olan şəxslərdən ibarət olmalıdır. Bir kollektiv üzvünün digər kollektiv üzvlərinə bu cür mütəşəkkil münasibəti tərbiyənin qoyuluşunda həlledici cəhət olmalıdır" [2, s. 215].

Kollektivdə sosial-psixoloji iqlimin yaradılmasında təhsil müəssisəsinin rəhbərinin və rəhbərliyin xüsusi rolu vardır. Rəhbərin demokratik rəhbərlik üslubu, müəllimlərlə düzgün münasibəti, kollektivi ardınca apara bilmək qabiliyyəti və idarəetmə səriştəsi burada xüsusi rol oynayır. Bunlarla yanaşı, yaxşı fəaliyyəti olan müəllimlərin işinin dəyərləndirilməsi, müəllim şəxsiyyətinə dəyər verilməsi, onların müvəffəqiyyətinin nəzərə çarpdırılması, onun kollektivin işinə verdiyi töhfənin obyektiv qiymətləndirilməsi müəllimləri daha da ruhlandırır, öz işlərinə məsuliyyəti daha da artırır və onlara öz

fəaliyyətini daha da genişləndirmək, artırmaq stimulları verir. Eyni zamanda, rəhbərin şəxsi nümunəsi, inandırma bacarığına malik olması və onun kollektivə rəhbərlik edə bilmə bacarıqları da burada müstəsna əhəmiyyətə malik olur. Pedaqoji kollektivdə münasibətlərin qarşılıqlı hörmət, əməkdaşlıq şəraitində, prinsipial mövqedə, hörmət və tələbkarlığın qarşılıqlı nizamında olması bu prosesi daha da əlverişli, səmərəli edir.

Pedaqoji kollektivin rəhbərinin kollektivdə sosial-psixoloji iqlimin yaradılmasına özünün şəxsiyyəti ilə nümunə olması və kollektivlə birgə işləyə bilməsi, onlarla əməkdaşlıq etməsi bu prosesə öz müsbət təsirini göstərir. Məlum olduğu kimi, nümunə elə bir tərbiyə metodudur ki, burada artıq sözə, nəsihətlərə, göstərişə ehtiyac qalmır. Ona görə də müəssisə rəhbərinin həmkarlarına özünün münasibəti, hərəkəti, fəaliyyəti, özünün özünə qarşı tələbkarlığı kollektivdə sosial-psixoloji iqlimin yaradılmasında olduqca mühüm təsir imkanına malik olur.

Pedaqoji kollektivdə sosial-psixoloji iqlimin təsir mexanizmi həm də mürəkkəb xarakterə malikdir. Bu, bir tərəfdən ayrı-ayrı müəllimlərə onun təsirinin müsbət olması, digər tərəfdən də ayrı-ayrı müəllimlərin kollektivə təsiri ilə xarakterizə olunur. Təcrübə göstərir ki, kollektivdə ayrı-ayrılıqda müəyyən şəxslərin yüksək intellektual xüsusiyyətləri, kollektivdə nümunəvi davranış tərzləri, yoldaşlara və işlərinə münasibəti həm də kollektivdə ab-havanın yüksək olmasına təsir göstərir. Nəzakətli davranışa malik olan, kollektivə və öz işinə məsuliyyətlə yanaşan, yoldaşlarına, onların yaxşı işinə dəyər verməyi bacaran, müəyyən münaqişəli situasiyalarda özünün ədalətli mövqeyi ilə seçilən müəllimlər kollektivdə müsbət sosial-psixoloji iqlimin yaradılmasına öz töhfələrini verirlər. Təəssüflər ki, bunun əksi də olur. Özünün elə bir fəaliyyəti olmayan, lakin mənfi xüsusiyyətləri, kollektivə uyuşmayan hərəkətləri, danışıq tərzi, kobud hərəkət, davranış və danışığı ilə kollektivdə müəyyən xoşagəlməz ab-hava, sosial-psixoloji iqlim yaradan (daha dəqiq desək, iqlimi korlayan) müəllimlər də yox deyildir. Bunların belə, onların hərəkətləri kollektivin işinə mane olur və sosial-pedaqoji fəaliyyətə mənfi təsir göstərir.

Kollektivdə, eyni zamanda, pedaqoji kollektivdə sosial-psixoloji iqlimin yaradılmasının bir çox asılılıqları vardır. Bunlar özünün səviyyəsi və xarakteri ilə sosial-psixoloji iqlimin yaranmasına bu və ya digər dərəcədə (müsbət və ya mənfi) təsir göstərir. Başqa sözlə desək, pedaqoji kollektivlərdə sosial-psixoloji iqlimin yüksək olmasına bir sıra subyektiv amillər ciddi surətdə təsir göstərir. Bunların əsasən aşağıdakılardan ibarət olduğunu göstərmək olar:

– kollektiv üzvlərinin mədəni səviyyəsi, intellektual və mənəvi keyfiyyətləri;

– kollektiv üzvlərinin şəxsi-emosional xüsusiyyətləri;

– kollektiv rəhbərliyinin şəxsi ünsiyyət səviyyəsi;

– pedaqoji müəssisənin maddi-texniki təminatı, resurslarla təchiz olunması səviyyəsi;

– müəllimlərin pedaqoji səriştəliliyi və peşəkarlıq səviyyəsi;

– kollektivdə yenilikçi meyllərin yüksək olması və s.

Təcrübə göstərir ki, bu keyfiyyətlərin yüksək olduğu kollektivlərdə sosial-psixoloji iqlim də həmişə yüksək səviyyədə olur və qarşıya çıxan hər hansı problem kollektiv üzvləri tərəfindən birlikdə aradan qaldırılır. Lakin. təəssüf ki, heç də hər zaman belə olmur. Sosial-psixoloji iqlimin mənfi istiqamətləri də olur.

Pedaqoji kollektivdə müsbət iqlimin yaranmasına mənfi təsir göstərən amillərdən biri kollektivdə münaqişələrin yaranması, münaqişəli situasiyaların tez-tez meydana çıxmasıdır. Belə münaqişələr kollektivi geri aparır və onun fəaliyyətinə müəyyən maneələr yaradır. Buna görə də belə münaqişələrin olmasına yol verilməməsi üçün imkan daxilində məktəb rəhbərləri kollektivdə müntəzəm olaraq müəyyən işlər aparmalıdırlar. ”Pedaqoji kollektivlərdə yaranan münaqişələr təbiət etibarı ilə şəxsiyyətlərarası xarakter daşıyır. İnsanların qarşılıqlı əlaqəsini əks etdirir və fəaliyyətin bir araya sığmayan, ziddiyyətli məqsəd və ya problemin həllinin üsul və vasitələrinin müxtəlif yollarla həyata keçiriləcəyini düşündükləri vəziyyətdə yaranır” [4, s. 221].

Pedaqoji fəaliyyət prosesində müəllimlər arasında qarşılıqlı münasibətlərin pozulması şəxsiyyətlərarası münaqişələrin yaranmasına səbəb olur. Bunlar rəhbərliklə müəllimlər və ya müəllimlərin özləri arasında ola bilir. Hər iki hal pedaqoji kollektivdə ünsiyyət münasibətlərinin, sosial-psixoloji iqlimin pozulmasına gətirib çıxarır ki, bunların da əks nəticəsi tədris prosesinin keyfiyyətinin aşağı düşməsində özünü gös-

tərir. Peşə etikasına uyğun olmayan müəyyən normaların pozulması bu münaqişələrin daha da dərinləşməsinə gətirib çıxarır ki, bunun da cücərməsinə və boy atmasına yol verilməməlidir.

Pedaqoji ədəbiyyatlarda pedaqoji münaqişələrin müxtəlif səbəblərdən yarandığı və müxtəlif növlərinin olduğu göstərilir. L.V. Simonova onun – peşə münaqişələri, gözləmə münaqişələri və şəxsiyyətlərarası münaqişələr olmaqla üç qrupa ayırır. *Peşə münaqişələri* müəllim səriştəsiz olduqda, üzərinə düşən vəzifələri düzgün yerinə yetirə bilmədikdə, əsasən, rəhbərliklə yaranır. *Gözləmə münaqişələri* müəllimin peşə etikası qaydalarını gözləmədikdə həmkarları və şagirdlərlə yaranan münaqişələrdir. *Şəxsiyyət münaqişələrinin* əsasında isə müəllimin hərəkət və davranışında səbirsizliyin, lovğalığın, hövsələsizliyin, incikliyin olması durur [4, s.221-222].

Pedaqoji kollektivdə münaqişələrin olması pedaqoji prosesə olduqca mənfi təsir göstərir. Ona görə də onun baş verməsinə yol verilməməli və qarşısı müxtəlif pedaqoji vasitələrdən istifadə edilməklə alınmalıdır. Bu, məktəb rəhbərliyinin pedaqoji səriştəsindən və pedaqoji məharətindən çox asılıdır. Bunun üçün aşağıdakı bir sıra metod və vasitələrdən istifadə edilməsini məqbul hesab edirik:

1. Yaranmış münaqişələrin başlıca səbəblərinin aşkar edilməsi və onu doğuran vəziyyətin aydınlaşdırılması.
2. Məktəb rəhbərlərinin işə obyektiv yanaşması və situasiyanı düzgün qiymətləndirməsi.
